**SEVDA SÜLEYMANOVA**

# TÜRK XALQLARI TARİXİ

**(ən qədim zamanlardan bu günümüzədək)**

**Azərbaycan Respublikası Təhsil Nazirinin 840 saylı 30.06.2009-cu il tarixli əmri ilə çapa tövsiyə olunur.**

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

**BAKI-2011**

63.3(5)я73
S 93

*Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20 illiyinə həsr olunur.*

**Elmi redaktorlar:** **Seyfəddin Mir Tağı oğlu Qəndilov**
tarix elmləri doktoru, professor, əməkdar elm xadimi

**Əsməd İmaməmməd qızı Muxtarova**
tarix elmləri doktoru,
BDU-nun professoru

**Rəyçilər:** **Qabil Əli oğlu Əliyev**
tarix elmləri doktoru,
BDU-nun professoru

**Sənubər Abdulla qızı İsmayılova**
tarix elmləri namizədi,
BDU-nun dosenti

**Şəfi Nəcməddin oğlu Yagizarov**
tarix elmləri namizədi,
DİA-nın dosenti

**S.Y.Süleymanova, tarix elmləri doktoru, BDU-nun professoru. Türk xalqları tarixi (ən qədim zamanlardan bu günümüzədək). Ali məktəb tələbələri üçün dərs vəsaiti. Rus dilindən tərcümə. Bakı, «Elm və təhsil», 2011, 352 səh.**

Bu dərs vəsaiti Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında istifadə olunan (qısa mühazirə kursu əsasında) proqrama uyğun olaraq tərtib olunmuşdur.

$\frac{4702000000}{N098-2011}$ qrifli nəşr

© **S.Süleymanova, 2011,**
© **«Elm və təhsil», 2011.**

# MÜNDƏRİCAT

Ön söz ....................6
Müəllifdən ....................8

**Türk dünyası tarixinə giriş ....................10**
§ 1. Türk xalqları tarixinin öyrənilməsinin predmeti və metodu ....................10
§ 2. Əsas mənbələr ....................11
§ 3. Tarixşünaslıq ....................15

**I Fəsil. Türk xalqları qədim dövrdə. Ən qədim türk dövlətləri ....................18**
§ 1. «Turan» - Türküstan tarixi-coğrafi anlayışı ....................18
§ 2. Türk xalqları ibtidai-icma quruluşu dövründə ....................19
§ 3. M.ö. I minillikdə türk xalqlarının etnosiyasi vəziyyəti ....................25
§ 4. Türklərin ən qədim dövlətləri ....................28

**II Fəsil. Erkən orta əsrlərdə türk dövlətləri ....................31**
§ 1. Qərbi Hun imperatorluğu ....................31
§ 2. Eftal (Ağ Hun) imperatorluğu ....................34
§ 3. Böyük Türk xaqanlığı (Göytürk və ya türküt) ....................36
§ 4. Türk xaqanlıqları ....................40
§ 5. Türk xalqları Ərəb Xilafətinin hakimiyyəti altında ...50

**III Fəsil. Türk dövlətləri IX-XIII əsrlərdə ....................56**
§ 1. Mərkəzi Asiya dövlətləri IX-XIII əsrlərdə ....................56
§ 2. Səlcuq dövləti ....................64

**IV Fəsil. Türk xalqları monqol hakimiyyəti dövründə ....................70**
§ 1. Monqolların Mərkəzi Asiyaya yürüşləri ....................70
§ 2. Qızıl Orda xanlığı ....................73
§ 3. Cağatay və Hülakü dövlətləri ....................76
§ 4. Türk xalqları Teymurilərin hakimiyyəti altında ....................79

**V Fəsil. Türk dünyası XV-XVIII əsrlərdə........................ 81**
§ 1. Osmanlı imperatorluğu ........................................................ 81
§ 2. Krım xanlığı ........................................................................ 108
§ 3. Kazan və Həştərxan xanlıqları, Noqay Ordası və Başqırdıstan ........................................................................ 115
§ 4. Buxara, Xivə və Qazax xanlıqları.......................................... 122
§ 5. Sibir xanlığı ........................................................................ 132
§ 6. Bəbirlər dövləti ..................................................................... 134

**VI Fəsil. Rusiyanın türk xalqları və Türkiyə XIX əsrdə..... 140**
§ 1. Osmanlı imperatorluğunun sosial-iqtisadi və beynəlxalq vəziyyəti ........................................................................ 140
§ 2. Mərkəzi Asiyanın sosial-iqtisadi və siyasi vəziyyəti.... 153
§ 3. Krım, Volqaboyu və Sibir türkləri.................................... 158

**VII Fəsil. Türk dünyası Birinci dünya müharibəsi ərəfəsi və dövründə ........................................................................ 165**
§ 1. Gənctürklər inqilabı və Balkan müharibələri ............ 165
§ 2. Osmanlı imperatorluğu Birinci dünya müharibəsi dövründə ........................................................................ 169
§ 3. Rusiya imperiyasının türk xalqları XX əsrin əvvəllərində ........................................................................ 171
§ 4. XIX-XX əsrlərin qovuşuğunda türkçülük ideologiyasının təşəkkülü ...................................................... 180

**VIII Fəsil. Türkiyə Cümhuriyyətinin yaranması və sonrakı inkişafı........................................................ 185**
§ 1. Mustafa Kamal paşanın başçılığı ilə milli-azadlıq hərəkatı və Türkiyə Cümhuriyyətinin elan olunması.. 185
§ 2. Türkiyə İkinci dünya müharibəsi illərində və sonra ... 189

**IX Fəsil. Rusiya imperiyası dağıldıqdan sonra yaranan və SSRİ tərkibində olan türk dövlətləri .............. 197**
§ 1. Rusiyanın türk xalqları Fevral və Oktyabr inqilablarından sonra ........................................................ 197
§ 2. Türk xalqları SSRİ-nin tərkibində ............................ 208



**X Fəsil. Türk dünyası XX əsrin sonu – XXI əsrin əvvəllərində ........................................................................226**
§ 1. Türkiyə qloballaşma dövründə .......................................226
§ 2. SSRİ-nin dağılması və müstəqil türk dövlətlərinin yaranması........................................................................231

**XI Fəsil. Türk dünyasının mədəniyyəti................................250**
§ 1. Qədim və orta əsr türk mədəniyyəti ...............................250
§ 2. XIX-XX əsrlərdə türk xalqlarının mədəniyyəti ...........279

Nəticə ........................................................................................337
Qeydlər ......................................................................................339
Biblioqrafiya ..............................................................................342

# ÖN SÖZ

Son illərdə türk xalqlarının tarixinə dair bir sıra əsər yazılmışdır ki, onların çoxu günün tələbinə uyğun tərtib edilərək həddən artıq siyasiləşdirilmişdir.

Oxucuya təqdim olunan bu dərs vəsaiti Azərbaycan Respublikasında türk xalqları tarixinin sistemləşdirilmiş şərhinə ilk cəhd adlandırıla bilər. Müəllif müvafiq xronoloji çərçivə daxilində bütün türk xalqlarına xas olan ümumi proseslərin və problemlərin tədqiqinə diqqət yetirir və artıq bu əsasla ayrı-ayrı ölkə və regionların konkret-tarixi inkişafını hərtərəfli təhlil edir. Dərs vəsaitinin problem – nəzəri prinsip əsasında qurularaq türk xalqları tarixinin qədim zamanlardan ən yeni dövrünə qədər əhatə olunması düzgün hesab olunur. Belə ki, XX əsrin ikinci yarısı tarixi inkişafın qloballaşması ilə səciyyələnir. Bu dövrə xas proseslər əsl mənada ümumdünya xarakteri daşıyır, bütün dünya dövlətləri və xalqları arasında qarşılıqlı əlaqələr və asılılıq artır.

Prof.S.Süleymanovanın əsəri faktiki materialın zənginliyi ilə diqqəti cəlb edir. Sənədli mənbələrin təhlili, problemin tarixşünaslığını bilməsi, materialın siyasiləşdirilmiş deyil, ciddi elmi şərhi ona türk xalqlarının tarixinə dair keçmişdəki konyuktur və ehkamçı baxışlardan xilas olmağa imkan verir.

Dünyada baş verən kardinal dəyişikliklərin müəllif tərəfindən nəzərə alınması əsərdə tam əksini tapmış və bu baxımdan qarşısında qoyduğu mürəkkəb vəzifələrin öhdəsindən layiqincə gəlmişdir.

Əslində müasir dövrdə türk xalqları tarixinin bütün gedişatının əsaslı surətdə dərk olunması, uzun müddət sovet tarix elmində hakim mövqe tutan ehkamçı görüşlərin aradan qaldırılması prosesi gedir.

Bütün 90-cı illər ərzində elmi ədəbiyyatda, publisistikada, kütləvi informasiya vasitələrində türk xalqları tarixinin bir çox aktual problemləri üzrə canlı diskussiyalar aparılmışdır. Lakin qoyulmuş suallara onlar hər zaman əsaslandırılmış cavablar



vermirdilər. Bəzən ənənəvi konsepsiyalara yenidən baxmağa cəhd edən müəlliflər öz mülahizələrində bəsit bir prinsipdən, müsbəti mənfi ilə və ya əksinə əvəz etmək yolundan istifadə edirdilər. Bu isə əvvəlkinə zidd, lakin onun kimi birtərəfli və həqiqətdən uzaq, ideologiyalaşdırılmış sxemlərin yaranmasına səbəb olurdu.

Son onilliklərdə türk xalqları tarixində tarixi proseslərin ənənəvi konsepsiyalarının yaradıcı surətdə daha fəal dərk olunmasının davam etdirilməsi müasir Azərbaycanın hər bir vicdanlı elmi işçisi və ali məktəb müəllimindən köhnə və yeni ehkamçı qeyri-tarixi sxemlərin yaranmasına qarşı çıxmağı tələb edir.

Prof S.Süleymanova bu dərs vəsaitinin yazılmasında məhz həmin prinsipləri rəhbər tutubdur. Aydındır ki, bu kitab tamamlanmış və tarixi prosesləri geniş surətdə işıqlandırmış iş iddiasında deyil. Müəllif qarşısına təvazökarcasına bir vəzifə qoymuşdur: türk xalqlarının tarixində baş vermiş siyasi proseslərin xarakteri və ayrı-ayrı ölkələrin tarixində təzahürünün xüsusiyyətləri haqqında daha obyektiv təsəvvür yaratmaq.

Prof. S.Süleymanovanın kitabının nəşri türk xalqları tarixi ilə maraqlananlar üçün obyektiv tədqiqatın işıq üzü görməsi deməkdir.

Kitabın qiymətli məlumat mənbəyi olacağına və türk xalqları tarixi fənninin öyrənilməsində tələbələrə kömək edəcəyinə ümidvarıq.

***Seyfəddin Mir Tağı oğlu Qəndilov***
***tarix elmləri doktoru, professor, əməkdar elm xadimi***

## MÜƏLLİFDƏN

XXI əsr – qloballaşma və dünyanın yeni düzəni dövrüdür. Dövlət sərhədləri ilə bölünmüş və müxtəlif millətlərlə məskunlaşmış müasir dünya bizdə geosiyasi regionlar sistemi təsəvvürü yaradır. Ancaq hər bir xalqın və dövlətin öz tarixi olmasına baxmayaraq, onların arasında qarşılıqlı əlaqələrin nəticəsi olan ümumi cəhətlər həmişə olmuş və olmaqdadır.

Türk dünyası tarixinə yeni elmi yanaşma hər dövrün tarixə öz baxışı olması, hər nəslin keçmişi öz bildiyi kimi təsəvvür etməsi haqqında sözlərin doğruluğunu sübut edir. Bunun obyektiv və subyektiv səbəbləri var. Onların arasında müxtəlif fərdlərin fikir ayrılığı da yer alır. Bəzən bu, tarixçinin elmi vicdanından, bəzən isə stereotiplərdən asılı olur.

Türk dünyası tarixinə müraciət edərkən məşhur rus tarixçisi və coğrafiyaçısı L.N.Qumilyovun aşağıdakı sözləri ilə razılaşmamaq olmaz: «Avrasiya, Rusiya və Turanın çöl xalqları cəngavər Avropa, xəyalpərəst Hindistan və savadlı Çindən heç də geri qalmayan mədəniyyətə, ənənəvi cəsarətə və sədaqətə malik idi. Türk köçərilərinin «vəhşiliyi» və şərqi slavyanların «geriliyi» haqqında meşşanların XX əsrə qədər davam edən böhtanı səlib yürüşləri dövrü diplomatlarının hiyləgər uydurmasıdır». İqtibas gətirdiyimiz «Xəzər ətrafı minilliklər» kitabında o yazır ki, Qərbi Avropa ilə Çin arasındakı möhtəşəm ərazi, orijinal təbiəti, müxtəlif əhalisi və təkrarolunmaz mədəniyyəti olan ölkə – Avrasiya – uzun müddət nəzərə çarpmadığından onun mövcud olmadığı hesab edilirdi. Ancaq həm çinlilər, həm də avropalılar bu fikrin səhv olduğuna inandılar.

Tarix, türk xalqlarının yaratdıqları, Avropa dövlətlərinin yaranmasında çox əhəmiyyətli rol oynayan bir çox imperatorluqları və dövlətləri tanıyır. Türklər islam dinini qəbul etməklə mənəvi gücə malik oldular. Onlar, nəinki öz etnik mənsubiyyətini qoruyub saxlaya və möhkəmlədə bildilər, eləcə də Asiya, Avropa və Şimali Afrikanın bir hissəsini özündə birləşdirən nəhəng imperatorluq yaratdılar.



Baxmayaraq ki, iki dünya müharibəsi nəticəsində bütün imperatorluqlar dağıldı, onların xarabalıqları üzərində yeni müstəqil türk dövlətləri yarandı. SSRİ dağıldıqdan sonra isə onların sayı artdı. Hal-hazırda dünya birliyi və beynəlxalq təşkilatlarda dünya siyasəti üçün geosiyasi və geostrateji əhəmiyyət kəsb edən altı müstəqil türk dövləti fəal iştirak edir.

Bu dərs vəsaitində Azərbaycan dövlətinin tarixi öz əksini tapmamışdır. Belə ki, Azərbaycan tarixi respublikamızın bütün ali məktəblərində müstəqil fənn kimi keçilir. Ona görə də digər türk xalqlarının tarixinin az öyrənilən cəhətlərinə diqqət yetirməyi məqsədəuyğun hesab etdik.

XX əsrin 90-cı illərindən başlayaraq Azərbaycan Respublikasının ali məktəblərində türk xalqları tarixinin öyrənilməsi Azərbaycan dilində bir sıra dərsliklərin işıq üzü görməsinə səbəb oldu. Təəssüf ki, indiyə qədər ali məktəblərin rus bölmələrində təhsil alan tələbələrin bu fənn üzrə dərsliyi yox idi. Bu dərs vəsaiti həmin boşluğu doldurmaq məqsədi güdürdü. Geniş oxucu kütləsinin və DİA-nın Azərbaycan bölməsində təhsil alan tələbələrinin xahişini nəzərə alaraq həmin dərs vəsaitini ana dilində də nəşr etmək qərarına gəldik.

# TÜRK DÜNYASI TARİXİNƏ GİRİŞ

## § 1. Türk xalqları tarixinin predmeti və öyrənilməsi metodu

Bu kursun predmeti türk xalqlarının ən qədim zamanlardan indiyə qədər olan sosial-iqtisadi, siyasi, etnik və mənəvi tarixidir.

Öz tarixi kökünü, onun dünya mədəniyyətində yeri və rolunu bilmək yeni nəslin vətənpərvərlik hissinin inkişafına çox böyük təsir göstərir. Son illərə qədər türk xalqları tarixi Hind-Avropa dil ailəsinə daxil olan xalqların sırasında, çox səthi öyrənilirdi.

XIX əsrin 90-cı illərinə qədər türk xalqları tarixinin sistemli tədqiqi aparılmamışdır. Qədim türklərin vətəni indiyədək Mərkəzi Asiya hesab olunmuş, türk xalqlarının dövlətçilik tarixi isə m.ö. III əsrdən (Hun dövləti) hesablanmışdır.

Son tədqiqatlar göstərir ki, prototürklərin vətəni Ön Asiyadır. Onlar m.ö. VII-VI minillərdən başlayaraq Altay və Mərkəzi Asiyaya yayılmışlar.

Axırıncı onillərdə irəli sürülən yeni hipotezaya görə qədim şumerlər (m.ö.IV minil.Mesopotamiyada yaşamışlar), Cənubi Azərbaycanda m.ö. III-II minillərdə yaşamış kuti, lullubi və digər tayfalar türk mənşəli olmuşlar. Bəzi tarixçilər, m.ö. VIII-VII əsrlərdə Qara dənizin şimal sahillərində yaşamış kimmerlər, saklar, skiflər, massagetlər, sarmatlar və digər tayfaların fars mənşəli olduqlarını hesab edirlər. Ancaq tarix və filoloji (linqvistik) ədəbiyyatda bu etnosların türkdilli olması barədə nəzəriyyə geniş yayılmışdır. Bir qrup tarixçi bu etnosları türk, tunqus-mancur və monqolların daxil olduqları Altay dil ailəsinə aid edir.

Sovet türkologiyası türk xalqları tarixinin aşağıdakı dövrləşməsini verir:

1. Altay dövrü (ən qədim zamanlardan m.ö. IV əsrə qədər);
2. Hun dövrü (m.ö. IV əsrdən m. IV-V əsrlərinə qədər);
3. Türklərin qədim dövrü (V-X əsrlər);



4. Türk xalqlarının təşəkkülü dövrü (X-XVI əsrlər);
5. Müasir türk xalqlarının formalaşması (XVI-XIX əsrlər);
6. Türk millətlərinin formalaşması (XX əsr).

Türk xalqları tarixinin öyrənilməsinin başlıca metodları – tarixilik və obyektivlikdir.

## § 2. Əsas mənbələr

Mənbələr arxeoloji və yazılı olmaqla iki yerə ayrılır.

Türk xalqlarının yaşadığı ərazidə arxeoloji qazıntılar XIX əsrin axırlarında başlanıb. Şərqi Türküstanda arxeoloji qazıntıları İsveç alimi Sven Ged, ingilis məmuru A.Steyn, F.Berqman, Qərbi Türküstanda isə R.Pompellinin başçılığı ilə arxeoloji ekspedisiya, S.P.Tolstovun Xarəzm arxeoloji ekspedisiyası başlamışlar. M.Y.Masson, V.M.Masson və A.P.Oklagnikovun başçılığı ilə Türküstanın cənubunda Sibir, Şərqi Türküstan və Monqolustanda aparılan arxeoloji qazıntılar nəticəsində çoxlu miqdarda qiymətli material əldə olunmuşdur. Daş dövrünə aid insan dayanacaqları və antropoloji materiallar, Ceytun və Anau erkən əkinçilik məskənləri, şəhər tipli yaşayış yerləri olan Altun-təpə və Namazgah-təpə, memarlıq abidələri və s. tapılıb.

Türküstanın tarixinə aid olan arxeoloji abidələr arasında, bütün Avrasiya ərazisində geniş yayılmaş skif kurqanları (Arjan, Pazırık, Kül-oba, Tolstaya Moqila) mühüm yer tutur.

Uzaq Şərqdən Qafqaza və Şərqi Avropaya qədər aparılmış arxeoloji qazıntılar nəticəsində türk xalqlarının müasir mədəniyyətinə və adətlərinə uyğun gələn çoxlu sayda əşya, o cümlədən qadın və heyvan fiqurlarına üstünlük verən skif təsviri incəsənət üslubuna aid şeylər tapılıb.

Qədim türklərin çoxlu sayda maddi mədəniyyət nümunələri sarmat və hun qəbirlərində də aşkar olunub.

Türklərin tarixinə dair məlumat verən yazılı mənbələrdən qədim Çin, qədim türk, antik, Bizans, ərəb, fars və rus mənbələrini misal göstərmək olar.

**Qədim Çin mənbələri** m.ö. I minillikdən erkən orta əsrlərə qədər olan müddətdə türkdilli xalqlar barədə məlumatları özündə birləşdirir. Rus çinşünası N.Y.Biçurin bu mənbələri rus dilinə tərcümə edib.

Bey və Vey, Suy və Tan, Xan sülalələrinin salnamələri, «Tan-Şu» salnaməsi, 630-cu ildə Mərkəzi Asiyaya səyahət etmiş «Çin səyyahı Syuan-Syuanın yol qeydləri», «Tan sülaləsinin qədim xronikası», «Tan sülaləsinin yeni xronikası» qədim Çin mənbələrinə aiddir.

**Qədim türk mənbələri** Monqolustanda, Yenisey çayı sahillərində, Talas vadisində aşkar olunan mətnlərdən ibarətdir. Onlar qəbir daşları və qayalara yazılıb. Akademik V.V.Bartold yazır ki, Orxon-Yenisey runi yazıları VI əsrə aiddir və Türk imperatorluğunun (Çindən Bizansa qədər əraziyə malik) baniləri ilə eyni dövrə təsadüf edir. Türk xaqanlığının baş komandanı Kül-Teginin şərəfinə 732-ci ildə, Bilgə xaqana (734-735), 716-cı ildə Tonyukuka ucaldılmış abidələrdəki belə yazılar Altay və Monqolustanda tapılıb.

Yenisey runi yazıları ilk dəfə, Böyük Pyotrun yanında xidmət etmiş isveç D.Messerşmid və F.İ.Tabbers tərəfindən aşkar olunub. İsveç alimi V.Tomson tanrı və türk sözlərinin əsasında bu mətni oxuya bilib. Bu işdə rus alimləri V.V.Radlov və S.Y.Malov mühüm rol oynayıblar.

Yusif Balasaqunlunun «Kutadqu-bilik» («Xoşbəxtlik üçün elm», 1069) və Mahmud Qasqarlının «Divan-i-lüğət-ət-türk» (türk dilinin lüğəti, 1072-1074) əsərləri türk mənbələri arasında mühüm yer tutur. Hər iki əsər Qaraxanilər sülaləsinə həsr olunub. M.Qaşqarlı bütün türk xalqlarını iki qrupa bölür: şimal və cənub. Şimal qrupuna o, peçeneq, oğuz, başqırd, basmil, tatar və qırğızları, cənub qrupuna isə çigil, çaruk, uyğur, tanqut və digərlərini daxil edir.

XVII əsr türkmən müəllifi Əbülqazi xan Xivəli «Türkmənlərin Şəcərəsi» adlı əsərində Mərkəzi Asiya xalqlarının geneoloji cədvəlini tərtib edib. Türkdilli mənbələrin arasında Məhəmməd Heydərin 1546-cı ildə Kəşmirdə yazdığı «Tarix-i Rəşidi» və Böyük moğol hakimi Bəbirin (1483-1530) «Bəbirnamə» əsərləridir. Bu mənbələrdə Mərkəzi Asiyanın türk xalqlarının siyasi tarixi öz əksini tapıb.



1768-1769-cu illərdə Məhəmməd Sadiq Qaşqarlının uyğur dilində yazdığı «Təzkireyi-Xocaxan» əsəri də xüsusi maraq doğurur. XVII əsrdə Şərqi Türküstanda baş verən siyasi hadisələrə işıq salan uyğur dilində yazılmış mənbələrdən biri də «Tarix-i Qaşqar»dır.

**Antik mənbələr** də Şimali Qafqaz və Cənub-Şərqi Avropada yaşamış hun, skif və digər tayfalar haqqında qiymətli məlumat verir. Qədim yunan və latın mənbələri V.V.Latışov tərəfindən rus dilinə tərcümə edilib.

Herodotun «Tarix», Strabonun «Coğrafiya» kitablarında, Böyük Plini, Plutarx, Klavdi Ptolomey, Ammian Marsellinin əsərlərində türk xalqları barədə qiymətli məlumat vardır.

**Bizans mənbələri** də Şərqi Avropanın türk tayfaları haqqında bəzi məlumatları saxlayır.

Prisk Paniyski (V əsr), Zosim (V əsr), Menandr, İordan (VI əsr) öz əsərlərində avar, bulqar, savar (suvar), sarıqur, itiqur, hun və digər tayfaların adını çəkirlər. Prisk Paniyskinin «Bizans tarixi və Attilanın fəaliyyəti» səkkiz kitabdan ibarət olub Atillanın yürüşlərini təsvir edir.

Prokopi Kesariyskinin «Romalıların farslarla müharibələri tarixi» və «Qotlarla müharibə» adlı kitablarında Mərkəzi Asiya türkləri barədə məlumat vardır.

«Bizans tarixçiləri» toplusunda Bizansla Qərbi-Türk xaqanlığının münasibətlərinə toxunan Menandrın «Tarix» kitabı da xatırlanır. Konstantin Baqryanorodnıy «İmperatorluğun idarəsi haqqında» əsərində peçeneqlər, oğuzlar və kəngərlərdən danışır.

**Ərəb mənbələri** IX-XIII əsrlər ərəb coğrafiyaçı və tarixçilərindən ət-Təbəri, İbn Xordadbeh və digərlərinin 674-748-ci illərdə Mərkəzi Asiyanın ərəblər tərəfindən işğalına həsr olunmuş əsərlərindən ibarətdir.

Mərkəzi Asiya türkləri barədə ilk məlumat verən ərəb müəllifi Təmim ibn Bəhrdir. İbn Xordadbeh «Yollar və məmləkətlər haqqında» kitabında Yeddi-Su və Tyan-Şanda yaşayan türk xalqlarını sadalayır. «Peyğəmbərlər və padşahların tarixi» çoxcildliyinin müəllifi ət-Təbəri ərəblərin Çin ordusu ilə müharibəsini təsvir edir. «İbn Fədlanın Volqaya səyahəti» kitabı da böyük maraq doğurur. Əs-Samani Qaraxanilər sülaləsinə həsr etdiyi «Sülalələr tarixi» kitabını yazıb.

İbn əl-Əsirin «Tarixdə mükəmməllik» adlı çoxcildlik əsəri 806-cı ildə Mərkəzi Asiyada ərəblərə qarşı baş vermiş üsyanlar barədə faktlarla zəngindir. Erkən orta əsrlərdə türklər barədə məlumat verən ərəb mənbələrinin tədqiqatçısı F.M.Əsədov yazır ki, «Xilafətin siyasi həyatında türklərin oynadığı mühüm rol ərəb yazıçıları və tarixçilərində bu xalqa yüksək maraq doğurub». Ərəb ədəbiyyatında türklərə həsr olunmuş ilk məşhur əsər IX əsrin birinci yarısının tanınmış yazarı Əbu Osman Əl-Cahizin «Türklərin və Xəlifə qoşununun qalan hissəsinin ləyaqəti haqqında Fəth b.Xaqana məlumat» kitabıdır. Türklərə həsr olunmuş bu günümüzə qədər gəlib çatan daha iki xüsusi əsər: İbn əl-Fakih əl-Həmədaninin «Əxbar əl-Buldan» (Ölkələr barədə xəbərlər) kitabının Məşhəd nüsxəsinin «Türklər haqqında» fəsli və XI əsr ərəb müəllifi Əbu-l-Əla İbn Xassulun «Türklərin digər döyüşçülərdən üstünlüyü və Ali sultan həzrətlərinin ləyaqəti haqqında kitab»ıdır.

**Farsdilli mənbələr,** əsasən X-XIII əsrlərdə Mərkəzi Asiya türklərini təsvir edir. Məhəmməd Narşahinin «Buxaranın tarixi» əsəri əvvəlcə ərəb dilində yazılıb, sonralar isə fars dilinə tərcümə edilmişdir. XII-XV əsrlərdə Mərkəzi Asiyada cərəyan edən siyasi hadisələr Bəkranın «Cahannamə», Cuzcaninin «Tabaqat-i Nasiri», Cüveyninin «Tarix-i Cahanquşay» və s. əsərlərdə öz əksini tapıb. Fəzlullah Rəşidəddinin «Cəmi-ət-Təvarix» («Səlnamələr toplusu») çoxcildlik əsərində monqol işğalları dövrü, Mərkəzi Asiya və Qafqaz xalqlarının etnik tarixindən danışılır.



Nizaməddin Şaminin (XIV əsr) və Şərafəddin Yəzdinin (XV əsr) «Zəfərnamə» əsərləri Teymurilərin Mərkəzi Asiyada hakimiyyəti dövrünə həsr edilib. Qiyasəddin Əlinin «Teymurun Hindistana yürüşünün gündəliyi» də qiymətli mənbədir.

**Rus mənbələri** XVI əsrdən başlayaraq türk xalqları barədə məlumat verir. Onlar, əsasən Sibir və Uzaq Şərqin türk xalqlarına aiddir. Bu materiallar XX əsrdə toplanıb çap olunmuşdur: «Özbəkistan, Tacikistan və Türkmənistan SSR-in tarixi üzrə materiallar (XVI-XVII əsrlərdə Moskva dövlətinin Orta Asiya xalqları ilə ticarət münasibətləri)» (Leninqrad, 1932), «XVI-XVIII əsrlərdə qazax-rus münasibətləri, (Sənəd və materiallar toplusu, Alma-Ata, 1961), «Kazan və digər quberniyaların tarixi və hüquqi aktları və qədim çar fərmanları» (I cild, Kazan, 1859), «Tatarıstan tarixi material və sənədlərdə» (Moskva, 1937), «Kazan qûberniyasının tarixi üzrə materiallar toplusu» (Kazan, 1896), «Başqırdıstan MSSR-in tarixi üzrə materiallar» (Moskva-Leninqrad, 1936), «Rus səlnamələrinin tam külliyyatı» (Sankt-Peterburq, 1904).

### § 3. Tarixşünaslıq

Mövzunun tarixşünaslığını aşağıdakı dövrlərə bölmək olar: ən qədim zamanlardan III-IV əsrlərə qədər; orta əsrlərin III-IV əsrlərindən XVIII əsrə qədər; yeni dövr – XIX-XX əsrin başlanğıcı; müasir dövr – 1917-ci ildən indiyə qədər.

Qədim dövrün tarixşünaslığında 2 konsepsiya mövcuddur: birinciyə görə, Qərbi Avropa və rus tədqiqatçıları bu dövrün m.ö. III əsrdən başlandığını iddia edirlər. Belə ki, onlar şumer, skif, sak və digər tayfaları qədim türklər hesab etmirlər. Avropa tədqiqatçıları qədim etnosları irandilli hesab etdiklərindən türklərin tarixini m.ö. III əsrdən (hunlardan) öyrənməyə başlamışlar. İkinci konsepsiyanın tərəfdarları – türk tədqiqatçıları Altay mənşəli tayfaların tarixinin şumerlərdən başlandığı fikrini qəbul edirlər.

**Avropa tarixşünaslığı.** Alman tarixçisi F.Althaym «Attila və hunlar» (1951), Sorbon universitetinin professoru Con Dekinges «Hun, türk və monqolların tarixi» kitablarında, eləcə də ingilis tarixçisi K.D.Qordon Atillanın hakimiyyəti dövrünü tədqiq ediblər. Fransız tarixçisi R.Xirsman isə «Xionlar və eftalitlər haqqında» əsərində bu tayfaların türkdilli olmasına şübhə ilə yanaşır.

1973-cü ildə Los-Anjelesdə O.S.Mençen-Helfenin «Hunlar dünyası» kitabı nəşr olundu. Doqquz-oğuz tayfası haqqında tədqiqatlar isə C.R.Hamiltona məxsusdur. «Doqquz-oğuz və ya 10 uyğur» adlı məqaləsində o, uyğurların mənşəyini araşdırır. Alman şərqşünası İ.Marqvart iranşünas olmasına baxmayaraq, onun türk runi yazıları haqqında əsərləri türk xalqlarının tarixinin öyrənilməsində mühüm əhəmiyyətə malikdir.

**Rus tarixşünaslığı.** Rusiyada türk xalqları tarixinin tədqiqinə XIX əsrin ikinci yarısında başlanıb. Ancaq bu sahədə əsas rolu sovet tarixçiləri oynayıblar. M.İ.Artamonov ardıcıl olaraq xəzərlərin tarixini tədqiq edib. O, iki böyük monoqrafiyanın: «Qədim xəzərlərin tarixi üzrə oçerklər» (1937), «Xəzərlərin tarixi» (1962) – müəllifidir.

Şərqi və Qərbi Hun imperatorluqlarının tarixini A.N.Bernştam və L.N.Qumilyov tədqiq ediblər. Onların əsərləri Çin və antik mənbələr əsasında yazılıb. A.N.Bernştamın Mərkəzi Asiya və Altayın qədim və erkən orta əsrlər tarixi üzrə tədqiqatları diqqətə layiqdir.

L.N.Qumilyovun «Hunlar» (1960), «Qədim türklər» (1967), «Xəzər ətrafında minilliklər» (1991) əsərləri, əsasən türk xalqları tarixinin erkən orta əsrlər dövrünə həsr edilib. Bu dövrün tədqiqində akademik V.V.Bartoldun rolu böyükdür. Onun «Türküstan monqol işğalı dövründə» (1963), «Orta Asiyanın türk xalqlarının tarixi üzrə on iki mühazirə» (1968), «Türk-monqol xalqlarının tarixi» (1968) və digər əsərləri türk xalqları tarixinin öyrənilməsinə böyük töhfədir.

V.V.Qriqoryev yeganə rus tarixçi-türkoloqudur ki, sakları türkdilli hesab edirdi. Onun «Skif xalqı saklar haqqında tədqiqat» kitabı, görünür buna görə sovet tarixçilərinin kəskin tənqidinə məruz qalıb.



Sovet türkoloqu S.Q.Klyaştornıy türk runi yazılarının tədqiqi ilə məşğul olmaqla bu sahəyə böyük töhfə vermiş olub.

**Türkiyə tarixşünaslığı.** Avropa və rus tarixçilərindən fərqli olaraq Türkiyə alimləri qədim skiflər, saklar, kimmerlər və digər tayfaların türkdilli olduqlarını hesab edirlər. Türkologiyanın inkişafında Əhməd Zəki Validi Toğanın böyük xidməti olub. O, 1946-cı ildə İstanbulda «Ümumi türk tarixinə giriş» kitabını nəşr edib.

Bəhaəddin Ögəl hun imperatorluğunun tarixini əsaslı surətdə tədqiq edib. Mərkəzi Asiyanın Kuşan və Ağ hunlar dövlətlərinin tarixinin tədqiqi ilə Ənvər Konukçu məşğul olub. Qara dənizin Şimal sahillərində və Şimali Qafqazda yaşamış türklərin tarixi isə Bastav Şərifin tədqiqat obyektinə çevrilib. M.Yinanc oğuzları hunların sonrakı nəsli hesab edir. XIV-XV əsrlərdə Mərkəzi Asiyanın türk xalqlarının tarixi ilə Faruk Sümər hərtərəfli məşğul olub.

**Müasir tarixşünaslıq.** Dövlət müstəqilliyi bərpa olunandan sonra Azərbaycanda tarixi köklərə qayıdış prosesi gücləndi. Respublikanın alimləri, əsasən tarixçilər, türkoloqlar əsl tariximiz haqqında kitablar nəşr etməyə başladılar. BDU və ADPU-də SSRİ tarixi kafedraları «Türk və Qafqaz xalqları tarixi» kafedralarına çevrildi. Professor Ə.İ.Muxtarova, D.T.Qüdrətov, N.Mehdiyevanın «Türk xalqları tarixi» dərslikləri, Z.Həsənovun «Çar skifləri» kitabı və ayrı-ayrı türk xalqlarının tarixi barədə broşyuralar işıq üzü gördü.

Ötən il bu dərs vəsaitinin rus dilində nəşr olunması rusdilli əhali arasınla türk xalqlarının tarixi barədə biliklərin artmasına və bu sahədə olan boşluqların doldurulmasına xidmət edir.

9246
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

# I FƏSİL
# TÜRK XALQLARI QƏDİM DÖVRDƏ. ƏN QƏDİM TÜRK DÖVLƏTLƏRİ

## § 1. «Turan»- Türküstan tarixi-coğrafi anlayışı

Paropamid dağlarının ön hissəsi, qərbdən - Xəzər dənizi, şimali-qərbdən - Muqocarın cənub və şərq dağətəyi, şimaldan - Turqay yaylası, şimal-şərqdən - Mərkəzi Asiyanın düzənlik hissəsi Turan adlanır. L.N.Qumilyov bununla əlaqədar yazır: «Avrasiyanın qəlbi – Çin səddindən Karpata qədər şimaldan Sibir tayqası, cənubdan İran yaylasının səhrası və İran oazisi ilə əhatə olunan Böyük çöldür. Qədimdə bu çölü yunanlar Skifiya, farslar – Turan, çinlilər isə Bey-xu- «Şimal barbarlarının» çölü adlandırırdılar».

İlk dəfə «Turan» sözü Sasani şahı I Şapurun Nəqşi-Rüstəm qaya yazısında işlənib. «Avesta»da da «el-Turan» - Turan tayfası sözü var. Cənubi Azərbaycanda Turan-qala, Turani-poşt, Turani kənd adları qalmaqdadır. «Turan» etnonimi Sibir çayları və Krasnoyarsk diyarının yer adlarında – toponimlərdə saxlanır.

Turan cənubdan Kopetdağ və Tan yaylası, cənub-şərqdən Tyan-Şan və Pamir-Altay dağları ilə əhatə olunub. Turanın ən böyük çayları Ceyhun və Seyhundur (Amu-Dərya və Sır-Dərya).

Sasani dövrünün abidələrində, ərəb tarixçilərinin əsərlərində və Firdovsinin «Şahnamə»sində Türküstan Turan, türklər isə turanlılar adlandırılıb. Tarixi mənbələrə görə İranla Turanın sərhəddi Ceyhun çayı idi. Beləliklə, orta əsr tarixi-coğrafi mənbələrində Türküstan anlayışı Turan kimi qeyd olunur. Məhşur Azərbaycan coğrafiyaçısı Əbdürrəşid əl-Bakuvi yazır ki, Turan – bütün türk ölkələrinin ümumi adıdır.

XVII-XIX əsrlərdə Qərbi Avropa və rus tədqiqatçıları öz əsərlərində Türküstanı Buxara adlandırırlar. XVIII əsrin ortalarından başlayaraq Türküstanın şərq torpaqları Çinə birləşdirildi. Çinlilər onu «Sin-Tzyan» («Yeni sərhəd») adlandırırdılar. XIX əsrin ortalarından Buxara Türküstanı Qərbi Türküstan, Çininki isə – Şərqi Türküstan adlandırılmağa başlandı.



Qərbi Türküstan Rusiyaya birləşdirildikdən sonra, 1867-ci ildə Türküstan general-qubernatorluğu yaradıldı. 1886-cı ildə «Türküstan diyarı» adı rəsmiləşdi. 1918-ci ilin aprel ayında RSFSR-in tərkibində Türküstan MSSR yaradıldı. 1924-cü il oktyabrın 7-də muxtariyyət ləğv edildi, Türküstan Orta Asiya, indi isə Mərkəzi Asiya adlanmağa başladı.

## § 2. Türk xalqları ibtidai-icma quruluşu dövründə

Türküstan – ən qədim mədəniyyətlər ölkəsidir. Onun tarixi ərazisi insanların erkən məskunlaşdığı sahədir. Erkən paleolit dövrünün ən qədim insan məskənləri Qazaxıstanda (Boriqazqan, Tonirqazqan, Obalısan, Sarı-Arka), Qırğızıstanda (On Arça, Xoca-Bağırxan-Say), Türkmənistanda (Yanqaca-1) və s. aşkar edilib.

Qərbi Türküstanda Mustye (orta paleolit) dövrünə aid 80-dən çox insan məskəni tapılıb: Özbəkistanda Deşik-Daş mağarası, Xoca-kənd, Obirəhməd, Türkmənistanda Kaskır-Bulaq.

1938-ci ildə Özbəkistanın Surxandərya vilayətində Deşik-Daş mağarası tapılıb. Arxeoloji qazıntılar nəticəsində doqquz yaşlı oğlanın – neandertalın çənə sümüyü, eləcə də uşaq skeleti aşkar edilib. Bu tapıntı qədimliyinə görə keçmiş SSRİ ərazisində III yeri tutur (Azərbaycanda Azıx, Krımda Kiik-Kobadan sonra).

Son paleolit dövrünə aid insan məskəni 1939-cu ildə Səmərqənddə N.Q.Xarlamov tərəfindən aşkar olunub. 1962-ci ildə burada kromanyonun 9 dişi olan alt çənəsi, 1966-cı ildə isə 10 diş olan çənə sümüyü tapılıb. Birinci tapıntı 25 yaşlı qadına, ikinci 35 yaşlıya aiddir.

1954-cü ildə S.İ.Rudenko Mustye dövrünə aid olan Ust-Kan (Altay diyarı) mağarasını aşkar etdi. A.P.Okladnikovun 1961-ci

ildə Ulalinka çayının kənarında üzə çıxardığı insan məskəni son paleolit dövrünə aiddir.

Sibirin paleolit dövrü abidələri içərisində Şərqi Sibirdə Belıy İyus çayı sahilində yerləşən son paleolitə aid Malaya Sıya insan məskəni mühüm yer tutur. Bu düşərgənin 34 min il yaşı var. Buradan heyvan sümükləri, mis məmulatlarının elementləri tapılmışdır.

Anqara çayı sahilindəki Malta və Buret düşərgələri xüsusi qiymətə malikdir. Həmin məskənlərdən mamontun dişləri, şimal maralının buynuzları, 40-dan çox heykəlcik, gildən qadın fiqurları tapılıb. Bu fiqurlara elmdə «Paleolit Venerası» adı verilib.

Yenisey çayının orta axarında son paleolitə aid 50-dən çox düşərgə tapılıb. Təxminən 20 min il yaşı olan Afontova Qora düşərgəsi böyük maraq doğurur. Qədim insanın kəlləsinin alın hissəsi əsasında müəyyən olub ki, orada monqoloid irqinə mənsub insanlar yaşayıblar.

Xəzər dənizinin cənub-şərqində mezolit dövrü materiallarının analoqu tapılıb. Cəbəl, Kaylı, Dam-Dam Çeşmə-1 insan məskənləri Türküstanda və Yaxın Şərqdə aşkar olunub. Bu, «Xəzər arxeoloji vilayəti»nin vahid etnomədəniyyətə malik olduğunu göstərir.

Mezolit dövrünü öyrənmək üçün Fərqanə ərazisinə yayılmış Obişir mədəniyyəti və ona daxil olan Kulişir, Maçay mədəniyyətləri böyük maraq doğurur. 1960-1970-ci illərdə Şimali Qazaxıstanda, İşim və Çaqlin çayları arasında Çaqlin mədəniyyəti aşkar edilib. Mezolit mədəniyyəti ilə bağlı rəsmlər Özbəkistanda Zaraut-Kamarda və Şaxtı mağarasında üzə çıxarılıb. Biz onların köməyi ilə mezolit dövrü insanlarının mədəniyyəti və inancları barədə fikir yürüdə bilirik.

Mezolit dövrü abidələrinə Şərqi Monqolustanda da rast gəlinir. 1970-ci illərdə Arşakhat dağında («Müqəddəs bulaqlar» dağı) mezolit dövrü rəsmləri aşkar edilib. Sibirin cənubunda aşkarlanan Baday, Verxnolensk, şimalında isə Sumnakin mədəniyyətləri mezolit dövrünə aiddir.



Özbəkistanda - Zaman-Baba, Qırğızıstanda – Alay vadisində (Qızıl-Su və Tuz-Su çaylarının qovuşduğu yer), Qazaxıstanda – İssık-Kul gölünün sahilində neolit dövrü abidələrinə rast gəlinir. Qazaxıstanda İrtış və Sarı-Su çaylarının sahillərində 220-yə qədər neolit dövrü abidələri aşkar olunub. Bu dövrdə insanlar oturaq həyat tərzinə keçdilər. Daha qədim insan məskənləri Cəbəl mağarasında və Aşqabaddan 30 km şimalda, Ceytun adlanan yerdə tapılıb. M.ö. V minilliyə aid olan Ceytun mədəniyyətinin izləri İranın şimal-şərqində də müşahidə olunur. Burada istehsalın əsas növləri heyvandarlıq, əkinçilik, eləcə də ovçuluq idi.

Neolit mədəniyyətinə aid abidə olan Pesecik-Təpənin mərkəzində ibadətgah və gil qadın fiqurlarının aşkar edilməsi qədim türklərin məhsuldarlıq və bərəkətin hamisi olan ilahəyə sitayiş etdiklərini göstərir. Bəzi tədqiqatçılar hesab edir ki, bu fiqurlar Humay ilahəsi ilə bağlıdır. Qədim türklərin inancına görə o, uşaqların və hamilə qadınların himayəçisi idi. Digər mülahizəyə görə isə bu gil fiqurlar ana xaqanlıq dövrünə aiddir.

Şərqi Türküstanda da neolit düşərgələri tapılıb. Neolit dövrünə aid tapıntılar arxeoloqlar tərəfindən 3 qrupa bölünür: birinci – İu, Muley, Şanşan, Astana, Turfan, Urumçi, Qaşqar düşərgələrindən tapılan mikrolit alətlərlə xarakterizə olunur. Astana və Muleyin məskunları ovçuluq və maldarlıqla məşğul olurdular. Bununla belə, onlar ibtidai əkinçiliklə də tanış idi.

Astananın naxışlarla bəzədilmiş saxsı qabları bu cür keramikayla xarakterizə olunan neolit abidələrinin ikinci qrupuna yaxındır. Bu qəbildən olan tapıntılar Ubao su anbarı rayonunda, Yanbulaq kəndində, Şijentzı, Lyanmutin, Astana, Qaraxoca və s. kommunalarda aşkar olunub. Neolit dövrünün üçüncü qrup və eneolit abidələri daha iri aşılanmış əmək alətləri ilə xarakterizə olunur (Agetala, Kuli-kitala).

Bu dövrün ən mühüm düşərgəsi Monqolustanda Çoybolsan şəhəri yaxınlığındakı Tamsaq-Bulaqdır. Tamsaq-Bulaq mədəniyyətinin dəfn adətləri türk tayfalarının dini inancları barədə təsəvvür yaradır.

Monqolustanın qərbində və şərqində neolit və eneolit dövrlərinə aid öküz təsvirləri olan qayaüstü rəsmlər aşkar edilib. Tədqiqatçılar bunu totemizmlə bağlayırlar. Onlar Tuva, Cənubi Sibir və Altayın qayaüstü rəsmləri ilə oxşardır. Qobi nahiyəsində neolit dövrünə aid Şabarak-Usu, Tuqrigin-Şiret düşərgələri tapılıb. 1977-ci ildə Ulan-Batordan 700 km şimalda, Çuluut çayının orta axarında eneolit qayaüstü rəsmləri tapılıb.

Sibirin neolit abidələri Təzmin arxeoloji mədəniyyətinə aiddir. Bu mədəniyyət Asiyada ən qədim daş fiqurlar və qayaüstü rəsmlərlə xarakterizə olunur. Bəzi heykəltəraşlıq məmulatında günəş qayıqları çəkilib. Onlar m.ö. IV-III minilliklərə aid sakral Mesopotamiya təsvirlərini xatırladır. Təzmin arxeoloji mədəniyyəti Altayın, Mərkəzi Asiya və Sibirin türk tayfalarının tarixində mühüm yer tutur.

Amerika arxeoloqu R.Pompelli 1904-cü ildə Anau təpəsində eneolit dövrünün insan məskənini aşkar etmişdi. Bu düşərgə m.ö. V-III minillərə aiddir. Bu mədəniyyətin son dövrü Anau-1B və ya Namazgah adlanır. Namazgah-təpə və Altun-təpə tunc dövrünün mədəniyyət mərkəzi idi. Amudaryanın orta axarında Anau mədəniyyəti yayılandan sonra oturaq əkinçilik meydana gəldi.

Son tunc dövrünün abidələri Sappalı və Carqutanda üzə çıxarılıb. M.ö. I minilin başlanğıcında Baktriyada Murqab vadisində insan məskənləri meydana gəldi. Bu məskənlər Arabalıtəpə və Yaztəpədə idi. 16 hektar ərazini əhatə edən Yaztəpədə ilk dəfə kərpicdən qala divarları aşkar edilib. Qalanın içərisində saray və ya ibadətgahın qalıqları tapılıb.

Monqolustanda tunc dövrünün memarlıq abidələri içərisində ən mühümü «Maral daşları»dır. «Maral daşları»nda heyvan və silah, eləcə də digər rəmzlər təsvir edilib. Məsələn, sırğa və dairələr Günəş (maraqlıdır ki, bu rəsmlərə türk və monqol damğalarında rast gəlinir), qələbə rəmzləri – bayraqlar Altay dil ailəsinə daxil olan tayfaların müqəddəs atributları idi. Tunc və dəmir dövrlərinin xarakterik abidələrindən biri də



«Tava daşları» qəbirləridir. Onlar Şərqi Monqolustanda geniş yayılmışdır. Bu qəbirlərdə monqoloid irqinə məxsus adamlar dəfn olunub.

Sayan-Altayın dağlıq hissəsində mis karxanalarının izləri aşkar edilib. Metal emalı ilə bağlı ilk mədəniyyət Afanasyev mədəniyyəti adlanır. Onu 1865-ci ildə məhşur türkoloq V.V.Radlov tapmışdır. Dağlıq Altayda 18 yerdə 200 qəbir aşkarlanıb. Onlar bu mədəniyyətin Volqa-Ural və m.ö. III-II minilliyin başlanğıcında Qara dəniz və Xəzər çölləri tayfalarının mədəniyyətləri ilə analoji olduğunu göstərir. Antropoloji əlamətlərinə görə afanasyevçilər Avrasiyanın avropoid tayfalarının Şərq ucqarı hesab olunur.

M.ö. II minilliyin başlanğıcında Afanasyev mədəniyyətini Okunev (Xakasiyada kənd adı) arxeoloji mədəniyyəti əvəz etdi. Bu mədəniyyətin izləri 1947-ci ildə Yenisey çayı sahilində və Abakanda M.N.Komarova tərəfindən üzə çıxarılıb. Okunevçilərin əsas məşğuliyyəti maldarlıq idi. Afanasyevçilərdən fərqli olaraq okunevçilər monqoloid irqinin nümayəndələri idi. Bu mədəniyyətə, həmçinin daş heykəltəraşlıq məmulatları, əsasən qadın fiqurları xarakterikdir.

Avropoid irqindən olan tayfalar m.ö. II minilliyin ortalarında okunevçiləri çöl zonasından dağlara (Altay, Tuva) sıxışdırdılar. Beləliklə, Andronov arxeoloji mədəniyyəti dövrü başlanır. Bu mədəniyyət Uraldan Yeniseyə qədər ərazidə yayılmışdı. Maldar tayfalar olan andronovçular həmçinin əkinçilik və sənətkarlıqla da məşğul olurdular. Onlar tuncdan əmək alətləri düzəldirdilər. Novoselovo kəndi yaxınlığında o dövrün misəritmə sobaları aşkarlanıb.

Arxeoloji qazıntılar göstərir ki, bu mədəniyyətin daşıyıcıları yeraltı qazma tipli komalarda yaşayırdılar. Qışda mal-qaranı da bu cür tövlələrdə saxlayırdılar. Saxsı qablar istehsalının özünəməxsus texnologiyası məhz Andronov mədəniyyətinə xasdır. Bu qablar həndəsi naxışlarla bəzədilmişdi.

M.ö. II minilliyin ortalarında Andronov mədəniyyəti ilə bağlı olan ən mühüm hadisə böyük nefrit yolunun açılması idi.

Başlanğıcını Baykal gölündən götürən bu yol Transsibir magistral yolundan qərbə doğru Volqa çayına qədər uzanırdı. O, Cənubi Sibirlə Şərqi Avropa ticarət yollarını birləşdirirdi.

Son tunc dövründə Cənubi Sibirdə Karasuq (m.ö. XIV-VIII əsrlər) arxeoloji mədəniyyəti çiçəkləndi. Tədqiqatlar göstərir ki, məhz bu mədəniyyət dövründə insanlar atdan nəqliyyat vasitəsi kimi istifadə etməyə başladılar. Karasuq mədəniyyətinin başlıca xarakterik cəhəti metallurgiyanın yüksək inkişafıdır.

Altayda bu mədəniyyəti Yeniseyin orta axarı boyu yayılmış və təxminən yeddi əsrə qədər davam etmiş Taqar mədəniyyəti əvəz etdi. Onun xarakterik cəhəti – kurqanların tikintisidir. Taqar mədəniyyəti üçün həmçinin «skif heyvan üslubu» da xarakterikdir. Tuva ərazisində Arjan şah və Pazırık kurqanları böyük maraq doğurur. Sonuncu 2490 il bundan əvvəl tikilib. Buradan türk xaqanının cəsədi bükülmüş ən qədim xalça (1,82-2 m) tapılıb.

Altay və Tuvanın m.ö. VII-III əsrlər arxeoloji mədəniyyətləri tarixşünaslıqda «Altayın skif dövrü» adlanır. Mayemir (m.ö. VII-VI əsrlər) və Pazırık (m.ö. V-III əsrlər) arxeoloji dövrləri də bura aiddir.

Arjan şah (1971-1974) və Pazırık kurqanlarında arxeoloji qazıntıları alim M.P.Qryaznov aparıb. Pazırık mədəniyyətinə «Skif heyvan üslubu» xarakterikdir. M.İ.Artamonov bu üslubun mənşəyi barədə yazır: «Hal-hazırda skif heyvan üslubunun mənşəyi barədə mövcud olan bütün mülahizələri araşdırmağa lüzum yoxdur. Ancaq qeyd etmək zəruridir ki, bu üslub yayıldığı geniş ərazidə, Minusin çökəkliyi istisna olmaqla, heç bir sələfə malik deyil. Əlbəttə, bu heç də o demək deyil ki, Cənubi Sibirin və Şərqi Avropanın Skif dövrünə qədərki barbar tayfaları təsviri incəsənətlə tanış deyildilər. Onlarda, şübhəsiz ki, incəsənətin rüşeymi mövcud idi. Bunu yalnız saxsı qabların üzərindəki həndəsi naxışlar deyil, neolit və tunc dövrlərinin müxtəlif mədəniyyətlərindəki təsviri əsərlər də sübut edir. Onlara, içərisində heyvan təsvirləri üstün yer tutan forma və süjetlər xasdır. Bununla belə aydındır ki, stilistik baxımdan bu təsvirlər skif dövrünün incəsənəti ilə bağlı deyil, onlar Dunaydan Yeniseyə qədər çöl xəttində Avrasiyanın neolit və tunc dövrü incəsənəti ilə heç bir stilistik oxşarlığı olmayan skif-sibir heyvan stilini yaratmayıblar və yarada bilməzdilər. Yalnız Minusin çökəkliyində son tunc dövrünə aid Karasuq mədəniyyəti abidələrində skif dövrünün heyvan obrazlarına yaxın olan təsvirlər vardır.»



## § 3. M.ö. I minillikdə türk xalqlarının etnosiyası vəziyyəti

M.ö. I minillikdə Mərkəzi Asiyada türk mənşəli tayfalarla yanaşı irandilli tayfalar da, yəni arilər yaşayırdılar. Tədqiqatçılar hesab edir ki, onlar bura m.ö. II minilliyin ortalarında Cənub-Şərqi Avropadan gəlmiş, bir hissəsi Hindistana, digər hissəsi m.ö. I minillikdə İran yaylasına (farslar, tatlar, talışlar, kürdlər) keçmişlər.

Bəzi tədqiqatçılar skif, sak, massaget, alan, usun və digər qohum tayfaları irandilli hesab edirlər.

Türk tayfası olan **saklar** ilk dəfə Çin mənbələrində xatırlanır. Çin tarixçisi «sak» sözünü «san» və ya «san-vanq» kimi istifadə edib.

Yunan və İran mənbələrində saklar m.ö. VI əsrdən başlayaraq yad edilir. Birinci mənbələrə görə saklar Fərqanə vadisində, digərlərinə əsasən isə Seyhun çayının sağ və sol sahillərində yaşamışlar. Bir çox iranşünas sakları yerli İran əhalisi hesab edir.

Qədim hind mənbələrində sakların m.ö. 150-100-cü illərdə Hindistanda məskunlaşdığı xatırlanır. Sonuncu vanqlar (saklar) Kəşmirdə öz dövlətlərini yaratmışlar.

Antropoloq T.A.Trofimovaya görə tunc dövrünün Andronov mədəniyyətini m.ö. VII-V əsrlərdə Mərkəzi Asiya və Cənubi Sibirdə saklar yaradıblar. Onlar antropoloji materiallara görə Altay-türk mənşəyinə malik idi və əsasən maldarlıqla məşğul olurdular. Köçəri sak tayfaları Şimali Qafqaza və Qara

dəniz sahillərinə köç etmişlər. Yunanlar sakları skiflər, assuriyalılar isə işquzlar adlandırırdı.

Sakların bir hissəsi Cənubi Qafqazda m.ö. VII əsrdə Sak (Skif) çarlığını yaratdı. Onların digər hissəsi Mərkəzi Asiyaya köçdü. «Avesta»da saklar «turlar» adlanır. Onlar zərdüşt idi. M.ö. VI əsrin ikinci yarısında saklar midiyalıları özlərinə tabe etdilər, ancaq m.ö. 593-cü ildə Midiya çarı Kiaksar onları məğlubiyyətə uğratdı.

M.ö. IV əsrin ortalarında saklar Don və Dunay çayları arasında müstəqil dövlət yarada bildilər. Onların ilk hökmdarı Ateyn ərazisini genişləndirmək məqsədilə m.ö. 339-cu ildə Makedonyalı II Filip ilə müharibəyə başladı və məğlub oldu. Sarmatlar əlverişli vəziyyətdən istifadə edərək saklara hücum etdilər. Sonuncular Krım yarımadasına çəkilmək məcburiyyəti qarşısında qaldılar.

Herodot yazır ki, slavyan tayfaları ilə qonşuluqda «miksellinlər» və ya «ellin skifləri» yaşayırdılar. O, **skifləri** 4 qrupa bölür:

1) Əkinçi skiflər, Buq çayı sahilində yaşayırdılar;
2) Dnepr çayının aşağı axarında yaşayan skiflər;
3) Köçəri skiflər, Herra çayına qədər ərazilərdə yaşayırdılar;
4) Herra çayının qərb hissəsində yaşayan skiflər. Onları «çar skifləri» (əkinçilərdən vergi topladıqlarına görə) adlandırırdılar.

Tezliklə qəbilə-tayfa icması tənəzzülə uğradı. Kurqan qəbirləri skiflərdə sosial təbəqələşmə prosesinin getdiyini sübut edir. Dəfnetmə tikintiləri skiflərin dini görüşləri haqqında təsəvvür yaradır. Od və suyun gücünə inam daha geniş yayılmışdı. Heyvan rəsmləri və zoomorf fiqurlar «Skif-Sibir stili» adlanan incəsənət nümunələri hesab olunur.

Qara dənizin şimal sahillərində yaşayan skiflərin hökmranlığı m.ö. VII əsrdən III əsrə qədər davam etdi. Herodot yazır ki, İran şahı I Dara skiflərin üzərinə yürüşə hazırlaşdı və tabeliyində olan xalqlara xəbər göndərdi. O, Frakiya Bosforunun üzərində körpü salınmasını əmr etdi. Daranın qardaşı Skif öl-



kəsinin alınmaz olduğunu bildirərək onu bu yürüşdən çəkindirməyə çalışdı. Lakin bu heç bir nəticə vermədi. M.ö.513-cü ildə I Dara «dünyanın o biri hissəsində bütün tayfaları özünə tabe edib» Bosfor boğazında körpü tikdirdi və «bu materikə» (Avropa nəzərdə tutulur) yollandı. Bu xəbəri alan skiflər iranlılarla açıq döyüşə girməmək qərarına gəldilər. Belə ki, qonşu tayfalar onlara köməkdən imtina etdilər. Skiflər dərhal geri çəkilməyə başladılar. Onlar mal-qaranı qovur, quyuları doldurur və otu yandırırdılar. Səhrada onları təqib edən iranlılar qələbə çala bilməyərək, çətinliklə skiflərin əks hücumlarından xilas olub geri çəkildilər.

M.ö.330-cu ildə frakiyalılar da bu cür aqibətə düçar oldular. Bəzi mülahizələrə görə I-II əsrlər Skif çarlığının çiçəkləndiyi dövr olmuşdur.

Qədim yunan mənbələrinə görə **massagetlər** şərqdə «Günəşin doğduğu istiqamətdə», Araz çayının arxasında yaşamışlar. İran tarixində onların mühüm rol oynamasına baxmayaraq irandilli mənbələrdə massagetlər barədə heç bir məlumat yoxdur. Belə ki, qədim iranlılar onları saklar adlandırırdılar. Herodot yazır ki, II Kir massagetləri – «bu çoxsaylı və igid tayfanı» tabe etmək qərarına gəldi. O, Araz üzərindən ponton [1] körpülər salmağı əmr etdi. Massagetlərlə döyüşdə II Kir sarsıdıcı zərbə alaraq öldürüldü.

Massagetlər skiflərinkinə bənzər paltar geyir və oxşar həyat tərzi sürürdülər. Onlar at üstündə döyüşür, qızıl və gümüş bəzək əşyaları xoşlayırdılar. Massagetlər yeganə Günəş allahına etiqad edir, ona atları qurban verirdilər. Əsas məşğuliyyəti maldarlıq idi.

Onlara qohum olan **sarmat** tayfaları massagetlərdən şərqdə yaşayırdı. Mədəni və sosial inkişaf səviyyəsinə görə sarmatlar sak, skif və massagetlərdən geri qalırdılar. Onların Şimali Qara dəniz sahillərində hökmranlığı III əsrə qədər davam etdi.

Herodotun məlumatına görə sarmatlar (savromatlar) Don çayının şərqində yaşayırdılar. Qara dəniz sahili ərazisində quldarlıq cəmiyyətinin tənəzzülü sarmatların zəifləməsinə səbəb

oldu. Onlar sayca az olaraq Türküstanın yalnız şimal regionlarını əllərində saxlayırdılar. Herodot onların da skifcə danışdığını yazır. M.ö. II əsrdə hunların hücumundan sonra sarmatlar Qərbə çəkilməyə məcbur oldular.

Sarmatiya yerinin adı sarmat tayfalarının adından götürülüb. Ptolomeyin dövründə sarmatlar Avropanın dərinliklərinə yayıldılar. Beləliklə, Avropa və Asiya Sarmatiyası meydana gəldi. Şərqdə Sarmatiya ərazisi Qafqaz dağlarından başlayaraq Volqa sahillərinə qədər uzanırdı. Roma mənbələrinə görə onlar Midiyadan ora gəlmişdilər. Sarmatlar da skiflər kimi öküz arabalarında yaşayırdılar.

M.ö. 130-cu ildə Baktriya dövlətinin süqutu və sakların miqrasiyası Mərkəzi Asiyada xalqların Böyük köçünə səbəb oldu.

Qədimdə müasir Rusiyanın cənubunda yaşayan tayfalar **iskitlər** adlanırdı. Qara dənizin sahilində yaşayan **kimmerlər** onların bir hissəsi idi. Skiflər kimmerləri Avropadan sıxışdırdılar və hətta Asiyada da təqib etdilər.

M.ö. VIII əsrdə kimmerlər Midiyaya girdilər. İskitlər isə onların ərazisini tutdular. M.ö. V əsrdə orada olmuş Herodot kimmerləri «səyahət edən iskitlər» adlandırır. Don və Dunay çaylarının arasında Böyük İskit çarlığı mövcud olmuşdur.

## § 4. Ən qədim türk dövlətləri

M.ö. 329-cu ildə Makedoniyalı İsgəndər Mərkəzi Asiyanı tutdu. Baktriya qoşunu ona müqavimət göstərə bilmədi. Əhəmənilərin Baktriya və Soqdiana satrapı Bess Ceyhun sahillərinə qaçdı. Yerli hökmdarlar onu tutub Makedoniyalı İsgəndərə təslim etdilər, sonuncu isə onu çarmıxa çəkdirdi.

Mərkəzi Asiyada Böyük İsgəndərə qarşı hərəkata sak Spitomen başçılıq edirdi. İsgəndərin qoşunu Spitomen üsyanının 120 min iştirakçısını məhv etdi. Makedoniyalı İsgəndər Hindistana yürüşə hazırlaşarkən Spitomen yenidən üsyan qaldırdı, ancaq 800 əsgərini itirərək massagetlərin yanına qaçdı. Massagetlər «Skif çölündə» onu ələ keçirib başını kəsdilər və İsgəndərə göndərdilər. Beləliklə, m.ö.327-ci ildə Baktriya və Soqdiana Makedoniyaya tabe oldular.



M.ö.323-cü ildə Makedoniyalı İsgəndərin vəfatından sonra onun imperatorluğu diadoxları [2] arasında bölündü. Ptolomey Misiri tutdu, Selevk Mərkəzi Asiyanı, Babili və Suriyanı vahid dövlətdə birləşdirdi.

Selevk m.ö. 306-cı ildə Baktriyanı tutub öz ərazisini genişləndirdi. O, m.ö. 292-ci ildə oğlu Antioxu Mərkəzi Asiyaya hakim qoydu. II Antioxun hakimiyyəti dövründə Baktriya Selevklər dövlətindən ayrıldı. M.ö.250-cı ildə yunan Deodot özünü Baktriyanın çarı elan etdi. Tezliklə Parfiya da ayrıldı. I Arşak Parfiya hökmdarı oldu. M.ö.140-130-cu illərdə Baktriya çarlığı tənəzzülə uğradı.

M.ö. III əsrdə Türkmənistanın cənubunda, Təcan çayının sahilində parf tayfası Arşakın başçılığı ilə selevklərə qarşı mübarizəyə başladı. I Tridat çar elan olundu. Bu dövlət Parfiya və ya Arşakilər adlandırıldı. Uisa şəhəri paytaxt oldu. I Mitridatın hakimiyyəti dövründə bu dövlət daha çox gücləndi. M.ö. II əsrin 50-ci illərində arşakilər Margilana dövlətini tutdular. II Mitridat Ermənistan ərazisini və Şimali Azərbaycanın bir hissəsini ələ keçirdi. Ermənistan çarı II Tiqran m.ö. 95-ci ildə II Mitridatın köməyi ilə taxta oturdu.

M.ö. 53-cü ildə Parfiya dövləti Suren Krassın başçılıq etdiyi Roma qoşunu üzərində qələbə çaldı. Sülh müqaviləsi isə, yalnız m.ö. 20-ci ildə imzalandı. Ancaq saklar Mərkəzi Asiyada Parfiyaya qarşı inadlı mübarizəni davam etdirdilər. 224-ci ildə Sasani nəslindən olan I Ərdəşir Parfiya üzərində qələbə çalaraq onun süqutuna və Sasanilərə birləşdirilməsinə nail oldu.

**Böyük (Şərqi) Hun imperatorluğu.** Mərkəzi Asiya və Qərbi Sibirin dövlətçilik tarixi hunlardan başlanır. Hun etnonimi ilk dəfə m.ö. XXIII-XIX əsrlərin qədim Çin mənbələrində «junlar» kimi xatırlanır.

M.ö.VI-V əsrlərdə türk tayfaları, o cümlədən hunlar Çinə qarşı mübarizəyə başladılar. Bu hücumların qarşısını almaq

məqsədilə m.ö. 307-ci ildə Böyük Çin səddi tikintisinin əsası qoyuldu. Çin imperatoru Tsin-Şi-Xuandi tikintinin sürətini artırdı.

Hun tayfa ittifaqına III əsrin 20-ci illərində başçılıq edən Teoman xan Çinlə müharibəyə başlayaraq, m.ö. 215-ci ildə çinlilərin işğal etdiyi Ordos vilayətini tutdu. Teomanın ölümündən sonra hakimiyyəti oğlu Mete (Mao-dun) ələ keçirtdi. O, hərbi islahat keçirərək dörd korpuslu süvari qoşunu və ciddi intizam yaratdı. Mete dinlin, dunxu, yueci tayfalarını tabe etdi. O, m.ö. 204-cü ildə Çinə qarşı hərbi əməliyyatlara başladı. M.ö.192 və 176-cı illərdə Çinə daha iki yürüş təşkil edildi. Xan sülaləsi bac ödədikdən sonra barışıq imzalandı.

Mete 35 il hökmdarlıq edərək qıpçaqları, İrtış və Yeniseydəki müasir qırğızların əcdadlarını özündən asılı vəziyyətə saldı. O, m.ö. 174-cü ildə vəfat etdi. Paytaxt Metenin hakimiyyəti dövründə Ötükən şəhəri idi. Dövlətin sərhədləri şimalda - Sibir buzlaqlarına, cənubda - Himalay dağlarına, şərqdə – Sakit okeana, qərbdə – Xəzər dənizi və Ural dağlarına qədər uzanırdı.

Metenin nəvəsi Gün Tanhunun (Gün Çen) hakimiyyəti dövründə imperatorluq parçalanmağa başladı. M.ö.55-ci ildə Hun dövləti iki hissəyə bölündü. Şərqi Ordaya (Cənubi) Xuxanye, Şimali Ordaya isə Ciqi (İqjişe) başçılıq edirdi. Xuxanye könüllü surətdə Çinə tabe oldu. Beləliklə, Böyük Hun imperatorluğu tənəzzül etdi.



# II FƏSİL
# ERKƏN ORTA ƏSRLƏRDƏ TÜRK DÖVLƏTLƏRİ

## § 1. Qərbi Hun imperatorluğu

Şimali Hun dövləti (Böyük Hun dövləti parçalanandan sonra yaranan dövlət) 147-156-cı illərdə dövlət müstəqilliyini itirdikdən sonra iki yerə bölündü. Şimal hunlarının bir hissəsi qərbə köç etdi.Digər hissəsi Yeddi Suyu tutub, orada məskunlaşdı. Hunlar 158-ci ildə Volqa və Dunay sahillərinə çıxdılar.

Şimali Qafqaza hunlarla bərabər barsil, xəzər və digər türkdilli tayfalar da köç etdilər. 215-216-cı illərdə barsillər və xəzərlər Dərbənddən Albaniyaya daxil oldular. IV əsrin 60-cı illərində Qafqaza Volqa və Dondan hunların yeni dalğası gəldi. Bu, hunların Avropaya köçünün ikinci mərhələsi idi.

IV əsrin axırlarında qotlar, hunlarla ittifaqda olan ant tayfalarına hücuma keçdilər. Hücum zamanı antların kralı Boj öldürüldü. Hun hökmdarı Balamir ostqotların köməyi ilə Vinitariyaya yürüş edərək vestqotları darmadağın etdi. Bu qələbədən sonra hunların Asiyadan Avropaya yeni axını başlandı. Bu, onların miqrasiyasının üçüncü və sonuncu mərhələsi idi. Hunlar Böyük Roma imperiyasının sərhədlərində məskunlaşdılar.

Metenin nəslindən olan Balamir 374-cü ildə Qərbi Hun imperatorluğunun başına keçdi. O, hərbi islahat keçirtdi, ordunu yenidən qurdu və möhkəm intizam yaratdı.

Qərbi və Şərqi qotlar hunlarla toqquşmada məğlub oldular. Şərqi qotların kralı Germanarix özünü öldürdü. Balamir Ostqot dövlətinin başına öz adamını qoydu. Qərbi qotların kralı Atanarix Mərkəzi və Şimali Avropaya çəkilməyə məcbur oldu. Hunlar Anadoluya irəlilədilər.

395-ci illdə Böyük Roma imperiyasının imperatoru Feodosinin vəfatından sonra hunlar iki tərəfdən onların torpaqlarına daxil oldular. Hunlar Balkan yarımadasından keçərək Fraki-

yaya doğru irəlilədilər. Onlar Suriyanın Sur şəhərini tutub Yerusəlimə istiqamət götürdülər.

400-cü ildə Dunayda məskunlaşan hunlar, antların və ruqilərin köməyi ilə döyüşsüz Pannoniyanı ələ keçirdilər. Balamir elə həmin il vəfat etdi. Onun varisi oğlu Ulduz xan oldu. Sonuncu 404, 405 və 409-cu illərdə Bizansa qarşı hərbi yürüş təşkil etdi. Bizans imperatoru barışıq imzalanması xahişi ilə Ulduz xana elçi göndərdi.

Ulduz xan 410-cu ildə vəfat etdi və hakimiyyətə onun oğlu Qaradon gəldi. Sonuncunun hökmdarlığı dövründə Qərbi Hun imperatorluğunun sərhədləri şərqdə Balxaş gölünə qədər uzanırdı. Ancaq 415-ci ildə Qaradon xanın vəfatı ilə hakimiyyət oğlu Muncuq xanın əlində toplandı. O, hakimiyyəti üç qardaşı – Rua, Aybars və Oxtarla birgə idarə edirdi. Muncuq xanın ölümündən sonra azyaşlı oğlanları Bleda və Atilla hakimiyyəti öz əllərinə ala bilmədilər. Dövlətin başına onların əmisi Rua keçdi. O da Ulduz xan kimi 422-ci ildə Bizansa qarşı yürüşə başladı və bizanslılar üçün ağır şərtlərlə sülh bağladı. Hunlar tərəfindən məğlubiyyətə uğradılan Bizans Qərbi Roma imperiyasına hücum etdi. Qərbi Roma imperiyasının imperatoru yardım üçün hunlara müraciət etdi. Rua 60 minlik ordu ilə Qərbi Roma imperiyasına gəldi və Bizans imperatoru II Feodosi geri çəkilmək məcburiyyəti qarşısında qaldı.

434-cü ildə Ruanın ölümündən sonra hakimiyyətə Bleda ilə Atilla gəldi. Qardaşlar arasında uzun sürməyən mübarizədən sonra Atilla hakimiyyəti öz əlinə aldı. O, 434-cü ildə Bizans elçisini Konstans şəhərinin divarları yanında qarşılayıb ona öz şərtlərini diktə etdi. Konstans müqaviləsinə görə Bizans Qərbi Roma imperiyasından qaçanların geri qaytarılmasını və ya əvəzində 8 qızıl ödəməyi üzərinə təəhhüd götürürdü. Hər iki dövlət sərhəd zonasında bir-biri ilə bərabər şərtlərlə ticarət etməli idi. Bununla yanaşı Bizans hər il 700 libr [3] qızıl ödəyəcəyinə söz verdi.

Qərbi Hun imperatorluğunun tərkibinə 45 tayfa daxil idi. Müxtəlif irqdən olan bu tayfalar müxtəlif dillərdə danışırdılar.



Onları tayfa rəisləri və krallar idarə edirdilər. Hun imperiyasında ciddi nizam və intizam var idi. İmperiyada gərginlik yaradanlar yalnız açarit tayfaları idi. Ancaq tezliklə Atillanın oğlu İlek buna son qoydu. Burqundiyada qalxan üsyanı Atillanın əmisi Oxtar qəddarlıqla yatırdı. Burqundiya kralı öldürüldü, ərazisi isə imperiyanın tərkibinə qatıldı.

440-cı ildə Atilla Bizans üzərinə yeni hücuma hazırlaşdı. Buna səbəb Konstans yaxınlığında Hun şahzadəsinin qəbrinin Morqos yepiskopu tərəfindən qarət olunması oldu. Atillanın qoşunu Belqrad və Uiş şəhərlərini tutub Frakiyaya daxil oldu. Bu, Qərbi Roma imperiyasını çox narahat etdi. Roma sərkərdəsi Aestusun (Aetsi) xahişi ilə Atilla Dunay çayı sahilindəki qalaları dağıdaraq qoşununu geri çəkdi.

Sülhün şərtlərinin Bizans tərəfindən pozulması 447-ci ildə Atillanın Frakiyaya yeni yürüşünə səbəb oldu. Hunlar Konstantinopol yaxınlığında Çəkməçi adlı yerə doğru irəlilədilər. II Feodosi Bizans üçün ağır şərtlərlə sülh müqaviləsi imzalamağa məcbur oldu. Müqaviləyə görə o, 6 min funt libr qızıl təzminatı birbaşa və hər il 2100 funt libr qızıl ödəməli idi. Bundan əlavə, Dunay çayının Sinqidundan Naisə qədər cənub sahilləri də hunlara verilməli idi. Bu müqavilə Anatolis sülhü adlanırdı. Ancaq Feodosinin yerini tutan Markian 450-ci ildə bu müqaviləni pozdu və bildirdi ki, onun hədiyyələri dostlar üçündür, düşmənlər üçün isə silahı var.

Hələ 448-ci ildə türk (hun) sərkərdəsi Edikon sülhün şərtlərinin yerinə yetirilməməsi ilə bağlı iddiaları irəli sürmək məqsədilə Bizansa göndərilmişdi. Atillaya sui-qəsd planı hazırlayan Bizans Edikonu satın almağa cəhd etdi. Ancaq bu planın üstü açıldı.

450-ci ildə Atilla qoşununu Qalliyaya doğru yönəltmək qərarını qəbul edərək Aetsinin ordusu ilə üz-üzə gəldi. 451-ci il iyunun 20-də Katalaun döyüşü baş verdi. Qanlı döyüşdə hər iki tərəfdən minlərlə ölən oldu. Heç bir tərəf qələbə əldə edə bilmədi. Atilla döyüş meydanını tərk etdi. Aetsi onu təqibə cürət etmədi. 452-ci ildə Atilla yenidən Qərbi Roma imperiyası

ilə müharibəyə başladı. Bu dəfə o, İtaliyaya daxil oldu və ən güclü qala olan Akvileyanı ələ keçirdi. Po vadisi bütünlüklə qarət olundu. İnsanların həyatını qorumaq məqsədilə əmlakını verən Mediolan və Paviya təslim oldular. Hunlara fəal müqavimət göstərmək üçün kifayət qədər qoşunu olmayan Aetsi onların qarşısına çıxmadı. Romalılar sülh istədilər və Atillaya İtaliyanı tərk etməsi üçün böyük həcmdə bac ödədilər. Atilla buna razılıq verdi. Katalaun döyüşünə görə qotlardan intiqam alıb, şəhərlərini dağıdan Atilla geri çəkildi.

453-cü ildə yenidən Bizansla müharibə başladı və sonuncunun məğlubiyyəti ilə başa çatdı. Həmin ildə Burqund şahzadəsi İldiko ilə toy gecəsi Atilla vəfat etdi və Tisa çayı sahilində dəfn edildi, lakin onun basdırıldığı dəqiq yer məlum deyil. Onun oğlanları hakimiyyət uğrunda mübarizəyə başladılar. Dövlətin qüdrəti sarsıldı və Qərbi Hun imperatorluğunun tam iflasına səbəb oldu.

### § 2. Eftal (Ağ Hunlar) imperatorluğu

Böyük Hun imperatorluğunun süqutundan sonra hunların bir hissəsi qərbə, digər hissəsi isə cənuba çəkilərək Türküstanda məskunlaşdı və Ağ hun dövlətini yaratdı. Bu dövlətin ərazisi qısa müddətdə Əfqanıstanda Toxaristan regionu, Ceyhun çayının sahil zolağı və Səmərqəndin şəhərkənarı torpaqlarını əhatə etdi.

V əsrdə Eftal xanın hakimiyyəti dövründən başlayaraq Ağ hunlar dövləti Eftallar adlandırıldı. Bütün siyasi hakimiyyət ağ hun və uar (xionlar) tayfa qruplarının əlində toplanmışdı. Uarlar (xionlar) mütəmadi olaraq Sasani dövlətinə hücum edirdilər. Ancaq 356-cı ildə İranla müttəfiq oldular və romalıların Mesopotamiyadakı istinadgahı olan Amida onların birləşmiş qüvvələrinin təzyiqi altında süqut etdi.

368-374-cü illərdə xionlar İranla ittifaqı pozub, şərq sərhədlərində Sasani canişini Arşakın qaldırdığı üsyanı dəstəklə-



dilər. Üsyan yatırıldıqdan sonra 384-cü ildə İran qoşununda şahənşahın müttəfiqi kimi çıxış edən eftallar peyda oldular.

IV əsrin ortalarında Ağ hun dövləti oturaq İranla Avrasiyanın köçəri tayfaları, o cümlədən Orta Asiya hunları arasında səddə çevrilmişdi. İranın, təbii müdafiəsi olmayan şərq sərhədlərinin deyil, Qafqaz keçidinin möhkəmləndirilməsi ilə bağlı narahatlığı məhz bununla izah olunur.

Eftallar azsaylı olmalarına baxmayaraq çox döyüşkən xalq idi. Onların qələbələri işğal etdikləri vilayətlərin dərin siyasi və iqtisadi tənəzzülü ilə izah oluna bilər. Eftallar məhvedici hücumlarını, əsasən Hindistana edirdilər. Onların Şərqi Pamir və Tyan-Şan ölkələrinə yürüşləri isə epizodik xarakter daşıyırdı.

430-cu ildə eftallar sasaniləri ağır məğlubiyyətə uğratdılar. Eftalların hökmdarı Ağsuvar xan (Akşuvar) İranın daxili işlərinə qarışırdı, I Yezdəgirdin ölümündən sonra isə onun oğlu Firuzun taxta çıxmasına kömək etdi. Firuz isə öz növbəsində, Ceyhun çayı ətrafında yerləşən Termiz və Vaskirt vilayətlərini eftallara verdi. O, eləcə də illik vergi ödəməli idi. Firuz bacısını Ağsuvar xana ərə verəcəyini vəd etsə də, bacısının əvəzinə kənizini göndərməklə verdiyi sözü tutmadı. Xəyanətin üstü açılan kimi Ağsuvar xanın əmri ilə İran nümayəndəliyinin tərkibində olan hərbi müşavirlər öldürüldü. Bundan xəbər tutan Firuz eftallara qarşı hərbi yürüşə başladı. İran şahının ordusunun yaxınlaşdığını eşidən eftallar Sasani qoşununu mühasirəyə aldılar. Firuz şah sülh istədi.

Tezliklə yenidən farslar tərəfindən hərbi əməliyyatlar başlandı. Sasanilər eftalların qazıb üstünü örtdüyü xəndəklərə düşdülər. Firuz şah ağır məğlubiyyətə uğradı.

470-ci ildə Eftallar dövlətində hakimiyyətə Gün xan Toroman-Tegin gəldi. Gün xanın yeni işğalları hesabına dövlətin ərazisi genişlənərək böyüyüb Eftal imperatorluğuna çevrildi.

Firuz şah 484-cü ildə Bizansın köməyinə arxalanaraq eftalların üzərinə yeni yürüş təşkil etdi. O, bu dəfə də eftalların ağıllı hiyləsini anlaya bilmədi və yeddi oğlu ilə birlikdə əsir düşdü, elə orada da öldü. Yeni Sasani şahı Balaşla sülh imzalandı.

Mərv şəhərini tutan eftallar, üzərinə bac qoydular. Onlar işğalları davam etdirərək tezliklə bütün Şərqi Türküstanı, Şimali Hindistanın bir hissəsini, İranın bütün şərq əyalətlərini öz ərazilərinə qatdılar.

VI əsrin əvvəllərində Eftallar dövləti ilə Sasanilər arasında sərhədlər müəyyənləşdirildi. İmperiyanın paytaxtı Peykənd şəhəri oldu.

515-ci ildə Gün xan Toroman-Tegin vəfat etdi, vərəsəlik üzrə hakimiyyət onun böyük oğlu Mehrəqulu xana keçdi. Məhz onun hakimiyyəti dövründə Eftal imperatorluğu çiçəklənməyə başladı. Mehrəqulu xan ordunu yenidən qurdu. 700 fildən ibarət əlavə süvari hissələri yaratdı. Mehrəqulu xanın işğalları Hindistanın içərilərinə doğru genişləndi. İmperiyanın bütün ərazisi mərkəzi hakimiyyətin təyin etdiyi və ona tabe olan xanlar tərəfindən idarə olunurdu.

Mərkəzi Asiyada VI əsrin ikinci yarısında meydana gələn Türküt dövləti sasanilərlə ittifaq bağladı. Bu birliyin ümumi səyləri eftalların öz ərazilərindən sıxışdırılmasına və Eftal imperatorluğunun süqutuna səbəb oldu. L.N.Qumilyov bu barədə yazır: «Zamanın küləyi kötükləri – imperiyaları və ağacları – çarlıqları sındırır, ancaq çöl otunu torpağa doğru əyirdi və o, zədələnmədən yenidən qalxırdı... Buna görə «hun» (çöl) superetnosunun etnomədəni dinamikasının fasiləsiz xətti bütün qalan etnoslardan fərqli olaraq, dövr və sülalələrin adlarından deyil, bir-birini ardıcıl olaraq əvəz edən etnoslardan ibarətdir. Məhz belə «yenidən doğulmalardan» birinin nəticəsində, Böyük çöldə sərt jujanların hökmranlığı dövründə Altayda türkütlər meydana gəldilər».

### § 3. Böyük Türk xaqanlığı (Çöytürklər və ya türkütlər)

552-ci ildə Göytürklərin (türkütlərin) başçısı, Aşina nəslindən olan Bumın xaqan teleutları özünə tabe edərək jujanlar üzərində qələbə çaldı. Artıq növbəti üç ildə onun oğlu Muğan xaqan jujanlara son qoyaraq Sarı dəniz hövzəsinə çıxdı. Qardaşı İstəmi xaqan isə Aral gölünə çatıb, Mərkəzi Qazaxıstan, Yeddi Su və Xarəzmi özünə tabe etdi. Tezliklə türkütlərə xəzərlərin qalıqları, bulqar, uturqut, kidan və soqdiyalılar da qoşuldular.



Eftal və oqorlar (uruqlar) üzərində qələbə çalandan sonra Göytürk (türkütlər) xaqanlığının bütün geniş ərazisində Çöl imperatorluğu- Böyük Türk xaqanlığı yarandı. Belə nəhəng ölkəni idarə etmək üçün intizamlı sistemin – elin yaradılması zəruri idi. El sosial-siyasi sisteminin mərkəzi Orda - xaqanın qərargahı idi. Hər bir əyan öz orda və ordusuna malik idi. Türküt etnosu bütövlükdə Qara – budun (xalq) və Türk Bəylər-budundan (bəylər) ibarət idi.

Orda termini latınca «ordo» - orden, yəni sağ (şərq), və sol (qərb) cinahları olan nizami qoşun hissələri sözünə uyğun gəlir. Şərq cinah tolos, qərb – tarduş adlanır, hamısı birlikdə isə «...başları əyməyə, dizləri qatlamağa məcbur edən» türküt dövlətinin özəyini təşkil edirdi. «Bu xalqı isə, Orda və xana səmimi münasibətdən deyil, qorxudan xidmət edən oğuz tayfaları – qoşun yedizdirirdi». Mahiyyət etibarilə Türküt dövləti müstəmləkəçi imperiya idi.

Xaqanlıq güclü və iqtisadi cəhətdən hunlardan varlı idi. Belə ki, o, Çin ipəyinin Avropaya aparılıb Avropa qızılına dəyişdirildiyi karvan yolu – İpək yolunun üzərində nəzarəti öz əlinə almışdı. Türkütlər ipəyi iki çarlığa – Bey -Çjou və Bey-Tsi – parçalanmış Çindən alır, əvəzində ona həvəslə hərbi yardım və hətta türkütlərin neytrallığını vəd edirdilər.

VI əsrdə ipək valyuta idi və Bizansda qızıla bərabər qiymətləndirilirdi. Lakin ticarət yolu İrandan keçirdi. Gərginləşən iqtisadi şərait xaqanlıqla İranı müharibəyə təhrik etdi. Hunlardan fərqli olaraq türkütlər yüksək keyfiyyətli dəmirdən ifrat dərəcədə istifadə edib, İranınkından geri qalmayan zirehli süvari hissələri yaratdılar, ancaq qələbə əldə edə bilmədilər. Müharibələr türküt etnosunun gücünü tükətdi. Belə ki, ipək ticarətindən qazanan xalq deyil, varlı soqd tacirləri və türküt xanları idi.

582-ci ildən başlayaraq dövlətdə gedən fasiləsiz ara müharibələri VIII əsrin əvvəllərində Böyük Türk xaqanlığının Şərq və Qərb xaqanlıqlarına parçalanmasına səbəb oldu.

Şərq xaqanlığı Monqolustanda yerləşirdi. Ünsiyyət təcrübəsi və Çinlə müharibə təhlükəsi xalqı Orda və xanın ətrafında birləşdirir, dövlətin yekdilliyinə səbəb olurdu.

Qərb xaqanlığı Tarbaqatay, Saur və Tyan-Şanın dağətəyi zonasında yerləşirdi. Başlıca məşğuliyyət köçəri maldarlıq idi. Buna görə gənclər yayda mal-qaranı yaylağa aparır, qocalar isə qışlaqda qalırdılar. Beləliklə, onların arasında heç bir ünsiyyət yaranmırdı. Bu isə el əvəzinə tayfa konfederasiyasının yaranmasına səbəb oldu. On tayfa başçısı hakimiyyət rəmzi olaraq hərəyə bir ox alırdı. Bu etnos «On oxlu türklər» adlanırdı. Aşina xanları tezliklə əhəmiyyət və nüfuzlarını itirdilər. Belə ki, xüsusi türküt drujinaları azsaylı idi. Siyasət tayfa başçıları tərəfindən müəyyən olunurdu.

Bu zaman Bey-Çjou çarlığının sərkərdəsi Yan-Tzin Bey-Tsini tutdu, ardınca isə 587 və 589-cu illərdə Cənubi Çinin Xou-Lyan və Çen knyazlıqlarını özünə tabe etdi. Çin birləşdirildi və əhəmiyyətli dərəcədə güclü oldu. İlk ara müharibəsinə məruz qalan Türk xaqanlığı isə 604-cü ildə Şərq və Qərb xaqanlıqlarına parçalandı. Ümumtürk xaqanı Tardu tibetlilər tərəfindən öldürüləndən sonra isə hər iki xaqanlıq Çinin Suy imperiyasının vassalına çevrildi.

618-628-ci illərdə Tan imperiyasının banisi Li Şi-Min bütün rəqiblərini əzdi.O, 630-cu ildə şərqi türkütlərə qalib gəlib, tibetlilərin hücumunu dəf etdi və 645-647-ci illərdə Koquronu (Koreyanı) darmadağın edərək oğluna güclü ordusu, Hindistan və Soqdiana ilə mədəni əlaqələri olan zəngin, çiçəklənməkdə olan imperiya qoyub getdi.

Tan imperiyası 658-ci ildə Qərb xaqanlığını özünə tabe etdi və 90 il Şərqi Asiyada hegemon oldu. Türkütlər və uyğurlar Tan imperatorlarına xidmət edirdilər. İmperatriça U hakimiyyəti ələ keçirdikdə isə onlar Çınlə ittifaqı pozdular.



682-ci ildə Qutluq Elteres xan Türküt xaqanlığını bərpa etdi. İkinci Türk xaqanlığının yaranması onun adı ilə bağlıdır. Elteres xaqan Şimali Çinə bir neçə yürüş təşkil etdi. Dövlət tədricən qüvvətləndi və Çin əsarətindən azad oldu. Elteres xaqan ordunu yenidən qurdu. Yürüşlər zamanı qarət olunan əmlakın bir hissəsi onun təchizatına yönəldildi, atlı hissələrin sayı artırıldı. Elteres xaqan bir qardaşı Kapaqanı şad, digəri – Tosifunu yabqu (canişin) təyin etdi. Məşhur alim Tonyukuk baş vəzir olub orduya, eləcə də xarici ölkələrlə diplomatik yazışmalara rəhbərlik edirdi.

Elteres xaqan bütün türk xalqlarını qızıl başlı qurdun təsviri olan bayraq altında birləşdirdi və ölkədə sabitliyi təmin etdi.

692-ci ildə Qutluq Elteres xaqan vəfat etdi. Onun böyük oğlu Bilgənin 8, kiçiyi – Gül-Teginin isə 7 yaşı var idi. Buna görə də hakimiyyəti Elteres xaqanın böyük qardaşı Kapaqan xan ələ keçirdi. O, 699-cu ildə Çinə hücum edən kidanlara qarşı müharibəyə başladı və onlara ağır zərbə endirdi. Kapaqan xaqan bu köməyin əvəzində Çin imperatoru Vudan bütün türklərin geri qaytarılmasını tələb etdi. İmperator Vu türküt xaqanının tələbini yerinə yetirdi. Ancaq Mərkəzi Asiyada yaşayan qırğız, türkeş kimi bir çox türk tayfaları Kapaqana tabe olmaqdan imtina etdilər. Nəticədə onlar hərbi güclə tabe edildilər.

İkinci Türk imperatorluğunun ən təhlükəli düşməni Çin idi. Kapaqan Çini özünə tabe etmək məqsədilə öz qızını Tan sülaləsinin şahzadəsinə ərə vermək istəyirdi. Ancaq bu plan özünü doğrultmadı. Çin şahzadəsinin rədd cavabını müharibə üçün bəhanə kimi qəbul edən Kapaqan xaqan Çinə yürüş təşkil etdi və onun qoşununu darmadağın etdi. Beləliklə, ikinci Türk imperatorluğunun ərazisi Sakit okeana qədər uzandı. Bundan sonra Kapaqan xaqan qərbə doğru irəlilədi.

Artıq Elteresin oğlanları böyüyüb mühüm dövlət vəzifələrini tutmuşdular. 716-cı ildə Kapaqan xaqan vəfat etdi və hakimiyyətə onun oğlu İnal Boqu gəldi. O, ölkədə və sarayda gedən çəkişmələrin öhdəsindən gələ bilmədi. Əmisi oğlanları Bil-

gə və Gül-Teginin təzyiqi ilə İnal Boqu hakimiyyətdən kənar edildi. Gül-Teginin tələbi ilə hakimiyyət Bilgə xaqana keçdi. Onun dövründə mərkəzi hakimiyyət xeyli möhkəmləndi.

İkinci Türk imperatorluğunun ərazisi qərbdə Xəzər dənizinə və Krım yarımadasının qərb hissəsinə, Sibirin şimalından Hindistanda Kəşmirə qədər uzanırdı.

731-ci ildə Gül-Tegin vəfat etdi. Bilgə xaqan 732-ci ildə onun şərəfinə üzərində runi yazısı olan qəbirüstü abidə ucaltdı. 734-cü il noyabrın 25-də Bilgə xaqan zəhərlənib öldürüldü. Onun şərəfinə qoyulacaq abidənin tikintisi uzun sürdüyündən dəfn mərasimi 735-ci il iyunun 22-də baş verdi. Yollıq Teginin hakimiyyəti dövründə türk qərargahında (ordada) qanun-qayda var idi, ancaq 741-ci ildə çəkişmələr və hakimiyyət uğrunda, edam və ölümlərlə müşayiət olunan mübarizə başlandı. 742-ci ildə uyğur, karluk və basmallar üsyana qalxdılar. Nəticədə türklərin bir hissəsi qırıldı, digəri – basmalların xanına tabe oldu. Yalnız Bilgə xaqanın dul qadını Po-beq ən cəsur qaçqınları başına toplayıb Çinə apardı. Beləliklə, onlar qırğından xilas oldular. 756-cı ildə türklər An Luşanın əsgərlərinə qoşularaq digər üsyançılarla birlikdə məhv oldular.

### § 4. Türk xaqanlıqları

**Xəzər xaqanlığı.** İkinci Türk xaqanlığı Tan imperiyasının zərbələri altında süqut edəndə xəzərlər öz dövlətini yaratdılar. Ancaq onların xanı Aşina nəslindən olan türkütlər idi. Türkütlərlə uğurlu ittifaq hesabına Xəzər vilayəti 650-ci ildə güclü ölkəyə çevrildi.

Xəzərlərin vətəni Terek və Sulak çaylarının aşağı axarında yerləşir. Qədim dövrlərdə Xəzərin sahil boyu düzənliyi daha geniş olub Volqanın mənsəbinə qovuşurdu. Burada xəzərlərin natural təsərrüfatının əsasını təşkil edən balıqçılıq və köçəri maldarlıq çiçəklənirdi. VII-VIII əsrlərdə Xəzər xanları nəinki Bələncərin aşağılarında, hətta «Qara torpaqların» ucqarlarında da hökmranlıq edirdilər. Onların paytaxtı Səməndər şəhəri



Terek çayının sahilində yerləşirdi. Xəzərlər qonşuları ilə: çöldə asanlıqla qalib gəldikləri alanlar (osetinlər) və qara balkarlarla, cənubda isə dağlılarla qarşılıqlı əlaqə saxlayırdılar.

Ümumi tarixi tale xəzər, barsil, türküt və peçeneqləri birləşdirirdi. Xilaskarları türkütlər kimi, xəzərlər başqa dinlərə dözümlə yanaşırdılar. Buna görə də xaqanlığın etnik rəngarəngliyi vahid dövlətin yaranmasına mane olmurdu.

Bələncərin şəhər əhalisini, xəzərlərin o qədər də ağır olmayan hakimiyyəti altında yaşayan albanlar təşkil edirdi. Onlar Bizans təbliğçiləri tərəfindən xristianlığa gətirilən təbəələrinə dözümlə yanaşırdılar. Bu dözümlülük xəzərlərin Bizansa siyasi meyli ilə sübut olunur.

Bizans xəzərlərin düşmənləri – ərəblər və balkarlarla daima müharibələr aparırdı. Buna görə də Xəzər və Bizans təbii müttəfiq idi.

670-679-cu illərdə xəzərlər, aclıq və ehtiyac hiss olunan möhkəmləndirilmiş Xersonesdən başqa bütün Krımı ələ keçirdilər. Belə ki, bura taxıl Qara dənizin cənub sahillərindən gətirilirdi. Bizans bütün gücünü ərəblərlə və onun ərazisinə girən bolqarlarla mübarizəyə yönəltdiyindən Xersones köməksiz qaldı. Konstantinopoldan ora qovulan II Yustinian, əvvəlcə xəzərlərlə razılığa gəlməyə cəhd etdi və hətta Xəzər xaqanının qızı ilə evləndi. Ancaq sonra Dunay bulqarlarının yanına qaçdı və onların köməyi ilə 705-ci ildə taxt-tacını özünə qaytardı.

II Yustinianın, Xəzər xanından kömək istəyən Xersones əhalisinə divan tutması Xəzər xaqanlığı ilə Bizans arasında toqquşmaya səbəb oldu. Lakin bu münaqişə müharibə ilə nəticələnmədi.

711-ci ildə xəzərlər üsyana qalxıb II Yustinianı taxtdan salan xersonluları dəstəkləyib, onun varisi Filiplə yüz il davam edən ittifaq bağladılar.

Xəzər xaqanlığı VIII-IX əsrlərdə Şərqi Avropanın ən güclü dövlətlərindən biri idi. Bu dövlətin tərkibinə 25 padşahlıq daxil idi. Xaqanlıq ticarətdən böyük gəlir əldə edirdi. 709-cu ildə ərəblər xəzərlərə qarşı yürüş təşkil etdilər. Bu yürüş uzun müd-

dətli Xəzər-ərəb müharibələrinə başlanğıc oldu. Yürüşdə məğlub olan ərəblər Dərbənd keçidi vasitəsilə geri çəkilməyə məcbur oldular.

724-cü ildə 30 minlik Xəzər ordusu peçeneqlərlə ittifaqda ərəblərə qarşı müharibəyə başladı. Arranda və Ermənistanda xəzərlər ərəblərə ağır zərbə endirdilər, ancaq Bələncər yaxınlığında döyüşdə məğlubiyyətə uğradılar.

731-ci ildə xəzərlər 300 minlik ordu toplayıb Ərdəbil və Diyarbəkirə doğru irəliləyən ərəbləri təqib etməyə başladılar və asanlıqla onları tutub Mosula çatdılar. Van gölü yanında Xilat şəhəri yaxınlığında xilafət onları dayandıra bildi. Yüz ilə qədər davam edən Xəzər-ərəb müharibələri X əsrin ortalarında Xəzər xaqanlığını zəiflətdi.

VIII əsrin sonunda Obadi xaqanın hakimiyyəti dövründə yəhudi dininin qəbul edilməsi İtil əyanlarını, uzaq əyalətlərdə yaşayıb paytaxtla az bağlı olan Xəzər aristokratiyasından qopartdı. Yəhudi dinini qəbul etməyənlər, o cümlədən xristian və müsəlmanlar hökumətə qarşı birləşdilər. Bu mübarizədə yəhudi əyanlarının görkəmli nümayəndələri, o cümlədən Obadi özü və onun iki oğlu: Ezeki və Manassi də həlak oldular. Bundan sonra Obadinin qardaşı Hanukka hakimiyyəti ələ aldı. Ara müharibələri dövləti xeyli zəiflətdi. Xəzər xaqanının Qot mitropolitliyini ləğv etməsindən və Krım xristianlarına qarşı repressiyalardan sonra Krım Xəzər xaqanlığından ayrıldı və Bizansa birləşdirildi. Xaqanlığın ərazisinə yeni köçərilər ordusu: macarlar və peçeneqlər axın etməyə başladılar. Xəzər hakimləri öz torpaqlarına köçəri barbarların hiddətli yürüşlərinin qarşısını ala bilmədilər. Hücumlar əkinçilik qəsəbələrinin talanı, məhvi və xaqanlığın kənd təsərrüfatı iqtisadiyyatının dağılması ilə müşayiət olunurdu.

X əsrin ortaları üçün Xəzər xaqanlığı geniş qüdrətli bir dövlətdən xanlığa çevrildi. Xaqan yəhudi dinini qəbul etdikdən sonra Bizans imperiyası Xəzər dövlətinin ən qəddar və ardıcıl düşməninə çevrildi.



Son zərbəni Rus dövləti endirdi. IX əsrin 80-ci illərində knyaz Oleq əvvəllər xaqana bac ödəyən slavyan tayfalarının torpaqlarını öz knyazlığına birləşdirdi.

913-cü ildə Volqa ilə Xəzər dənizinə enən ruslar sahilboyu şəhərlərdə talanlarla məşğul oldular. Geri qayıdarkən xəzərlərin hücumuna məruz qalan ruslar darmadağın edildilər. Bundan sonra 30 il müddətinə rusların yürüşləri dayandırıldı.

X əsrin 60-cı illərində Kiyev Rus dövlətinin böyük knyazı Svyatoslav və onun oğlu Vladimir Volqa ilə dəfələrlə yürüşlər təşkil etmişdilər. 965-ci ildə knyaz Svyatoslav xəzərlərə qarşı yürüşə başladı. O, Xəzər şəhərləri Səməndər və Sarkeli tutdu. Svyatoslav sonrakı yürüşlərində Sarkeli dağıtdı, onun yerində Belaya Vena adlı şəhər saldı.

X əsrin 70-ci illərində İtilə qayıdan xəzərlər bu şəhəri bərpa etdilər və ruslarla barışıq imzalamağa çalışdılar. Xaqanlıq tədricən dağıldı. Xəzərlərin bir hissəsi Krım yarımadasına, digər hissəsi Şimali Qafqaza çəkildi.

**Uyğur xaqanlığı.** Uyğurlar Mərkəzi Asiyanın ən qədim türkdilli tayfa ittifaqlarından biridir. Türkütlər kimi onlar da genetik olaraq Hun dövlətləri ilə bağlıdırlar. III-IV əsrlərdə uyğurlar Çin sülalələrinin xronikalarında qaoqyuy («hündür arabalar») adlanan tayfa birliklərinə daxil idi. V əsrin sonu-VI əsrin əvvəllərində uyğur başçılarından biri olan Afuçjilo və onun varisləri Tarim hövzəsinin vahəsi üzərində hakimiyyət uğrunda avarlarla (jujanlar) uğurlu rəqabət aparırdılar.

V əsrdə Çin mənbələrində uyğur tayfalarından olan tele (teqreq – «arabaçılar») tayfa ittifaqının yeni adı meydana gəlir. Onların öz adı oğuzlar (oqurlar) idi. Bu tayfaların əhəmiyyətli hissəsi qərbə, Cənub-Şərqi Avropanın çöllərinə köç etdi, ancaq böyük bir hissəsi Mərkəzi Asiyada qaldı. Türküt xaqanlığı yaranandan sonra oğuz tayfaları onun tərkibinə daxil oldular, lakin təxminən 600-cü ildən birinci Türk xaqanlığının süqutuna (630) qədər oğuzlar öz süzerenlərinə qarşı fasiləsiz qiyam şəraitində olmuşlar. 605-ci ildə Qərbi Türk xaqanı tərəfindən bir neçə yüz oğuz başçısının xəyanətkarcasına döyülmə-

sindən sonra uyğurların başçısı irkin titulu götürərək tayfanın bir hissəsini Şimali Monqolustana apardı. Onlar, Çin mənbələrində «doqquz tayfa» adını alan xüsusi oğuz qrupunu yaratdılar. Orxon yazılarında onlar tokuz-oğuz (müsəlman mənbələrində – tokuzquz), «doqquz-oğuz» adı ilə məlumdur. 630-cu ildən tokuz-oğuzlar Çin sülalələrinin tarixində nəzərə çarpan siyasi və hərbi güc kimi çıxış edirlər. VII əsrin 40-cı illərində tokuz-oğuz birliyinin daxilində liderlik uyğurların, daha doğrusu on uyğur tayfasından yaqlakar tayfası başda olmaqla qrupun əlinə keçdi.

Tokuz-oğuzun başçısı uyğur eltəbəri Tumidu təxminən 647-ci ildə Monqolustanın şimalında, Tola çayı üzərində qərargahı olan dövlətini yaratdı. Çin salnaməçilərinin verdiyi məlumata görə: «Tumidu özbaşına özünü xaqan elan etdi, türkütlərinki (vəzifələri) kimi məmur vəzifələri təsis etdi.» Tan hökuməti yeni yaranan dövləti tanımadı. Bundan əlavə, 660-663-cü illərdə tokuz-oğuzlarla Tan imperiyası arasında müharibə oldu. Çin qoşunu qələbə əldə edə bilmədi. Münaqişə dinc vasitələrlə tənzim olundu.

VII əsrin 80-ci illərinin sonunda tokuz-oğuzlar öz dövlətlərini dirçəldən Şərqi türkütlərlə döyüşlərdə məğlub oldular. Tokuz-oğuz tayfalarının türk hökmranlığını qəbul etmək istəməyən hissəsi Etzin-qolun aşağılarına doğru getdi və Tan protektoratını tanıyaraq Qançjou və Lançjouda (Qansu) məskunlaşdı. Uyğur tayfalarının bu qrupu 843-cü ildən sonra Qançjouda Uyğur dövlətinin özəyini təşkil etdi. 727-ci ildə tokuz-oğuzların bir hissəsi Çin canişininin hərəkətləri ilə qiyama təhrik edilərək Monqolustana, türk hakimiyyəti altına qaçmağa məcbur oldu. Sonralar Uyğur xaqanlığının başçıları məhz bu qrupun içərisindən irəli sürülürdü.

744-745-ci illərdə, yuxarıda qeyd etdiyimiz kimi, uyğur, basmil və karlukların birləşmiş qüvvələri ikinci Türk xaqanlığını çökdürdülər. 746-747-ci illərdə Uyğur xanı Moyançur (745-759) öz müttəfiqlərini hərbi məğlubiyyətə uğratdı və basmilləri tabe etdi. Karlukların çox hissəsi Yeddi Su və Cunqariyaya qaçdı. Orada onlar sonralar (766) qərbi türküt tayfaları arasında öncül yeri tutdular.



Uyğur xaqanlığı Mərkəzi Asiyada mühüm siyasi qüvvəyə çevrildi. VIII əsrin 50-60-cı illərində Tan imperatoru Syuantzuna qarşı Çin sərkərdələri An-Luşan və Şi Si-Minin qaldırdıqları üsyanın yatırılmasında uyğur süvariləri həlledici rol oynadılar. Bununla belə, bu üsyan Tan imperiyasının süqutunun başlanğıcı oldu.

Hərbi qənimət və imperator hədiyyələri ilə birlikdə uyğur Bögü xaqan Orxon üzərindəki paytaxtı Ordubalığa Loyanda qəbul etdiyi yeni təlim olan maniçiliyin təbliğçilərini – Soqd missionerlərini də apardı.

VIII əsrin 80-ci illərində Monqolustandakı uyğur sülaləsi ilə Şərqi Türküstan əhalisi arasındakı münasibətlər kəskin surətdə pisləşdi. Xaqanın qərargahı Ordubalıqda maniçilərin əleyhinə çevriliş baş verdi. Çevrilişi uyğur sarayında çinpərəstlərə başçılıq edən, xaqanın uzaq qohumu Ton Baqa-Tarkan təşkil etmişdi. Bögü xaqan, iki oğlu, yaxın müşavirləri və çoxlu soqdalılar, o cümlədən xaqanın ətrafında olan mani təlimçiləri də öldürüldü. Qiyamçı əyan Alp Kutluq-Bilgə xaqan elan olundu (780-789). Hakimiyyətə Yaqlakar sülaləsinin yan budağı gəldi.

Bögü xaqana Tarim hövzəsində möhkəmlənmək imkanı verən ittifaq və protektoratın müqavilə prinsiplərinin şərtləri pozuldu. Yeni uyğur xaqanları ticarətin mənafeyi naminə, maniçiliyin yeganə hakim din olduğu Tarim vadisində soqd və türküt icmalarının bilavasitə vergilərlə soyulmasına üstünlük verirdilər. Məhz soqd və türk mani dini rəhbərləri Yeddi Sudan Daxili Çinə qədər olan yolda ticarət əməliyyatlarının əsas əlaqələndiriciləri idi. Bu yolun bir hissəsi Ordubalıqdan keçirdi və Alp Qutluq tərəfindən bağlanmışdı. Nəticədə şəhərlilər və onları dəstəkləyən karluk tayfaları uyğurlara qarşı üsyana qalxdılar. Uyğur qoşunu məğlub oldu, 790-ci ildə isə uyğurların çoxdankı rəqibi olan tibetlilər yerli əhalinin köməyi ilə uyğurların son istinadgahı olan Beşbalığı tutdular. 791-ci ildə

50-60 min nəfərlik yeni uyğur ordusu hadisələrin xoşagəlməz gedişatını dəyişdirməyə cəhd etsə də məğlubiyyətə uğradı.

795-ci ildə Ordubalıqda hakimiyyətə ediz tayfasından olan yeni sülalə gəldi. Onun əsasını Alp Qutluq xaqan (795-805) qoydu. Ordubalıqda «dünya dini» bərpa olundu və mani pastoru yenidən xaqanlığın paytaxtını özünün iqamətgahına çevirdi. Ediz tayfasından olan xaqan öz hakimiyyətini legitimləşdirmək üçün «Yaqlakar» ləqəbini götürərək özünü əvvəlki sülalə ilə eyniləşdirdi.

Şərqdə mani məbədinin başçısı ilə ittifaq və müqavilə münasibətləri 15 illik fasilədən sonra bərpa edildi. Tarim vadisində uyğurların hakimiyyəti yenidən dayaq əldə etdi. Vergi və ödənclərlə bağlı mübahisələr tənzimləndi. Qarabalqasun yazısına (806) görə, xaqan təbəələrinə «öz işləri (adi) ilə» məşğul olmağı əmr etdi. Şərqi Türküstanın türk mani icmaları yenidən Ordubalıq xaqanlarının himayə və hakimiyyətlərini qəbul etdilər. Tarim hövzəsinin şəhərlərində Uyğur xaqanının yaxın qohumları hakimiyyətə gəldilər.

IX əsrin ilk onilliyində Uyğur xaqanlığının ən başlıca düşməni Yenisey qırğızları oldu. Tuva uğrunda uzun müddət müharibə getdi. Uyğurlar burada ön istehkam xəttini qurdular. 820-ci ildən sonra, Çin mənbələrinin Ajo adlandırdığı qırğız hakimi Uyğur xaqanı ilə Monqolustanda hakimiyyət uğrunda müharibəyə başladı. Ordubalıqdakı ara müharibələri onun uğur qazanmasına səbəb oldu. 840-cı ildə qiyamçı uyğur sərkərdəsi Külüg Baqa-Tarkanla səylərini birləşdirən Ajo uyğur paytaxtı Ordubalığı tutdu. Uyğur xaqanı döyüşdə həlak oldu.

Yaqlakar Panle – Tegin (gələcəkdə Menqlik xaqan) başda olmaqla tokuz-oğuz tayfaları yol boyu geridə qalan və ruhdan düşənləri itirib, vətəni Yenisey qırğızlarına qoyaraq Şərqi Tyanşanyanı əraziyə, əvvəlki sərhədyanı torpaqlara gəldilər. Uyğurların digər qrupu Beşbalıqda möhkəmləndi. Onun rəhbəri Buku Çin 866-cı ildə Turfanı tutdu. Tibetliləri darmadağın edən Buku Çin bütün Tarim hövzəsinin hakiminə çevrildi. Şərqi Türküstan Uyğur dövləti Koçonun əsası belə qoyuldu.



**Avar xaqanlığı.** Xalqların böyük köçü nəticəsində iki yüz əlli il Karpat hövzəsi rayonunda (müasir Dunayarxası, Mərkəzi Macarıstan, Transilvaniya) məskunlaşan avarlar burada güclü siyasi hakimiyyətə malik idi. Yeni ərazidə möhkəmlənən avarlar yeni dövlət birliyi – Avar xaqanlığını yaratdılar. İlk hakim onların başçısı Bayan xaqan idi. Burada yaşayan bütün tayfalar, o cümlədən slavyanlar və gepidlər ona tabe idi. Təxminən yüz il xaqanın hakimiyyəti köçərilərin məskunlaşdığı Cənubi rus çölünün bir hissəsinə yayılmışdı. Bundan əlavə, VI əsrin sonunda Avar xaqanlığına türklərin təqib etdikləri kutriqur, tarniax və zabender tayfaları axın etdilər.

Bu zaman bizanslılar özlərinin şərq ucqarlarında farslarla müharibə aparırdılar. Yaranmış şərait avarlar üçün əlverişli idi: VI əsrin 70-90-cı illərində onlar slavyanlarla birlikdə Bizansın Dunayın aşağı axarındakı torpaqlarına soyğunçu yürüşlər edirdildər. Ancaq Bizans 591-ci ildə farslar üzərində qələbə çalandan sonra müəyyən müddətə avarları Balkan ərazisindən sıxışdırdı.

Sonralar Avar-Bizans toqquşmaları dəyişkən uğurla keçirdi. Bayan xaqanın qoşunu Konstantinopola qədər gedib çatırdı, lakin bizanslılar onları geri oturdurdular. Bəzən xaqanın qoşununun bir hissəsi qarşı tərəfə keçirdi.

Avarların qərb qonşuları da sülhsevər deyildilər. 595-ci ildə slavyanlarla birlikdə onlar bavar tayfaları, sonra isə franklarla mübarizəyə girməli oldular. VII əsrdə Avar torpaqlarının qərb sərhəddində slavyanlar frank taciri Samo başda olmaqla qısa müddətə (623-658) çex, morav, slavyan və başqalarını birləşdirən dövlət yaratdılar. Onların avarlara qarşı qaldırdığı üsyan müvəffəqiyyət qazandı. Bundan əlavə, 631-ci ildə onlar franklar üzərində də qələbə çaldılar. Ancaq Samonun vəfatından sonra dövlət süqut etdi.

Bu zaman Avar xaqanlığı, Bayan sülaləsinin bitməsi ilə əlaqədar ağır daxili böhran keçirirdi. Kutriqur – bolqar birləşməsi xaqanın qızıl taxtını ələ keçirmək məqsədilə ölkə daxilin-

də üsyan qaldırdı. Avarlar üsyanı yatırdılar. Bunun nəticəsində onlar xaqanlığın ərazisindən sıxışdırıldılar.

VII əsrin 70-ci illərində protobolqarlar Dunay boyunca məskunlaşdılar və öz dövlət birliyini yaratdılar. IX əsrə qədər onlar avarlarla dost münasibəti saxlayırdılar. Avar xaqanlığının başında xaqan dururdu. Onun birinci xanımı Xatun adlanırdı. Xaqanın canişinləri Tudun və Yuqur idilər. Ölkədə bacı xaqanın göstərişi ilə tarxanlar – əyanlar toplayırdılar. İerarxiya nərdivanında tarxanlardan aşağıda tayfa və qəbilə başçıları dururdu. Avar cəmiyyətinin böyük hissəsini döyüşçülər təşkil edirdi.

Avar təsərrüfatının əsasını yarım köçəri maldarlıq təşkil edirdi. Tədricən yarım köçəri həyat tərzi oturaqla əvəz olundu. Buna görə də əhalinin bir hissəsi əkinçiliklə məşğul olurdu. Avar məişətində at mühüm rol oynayırdı.

Uzaqlardan, Şərqdən Avar xaqanlığına tacirlər gəlirdi. Bəzi məlumatlara görə, mühüm ticarət yolları Karpatlardan Qərbə gedirdi. Avarlar ticarət karvanlarından gömrük alırdılar. Nəticədə ayrı-ayrı əyalət hakimlərinin və xaqanın özünün nüfuzu xeyli artırdı. Bizanslılar xaqana bacı qızılla ödəyirdilər.

**Xaqanlığın süqutu.** Avarlar franklar üçün daha qorxulu düşmən idi. Buna görə də onlar əvvəlcə avarlarla dost olmağa çalışdılar. 780-ci ildə Vormeyə avar səfirləri gəldi, sonra isə frank səfirliyi xaqanlığa getdi. Bununla belə, 788-ci ildə Bavariya knyazı Tassilo avarlarla franklara qarşı ittifaq bağlaya bildi. Lakin onların qoşunu darmadağın edildi.

791-ci ildə franklar xaqanlığa qarşı çıxdılar. Böyük Karlın başçılığı ilə frankların əsas qüvvələri Dunay boyunca Şərqə doğru irəlilədilər.Xaqanlığın öz daxilində çəkişmələr başlandı.

Daxili qarışıqlığın gedişində Yuqur öldürüldü. Sonra isə xaqanın özünü də öldürdülər. 795-ci ildə Tudun xristianlığı qəbul etməyə cəhd göstərdi və bununla əlaqədar frankların yanına elçilərini göndərdi. O, 796-cı ildə şəxsən Axenə gəlib krala sədaqət andı içdi.



Vəliəhd Pipin başda olmaqla Frank qoşunu Avar xaqanının iqamətgahını tutdu. Avarların çoxu Tisa çayının arxasına qaçaraq xilas oldu,ancaq daha böyük hissəsi əsir düşdü. Avar xaqanlığının siyasi müstəqilliyini ləğv edən franklar tam qələbə çaldılar.

Arxeoloji məlumatlar avarların runi yazısını bildiyini sübut edir. Bəzi mənbələr avarların şaman, digərləri isə – bütpərəst olduğunu xəbər verir.

**Qırğız xaqanlığı.** Qırğızlar Mərkəzi Asiyanın ən qədim xalqıdır. Hələ VI əsrdə Cənubi Sibir və Sayan – Altayda Yenisey qırğızlarının dövlət qurumları var idi. Dövlətin ərazisi, əsasən Orta Yeniseydən Sayan dağlarının ətəklərinə qədər Minusin çökəkliyini əhatə edirdi. VI əsrdən IX əsrə qədər Minusin vadisi güclü qarnizonun yerləşdiyi Şərqi Türk xaqanlığının tərkibinə daxil idi.

VII əsrin sonu – VIII əsrin əvvəllərində Yenisey qırğızları güclü tayfa birliyinə çevrilərək Qırğız xaqanlığını yaratdılar. Dövlətin başçısı Barsbay xaqan idi. O, «İnanc Alp Bilgə» titulunu götürmüşdü. Barsbay türkeşlərlə dostluq münasibətləri yaradaraq, türkütlərlə mübarizə aparırdı.

711-ci ildə Barsbay Türkeş və Tan dövlətləri ilə birlikdə Şərqi Türk xaqanlığına qarşı müharibəyə hazırlaşdı. Ancaq Kapaqan xaqan bundan xəbər tutaraq onları qabaqladı. Tonyukukun məsləhəti ilə o, yürüşə qışda başladı və Sayan dağlarını keçərək qırğızlara hücum etdi. Qalib gələn Kapaqan 20 minlik ordu ilə Altay dağlarını aşıb İrtış çayına çıxdı. Boludju adlanan yerdə döyüş zamanı Türkeş xanı Sakal məğlub oldu. Tezliklə Barsbay xaqan öldürüldü.

740-cı ildə Türk xaqanlığı süqut etdikdən sonra qırğızlar uyğurlara tabe oldular. Qırğız döyüşçüləri 20 il müstəqillik uğrunda mübarizə apararaq Sayan dağlarını aşıb 840-cı ildə Mərkəzi Asiyaya daxil oldular. Döyüş zamanı Uyğur xaqanı öldürüldü. Nəticədə Qırğız xaqanlığı yenidən yaradıldı. X əsrdə qırğızlar islam dinini qəbul etdilər.

## § 5. Türk xalqları Ərəb xilafətinin hökmranlığı altında

Suriya, Fələstin və İranı işğal edən ərəblər Mərkəzi Asiyaya doğru irəlilədilər. 644-cü ildə onlar Xorasana daxil oldular. Ərəblər 651-ci ildə Şərqin ən böyük iqtisadi və mədəni mərkəzi olan Mərv şəhərini döyüşsüz tutdular. Bundan sonra onlar Toxarıstan, Soqdiana, Surxandərya və Xarəzmə yürüş təşkil etdilər. Mavərənnəhrin yerli hakimləri bac ödəyərək onu dağılmaqdan xilas etdilər.

672-ci ildə Übeydulla ibn Ziyad Romitanı tutdu. Nəticədə Buxara təhlükə qarşısında qaldı. Xəlifə Müaviyənin göstərişi ilə onun qoşunu 674-cü ildə Amudəryanın sahillərinə çıxdı və Peykəndi tutdu. Bundan sonra ərəblər Buxaraya hücum edib şəhəri qarətə məruz qoydular.

Xəlifə 675-ci ildə Übeydullanı Xorasandan geri çağırdı və onun yerinə Səid ibn Osmanı təyin etdi. Səid böyük ordu ilə Buxaraya yürüş etdi. Buxara hakimi 300 min dirhəm bac ödəyərək şəhəri dağıntıdan xilas etdi və barışıq imzaladı. Ərəblər buradan Səmərqəndə doğru irəlilədilər. Soqdiana əhalisi bir ay ərəblərə müqavimət göstərdi. Sonuncular barışığa gəlmək məcburiyyətində qaldılar. Buxaralılar Səid ibn Osmandan qarət etdiyi qəniməti geri qaytarmağı tələb etdilər. Ancaq onların tələbinə məhəl qoymayan Səid qəniməti Mədinəyə göndərdi. Əsirlərin bir hissəsi saraya hücum edib Səidi öldürdü.

699-cu ildə Xorasan canişini əl-Mühəlləb Amudərya çayı vasitəsilə Qaşqadərya vadisinə daxil oldu. 703-cü ildə onun davamçıları Xarəzmə, 704-cü ildə isə Surxandərya vadisinə hərbi yürüş təşkil etdilər.

Xilafət 705-ci ildə Küteybə ibn Müslümü Xorasana canişin təyin etdi. Sonuncu Mavərənnəhri tutub, 706-cı ildə Buxara vadisinin işğalına başladı. Buxara, Soqd və Peykəndin hakimləri türkeşlərlə ittifaqda müharibəyə başladılar. Ancaq Küteybə diplomatik yolla onları ayrı-ayrılıqda neytrallaşdıra bildi. Rabincan yaxınlığındakı döyüşdə məğlub olan soqdalılar Səmərqəndə geri çəkilərək Fərqanədən hərbi yardım istədilər. Səmərqənd üzərinə hücuma keçən ərəblər soqdalılara qalib gəldilər. Sonuncular sülh istədilər. Soqd hakimi Turek xan barışığın şərtlərinə görə ərəblərə ildə 200 min dirhəm bac və 3 min qul, eləcə də çoxlu miqdarda qızıl, gümüş, daş-qaş və ipək verməli idi. Xarəzmi tutan ərəblər Xarəzmşah Əskicimuku hakimiyyətdən kənarlaşdırdılar.



Ərəblərin irəliləməsi Çini narahat edirdi. 714-cü ildə Çin qoşunu Yeddi-Su ərazisində Tokmak başda olmaqla türk tayfa ittifaqına hücuma keçərək tabe etdi. Çin-ərəb toqquşması qaçılmaz oldu.

716-cı ildə ərəblər, hakimi Su-lu adlı bir türk olan Dehistana qarşı müharibəyə başladılar. Su-lunun azsaylı qoşunu məğlubiyyətə uğradı. Ərəblər Çul şəhərini tutaraq indiki Türkmənistanın Xəzər və Amudəryaya qədər olan ərazisini işğal etdilər. Türkeşlərin başçısı Su-lu 716-cı ildə özünü xaqan elan edib, bəzi türk tayfalarını öz ətrafında birləşdirdi. Bundan sonra türkeşlər Mərkəzi Asiyanın siyasi həyatında mühüm rol oynamağa başladılar.

Ərəb, türkeş və tibetlilər 717-ci ildə Mərkəzi Asiyada Çinə qarşı dirəniş göstərirdilər. 715-720-ci illərdə ərəblər tutduqları torpaqlarda möhkəmləndilər. Bu məqsədlə Buxara və Səmərqəndə çoxlu sayda ərəb tayfaları köçürüldü. Ərəb əmirləri böyük həcmdə vergi toplayır, çoxallahlılar arasında islamı yayırdıldar. Türklərin islamı qəbul etməsi xilafətdə onların mövqeyinin möhkəmlənməsinə səbəb oldu. İlk zamanlar Buxara, Səmərqənd, Ürgənc və Xorasan əhalisinin bir hissəsi öz inanc və adətlərini qoruyub saxlaya bildi. Ərəblər ara çəkişmələrinə son qoyub tutduqları ərazilərdə sabitliyə nail oldular. Onlar qoca, qadın, xəstə və uşaqlara humanistcəsinə yanaşırdılar. Bu isə qısa müddətdə islamın Xorasan, Xivə, Bəlx, Buxara və ərəblərin tutduqları digər ölkələrə də yayılmasına səbəb oldu.

VIII əsrin ortalarında islam Asiya, Cənubi Qazaxıstanın Xəzərsahili regionlarına, Volqa sahillərinə yayıldı. Şimali Qazaxıstan və Qərbi Sibir əhalisi isə öz etiqadlarını qoruyub saxladılar.

Əməvilərə qarşı üsyan dalğası Mərkəzi Asiyanı da bürüdü. 720-ci ildə Soqdiana ərəblərin asılılığından çıxdı. Səid ibn Osman üsyançıların öhdəsindən gələ bilmədiyinə görə onu Səid ibn Ömər əl- Xaraşi əvəz etdi. O, Soqdda üsyanı yatırdı. Divaşac başda olmaqla Qala-Miqə qaçan üsyançılar məğlubiyyətə uğradılar. Əl-Xaraşi üsyanın başçısını Rabincanda edam etdirdi.

723-cü ildə əl-Xaraşi vəzifəsindən kənarlaşdırıldı və onun yerinə Müslüm ibn Səid təyin edildi. O, yerli feodallara xeyirxah münasibət bəsləyirdi, nəticədə üsyanlar dayandırıldı.

Müslüm Buxaraya yürüş təşkil etdi və Fərqanəni mühasirəyə aldı. Su-lu xaqan başda olmaqla türkeş ordusu Fərqanənin köməyinə gəldi, ərəbləri darmadağın edərək onlardan 1 mln. dirhəm müsadirə etdi. Bundan sonra Mavərənnəhr türkeşlərin əlinə keçdi.

Əsəd ibn Abdullanın canişinliyi dövründə Amudərya ilə Sırdərya arasındakı ikiçayarası ərazi yenidən ərəblər tərəfindən tutuldu. 729-cu ildə onlar Buxaranı da işğal etdilər.

Asim ibn Abdulla əl-Hilalinin hakimiyyəti dövründə 734-735-ci illərdə Bəlx, Curcan, Fərabi və Talkan yenidən tutuldu. 737-ci ildə ərəblərin yürüşü zamanı türkeşlərin əhaliyə göstərdiyi kömək onları geri qaçmağa vadar etdi. Heristan yaxınlığındakı döyüşdə türkeş ordusu məğlub oldu. Türkeş xanı Sulu xaqan Sarı türkeş Baqa Tarxan tərəfindən öldürüldü. Ərəblərlə birləşən sarı-türkeşlər Türkeş dövlətinin paytaxtı Suyab şəhərini tutub qarət etdilər. Bundan sonra Türkeş xaqanlığı süqut etdi.

739-740-cı illərdə ərəblər yenidən Səmərqənd, Fərqanə, Usruşanı və digər əraziləri tutdular. Abbasilər sülaləsinin başçısı İbrahim ibn Məhəmməd 745-ci ildə öz tərəfdarı Əbu Müslümü Xorasana canişin təyin etdi. Sonuncu Mərvə gələrək Əməvilərə qarşı açıq təbliğat aparmağa başladı. Bu o dövr idi ki, ərəb xilafətini Əməvilərə qarşı çevrilmiş üsyanlar bürümüşdü. Onlardan ən güclüsü 747-ci ildə Mərvdə Əbu Müslümün başçılığı ilə hərəkat idi. O, çox çevik və uzaqgörən olub, əməvilərə qarşı mübarizədə bütün mümkün vasitələrdən istifadə edirdi. Xorasana gələn Əbu Müslüm Toxarıstanda, Mavərənnəhrdə özünə tərəfdarlar topladı və Abbasiləri tərifləyən təbliğatçılar hazırladı.



Xorasanda kök salmış ənənəyə görə ərəblərin əleyhinə hərəkatlar məsihin intizarı adı altında həyata keçirilirdi. Məsihin gəlişi ilə insanların hakimiyyət tərəfindən sıxışdırılmasına son qoyulacaq və ədalət bərpa olunacaqdı. Bu şərait yerli aristokratiyanın Xalid ibn Barmək başda olmaqla bir çox nümayəndələrinin Əbu Müslümün tərəfinə keçməsinə səbəb oldu.

Hakim sülalənin üzvləri arasında siyasi qarşıdurma nəticəsində mərkəz zəiflədi. Beləliklə, ərəblər, tayfalararası çəkişmələrin başlandığı Xorasanda öz mövqeyini itirdilər.

Xərac və cizyənin həcmindən narazı qalan əkinçilər və tacirlər üsyançıların sıralarına daxil olmaq çağırışına qoşuldular. Onlara Əməvilər sülaləsinin devrilməsi və Peyğəmbərin ailəsinin hakimiyyətinin qurulması, bütün müsəlmanların bərabərliyi və rifahının təmin olunacağı vəd edilirdi. Buna görə də Əbu Müslümə əmin əl-Məhəmməd (Məhəmməd ailəsinin müvəkkili), tərəfdarlarına isə müsavvid, yəni qara geyimlilər adını vermişdilər. Bu üsyan mütəşəkkil xarakter daşıyırdı. Ərəb canişini Nəsr ibn Səyyar Nişapura qaçdı. Əbu Müslümün sərkərdəsi Əbu Davud Bəlxi tutdu. 748-ci ildə Nəsr ibn Səyyar Tus şəhəri yaxınlığında məğlub oldu və Əbu Müslüm Mərkəzi Asiyanın sahibinə çevrildi. Üsyançıların təqib etdiyi Xorasan canişini Nəsr ibn Səyyar Rey şəhərində vəfat etdi. İraq canişini ibn Xübeyr 748-ci ildə Tus yaxınlığında və Gurganda, 26 iyun 749-cu ildə isə Nəhavənd döyüşlərində darmadağın edildi. İraqa yol açılmış oldu. Əbu Müslümün tərəfdarları Abbasilərin Kufədəki nümayəndəsi Əbu əl-Abbasla əlaqə yaratdılar və 749-cu ildə yerli məsciddə onu hamının qarşısında əs-Səffah adı ilə ilk Abbasi xəlifəsi elan etdilər. Beləliklə, Əməvilərin 89 illik hakimiyyətinə son qoyuldu. 750-ci ildən başlayaraq xilafəti Abbasilər idarə etdilər.

751-ci ildə Buxarada yeni Abbasilər sülaləsinə qarşı Şərik ibn Şeyx əl-Mehdinin üsyanı baş verdi. Tezliklə üsyan Əbu Müslüm tərəfindən yatırıldı, Şərik öldürüldü. Buxaralılar geri çəkildilər, onları təqib edən dəstə isə Tamas şəhərini tutdu və orada çinlilərin mühasirəsinə düşdü. Xorasan canişini Əbu Müslümün sərkərdələrindən biri – Ziyad ibn Saleh ərəblərin köməyinə gəldi. Onun qarşısına 100 minlik Tan ordusu çıxdı. 751-ci ilin iyun ayında tərəflər Talas çayında görüşdülər. Qarşıdurmanın beşinci günü çinlilərə arxadan karluklar, ön cəbhədən isə ərəblər zərbə endirdilər. Çin ordusu darmadağın edildi. Bundan sonra Çin Mərkəzi Asiyanın işğalı planından imtina etdi. Türk etnosu isə müsəlman dünyasında daha əhəmiyyətli rol oynamağa başladı.

Xilafət taxtına 754-cü ildə Əbu Cəfər əl-Mənsur çıxdı. O, əmisi Abdulla ibn Əlinin müqavimətini qırmaq üçün o zaman qüdrətli olan Əbu Müslümdən kömək istədi. Sonuncu 754-cü ilin noyabr ayında qiyamçının ordusunu darmadağın etdi.

Əbu Müslümin nüfuzunun artması ərəb xilafətini narahat etməyə başladı. Onu aldadaraq saraya çağırıb 755-ci ildə orada öldürdülər. Bu, xalq arasında narazılığa səbəb oldu. Nəticədə Nişapurda zərdüştlüyün tərəfdarı olan Sumbatın başçılığı ilə üsyan qalxdı. Üsyançılar Nişapuru, Kumısı, Reyi tutdular. Bu üsyan başlanandan səksən gün sonra yatırıldı.

Mavərənnəhrdə İshaqın başçılığı ilə üsyan qalxdı. O deyirdi ki, Zərdüştün ruhu Əbu Müslümün bədəninə köçmüşdür. Üsyan başlanandan bir il sonra İshaq Mərvdə öldürüldü.

767-ci ildə Heratda Ustad Sisin üsyanı başlandı və qəddarcasına yatırıldı. Yusif ibn İbrahim əl-Bərmənin başçılığı ilə 777-ci ildə Buşəkc şəhərində üsyan başlandı. Üsyançılar qırmızı bayraq qaldırdılar və özlərini Məzdək ideyasının tərəfdarları elan etdilər. Bu üsyan Soqd, Fərqanə və Xorasan ərazisinə yayıldı. Bir müddət sonra Yusif əl-Bərmə Bağdadda xəlifə əl-Mehdinin sarayında öldürüldü.

Daha güclü üsyan 765-785-ci illərdə, özünü və ardıcıllarını Məzdəkin (V əsr) həyat yoldaşı Xürrəmin şərəfinə xürrəmilər



adlandıran Muğannanın başçılığı ilə oldu. Muğannanın əsl adı Hakim ibn Haşim, bəzi mənbələrə görə Ata idi. Muğanna- «niqabla örtülü» mənasını daşıyan ləqəbdir. O, ağ qiyafə geyinərək deyirdi ki, onun bədəninə ilahi ruh köçüb və o, insanların bərabərliyi uğrunda mübarizə aparır. Muğanna Mərvdə doğulmuş və Əbu Müslümün hərəkatında iştirak etdiyinə görə 15 il müddətinə həbs edilmişdi. O, həbsdən qaçaraq gizli təşkilat yaratdı və panteizm ideyalarını təbliğ etməyə başladı. Muğanna «Vəhdət əl-vücud» ideyasını irəli sürərək böyük şöhrət qazandı.

Hərəkatın mərkəzi Buxarada yerləşirdi, sonra o, Qaşqadərya və Zərəfşan vadisinə də yayıldı. Üsyançılar Buxaranı tuta bilməyərək, hakimi Muğannanın tərəfinə keçən Narşah əyalətinə çəkildilər. Ancaq 766-cı ildə onun dəstəsi Narşah yaxınlığında məğlub oldu, 700 nəfərdən çox adam öldürüldü. Muğanna Sənəm qalasına çəkildi. Uzun müddətli mühasirədən sonra ərəblər Muğannanın qalasını tutdular. O, zəhər içərək, intihar etdi. 785-ci ildə ərəblər üsyanı yatırdılar. Ərəblərə qarşı mübarizə IX əsrin əvvəllərinə qədər davam etdi, nəticədə Xorasan tamamilə müstəqil oldu.

## III FƏSİL
## TÜRK DÖVLƏTLƏRİ IX-XIII ƏSRLƏRDƏ

### § 1. Mərkəzi Asiya dövlətləri IX-XIII əsrlərdə

Mərkəzi Asiyada Ərəb Xilafətinə qarşı xalq hərəkatı yerli feodalların dövlət idarəçiliyi sisteminə cəlb edilməsinə səbəb oldu. Belə əyanlardan biri Heratdan olan Tahir ibn Hüseyn idi. O, 810-cu ildə əl-Əminlə qardaş qırğını zamanı xəlifə əl-Məmunun ordusuna komandanlığa irəli çəkilmişdi. Bağdad tutulduqdan sonra o, Əl-Cəzirənin hakimi oldu. 821-ci ildə Tahir Xorasanın canişini təyin edildi. Bu canişinliyin mərkəzi Nişapur şəhəri oldu. Tezliklə Tahir ibn Hüseyn vəfat etdi və onun yerinə oğlu Əbul Abbas Abdulla təyin edildi. Abbas Abdullanın hakimliyi dövründə canişinlik müstəqil dövlətə çevrildi.

**Samanilər dövləti.** Tahirilər Xorasanı yerli feodallarla, o cümlədən Səmərqənddə mənşəcə fars olub, əl-Məmunu vətəndaş müharibəsində dəstəkləyən Samanilər ailəsi ilə ittifaqda idarə edirdilər. Xəlifə minnətdarlıq əlaməti olaraq Samanilər sülaləsinin banisi Saman – Xudanın dörd nəvəsini xidmətə götürdü: Nuh Səmərqəndin, Əhməd Fərqanənin, Yəhya Şaşanın, İlyas Heratın canişini oldu. Beləliklə, Samanilər (819-1005), paytaxtı Buxara olan Samanilər dövlətinin özəyi Mavərənnəhrdə möhkəmləndilər.

IX əsrin ortalarında, Buxara və Qaşqadərya istisna olmaqla, Mavərənnəhr Əhməd ibn Əsədin və oğlanlarının hakimiyyəti altında idi. 873-cü ildə Tahirilər sülaləsi süqut etdi. Əhmədin oğlu, Samanilər sülaləsindən olan Nəsr ibn Əhməd (865-892) Mavərənnəhrin müstəqil hakimi oldu və öz adından sikkə zərb etdirdi. Onun qardaşı İsmayıl ibn Əhməd 888-ci ildə qələbə çalaraq hakimiyyəti öz əlinə keçirdi. İsmayılın dövründə dövlət tam istiqlaliyyət əldə etdi və o, müstəqil daxili və xarici siyasət yürütməyə başladı. İsmayıl ibn Əhməd Samanilər dövlətinin ucqarlarında yaşayan köçəri türk tayfalarına qarşı dəfələrlə hərbi yürüşlər təşkil etdi (907-914). İsmayılın oğlu və nəvəsi – Əhməd və II Nəsrin (914-943) hakimiyyəti dövründə Samanilər dövlətinin tənəzzülü başlandı. Sırdərya vadisində oğuzların güclənməsi bu prosesi sürətləndirdi.



Samanilər dövləti Mərkəzi Asiyada islamın möhkəmlənməsində mühüm rol oynadı. Şərqin böyük dahiləri əl-Fərabi və İbn-Sina (Avisenna) Samanilər dövlətinin hökmranlığı dövründə yaşamışlar.

955-ci ildə Samanilərin görkəmli sərkərdəsi Alp-Tegin Xorasana əmir təyin olundu. O, Qəznənin canişini olaraq 962-ci ildə bütün hakimiyyəti öz əlində cəmləşdirdi. 963-cü ildə onun vəfatından sonra oğlu İshaq Xorasanı idarə etməyə başladı. Sonuncu 966-cı ildə vəfat etdi, ardıcılları Bilgə-Tegin (966-972) və Piri-Tegin (972-977) hakimiyyətdə bir-birini əvəz etdilər.

**Qəznəlilər dövləti.** Alp-Teginin qulamı (sərkərdə) Səbuk-Tegin 977-ci ildə hakimiyyəti ələ keçirib, paytaxtı Qəznə şəhəri olmaqla Qəznəlilər dövlətinin əsasını qoydu. Bu sülalənin hakimiyyəti 1187-ci ilə qədər davam etdi. Səbuk-Tegin Toxaristan, Zabulistan, Gur və Bəlucistan vilayətlərini tutaraq dövlətinin ərazisini genişləndirdi. Qəznəlilərin qoşunu 979-cu ildə Hindistana yürüş təşkil etdi və Şamqan şəhərini tutdu. 997-ci ildə Səbuk-Tegin qəflətən vəfat etdi, yerinə Mahmud (997-1030) keçdi və ilk dəfə sultan titulunu qəbul etdi. O, Xarəzmi, Hindistanın bəzi bölgələrini və İranın bir hissəsini dövlətinə birləşdirdi. Bağdad xəlifəsi onu müstəqil hökmdar kimi tanıdı. Bu, Mahmudu ruhlandırdı və 1002-ci ildə o, Seistanı tutaraq özünü sultan elan etdi.

Mahmud Qəznəli dəfələrlə Hindistana yürüş edərək Kəşmir, Pəncab və Qucaratı tutdu. O, Hindistandan 53 min əsir və 350 fil gətirdi, bütün Əfqanıstan ərazisini işğal etdi. 1017-ci ildə sultan Mahmud Xarəzmşah Məmunun öldürülməsi xəbərini alan kimi onun torpaqlarını tutdu. O, 1024-ci ildə Bəlx şəhərinə irəlilədi və oradan Amudəryanın sahilinə çıxdı, 1029-cu ildə isə Rey şəhərini ələ keçirdi. Beləliklə, sultan Mahmud Qəznəli Hindistandan Xarəzmə və Xəzər dənizinin sahilinə qədər

əraziləri birləşdirdi. Bu dövlət Orta Şərqin ən güclü dövlətinə çevrildi.

Sultan Mahmudun vəfatından sonra hakimiyyətə kiçik oğlu Məhəmməd gəldi. Ancaq onun qardaşı Məsud Mahmud qiyam qaldıraraq onu hakimiyyətdən devirdi və özü taxta oturdu. O, qardaşını və bütün ailəsini həbsxanaya saldı. Ancaq Məsud Mahmud saraydakı rüşvətxorluq və fitnəkarlığın öhdəsindən gələ bilmədi.

Sultan Məsud Mahmud qonşu dövlətlərlə dostluq münasibətləri saxlayırdı. Lakin 1035-ci ildə Xorasanın səlcuqlar tərəfindən tutulması haqqında xəbəri alan Məsud Mahmud Nişapurda çoxsaylı hərbi qüvvələr yerləşdirdi, onlar hücuma keçdilər. Təşəbbüsü ələ keçirən səlcuqlar onları Bəlx şəhərini buraxıb geri çəkilməyə məcbur etdilər. 1040-cı ildə Nişapura çəkilən qəznəlilər Dəndənakan yaxınlığında darmadağın edildilər. Sultan Məsud Mahmud yeni ordu yığmaq üçün Hindistana çəkildi. O, yürüş ərəfəsində Türkmənistan hakimi Arslan xana məktub göndərib hərbi yardım istədi.

Məsud Mahmud qardaşı Məhəmmədi səlcuqlara qarşı mübarizədə istifadə etmək məqsədilə həbsxanadan azad etdi. Ancaq Məhəmmədin yaxın adamları hərbi çevriliş edərək onu sultan elan etdilər. Məsud Mahmud edam olundu. Məsud Mahmudun oğlu Mövlud bu xəbəri eşidib Qəznəyə gəldi və əmisinə qarşı qiyam qaldırdı. Dinurə (Fəthabad) adlı yerin yaxınlığında qalib gələn Mövlud Məhəmmədi və oğlanlarını edam etdirdi.

Sultan Mövlud Termiz və Bəlxdə öz mövqelərini möhkəmləndərək Hindistanda hərbi qüvvələrin səfərbərliyinə başladı. Tezliklə onun ordusu səlcuqlar tərəfindən darmadağın edildi. Mövlud 1049-1050-ci illərdə Hindistan, Türküstan və digər qonşu dövlətlərin hakimləri ilə ittifaq bağlayıb Xorasana hücuma başladı, lakin qəflətən xəstələnib öldü.

1059-cu ildə Səlcuqlar Bəlxi tutdular. Beləliklə, Mavərənnəhrlə Qəznəlilər dövlətinin mərkəzi arasında əlaqələr kəsilmiş oldu. Bu isə Qəznəlilər dövlətinin zəifləməsi ilə nəticələndi.



1098-1099-cu illərdə səlcuqlarla qəznəlilər arasında qohumluq münasibətləri yarandı. III Məsud ibn İbrahim Səlcuq sultanı Səncərin qızı ilə evləndi. 1115-c ildə Məsudun vəfatından sonra oğlu Arslan ibn III Məsud taxta çıxdı. Ancaq Səlcuq sultanı Səncər Qəznəyə qoşun göndərib onu qovdu və Bəhram şahı taxta oturtdu.

Xosrov Məlikin hakimiyyəti dövründə (1160-1187) dövlət tənəzzül etdi. Qəznəlilər dövlətində türk dili hakim idi, lakin diplomatik yazışmalar, eləcə də elmi və ədəbi fəaliyyət ərəb və fars dillərində aparılırdı. Böyük Firdovsi özünün «Şahnamə» əsərini sultan Mahmud Qəznəliyə təqdim etmişdi. Sultan Mahmudun dövründə ibn Sina və əl-Biruni də Qəznədə yaşamışlar.

**Qaraxanilər dövləti.** X əsrin sonunda İli və Çu çaylarının sahillərində yaşayan Yeddi Su türkləri samaniləri darmadağın edib, Qaraxanilər sülaləsinin (927-1212) əsasını qoydular. Onun yaranmasında karluk, yaqma, çiqi və arqu kimi türk tayfaları da iştirak etmişlər. Sülalənin adı karluk tayfa başçısı Qaraxanın adından götürülmüşdü. Mənbələrin məlumatına görə, Qaraxanilər sülaləsinin banisi Bazır Arslanın oğlu Satuk Buğra xan (927-955) olmuşdur. Satuk sülalədə ilk olaraq islamı qəbul etmişdi. Onun Baytaş (müsəlman adı Musa) və Süleyman adlı iki oğlu var idi. Satuk vəfat etdikdən sonra, 955-ci ildə onun böyük oğlu Musa Qaşqarda hakimiyyəti ələ aldı və islamı Qaraxanilər dövlətinin rəsmi dini elan etdi. Onun qardaşı oğlu Harun Buğra xan (Əli, 975-998) dövlətin ərazisini genişləndirərək, Mərkəzi Tyan-Şanın cənub-şərq hissəsini və Qaşqarın şimal rayonlarını Qaraxani Qasqarının ərazisinə birləşdirdi. Tezliklə qaraxanilər Balasaqun şəhərini də tutdular. Şimali-şərqdə onların sərhədləri Balxaş, Sasuk-kul və Alak-kula qədər uzanırdı.

X əsrin 80-ci illərində Mərkəzi Tyan-Şanda və Qazaxıstan ərazisində möhkəmlənən qaraxanilər Fərqanəni, 990-cı ildə isə İsficabı tutub qərbə doğru irəlilədilər. 992-ci ildə Harun Buğra xan öz ordusu ilə Buxaraya hərəkət etdi. Sərkərdə Ayazın başçılıq etdiyi samani qoşunu məğlub oldu. Növbəti toqquşma

Xarçəngdə baş verdi. Samanilərin tərəfində döyüşən türk feodalı Faiq qoşunu ilə birlikdə qaraxanilərin tərəfinə keçdi və bununla da onlara qələbə qazandırdı. Harun Buğra xan samanilərin paytaxtı Buxaranı tutdu. 996-cı ildə onun vəfatından sonra oğlu Nəsir ibn Əlinin başçılıq etdiyi qoşun Mavərənnəhrə yürüş təşkil etdi. Qəznəli qoşununun komandanı Səbuk-Tegin danışıqlara başladı və Amudəryanın şimal ərazilərini onlara güzəştə getdi. Bu zaman samanilərin sarayında iğtişaş başlandı: saray adamları sultan Mənsur ibn Nuhu tutub kor etdilər. Nəsir ibn Əli 999-cu il oktyabrın 10-da Buxaranı ələ keçirərək Samanilər dövlətinə son qoydu, sonra isə Herat və Bəlx şəhərlərini tutdu. Bu yürüşlər nəticəsində Qaraxanilər dövləti Mərkəzi Asiyada ən qüdrətli dövlətə çevrildi.

Atasının yerinə hakimiyyətə gələn Harun Buğra xanın oğlu İlik xaqan (Əhməd) Səmərqənd və Buxaranı tutdu. Ancaq Qaraxanilər sülaləsinin digər qolunun nümayəndəsi Yusif Qədir xan hakimiyyəti Alp Teginin əlindən aldı.

Yusif Qədir xanın oğlu Əbu-Şüca Süleyman Arslan 1043-cü ildə Qaraxanilər dövlətinin ərazisini qardaşları və qohumları arasında böldü: Balasaqun və Qaşqarı özünə götürdü, qardaşları Buğra xan Məhəmməd və Arslan Teginə Tərəh və İsficabı, əmisi Tuban xana Fərqanəni, oğlu Alp-Teginə Buxara və Səmərqəndi verdi. Beləliklə, Qaraxanilər dövləti iki xaqanlığa ayrıldı: Mərkəzi Balasaqun, sonra isə Qasqar olmaqla Şərq, mərkəzi Üzkənd, sonra isə Səmərqənd olan Qərb. Şərq xaqanlığının ərazisi Yeddi Su, Çu çayının sahili, Talas vadisi və Sırdəryanın şərq rayonlarını əhatə edirdi. Qərbi Qaraxanilərin ərazisi isə Cunqariyanın sərhədlərinə qədər uzanırdı.

XI əsrin 40-cı illərinin başlanğıcında hakimiyyətə Burun-Tegin İbrahim ibn Nasir gəldi və «Tamqac xan» titulunu götürdü. Şərqi Qaraxanilərin hakimi Toğrul Qaraxan İbrahim ibn Nasirin oğlanları arasında gedən çəkişmədən istifadə edərək 1069-1070-ci illərdə Qərbi Qaraxanilərə qarşı mübarizəyə



başladı və onların bir sıra əyalətini tutdu. Səlcuq sultanı Məlikşah 1089-cu ildə Buxara və Səmərqəndi ələ keçirtdi.

1090-cı ildə Şərqi Qaraxanilərin silahlı qüvvələri səlcuq qoşununa məğlub oldular və Şərq xaqanlığı səlcuqların vassal asılılığına keçdi.

XII əsrin 40-cı illərində qarakitaylar Balasaqun şəhərini tutdular. XIII əsrin əvvəllərində isə Çingizxan Qasqarı ələ keçirtdi. Beləliklə, Şərq xaqanlığı siyasi cəhətdən müstəqil dövlət olmaq etibarilə mövcudluğuna son verdi.

Qərbi Qaraxanilər dövləti də tədricən Səlcuq imperatorluğunun tərkibinə qatıldı. 1068-ci ildə taxta çıxan Şəms-ül-Mülk Nasir səlcuqlara müqavimət göstərə bilmədi. Məlikşah qaraxanilərin şahzadəsi ilə evləndi. 1089-cu ildə Qərbi Qaraxanilər dövləti səlcuqların asılılığına düşdü. 1137-ci ildə qarakitaylar Səmərqəndi, sonra Buxara və Xarəzmi tutdular. 1141-ci ildə səlcuq qoşunu qarakitaylara məğlub oldu. Nəticədə Qaraxanilər dövləti qarakitaylardan tam asılı vəziyyətə düşdü. Ancaq Xarəzmşah Əlaəddin onların üzərində qələbə qazandı.

1212-ci ildə Qərbi Qaraxanilərin sonuncu hökmdarı Qılınc Arslan öldürüldü və Qaraxanilər dövləti süqut etdi. Mahmud Qaşqarlının «Divan-i lüğət-ət-türk», Yusif Has-Hacib Balasaqunlunun «Kutadqu-bilik», Xoca Əhməd Yasəvinin «Divan-i Hikmət» əsərləri məhz bu dövrdə yazılmışdır.

**Xarəzmşahlar dövləti.** Mərkəzi Asiyanın ən qüdrətli türk dövlətlərindən biri olan Xarəzmşahlar dövləti cənubda Aral gölündən Amudəryanın şimal sahillərinə qədər olan ərazini əhatə edirdi. Bu nəhəng diyar Xarəzm adı ilə məlumdur. Əhalinin etnik tərkibi özbək, qaraqalpaq, tatar, xəzər, uyğur, qazax, tacik, türkmən və digər xalqların nümayəndələri ilə təmsil olunurdu.

V əsrin ortalarında bu ərazidə 563-567-ci illərə qədər mövcud olan Eftalitlər dövləti yaradılmışdı. VII əsrin başlanğıcında bu ərazidə formalaşmış Türk xaqanlığı Şərq və Qərb xaqanlıqlarına parçalandı. VIII əsrdə Xarəzmi ərəblər işğal etdilər və əhali islam dinini qəbul etdi. IX əsrdə Mərkəzi Asiya xilafət-

dən ayrıldı və Samanilər dövləti yarandı. X əsrdə Şərqi Türkmənistan və Yeddi Su yeni yaranmış Qaraxanilər dövlətinin tərkibinə daxil oldu. Əhalinin başlıca məşğuliyyəti əkinçilik və köçəri maldarlıq idi. XI-XII əsrlərdə Mərkəzi Asiyanın təsərrüfat həyatında feodal münasibətləri hökmran rol oynadı. 1017-ci ildə Mahmud Qəznəli Xarəzmi fəth etdi və qulamı Altun Taşı ora hakim qoydu. Altun Taşın oğlu Harun 1034-cü ildə Xarəzmi Qəznənin asılılığından azad etdi, lakin bu nominal xarakter daşıyırdı. Harunun başlıca dayağı Xarəzm əhalisi deyil, onun şəxsi qulamları idi. Səlcuqlarla müharibəyə başı qarışan Məsud Mahmud Qəznəli qiyamçı Xarəzmi sakitləşdirə bilmədi və 1041-ci ildə onun üzərinə Sırdəryanın mənsəbində yerləşən Çend şəhərinin oğuzlarının yabqusunu göndərdi. Ancaq 1044-cü ildə onu dərhal oradan qovdular və səlcuqlar Xarəzmi öz qulamları vasitəsilə idarə etməyə başladılar. Onlardan biri olan Anuş Tegin Məlikşah tərəfindən Xarəzmin əmiri təyin olundu. Onun oğlu Qütbəddin Məhəmməd 1097-ci ildə Məlikşahın oğlu Börküyarıq tərəfindən Xarəzmə hakim qoyuldu.

Qütbəddin Məhəmməd «Xarəzmşah» titulunu qəbul etdi ki, bu da həqiqətə uyğun deyildi. Belə ki, dövlət tam müstəqillik qazanmamışdı. O, «öz tayfasından qopmuş» türk idi. Onun dayağı isə kanq (kəngər) və türkmən tayfaları oldu. Oğlu Atsız (1127-1156) zəifləmiş səlcuqlardan faktiki müstəqilliyə nail oldu. O, sərraf diplomat və bacarıqlı sərkərdə idi. Qıpçaq və türkmənlərlə müharibəyə başlayaraq o, Manqışlaqı ələ keçirtdi.

1138-ci ildə Səlcuq sultanı Səncər Xarəzm üzərinə hücum etdi. 15 noyabr 1138-ci ildə Xarəzm uğrunda döyüş zamanı məğlubiyyətə uğrayan Atsız yeni qoşun toplamaq üçün getdi. Sultan Səncər 1139-cu ildə Mərvə gəldi. Tezliklə Atsız xan yeni qüvvələrlə Xarəzmə qayıtdı. O, 1139-1140-cı illərdə Buxaraya yürüş təşkil etdi.

Bu zaman Mavərənnəhrdə hərbçilər qiyam qaldırdılar. Şəhərin hakimi Mahmud xan xəyanət edərək səlcuqların tərəfinə keçdi, sultan Səncəri karluklara hücum etməyə çağırdı. Atsız



xanı dəstəkləyən karluklar qarakitaylardan kömək istədilər. 9 sentyabr 1141-ci ildə Katavan döyüşü başladı. Sultan Səncər böyük itkilərlə Dərqama qədər sıxışdırıldı. Sultan Səncər və Mavərənnəhr hakimi Mahmud xan döyüş meydanından Termizə qaçdılar. Qarakitaylar geri çəkilməkdən imtina etdilər və Xarəzmşahlar dövləti onların əlinə keçdi.

1156-cı ildə Əlaəddin Atsız vəfat etdi. Atsızın varisləri İl Arslan (1156-1172) və oğlu Təkəş (1172-1200) Xarəzmin müstəqilliyinə nail oldular. Səlcuq sultanlığı və Qaraxanilər dövləti artıq süqut etdiyindən yeganə təhlükə, qoşununun İl Arslanı öldürdüyü Kidan dövləti idi. 1174-cü ildə Təkəş Cənubi Xorasanı tutdu və onun hakimi Müəyyid Ay-Abanı öldürdü. Müəyyidin oğlu Təkəşin vassallığını qəbul etməyə məcbur oldu.

Bununla kifayətlənməyən Təkəş 1187-ci ildə Nişapura, 1192-ci ildə Reyə, 1193-cü ildə isə Mərvə hərəkət etdi. O, 3 iyul 1200-ci ildə vəfat etdi və hakimiyyəti oğlu Əlaəddin Məhəmməd əlinə aldı. O, dövlətin ərazisini genişləndirib, Xorasanın böyük bir hissəsini geri qaytardı. Əlaəddin Məhəmməd Buxaranı Xarəzmə birləşdirdi. O, 1212-ci ildə qarakitaylara son verib Sistanı, Kirmanı, Təbəristanı, Azərbaycanı, Arranı özünə tabe etdi.

Monqol dövlətinin banisi Çingizxan Çin və Koreyanı tutduqdan sonra Xarəzmin işğalını planlaşdırırdı. O, əvvəlcə Xarəzmlə ticarət əlaqələri qurdu. Ona tabe olmayan merkit tayfaları elə o zaman Xarəzmşahların ərazisinə qaçdılar. Monqol qoşunu onları təqib edərək Xarəzm dövlətinin sərhəddini keçdi. Xarəzmşah Əlaəddin Məhəmmədin komandanlığı altında silahlı dəstələrin monqolların irəliləməsini dayandırmaq cəhdləri məğlubiyyətlə nəticələndi. Əlaəddin Məhəmməd əsir düşdü, lakin oğlu Cəlaləddin onu azad etdi.

Müharibəyə bəhanə digər hadisə - Otrar faciəsi oldu. Monqollarla sərhəd qalası olan Otrarın hakimi Yanal xan Xarəzmə gedən monqol tacirlərini qarət etdirdi və Xarəzmşahların ərazisinə buraxmadı. Bunu eşidən Çingizxan Yanal xanın ona verilməsini tələb etdi. Əlaəddin Məhəmməd qətiyyətlə rədd cava-

bı verdi və qasidi öldürmək əmri verdi. Beləliklə, 1219-cu ilin sentyabr ayında Çingizxan 200 minlik yaxşı silahlanmış ordu ilə Mərkəzi Asiyaya yürüşə başladı. Xarəzmşah Əlaəddin Məhəmməd Xəzər dənizində kiçik bir ada olan Abeskuna qaçdı, sətəlcəm olub 1220-ci ilin dekabr ayında vəfat etdi. Xarəzmşah dövləti süqut etdi.

### § 2. Səlcuq dövləti

Səlcuq dövlətinin yaranması oğuz türklərinin tarixində mühüm mərhələni təşkil edir. Oğuzlar ilk dəfə olaraq bütün islam dünyasında siyasi hakimiyyəti əllərinə aldılar. Anadolu və ona bitişik ərazilər oğuzların vətəni oldu.

X əsrin başlanğıcında oğuz türkləri, Ərəb xilafətinin zəifləməsindən istifadə edən bizanslıların Şərqə yürüşünü dayandırdılar, Kiçik Asiyanı ələ keçirtdilər. Səlcuq türkləri qınıq tayfasından olan «şanlı» Səlcuq ibn Tuqakın varisləridir. O və oğlanları onlara tabe olan tayfaların hərbi-siyasi ittifaqını yaratdılar, sonra isə Sırdəryanın sahillərindən Çend şəhərinə yerləşdilər. İslamı qəbul edən səlcuqlar böyük siyasi qüvvəyə çevrildilər. Ancaq oğuzların yabqusu Şahməlik səlcuqları Çenddən sıxışdırdı. Oğuzların əksəriyyəti Zərəfşan vadisinə çəkildi. Maverənnəhr qaraxanilər tərəfindən tutulduqdan sonra səlcuqların bir hissəsi onlara tabe oldu. Tayfanın digər hissəsi müstəqilliyə can ataraq, Buxara və Səmərqəndin hakimlərinə tabe olmaqdan imtina etdilər.

XI əsrin birinci rübündə səlcuq tayfalarının ittifaqı parçalandı. Musa, Davud və Məhəmmədin başçılıq etdiyi tayfalar Maverənnəhrdə qaldılar. Onların bir hissəsi Balkanlara, digər tayfalar isə Cənubi Azərbaycana, Gürgan, Rey və İsfahan şəhərlərinə köçüb yerləşdilər. Sultan Məsud Mahmud Qəznəli Balkan yarımadasında yerləşmiş oğuzlara Xorasana qayıtmağa icazə verdi. Ancaq o, hakimiyyətini möhkəmlətdikdən sonra onları təqib etməyə başladı.



1031-ci ildə səlcuqlar Xorasanda üsyan qaldırdılar. Üsyanın fəal iştirakçıları olan Balkan oğuzları 1034-cü ildə Xorasanı tutdular. Karluklar və qıpçaqlar da üsyançılara qoşuldular. Musa, Çağrı bəy və Toğrulun başçılıq etdikləri üsyançılar Amudərya sahillərindən Xorasana irəlilədilər. 19 iyul 1035-ci ildə 17 minlik qəznəli ordusu Nişapurdan səlcuqlar üzərinə hücuma başladı. Səlcuqlar pusqu qurub sultan ordusunu darmadağın etdilər. Tərəflər arasında bağlanan sülh müqaviləsinə görə səlcuqlar Nisa və Fəravə şəhərləri dairəsi və Dehistan əyalətində (indiki Cənubi və Qərbi Türkmənistan) torpaq aldılar.

Qəznəlilər 1038-ci ildə yenidən Sübaşinin komandanlıq etdiyi səlcuqlara qarşı hərbi əməliyyatlara başladılar. Ancaq yürüş qəznəli əyanların Səraxs darvazası yaxınlığında məğlubiyyəti ilə nəticələndi. Toğrul bəy Nişapura, Çağrı bəy isə Mərvə daxil olub özlərini sultan elan etdilər. Beləliklə, mərkəzi Nişapur olan Səlcuq dövlətinin əsası qoyuldu.

1039-cu il may ayının əvvəllərində Məsudun böyük, yaxşı silahlanmış qoşunu Bəlxdən Səraxsa irəlilədi. 29 iyul 1039-cu ildə Deh-Bazarqanda, Təcən çayı üzərində səlcuqlarla qəznəlilər arasında döyüş baş verdi. Döyüşdə Çağrı bəy qəhrəmanlıq göstərərək bir-neçə qəznəli əmirini öldürdü. 1039-cu ilin noyabr ayında sultan Məsud Mahmud Nişapuru tutdu. Qəznəli – səlcuq müharibələri Şimali Xorasan, Gurgan, Qərbi İran əhalisinə böyük zərbə vurdu. Aclıq və məhrumiyyətlər kəndli, sənətkar, tacir, orta və xırda feodalların – dehqanların müflisləşməsinə səbəb oldu. Kortəbii xalq çıxışları baş verdi. Qəznəli hökuməti laxlayan vəziyyətini düzəltməyə cəhd edərək bütün qüvvələrini səfərbər etmək qərarına gəldi və səlcuqlara ağır zərbə endirdi. 1040-cı ilin aprel ayında Məsudun başçılığı ilə qəznəli ordusunun Heratdan Səraxs və Mərvə yürüşü başlandı, ağır sürsatla yüklənmiş döyüş fillərindən də istifadə olundu. 1040-cu il mayın 23-də sübh zamanı Dəndənəkan adlı yerdə qanlı döyüş başlandı. Səlcuqların parlaq qələbəsi İran və İraqa yol açdı. Məsud özü güclə Herata qaçaraq xilas oldu. Toğrul

bəy Nişapura gəlib şəhəri paytaxtı elan etdi. Çağrı bəy isə Xorasanda qaldı.

Dəndənəkan divarları altında qələbə Qərbi Asiyada Səlcuq dövlətinin doğulmasının göstəricisi oldu. Əvvəlki Samanilər və Qəznəlilər dövlətlərindən fərqli olaraq Səlcuq dövləti geniş işğallar nəticəsində yaranmışdı. Bu işğallar köçəri tayfaların böyük kütlələrinin Mərkəzi Asiyadan Yaxın və Orta Şərq, Ön Asiya ölkələrinə köçürülməsi ilə müşayiət olunurdu.

Amudərya və Xəzər dənizi sahillərindən Dəclə, Fərat çaylarına və Aralıq dənizinə qədər böyük bir imperatorluğun yaranması ilə nəticələnən çoxillik hərbi yürüşlərin epopeyası başlandı.

Toğrul bəy (1038-1063) 1041-ci ildə Gürgan və Təbəristanı, 1042-ci ildə Xarəzmi tutaraq İrana istiqamət aldı. Səlcuqlar 1043-cü ildə Reyi tutub paytaxtı bura köçürtdülər. Onlar Reydən 3 istiqamətdə yürüşə başladılar: Həmədan – İsfahan, Gilan və Azərbaycan. 1045-ci ildə Həmədan, 1049-cu ildə Kirman, 1050-ci ildə isə İsfahan ələ keçirildi. 1055-ci ilin yanvar ayında Toğrul bəy Bağdada daxil oldu. Xəlifə onu sultan kimi tanıyıb yeddi qitəni simvolizə edən yeddi xələt, Şərq və Qərbin hökmdarı rəmzi olan iki qılınc bağışladı.

4 sentyabr 1063-cü ildə Toğrul bəy Reyə gedərkən yolda vəfat etdi. Onun oğlu olmadığından hakimiyyətə qardaşı oğlu - Çağrı bəyin oğlu Alp Arslan keçdi. 27 aprel 1064-cü ildə Alp Arslan özünü sultan elan etdi. Onun hakimiyyəti dövründə dövlət güclənərək imperatorluğa çevrildi. Alp Arslan əmisi Toğrul bəyin siyasətini davam etdirərək Şirvan və Gürcüstanı tutub Bizansın ən güclü qalası olan Anini mühasirəyə aldı. Qalanı çox çətinliklə ələ keçirən səlcuqlar qərbə doğru irəlilədilər. 1071-1078-ci illərdə səlcuqlar Kiçik Asiya və Suriyanı tutdular. 26 avqust 1071-ci ildə Rəhva çayı vadisində, Malazgird çölündə XI əsrin ən qanlı vuruşması oldu. Malazgird döyüşündə 200 minlik Bizans ordusuna qarşı 52 minlik türk qoşunu çıxdı və parlaq qələbə qazandı. Bizans imperatoru Roman Diogen əsir



düşdü. Sultan 1,5 mln. dinar həcmində fidiyə alıb onu azad etdi.

Malazgird döyüşündən sonra türklər Malazgirdi, Urfanı, Antakiyanı, Menbiçi tutaraq Qızıl İrmaq çayının şərq sahillərinə çıxdılar. Beləliklə, Anadolu yarımadası bütövlükdə səlcuqların əlinə keçdi. Alp Arslan «Səlcuq Qartalı», «Fateh Ata» təxəllüslərini aldı.

25 oktyabr 1072-ci ildə «Böyük Fateh» Alp Arslan Amudəryadakı qalalardan birinin komendantı tərəfindən öldürüldü. Noyabrın 25-də isə onun oğlu Məlikşah (1072-1092) sultan elan edildi. O, ölkədə şəraiti sabitləşdirdi, paytaxtı İsfahana köçürtdü. Onun hakimiyyəti dövründə Qəznəlilər və Qaraxanilər dövlətlərinin əraziləri tutuldu. 1076-cı ildə Dəməşq ələ keçirildi, 1078-ci ildə isə Suriya Məlikşahın qardaşı Tutuşa verildi.

1077-ci ildə Məlikşahın əmirlərindən biri olan Süleyman şah Kilikiyanın ardınca Konyanı tutdu və bu şəhəri Anadolu Səlcuq dövlətinin paytaxtı elan etdi. O, sonra İzmiq şəhərini tutaraq paytaxtı Konyadan bura köçürtdü. Beləliklə, Çanaqqala, Mərmərə dənizinin cənub hissələri Süleyman şahın nəzarəti altına keçdi. XI əsrin 80-cı illərində bütün Kiçik Asiya onun əlində cəmləşmişdi. Bu, Tutuşun və digər Səlcuq əmirlərinin narazılığına səbəb oldu. Onlar Süleyman şaha qarşı birləşərək, qoşunlarının üstünlüyü hesabına qələbə çaldılar. Məğlubiyyətlə barışmaq istəməyən Süleyman şah intihar etdi.

Səlcuq imperatorluğu divan adlanan bir sıra müəssisə və təsisatların köməyi ilə idarə olunurdu. Dövlət aparatının başında duran vəzir sultandan sonra böyük rol oynayırdı. Alp Arslan və Məlikşahın hakimiyyəti dövründə, idarəçilik haqqında məşhur traktatın müəllifi, istedadlı dövlət xadimi vəzir Nizam ül-Mülk böyük nüfuza malik idi. Dövlət nəzarətinin gücləndirilməsi və aqrar münasibətlər sisteminin qaydaya salınması məqsədilə keçirilən islahatların təşəbbüsçüsü kimi də məhz o çıxış edirdi. İslahat döyüşçülərə iqta şəklində pay torpaqlarının kütləvi paylanmasının başlanğıcını qoydu. İqta sax-

layanlar mukta adlanırdı. İqta titulunun inkişafı feodalların iqtisadi gücü və siyasi nüfuzunun yüksəlməsinə səbəb oldu.

XI əsrin sonu – XII əsrin başlanğıcında Səlcuq imperatorluğu feodal ara müharibələri və çəkişmələri zolağına qədəm qoydu. 1092-ci ildə Məlikşahın qəfil ölümündən sonra bu proses daha da gücləndi. Onun həyat yoldaşı Tarkan xatun dörd yaşlı oğlu Mahmudun dövlət başçısı elan edilməsinə nail oldu. Ancaq Məlikşahın digər nigahından olan oğlu Börküyarıq ona qarşı çıxdı. O, Reyə gedib, orada sultan elan edildi. Beləliklə, ölkədə ikihakimiyyətlilik yarandı: İsfahanda – Mahmud, Reydə – Börküyarıq. Onların adlarına bərabər surətdə xütbə oxunur və sikkə zərb olunurdu.

1094-cü ildə qardaşların tərəfdarları arasında hərbi toqquşma oldu. Börküyarıq qələbə çaldı və xəlifə tərəfindən Səlcuq imperatorluğunun hakimi kimi tanındı. Buna baxmayaraq, əmisi Tutuş 1093-1094-cü illərdə imperiyanın bütün qərb əyalətlərini tutub paytaxta doğru irəlilədi. Lakin onun ordusu Rey yaxınlığında darmadağın edildi.

Börküyarığın qardaşı, Azərbaycan və Arranın hakimi Məhəmməd Təpər 1099-cu ildə ona qarşı üsyan qaldırdı. O, Reyi tutdu və xəlifə tərəfindən Səlcuq imperatorluğunun sultanı elan olundu. Ancaq qardaşlar arasında mübarizə 1104-cü ilə qədər davam etdi. Məhz o zaman Börküyarıqla Məhəmməd arasında barışıq imzalandı. Birinci Qərbi və Mərkəzi İranın, Fars və Ərəb İraqının böyük hissəsini əlində saxladı. Məhəmməd İranın şimal-qərb əyalətlərini, Mosulu, Suriyanı öz ərazilərinə qatdı. Əldə edilən razılığa görə Börküyarıq-sultan, Məhəmməd isə onun vəliəhdi elan olundu.

1118-ci ildə Məhəmmədin vəfatından sonra oğlu Mahmud taxtın varisi oldu. Buna baxmayaraq, Səlcuq imperatorluğunun şərq əyalətlərini ələ keçirən Səncər ona qarşı çıxdı. O, 1118-ci ilin avqust ayında Savə şəhəri yaxınlığındakı döyüşdə Mahmudun İraq ordusunu darmadağın etdi. Onların arasında sülh müqaviləsi bağlandı. Səncər Mazandaran, Təbəristan, Dəmavənd, Kumıs, Damqan və Reyi öz ərazilərinə qatdı.



Mahmud İraqın sultanı kimi tanındı. Onun ərazilərinə Azərbaycanla yanaşı Suriya, Xuzistan, İsfahan və İraqla İranın digər əyalətləri də daxil oldu. Səncər (1118-1154) sultan elan edildi. Ancaq vahid imperatorluq artıq çoxdan bəri kabusa çevrilmişdi. O isə faktiki olaraq siyasi mərkəzi Xorasan olan Şərqi Səlcuq dövlətinin hakimi idi.

1131-ci ildə sultan Mahmudun vəfatından sonra Qərbi Səlcuq dövləti feodal ara müharibələri və çəkişmələrinin yeni zolağına qədəm qoydu.

İraq sultanlığı faktiki olaraq sultanın yaxın adamlarının əlində cəmləşmiş bir neçə mülkə parçalanmışdı. Səncər İraq sultanlığının işlərinə qarışaraq Toğrul ibn Məhəmmədin hakimiyyətə gəlməsinə yardımçı olmuşdu. Məsud ibn Məhəmmədin hakimiyyəti dövründə İraq sultanlığının tənəzzülü davam edir.

XII əsrin ortalarında Xorasan sultanlığı Mərkəzi Asiyadan hücum edən kidanların ağır zərbələrinə məruz qaldı. Monqol tayfalarının qolunu təşkil edən kidanlar X əsrdə Şimali-Qərbi Mancuriya və Şimali Monqolustanda köçəri Lyao imperiyasını yaratdılar. Kidanlarla döyüş 1141-ci ilin sentyabr ayında Səmərqənddən şimali-şərqdə, Katavan çölündə baş verdi. Döyüş səlcuqların tamamilə darmadağın edilməsi ilə nəticələndi. Bu vuruşma Şərqi Səlcuq dövlətinin qürubu və süqutundan xəbər verirdi.

Kiçik Asiyadakı Anadolu sultanlığı digər Səlcuq dövlətlərindən daha uzun müddət mövcud oldu. 1243-cü ildə monqollar Kəsə Dağ yaxınlığındakı döyüşdə səlcuqları ağır məğlubiyyətə uğratdılar. Bundan sonra bu sultanlıq monqol xanlarının nəzarəti altına düşdü. Səlcuqlar sülaləsinin yerli qolu isə XIV əsrin əvvəllərində devrildi.

## IV FƏSİL
## TÜRK XALQLARI MONQOLLARIN HAKİMİYYƏTİ DÖVRÜNDƏ

### § 1. Monqolların Mərkəzi Asiyaya yürüşləri

Monqollar Kulun-Bukir gölündən Altay dağlarının qərb hissəsinə qədər olan geniş ərazidə yaşayırdılar. XII əsrdə bu ərazidə kerait, merkit, oyort, noyman, tatar və digər tayfalar məskunlaşmışdı.

XII əsrin sonu üçün köçəri maldarların tayfa ittifaqları yaranmağa başladı. Belə ittifaqlardan birinin başçısı Timuçin 1155-ci ildə, Onon çayının sağ sahilində yerləşən Dulun-Boldaq adlı yerdə anadan olmuşdur. Onun atası Yesugey kiyat tayfasından idi. Timuçin digər monqol tayfalarını özünə tabe etdikdən sonra, 1189-cu ildə əyanlar onu xan elan etdilər. Ancaq 1201-ci ildə merkitlərin yeni başçısı Camuka da xan elan olundu. İki rəqib arasında hakimiyyət uğrunda mübarizə başlandı və 1203-cü ildə Camuka həlak oldu. 1202-1205-ci illərdə Timuçinin qoşunu tabe olmaq istəməyən merkit, noyman və digər tayfaların silahlı qüvvələrini darmadağın etdi.

1206-cı ildə Onon çayının sahilində monqol əyanlarının Böyük qurultayı çağrıldı. Timuçin Böyük xan – Çingizxan elan olundu.

Beləliklə, Çingizxan Cənubi Sibir və Mərkəzi Asiyanın köçəri tayfalarının güclü hərbi-feodal dövlətini yaratdı. Çingizxanın oğlu Cuci qısa müddət ərzində Sibirin köçəri tayfalarını mərkəzi dövlətə birləşdirə bildi. Baykal gölünün sahilində yaşayan buryatlar və yakutlar da Monqol dövlətinə birləşdirildilər, bir qədər sonra uyğurlar tabe edildilər. 1209-cu ildə Çingizxanın qoşunu Çinin şimal ərazilərinə yürüş etdi. Monqollar 1211-ci ildə Yeddi Suyun şimal hissəsini işğal etdilər.

Monqol qoşunu onlardan qaçan merkit və noyman tayfalarını təqib edərək Çinin doxsana qədər şəhərini tutdu. 1210-1211-ci illərdə Karluk dövlətinin hakimi Arslan xan Çingizxanın asılılığını qəbul etdi. Belə ki, 1211-ci ildə Çingizxanın oğlu Xubilay mərkəzi Beşbalıq şəhəri olan Turfana və karlukların ərazisinə göndərilmişdi. 1218-ci ildə Çingizxan Mavərənnəhr ətrafındakı əraziləri öz dövlətinə birləşdirdi.



Çingizxanın qələbələrindən narahat olan Xarəzmşah Əlaəddin Məhəmməd Bəhaəddin Razinin başçılığı ilə nümayəndələrini Pekinə göndərdi. Onları hörmətlə qarşılayan Çingizxan cavab olaraq Xarəzmə ticarət karvanı göndərdi. Xarəzmşah da öz növbəsində nümayəndələri təntənəli surətdə qarşılayıb, karvanın başçısı Mahmud Yalavacı öz tərəfinə çəkməyə müvəffəq oldu. Xarəzmşah, eyni zamanda Xarəzmlə monqollar arasında dostluq münasibətlərini möhkəmləndirərək sülh müqaviləsini imzalamağa hazır olduğunu bildirdi.

Xarəzmşah dövləti o dövrdə Şərqin ən qüdrətli dövlətlərindən biri idi. Buna baxmayaraq, sultan Məhəmmədin hakimiyyəti möhkəm deyildi. Ölkənin daxilində mərkəzdənqaçma qüvvələri güclənirdi.

Otrar qalasının komendantının göstərişi ilə monqol ticarət karvanının qarət və döyülməyə məruz qaldığı faciədən sonra, 1219-cu ilin yayında monqol qoşunu Xarəzmşah dövlətinə qarşı yürüşə başladı. Sentyabr ayında 160-200 minlik monqol ordusu Xarəzmə daxil oldu. Əməliyyata Çingizxanın oğlanları Çağatay və Ugedey rəhbərlik edirdilər. Onlar Otrar qalasını ələ keçirməli idi. Cucinin komandanlığı altında digər ordu Sırdəryanın sahillərinə, Uluq Noyonun komandanlıq etdiyi üçüncü ordu isə Sırdəryanın yuxarı axarı boyu hücuma keçməli idi.

Sultan Məhəmməd hərbi Şura çağırdı. O, Bəlxə gəldi. Burada sərkərdələr ona qarşı sui-qəsd hazırladılar. Ancaq sultan gecə ilə oranı tərk etdiyindən sui-qəsd uğursuzluqla nəticələndi.

1220-ci ilin fevral ayında monqollar Otrar qalasını tutdular. Cucinin ordusu Sığnaq şəhərinə daxil oldu və onu qarət etdi. Şəhər əhalisinin böyük bir hissəsi məhv edildi.

Çingizxan özü və kiçik oğlu Tulu Buxaraya doğru irəlilədilər. Monqollar heç bir müqavimətə rast gəlmədən Zernux qalasını, sonra Nur şəhərini tutdular. Çingizxanın göstərişi ilə şə-

hərin idarəsi Sabutaya tapşırıldı. Şəhərin sağ qalan hər bir əhalisindən 1500 dinar tələb edilirdi. Buxara şəhəri 12 günlük qəhrəman müdafiəsinə baxmayaraq, fevralın 16-da monqollar tərəfindən tutuldu. Xarəzmşah qaçdı. Şəhərin adı dəyişdirilib Kutluq-Balıq adlandırıldı.

Ölkənin müdafiəçilərinin son dirənişi Ürgənc şəhəri oldu. Şəhərin əhalisi bir neçə ay monqollara müqavimət göstərə bildi. Bu zaman Xarəzmşahın oğlu Cəlaləddin Ürgəncə gəlib özünü şah elan etdi. O, şəhəri müdafiə edə bilməyərək onu tərk etdi. Cəlaləddin öz dəstəsi ilə Qara-Qum səhrasına, sonra Xorasana, Əfqanıstana və Azərbaycana qaçdı.

1220-ci ilin sonunda monqol ordusu Ürgənc şəhərinə daxil olub onu dağıtdı. Əhali məhv edildi. Monqollar Amudəryanın suyunu şəhərə axıtdılar. Beləliklə, Mərkəzi Asiyanın monqollar tərəfindən işğalı başa çatdı.

Mart ayında monqol ordusu 110 minlik qoşun və 20 filin olduğu Səmərqənd şəhərinə yaxınlaşdı. Səmərqənd dairəsinin baş komandanı Turqay xan idi. Ancaq şəhərin müdafiəçiləri arasında birlik yox idi. Səmərqəndin mühasirəsinə Çingizxan özü rəhbərlik edirdi. Ağır döyüşlərdən sonra monqollar şəhəri ələ keçirib tamamilə dağıtdılar. Turqay xanın qoşunu mühasirəyə düşüb darmadağın edildi. Şəhər əhalisinin yalnız 1/4 hissəsi sağ qaldı, 30 min nəfərə qədəri qula çevrildi. Əhalinin bir hissəsi 200 min dinar verərək şəhərə buraxıldı.

Qısa fasilədən sonra Çingizxanın ordusu Binəkəndə və Xoçəndə doğru irəlilədi. Xoçəndin müdafiəsinə Teymur Məlik başçılıq edirdi. Monqollar Sırdəryanın suyunu şəhərə yönəltdilər, ancaq əhali onun qarşısını bağladı. Vəziyyətin çıxılmaz olduğunu hiss edən Teymur Məlik şəhəri tərk etdi və Xarəzmə çəkilərək orada Xarəzmşah Məhəmmədin oğlu Cəlaləddinin dəstəsinə qoşuldu.

Sultan özü ölkənin cənub-qərbinə çəkildi və 18 aprel 1220-ci ildə Nişapura gəldi. O, özü ilə gətirdiyi iki sandıq qiymətli daş-qaşı alınmaz Ərdahan qalasına göndərdi. Ancaq tezliklə qala monqollar tərəfindən alındı və Xarəzmşahın var-dövləti



Çingizxanın əlinə keçdi. Mayın 12-də sultan Məhəmməd Nişapuru tərk edərək, onu 30 minlik ordu ilə gözləyən oğlu Rükəddinin yanına, Qəzvinə qaçdı. Sultan Bağdad və Həmədandan keçib Xəzər dənizindəki adalardan birinə gəldi və 1220-ci ilin dekabr ayında vəfat etdi.

### § 2. Qızıl Orda xanlığı

Şərqi Avropanı tutduqdan sonra monqollar nəhəng bir dövlət yaratdılar. Rus mənbələrində bu dövlət Qızıl Orda, Şərqdə – Cuci ulusu adlanır. Bu dövlətin banisi Çingizxanın nəvəsi Batı xan olmuşdur. Yeni dövlətin paytaxtı Aşağı Volqanın sahilində tikilmiş Saray-Batı şəhəri oldu. Ancaq hüquqi cəhətdən bu dövlət, ümumi monqol mərkəzi Qaraqorum şəhərində yerləşən Monqol dövlətinin mərkəzi hakimiyyətinə tabe idi. Qızıl Orda, bütün monqol dövlətləri kimi Ugedey xanın tabeliyi altında idi.

Qızıl Orda Dunay çayından Fin körfəzinə, şərqdə İrtış çayının mənsəbindən Ob çayının aşağı axarına, cənubda Qara dəniz sahillərindən Xəzər dənizinə, Aral gölündən Balxaş gölünədək əraziləri əhatə edirdi. Rus knyazlıqları Qızıl Orda xanlığının vassal asılılığında idi və buna görə də onun tərkibinə daxil deyildilər. Bununla belə, Krım yarımadası, Dərbənd keçidinə qədər bütün Qafqaz, Xarəzmin şimal regionları, Volqa-Kama bulqarlarının və Mordva əraziləri də ona birləşdirilmişdi.

Xanlığın əsas əhalisi türkdilli tayfalar olduğundan təsadüfi deyil ki, XIV əsr yasıları (əmrləri) türk dilində yazılırdı. Bir çox mənbələr Qızıl Orda əhalisini tatar adlandırır. Qızıl Ordaya tabe olan tayfaların müxtəlif iqtisadi və mədəni səviyyədə olması onların daxili birliyinə mane olurdu.

XIII əsrin ikinci yarısından Qızıl Orda xanlığında feodal münasibətlərinin inkişafı başladı. İri torpaq sahibliyinin güclənməsi xana yaxın olan adamların iri feodallara çevrilməsinə səbəb oldu. Xan qeyri-məhdud hakimiyyətə malik idi. Ondan sonra geniş imtiyazlara malik olanlar noyonlar (iri feodallar)

idi. Vergi və mükəlləfiyyətlər tam olaraq kəndlilərin üzərinə qoyulmuşdu. Monqollara tabe olan yerli feodallar vergilərdən azad olmaq üçün yarlıq [4] almalı idi. Bəzən daha iri feodallar mərkəzi hakimiyyətə tabe olmurdular.

XIII əsrin sonunda Noqay xan Qara dənizin şimal sahillərini, Dunay çayının aşağı axarını və Krım yarımadası ərazilərini birləşdirməyə müvəffəq oldu. Bu ərazi sonralar Noqay Ordası adlandırılmağa başlandı. Ancaq feodal ara müharibələri zamanı Noqay xan öldürüldü və Noqay Ordası süqut etdi.

Monqolların ilk dini inancı şamanizm idi, lakin işğal olunmuş ərazilərdə islam geniş yayılmışdı. Buna görə də Qızıl Orda xanları və noyonları çox zaman müsəlmanlığı qəbul edirdilər. XIII əsrin axırlarında Batı xanın qardaşı Bərkə (Bərəkə) xan islamı qəbul etdi. XIV əsrin birinci yarısında Özbək xanın hakimiyyəti dövründə isə islam Qızıl Ordanın rəsmi dini oldu və şəriət qanunları qüvvəyə mindi. Bu zaman Qızıl Orda paytaxtı Saray-Bərkə şəhəri olan qüdrətli bir xanlıq idi. Ürgənc, Buxara, Səmərqənd, Xivə, Kazan, Həştərxan kimi iri ticarət və mədəniyyət mərkəzləri inkişaf edirdi. 1342-ci ildə Özbək xanın vəfatından sonra Qızıl Orda xanlığında feodal ara çəkişmələri başlandı.

XIII əsrin sonundan Ümummonqol mərkəzi ilə əlaqələr zəifləməyə başladı və Qızıl Orda müstəqil dövlətə çevrildi. Daxili və xarici siyasətlə bağlı bütün məsələlər qurultayda həll edilirdi. Bununla yanaşı xanın yanında xüsusi idarə orqanı da fəaliyyət göstərirdi. Hələ 1257-ci ildə əhalinin siyahıya alınmasına hazırlıq başlandı. Həmin il Batı xan vəfat etdi və hakimiyyətə Bərkə xan keçdi. O, Qaraqorumla əlaqələri kəsib paytaxtı Yeni-Saraya köçürtdü.

1266-cı ildə Batı xanın nəvəsi Manku Teymur hakimiyyətə gəldi. O, Misirin məmlük sultanı ilə əlaqə saxlayırdı. Manku Teymur Cağatayın oğlanları ilə mübarizə aparan Ugedeyin oğlanlarını dəstəkləyirdi. Ondan sonra Tuta Manku, Teleboqa və Toxtaxan hakimiyyətdə bir-birini əvəz etdi. Sonuncu 1312-ci ildə vəfat etdi. Onlardan sonra hakimiyyətə Özbək xan gəldi.



Onun hakimiyyəti dövründə Qızıl Orda güclü türk dövlətinə çevrildi. Burada şimal türkləri: oğuzlar, bulqarlar, kumanlar, qıpçaqlar yaşayırdılar. Bu xalqları həm də tatar adlandırırdılar. Türk mədəniyyəti isə tatar mədəniyyəti kimi tanınırdı.

1335-ci ildə Özbək xan Azərbaycana yürüş təşkil etdi. 1357-ci ildə oğlu Canı bəy Təbrizi tutdu və orada oğlu Bərdi bəyi qoydu. Sonuncu cəmi iki ay hakimlik etdi, atasının ölüm xəbərini alaraq oranı tərk etməyə tələsdi.

Canı bəyin hakimiyyəti dövründə (1342-1357) dövlət hərbi qüdrətə malik oldu. Silahlı qüvvələrin sayı 300 min nəfərə çatırdı. Canı bəydən sonra taxtda iyirmi beş xan bir-birini əvəz etdi.

XIV əsrin 60-cı illərində Xarəzm, sonra Həştərxan Qızıl Ordadan ayrıldılar və öz müstəqilliklərini elan etdilər. Bu zaman Mamay xan Qızıl Ordanı tutdu və orada öz hakimiyyətini möhkəmlətdi. O, rus knyazlıqları Nijni Novqorod, Ryazan və Moskvaya yürüş təşkil etdi. 8 sentyabr 1380-ci ildə Don çayının sahilində Dmitri İvanoviçlə Mamay xan arasında Kulikovo vuruşması başlandı. Sonuncu məğlub olub böyük itki ilə geri çəkildi. Elə bu zaman o, Ağ Orda xanı Toxtamışla toqquşub darmadağın edildi. Qızıl Orda Toxtamış xana tabe oldu. O, rus knyazlarından da tabe olmalarını tələb etdi. 1382-ci ildə Toxtamış Moskvaya, eləcə də Vladimir knyazlığına hücum edib tutdu. Dmitri Donskoy şimala qaçdı. Bu zaman Moskva, Volqaboyu, Kazan və Tverdə həyəcan baş verdi.

Feodal ara çəkişmələri Qızıl Ordanın parçalanmasına səbəb oldu. 1438-ci ildə Ulu Məhəmmədin hakimiyyəti dövründə Qızıl Orda xanlığı iki hissəyə: şimal-Kazan xanlığı və cənub-Gəray xan [5] başqa olmaqla Krım xanlığına (1441) bölündü. XV əsrin 50-ci illərində Volqanın Xəzər dənizinə töküldüyü yerdə Həştərxan xanlığı yarandı. Beləliklə, bir zamanlar qüdrətli olan Qızıl Orda xanlığının ərazisində Krım, Həştərxan, Kazan, Özbək, Qasım xanlıqları və Noqay Ordası yaradıldı.

Qızıl Ordanın parçalanması nəticəsində indiki Qazaxıstan ərazisində müstəqil Ağ Orda dövləti yarandı. Bu xanlıq Sırdər-

yanın mənsəbinə qədər olan Şimal-Şərqi səhra ərazilərini əhatə edirdi. Qıpçaq çölünün şərq hissəsi də Ordanın tərkibinə daxil idi. Bu dövlətin ən mühüm şəhərləri Yassı, Sanran, Sığnaq, Yanıqkənd və başqaları idi. Ağ Ordanın paytaxtı Sığnaq şəhəri oldu. Bu ölkədə yaşayan köçəri maldarları özbək və qazaxlar adlandırırdılar. Ağ Ordanın ilk xanı Qızıl Ordanın vassalı olmuş Sassı-Buka idi. Onun vəfatından sonra hakimiyyətə, məscid və şəhərlərin inşası ilə məşğul olan oğlu Erken xan gəldi. Onun hakimiyyəti dövründə təsərrüfatın bütün sahələri inkişaf edirdi. Oğlu Mübarək Xoca müstəqilliyə can atırdı, lakin Qızıl Orda ona hər cəhətdən mane olurdu.

1354-cü ildən 1364-cü ilə qədər davam edən feodal ara müharibələri dövründə səkkiz xan öldürüldü. Yalnız Uruz xanın hakimiyyəti dövründə (1364-1380) Ağ Orda möhkəmləndi və tam müstəqil dövlətə çevrildi. XIV əsrin 70-ci illərində Uruz xan Həştərxana, 1374-1375-ci illərdə isə Saray-Bərkəyə yürüş təşkil etdi. Ancaq bu zaman əmir Teymurun dövləti Ağ Orda üçün təhlükəyə çevrildi. Ağ Ordanın 1354-1364-cü illərdə öldürülmüş xanlarından birinin oğlu olan Toxtamış Səmərqəndə Teymurun yanına qaçıb ondan kömək xahiş etdi. Teymur onu Ağ Ordaya qarşı silahlandırdı. Toxtamışın ilk yürüşü uğursuz oldu, lakin sonuncu - dördüncü yürüş zamanı Uruz xan vəfat etdi və Ağ Orda zəiflədi. Bundan istifadə edən Toxtamış Saray-Bərkəni tutdu. Beləliklə, Toxtamış Ağ və Qızıl Ordanın ərazilərini birləşdirə bildi. Kulikovo döyüşündə Mamay xanın məğlubiyyətindən sonra əmir Teymur Qızıl Ordanın paytaxtı Saray Bərkəni tutdu.

### § 3. Cağatay və Hülakü dövlətləri

Hələ Çingizxanın dövründə Mavərənnəhr, Yeddi Su və Qaşqar vilayətləri onun ikinci oğlu Cağataya verildi və Cağatay ulusu adını aldı. Bununla belə, bu ərazi çox böyük olduğundan Mavərənnəhri Mahmud Yalavac idarə edirdi. O, şəhər və kəndləri abadlaşdırır, körpülər tikdirir, suvarma kanalları



və s. çəkdirirdi. Buna baxmayaraq, yerli məmur və ruhanilərin özbaşınalığı yerlərdə xalq narazılığı və hiddətinin alovlanmasına səbəb olurdu.

1238-ci ildə Mahmud Fərabinin başçılığı ilə Buxarada qalxan üsyan tezliklə bütün ölkəni bürüdü. Bu hərəkatda Mahmud Fərabinin bacısının başçılıq etdiyi qadınlar da iştirak edirdilər. Mahmud Fərabi öz iqamətgahını Məlik Səncər qalasında yerləşdirdi. Üsyanda iştirak edən yerli feodallar onun genişlənməsindən qorxub Fərabini monqollarla danışıqlara getməyə çağırdılar. Onların məqsədini anlayan Fərabi imtina etdi. Tezliklə üsyançılar tacirlərə qarşı hərəkata başladılar. Monqollar əkshücuma keçdilər. Balta və bellə silahlanan kəndlilər üsyançıların köməyinə gəldilər və düşmənə bir-neçə hiss edilən zərbə vurdular. Nəticədə monqollar geri çəkildilər.

Mahmud Fərabi və onun yaxın silahdaşı Şəmsəddin Məhbubi döyüş meydanında həlak oldular. Bundan sonra üsyana onun qardaşları Əli və Məhəmməd başçılıq etdilər. Monqollar «Qorxulu şaman» adlandırdıqları Fərabinin ölümünə sevinərək, İldız Noyon və Çekək Kurçunun başçılığı ilə şəhəri mühasirəyə alıb hücuma keçdilər. Üsyan qəddarlıqla yatırıldı. Monqolların itkisi 20 min nəfərə çatırdı. Bununla belə, əhaliyə güzəştə gedən böyük xan V Manku yerli hakimiyyət orqanlarını idarəçilikdən kənarlaşdırdı. Mahmud Yalavac vəzifəsindən çıxarıldı, onun yerinə isə oğlu Məsud təyin edildi.

1251-ci ildə V Mankunun oğlu Munke taxta çıxdı və Cağatay ulusunu Batı xanla bölüşdürüb ləğv etdi. XIII əsrin 60-cı illərində Cağatayın nəvəsi Alqu xan ulusu bərpa edə bildi. O, islamı qəbul edərək, mərkəzi Yeddi Sudan Mavərənnəhrə köçürtdü. 1347-ci ildə monqol noyonlarının qiyamı zamanı Kəbək xan öldürüləndən sonra Cağatay ulusu iki xanlığa bölündü: Mavərənnəhr və Monqolustan. XIV əsrin 70-ci illərində əmir Teymur ulusun bütün ərazisini ələ keçirtdi.

Böyük Monqol xaqanlığı uluslara parçalandıqdan sonra, Tulunun oğlu Hülakü xan (1258-1265) Azərbaycanı 1256-cı ildə tutub, 1258-ci ildə Bağdadı ələ keçirtdi və Hülakülər dövlətinin əsasını qoydu. Onun vəfatından sonra isə varisləri arasın-

da hakimiyyət uğrunda mübarizə başlandı, Abaqa xan (1265-1282) qalib gəldi. 1275-ci ildə Arranda ona qarşı üsyan qalxdı. Üsyan yatırıldıqdan sonra isə ölkədə nisbi sakitlik müşahidə olunurdu. Abaqa xanı əvəz edən Əhməd xan və Arqu xanın hakimiyyəti dövründə feodal ara müharibələri yenidən başlandı. Feodal çəkişmələri Keyxatu xanın dövründə (1291-1295) dövlətin iqtisadi və mədəni həyatına ağır zərbə vurdu. Ancaq Qazan xanın (1295-1304) islahatları onun mövqeyinin möhkəmlənməsinə səbəb oldu. Əbu Səidin hakimiyyəti dövründə (1316-1335) ölkədə şərait yenidən kəskinləşdi. Bundan istifadə edən Misir məmlüklərinin qoşunu ulusa hücum etdi.

Əbu Səid tabe olmaq istəməyən feodallarla toqquşmalardan birində həlak oldu və onun ölümündən sonra dövlətin tənəzzülü başladı. Çobanilər, Cəlairilər və Xorasan əmirləri arasında hakimiyyət uğrunda mübarizə gücləndi.

Sulduz tayfasından olan Çobanilər Təbrizdə hakimiyyəti ələ keçirib Hülakülərin adından idarə etdilər. 1344-cü ildə təbrizlilər Çobanilərin azğınlığına qarşı üsyan qaldırıb onları həbs etdilər. Əmir Çobanın qardaşı Məlik Əşrəf üsyanı qəddarlıqla yatırıb Hülakü şahzadəsi Ənuşirəvanı elxan (1344-1355) elan etdi, əslində isə bütün hakimiyyəti öz əlində cəmləşdirdi. Məlik Əşrəf 1347-ci ildə Şirvana və Bağdada, 1350-ci ildə isə İsfahana yürüş etdi. 1355-ci ildə Ənuşirəvan hakimiyyətdən kənarlaşdırıldı və onu taxtda Həsən xan əvəz etdi.

Çobanilərin siyasətindən narazı qalan yerli feodallar Qızıl Orda xanı Canı bəyi dəvət etdilər. 1357-ci ildə o, Hülakülər dövlətində hakimiyyəti ələ keçirib Məlik Əşrəfi edam etdirdi. Beləliklə, Hülakülər dövləti süqut etdi.

Cəlairi Üveys elə həmin il Azərbaycan əyanlarına arxalanaraq Canı bəyi qovdu və paytaxtı Təbriz olan Cəlairilər dövlətinin (1357-1410) əsasını qoydu. Şeyx Üveysin oğlu sultan Hüseynin hakimiyyət dövrü (1374-1382) daxili çəkişmələr və dövlətin zəifləməsi ilə əlamətdar idi. Cəlairilər dövlətinin daxili şəraitindən istifadə edən Şiraz hakimi Şeyx Şüca 1376-cı ildə Təbrizə daxil oldu. Sultan Hüseyn yalnız 1380-ci ildə şəhəri azad edə bildi, lakin 1392-ci ildə onun qardaşı sultan Əhməd



hakimiyyəti ələ keçirtdi. 1410-cu ildə Şənbi Qazan yaxınlığındakı döyüşdə sultan Əhməd öldürüldü və bununla da Cəlairilər sülaləsinə son qoyuldu. Qara Yusif Təbrizi tutdu və Qaraqoyunlu dövlətinin əsasını qoydu.

### § 4. Türk xalqları Teymurilərin hakimiyyəti altında

Teymur 8 aprel 1336-cı ildə Türküstanın Keş şəhəri yaxınlığındakı Xoca İlqar kəndində anadan olmuşdur. O, Kürəkək türk tayfasının Barlas qəbiləsindən idi. Onun atası Turqay Barlas türk qəbiləsinin bəyi idi. Türküstan o zaman Cağatay xanlığının tərkibinə daxil idi. Cağatay əmiri Qazan Noxşabın idarəsini Turqaya tapşırdı. Turqay müsəlman olduğundan oğlunu islam ruhunda tərbiyə etmişdi. Teymur nadir zehni və cəsurluğu ilə fərqlənirdi. Əmir Qazan öz nəvəsi Ulcay Türkan xanımı Teymura ərə verdi.

1358-ci ildə əmir Qazan Xorasan hakimi Hüseyn Kürdə qarşı yürüş təşkil etdikdə minbaşı Teymur özünü cəsur döyüşçü kimi göstərdi və əvəzində əmir Qazandan qiymətli hədiyyələr aldı. Əmir Qazan öldürüləndən sonra hakimiyyətə onun oğlu əmir Hüseyn gəldi. O, Teymurla birlikdə atasının intiqamını almaq qərarına gəldi. Bu zaman Teymur həyat yoldaşı ilə türkmən atlılarına əsir düşdü, lakin azad edildi.

1365-ci ilin yazında Monqolustanda hakimiyyətə İlyas Xoca gəldi və Teymura qarşı yürüşə başladı. Mühasirəni yaran Teymur və əmir Hüseyn Səmərqənddən qaça bildilər, əhali isə müqavimət göstərməkdə davam etdi. Şəhərin müdafiəsinə Əbubəkr Kələvi və Səmərqənd mədrəsəsinin şagirdi Mövlanzadə başçılıq edirdilər. Onlar şəhərin küçələrində barrikadalar qurdular. Monqol süvarisi üç istiqamətdən şəhərə hücuma başladı. Şəhəri almaq üçün göstərilən iki cəhd uğursuzluqla nəticələndi və monqollar böyük itki ilə geri çəkildilər. Onların arasında yoluxucu xəstəliklərin yayılmağa başlamasından istifadə edən şəhərin müdafiəçiləri hücuma keçərək onları mühasirədə olan Səmərqənddən geri oturtdular. Bundan sonra şəhərdə iri feodallara qarşı «Sərbedarilər hərəkatı» [6] adlanan

mübarizə başlandı. Monqolların uğurlu dəf edilməsindən xəbər tutan əmir Teymur şəhərin müdafiəçilərinə məktub göndərərək, böyük mükafat müqabilində onu şəhərə buraxmalarını xahiş etdi. 1366-cı ildə əmir Teymurla əmir Hüseyn şəhərə daxil oldular və hakimiyyəti öz əllərinə aldılar.

Mövlan-Zadədən başqa üsyanın bütün rəhbərləri tutulub edam olundular.

Əmir Teymur Şəhrisiyabla Keşin hakimi idi. 1370-ci ildə Teymur Səmərqəndə yürüş etdi. Dövlət çevrilişi zamanı əmir Hüseyn öldürüldü. Səmərqənd Teymurun hakimiyyəti altına keçdi. Hərbi sərkərdələr elə həmin il qurultayda vahid dövlətin yaradıldığını, Teymuru isə əmir elan etdilər. Termizin şeyxi Abdulla Malik və onun qardaşı Əli Əkbər onu Xudabənd-Zadə adlandırdılar. Əmir Teymur Səmərqənd şəhərini özünün paytaxtı elan etdi və əmir Hüseynin dul qadını ilə evləndi. Əmir Davud onun vəziri, Kəbək xan isə minbaşı təyin olundular. Əmir Teymur qüdrətli ordu yaradaraq otuz beş illik zəfər yürüşünə başladı.

Onun ilk yürüşü Sırdərya sahillərinə oldu. O, dostu Əlqəməni bac ödəmək tələbi ilə Xarəzm hakimi Hüseyn Sufinin yanına göndərdi. Qəti rədd cavabı alan əmir Teymur 1371-ci ildə qoşununa Ürgənci mühasirəyə almağı əmr etdi. Döyüş zamanı Hüseyn Sufi öldürüldü. Onun qardaşı Yusif Sufi Xarəzmin hakimi olaraq hərbi əməliyyatları dayandırdı və əmir Teymurla barışıq imzalayıb, qohumu Sevimi onun oğlu Cahangirə ərə verəcəyini vəd etdi. 1379-cu ildə əmir Teymur Xorasana və Əfqanıstana yürüş təşkil etdi, sonra isə İrana və Azərbaycana istiqamət götürdü. 1405-ci ildə əmir Teymur vəfat etdi və onun dövləti tənəzzülə uğradı.



# V FƏSİL
# TÜRK DÜNYASI XV-XVIII ƏSRLƏRDƏ

## § 1. Osmanlı imperatorluğu

Osmanlı dövləti onun banisi Osman Qazinin ismi ilə adlandırılıb. O, oğuz türklərinin qayı tayfasından idi.

Mərkəzi Asiya monqollar tərəfindən işğal edildikdən sonra türkmən tayfaları Anadoluda məskunlaşmağa başladılar. Onların arasında, Gündüz Alp və onun oğlu Ərtoğrulun başçılıq etdikləri kiçik bir tayfa da var idi. Ərtoğrul 1231-ci ildə öz tayfasını Ankara yaxınlığında yerləşdirdi. O, 1281-ci ildə vəfat etdi və onun oğlanları Sarı Batı Sapçı və Gündüz Alpın razılığı ilə digər oğlu Osman hakimiyyəti öz əlinə aldı. Ancaq Ərtoğrulun qardaşı Dündar hakimiyyəti qəsb etmək üçün uğursuz cəhdlər etdi. Qazi titulu alan Osman əmisinin üzərində qalib gələrək sərhədlərini genişləndirməyə başladı. Tezliklə Anadoluda yaşayan türkmənlər Osman Qazinin bəyliyinə birləşdilər. Bunu eşidən Səlcuq sultanı ona müstəqillik rəmzi olan bayraq, qızıl qılınc və gümüş yəhərli at, eləcə də 100 min dirhəm göndərdi.

Bu zaman Anadoluda monqollara qarşı üsyan baş verdi. Üsyan yatırıldıqdan sonra Səlcuq sultanı əsir alındı. Səlcuqların taxtı boşalmış oldu. Bir çox türkmən bəyləri Osman Qazini xan elan etdilər. Bununla da 623 il (1299-1922) mövcud olmuş dövlətin əsası qoyuldu. Osman bəy qırx üç il dövləti idarə etdi və əraziləri genişləndirərək öz bəyliyini güclü, qüdrətli bir dövlətə çevirdi.

1280-ci illərdə Osman Biləcik, İnönü və Əskişəhəri tutmağa müvəffəq oldu. Bu arada Osman bəyin güclənməsindən narahat olan qonşu dövlətlər ona qarşı müharibəyə hazırlaşdılar. 1284-cü ildə Osman Qazi ilə İnəgöl qalasının hakimi Nikola arasında ağır döyüş oldu, türklər qələbə qazandılar. Bir il sonra, 1285-ci ildə Osman bəy Qaracahisar qalasına hücum etdi və düşməni darmadağın edərək onu tutdu. Bu zaman Nikola mü-

haribəyə hazırlaşırdı. Osman Qazi Damanıc Dərbəndi ələ keçirtdi, sonra türk qoşunu Bizans ordusunun üzərinə hücuma başladı. Osmanın qardaşı Sarı Batı Sapçı və Bizans sərkərdəsi Flatos döyüş zamanı öldürüldülər. Böyük itki verən Bizans ordusu geri çəkildi. Osman bəy yenidən döyüşə girərək Nikolanın qoşununa sarsıdıcı zərbə endirdi. Nikolanın bütün qohumları əsir düşdülər. Nikolaya qaçmaq müyəssər oldu, Osman bəy isə onu təqib etmədi.

1291-ci ildə Osman Qazi Qaracahisar qalasını mühasirəyə aldı və uzunmüddətli müqavimətdən sonra onu ələ keçirtdi. Bu qələbədən sonra o, Sakarya çayı vadisinə hücuma başladı. 1292-ci ildə Göynük və Tarakça şəhəri tutuldu. Qısa fasilədən sonra, 1298-ci ildə o, İnəgöl qalasını, ardınca isə Biləcik qalasını ələ keçirib dövlətinin paytaxtı elan etdi. 1302-ci ilin iyun ayında Osman bəy Qocahisar, 1306-cı ildə isə Ulubad, Qastel, Kete qalalarını tutdu. Türklər 1314-cü ildə Bursanı 12 il davam edən mühasirəyə aldılar.

XIV əsrin əvvəllərində Osman Qazi Qara və Mərmərə dənizləri sahillərinə qədər uzanan torpaqları, eləcə də Sakarya çayından qərbə, cənubda Kütahyaya qədər ərazilərin böyük bir hissəsini öz dövlətinə birləşdirdi.

1320-ci ildə Osman Qazi xəstələndi və orduya onun böyük oğlu Orxan rəhbərlik etdi. O, Bursa şəhərinin hər iki tərəfində qala tikdirdi və qardaşı oğlanları Ağ Demerona və Balaban Bahadıra verdi. Şəhərdə aclıq başlandı. 1326-cı ildə Orxan Qazi şəhərə öz elçilərini göndərib müdafiəçilərdən müqaviməti dayandırmalarını tələb etdi. Qalanın əhalisi tabe olmaq məcburiyyətində qaldı. Bu qala alınandan sonra Osmanlı dövlətinin nüfuzu xeyli gücləndi.

Osman Qazi 1326-cı ildə vəfat etdi, oğlu Orxan Qazi qardaşı Ələddin paşanın razılığı ilə hakim oldu. Bursa şəhəri yeni paytaxt elan olundu. Orxan Qazinin ən başlıca arzusu və cəhdi Konstantinopolun ələ keçirilməsi idi. O, Bolu, Kandra və Aydosu tutub Nikeya (İznik) və Nikomediyaya (İzmit) doğru irəlilədi. Beləliklə, türk qoşunu Mərmərə dənizinin sahillərinə çıx-



dı. Narahat olan Bizans imperatoru III Andronikos öz qoşunu ilə birlikdə Pelenkanona (Maltəpə) gəldi. Döyüş zamanı Bizans şahzadəsi öldürüldü, imperator yaralandı, qoşunu isə qaçdı. Orxan Qazi İznikin mühasirəsini davam etdirib onu tutdu. 1334-cü ildə Kemlik, 1335-ci ilin başlanğıcında isə Armudlu ələ keçdi. Bir qədər sonra türklər İzmiti tutdular, qalanın rəisi Marika Konstantinopola qaçdı. Egey dənizinin sahillərinə qədər olan bütün ərazi Osmanlı dövlətinin nəzarəti altına keçdi. Orxan Qazi Anadolunun bütün şimal-qərb hissəsinin: Egey dənizi və Dardanel boğazından Qara dəniz və Bosfor boğazına qədər ərazilərin hakimi oldu.

III Andronikosun vəfatından sonra Bizans imperatoru V İoannes Palioloqos oldu. Saray naziri Kantakuzenos naib təyin olundu, lakin tezliklə hakimiyyəti qəsb edib özünü imperator elan etdi. Konstantinopol və Adrianopolun əhalisi onu tanımaqdan imtina etdi. Bolqarlar və serblər də ona qarşı üsyana qalxdılar. Belə olan şəraitdə o, Aydınoğlu bəyliyindən kömək istədi.

1346-cı ildə imperator öz qızı Feodoranı Orxan bəyə ərə verdi. Orxan bəy isə Kantakuzenosun zor gücünə hakimiyyəti əlində saxlamasına yardım etdi. Orxan bəyin oğlu Süleyman paşa 20 minlik ordu ilə serblərə zərbə endirdi. O, 1354-cü ildə Ankaranı ələ keçirtdi. 2 mart 1354-cü ildə Frakiyada güclü zəlzələ baş verdi və türklər bundan istifadə edib Qallipolu (Gelibolu) tutdular. Orxan Qazinin göstərişi ilə Süleyman paşanın qoşunu Canaqqalaya uğurla nəticələnən hücuma başladı. Bundan sonra Konstantinopol, Malkara və Adrionopol istiqamətində yürüş təşkil olundu. 1358-ci ilin yazında Süleyman paşa ovda həlak oldu. O, Bizansın böyük bir ərazisinin ələ keçirilməsində mühüm rol oynadı. Orxan ikinci oğlu Muradı vəliəhd elan etdi. O, tezliklə, 1360-cı ildə vəfat etdi.

Sultan I Murad yüksək təhsilli dövlət xadimi və sərkərdə idi. O, qardaşları Xəlil və İbrahim Çələbinin gizli niyyətlərinin qarşısını aldı. Yaranmış şəraitdən istifadə edən bizanslılar

Malkara, Çorlu, Kəşan və İpsalını tutdular. I Murad bu şəhərləri geri qaytarmaq məqsədilə yürüşə başladı.

1362-ci ildə türklər Adrianopolu ələ keçirib Ədirnə adlandırdılar. Bu, bütün xristian dünyasını təşvişə saldı. Sultan I Murad bu şəhəri abadlaşdıraraq çoxlu saray, məscid, mədrəsə tikdirdi. O, ordunu möhkəmləndirdi. Xristian uşaqları türk ailələrinə tərbiyə olunmağa verilir, sonra isə yeni-çəri adlanan yeni ordunun sıralarına daxil olurdular. O dövrün ən güclü peşəkar ordusu belə yaranmış oldu.

I Muradın Ədirnəni tutmaqla Bizansın bolqar və serblərlə əlaqələrini kəsməsi avropalıları türklərə qarşı yürüşə təhrik etdi. Papa V Urban 60 minlik ordu toplaya bildi. Macar kralı Layoşun ordusu Ədirnəyə yaxınlaşdı. Hacı Elbəyin 10 minlik ordusu ona hücum etdi.

1364-cü ildə baş verən döyüşdə serblərə ağır zərbə endirildi. Bundan sonra müttəfiqlərin qoşunu geri çəkilməyə məcbur oldu. Türk qoşunu Frakiya, Bolqarıstan və Serbiyanın bir hissəsini tutdu. Rumelidə qələbə türklərin qərbə doğru irəliləməsinə səbəb oldu. Bolqar kralı osmanlı hakimiyyətini tanımaq məcburiyyətində qaldı və öz bacısı Mariyanı I Murada ərə verdi. 1367-ci ildə bolqar-serb qoşunları türklərə qarşı yenidən müharibəyə başladılar.

Samakovo yaxınlığında döyüşdə Rumeli bəylərbəyi Lalə-Şahin paşanın qoşunu serbləri məğlubiyyətə uğratdı. 26 sentyabr 1371-ci ildə Çirmən düzənliyində serb qoşununa növbəti zərbə endirildi. Döyüş zamanı Serb kralı Vukoşin, onun qardaşı və oğlu həlak oldular. Valaxiya knyazı çətinliklə xilas ola bildi. Türk qoşunu Adriatik dənizinə doğru irəliləyərək Makedoniyanı hədələməyə başladı. Serbiya yenidən Osmanlı dövlətinin asılılığını tanımağa məcbur oldu.

Asiyada da I Muradı uğur müşayiət edirdi. O, Ankaranı tutaraq dövlətinin sərhədlərini cənubda Tavr dağlarına qədər genişləndirdi və bütün bəylikləri bir bayraq altında birləşdirdi. Ancaq Ələddin bəy Qaramanoğlu Bəyşəhəri tutaraq I Muradla yenidən müharibəyə başladı. 1386-ci ildə Konya yaxınlığında



döyüş baş verdi. Sultan I Murad 70 minlik ordu ilə qələbə qazandı. Şahzadə Bəyazid bu vuruşmada müstəsna cəsurluğu ilə fərqləndi. Konya mühasirəyə alındı və tezliklə qiyamçı Əli bəy Qaramanoğlu əfv olunmasını dilədi.

Serbiya kralı Lazar 1371-ci ilin sentyabrında uğradığı məğlubiyyətdən sonra öz nüfuzunu bərpa etmək qərarına gəldi və Bolqar kralı İvan Şişman və Bosniya kralı Tvartko ilə birlikdə Niş adlı yerdə hücuma başladı. Şahin paşanın qoşunu məğlub oldu, vəzir Əli paşanın qoşunu isə Bolqarıstana daxil oldu. Yaxşı bəy 6 minlik ordu ilə paytaxt Tırnovoya irəliləyərək Pravido qalasını tutdu, Şumnı qalası isə döyüşsüz təslim oldu. Bolqar kralı Niqboluya çəkildi. Əli paşa qalanı mühasirəyə aldı.

I Murad qoşunu ilə Rumeliyə gəlib bolqarları özünə tabe etdi. Bunu eşidən Lazar Şəhriköyə yürüş etdi. Sultan I Murad 10 minlik süvari ilə bu şəhəri azad etdi. Hərbi şuranın qərarı ilə türk qoşunu, Serbiya kralı Lazarın 200 minlik ordu ilə onları qarşıladığı Kosovoya irəlilədi. 20 iyun 1389-cu ildə səkkiz saatlıq ağır döyüş başlandı və türklərin parlaq qələbəsi ilə nəticələndi. Bu döyüşdən sonra Bolqarıstan və Serbiya Osmanlı dövlətinə birləşdirildi. Vuruşma zamanı əsir düşən serb Miloş Obiliç islamı qəbul etmək arzusunu bildirdi, ancaq sultanın mühafizəçilərini aldadıb I Muradı öldürdü. Onu Bursada dəfn etdilər.

1389-cu ildə iyirmi doqquz yaşlı şahzadə İldırım Bəyazid Osmanlı taxtına oturdu. O, serb taxtına kral Lazarın oğlu Stefanı oturtdu və özü isə onun bacısı ilə evləndi.

Türk qoşunları Rumıniya, Bosniya və Macarıstana daxil oldular. Bizansda bu zaman hakimiyyət uğrunda mübarizə başlandı. Taxta şahzadə İoannes oturmalı idi, lakin onun babası oğlu Manuellə hakimiyyəti qəsb etdilər. Şahzadə İoannes Bəyaziddən yardım istədi. Türk sultanı 10 minlik ordu ilə Konstantinopolu mühasirəyə aldı və şahzadə İoannesi taxta oturtdu. Qoca imperator oğlu ilə həbsxanaya salındı və tezliklə oradan Bəyazidin yanına qaçdılar. Türk sultanı Konstantinopola yürüş edərək hakimiyyəti onlara qaytardı. Beləliklə, Bizansın idarəsi Osmanlı dövlətinin nəzarəti altına keçdi.

Anadolu bəylikləri bu zaman Qaramanoğlu bəyin təşəbbüsü ilə osmanlılara qarşı müharibəyə başladılar. Anadolunun digər güclü dövləti olan Qazi Bürhanəddinin Konya dövləti də osmanlılara düşmən münasibət bəsləyirdi. Bu çətinlikləri tənzimləmək məqsədilə Anadoluya silahlı qüvvə yeridildi. Yeniçəri və vassal asılılığında olan slavyanların qoşununun köməyi ilə Məntəşə, Aydın, Səruxan, Təkə və İsfəndiyar kimi tayfa bəylikləri tutuldu. Osmanlılardan qorxan bəyliklər onlardan əfv diləyib sədaqət andı içdilər. Bəyazid Kayseri, Sivas, Samsun və Sinopu dövlətinin tərkibinə qataraq şərqdə ərazilərini genişləndirdi. Məntəşə və Aydınoğullarını birləşdirdikdən sonra onların dənizçiləri də onun sərəncamına keçdi və artıq 1390-cı ildə dənizə ilk osmanlı eskadrası çıxdı. O, yunan adalarına və kontinental Yunanıstana hücum etməyə başladı. 1391-ci ildə Egey dənizinin limanları osmanlılara keçdi. Türklər 60 gəmi ilə Egey adalarına hücum edərək Çanaqqalanı ələ keçirtdilər.

XIV əsrin sonunda Bizans imperatoru Konstantinopolun qala divarlarını təmir etdirmək qərarına gəldi. Bundan xəbər tutan Bəyazid tikintinin dayandırılmasını tələb etdi və rədd cavabı alaraq şəhərə doğru irəlilədi. İmperator vəfat etdi və onun Osmanlı dövlətində Bizansın girovu kimi saxlanılan oğlu sultan Bəyazidin razılığı olmadan Bursanı tərk edib taxta oturdu [7]. Bəyazid ona şəhərin darvazalarını bağlayıb, qala divarlarından kənara çıxmamağı əmr etdi. Mənfi cavab alan Bəyazid yenidən Konstantinopolu mühasirəyə aldı. Yeddi aylıq mühasirədən sonra əhali təslim oldu. Ancaq rumınların müdaxiləsi xəbərini alan Bəyazid 1391-ci ildə Dunay çayı istiqamətində yürüşə başladı. Rumın voyevodası Mirçe məğlub olub əsir düşdü. Nəticədə Rumıniyanın cənub əraziləri Osmanlı dövlətinə birləşdirildi. Bu zaman bəyliklər yenidən baş qaldırdılar və geri dönməyə məcbur olan Bəyazid onlara ölümcül zərbə endirdi.

Bolqar kralı osmanlı asılılığından azad olmaq məqsədilə Macar kralı Sigizmunda kömək üçün müraciət etdi. Bolqarıstanın gizli razılaşmasından xəbər tutan Bəyazid 1393-cü ildə



onun siyasi müstəqilliyinə son qoydu və 1395-ci ildə II dəfə Konstantinopolu mühasirəyə aldı.

Roma papası bütün katolikləri türklərə qarşı birləşməyə çağırdı. Macar, Almaniya, Belçika, İsveçrə və bolqar qoşunlarından Macar kralı Sigizmundun başçılığı ilə 130 minlik ordu toplandı.

24 iyul 1396-cı ildə Avropa dövlətlərinin birləşmiş qüvvələri türklərin üzərinə hücuma başladılar. Birinci qoşun qrupu Transilvaniyadan Niqbolu, ikinci qrup Vidino istiqamətində hücuma keçdilər. Səlibçilər Yerusəlim şəhərini azad etmək əzmi ilə irəliləyirdilər. Səlibçilərlə vuruşmaq üçün Bəyazid, 1393-cü ildə Bosfor üzərində Anadolu Hisarı qalasının tikilməsi ilə başladığı Konstantinopolun mühasirəsini dayandırdı. Bəyazid öz qoşununu Ədirnə yaxınlığında cəmləşdirdi. O, 10 minlik ordu ilə Tırnovaya istiqamət götürdü. 8 sentyabr 1396-cı ildə Niqbolu yaxınlığında amansız döyüş başlandı. Vuruşmanın əvvəlində türklər məharətli manevr işlədərək, öz qoşununu aypara şəklində düzüb geri çəkildilər. Səlibçilər düşmənin təlaş içərisində qaçdığını qət edib var qüvvə ilə hücuma keçdilər və osmanlıların halqaşəkilli mühasirəsinə düşdülər. Türklər halqanı bağlayıb inadla cəngavər süvarisinə hücuma keçərək düşməni qaçmağa məcbur etdilər. Bu, İldırım Bəyazidin bütün Avropanı fəth edən parlaq qələbəsi idi. Rumın sərkərdəsi Mirçe və Xorvat kralı Laskoviç döyüş meydanından qaçdılar. Xristian ordusu bu döyüşdə 100 min nəfərə qədər itki verdi. Ələ keçirilən əsirlərin əvəzinə bac ödənilməyənləri çoxavarlı gəmilərə, bəzi gənclər isə yeniçəri sıralarına göndərildi.

Sultanın 1397-ci ildə III dəfə Konstantinopolu mühasirəyə aldığı zaman Qaraman hakimi onun torpaqlarına hücum etdi, Ankaranı tutdu, lakin Bəyazid sürətlə Asiyaya dönüb Bursa yaxınlığında parlaq qələbə qazandı. Bu qələbəyə görə ona İldırım ləqəbi verildi. Osmanlı dövlətinin ərazisi Ceyhan çayına qədər genişləndi. Beləliklə, dövlətin sərhədləri Qara dənizə qədər uzandı.

1399-cu ildə Bəyazid dördüncü dəfə Konstantinopolu mühasirəyə aldı. Bu dəfə şəhəri əmir Teymurun Qərbə yürüşü xilas etdi. Bundan sonra Anadolu dövləti parçalanmağa başladı. Bəyazid və Teymurun qoşunları 1402-ci ildə Ankara yaxınlığındakı döyüşdə qarşılaşdılar. Bəyazid məğlub olub, iki oğlu ilə əsir düşdü. Teymur bütün Anadolunu Ankaradan İzmirə, Egey dənizinin sahillərinə qədər qət edərək türk bəylərinin hakimiyyətini əvvəlki torpaqlarında bərpa etdi. Ancaq Avropadakı mülkləri və Anadoluda Osman və Orxan Qazinin ələ keçirdiyi torpaqlar Bəyazidin oğullarında qaldı. Osmanlı dövləti parçalanmış oldu.

28 aprel 1402-ci ildə sultan Bəyazidin böyük oğlu Mehmet Çələbi özünü Amasya, Toqat və Sivasın sultanı elan etdi. Onun hakimiyyəti 5 iyul 1413-cü ilə qədər davam etdi. 1402-ci ildə Ankara yaxınlığında döyüşdə İldırım Bəyazidin oğlu Süleyman 30 minlik ordu ilə Bursaya, oradan isə Rumeliyə çəkildi. O, Ədirnəyə girərək özünü Frakiya və Balkanın hakimi elan etdi. Digər oğlu – İsa Çələbi Bursanın hakimi oldu. Ankara döyüşü zamanı ataları ilə əsir düşən Musa və Mustafa Çələbi qardaşları da ara müharibəsinə qoşularaq Bursaya gəldilər və İsanı qovdular. Ancaq bir müddətdən sonra İsa Musanı devirdi. Sonuncu Qaraman bəyliyində gizləndi. Amasyanın hakimi Mehmet Çələbi Bursanı tutdu. İsa isə Konstantinopola qaçdı. Süleyman onu geri qaytarıb Ankaraya çəkilən Mehmetə qarşı göndərdi. Tezliklə şəhər Süleymanın əlinə keçdi, İsa Çələbi döyüşdə həlak oldu. Süleyman ləngimədən Rumeliyə getmək məcburiyyətində qaldı.

Mehmet yaranmış şəraitdən istifadə edərək Ankara və Bursanı ələ keçirtdi. Qardaşlar arasında vuruşma zamanı Süleyman həlak oldu. Rumeli Musa Çələbinin tabeliyinə keçdi.

Beləliklə ölkədə ikihakimiyyətlilik yarandı. Musa Avropada, Mehmet isə Asiyadakı osmanlı torpaqlarında hakimlik edirdilər. İki il sonra Mehmet osmanlı əyanlarının əksəriyyətinin dəstəyini alaraq Musanı Ədirnədən qovdu.



1413-cü ildə Mehmet Çələbi özünü sultan elan etdi. O, savadlı və ədalətli hakim idi. Dövləti möhkəmləndirmək məqsədilə o, türkmən bəylərini Rumeli xristianları ilə barışdırmağa çalışaraq bəylikləri özünə tabe etdi. 1414-cü ildə Mehmet Çələbi Konyanın uğurlu mühasirəsinə başladı və tezliklə şəhəri tutdu. Qaraman bəyi Ələddin Əlinin hücumu türklər tərəfindən asanlıqla dəf edildi.

Aralıq dənizində xristian gəmilərinin pirat hücumlarının qarşısını almaq üçün 42 gəmidən ibarət donanma yaradıldı, lakin o, uzun müddət müqavimət göstərə bilmədi və barışıq imzalandı. Balkanlardakı sabitliyə baxmayaraq, Mehmet Bosniya və Xorvatiyanı ələ keçirtdi. Bu, katolikliyi qəbul etməyə məcbur edilən xristian kralı Xrvonenin xahişi ilə olmuşdu.

Ordudakı narazılıq türk qoşununu geri qayıtmağa məcbur etdi. Macar kralı Sigizmund Balkan yarımadasını tutmaq məqsədilə fəaliyyətə başladı. Bu xəbəri alan I Mehmet Dunay çayını keçib Dobriçə irəlilədi və 1420-1421-ci illərdə macar ordusuna ağır zərbə endirdi.

Arası kəsilməyən müharibələr dövlətin iqtisadiyyatına böyük ziyan vurdu. Əhalinin həyat səviyyəsinin pisləşməsi narazılığa səbəb oldu. Bu isə xalq üsyanları ilə nəticələndi. Hərəkatın rəhbəri Şeyx Bədrəddin Simovnada anadan olmuşdu. O, əvvəlcə Bursada, sonra isə Suriya və Qahirədə təhsil alaraq yüksək savada malik adam oldu. Səmərqənddə əmir Teymurla görüşən Bədrəddin onun təklifi ilə Ədirnəyə gəldi. Musa Çələbi onu ruhanilərin başçısı təyin etdi. «Cəmiül-Fisuleyn» və «Varidat» kitabları Şeyx Bədrəddini məşhurlaşdırdı. Ancaq I Mehmet hakimiyyətə gələndən sonra o, özünün dini fərqlərin və yoxsul kəndlilərdən yığılan vergilərin ləğv edilməsi haqqında ideyalarına görə İzmirə sürgün olundu.

Şeyx Bədrəddin Anadoludan Rumeliyə keçərək xalqı üsyana qaldırdı. Tezliklə ölkənin bir sıra əyalətlərində üsyançı dəstələr yaradıldı. Onlardan birinə «Baba Sultan» ləqəbi ilə məşhur olan Börkülücə Mustafa başçılıq edirdi. O, İzmir bəyi İsgəndərin üzərində qələbə çaldı və onu öldürdü. Sultan I Meh-

met Murad bəyi üsyanı yatırtmaq məqsədilə Amasyaya göndərdi. «Baba Sultan» əsir düşdü və öldürüldü.

Digər böyük üsyançı dəstəsinə Torlak Kamal rəhbərlik edirdi. Şahzadə Murad onların üzərində qələbə çalaraq Rumeliyə irəlilədi və oradakı üsyançı dəstəni məhv etdi. Şeyx Bədrəddin də əsir götürülüb sultanın hüzuruna gətirildi və 1420-ci ildə edam olundu.

I Mehmet Bizans imperatorlarına münasibətdə ardıcıl sülhsevər siyasət yeridirdi. Bununla belə, o, Valaxiya və Albaniyanın bir hissəsində öz nüfuzunu gücləndirə bildi və Avropaya çoxlu türk tayfası köçürtdü. Nəticədə Kiçik Asiya əhalisiz qaldı. Türklərin çoxu Albaniyada yerləşdi və Balkan yarımadasının qərbində dağ rayonlarının ələ keçirilməsinə kömək etdi. 4 may 1421-ci ildə sultanın ölümündən sonra taxt-tac onun böyük oğlu II Murada keçdi.

Taxtın vəliəhdi, osmanlı şahzadəsi Murad Amasyadan Bursaya qayıtdı. İyunun 24-də o, sultan elan edildi. Bu zaman Anadolu bəylikləri mərkəzi hakimiyyətə qarşı mübarizəyə başladılar. Düzməcə Mustafa isə Ədirnə istiqamətinə doğru hərəkət etdi. Avqustun 30-da döyüş başlandı, nəticədə Mustafa Ədirnəyə daxil olub öz hakimiyyətini elan etdi. Bundan sonra ölkədə ikihakimiyyətlilik yarandı: II Murad Anadoluda, Mustafa isə Rumelidə hakimlik edirdi.

1422-ci ilin yanvar ayında Düzməcə Mustafa Çanaqqalaya hərəkət etdi. Sultan II Murad səfərbərlik elan etdi və əmisinin hücumunu dayandırmaq məqsədilə Ulubad çayı üzərindəki körpünü dağıtdı. Müstafa Rumeliyə qayıtmaq məcburiyyətində qaldı. II Murad onu təqib edərək yerli əhali tərəfindən sevinclə qarşılandığı Rumeli ərazisinə daxil oldu. Xəzinənin sərvətini ələ keçirən Mustafa Boqdana qaçdı, lakin Yenicə kəndi yaxınlığında tutuldu və 1422-ci ildə Ədirnədə edam olundu.

Mustafanın məğlubiyyətindən sonra II Murad Osmanlı dövlətini birləşdirdi və onu yenidən qurmağa cəhd etdi. Bu, Bizansı narahat etməyə başladı. İmperator Ədirnəyə, II Murada öz elçiləri ilə hədiyyələr göndərdi. Sonuncu onları qəbul



etməyib, 30 minlik ordu ilə yürüşə başladı. O, 1422-ci ildə Konstantinopolu hər tərəfdən mühasirəyə aldı. Bu zaman onun on iki yaşlı qardaşı şahzadə Mustafa Çələbi Qaraman bəyliyinin dəstəyi ilə hakimiyyət uğrunda mübarizəyə başladı. O, Bursanı mühasirəyə alıb İzniki tutdu. Ancaq II Murad bu şəhəri geri ala bildi və qardaşını əsir götürdü. II Muradın əmri ilə o, edam olundu. Bundan sonra sultan digər rəqibi İsfəndiyar bəyə qarşı yürüş təşkil etdi, o isə Sinopa qaçdı.

Tezliklə Sultan II Murad onun sülh təklifini qəbul etdi və qızı ilə evləndi. Türk sultanı Aydınoğlu, Qaramanoğlu və Məntəşəoğlu bəylikləri ilə yaxınlıq əlaqələri qurdu. Beləliklə, o, bəyliklərin siyasi birliyinə nail oldu.

1426-cı ildə venediktlər macarlarla ittifaqda Osmanlı dövlətinə qarşı yürüşə başladılar. General Pipponun başçılıq etdiyi macar qoşunu Dunay çayının ətrafında II Muradın ordusu ilə qarşılaşdı və böyük itki verərək geri çəkilməyə məcbur oldu.

II Muradın babası İldırım Bəyazid serb şahzadəsinə evli olduğundan, sultan serb taxtına iddia irəli sürdü. 1427-ci ildə o, Serbiyada Georq Vulkoviçin hakimiyyətini tanımadı. Bundan xəbər tutan macar kralı Sigizmund Belqrada daxil oldu. Türklər Alahisar və Göyərçinlik qalalarını tutdular. Məğlub olan Sigizmund II Muraddan sülh istədi. Bağlanmış müqavilənin şərtlərinə görə, Eflak [8] və Bosniya osmanlılara keçdi. Ruminiya ilə ittifaqı pozulan venediktlər Anadolu bəylikləri ilə yeni müqavilə imzaladılar və Geliboluya hücum edərək məğlub oldular. II Murad Anadolunun təhlükəsizliyini təmin etmək məqsədilə Genuyanı, Ağşəhər və Bəyşəhəri ələ keçirtdi. Qaramanoğlu İbrahim əfv dilədi və o dövrün məşhur alimi olan həyat yoldaşı Mövlanə Qəmzəni sultanın yanına göndərdi. Nəticədə İbrahim əfv olundu.

II Murad Avropada dövlətinin sərhədlərini genişləndirdi və onun mövqeyini möhkəmləndirdi. O, 1430-cu ildə Konstantinopol və Afinadan sonra Balkanlarda ən mühüm şəhər olan Saloniki tutdu və eyni zamanda Albaniya, Macarıstan, Serbiya və Bosniyaya hücumlarını davam etdirdi. Ancaq 1443-cü il

onun üçün uğursuz oldu. Polşa və Litva kralı III Vladislav macar taxtına oturması münasibətilə II Murada qarşı serb, Bosniya, Valaxiya və macar zadəganlarının dəstəklədikləri Yanoş Xunyadinin başçılığı ilə ordu göndərdi. Elə o zaman Qaraman da hərbi əməliyyatlara başladı. II Murad özü Asiyadakı qüvvələrə başçılıq edərək, Xunyadiyə qarşı isə ona sədaqətli olan sərkərdələri göndərdi. Ancaq uğur avropalıların üzünə güldü, onlar hətta Sofiyanı ələ keçirə bildilər. Bununla belə, Xunyadinin məsləhəti ilə III Vladislav Murada sülh bağlamağı təklif etdi. Belə ki, bu zaman artıq Murad Qaramanlıları darmadağın etmiş, yeniçəri və sipahilər daxil olmaqla bütün qüvvələri ilə Avropaya yollanmağa hazır idi. II Murad Valaxiya və Serbiyanı tərk etdi, lakin Avropadakı qalan ərazilərini əlində saxladı. 1444-cü ildə macar şəhəri Senddə 10 il müddətinə sülh müqaviləsi imzalandı.

Həmin il II Murad könüllü olaraq hakimiyyəti Sultan II Mehmet kimi başına tac qoyulan azyaşlı oğlu Mehmetə verdi. Onun cəmi 12 yaşı var idi. Bu zaman Anadolu bir növ mədəni dirçəliş yaşayırdı. II Murad Manisada yerləşməyi və özünü fəlsəfə və ədəbiyyatla məşğuliyyətə həsr etməyi qərara aldı. Səlcuq və erkən Osmanlı dövlətlərinin tarixi məhz o zaman yazılmış, osmanlıların Kiçik Asiyada peyda olmalarının qədim tarixi yaradılmış, onların şəcərəsi isə Mərkəzi Asiyada məskunlaşmış oğuz türklərinin çar tayfalarından götürülmüşdü. II Murad təhsilə maraq göstərirdi və Ədirnədə Saray məktəbinin əsasını qoymuşdu. Bir çox əyan ondan nümunə götürdü və tezliklə ölkədə buna bənzər çoxlu məktəb meydana gəldi.

Bəyliklər əlverişli anın gəlib çatdığını düşünərək yenidən müstəqilliyə can atdılar. Xristian dövlətləri də on iki yaşlı sultanın onları dəf edə bilməyəcəyini düşünüb yaranmış şəraitdən istifadə etmək qərarına gəldilər. Sentyabr ayında 100 minlik xristian ordusu yürüşə başladı. Xristian ordusunun əsgərləri Çanaqqala boğazından keçərkən qarət və soyğunçuluqla məşğul olurdular. Vidino qalasına hücum heç bir nəticə vermədi və onlar Niqboluya çəkildilər. Osmanlı bəyləri II Mehmetin razılığını alıb II Murada məktub göndərərək onun taxta qayıtmasını xahiş etdilər. O, ali baş komandan səlahiyyətini öz üzərinə götürərək Çanaqqala istiqamətində yürüşə başladı. 9 noyabr 1444-cü ildə osmanlı qoşunu Varnaya çatdı. Amansız döyüş başlandı. Macar kralı III Vladislav öldürüldü, onun xəzinəsi türklərin əlinə keçdi. Bu parlaq qələbə osmanlıların Balkanlarda möhkəmlənməsinə səbəb oldu.



Bu döyüşdən sonra Rumelidə vəziyyət gərginləşdi. Qara dənizdə Avropa dövlətlərinin gəmiləri peyda oldu. Vəzir Xəlil paşa II Muradı Ədirnəyə dəvət etdi. II Mehmet atasından taxtaca qayıtmasını xahiş etdi. 1448-ci ildə Xunyadi alman və polyak orduları ilə birlikdə Peşde adlı yerdən hərbi əməliyyata başladı. Müttəfiqlər Serbiyanı tutub, sonra isə Belqrad-Kosovo istiqamətində irəliləməyi planlaşdırırdılar. II Murad bundan xəbər tutaraq öz ordusunu Sofiyada yenidən qurdu və Kosovoya hərəkət etdi. 16 oktyabr 1448-ci ildə o, barışıq təklifi ilə Yanoşun yanına elçi göndərdi, lakin cavab almadı. Oktyabrın 17-də Yanoş hücuma başladı. Bu ikinci Kosovo döyüşü idi. Axşama yaxın tərəflər əvvəlki mövqelərinə qayıtdılar. Ertəsi gün türk ordusu geri çəkilməyə başladı. Türklərin hərbi manevrini başa düşməyən düşmən hücuma keçərək mühasirəyə düşdü. Yanoş qaçmağa müvəffəq oldu. Beləliklə, 19 oktyabr 1448-ci ildə ikinci Kosovo vuruşması türklərin tam qələbəsi ilə başa çatdı.

3 fevral 1451-ci ildə Sultan II Murad qırx yeddi yaşında vəfat etdi. II Mehmet fevralın 18-də yenidən sultan elan edildi. O, gözəl təhsilli, cəsur sərkərdə idi. II Mehmet ərəb, fars və latın dillərini mükəmməl bilir, şeir yazırdı. O, atasının üçüncü həyat yoldaşı şahzadə Eleni Serbiyaya göndərərək Serbiya və Macarıstanla sülh bağladı, eləcə də Qaraman bəyliyi ilə münasibətləri nizama saldı.

Bizans imperatoru II Mehmetdən bacın iki dəfə azaldılmasını tələb etdi. Ancaq II Mehmet elçiləri hörmətlə qəbul edərək vaxtı uzatdı. II Mehmet o dövrün Avropasının monarxlarından daha çox savadlı idi. Azyaşlı qardaşının öldürülməsindən

sonra o, Konstantinopolu tutmaq üçün hazırlığın gedişində öz sarayında yenidənqurma işləri həyata keçirtdi. Tuncdan nəhəng toplar töküldü və şəhərə hücum üçün qoşun toplandı. 1452-ci ildə osmanlılar Bosfor boğazının dar keçidində, Konstantinopolun Qızıl Buynuz limanından təxminən 10 km şimalda üç nəhəng daxili qalası olan qəsrdən ibarət çox böyük istehkam tikdilər. Beləliklə, sultan Qara dəniz tərəfdən gəmilərin hərəkətinə nəzarət etmək imkanını əldə etdi və Konstantinopolun şimalda yerləşən İtalyan ticarət məntəqələrinin təchizatı ilə əlaqəsini kəsdi. Rumeli Hisarı (Boğazkəsən) adlanan bu istehkam, II Mehmetin ulu babasının ucaltdığı Anadolu Hisarı (Gözəlçəhisar) adlanan digər qala ilə birlikdə Asiya ilə Avropa arasında etibarlı nəqliyyatı təmin edirdi. Bizans imperatoru toplanmış bütün gəliri II Mehmetə göndərərək tikintinin dayandırılmasına ümid bəsləyirdi. Ancaq II Mehmet bəyan etdi ki, heç bir şeyə baxmayaraq o, atasının arzusunu reallaşdıracaq.

1452-ci ilin yayından Konstantinopola yürüşə hazırlıq başlandı. Bizanslılar Sarayburun və Xalic boğazları arasında qalın zəncir çəkərək türklərin yolunu bağladılar. 1 fevral 1453-cü ildə türk ordusu II Mehmetin əmri ilə şəhərə yürüşə başladı. Aprelin 6-da şəhər mühasirəyə alındı. Vəzir Mahmud paşa şəhərin təslim edilməsini tələb etdi, lakin rədd cavabı aldı. Aprelin 12-də türk ordusu uğursuzluqla nəticələnən hücuma başladı. Aprelin 20-də Beşikdaşda Süleyman bəyin donanması Sarayburun və Qalata istiqamətində hücuma başladı. Bizansın vəziyyətinin ağırlaşması ilə əlaqədar Roma papası kömək üçün bütün xristian dünyasına müraciət etdi.

Sultan II Mehmet şəhərin köməyinə gələn qüvvələri qabaqlayaraq aprelin 21-nə keçən gecə hücuma başladı. Sultanın ən effektli addımı Buxtanın girişinə çəkilmiş zənciri yan keçərək, təpələrin üzərindən donanmasının bir hissəsini böyük bacarıqla Bosfordan Qızıl Buynuza göndərməsi oldu. Türk gəmiləri beşik təkərləri ilə Xalicin sahil xətti boyunca boğazın daxili sularına keçirildi. Beləliklə, sultanın gəmilərinin topları şəhəri



daxili limandan atəşə tuta bildilər. Aprelin 24-də bizanslılar türk gəmilərini yandırmağa cəhd etdilər. Bu cəhd Bizansa baha başa gəldi: güclü külək üzündən türk gəmiləri yanmadı, əksinə, alov Bizans gəmilərini bürüdü və onlara ciddi ziyan vurdu. Tezliklə türklər min gəmini bir-birinə bağlayaraq Konstantinopola, uzunluğu 380 metr olan körpü yaratdılar.

Aprelin 28-də düşmənin bütün gəmiləri məhv edildi. İmperator II Mehmetə elçi göndərib sülh istədi, lakin rədd cavabı aldı. Bizansın paytaxtı şiddətli atəşə tutuldu. Mayın 23-də sultan II Mehmet elçi göndərərək şəhərin təslim olmasını tələb etdi.

Mayın 26-da macar elçiləri türk qərargahına gəlib mühasirənin dayandırılmasını tələb etdilər, lakin qəti rədd cavabı aldılar. Mayın 29-da sultan qoşunun qarşısında çıxış edərək onu həlledici döyüşə çağırdı. Türk ordusu «Allahu Əkbər!» nidaları ilə döyüşə atıldı. Qala divarında deşik açıldı və Osmanlı əsgərləri Konstantinopola girdilər. Axşama yaxın Konstantinopol alındı. İmperator XI Konstantin döyüşdə həlak oldu. Beləliklə, Bizans imperiyasının varlığına son qoyuldu. Konstantinopol şəhəri İstanbul adlandırıldı və qüdrətli Osmanlı imperatorluğunun paytaxtı oldu. Artıq üçüncü gün II Mehmet Aya-Sofyada ibadət edirdi. O, yeni paytaxta ölkənin müxtəlif yerlərindən çoxlu adam köçürtdü və orada ənənəvi güclü sənətkarlığı və ticarəti bərpa etdi. Konstantinopolun alınmasına görə II Mehmet Fateh təxəllüsünü aldı.

Tezliklə türklər Orta Yunanıstanın bir neçə regionunu tutdular. Avropa ölkələri türk sultanına qələbə təbrikləri olan məktub göndərdilər. Sultan isə Serbiyaya elçi göndərərək bir neçə qalanın təslim edilməsini tələb etdi. Ancaq onun elçiləri geri qayıtmadılar. Belə olduqda sultan Səməndər və Sivriçəhisarı ələ keçirtdi. O, 1454-cü ildə qoşunun bir hissəsini orada qoyub geri qayıtdı. Serb kralı Brankoviçlə birləşən Yanoş türk ordusuna hücum etdi. II Mehmet Serbiyaya qayıtdı. Yanoş qaçdı, serb kralı isə sultana təslim oldu. Türk qoşunu elə həmin il Qara dəniz sahillərinə çıxdı və Krım yarımadasına ya-

xınlaşdı. Tezliklə Krım xanlığı bütünlüklə osmanlılara tabe etdirildi.

1459-cu ildə türklər bütün Serbiyaya yiyələndilər. Ölkə Osmanlı dövlətinin bir əyalətinə çevrildi. 1461-ci ildə isə Trabzon imperiyaya birləşdirildi.

Sultan qoşununun sonrakı işğalçı yürüşləri Moreya (1460) və Bosniyanın (1463) tutulması ilə nəticələndi. Dunay knyazlıqları da türklərə təslim oldular: Moldova hələ 1456-cı ildə, Valaxiya isə 1476-cı ildə sultanın süzerenliyini qəbul etməyə məcbur olmuşdular. Ancaq sultan Dunay knyazlıqlarının boyarlarını öz knyazlarını seçmək hüququndan məhrum etmədi.

Türk işğalları Osmanlı dövləti ilə Venesiyanı çoxillik müharibəyə sürükləyən toqquşmaya səbəb olmaya bilməzdi. O, venesiyalıların məğlubiyyəti və 1479-cu ilin yanvar ayında İstanbulda imzalanan sülh müqaviləsi ilə nəticələndli. Venesiyanın Egey dənizindəki adalarını türklərə güzəştə getməyə məcbur olması və bac ödəməyə razılaşmasına baxmayaraq, Venesiya tacirləri əvvəllər sultandan aldıqları imtiyazları nəinki saxlamağa, hətta onları genişləndirməyə nail oldular. Osmanlı imperatorluğunun Avropa dövlətləri ilə sonralar imzaladığı ticarət müqavilələrinin – geniş yayılmış kapitulyasiyaların əsası belə qoyuldu.

1479-cu ildə Osmanlı dövləti ilə Venesiya arasında hərbi müqavilə imzalandı. Onun şərtlərinə görə, Aralıq dənizi rayonundakı türk ərazilərinə hər hansı bir hücum olardısa, venesiyalılar öz donanmasını türklərin köməyinə göndərməyi öhdələrinə götürürdülər. Sultan II Mehmet hərbi zərurət olduqda öz süvari hissələri ilə Venesiyanı dəstəkləyəcəyini təəhhüd götürürdü.

XV əsrin ikinci yarısı Osmanlı dövlətinin tarixində Kiçik Asiyadakı hərbi uğurlarla əlamətdardır. Sultan Qaraman bəyi və hakimiyyətini Xorasana qədər bütün İrana, İraqa və Fars körfəzinədək yaymış Azərbaycan Ağqoyunlu dövlətinin başçısı Uzun Həsənlə on ildən artıq müharibə apardı. Bir sıra qələbələr əldə edən II Mehmet Kiçik Asiyanın bütün ərazisində hakimiyyətini bərqərar edə bildi.



Trabzon uğrunda mübarizə Osmanlı imperatorluğu ilə Ağqoyunluların maraqlarının toqquşmasına səbəb oldu. Ağqoyunlu sülaləsi Trabzon imperiyası ilə ənənəvi qohumluq əlaqələrinə malik idi. Uzun Həsənin özü imperator İoann Komnenin qızı Teodora (Dəspinə) ilə evli idi. Trabzon şəhəri ona liman və tranzit ticarətə dayaq kimi lazım idi. Hətta Uzun Həsənin anası Sara Xatunun diplomatik bacarığı belə II Mehmet Fatehi öz qərarından döndərə bilmədi.

1461-ci ildə sultanın qoşunu Kiçik Asiyanın şimalında yerləşən, çox da böyük olmayıb mühüm ticarət əhəmiyyətli yunan dövləti – Trabzon imperiyasını ələ keçirtdi. Sinopu türklər Trabzon canişinin xəyanəti nəticəsində döyüşsüz tutdular. Buna görə o, sultanın Avropa torpaqlarında mükafat olaraq böyük mülk aldı. Trabzon özü isə sudan və qurudan türklərin hücumuna məruz qaldı. Onun müdafiəçiləri isə uğurlu həmlələr edərək bir aya qədər qəhrəmancasına türklərin hücumlarını dəf etdilər.

Trabzonu fəth etdikdən sonra II Mehmet Uzun Həsəni «sakitləşdirməyə» çalışdı. O, Sara Xatunu, bir qrup osmanlı nümayəndəsi, hədiyyələr və Trabzon xəzinəsinin bir hissəsi ilə oğlunun yanına göndərdi. Osmanlı nümayəndələri Uzun Həsənlə razılaşmanın şərtlərini təzələdilər. Belə ki, Rumelidə gələcək işlər şərq sərhədlərində sabitlik tələb edirdi. Bununla belə, XV əsrin 70-ci illərində iki türk müsəlman dövləti arasında müharibə labüd idi.

1 avqust 1473-cü ildə Malatya yaxınlığında II Mehmetin 100 minlik ordusu ilə Ağqoyunlu qoşunu arasında döyüş oldu. Murad paşanın rəhbərliyi altında olan osmanlı qoşununun ön mövqeləri Uğurlu Məhəmmədin qoşununun geri çəkilmək təsəvvürü yaratmasına aldanaraq pusquya düşdülər. Osmanlı qoşununun bir hissəsi qırıldı, Murad paşa isə Fərat çayında batdı.

Tezliklə II Mehmet öz qoşununu yenidən qurmaq imkanı əldə edərək, avqustun 11-də Tərcan yaxınlığında yenidən döyüşə girdi və Otluqbeli vuruşmasında tam qələbə qazandı.

1475-ci ildə II Mehmet 270 gəmi ilə çoxsaylı qoşunu Krım sahillərinə göndərdi. Türklər Kafa, Kerç, Sudak və Qara və Azov dənizlərinin sahillərində yerləşən digər şəhərləri tutdular. Krım xanı özünü türk sultanının bac verəni kimi tanıdı. Bu, Kafanı itirən geniyalılara, eləcə də Krımın cənub sahilindəki digər ticarət dayaq məntəqələrinə vurulan güclü zərbə idi. Türklərin Krımdakı işğalları, bir çox Avropa dövləti üçün böyük əhəmiyyət kəsb edən Qara dəniz ticarətinə az ziyan vurmadı.

1481-ci ildə II Mehmetin vəfatından sonra taxta oğlu II Bəyazid oturdu. O, Appenin yarımadasını tutmaq üçün II Mehmetin Cənubi İtaliyaya göndərdiyi qoşunu oradan çıxartmağa məcbur oldu. Belə ki, Anadoluda Bəyazidə qarşı çıxan kiçik qardaşı Cemlə mübarizə başlamışdı. Cem 1482-ci ildə qardaşını taxtdan salmaq üçün yenə uğursuz bir cəhd etdi, lakin nəticədə Rodos adasına qaçmağa məcbur oldu.

II Bəyazid Asiyada İrana, Şimali Afrikada Misirə və Avropada Macarıstana və Venesiyaya qarşı bir neçə uğurlu yürüş həyata keçirtdi. Venesiyaya qarşı uğurlu hərbi-dəniz əməliyyatları nəticəsində 1499-1503-cü illərdə onun Yunanıstandakı axırıncı limanları ələ keçirildi və osmanlılar Aralıq dənizində hökmran oldular. II Bəyazid inzibati islahata və imperiyanın maliyyə problemlərinin həllinə ciddi fikir verirdi. O, 1492-ci ildə İspaniyadan qovulan 100 min yəhudini ölkəyə dəvət edərək Osmanlı imperatorluğunun rifahını əhəmiyyətli sürətdə qaldırdı. O, mömin olduğuna görə Vəli («Müqəddəs») təxəllüsünü aldı.

II Mehmet Fatehdən sonra iki ən məşhur sultan – I Səlim Yavuz (1512-1520) və I Süleyman Qanuninin (1520-1566) hakimiyyəti dövründə ölkənin ərazisi xüsusilə genişləndi. Məhz bu zaman Osmanlı sülaləsində hakimiyyət dəyişikliyi dramatik hadisələrlə müşayiət olunurdu. Səlim hələ atası II Bəyazidin



sağlığında daima taxt-tacı ələ keçirtmək planını hazırlayırdı, elə buna görə də yeniçəri ordusunu öz tərəfinə çəkməyə çalışırdı. Xəstə Bəyazid taxtı digər oğlu Əhmədə vermək istəyirdi, lakin yeniçərilər buna qarşı çıxaraq paytaxtda qiyam qaldırdılar. Bir müddət Krımda gizlənən Səlim 1512-ci ilin qışında o qədər də böyük olmayan qoşunla, yeniçərilərin onu dəstəklədiyi İstanbula yaxınlaşdı. II Bəyazid taxt-tacdan əl çəkib İstanbulu tərk etməyə məcbur oldu. Yolda o, vəfat etdi. Səlimin əmri ilə onun qardaşları və qardaşı uşaqları boğulub öldürüldülər. Bəziləri sultanın öz hüzurunda qətlə yetirildi. Beləliklə, I Səlim taxta oturması ilə özünün gələcək Yavuz, Hiddətli və ya Qəddar ləqəbini doğrultdu. Bu türk sözü işğalçılıq müharibələri dövründə hər iki anlamda I Səlimin hərəkətlərində özünü göstərdi.

Konstantinopol tutulduqdan sonra, türk hücumlarının qorxusu hətta Qərbi Avropada belə hiss olunmağa başladıqda, Avropa monarxları türk sultanı ilə yaxşı münasibətlər qurmağa can atdılar. Osmanlı imperatorluğunun paytaxtına tez-tez bir çox dövlətin səfirləri gəlməyə başladı.

XVI əsrin başlancığı Osmanlı imperatorluğu ilə Səfəvilər dövləti arasında münasibətlərin kəskin dərəcədə gərginləşməsi ilə əlamətdar idi. Bu, iki dövlət arasında ərəb torpaqları uğrunda mübarizədə rəqabət, eləcə də dini ziddiyyətlər üzündən baş verdi. Bu dövlətlərdə islamın müxtəlif istiqamətləri hakim mövqe tuturdu: Azərbaycan Səfəvilər dövlətində - şiəlik, Osmanlı imperatorluğunda isə – sünnülük. Sultan I Səlim şiəliyin qəti əleyhdarı idi. 1510-1511-ci illərdə Şərqi Anadoluda qızılbaşların üsyanı baş verdi. Səlim onu xüsusi qəddarlıqla yatırdı. 1513-cü ildə onun göstərişi ilə bütün imperiyada şiələri ucdantutma məhv etmək məqsədilə siyahılar tərtib edildi.

1514-cü ilin may ayında I Səlimin ordusu Səfəvilərin sərhədlərinə doğru hərəkətə başladı. 23 avqust 1514-cü ildə şah I İsmayılın və sultan I Səlimin orduları Van gölündən şərqdə yerləşən Çaldıran düzündə qarşılaşdılar. I Səlimin 120 minlik qoşunu var idi, qızılbaşların qoşunu da təxminən o qədər

olardı. Ancaq türklərin üstünlüyü odlu silahın olmasında idi. Döyüş I İsmayılın ordusunun darmadağın olunması ilə nəticələndi. Şah özü yaralandı, lakin qaçıb qurtara bildi. Döyüş meydanında şah I İsmayılın 50 minə yaxın döyüşçüsü həlak oldu. Onun bütün düşərgəsi türklərin əlinə keçdi. Çoxlu əsir döyüş yerindəcə məhv edildi. Çaldıran döyüşündən iki həftə sonra I Səlim şahın paytaxtı Təbrizə daxil oldu və orada qışlayaraq Şimali İraq, Kürdüstan və Fərat çayından şərqdə Suriyada yeni işğal etdiyi torpaqlarda öz hakimiyyətini möhkəmlətdi.

I Səlimin Balkanlarda, Cənubi-Şərqi Anadoluda və Ərəbistanda işğalları, Şimali Afrikada əldə etdikləri, osmanlı sultanlarının torpaqlarını təxminən üç dəfə (6.557000 km$^2$) artırdı. Onların hakimiyyəti altında olan ölkələrdə çoxlu məhsuldar torpaqlı rayonlar, iri ticarət-sənətkarlıq mərkəzləri var idi. Osmanlı hökuməti Macarıstan sərhədləri və Adriatik dənizinin sularından Fars körfəzinədək mühüm ticarət yollarına nəzarət edirdi. Misirdə Məmlüklərin dövlətinin ləğvi, 1517-ci ildə Suriya və Misirin fəthi və Abbasilərin son oyuncaq xəlifəsinin əsir götürülməsi türk sultanlarına öz işğalçılıq əməliyyatlarının mərkəzini Avropaya köçürtməyə imkan verdi.

I Səlim növbəti yürüşlərindən birində 50 yaşında ikən qəflətən vəfat etdi. 1520-ci ildə taxta onun oğlu, Qanuni ləqəbini almış I Süleyman çıxdı.

O, savadlı olub müsiqini, poeziyanı, təbiəti, eləcə də fəlsəfi diskussiyaları sevirdi. Hərbçilər onu döyüşkən siyasət yeritməyə məcbur edirdilər. 1521-ci ildə osmanlı ordusu Dunayı keçərək Belqradı tutdu. Bu qələbə osmanlıların qarşısında Macarıstanın düzənliklərinə və yuxarı Dunayın hövzəsinə yol açdı. 1526-cı ildə I Süleyman Budapeşti tutdu və bütün Macarıstanı ələ keçirtdi. 1529-cu ildə sultan Vyananın mühasirəsinə başladı, lakin qış girənə qədər şəhəri tuta bilmədi. Bununla belə, İstanbuldan Vyanaya və Qara dənizdən Adriatik dənizinə qədər geniş bir ərazi Osmanlı imperatorluğunun Avropa hissəsini



təşkil edirdi. I Süleyman isə öz hakimiyyəti dövründə dövlətin qərb sərhədlərində yeddi mühüm yürüş təşkil etdi.

O, həmçinin şərqdə Səfəvilərlə də döyüş əməliyyatları həyata keçirtdi. 1534-cü ildə I Süleyman Təbrizi və sonra isə Bağdadı tutdu, İraq Osmanlı imperatorluğunun tərkibinə daxil oldu. O, qışı orada keçirərək 1535-ci ilin yazında yenidən Təbrizə yönəldi. Şah I Təhmasib Təbriz və ətrafının əhalisini digər yerlərə köçürüb, ərzaq və mal-qaranı da oradan çıxartdırdı. Onun sülh təklifi I Süleyman Qanuni tərəfindən qəbul edilmədi. 1548-ci ilin yazında sultanın ordusu bir daha Təbrizi tutdu. Bütün 1549-cu ili sultan şah I Təhmasiblə vuruşmaq cəhdi ilə onu təqib etməklə keçirtdi. I Süleyman Avropada olarkən şah I Təhmasib 1551-1554-cü illərdə Ərciş, Adilcivaz, Əhlət qalalarını tutub, Muş qalasına doğru irəlilədi.

Səfəvilərin sülh təklifini qəbul etməyən sultan növbəti dəfə şərqə yürüş etdi. Ancaq osmanlı ordusundakı narazılıq sultanı Azərbaycana yürüşünü dayandırmağa məcbur etdi.

1555-ci ildə Amasyada sülh müqaviləsi imzalandı. Onun şərtlərinə görə Şəhrizor, Van ətrafı, İmeretiya, Menqreli və Quriya osmanlılara keçdi. Bundan əlavə, I Süleyman Fars körfəzində limana sahib oldu. Osmanlı imperatorluğunun hərbi dəniz qüvvələrinin eskadrası Ərəbistan yarımadası akvatoriyasında, Qırmızı dənizdə və Süveyş körfəzində hərəkət etməyə başladı.

I Süleyman Aralıq dənizində üstünlüyü saxlamaq üçün hakimiyyətinin lap əvvəlindən dövlətin dəniz qüdrətinin möhkəmlənməsinə böyük diqqət ayırırdı. Onun ən məşhur donanmaçısı, Əlcəzair və Şimali Afrikanın ali hakimi Xeyrəddin Barbarossa İspaniya və İtaliyanın sahillərini xaraba qoydu. Bununla belə, I Süleymanın admiralları 1565-ci ildə Maltanı tuta bilmədilər.

XVI əsr Osmanlı imperatorluğunun ən qüdrətli dövrü idi. Yalnız bu yüzilliyin sonunda sosial-iqtisadi və siyasi inkişafda hiss olunan zəiflik XVII əsrdə özünü daha güclü surətdə büruzə verərək onun tənəzzülünün başlanğıcını qoydu.

Türk sultanlarının işğalçı yürüşləri nəticəsində yaranan Osmanlı imperatorluğu XVI-XVII əsrlərin hüdudlarında dünyanın üç hissəsində – Avropa, Asiya və Afrikada çox böyük əraziyə malik idi. Müxtəlif tayfalardan ibarət əhalisi, müxtəlif iqlim şəraiti və təsərrüfat-məişət ənənələri olan bu nəhəng dövlətin idarə olunması heç də asan iş deyildi. Türk sultanları, əgər XV-XVI əsrin ikinci yarısında bu problemi bütövlükdə həll edə bilirdilərsə, onların müvəffəqiyyətinin əsasını başlıca olaraq, ardıcıl mərkəzləşdirmə və siyasi birliyin möhkəmləndirilməsi siyasətinin yeridilməsi: timar torpaq sahibliyi ilə sıx bağlı yaxşı düzəldilmiş və sazlanmış hərbi maşının olması təşkil edirdi. İmperiyanın qüdrətini təmin edən bu üç vasitə, nəinki dünyəvi, həmçinin dini hakimiyyətin təcəssümü olan sultanın əlində möhkəm saxlanırdı. Belə ki, sultan bütün müsəlman-sünnülərin mənəvi başçısı – xəlifə titulunu daşıyırdı.

XV əsrin ortalarından Osmanlı imperatorluğunun dağılmasına qədər sultanların iqamətgahı İstanbulda – dövlətin bütün idarə sisteminin, ali hakimiyyət orqanlarının cəmləşdiyi mərkəzdə yerləşirdi. Orta əsrlər dövrünün ən güclü dövlətlərindən birinin paytaxtı olmuş, Bosfor sahillərində yerləşən bu qədim şəhər öz tarixində növbəti dəfə dünya əhəmiyyətli siyasi və iqtisadi mərkəzə çevrildi. O, yenidən tranzit ticarətin mühüm məntəqəsi oldu.

I Süleyman 1566-cı ildə vəfat etdi və taxta sağ qalmış yeganə oğlu II Səlim oturdu. Yeni sultanın hakimiyyəti dövründə osmanlılar dənizdə mövqelərini itirməyə başladılar. Birləşmiş xristian donanması türklərinki ilə 1571-ci ildə Lepanto döyüşündə qarşılaşdı və onu darmadağın etdi. Ancaq 1572-ci ilin yazında yeni hərbi gəmilərin inşası avropalıların dənizdəki qələbəsini heçə endirdi. 1573-cü ildə venesiyalıları məğlub etmək mümkün oldu və Kipr adası imperiyaya birləşdirildi. Bununla belə, Lepanto Aralıq dənizində osmanlıların qüdrətinin gələcəkdə zəifləyəcəyindən xəbər verirdi.

Osmanlı imperatorluğunun II Səlimdən sonrakı sultanlarının çoxu zəif hakim olmuşlar. Onun oğlu III Muradın (1574-



1595) hakimiyyətdə olduğu dövr qarışıqlıqla müşayiət olunurdu. Buna baxmayaraq, imperiyanın şərqə, Xəzər dənizinə doğru irəliləməyə, eləcə də Qafqazda və Avropada öz mövqeyini saxlamağa hələ gücü çatırdı.

1578-ci ildə sultan III Murad müxtəlif bəhanələrlə Amasiya sülhünü pozdu. Osmanlı qoşunu Xoy, Səlmas və Urmiyaya hücum etdi. 1578-ci ilin avqust ayında baş verən Çıldır döyüşündə Səfəvilər məğlub oldular. Şirvan və Gürcüstanın bir hissəsi Osmanlı imperatorluğunun hakimiyyəti altına keçdi. Ancaq tezliklə səfəvilərin baş vəziri Mirzə Salmanın ordusu Şirvanı azad etdi.

Səfəvilər dövlətində daxili siyasi çəkişmələrdən istifadə edən III Murad Qafqaza yeni yürüşə başladı. 1579-cu ildə Krım xanı Məhəmməd Gəray qoşunu ilə Şirvana daxil oldu, lakin öz qardaşını orada qoyub Krıma qayıtdı.

Şirvanı azad etmək səfəvilərə müyəssər oldu. 1580-ci ildə Şirvan bəylərbəyi Peykər xan Qacar Ziyadoğlu osmanlı ordusunu məğlubiyyətə uğratdı. Ancaq bir qədər sonra, III Muradın qoşunu Azərbaycana qarşı hərbi əməliyyatları bərpa etdi. Türk qoşunu baş vəzir Osman paşanın komandanlığı ilə 1585-ci ildə Təbrizi tutdu. Səfəvilərin şəhəri azad etmək cəhdi isə boşa çıxdı. Bu zaman dövlətin daxilində yeni çəkişmələr başlandı və şah I Abbas hakimiyyətə gəldi. 1590-cı ildə o, İstanbula öz nümayəndəsini göndərdi və tərəflər arasında İstanbul sülhü (Fərhad paşa andlaşması) imzalandı. Onun şərtlərinə görə Səfəvi hökuməti Azərbaycanın böyük bir hissəsinin, o cümlədən Çuxur-Səəd, Dərbənd və Gürcüstanın Osmanlı dövlətinə keçdiyini tanımalı idi.

Osmanlı hökuməti Azərbaycanın işğalından sonra ölkənin inzibati-idarə sistemində dəyişiklik edərək onu paşalıq və sancaqlara böldü. Müsəlman əhalisi arasında zorla sünnülük yayılmağa başlandı. Dövlətin ərazisi 20 mln. $km^2$-a çatdırıldı.

1595-ci ildə III Muradın vəfatından sonra taxta, 19 qardaşını boğub öldürmüş III Mehmet çıxdı. 1603-cü ildə onun varisi I Əhməd hakimiyyət sistemində islahat keçirməyə

və korrupsiyadan xilas olmağa cəhd göstərdi. O, qardaşı Mustafanı öldürmədi, lakin o zamandan etibarən sultanların qardaşları həbsdə saxlanıldı. Nəticədə mərkəzi hakimiyyət sürətlə zəifləməyə başladı.

14 sentyabr 1603-cü ildə Səfəvilər hərbi əməliyyatları bərpa edib Təbrizə irəlilədilər və şəhəri azad etdilər. Culfa və Naxçıvanda yerləşən osmanlı qarnizonu döyüşsüz təslim oldu. Sonra Ordubad, İrəvan, Çuxur-Səəd, Qarabağ, Gəncə azad edildi. Şamaxının alınması müharibənin taleyini həll etdi və nəticədə Osmanlı imperatorluğu bütün Qafqazı itirdi.

1607-1611-ci illərdə baş vəzir Murad paşanın komandanlığı ilə osmanlı ordusu Təbrizi tutub yenidən Azərbaycana daxil oldu. Ancaq hərbi əməliyyatları davam etdirə bilməyərək geri qayıtdı. 1612-ci ildə tərəflər arasında Nasuh paşa andlaşması imzalandı.

Maliyyə və iqtisadi nizamsızlıqlar tez-tez orduda həyəcan doğururdu. 1617-1623-cü illərdəki yeniçəri qiyamları dörd dəfə sultanın dəyişməsinə səbəb oldu. Onlardan biri olan II Osman on dörd yaşında taxta oturduldu, dörd il sonra isə yeniçərilər tərəfindən 1622-ci ildə öldürüldü. On il sonra, 1632-ci ildə İstanbulda yenidən yeniçəri qiyamı qalxdı. Onlar uğursuz ovdan paytaxta qayıdaraq sultan IV Muradın sarayını mühasirəyə aldılar, sonra isə yeniçəri və sipahilərin nümayəndələri sultanın otağına girib onlara sərf edən baş vəzirin təyin edilməsi və giyamçıların iddiaları olan ruhanilərin verilməsini tələb etdilər. Yeniçərilərə güzəştə getməklə qiyamı yatırtmaq mümkün oldu. Ancaq ehtiraslar elə coşmuşdu ki, müsəlmanların müqəddəs Ramazan ayının başlanması ilə yeniçəri kütlələri əllərində məşəllər gecələr şəhəri gəzərək ruhani və varlı şəhərlilərdən, onları yandırmaqla hədələyib pul və mülkünü tələb edirdilər. Sıravi yeniçərilər, çox zaman bir-birinə qarşı duran saray qruplaşmalarının əlində adi silaha çevrilirdilər. Yeniçəri qiyamları sultanlar üçün də qorxulu idi.

XVI-XVII əsrlərin hüdudlarında, osmanlı cəmiyyətinin sosial strukturunun əsasını, dövlətçiliyin təməl daşını təşkil edən



timar sisteminin tənəzzülünün əlamətləri daha çox üzə çıxdı. Timar sisteminin dağılması XVII əsrdə bütöv bir silsilə sosial-siyasi traktatın meydana gəlməsinə səbəb oldu. Onların müəllifləri dövlət xadimləri və salnaməçi-tarixçilər öz müasirləri olan sultanları bu sistemin həyat qabiliyyətini bərpa etməyə, dövlətin xəzinə və hərbi qüdrətinin mənafeyi naminə onun uğurlu fəaliyyətinin təmin olunmasına çağırırdılar.

Sultanların XV-XVI əsrlərdə apardıqları sonsuz müharibələr timar sahiblərini zənginləşdirməklə yanaşı bütün ağırlığı kəndlilərin üzərinə salırdı. Bu isə onların öz təsərrüfatlarında təkrar istehsalı genişləndirmək imkanını zaman-zaman heçə endirirdi. Bundan başqa, XV-XVI əsrlərin uğurlu müharibələri imperiyanın ərazisinin ağlagəlməz dərəcədə genişlənməsinə səbəb olmuşdu. Bu isə imperiyadaxili iqtisadi əlaqələrin son dərəcə zəif olduğu bir şəraitdə kənd təsərrüfatının intensiv inkişafı yolunda daha bir sədd yaratmış oldu. Osmanlı imperatorluğu bu dövrdə dəfələrlə güclü kəndli üsyanlarının meydanına çevrilmişdi. Bu üsyanlar sultanlar və onların dayağını təşkil edən orta əsr türk cəmiyyətinin feodal-krerikal dairələri üçün təhlükə yaradırdılar.

XVII-XVIII əsrlərin ikinci yarısında kənd təsərrüfatında tənəzzül prosesi davam edirdi. Ağır vergilər kəndli kütlələrini var-yoxdan çıxarırdı.

On minlərlə yoxsullaşmış kəndli doğma kəndlərini tərk edir və şəhərlərdə qazanc, daldalanacaq axtarırdı. XVIII əsrin ortalarından etibarən imperiya daha çox inkişaf etmiş Avropa dövlətlərindən, artmaqda olan iqtisadi və siyasi asılılığa düşmüş oldu. Vaxtilə qüdrətli olmuş Osmanlı dövləti ilə iri Avropa dövlətləri arasında qüvvələr nisbətinin sonuncuların xeyrinə dəyişməsi o qədər açıq idi ki, Porta [10] tez-tez onlara iqtisadi və siyasi xarakterli güzəştlərə getməyə məcbur olurdu. XVIII əsrin ortalarından kapitulyasiya sistemində dəyişikliklər baş verdi. Avropa monarxları ilə Osmanlı imperatorluğunun hökmdarının, onların hakimiyyətdə olduqları müddətə imzaladıqları müqavilələrin sultanın Avropa təbəələrinə verdiyi mü-

kafat xarakteri daşıyan ticarət güzəştləri və imtiyazları zamanla məhdudlaşmayan daimi hüquqlara çevrildi. Osmanlı imperatorluğu ilə bu əsasda ilk müqaviləni 1740-cı ildə Fransa imzaladı. Sonra buna bənzər hüquqları Avstriya, İngiltərə, Hollandiya və Yaxın Şərq ticarətində marağı olan digər Avropa dövlətləri də aldılar. Bu müqavilələr Osmanlı imperatorluğunun sənaye və sənətkarlığını, kənd təsərrüfatı və ticarətini son dərəcə əlverişsiz vəziyyətə saldı.

XVIII əsrdə sultan ordusu da say etibarilə kəskin surətdə azaldı. XVIII əsrin ikinci yarısında yeniçərilərin siyahısında 75 min nəfər maaş alan kimi qeydə alınmışdı. Halbuki hərbi əməliyyatlarda bilavasitə 18 mindən çox yeniçəri iştirak etmişdi. Yerdə qalanlar dinc peşələrlə məşğul olmağa üstünlük verirdilər. XVIII əsrdə artıq bir çox yeniçəri sənətkarlıq və ya ticarətlə məşğul olmaq haqqında qadağanı pozaraq özlərinə peşə seçməyə başladılar. Bütün bunlar xəzinədən maaş almaq və yeniçəri korpusunda olmağın onlara verdiyi hüquqlardan istifadə etməklə həyata keçirilirdi.

Rusiya qüvvətlənəndən sonra, XVIII əsrin başlanğıcından etibarən iki dövlət arasında ərazi iddiaları başlandı. Rus-türk müharibələri XX əsrin əvvəllərinə qədər davam etdi. XVIII əsr ərzində Osmanlı imperatorluğu Aralıq dənizindəki qüdrətinin böyük hissəsini itirdi. Əgər XVII əsrdə Osmanlı imperatorluğunun başlıca rəqibləri Avstriya və Venesiya idisə, XVIII əsrdə – Avstriya və Rusiya oldu.

Vyana altında məğlubiyyət türklərin Balkanlardan çəkilməsinin başlanğıcını qoydu. Əvvəlcə Budapeştin, sonra isə Moxaçın itirilməsi ilə Macarıstan bütünlüklə Vyananın hakimiyyəti altına düşdü. Türklər 1688-ci ildə Belqradı, 1689-cu ildə Bolqarıstanda Vidino və Serbiyada Nişi tərk etməli oldular. Bundan sonra, sultan II Süleyman (1687-1691) Fazil Mustafa paşa Köprülünü baş vəzir təyin etdi. Osmanlılar Niş və Belqradı geri qaytarmağa müvəffəq oldular.

II Mustafa (1695-1703) Hüseyn Köprülünü baş vəzir təyin edərək itirilmiş mövqeləri geri qaytarmağa cəhd etdi. Ancaq



sultanın ordusu Serbiyanın şimalında, Senta altında şahzadə Yevgeni Savoyski tərəfindən darmadağın edildi. 1699-cu ildə Karlofça (Karlovitsk) sülh müqaviləsi imzalandı. Onun şərtlərinə görə Peloponnes yarımadası və Dalmatsiya Venesiyaya keçir, Avstriya Macarıstanı və Transilvaniyanı alır, Rusiya isə Azovu özündə saxlayırdı. Beləliklə, Karlovitsk müqaviləsi osmanlıların Avropadan çıxarkən getməyə məcbur olduqları ilk güzəşt idi.

1718-ci ildə Pasarofça (Pojarevatsk) müqaviləsinə görə Avstriya yenə də bir sıra əraziləri aldı. Bununla belə, sultan I Mahmud (1730-1754) 1730-cu illərdə apardığı müharibələrdə məğlub olmasına baxmayaraq, 1739-cu il Belqrad müqaviləsinə əsasən bu şəhəri özünə qaytara bildi. Bu, əsasən Habsburqların zəifliyi və fransız diplomatlarının intriqaları üzündən mümkün oldu.

1768-1774-cü illərin rus-türk müharibəsi osmanlı ordusunun son dərəcə geriliyini üzə çıxartdı. Porta hərbi islahatlar keçirmək yolunu tutaraq, ordunu Avropa nümunəsi üzrə təkmilləşdirməyi qərara aldı. Osmanlı imperatorluğuna xarici hərbi təlimatçı və mütəxəssislər dəvət olundu. Macar mühacirinin oğlu, diplomat və mühəndis, fransız təbəəsi baron de Tott Dardaneldə istehkamlar qurmaqla məşğul olurdu. Onun rəhbərliyi altında səhra artilleriyasının yeni hissələri və tətikçilər dəstəsi yaradıldı, süngüdən istifadəyə başlanıldı. Ancaq bu yeniliklər əvvəlki kimi ordunun özülünü təşkil edən yeniçəri korpusundan yan keçdi. Belə ki, fanat yeniçərilər heç bir yeniliyi, xüsusilə də «kafir» təlimatçının nəzarəti altında, yaxın buraxmırdılar. Ancaq bu dövrün bəzi tədbirləri ölkənin gələcəyi üçün real və mühüm səmərə verdi. Hərbi təhsil müəssisələrinin yaradılması da bu qəbildən idi. 1771-ci ildə həmin de Tottun təşəbbüsü ilə artilleriya, istehkamçı və naviqatorlar üçün hərbi məktəblər açıldı. Bu məktəblərdə riyaziyyatın tədrisinə əhəmiyyətli dərəcədə diqqət ayrılırdı.

Sultan I Əbdülhəmidin (1774-1789) hakimiyyət dövrü isə müharibələr dövrü kimi xarakterizə olunur.

## § 2. Krım xanlığı

Trabzon imperiyasına daxil olan Feodora feodal knyazlığından şimala və şərqə doğru Qırx-Ork («Qırx qala») və ya mərkəzi Çufut-Qalada (indiki Bağçasaray yaxınlığında) Krım Torpağı knyazlığı yerləşirdi. XV əsrin başlanğıcında Krım Torpağı artıq Qızıl Ordadan daha çox ayrıldı və nəzərə çarpacaq dərəcədə gücləndi. Çöl və dağətəyi Krım, yarımadanın dağlıq hissəsinin bir hissəsi və kontinentdə geniş ərazilər də onun tərkibinə daxil idi. Krım yarımadasının cənub sahilləri XIII əsrə qədər genuyalılar və venesiyalıların əlində idi. XIII əsrin 70-ci illərində genuyalılar Qızıl Orda xanından qədim yunan şəhəri Feodosiyanın ərazisində ticarət mərkəzinin yaradılmasına icazə aldılar. Bu şəhər Kafa adlandırıldı. Beləliklə, Genuya ilə Venesiya arasında Qara dəniz limanlarını ələ keçirtmək uğrunda mübarizə başlandı. Genuyalılar qələbə qazanaraq Xersonesi, Suqudeyi, Bosforu tutdular. Bununla belə, Qızıl Orda özünü Krımın sahibi hesab edərək bu şəhərlərdən bac alır və ödəmək istəməyənləri ciddi surətdə cəzalandırırdı.

Canı bəyin vəfatından sonra Krımda 14 dəfə hakimiyyət dəyişikliyi baş verdi. Mamay xandan sonra isə saray çevrilişləri və sui-qəsdlər adi hal aldı.

XIV əsrin 80-90-cı illərində ölkə daxilində ziddiyyətlərin kəskinləşməsinə baxmayaraq Krımda tatarların sayı artırdı. Belə bir şəraitdə Krımın hakimi Timurtaş özünü xan elan etdi. Ancaq onun hakimliyi uzun sürmədi, onu Qiyasəddin əvəz etdi. Tezliklə Qızıl Ordalı Polad xan Qiyasəddini hakimiyyətdən kənarlaşdırdı. Bu zaman Orda faktiki olaraq Krımı üzərində nəzarəti itirdi. 1420-ci ildə Yedigeyin vəfatından sonra Krımda hakimiyyət uğrunda amansız mübarizə başlandı. Müstəqil Krımın ilk xanı və Gəraylar sülaləsinin banisi Hacı Gəray [5] bu mübarizədən qalib çıxdı.

Hacı Gəray ılk dəfə hakimiyyəti qısa müddətə də olsa 1438-ci ildə ələ ala bildi, lakin tezliklə rəqibləri ona üstün gəldilər. 1443-cü ildə Hacı Gəray Polşa kralı Kazimirin köməyi ilə



yenidən taxta oturdu və bir qədər sonra onu itirdi. Tezliklə o, 1449-cu ildə Böyük Litva knyazlığının və yerli Krım varlılarının dəstələrinin hərbi köməyi ilə qəti olaraq Krımda möhkəmləndi.

XV əsrin ortalarında Krım tarixində Qızıl Orda dövrü tamamilə başa çatdı. Krımlıların çoxillk müstəqillik cəhdləri uğurla nəticələndi, qarışıqlıqlarla silkələnən Qızıl Orda isə buna ciddi müqavimət göstərə bilmədi. Krım ayrılandan sonra, tezliklə Bulqar (Kazan xanlığı) da ayrıldı. Bir qədər sonra bir-birinin ardınca Həştərxan, Sibir və Noqay Ordası da müstəqil oldu. 1449-cu ildə taxta çıxan I Hacı Gəray 1466-cı ildə vəfat edənə qədər hakimiyyətdə qaldı. Onun oğlu Menkli Gərayın hakimiyyəti dövründə (1468-1515) Krım xanlığı əhəmiyyətli dərəcədə möhkəmləndi. O, Moskva knyazı III İvanla müttəfiqlik edirdi. Tezliklə bu xanlıq Şərqi Avropanın ən güclü dövlətinə çevrildi. Dövlətin paytaxtı Bağçasaray şəhəri oldu.

Konstantinopolu ələ keçirəndən sonra osmanlı donanması 1454-cü ildə Krım yarımadasının sahillərinə çıxdı. 1475-çi ildə Osmanlı imperatorluğu Genuya koloniyalarını və sonralar «Krım yunanları» adlandırılan xristian əhalinin məskunlaşdığı Feodora knyazlığını işğal etdi. Dağlıq Krımın böyük hissəsini təşkil edən bu ərazilər, eləcə də Qara dəniz sahili, Azov sahili və Kubanın bir sıra iri şəhərləri və qalaları Sultan hakimiyyəti tərəfindən idarə olunan türk mülkiyyətinin tərkibinə qatıldılar və xana tabe deyildilər. Osmanlılar orada öz qarnizonunu və məmur aparatını saxlayır və tabeliklərində olan torpaqlardan ağır vergilər toplayırdılar. 1478-ci ildən etibarən Krım xanlığı rəsmi olaraq Portanın vassalına çevrildi və 1774-cü il Kiçik Qaynarca sülhünə qədər belə qaldı. Xanların təyin olunması və kənarlaşdırılması, adətən İstanbulun arzusu ilə həyata keçirilirdi.

Osmanlı imperatorluğunun dəstəyi, eləcə də Böyük Moskva knyazı III İvanla ittifaq Menkli Gəraya başlıca rəqibi olan Böyük Ordanı məğlub etmək imkanı verdi. Böyük Ordaya

qarşı birgə mübarizə zəminində formalaşmış Krımla Moskvanın ittifaqı bundan sonra dağıldı.

XV əsrin axırlarından etibarən Krım xanlığı Moskva dövlətinə və Polşaya daimi yürüşlər təşkil etməyə başladı. Krım tatarları və noqaylar su ayrıcları ilə yol seçərək mükəmməl yürüş taktikasına malik idilər. Krım süvarisi yelpik kimi paylanmış dəstələrlə hücuma keçməklə daha geniş əraziləri tutmağa və çoxlu əsir götürməyə nail olurdu. Yüksək manevr etmək qabiliyyətinə malik olan tatar dəstələri sürətlə dislokasiya yerlərini dəyişə bilir, böyük məsafələr qət edir və çox geniş cəbhədə hücum etməyi bacarırdılar. Bu, kifayət qədər süvarisi olmayan Moskva qoşununun onunla mübarizəsini çox çətinləşdirirdi. Krım xanı böyük yürüşlər üçün Osmanlı imperatorluğundan piyada yeniçəri və artilleriya timsalında tez-tez hərbi yardım alırdı.

Rus qoşununun Litva ilə müharibəyə başının qarışmasından istifadə edərək Kazanı öz təsiri altına salan Krım xanı Məhəmməd Gəray 1521-ci ilin yayında Rusiyaya hücum etdi. Krımın Kazan taxtına oturtduğu Sahib Gəray xanın qüvvələri də yürüşdə iştirak edirdilər. Bu, Rusiyanın cənub və şərq rayonlarına birgə zərbə endirməyə imkan verdi. Hücum gözləməyən Moskvanın qoruqçu dəstələrini Oka çayı üzərində darmadağın edən Məhəmməd Gəray Kolomna yaxınlığında, artıq Vladimir və Nijni Novqorod əyalətlərini talamış qardaşının qoşunu ilə birləşdi. Krım-Kazan qüvvələrinin ön dəstələri 29 iyul 1521-ci ildə Moskva divarları yaxınlığında görünəndə, əhalidə Qızıl Ordanın dəhşətli günlərini xatırladan vahimə yarandı. Moskva knyazı III Vasili paytaxtı tərk edib alay toplamağa yollandı. Ancaq Krım xanı Moskvaya hücum etmədi. O, III Vasilidən Krım xanına bac ödəyəcəyi haqqında fərman almaqla kifayətləndi. Məhəmməd Gəray geri qayıdarkən Ryazanı tutmağa cəhd etdi. Ancaq şəhərin müdafiəçilərinin ilk artilleriya atəşi hücumçuları qaçmağa məcbur etdi. Bununla belə, Yediqeyin dövründən sonra Rusiya bu dərəcədə dağıdıcı hücum görməmişdi.



1541-ci il iyul ayının sonu-avqust ayının əvvəllərində Krım xanı Sahib Gərayın qoşunu yeniçəri dəstələrinin və türk artilleriyasının köməyi ilə Moskva üzərinə böyük yürüşə başladı. «Boyar idarəsi» dövründə Rusiyanın zəifləməsi Krım xanını fəal hərəkət etməyə təhrik etdi. İyulun 30-da Sahib Gərayın ordusu, o zaman cənubdan Moskvaya gedən yolun başlıca hüdudu olan Oka çayına yaxınlaşdı. Ancaq rus alayları Krım süvarisini çayı keçməyə qoymadılar. Şəhəri tutmaq cəhdi onun qoşunu üçün uğursuz oldu və xan öz ərazisinə qayıtdı. Krım-türk qoşunlarının Oka çayı üzərində məğlubiyyəti, tezliklə ruslara Kazan xanlığına təzyiqi gücləndirmək imkanı verdi.

Sahib Gəray sui-qəsd nəticəsində öldürüldü və Krım xanı Dövlət Gəray (1551-1577) oldu. O da öz sələfləri kimi Moskvaya dəfələrlə hücum təşkil etdi. Dövlət Gəray xan İvan Qroznı ilə Kazan və Həstəşxanın müstəqilliklərinin bərpası məqsədilə dəfələrlə müharibə etmişdi. Ancaq İvan Qroznı, öz növbəsində Kazan xanlığını məğlub edib Krıma qarşı yürüşə başladı. 1555-ci ilin iyun ayında çar knyaz İvan Şeremetyevin dəstəsini Perekopa göndərdi. Sonuncu, yolda Krım xanının qoşununun Tulaya hərəkət etdiyini öyrəndi. O, geriyə dönüb düşmənini təqib etməyə başladı. Şeremetyevin dəstəsi Krım ordusunu arxadan izləyərək onların arabalarını ötüb keçdi. Bu zaman arxasında rus qüvvələrinin olduğunu öyrənən xan, yürüşü dayandırdı və var qüvvəsi ilə Şeremetyevə qarşı döndü. Onlar Sudbişşe kəndi yaxınlığında toqquşdular. Əvvəlcə ruslar krımlıları sıxışdırdılar. Şeremetyev yaralandı və döyüşə rəhbərlik edə bilmədi, lakin yeni komandanlıq dağıdılmış qüvvələrin qalıqlarını toplamağı bacardı. Ruslar qaranlıq düşənə qədər müdafiə olundular. Gecə I Dövlət Gəray çar qoşununun Tulaya yaxınlaşdığını eşidib geri çəkilməyə başladı.

1556-cı ilin yazında dyak Matvey Rjevskinin komandanlığı altında dəstə Putivldən Krm xanına qarşı yürüşə başladı. Dneprdə ona 300 Ukrayna kazakı qoşuldu. Rjevskinin dəstəsi Qara dənizdə türk qalası Oçakova qədər üzərək qala divarlarını tutub dağıtdı, sonra isə geriyə döndü və onu təqib etməyə

çalışan türklərə zərbə endirdi. Dnepr qalası İslam-Kermenin yaxınlığında rus-Ukrayna dəstələri altı gün ərzində Krım qoşununun hücumlarını dəf etdilər. Rjevskinin yürüşü I Dövlət Gəray xanı hücum planlarından əl çəkib, qoşunu Krımın müdafiəsinə yönəltməyə məcbur etdi.

1559-cu ildə okolniçi Daniil Adaşev və knyaz Vişnevetskinin komandanlığı altında rus-Ukrayna dəstələri Krım xanlığına qarşı birgə hərbi əməliyyat keçirtdilər. Yazda ukraynalı kazak dəstəsi, Kazan üzərinə hücuma hazırlaşan Krım süvari qrupunu Azov yaxınlığında darmadağın etdi. Bu zaman Adaşevin rus dəstəsi böyük qayıqlarda Dneprlə aşağı endi, dənizdə Krım sahillərini qoruyan iki türk gəmisini tutdu və Krıma yan aldı. Bu hücum əhali arasında vahimə yaratdı və onlar dağlara qaçdılar. Rusların müvəffəqiyyət qazanmasında, Krımda çoxlu döyüş atının ölməsinə səbəb olan güclü quraqlıq da rol oynadı. Adaşevin dəstəsi yarımadanın qərb hissəsində iki həftə ərzində sərbəst surətdə irəliləyə bildi və çoxlu rus əsirini azad edərək evə qayıtdı.

Rusların Krıma ilk böyük qoşun çıxarmalarının uğurla başa çatmasına baxmayaraq, Moskvanın xanlığı fəth etmək üçün kifayət qədər gücü yox idi. Digər tərəfdən, IV İvan artıq o zaman Livoniya müharibəsinə cəlb olunmuşdu və cənub istiqamətində mübarizə aparmaq vəzifəsi uzun müddətə ikinci plana keçmiş oldu. Ancaq krımlıların rusların cənub sərhədlərinə hücumları davam edirdi. 1569-cu ildə Həştərxana nəticəsiz qurtaran böyük Krım-türk yürüşü oldu.

1571-ci ilin may ayında xanın başçılıq etdiyi 120 min atlıdan ibarət ordu Moskvanı tutub taladı (buna görə I Dövlət Taxt Alan ləqəbini aldı). Tarixçilərin mülahizəsinə görə, Moskva dövlətinə yürüş zamanı bir neçə yüz min adam ölmüş və 50 min nəfər əsir düşmüşdü. IV İvan Polşa kimi Krıma hər il, xanın ailəsinin və onun əyanlarının əvvəlcədən göndərdikləri siyahı üzrə bac ödəməli idi. Ancaq bir il sonra Molodya döyüşündə xanın ağır məğlubiyyəti üzündən Krım xanlığı öz qüdrə-



tini əhəmiyyətli dərəcədə itirdi və Volqaboyuna iddialarından əl çəkməyə məcbur oldu.

Krım türklərinin son böyük hücumu Qazi Gərayın hakimiyyəti dövründə baş verdi. O, rus qüvvələrinin isveçlilərlə müharibəyə cəlb olunmasından istifadə edərək 1591-ci ilin yayında Moskvaya yürüş təşkil etdi. İyulun 4-də xanın dəstələri Kolomenskə yaxınlaşdılar. Ancaq moskvalılar bütün hücumları inadla dəf etdilər və xanın qoşununa böyük zərbə vurdular. Moskvanın möhkəm müdafiə olunduğunu görən Qazi Gəray sübhün açılmasını gözləmədən geri çəkildi.

1654-cü ildə hakimiyyətə IV Məhəmməd Gəray (1654-1666) gəldi. Bu zaman Don və Zaporojye kazakları Boqdan Xmelnitskinin köməyi ilə Noqay ulusuna hücum etdilər və Azovun sahillərinə çıxdılar. IV Məhəmməd tərkibində noqay, çərkəz və kabardinlərin də olduğu böyük bir qüvvə ilə Perekop ətrafında müdafiə mövqeyinə keçdi. Bundan xəbər tutan kazaklar dərhal geri qayıtdılar.

Krım xanlığı türk sultanının sadiq vassalı kimi 1677-1681-ci illərdə birinci rus-türk müharibəsində iştirak etdi. Müharibə 13 yanvar 1681-ci ildə Bağçasaray sülhünün imzalanması ilə nəticələndi.

Knyaz Vasili Qolitsın və getman İvan Samoyloviçin komandanlığı altında rus-Ukrayna qoşunları 1687-ci ilin may ayında Krıma qarşı yürüşə başladılar. Ancaq müttəfiqlərin hərbi qüdrəti təbiətin qarşısında gücsüz idi. Rus qoşununun keçməli olduğu, günəşin yandırdığı kimsəsiz çöllər, qızdırma xəstəliyi yayan bataqlıqlar yürüşün uğursuzluğunu təmin etdilər.

Qolitsının Krıma ikinci yürüşü 1689-cu ilin fevral ayında başlandı. Bu dəfə acı təcrübədən dərs alaraq o, su və ot çatışmazlığı və çöl yanğınlarından qorxmamaq üçün yaz ərəfəsində çölə çıxdı. Krım xanının həmləsini dəf edən Qolitsın mayın 20-də Perekop istehkamlarına yaxınlaşdı, lakin onlara hücum edə bilmədi. O, danışıqlara başladı, ancaq xan vaxtı uzatdı. Perekop divarları yanında bir-neçə gün nəticəsiz dayanan və içməli suyu olmayan Qolitsın tələsik geri dönməyə məcbur oldu.

Qolovin, Lefort və Qordonun komandanlığı altında rus qoşunları 1695-ci ilin yayında Azov qalasına hücum etdilər. Ancaq sentyabr ayının sonlarında böyük itki verərək geri qayıtmaq məcburiyyətində qaldılar.

1696-cı ilin yazında I Pyotr Azov qalasına yürüşə hazırlığa başladı. İyulun 18-də rus qoşunu qalanı aldı. Ancaq I Pyotrun Qara dənizə çıxmaq cəhdləri əbəs yerə idi.

Krım kəndlərinin türk əhalisinə rus qoşununun hücumunun səbəb olduğu 1768-1774-cü illərin rus-türk müharibəsi zamanı hərbi əməliyyatlar Krım xanlığının ərazisində aparılırdı. 10 iyul 1774-cü ildə Rusiya üçün çox əlverişli, Osmanlı imperatorluğu üçün isə xilasedici olan Kiçik Qaynarca sülhü bağlandı. Krım Rusiyaya birləşdirilmədi və hər hansı kənar hakimiyyətdən asılı olmadığı tanındı. Müqaviləyə görə osmanlı hökuməti Kinburn, Kerç və Yeniqalanı Rusiyanın mülkiyyəti kimi, eləcə də onun Qara dənizdə üzmək azadlığını qəbul edirdi.

Rus qoşunu Krımdan çıxdıqdan sonra hər yerdə üsyan baş verdi. Aluştaya türk desantı çıxarıldı; Krımda rus rezidenti olan Veselitski Şahin xan tərəfindən əsir alındı və türk baş komandanına təhvil verildi. Aluşta, Yalta və digər yerlərdə rus dəstələrinə hücumlar olurdu. Krımlılar IV Dövləti xan seçdilər. Bu zaman İstanbuldan Kiçik-Qaynarca müqaviləsinin mətni alındı.

Şahin Gəray Krımın son xanı oldu. O, dövlət işlərində islahatlar keçirməyə və idarəçiliyi Avropa nümunəsi üzrə yenidən qurmağa cəhd göstərdi, lakin bu tədbirlər son dərəcə gecikmişdi. Onun taxta çıxmasından dərhal sonra rus işğalına qarşı üsyan başladı. Krımlılar hər yerdə rus qoşununa hücum edirdilər. 900 nəfərə qədər insan həlak oldu və saray talan edildi. Şahin taxtdan salındı, II Bahadır Gəray xan seçildi. Osmanlı imperatorluğu Krım sahillərinə donanma göndərib yenə müharibəyə başlamağa hazırlaşırdı. Üsyan rus qoşunu tərəfindən qəddarlıqla yatırıldı, Şahin Gəray öz rəqiblərini amansızcasına cəzalandırdı. Bundan sonra Şahin sultana xəlifə kimi müraciət



edərək ondan xeyir-dua fərmanı istədi və Porta Krımdan rus qoşununun çıxması şərti ilə onu xan kimi tanıdı. 1782-ci ildə Krımda yeni üsyan başladı və Şahin Yeniqalaya, oradan isə Kubana qaçmağa məcbur oldu. II Bahadır Gəray xan seçildi, lakin Rusiya onu tanımadı. 1783-cü ildə rus qoşunu heç bir xəbərdarlıq etmədən Krıma girdi. Tezliklə Şahin Gəray taxtdan əl çəkdi.

8 aprel 1783-cü ildə rus imperatriçası II Yekaterina manifest imzaladı. Manifestə görə Krım, Taman və Kuban rus əyalətlərinə çevrildi. Beləliklə, Krım, özünün imzaladığı Kiçik Qaynarca müqaviləsinin şərtlərini pozan Rusiya tərəfindən işğal olundu. 1791-ci ildə Yassı (Yaş, 1792) sülh müqaviləsinə görə Osmanlı dövləti Krımı, Xocapaşanı (Odessa) Rusiyanın mülkiyyəti kimi tanıdı.

### § 3. Kazan və Həştərxan xanlıqları. Noqay Ordası və Başqırdıstan

XIV əsrdə Volqanın aşağı və orta axarlarında iqtisadi və mədəni yüksəliş baş verdi. XV əsrin birinci yarısında Orta Volqaboyu Qızıl Ordadan ayrıldı. Kama çayının Volqaya töküldüyü yerin yaxınlığında müstəqil Kazan xanlığı yarandı. Qızıl Orda xanı Ulu Məhəmməd (1438-1445) 1437-ci ildə çəkişmələr nəticəsində Saray-Bərkədən Kazana köçdü və Kazan xanlığını yaradıb şəhəri özünün paytaxtı elan etdi. O, 1438-ci ildən 1445-ci ilə qədər hakimiyyətdə oldu.

Kazan xanlığının iqtisadi cəhətdən əlverişli coğrafi şəraiti var idi. Belə ki, o, Buxara və Xivəyə gedən mühüm karvan yollarının üstündə yerləşirdi.

Əhalinin əsas məşğulliyyəti yaylaq maldarlığı, əkinçilik, balıqçılıq, arıçılıq, xəz emalı və mahir sənətkarlıq idi. XVI əsrin sonunda vahid tatar xalqının formalaşması prosesi başa çatdı.

Qonşu ölkələr daxili çəkişmələrdən istifadə edərək tez-tez Kazana hücum edir və ölkə üçün təhlükəli vəziyyət yaradırdı-

lar. Ulu Məhəmmədin uğurlu siyasəti Moskva knyazlığını ehtiyatlandırırdı. Bu, xüsusilə onunla əlaqədar idi ki, mühüm Volqa ticarət yolu güclənməkdə olan xanlığın ərazisindən keçirdi.

Ulu Məhəmməd öz hakimiyyəti dövründə Moskva knyazlığına dəfələrlə yürüş təşkil etmişdi. O, 1439-cu ildə Moskvaya tam yaxınlaşmış, 1444-cu ildə Suzdal yaxınlığındakı döyüş nəticəsində isə rus knyazları Kazan xanlığından asılı vəziyyətə düşmüşdülər. Ulu Məhəmmədin vəfatından sonra xanlığın Moskva knyazlığı ilə münasibətləri dəyişməyərək düşmənçilik xarakteri daşıyırdı.

Ulu Məhəmmədin oğlu Mahmud Təkə xan atasının siyasətini davam etdirərək, 1446-1448-ci illərdə Ustyuq, Murom və Vladimirə yürüş təşkil etdi. Ancaq 50-ci illərin əvvəllərində Kazanla Moskva arasında dinc münasibətlər yarandı. 1453-cü ildə Qalitsiya knyazlığ ilə müharibə başa çatdı. Rus knyazlıqları ilə münasibətlərin yaxşılaşdırılmasında Qasım xanlığı böyük rol oynadı. Şəraitin sabitləşməsi Kazanda iri yarmarkaların təşkilinə səbəb oldu. Onlar beynəlxalq ticarət əlaqələrinin nizama salınmasına kömək etdi.

1466-cı ildə Mahmud Təkə xan vəfat etdikdən sonra iki qrup arasında hakimiyyət uğrunda mübarizə başladı. Knyaz Əbdül Möminin başçılıq etdiyi qrup Rusiyanın mənafeyindən çıxış edir, digəri isə – Krımpərəst və türkpərəst siyasət yeridirdi.

Mahmud Təkə xanın oğlu Xəlil 1467-ci ildə bu qruplara qarşı mübarizəyə başladı. Şərq qrupu məğlub oldu, Xəlilin qardaşı İbrahim isə mübarizədən imtina etdi. Yalnız Qasım xanlığı mübarizəni davam etdirdi. Kazan xanlığının silahlı qüvvələri Qaliç və Kostroma istiqamətlərində hücuma başlayaraq Vyatka şəhərini tutdular. Rus qoşunu üç dəfə Kazana yaxınlaşdı, lakin onu ələ keçirə bilmədi.

1469 və 1478-ci illərdə Kazan xanlığı ilə Moskva knyazlığı arasında sülh bağlandı. Ancaq Moskva knyazlığı sülhün şərtlərini yerinə yetirmədi. Bu isə onların arasında münasibətləri yenidən kəskinləşdirdi.



Kazan taxtına 1479-cu ildə Əli xan oturdu. O, ordunun güclənməsinə xüsusi diqqət yetirir, eləcə də Sibir xanı və Noqay tatarları ilə əlaqələri genişləndirirdi. Moskva isə öz növbəsində Kazan feodalları arasındakı çəkişmələrdən məharətlə istifadə edirdi. Kazana tacir adı ilə gələn rus məmurları casusluqla məşğul olur, xanlığın əhalisi arasında milli və dini münaqişə toxumu səpirdilər.

Moskva Qızıl Ordanın asılılığından azad olduqdan sonra Moskva-Kazan münasibətləri kəskinləşdi. 1487-ci ildə böyük bir hərbi dəstə Moskvadan Kazana göndərildi. Əli xanın ordusu geri çəkilməyə məcbur oldu. Mayın 18-də Kazan mühasirəyə alındı. Əli xan əsir düşdü və Voloqdada öldürüldü. Ancaq rus qoşunları Kazanı ələ keçirə bilmədilər. Məhəmməd Əmin xanın hakimiyyəti dövründə Kazan xanlığı faktiki olaraq Rusiyanın vassalına çevrildi.

24 iyun 1505-ci ildə Kazanda güclü üsyan qalxdı. Ona səbəb rusların Kazanda çevriliş etmək cəhdi oldu. Çevrilişə Moskvanın Kazandakı səfiri Klapik rəhbərlik edirdi. Üsyan zamanı o, həbs edildi, eləcə də rus tacirləri öldürüldülər. Baş verənlərdən xəbər tutan III Vasili Kazan üzərinə yürüşə başladı. Ancaq yaxşı silahlanmış 40 minlik Kazan ordusu onu Novqoroda geri çəkilməyə məcbur etdi. Tərəflər arasında barışıq imzalandı.

Məhəmməd Əmin xanın vəfatından sonra Ulu Məhəmmədin sülaləsi başa çatdı və hakimiyyət uğrunda mübarizə başladı. Moskva taxta 13 yaşlı Şah Əlini oturtdu. 1521-ci ildə çevriliş nəticəsində Şah Əli devrildi və Moskvaya qaçdı. Kazan xanlığının taxtına, Osmanlı sultanı və Krım xanının dəstəyi ilə Sahib Gəray oturduldu. O, qardaşı Məhəmmədlə birlikdə noqayların və litvalıların köməyi ilə Moskvaya uğursuz yürüş təşkil etdi.

Kazanın daxili işlərinə qarışması tatar feodalları arasında narazılıq doğurdu və Sahib Gərayın qovulmasına səbəb oldu. Hakimiyyət Səfa Gərayın əlinə keçdi. Ancaq 1531-ci ildə Ka-

zanda qalxan üsyan dövlət çevrilişi ilə nəticələndi. Hakimiyyət əldən-ələ keçir, gah Canəli, gah da Səfa Gəray taxta otururdu.

IV İvan Kazandakı daxili çəkişmələrdən istifadə edərək 1549-1551-ci illərdə Kazana fasiləsiz hücumlar edir və bu xanlığın işlərinə daha çox qarışırdı. Ruslar Kazana gedən yolda, sonralar hərbi düşərgələrə çevrilən şəhərciklər salırdılar. Taxta yenidən Moskva knyazlığı ilə birləşməyi qərara alan Şah Əli oturduldu. Ölkə daxilində ağır vəziyyət yarandı. Nəticədə 6 fevral 1552-ci ildə Şah Əli Moskvaya qaçdı.

Aprel ayından rus qoşunlarının Kazan üzərinə qətiyyətli hücumu başladı. Ancaq iyunun 20-də onlar Tula yaxınlığında məğlub oldular. Avqustun 13-də IV İvan Svyajka şəhərinə gəldi və avqustun 16-18-də rus qoşunları Kazanı mühasirəyə aldılar. Yadigar xan rusların şəhəri təslim etmək tələbini rədd etdi. Avqustun 25-də Kazana hücum başlandı. Sentyabrın 30-da şəhər güclü atəşə tutuldu. Rus qoşunları oktyabrın 2-də Kazana daxil oldular. Son Kazan xanı Yadigar həbs olundu və Moskvaya göndərildi.

**Həştərxan xanlığı** tipik feodal dövləti idi. Əhali köçəri maldarlıqla məşğul olurdu. Xanlığın mərkəzi orta əsr Həştərxanı oldu. Azərbaycana yollanan «Müqəddəs Venesiya respublikasının» səfiri Ambroco Kontarini 1473-cü ildə Həştərxanda olmuşdu. Onun xatirələrindən görünür ki, o zaman Həştərxan alçaq divarlarla əhatə olunmuş kiçik bir şəhər idi. Venesiya, Xarəzm, Buxara, Kazan, Krım, rus tacirləri Həştərxanda ticarətlə məşğul olur və ya öz mallarını bu şəhər vasitəsilə digər ölkələrə aparırdılar.

XVI əsrin birinci yarısında Həştərxan Osmanlı imperatorluğunun, Krım xanlığının, Noqay Ordasının diqqətini cəlb etməyə başladı və onların arasında bir növ «nifaq almasına» çevrildi. Həştərxan onları əlverişli coğrafi şəraiti ilə cəlb edirdi. Buna görə onlar hərbi-strateji və ticarət məqsədi ilə Volqanın aşağı axarında möhkəmlənməyə çalışırdılar. Rəqibləri qarşısında hərbi və ticarət-iqtisadi üstünlüyə malik olan Moskva dövləti də həmçinin, özünün cənub-şərq sərhədlərinin möhkəmləndirilməsində maraqlı idi. Həştərxan o zaman kifayət qədər siyasi və hərbi qüvvəyə malik deyildi. Mübahisənin həlli yolu Həştərxana hərbi hücumlar idi, yəni onun talan edilməsi adi işə çevrilmişdi.



1547-ci ildə krımlıların hücumundan sonra Həştərxanda hakimiyyətə Moskvaya müxalif olan Krımın adamı Yamqurçey gətirildi. Bu hadisədən sonra krımlılarla noqayların münasibətləri mürəkkəbləşdi. Moskvanın diqqəti müəyyən müddətə «Kazan işinə» yönəlmişdi. 1552-ci ildə Kazan xanlığı işğal olunduqdan sonra Volqanın aşağı axarına və Xəzərə yol açıldı, Həştərxan xanlığının taleyi həll edilmiş oldu. Moskvanın məqsədlərindən ehtiyat edən Krım və Osmanlı imperatorluğu Həştərxanda birgə hərəkətlərini fəallaşdırdılar. Moskva əleyhinə güclü koalisiya yaratmağa cəhd edildi. IV İvan 1554-cü ilin yanvar ayında səfiri Mikula Brovtsının vasitəsilə Noqay xanının qardaşı İsmayıla «Həştərxan işini» baharda etmək istədiyini bildirdi. Hələ 1553-cü ilin oktyabr ayında İvan Qroznı «Həştərxan işini» Moskvada Noqay mirzələri ilə müzakirə etmişdi. Həştərxanın taleyinin ən yüksək dövlət səviyyəsində müzakirə olunması Rusiyanın orada nüfuzunu möhkəmləndirmək səylərini sübut edirdi.

1 iyul 1554-cü ildə rusların silahlı qüvvələri Perevolok yaxınlığında İsmayılın süvarisi ilə görüşüb birgə səylə Həştərxana doğru irəliləməli idi. Rus çarının qoşunu çoxsaylı deyildi, lakin çar öz sərkərdələrinin cəsurluğuna və təcrübəsinə böyük ümid bəsləyirdi. 2 iyul 1554-cü ildə rus qoşunu şəhərə yaxınlaşdı və heç bir müqavimət görmədən Həştərxanı tutdu. Yamqurçey qaçdı. Həştərxan taxtına, təntənəli surətdə Moskvaya sədaqət andı içən Dərviş Əli oturduldu. Onun öldüyü təqdirdə taxtın varisi məsələsini çar həll edirdi. Ruslar bütün Volqaboyu Ryazandan dənizə qədər Həştərxanlı balıqçılarla birlikdə balıq tutmaq hüququnu aldılar. Noqay mirzəsi İsmayıla üç il müddətinə Moskva ilə gömrüksüz ticarət etməyə icazə verilirdi. Knyazlar, mirzələr, ruhanilər, xalq rus çarına sədaqət andı içdilər. Həştərxan xanlığı Rusiya dövlətindən tam asılı vəziyyətə düş-

dü. Qoşun Həştərxanı tərk etdi, yalnız boyar oğlu Pyotr Turgenevin başçılığı ilə atıcı və kazak dəstələri qaldı. Ancaq tarixin gözlənilməz hadisələri elə cərəyan etdi ki, rus qoşunu yenidən Həştərxanı «işğal» etməli oldu.

1556-cı ildə IV İvan özünün silahlı qüvvələrini Həştərxanın ərazisinə yeritdi və ciddi müqavimətə rast gəlməyib şəhəri ələ keçirtdi. Dərviş Əli və digər iri feodallar qaçdılar. 1580-1620-ci illərdə Həştərxanın mərkəzində Kreml divarı tikildi. Beləliklə, Həştərxan Rusiyanın hərbi bazasına çevrildi.

Köçərilərin (noqayların) feodal dövləti olan **Noqay Ordası** Xəzər və Aral dənizlərindən şimalda Tur və Kama çaylarına qədər və Volqadan İrtışa qədər olan ərazilərdə yerləşirdi. XIV əsrin sonu – XV əsrin əvvəllərində Yedigey xanın dövründə bu dövlət Qızıl Ordadan ayrıldı.

Onun oğlu Nurəddinin hakimiyyəti dövründə (1426-1440) Noqay Ordası tamamilə formalaşdı. Noqay Ordasının əhalisi manqıt, kunqrat (XV əsrin ikinci yarısından noqay), qıpçaq, başqırd və digər türkdilli tayfalardan ibarət idi. Dövlətin mərkəzi olan Sarayçik (Saraycuk) şəhəri Qara dənizyanı bölgələrdən Mərkəzi Asiyaya tranzit ticarətin ən iri məntəqəsi idi. Ancaq tədricən o, yoxsullaşmış kiçik və Ordanın iqtisadi həyatına heç bir təsir göstərməyən məntəqəyə çevrildi. Köçəri həyat tərzi keçirdiklərinə görə Noqay Ordası xanlarının iqamətgahının yeri tez-tez dəyişir, əsasən isə Ufa ətrafında yerləşirdi.

Həştərxan və Sibir xanlıqları ilə müqayisədə Noqay Ordası daha sıx məskunlaşmışdı və buna görə də güclü idi.

Ordanın Moskva dövləti ilə fəal əlaqələri yalnız XVI əsrin ortalarından, İvan Qroznının Kazanı işğalından sonra başlandı. Bu zaman Noqay Ordasında ara çəkişmələri artdı. Nəticədə onun ərazisi üç hissəyə: Böyük Noqaylar, Kiçik Noqaylar və Altıul Ordasına bölündü. Bu isə 1557-ci ildə Noqay Ordasını faktiki olaraq könüllü surətdə Moskva knyazlığının iqtisadi və siyasi himayəsi altına saldı, 1606-cı ildə isə o, tamamilə ləğv edildi.



**Başqırdıstanın** ərazisi XVI əsrin ortalarına qədər Kazan, Sibir xanlıqları və Noqay Ordası arasında parçalanmış halda idi və feodal ara müharibələri və yürüş meydanına çevrilmişdi. 1552-ci ildə Kazan xanlığının Rusiya tərəfindən işğalından sonra xanlığın tabeliyində olan başqırd torpaqları azad oldu. Noqay və Sibir xanları başqırdlar üzərində hakimiyyətdən əl çəkmək fikrində deyildilər. Bu şəraitdə onların birləşib vahid dövlət yaratmaları qeyri-mümkün idi. Kazanın süqutundan sonra IV İvan başqırd xalqına müraciət edib, onları könüllü olaraq Rusiyanın tərkibinə daxil olmağa çağırdı. 1554-cü ildə Kazana çar canişininin yanına ilk olaraq bəylərin başçılığı ilə qərbi və şimali-qərbi başqırd tayfaları getdilər və qabaqcadan daxilolmanın şərtlərini razılaşdırdılar. 1554-1555-ci illərdə Başqırd nümayəndələri (yurmat, burzyan, qıpsaq, userqan, tamyan) Kazana getdilər. 1557-ci ildə Başqırdıstan Rusiya tərəfindən işğal olundu və IV İvanın fərmanı ilə bura rus kəndliləri köçürüldü.

XVI əsrin 80-90-cı – XVII əsrin 20-ci illərinin baçlanğıcında Sibir xanlığı ilə mübarizə və onun darmadağın edilməsi prosesində Uralarxası başqırdları rus təbəəliyini qəbul etdilər. Rusiya hökuməti başqırdlara Noqay və Sibir xanlarının iddialarından, xarici düşmənlərin müdaxiləsindən müdafiə edəcəyinə zəmanət verir; başqırd xalqının yerləşdiyi torpaqları mülk hüququnun şərtləri ilə saxlayır, başqırdların dininə toxunmayacağını vəd edir, yerlərdə hakimiyyəti bəylərin və knyazların əlində saxlayaraq daxili həyatına qarışmayacağını öhdəlik götürürdü. Başqırdlar özlərini rus çarının təbəəsi hesab edərək öz hesablarına hərbi xidmət daşımağa və xəzinəyə torpaq vergisini (yasaq) bal və xəzlə ödəməyə borclu idilər.

Başqırdıstana rus kəndliləri və sənətkarları köçürülməyə başlandı. Onlarla başqırdlar arasında təsərrüfat və mədəni əlaqələr yarandı. Rusiya, öz növbəsində ərazisini genişləndirərək dövlət sərhədlərini şərqdə Volqadan Tobolun orta axarına qədər və cənub-şərqdə Yaikə (Urala) qədər uzatdı. Ancaq XVII əsrdən etibarən hökumət birləşdirilmənin şərtlərini pozmağa

başladı: başqırd torpaqları zəbt olundu, vergi və mükəlləfiyyətlər artırıldı, müsəlmanlar zorla xristianlaşdırıldılar. Narazı qalan başqırdlar çoxlu sayda üsyan qaldırdılar.

Üsyanlara iri feodallar başçılıq edirdilər. Onlar xalq kütlələrinin çar müdiriyyətinin başqırd torpaqlarını zəbt etməsindən, yasaqın toplanması zamanı sui-istifadələrindən narazılığından öz məqsədləri üçün istifadə etməyə çalışırdılar. Feodalların siyasi mövqeləri tez-tez dəyişirdi. Onların bir hissəsi rus təbəəliyindən imtina edib, kalmık tayşası və ya Sibir şahzadəsi Kiçik xanın simasında yeni himayəçilər axtarırdı. Çar hökuməti başqırd icmalarının daxili həyatını rus administrasiyasının nəzarəti altına salan bir sıra inzibati islahat keçirməyə məcbur oldu.

### § 4. Buxara, Xivə və Qazax xanlıqları

XVI əsrin sonu – XVII əsrin başlanğıcında özbəklərin əraziləri iki xanlığa bölündü: Buxara və Xivə. Buxara xanlığı Şeybanilər dövlətinin (1500-1598) paytaxtı Səmərqənddən Buxaraya köçürüləndən sonra meydana gəldi. Özbək xanlarının sülaləsi olan Şeybanilərin banisi Məhəmməd Şeybanidir (1451-1510). Buxara şəhəri isə Mərkəzi Asiyanın təxminən 1 əsrdən mövcud olan ən qədim şəhərlərindən biridir. II Abdulla xanın hakimiyyəti dövrü (1557-1598) xanlığın ərazisinin ən çox genişləndiyi və siyasi nüfuzunun artdığı dövrdür. 1583-cü ildən o, bütün özbəklərin xanı elan edilmişdi. Onun dövründə Buxara xanlığı yaradıldı və möhkəmləndi. O, feodal ara müharibələrinin qarşısını ala bildi və müstəqilliyə can atan ayrı-ayrı feodalları Buxara xanlığının ətrafında birləşdirdi.

II Abdulla xanın dövründə dövlətin ərazisi cənubda Bədəxşandan, şərqdə Fərqanə vadisinə qədər uzanırdı. O, Moskva ilə diplomatik, iqtisadi və ticarət əlaqələri qurdu. Beləliklə, XVI əsrin 80-90-cı illərində Buxara xanlığının iqtisadi və mədəni həyatı xeyli canlandı. Mərkəzi Asiyanın tacirləri Xəzər sahili rayonlarla, əsasən Həştərxan, Kazan və hətta Moskva və



Novqorodla da ticarət əlaqələri saxlayırdılar. Ölkənin iqtisadi və mədəni həyatında baş verən dəyişikliklər feodal münasibətlərinin inkişafına səbəb oldu, mərkəzi hakimiyyətə tabe olmaq istəməyib müstəqilliyə can atan iri torpaq sahibləri meydana gəldi. Belə vəziyyət ölkədə hakimiyyətin zəifləməsinə səbəb oldu.

Buxara xanlığında feodal ara və saray çəkişmələrindən istifadə edən Səfəvilər Xorasanı tutdular. Şah I Abbasa arxalanan Xarəzm feodalı Xoca Məhəmməd 1598-ci ildə Ürgəncdə möhkəmləndi. Kalmık tayfaları Mavərənnəhrdən sıxışdırıldı. Qazax xanlarından biri olan Təvəkkül Daşkənd şəhərini və onun ətraf bölgələrini ələ keçirtdi.

1598-ci ildə II Abdulla xan qəflətən vəfat etdi. Onun oğlu Əbdül Məmun dövləti idarə etmək qabiliyyətinə malik deyildi. Beləliklə, Şeybanilər sülaləsinin yüzillik hakimiyyəti sona çatdı. Onu, Qızıl Orda parçalanandan sonra Həştərxanda hakimiyyəti öz əlinə alan yeni sülalə – Həştərxanilər əvəz etdi. 1554-cü ildə ruslar Həştərxan xanlığının torpaqlarını zəbt etdikdə, sülalənin nümayəndəsi olan Yar Məhəmməd xan qaçaraq Buxaraya gəldi. Onun oğlu Buxara hakimi İsgəndər Şeybaninin qızı ilə evli idi. Bu nigahdan doğulan Baki Məhəmməd 1599-cu ildə, Səfəvilər tərəfindən məğlub edilmiş özbək xanlığı süquta uğrayanda özünü Buxaranın xanı elan etdi.

Baki Məhəmmədin hakimiyyəti dövründə (1599-1605) Qazax xanı Səmərqəndə geniş miqyaslı yürüş təşkil etdi. O, şəhəri tutub Buxaraya doğru irəlilədi. Bu zaman şah I Abbasın silahlı qüvvələri Herata yaxınlaşdılar. Ciddi təhlükə yarandığını hiss edən Baki Məhəmməd ölkədə səfərbərlik elan etdi və hər iki cəbhədə döyüş əməliyyatlarını genişləndirdi. Xanın ordusu Təvəkkül xanın qoşununu təqib edərək Daşkəndə qədər qovdu. Bundan sonra Buxara xanının qoşunu Əfqanıstanın şimal ərazilərini Səfəvilərdən azad etdi.

1605-ci ildə Baki Məhəmməd vəfat etdi. Vəli Məhəmmədin hakimiyyəti dövründə (1605-1611) ölkədə narazılıq artdı. Saray adamları, iri feodallar və ruhanilər 1611-ci ildə çevriliş etdilər. Hakimiyyətə Dinməhəmmədin oğlu İmamqulu xan gəldi.

O, bir il sonra Daşkəndi azad edib oğlu İsgəndəri ora hakim təyin etdi. Ancaq, tezliklə Daşkənddə qalxan üsyan zamanı onu öldürdülər. İmamqulu xan bir ay şəhəri mühasirədə saxlayaraq üsyanı qəddarlıqla yatırdı və şəhərdə xüsusi rejimə keçildi.

İmamqulu xanın hakimiyyət dövrü, onu taxt-tacdan əl çəkməyə məcbur edən fasiləsiz üsyanlarla əlamətdar idi. Ölkədəki qeyri-sabit siyasi şərait qazax köçərilərinin tez-tez Xoçəndə yürüş etmələrinə səbəb olurdu. Bu yürüşlər Əbdül-Əzizin hakimiyyəti illərində (1645-1680) də davam edirdi. Xanlığın ərazisi, həmçinin Xarəzm, İran və Böyük Moğol dövlətinin təcavüzünə də məruz qaldı. O, Bəlxdə öz mövqeyini möhkəmləndirmək məqsədilə qardaşı Sübhanqulu xanı şəhərə hakim təyin etdi. Tezliklə sonuncu, xanlıqda bütün hakimiyyəti öz əlinə aldı.

Sübhanqulu xanın dövründə (1680-1702) feodal ara çəkişmələri zəiflədi və ölkənin qismən iqtisadi və mədəni dirçəlişi nəzərə çarpdı. Onun vəfatından sonra hakimiyyətə Ubaydulla xan (1702-1711) gəldi. Qoşuna komandanlıq Mahmud bəyə tapşırıldı. O, müstəqilliyə can ataraq, tezliklə Bəlxdə özünü xan elan etdi. Ubaydulla xan beş il Mahmudla müharibə aparmalı oldu.

1711-ci ildə Ubaydulla xanın vəfatından sonra taxta çıxan qardaşı Əbülfəz xan Həştərxanilər sülaləsinin son nümayəndəsi oldu. Onun ölkədə özünə nüfuz qazanmaq cəhdlərinə baxmayaraq xanlığın idarəsi qohumlarının əlinə keçdi.

Buxara xanlığı Həştərxanilər (Canilər) sülaləsinin dövründə zəiflədi. 1710-cu ildə Kokand xanlığı Buxara xanlığının tərkibindən ayrıldı. 1740-cı ildə Buxara xanlığı Nadir şah tərəfindən işğal olundu. 1747-ci ildən xanlıq Buxara əmirliyi adlandı və siyasi hakimiyyət Manqıt sülaləsinin əlinə keçdi. Bu sülalənin dövründə dövlətin sərhədləri tədricən daraldı və sonunda yalnız Buxara və Səmərqənd vilayətləri qaldı.

**Xivə xanlığının** əsası 1511-ci ildə Xarəzmin ərazisini zəbt etmiş Yadigar xanın varisləri İlbars və Balbars sultanların rəhbərlik etdiyi köçəri özbək tayfaları tərəfindən qoyulmuşdu.



Onlar Cucinin beşinci oğlu Şibanın oğlu Ərəbşah ibn Piladdan gələn Çingizilər qoluna məxsus idilər. Buna görə də sülaləni Ərəbşahlar adlandırırlar. Onlar bir qayda olaraq, Mavərənnəhr Şeybani xan tərəfindən tutulduqdan sonra, orada məskunlaşan Şibanın əcdadlarının digər qolu ilə düşmənçilik edirdilər. 1511-ci ildə Xarəzmi tutan özbəklər Şeybani xanın yürüşlərində iştirak etmədilər. Ərəbşahlar çöl ənənələrinə sadiq qalaraq xanlığı sülalənin kişilərinin (sultanların) sayına görə mülklərə – votçinaya bölürdülər. Ali hakim olan xan ailənin böyüyü idi və sultanların şurası tərəfindən seçilirdi. Bütün XVI əsr boyu paytaxt Ürgənc şəhəri olmuşdu. Xivə ilk dəfə 1557-1558-ci illərdə (bir il müddətinə) xanın iqamətgahı oldu. Yalnız Ərəb Məhəmmədin hakimiyyəti zamanı (1603-1622) Xivə paytaxta çevrildi. XVI əsrdə xanlığa Xarəzmdən başqa, Xorasanın şimalındakı vadilər və Qara Qum səhrasının türkmən tayfaları da daxil idi. Sultanların mülklərinə həm Xarəzmin, həm də Xorasanın rayonları birləşdirildi. XVII əsrin əvvəllərinə qədər xanlıq, faktiki müstəqil sultanlıqların xanın nominal hakimiyyəti altında olan zəif konfederasiyası idi.

Özbəklərin gəlişi ərəfəsində Xarəzm, 1380-ci illərdə Teymurun törətdiyi dağıntılar nəticəsində artıq özünün mədəni əhəmiyyətini itirmişdi. Oturaq əhalinin çox hissəsi yalnız ölkənin cənubunda qalmışdı. Əvvəllər suvarılan, xüsusilə şimaldakı torpaqların çoxu başlı-başına buraxılmış və şəhər mədəniyyəti tənəzzülə uğramışdı. Xanlığın pul vahidinin olmaması onun iqtisadi zəifliyini göstərən əsas faktdır. XVIII əsrin sonuna qədər burada Buxara sikkələrindən istifadə olunurdu. Bu cür şəraitdə özbəklər köçəri həyat tərzini cənub qonşularına nisbətən daha uzun müddətə qoruyub saxlaya bildilər. Onlar xanlıqda hərbi silki təşkil edirdilər, oturaq sartlar (yerli tacik əhalisinin sələfləri) isə vergi verənlər idi. Xanın və sultanların nüfuzu özbək tayfalarının hərbi dəstəyindən asılı idi; bu asılılığı azaltmaq üçün xanlar tez-tez türkmənləri muzdla tuturdular. Nəticədə, sonuncuların xanlığın siyasi həyatında rolu artır və onlar Xarəzmdə məskunlaşmağa başlayırlar.

Xanlıqla Buxaradakı Şeybanilər arasında münasibətlər, bir qadya olaraq, düşmənçilik xarakteri daşıyırdı. Ərəbşahlar tez-tez öz özbək qonşularına qarşı Səfəvilərlə ittifaqda çıxış edirdilər və xanlıq üç dəfə: 1538, 1593 və 1595-1598-ci illərdə Şeybanilərin işğalına məruz qaldı.

XVI əsrin sonunda, ərəbşahların çoxunun öldürüldüyü daxili müharibələr seriyasından sonra xanlığın sultanlar arasında bölüşdürülməsi sistemi ləğv olundu. Bundan sonra, XVII əsrin əvvəllərində Səfəvilər dövləti tezliklə xanlığın Xorasandakı torpaqlarını tutdu. Məşhur tarixçi Əbül Qazi xanın (1643-1663) və oğlu - varisi Ənüşün hakimiyyət dövrü nisbi siyasi sabitlik və iqtisadi tərəqqi ilə xarakterizə olunur. Geniş miqyaslı suvarma işləri aparıldı və yeni suvarılan torpaqlar oturaq həyata keçən özbək tayfaları arasında bölüşdürüldü. Buna baxmayaraq ölkə yenə də kasıb olaraq qalmaqda idi. Xanlar boş xəzinəni qonşulara soyğunçu reydlərdən alınan qənimətlə doldururdular. Bu zamandan XIX əsrin ortalarına qədər ölkə, tarixçilərin ifadəsinə görə, «soyğunçu dövlət» olaraq qalırdı.

Ərəbşahlar sülaləsi XVIII əsrin sonunda tarix səhnəsindən silindi. Bu dövrdə artıq tayfa başçılarının hakimiyyəti artmışdı. Onlar xan taxtına qazax çöllərindən çingiziləri dəvət etməyə başladılar. Real hakimiyyət Atalık və İnak titulu daşıyan özbək tayfa başçılarının əlində cəmləşmişdi. Xanlıqda iki özbək tayfası konqrat və manqıt hakimiyyət uğrunda mübarizə aparırdı. Onların mübarizəsi Xarəzmin şimal hissəsinin, Aralın (Amudəryanın deltası) ayrılması ilə müşayiət olunurdu. Əsasən köçərilərdən ibarət olan Aral özbəkləri öz çingizilərinin oyuncaq hökumətini elan etdilər. XVIII əsrin çox hissəsi boyu Xarəzmdə qarışıqlıq hökm sürdü, 1740-cı ildə isə ölkə Nadir şah tərəfindən zəbt edildi. İranın hakimiyyəti nominal xarakter daşıyırdı və 1747-ci ildə Nadir şahın vəfatı ilə sona çatdı.

Konqratlarla manqıtların mübarizəsinin növbəti mərhələsində konqratlar qələbə qazandılar. Xivə ilə Aral və müxtəlif özbək tayfaları arasında, türkmənlərin fəal iştirak etdikləri uzun müddətli müharibələr, xüsusilə də 1767-ci ildə Xivənin



türkmən tayfası yomudlar tərəfindən tutulması Xarəzmi ümumi anarxiya həddinə çatdırdı. 1770-ci ildə konqratların başçısı Məhəmməd Əmin İnak yomudları darmadağın edib xanlıqda öz hakimiyyətini qurdu. O, Xivədə yeni konqrat sülaləsinin banisi oldu. Buna baxmayaraq, bundan sonra da tayfa başçılarının hələ də taxtda oturan çingizi marionetkalarının müqavimətini qırmaq üçün konqrat inaklarına onilliklər lazım gəldi.

Orta əsr Qazaxıstanının ərazisində qazax dövlətçiliyinin yaranması və inkişafı qazax etnosunun qurulması və birləşdirilməsi, uzun inkişaf yolunda bütövlüyünün qorunub saxlanması üçün mühüm əhəmiyyətə malik idi. Mərkəzi Asiya regionunda, Avrasiya xalqlarının dövlətçilik sistemində nəzərə çarpacaq dərəcədə rol oynamış iri son orta əsr dövləti olan **Qazax xanlığı** haqqında yazılı mənbələrdə dəqiq məlumatlar vardır. XV əsrin ortalarından XVII əsrin əvvəllərinə qədər Qazax xanlığı çox və ya az dərəcədə sabitliyi ilə fərqlənən, faktiki olaraq vahid siyasi orqanizm idi. O, yaranış, yüksəliş və tənəzzül dövrlərini yaşamış, XVII əsrdə isə ayrı-ayrı xanlıqlara parçalanmışdı (juzların ərazi hüdudlarında). Xanlığın ərazisi, başlıca olaraq xarici siyasi hadisələrin təsiri ilə dəfələrlə dəyişikliklərə uğramışdı. Ancaq bu, demək olar ki, həmişə qazax etnosunun məskunlaşdığı İrtış və Qarataudan Sırdərya və Urala (Yaikə), Altay və Tyan-Şandan Xəzərə və Arala qədər olan hüdudlarda baş vermişdir. Hərçənd aydındır ki, orta əsrlərdə qazaxların etnik və dövlət əraziləri, regionun digər xalqlarında olduğu kimi bir qayda olaraq üst-üstə düşmürdü.

Əbülxeyir xanın hakimiyyəti dövründə (1428-1456) Özbək xanlığı Qazaxıstanda ən yüksək qüdrətinə çatmışdı. Ancaq bir çox tayfalar və onların başçıları vergi zülmü və mükəlləfiyyətlərin artmasından narazı idilər. Bir sıra mülkün başçısı – sultanlar Canıbəy, Gəray və b. müxalifətçi tayfaların koalisiyasını yaratdılar və Yeddi Suya, Çu və Talas çaylarının vadisinə köçdülər. 1465-ci ildə orada başda Gəray olmaqla ayrıca xanlıq yaratdılar. Ayrılmış tayfalar özlərini «qazaxlar», yəni «azad» adlandırdılar.

Özbək xanlığı Əbülxeyrin vəfatından sonra mülklərə parçalandı, sonra yenidən Məhəmməd Şeybani xanın başçılığı altında birləşdirildi. 1498-1500-cü illərdə isə onun rəhbərlik etdiyi tayfalar Mavərənnəhrə, müasir Özbəkistanın ərazisinə köçdülər.

Sırdəryanın aşağı axarındakı boşaldılmış rayonları qazaxlar tutdular. 1511-ci ildə qazax tayfalarını Qasım xan (1511-1523) birləşdirdi. O, birinci əsl Qazax dövlətinin yaradıcısı hesab olunur. Yeni ölkənin əhalisinin sayı 1 mln. nəfərə çatırdı. Bu barədə «Tarixi-Rəşidi» və «Şeybaninamə» kimi mənbələrdə məlumat vardır. Qasım xan əvvəlcə Ağ Ordadakı bütün qazax mülklərini bərpa etdi. Sonra Rusiya ilə Mərkəzi Asiya xanlıqları arasında ticarət əlaqələri qurdu. Qasım xanın hakimiyyəti dövründə ilk qazax konstitusiyası – «Beş qanun» qəbul edildi. Köçəri həyat və ənənələri əsasında yaradılmış bu konstitusiyanı «Kaska Qasım xanın yolu» adlandırırdılar. Qasım Şeybani xanın özbək varisləri ilə Daşkənd uğrunda vuruşdu. Onun vəfatından sonra ölkədə xanlar arasında çəkişmələr başlandı. Bir çox tayfalar Tahir xanın (1523-1533) hakimiyyəti altından köçüb getdilər. Qasımın oğlu Haknəzər (1538-1580) birliyi bərpa etdi, şərqdə Noqay Ordası ilə uğurlu mübarizə apardı. Bundan sonra o, Qazax-Qırğız (Qazax-Noqay) xanı titulunu daşıdı. Bu dövrdə Qazax xanlığı bütün Mərkəzi Asiyada ən güclü iqtisadiyyata malik idi. Haknəzər xan qonşu xanlıqlarla çox incə xarici siyasət yeridir və uğur qazanırdı. Ancaq 1560-cı illərdə Böyük Moğol hakimi tərəfindən məğlubiyyətə uğradıldıqdan sonra Yeddi Su üzərində hakimiyyətini itirdi.

XVI əsrin ortalarında Noqay Ordası və Sibir xanlığının süqutundan sonra Qazax xanlığına bəzi yeni tayfalar birləşdi. Təvəkkül (1586-1598) şeybanilərlə Daşkənd uğrunda mübarizəni davam etdirdi. Yesim (1598-1628) Buxara ilə sülh müqaviləsi bağladı. Müqaviləyə görə qazax xanının Daşkənd üzərində hakimiyyəti tanınırdı. O, qazaxların dinc yanaşı yaşamasına, iqtisadiyyatın, elm və ticarətin inkişafına nail oldu. Yesim xan qazax konstitusiyasını yeniləşdirdi və o, «Yesim xanın



köhnə yolu» adlandırıldı. Xarici düşmənlərlə apardığı döyüşlərdə o, dəfələrlə (1635, 1643, 1652) dunqanlar üzərində qələbə qazandı.

Qazaxların birləşməsi Tauka xanın hakimiyyəti dövründə (1690-1718) baş verdi. Qazaxlar onu «Az Tauka», «Bəşəriyyətin müşaviri» adlandırırdılar. Tauka xan xanlığın mərkəzi idarə strukturunun «Xan Şurası», «Juzların nümayəndə heyəti» kimi yeni növlərini yaratdı. O, qazax konstitusiyasının köhnə redaksiyalarını: «Kaska Qasım xanın yolu» və «Yesim xanın köhnə yolu» - birləşdirərək onlara islamın və şəriətin dəyərlərini əlavə edib yeni Konstitusiya yaratdı. O, «Yeddi qanun» və ya «Yeddi həqiqət» adlanırdı.

Ağ Ordanın davamı olan Qazax xanlığı XV-XVII əsrlərdə iqtisadi, siyasi və elmi cəhətdən böyük rol oynadı. Bu dövrdə qazaxlar dinin elmi tədqiqinə başladılar. Bəzi məlumatlara görə Şeyx Baba Kəmaləddin Sığınaq və Şeyx Uluq Bilginin başçılığı altında təsəvvüf-sufilik geniş surətdə inkişaf etmişdi. Qərbi Qazaxıstanda Sırdərya çayının sahilində 300-dən çox sufi cəmiyyəti var idi.

XV-XVII əsrlərdə Qazax xanlığının ərazisi, o dövrün mənbələrinə görə müxtəlif mərhələlərdə qazax etnosunun ərazisindən, onların məskunlaşdıqları, istər oturaq rayonlar, istərsə də əsas örüşlərin hüdudlarından və Böyük, Orta və Kiçik yuzların köç marşrutlarının sərhədlərindən az idi. Xanlıqların hakimləri müstəqil xarici siyasət yeridirdilər. Onların təbəələri qonşu xalqlarla, Mərkəzi Asiya ölkələri və Rusiya dövləti ilə dinc təsərrüfat-mədəni əlaqələr saxlayırdılar. Tez-tez bu münasibətlər qısa müddətli yürüşlər və uzun sürən müharibələrlə kəsilirdi.

Qazax xanlığı zəif qurum idi və artıq Haknəzərin hakimiyyəti dövründə ondan, öz köçəri rayonları ilə üç ayrı-ayrı orda qopdu. Ümumqazax xanları, 1716-cı ildə sonuncu hakim Tauka xanın vəfatına qədər mövcud olmuşdular. O, adi hüquq normalarının külliyyatını «Jeti-Jarqı» tərtib edə bildi.

Yeddi Su rayonunda usun, kanq, dulat, alban, cəlair və digər tayfaları birləşdirən Böyük juz yarandı. Onun əhalisi köçə-

ri maldarlıq və yerli əkinçilik, sənətkarlıq və ticarətlə məşğul olurdu. XVI-XVIII əsrlərdə Böyük juzun ərazisində meydana gələn xanlıqların hakimləri öz aralarında və qonşu dövlətlərlə – Xivə, Kokand və Çinlə müharibə aparırdılar.

Orta juz şimali, mərkəzi, şimali-şərqi və şərqi Qazaxıstanda təşkil olundu. Bura qıpçaq, arqın, nayman, kerey, yak, konqrat tayfaları daxil idi. Başlıca məşğuliyyət maldarlıq idi, lakin ucqarlarda Mərkəzi Asiya, Rusiya və Sibirin ətraf əkinçilik əraziləri ilə fəal ticarət inkişaf edirdi. Orta juzun xanlıqları bir-biri ilə və Cunqariyanın hakimləri ilə mübarizə aparırdılar.

Qərbi Qazaxıstanda Kiçik juz (jetiru, alim-ulı və bay - ulı tayfaları) meydana gəldi. O, Sırdəryanın aşağı axarı və Urala, İrgiz və Turqay çaylarının qovuşduğu rayona, Tobol çayının yuxarı axarı və Muqocar dağlarına köç edən maldarları birləşdirdi. Kiçik juzun qazaxları Volqaboyunun oturaq əhalisi ilə iqtisadi əlaqələr saxlayırdılar. Siyasi strukturu bir-neçə mütəmadi meydana gələn və süqut edən xanlıqlardan ibarət idi.

Sosial cəhətdən qazax cəmiyyətində köçəri feodalizm hökm sürürdü. Otlaqlar faktiki olaraq, sıravi maldarların (şarua) asılı olduqları əyanların (xan, sultan, biy, batır, bay, xoca) əlində idi. Patriarxal qullar az idi. Öz mal-qarası olmayan (kedeylər) və əyanlar üçün işləməyə məcbur olan formal azad şəxslərin təbəqəsi artırdı.

Qazaxlar üçün əsas xarici təhlükəni şərqdən monqol tayfalarının müdaxiləsi yaradırdı. XVI əsrin sonu - XVII əsrin əvvəllərində qərbi-monqol dövləti olan Cunqar xanlığı qazax torpaqlarına təzyiqi gücləndirdi. 1620-1630-cu illərdə Qazaxıstan ərazisindən qərbə, Volqa boyuna kalmık qrupu keçib getdi. İnadla müqavimət göstərmələrinə baxmayaraq qazaxlar 1652-1680-ci illərdə cunqarların asılılığı altına düşdülər. 1710, 1728 və 1729-cu illərdə qazax tayfalarının könüllüləri cunqar ordularını darmadağın etdilər, lakin şərqdən «böyük fəlakətə» çevrilən hücumlar davam edirdi. Belə bir şəraitdə hakimlər Rusiyada nicat axtarmağa başladılar.



İlk rus şəhərləri və yaşayış məskənləri (əsasən qazax) olan Yaitsk şəhərciyi (Uralsk) və Quryev Qərbi Qazaxıstanda hələ XVII əsrdə meydana gəlmişdi. 1726-cı ildə Kiçik juzun böyük bir hissəsinə nəzarət edən Əbülxeyir xan Rusiyaya, onu himayəsinə götürməsi təklifi ilə müraciət etdi. 1731-ci ildə Rusiyanın hakim dairələri xanın xahişini qəbul edib Kiçik juzun birləşdirilməsinə razılıq verdiklərini bildirdilər. Rusiya 1735-ci ildə Or çayının mənsəbində Orsk qalasını ucaltdı. Ablay, Semeke, Kuşuk xanların, Barak və Əbülməmbət sultanların hakim olduqları Orta juzda bəzi hakimlər 1731-1740-cı illərdə rus himayəsinə keçdiklərini bildirdilər. Böyük juz cunqarların və Kokandın asılılığı altında idi, lakin 1741-1742-ci illərdə cunqar qoşunu Orta və Kiçik juzların fəthinə cəhd etdikdə Rusiya onu geri çəkilməyə məcbur etdi.

Rusiyanın Qazax xanlıqları üzərində himayəsi ilk anlar bilavasitə olmayıb bilvasitə idi. Əbülxeyrin digər feodallarla mübarizədə həlak olmasından sonra (1748) çar hökuməti onun oğlu, Kiçik juzun xanı Nurəliyə Orta juzu və Buxaranı tabe etməsinə yardımçı oldu. Cunqariya, Orta juza iddia irəli sürən Tsin Çini tərəfindən 1758-ci ildə darmadağın edildi. Çimkənd və Qazaxıstanın cənub rayonları Kokand tərəfindən zəbt olundu.

1773-1775-ci illərdə Kiçik, qismən də Orta juzun qazaxları Yemelyan Puqaçovun başçılığı altında qalxan üsyanda iştirak etdilər. Üsyan yatırıldıqdan sonra çar hökuməti Qazaxıstan üzərində nəzarəti gücləndirdi. 1793-1997-ci illərdə Kiçik juzda Srım Datovun başçılığı ilə üsyan qalxdı. Orta juzun Rusiyaya birləşdirilməsi 1798-ci ildə başa çatdı. Bəzi qazax tayfaları Rusiyanın ərazisinə köçdülər.

## § 5. Sibir xanlığı

XIII-XIV əsrlərdə Qərbi Sibirdə qəbilə tayfa quruluşunun dağılması və feodal istehsal üsulunun inkişafı başlandı. İri feodalların güclənməsi dövlət qurumlarının meydana gəlməsinə səbəb oldu. XV əsrin ikinci yarısında iri feodallar arasında hakimiyyət uğrunda mübarizə başlandı. Noqayların köməyi ilə mübarizədən qalib çıxan İbak İbrahim Çingi-Turda (Tümen) öz xanlığının əsasını qoydu. O, çox bacarıqlı və uzaqgörən hakim idi və bütün səyi ilə dövlətini tezliklə möhkəmləndirdi. Sibir xanlığının Kazan və Həştərxanla ticarət əlaqələri yaradıldı.

Ancaq Sibirdə feodal dağınıqlığı Tümen xanlığının zəifləməsinə təsir göstərdi. İbak İbrahim iri feodallarla və qonşuların hücumlarına qarşı mübarizə aparmalı oldu. Belə vuruşmalardan birində İbak xan öldürüldü.

1495-ci ildə Tay-Buqa nəslindən olan Məhəmməd xan türk-tatar tayfalarının siyasi ittifaqını yaratdı. Xanın baş qərargahı Kaşlıqda (Sibir) yerləşirdi. Sibir xanlığı Perm torpağı, Noqay Ordası ilə həmsərhəd olub, şimalda əraziləri Ob çayının aşağı axarlarına çatırdı. XV-XVI əsrlərdə Sibir xanlığının tərkibinə, Uralın şərq ətəklərində, İset, Miass, Uy çayları boyunca yaşayan başqırdların torpaqları daxil idi. Sibir xanları şimal-şərqi və mərkəzi Başqırdıstana və Ufa qalasına yürüş təşkil edirdilər. Xanlıqda türkdilli tayfalar: arqınlar, başqırdlar, karluklar, kanqlılar, qıpçaqlar, naymanlar və b. məskunlaşmışdılar. Dövlətin başında xan dururdu. Xanlığın inzibati mərkəzləri möhkəmləndirilmiş şəhərciklər idi.

Əvvəllər Sibir xanlığı, başında tarxan, bəy və mirzələrin durduğu kiçik türk uluslarından ibarət idi. Onlar cəmiyyətin «qara» adlandırılan sıravi üzvlərindən vergi toplayırdılar. Vergi yığımına rəhbərlik edənlər darğa adlanırdı.

Sibir xanlığının paytaxtı Kaşlıq (İskər, Sibir) şəhərciyi oldu. O, indiki Tobolskdan 16 km yuxarıda, İrtışın Sibirka çayına .tökülduyü yerin sahilində yerləşirdi. Taybuğınlər



nəslindən olan yerli tatarların nümayəndələri və Çingizxanın varisləri Kaşlıqda daima hakimiyyətə iddia irəli sürürdülər.

XV əsrdə Böyük Novqorodun süqutundan sonra onun Sibir torpaqları rus dövlətinin tərkibinə daxil oldu. Bu, ruslar üçün çox vacib idi, çünki Sibirin tükənməz xəz sərvəti gənc dövlət üçün dəniz limanlarının və kəsf olunmuş qiymətli metal ehtiyatlarının olmamasını kompensasiya edirdi. Həmin XV əsrdə Sibirdə, hələ 1383-cü ildə əsası qoyulmuş Perm yeparxiyası missionerlik fəaliyyətinə başladı və Ural arxasına bir neçə hərbi yürüş təşkil edildi. 1465-ci ildə Skryabanın, 1472-ci ildə isə Pyostrının dəstələri Ob çayına çatdılar. 1483-cü ildə knyaz F.Kurbski Çornının dəstəsi atıcılarla birlikdə İskər şəhərinə çatdı. 1499-cu ildə üç rus voyevodası (S.Kurbski, P.Uşatıy, V.Brajnik – Qavrilov) və 4 min döyüşçü Ob çayının mənsəbinə çatdı. Ancaq bu epizod xarakteri daşıyan yürüşlər nəhəng Sibirin fəthinə gətirib çıxara bilmədi.

Rus dövləti Kazan xanlığı üzərində qələbə çalandan sonra (1552) Sibir xanlığı ilə yaxınlığa başladı. 1555-ci ildə Yadigar xan (Taybuginlər nəslindən) Moskvanın hakimiyyətini tanıdı, lakin 1563-cü ildə xanlıqda hakimiyyəti çingizilərdən olan Kuçum zəbt etdi və dərhal Rusiya ilə vassal münasibətlərini kəsdi. Yalnız 1571-ci ildə Kuçum vassal asılılığına razılıq verdi,lakin tezliklə xanlıqda hakimiyyətini möhkəmlədərək Moskvaya münasibətdə, xüsusilə Krım xanı Dövlət Gərayın ora yürüşündən sonra düşmən siyasət yeritməyə başladı.

Rusların Ural arxasına irəliləməsinin bazası sənayeçi Stroqanovların mülkləri idi. Yermak öz dəstəsi ilə onun mühafizə xidmətində çalışırdı. Yermakın tarixi yürüşü 1 sentyabr 1581-ci ildə Nijni-Çusovski şəhərciyindən başladı. O, Tur və Tobol çayları boyunca enib döyüşərək İrtışa qədər çatdı. 23 oktyabr 1582-ci ildə İrtışın sağ sahilində Çuvaş burnunda Kuçumun qoşunu ilə həlledici vuruşma oldu, sonuncu məğlubiyyətə uğradı. Yermakın yürüşü nəticəsində Sibir Rusiyaya birləşdirilmədi, lakin Sibir xanlığı darmadağın edildi. Yermak Sibir xanlığının Rusiyaya birləşdirilməsinin başlanğıcını qoydu. Bu pro-

ses XVI əsrin sonunda başa çatdı. Sibir xanlığının ərazisində rus qalaları Tümen (1586), Tobolsk (1587), Berezov (1593), Obdarsk (1595) və s. tikildi. Kuçum öz qoşunu ilə cənuba köçdü və 1598-ci ilə qədər rus dəstələrinə müqavimət göstərməkdə davam etdi. Sibir xanlığının sonuncu xanı onun oğlu Əli oldu. O, hakimiyyətini İşim, İrtış və Tobolun yuxarı axarlarındakı köç düşərgələrində qoruyub saxlaya bildi. Sibirin Rusiyaya birləşdirilməsinin sonrakı mərhələsi nisbətən dinc şəraitdə həyata keçirildi və 1640-cı ildə ruslar artıq Sakit okeanın sahilinə gəlib çatdılar.

### § 6. Bəbirlər dövləti

Böyük Moğollar – 1526-1765-ci illərdə Hindistanda mövcud olmuş Moğol imperiyasının hakim sülaləsinin əsası Mərkəzi Asiyadan çıxmış Fərqanə feodalı Bəbir (1483-1530) tərəfindən qoyulmuşdur. Bəbir (Babur) Fərqanə hakimi Ömər Şeyx Mirzənin oğlu idi. 1484-cü ildə atasının vəfatından sonra o, 11 yaşında ikən şah oldu.

Bəbir şah əmir Teymur və Çingizxanın nəslindən idi. Tezliklə yaxın qohumları onu hakimiyyətdən kənarlaşdırdılar. Ancaq əsl adı Zəhirəddin Məhəmməd olan Bəbir şah 1504-cü ildə öz silahlı dəstəsi ilə Kabili tutdu və 1507-ci ildə özünü şah, əmir Teymurun yeganə varisi elan etdi. O, görkəmli dövlət xadimi, cəsur sərkərdə, istedadlı bəstəkar və memar idi.

1519-cu ildə Bəbir Mirzənin silahlı dəstələri Pəncabı, üç il sonra isə Sindi və Bəlucistanı ələ keçirtdilər. Beləliklə, onun hakimiyyəti əhəmiyyətli dərəcədə möhkəmləndi. 1524-cü ildə Bəbir böyük bir qüvvə ilə Dehliyə yürüş təşkil etdi. Döyüş zamanı Dehli sultanı İbrahimin ordusu məğlub oldu. Bəbir Mirzənin qoşunu Lahora, 1526-cı ildə isə Dehliyə daxil oldu. İşğalçı yürüşlər nəticəsində avropalıların «Böyük Moğol imperiyası» adlandırdıqları hind-türk imperatorluğu yarandı.



Bu zaman Hindistanda feodal dağınıqlığı idi, ölkənin sosial-iqtisadi vəziyyəti vahid mərkəzləşdirilmiş dövlətin yaradılmasına ehtiyac duyurdu.

1527-ci ildə Bəbir Mirzə Raçuputanı və Aqranı tutub, sonuncunu özünün paytaxtı elan etdi və tezliklə elə orada vəfat etdi. Ondan sonra hakimiyyətə oğlu Humayun gəldi və 25 il dövləti idarə etdi. Onun altı qardaşı arasında hakimiyyət uğrunda mübarizə gedirdi. Bundan istifadə edən, əfqan Sur nəslindən olan hakim Şər xan Aqraya yürüş etdi. Yalnız səfəvi qoşununun köməyi ilə Humayun şah Dehlini geri qaytara bildi.

26 fevral 1556-cı ildə Humayun şah vəfat etdi və hakimiyyətə onun oğlu Əkbər (1556-1605) gəldi. Ulu adı verilən Əkbərin hakimliyi dövlətin birləşdirilməsinə və əmin-amanlığına həsr olunmuşdu. O, müstəqil müsəlman dövlətlərini öz imperiyasının əyalətlərinə çevirdi və ittifaq taktikasından istifadə edərək və ya zor gücü ilə hind racələrini özünün vassalı etdi.

Onun hakimiyyətinin başlanğıcında Böyük Moğolların ərazisi Dehli ətrafı ilə məhdudlaşırdı. Taxtda olduğu 50 il ərzində Əkbər Calaləddin bütün Hindistan yarımadasını işğal etdi. Onun dövründə Moğol imperiyası ən yüksək qüdrətinə çatdı. O, onlarla vuruşmada qələbə qazandı və bir dəfə də olsa məğlubiyyətə uğramadı. Əkbər nəinki uğurlu, həmçinin mahir döyüşçü idi və eləcə də bir neçə saray sui-qəsdinin qarşısını alaraq sədaqətli və etibarlı köməkçiləri öz ətrafına toplamışdı.

O, öz dövlətini 16 əyalətə böldü və hər birinin başına hakim qoydu. Sərkərdə və döyüşçülərinə torpaq paylanmasını dayandıraraq onlara maaş verməyə başladı, yəni nizami ordu yaratdı. O, şəhərlərdə məhkəmə, qayda-qanuna nəzarət edən polis yaratdı, vergi yığımının yeni sistemini tətbiq etdi.

Nazir, canişin və digər məmurların hindlilərdən təyin olunması hindli əhalisinin yeni monarxa etimad və sədaqətini qazandırdı. Qeyri-müsəlmanlar üzərinə qoyulub, onlarda nifrət doğuran vergi ləğv edildi.

Əkbər müqəddəs kitabları və hindlilərin epik poemalarını fars dilinə tərcümə etdi, onların dini ilə maraqlanaraq qanun-

larına hörmətlə yanaşdı, lakin bəzi qeyri-insani adətləri qadağan etdi. Onun ömrünün son illəri, ailə çəkişmələri və böyük oğlu, kinli və qəddar Səlimin atasına qarşı çıxması üzündən kədərlə keçdi.

Şübhəsiz ki, Əkbər Hindistanın müsəlman hökmdarlarından ən qüdrətlisi idi. Böyük hərbi istedadı ilə fərqlənsə də o, müharibələri sevmir və dinc məşğuliyyətlərə üstünlük verirdi.

Dini dözümlülüyü ilə fərqlənən Əkbər islamın ehkamlarının azad müzakirəsinə imkan verirdi. O, hətta yeni din: «İlahi iman» yaratdı. Bu din təbii ilahiyyətə və təfəkkürə əsaslanaraq müxtəlif inancların ən yaxşılarının toplusunu təmsil edirdi. Əkbər özü «peyğəmbər» və yeni imanının başçısı idi.

Əkbərin varisi Səlim (1605-1627) Cahangir (dünyanın fatehi) titulunu götürdü. Bütün hakimiyyət dövrü ona qarşı çıxan oğlanlarının müqavimətini qırmaq və həyat yoldaşı Nur Cahan (Dünya işığı) sultanı və ya Nur Mahalı (Sarayın işığı) tərifləməklə keçmişdi. O, Dekanı ələ keçirməyə cəhd etdi, lakin uğur qazanmadı.

Səlimin varisi Cahan şah hakimiyyətə doğma qardaşı və digər qohumlarının boğularaq öldürülməsi ilə başladı. Ancaq bu onun ədalətli monarx, yaxşı sahibkar, qənaətcil olmasına maneçilik etmədi. Gözəl tikintilər, təmtəraqlı saray və uzaq yürüşlər nə dərəcədə imkan verirdisə, o qədər də qənaət etməyə çalışırdı. O, Dekanı ələ keçirtdi və Aqrada, Dehlidə gözəl binalar inşa etdirdi. Xüsusilə, bütün dünyada məşhur olan Aqradakı «Tac-Mahal» mavzoleyi türk-müsəlman orta əsr memarlığının incisidir.

Onun hakimiyyəti dövründə Moğollar imperiyası özünün ən yüksək çiçəklənmə dövrünə və qüdrətinə çatdı. Avropa səyahətçilərinin təsvirlərinə görə, sarayın cah-cəlalı nağıla bənzəyirdi. Cahan şahın hakimiyyətinin sonu acınacaqlı oldu. Onun üçüncü oğlu Auranqzeb atasını taxtdan salaraq qəsrə qapatdı (1666-cı ildə elə orada vəfat etdi) və özünü imperator elan edib (1658) Aləmgir (bəşəriyyətin hakimi) titulunu götürdü. O, 1707-ci ilə qədər hakimiyyətdə oldu və imperiyanın sərhədlərini ən böyük ölçüyə qədər genişləndirdi, lakin gücünü sarsıtdı. Şahanə görünüşə, sadə adətlərə malik usanmaz işçi, yüksək təhsilli, şairlərdən və Qurandan iqtibaslar gətirən Aləmgir, öz yaxınlarına münasibətdə qəlbsiz və namərd müstəbid idi.



O, hindliləri özündən uzaqlaşdırdı. Auranqzebin hakimiyyəti dövründə Cənubi Hindistanda sələflərinin başladıqları işğallar davam etdirildi. Bu zaman Dekanda yeni siyasi qüvvə – maratxlar meydana çıxdı. Maratx tayfasının başçısı döyüşkən və enerjili Sivaci (1627-1680) hinduizmin qəddar düşməni idi. O, özünü müstəqil hökmdar elan etdi.

Sivacinin oğlu Sibhacinin hakimiyyəti dövründə maratxların paytaxtı zəbt olundu və onların qüdrəti sarsıldı (1701). Ancaq partizan müharibəsindən sonra maratxlar yenidən qüvvələrini topladılar və 1705-ci ildə özlərinin möhkəmləndikləri yerləri geri aldılar. Bu zaman Auranqzeb uzun sürən uğursuz müharibədə sərvətini, qoşununu və özünün fiziki qüvvəsini tükətdi.

Ömrünün son günləri oğlanlarının ona xəyanət edəcəkləri şübhəsi ilə acınacaqlı oldu. O qorxurdu ki, onunla da özünün atası ilə etdiyi kimi rəftar edəcəklər. Onun daxili siyasəti sələflərinin əməyini qismən yerə vurdu. Ortodoks müsəlman fanatizmi ilə o, hind knyazlarını və Şimali Hindistanın əhalisini özünə qarşı qaldırdı.

Əkbərin dayağını təşkil edən hind zadəganları Auranqzebin hakimiyyəti dövründə Moğollar imperiyasının tənəzzülü və süqutunun amilinə çevrildilər. 1677-ci ildə racputlar ayrıldılar. 1680-ci ildə Auranqzebin qiyamçı oğlu Əkbər də öz dəstəsi ilə onlara qoşuldu. O zamandan etibarən racputlar bir daha Moğol imperiyasının tərkibinə daxil olmadılar.

Daimi qarışıqlıqlara baxmayaraq, Auranqzebin imperiyasının sərvəti çox böyük idi. Auranqzebin yaxın varisləri öz sərkərdə və saray adamlarının əllərində oyuncağa çevrilmişdilər. Onları taxta oturdur, üzərilərində rəhbərlik edir və az da olsa himayədən azad olmağa çalışdıqda öldürürdülər.

Böyük Moğollar bir müddət hələ də Hindistanı Dehlidən idarə edirdilər, lakin Auranqzebin 6 yaxın xələfindən ikisi (Auranqzebin oğlu Bahadır şah (1707-1712) və sonuncunun böyük oğlu Cahandar şah (1712-1713) nazir Zülfüqar xanın himayəsi altında, qalan dördü isə (Cahandar şahın qardaşı oğlu Fəruxşiyar (1713-1719), onun cəmi bir-neçə ay hakimiyyətdə olmuş iki xələfi və Bahadır şahın nəvəsi Məhəmməd şah (1719-1748) «Şah düzəldənlər» adlandırılan iki avantürist Səidov qardaşlarının (Hüseyn və Abdulla) əlaltıları idi.

1720-ci ildən imperiyanın tənəzzülü başlayır. Həmin il, Məhəmməd şahın hakimiyyəti dövründə Dekanın canişini Nizam-ül-Mülk (1720-1748) ayrılaraq özünün müstəqil dövlətini yaratdı. Audun canişini də onun nümunəsi üzrə hərəkət etdi. O, adi fars tacirindən vəzirə, sonra isə Aud vəzirinin Nəvvabı (1732-1743) adı ilə Audun ilk nəvvabına çevrildi.

Maratxlar bütün Cənubi Hindistanın üzərinə bac qoydular, Şərqi Hindistandan keçib şimala çıxdılar və Məhəmməd şahı Malvanı güzəştə getməyə məcbur etdilər (1743). Onun oğlu və xələfi Əhməd şahdan (1744-1754) isə Orissanı aldılar və Benqaldan bac almaq hüququnu qazandılar (1751).

Daxildəki nifaqa xaricdən hücumlar əlavə olundu. 1739-cu ildə İrandan Nadir şah Hindistana yürüş təşkil etdi. Dehlini ələ keçirib, 58 gün şəhəri qarət etdikdən sonra farslar evlərinə qayıtdılar.

Farsların ardınca, Əhməd şah Duraninın başçılığı ilə bir neçə dəfə Hindistana soxulan əfqanlar gəldilər və dəhşətli vəhşiliklərdən sonra zəngin qənimətlə geri qayıtdılar.

Moğolların son əfqan mülkü olan Kabil, onlardan hələ 1738-ci ildə alınmışdı; əfqanlar bütöv əyalətləri talamış, əhalisini isə qılıncdan keçirmiş və ya qula çevirmişdilər. 1754-cü ildə Əhməd şah taxtdan salındı və onun yerini II Aləmgir tutdu. Ancaq o da tezliklə öz birinci naziri Qaziəddin tərəfindən öldürüldü (1759).

Maratxlar elə həmin ildə Şimali Hindistana yiyələndilər və Dehlini tutdular. 1761-ci ildə onlarla, Əhməd şah Durani başda olmaqla əfqanlar arasında üçüncü Panipat döyüşü oldu və əfqanlar qalib çıxdılar. Bununla belə, müsəlmanlar artıq Hindistan üzərində ağalıq edə bilmədilər, çünki o, maratxların əlində idi. II Aləmgirin vəfatından sonra Dehlinin nominal imperatoru II Aləm şah idi. O, 1771-ci ilə qədər Allahabadda ingilis təqaüdçüsü kimi yaşadı.



1761-1765-ci illərdə Moğol imperatorluğu tamamilə süqut etdi.

# VI FƏSİL
# RUSİYANIN TÜRK XALQLARI VƏ TÜRKİYƏ XIX ƏSRDƏ

## § 1. Osmanlı imperatorluğunun sosial-iqtisadi və beynəlxalq vəziyyəti

XIX əsrin başlanğıcında Osmanlı imperatorluğunda hələ XVIII əsrin sonunda başlayan iqtisadi və siyasi böhran davam edirdi. Nə Əbdülhəmidin islahatları, nə Fransanın bu imperatorluğu xilas etmək üçün göstərdiyi səylər, nə də Rusiyanın Qara dəniz boğazlarına və Aralıq dənizinə buraxılmaması böhranın qarşısını ala bilmədi. Kənd təsərrüfatı da dərin böhran keçirirdi. Timar torpaq sahibliyinin iflası hələ tam başa çatmamışdı. Kənd təsərrüfatı məhsullarının istehsalı Avropa ölkələrinin tələblərinə cavab vermirdi. Şəhərlərdə sənətkarlıq və ticarət xeyli zəifləmişdi. Vergilər və özbaşınalıq artmaqda idi. Bir tərəfdən Balkanlarda feodal ara çəkişmələri və milli-azadlıq hərəkatı, digər tərəfdən Portanın beynəlxalq vəziyyətinin gərginləşməsi sultan III Səlimi (1789-1807) narahat edirdi. O, I Əbdülhəmiddən sonra sultan olaraq, Avropa hökumətləri nümunəsində 12 nəfərlik tərkibi olan Nazirlər kabinetini formalaşdırdı, xəzinəni doldurdu və yeni hərbi korpus yaratdı. III Səlim mülki qulluqçuları maarifçilik ruhunda tərbiyə edərək yeni təhsil müəssisələri açdırdı. Çap nəşrinə yenidən icazə verildi, Qərb müəlliflərinin əsərləri isə türk dilinə tərcümə edildi.

Fransa inqilabının ilk illərində Osmanlı imperatorluğu öz problemləri ilə başlı-başına qaldı. Napoleon III Səlimə öz müttəfiqi kimi baxaraq düşünürdü ki, məmlüklərin 1798-ci ildə Ehramlar döyüşündə məğlubiyyətindən sonra o, Misirdə öz hakimiyyətini möhkəmləndirə biləcək. Buna baxmayaraq III Səlim Fransaya müharibə elan etdi və öz donanmasını və ordusunu əyalətin müdafiəsinə göndərdi. Türkləri məğlubiyyətdən yalnız İsgəndəriyyə və Levanta sahillərində yerləşən



Britaniya donanması xilas etdi. Osmanlı imperatorluğunun bu addımı onu Avropanın hərbi və diplomatik işlərinə cəlb etdi.

Fransızlar 27 iyun 1801-ci ildə Misirdən getdikdən sonra burada hakimiyyətə, əvvəllər Osmanlı ordusunda xidmət etmiş Məhəmməd Əli gəldi.

1802-ci ildə Paris və Amyen sülh müqavilələri imzalanandan sonra Fransa ilə münasibətlər bərpa olundu və III Səlim sülhü, 1806-cı ildə Rusiyanın Dunayyanı əyalətlərə müdaxiləsinə qədər qoruyub saxlaya bildi. İngiltərə müttəfiqi olan Rusiyaya kömək edərək Dardaneldən öz donanmasını göndərdi. Ancaq Səlim müdafiə qurğularının möhkəmləndirilməsini sürətləndirə bildi və ingilislər Egey dənizinə üzməyə məcbur oldular. Mərkəzi Avropada fransızların qələbələri Osmanlı imperatorluğunun mövqelərini möhkəmləndirdi, lakin paytaxtda Kabakçı Mustafanın üsyanı başladı. Yeniçərilərin birinci qiyamı 1805-ci ildə, sultan yeniçərilərin orduya çağırılması və yeni korpusun yaradılması barədə fərman imzalayanda baş verdi. Qiyamdan qorxan III Səlim hərbi islahat «Nizami-Cədid» haqqında fərmanı 28 may 1807-ci ildə ləğv etdi.

1806-cı ilin sonunda rus-türk müharibəsi başlandı. Bu müharibə Osmanlı imperatorluğu üçün ciddi sınaq oldu. Türk ordusunun çox hissəsi rus ordusuna qarşı yönəldildi. Paytaxt qarnizonu ilə birlikdə, ənənəyə görə hökumət üzvləri də cəbhəyə yollandılar. III Səlimə onun islahatçılıq fəaliyyətini bağışlaya bilməyən feodal əyanların və ruhanilərin ən mürtəce nümayəndələri, yaranmış vəziyyətdən istifadə etdilər. 1807-ci ilin may ayında III Səlim taxtdan salındı. IV Mustafa (1807-1808) sultan elan olundu.

Yeni sultan III Səlimin həyata keçirtdiyi islahatları ləğv etdi. Bu dəfə islahat tərəfdarları, Dunayda müharibə zamanı qoşuna komandanlıq etmiş, Ruşuk dairəsinin (Bolqarıstan) nüfuzlu hakimi Mustafa paşa Ələmdarın ətrafında qruplaşdılar. Onun rəhbərliyi altında gizli islahatçılar qrupu yaradıldı. Onları «ruşuk dostları» adlandırırdılar.

Tilzit sülhünün ardınca, 1807-ci ilin avqust ayında Rusiya ilə Osmanlı imperatorluğu arasında barışıq imzalandıqdan sonra Mustafa paşa Aləmdar III Səlimi yenidən taxta qaytarmaq məqsədilə öz qoşununu İstanbula hərəkət etdirmək imkanını qazandı. Ancaq 1808-ci ilin iyul ayında Alәmdarın qoşunu paytaxta yaxınlaşanda, həbsdə olan III Səlim IV Mustafanın əmri ilə öldürüldü. İstanbula daxil olan Aləmdar IV Mustafanı taxtdan saldı və islahat siyasətini dəstəkləyəcəyinə söz verən onun qardaşı II Mahmudu (1808-1839) hakimiyyətə gətirdi. Aləmdarın özü baş vəzir təyin olundu. «Ruşuk dostları» mühüm dövlət vəzifələrini tutdular. Aləmdar Səkbani-Cədid əsgəri hissələrini qurmağa başladı. O, III Səlimdən daha qətiyyətli idi. Yeniçəri korpusunun məhvinə doğru gedildiyi açıq-aydın görünürdü. Ancaq «ruşuk dostları» da III Səlim kimi xalq kütlələrində özlərinə dayaq axtarmırdılar. Bununla belə, hakim sinfin əksər hissəsi islahatlara qarşı çıxırdı.

1808-ci ilin noyabr ayında İstanbulda yeniçərilər qiyama qalxdılar. Aləmdar öldürüldü, «ruşuk dostları» isə hakimiyyətdən kənarlaşdırıldı.

III Səlim və Aləmdarın islahatlarının uğursuzluğu heç də təsadüfi deyildi. Osmanlı imperatorluğunu yalnız köklü sosial dəyişikliklər əsasında dirçəltmək olardı. III Səlim və Aləmdarın islahatları bütövlükdə hakim sinfin kiçik bir qrupunun Osmanlı imperatorluğunun yaşadığı dərin böhranı yumşaltmaq cəhdi idi. Bu islahatların məqsədi son nəticədə mövcud qaydaları, Osmanlı imperatorluğunun həyat qabiliyyətini qoruyub saxlamaqdan ibarət idi.

Osmanlı imperatorluğu və Böyük Britaniya 1809-cu ildə məşhur Dardanel sülhünü imzaladılar. Bu sülh, Böyük Britaniyanın Qara dəniz boğazlarının türklər üçün dinc dövrdə hərbi gəmilərin üzünə bağlı olması statusu qəbul etməsi şərti ilə, türk bazarını Britaniya malları üçün açıq elan edirdi. Porta bundan bir qədər əvvəl Napoleonun yaratdığı kontinental blokadaya qoşulmağa razılıq verdiyindən bu müqavilə köhnə öhdəliklərin pozulması kimi qiymətləndirildi.



1809-cu ilin yazında Rusiya ilə yenidən hərbi əməliyyatlar başladı. 1811-ci ilin payızında M.V.Kutuzov Osmanlı imperatorluğunun qoşununu darmadağın etdi. Fransa ilə yetişməkdə olan müharibə ilə əlaqədar Kutuzov sülh bağlanmasını sürətləndirməyə çalışdı. 1812-ci ilin may ayında Buxarestdə sülh imzalandı. Buxarest sülhünün şərtlərinə görə, Bessarabiya osmanlı protektoratından çıxıb Rus dövlətinin tərkibinə qatıldı. Sultan Rusiyanın Dunay knyazlıqlarını himayə etmək hüququnu tanıdı və Serbiyaya özünüidarə hüququ verəcəyini vəd etdi. Moldova və Valaxiya Osmanlı imperatorluğuna qaytarıldı.

Osmanlı imperatorluğunun xarici siyasətdəki uğursuzluqları onun zəifləməsinə və tənəzzülünə səbəb olan ziddiyyətlərin dərinləşməsinin nəticəsi idi.

Buxarest müqaviləsi imzalanandan sonra Rusiyanın Napoleonla müharibə apardığını görən sultan hökuməti tezliklə onun şərtlərini pozmağa başladı. O, 1813-cü ildə Serbiyaya cəza ekspedisiyasını göndərdi. 1815-ci ildə serb xalqının yeni üsyanı başlandı. Türk hökuməti bütün daxili işləri yerli «knezlərlə» idarə edən «baş knezi» seçmək hüququnu tanımaqla serblərlə sazişə getmək məcburiyyətində qaldı. Buna baxmayaraq Belqradda və digər şəhərlərdə osmanlı qarnizonu qalırdı.

1815-ci ildə Vyana konqresində Osmanlı imperatorluğu Avropa dövləti, Serbiya isə onun tərkibində, başında Miloş Obrenoviç olmaqla yarım muxtar əyalət kimi tanındı.

Fransa inqilabı məğlub olduqdan və Napoleonun hakimiyyəti yıxıldıqdan sonra, II Mahmud 1821-ci ildə Moreyada yunan milli-azadlıq hərəkatı ilə üzləşdi. II Mahmudun qələbə qazanmaq şansı, xüsusilə Misirdə nominal vassalı olan Məhəmməd Əlini öz ordu və donanmasını İstanbula yardıma göndərməyə inandırmasından sonra yarandı. Buna baxmayaraq Böyük Britaniya, Fransa və Rusiya sultandan Yunanıstana muxtariyyət verməsini tələb etdilər. Rədd cavabından sonra müttəfiqlərin donanması 1827-ci il oktyabrın 8-də Navarin limanına girərək Misir və osmanlıların donanmasını məhv etdi.

1828-ci ilin yazında Rusiya Osmanlı imperatorluğuna müharibə elan etdi. 1828-1829-cu illərin rus-türk müharibəsi osmanlı qoşununun tam darmadağın olunması ilə nəticələndi. Rus qoşunu Balkanları keçərək Ədirnəni tutdu və İstanbulun bir neçə keçid yaxınlığına çatdı. Osmanlı hökuməti gücsüz idi və 2 sentyabr 1829-cu ildə Ədirnədə Sülh müqaviləsi imzalandı. Bu müqaviləyə görə, müharibəyə qədər mövcud olan rus-türk sərhəddi çox az dəyişikliyə uğradı (Qafqazda və Dunayın mənsəbində). Osmanlı imperatorluğunun üzərinə təzminat qoyuldu. Müqavilənin Serbiya və Yunanıstana muxtariyyət verilməsi (sonuncu 1830-cu ildə müstəqil krallıq kimi tanındı) barədə maddələri çox mühüm siyasi əhəmiyyətə malik idi. Valaxiya və Moldova daxili özünüidarə hüququ aldılar. Şərqi Anadolunun bəzi qalaları Rusiyaya verildi və onun ticarət gəmiləri boğazlardan azad surətdə keçmək hüququ aldı.

Serbiya və Yunanıstandakı üsyanlar, rus-türk müharibəsi Osmanlı imperatorluğunun yaşadığı böhranın dərinliyini yenidən üzə çıxartdı. Faktiki müstəqil olan Misirlə Sultan hökuməti arasında münaqişə kəskinləşdi. Məhəmməd Əli İstanbul xəzinəsinə növbəti haqqı ödəməkdən imtina etdi və sultandan Yunanıstandakı üsyanı yatırmaqda iştirakına görə Suriyanın idarəsinin ona verilməsini tələb etdi. 1831-ci ilin payızında Misir qoşunu Suriyaya daxil oldu. Sultan Məhəmməd Əlini qiyamçı elan etdi. Sultan ordusunun gücsüzlüyünü nümayiş etdirən hərbi əməliyyatlar başlandı. 1832-ci ilin yayında Suriya, Fələstin və Kilikiyanı ələ keçirən Misir qoşunu Anadoluya daxil oldu. 1832-ci ilin dekabr ayında sultanın qoşunu Konya yaxınlığında darmadağın edildi. İstanbula yol Misir qoşununun üzünə açılmış oldu. Sultan yardım üçün Avropa dövlətlərinə müraciət etdi. Fransa Məhəmməd Əlini dəstəklədi. İngiltərə, nədənsə sultana real kömək göstərməyə tələsmədi. Çar Rusiyası sultan II Mahmuda ciddi yardım etdi. 1833-cü ilin fevral ayında rus eskadrası Bosfora daxil oldu. Məhəmməd Əli İstanbula doğru hərəkətini dayandırmağa məcbur oldu.



Rus donanması və qoşununun boğazlarda görünməsi İngiltərə və Fransanı bərk narahat etdi. Onların təzyiqi altında 9 may 1833-cü ildə sultanın nümayəndələri ilə Məhəmməd Əli arasında Kütahya sazişi imzalandı. Sazişə görə Məhəmməd Əli formal olaraq sultanın ali hakimiyyətini tanıdı və öz qoşununu Anadoludan çıxartdı. II Mahmud isə Misir qoşununun tutduğu Suriya, Fələstin və Kilikiyanın Məhəmməd Əlinin idarəsi altında qalmasına razılıq verdi.

Ancaq II Mahmud 8 iyul 1933-cü ildə alçaldıcı Ünkər-İskələsi müqaviləsini imzalayana qədər rus qoşunundan xilas ola bilmədi. Bu müqavilə rus çarına sultanı «müdafiə etmək», eləcə də Qara dəniz boğazlarından xarici hərbi gəmilərin keçidini istədiyi vaxt bağlayıb-açmaq hüququnu verdi.

Ünkər-İskələsi müqaviləsini imzalamaqla II Mahmud imperiyanı yenidən qurmaq üçün vaxt qazanmaq niyyətində idi. Onun həyata keçirdiyi islahatlar o dərəcədə hiss olunurdu ki, 1830-cu illərin sonunda Osmanlı imperatorluğunda olmuş səyahətçilər son 20 ildə ölkədə baş verən dəyişikliklərin əvvəlki iki yüzillikdəkindən çox olduğunu qeyd edirdilər. II Mahmud yeniçərilərin əvəzinə Avropa nümunəsi üzrə hazırlanmış və təchiz olunmuş yeni ordu yaratdı. Zabitlərin yeni hərb sənətinə yiyələnməsi üçün rus zabitlərini icarəyə götürdü. Mülki məmurların rəsmi geyimi fəs və sürtük oldu. II Mahmud idarəçiliyin bütün sahələrinə gənc Avropa dövlətlərində işlənib hazırlanmış yeni metodları tətbiq etməyə çalışırdı. Maliyyə sistemini yenidən qurmağa, məhkəmə orqanlarının fəaliyyətini nizama salmağa, yol şəbəkəsini yaxşılaşdırmağa nail olundu. Əlavə təhsil müəssisələri, xüsusilə hərbi və tibb kollecləri yaradıldı. İstanbul və İzmirdə qəzetlər nəşr olunmağa başladı.

Həyatının son ilində II Mahmud yenidən Misir vassalı ilə müharibəyə başladı. Buna bəhanə isə sonuncunun 1838-ci il ingilis-türk ticarət konvensiyasına əməl etməməsi oldu.

Məhəmməd Əli 1839-cu ildə idarəsi altında olan torpaqlara onun sülalə hüququnun tanınmasını tələb etdi. Sultan hərbi əməliyyatlara başladı. Ancaq 24 iyun 1839-cu ildə Şimali Suri-

yada Nəzib yaxınlığındakı ilk döyüş sultan ordusunun darmadağın olunması ilə nəticələndi. Bir neçə gündən sonra II Mahmud vəfat etdi. Taxta onun böyük oğlu Əbdülməcid (1839-1861) çıxdı.

1839-cu ilin iyul ayında böyük dövlətlər rəsmi olaraq bildirdilər ki, Osmanlı imperatorluğunu «öz kollektiv himayələrinə» götürürlər. 15 iyul 1840-cı ildə isə Londondakı türk səfiri Rusiya, İngiltərə, Avstriya və Prussiyanın nümayəndələri ilə konvensiya imzalamağa məcbur oldu. Beləliklə, Osmanlı imperatorluğunun bu dövlətlərdən asılı vəziyyəti rəsmi surətdə elan olundu. 1840-cı il London konvensiyasında eyni zamanda, Misir və Fələstindən başqa sultanın bütün ərazilərinin dərhal özünə qaytarılması kimi tələblər də var idi.

1838-ci il ticarət konvensiyasına əsasən İngiltərə və Fransa Portanın nəinki iqtisadi, həmçinin siyasi asılılığını gücləndirdilər. 1840-cı il London konvensiyası böyük dövlətlərin onun daxili işlərinə müdaxiləsini «qanuniləşdirdi». Bütün dövlətlərin gəmilərinə Bosfor və Dardanel boğazlarından keçmək qadağan edildi.

13 iyun 1841-ci ildə, bir tərəfdən Rusiya, İngiltərə, Fransa, Avstriya, Prussiya, digər tərəfdən Osmanlı imperatorluğu Londonda Qara dəniz boğazları rejiminin beynəlxalq reqlamenti barədə Konvensiya imzaladılar.

Hələ XIX əsrin 20-30-cu illərində Osmanlı imperatorluğuna xarici kapital axını güclənmişdi. Türk sənətkarlığı və manufaktura tənəzzülə uğramışdı. XIX yüzilliyin ilk 40 ili ərzində Bursa və Diyarbəkir şəhərlərində parça istehsalı 10 dəfə azalmışdı. İpək parçaların hazırlanması kəskin surətdə aşağı düşdü. Artıq bütün xam ipək xaricdən gətirilirdi. Ölkədəki sosial-iqtisadi vəziyyəti yaxşılaşdırmaq məqsədilə sultan islahat keçirmək qərarına gəldi. 3 noyabr 1839-cu ildə Əbdülməcid Gülxanə «Xətti-şərif»ini («Müqəddəs fərman») elan etdi. Baş nazir Rəşid paşa dövlətin yüksək mənsəb sahibləri və dəvət olunan səfirlər qarşısında çıxış edərək tənzimatın başladığını bildirdi. Sənəddə məhkəməsiz ölüm hökmü ləğv olunur, irqi və dini



mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara ədalətli məhkəmə təminatı verilir, yeni cinayət məcəlləsinin qəbul olunması üçün məhkəmə şurası təsis edilir, iltizam sistemi ləğv olunur, ordunun komplektləşdirilməsi metodları dəyişdirilir və hərbi xidmətin müddəti məhdudlaşdırılırdı. Ancaq 1841-ci ildə Rəşid paşa vəzifəsindən kənarlaşdırıldı və islahatlar dayandırıldı.

1843-cü ildə ordunun yeni quruluşu barədə fərman nəşr olundu. Kadrda olan hərbi qulluqçuların qoşununda xidmət 15 ildən 5 ilə, ehtiyatda olmaq müddəti isə 7 ilə qədər azaldıldı. 1845-ci ildə Rəşid paşa hakimiyyətə qayıtdıqdan sonra Britaniya səfiri Stretford Kanninqin dəstəyi ilə islahatlar yenidən həyata keçirilməyə başladı. Bu dövr Osmanlı imperatorluğunun tarixində «Tənzimati-Xeyriyyə» («qayda-qanun yaratmaq») kimi məlumdur. O, idarə sisteminin yenidən qurulmasına və qədim müsəlman və osmanlı dözümlülük prinsiplərinə uyğun olaraq cəmiyyətin kökündən dəyişdirilməsini nəzərdə tuturdu. Məhz tənzimat dövründə təhsil inkişaf etdi, məktəb şəbəkəsi genişləndi, tanınmış ailələrin oğulları Avropada təhsil almağa başladılar. Bir çox osmanlı Qərb həyat tərzinə keçdi. Nəşr olunan qəzet, kitab və jurnalların sayı artdı, gənc nəsil isə yeni Avropa ideallarını özünə əqidə seçdi.

1853-cü ildə I Nikolay sultandan rus çarının Osmanlı imperatorluğunun bütün pravoslav xristianlarını himayə etmək hüququnu tanımasını tələb etdi. Türk hökuməti İngiltərə və Fransanın təsiri ilə bu tələbi rədd etdi. Yayda rus-türk müharibəsi başlandı. Rus qoşunu Dunay knyazlığına daxil oldu. 1854-cü ildə türk donanması Sinop döyüşündə admiral Naximov tərəfindən darmadağın edildi. Belə olduqda İngiltərə və Fransa öz hərbi donanmasını Qara dənizə yeridərək Rusiya ilə müharibəyə başladılar. 1855-ci ildə Sevastopol ruslardan alındı.

Osmanlı imperatorluğunun Krım müharibəsində çar Rusiyası üzərində qələbə çalan koalisiyaya daxil olmasına baxmayaraq, 30 mart 1856-cı ildə imzalanan Paris sülh müqaviləsi onun İngiltərə və Fransadan asılılığını gücləndirdi. Paris trak-

tatına görə Rusiya Dunayın mənsəbini itirdi, Qara dənizdə hərbi donanma saxlamaq və istehkamlar qurmaq hüququndan məhrum oldu.

Paris müqaviləsi Qara dənizi neytral zona elan etdi. Avropa dövlətləri Qara dəniz boğazları üzərində türk suverenliyini yenidən tanıdılar və Osmanlı imperatorluğu «Avropa dövlətləri ittifaqı»na qəbul edildi. 1859-cu ildə Rumıniya müstəqillik əldə etdi.

Krım müharibəsindən sonra sultan Qərb bankirlərindən borc pul almağa başladı. Hələ 1854-cü ildə praktiki surətdə heç bir xarici borcu olmayan Osmanlı hökuməti sürətlə müflisləşdi. 18 fevral 1856-cı ildə sultan ölkədə islahatlar keçirilməsi barədə yeni fərman verdi. Ancaq «Xətti-Hümayün» adlanan bu fərman Fransa və Böyük Britaniyanın osmanlı hökumətinə təqdim etdikləri memorandum əsasında tərtib edilmişdi. Fərmana görə, imperiyanın qeyri-müsəlman əhalisi müsəlmanlarla bərabərhüquqa malik olur, dini mənsubiyyətdən asılı olmayaraq bütün təbəələr üçün vahid vergi sistemi tətbiq olunurdu. Ölkənin qapıları Avropa kapitalının üzünə açılırdı.

Tənzimatın ikinci mərhələsi (1856-1870) bəzi istisnalarla əhəmiyyətli dəyişikliklərə səbəb olmadı. Xarici ticarət sürətlə artdı. Ancaq Avropa sənaye məhsullarının ölkəyə axını Osmanlı imperatorluğunun maliyyə vəziyyətinə və iqtisadiyyatına mənfi təsir göstərdi. Britaniya fabrik parçalarının idxalı kustar toxuculuq istehsalını tənəzzülə uğratdı və ölkədən qızıl və gümüşü apardı. Ticarətin əksər hissəsi, «kapitulyasiya» ilə bağlı məmurların nəzarətindən azad olan xaricilərin əlində idi.

1858-ci ildə bu sistem ləğv edildikdən sonra yaranmış torpaq münasibətlərini möhkəmləndirən torpaq qanunu qəbul olundu. Torpaqların çox hissəsi dövlətə və ya vəqfə məxsus idi. Torpaq icarəyə verilirdi. İcarəyə verilmiş torpaqları satmaq, girov qoymaq və bağışlamaq olmazdı. Belə torpaqların irsən keçməsinə də məhdudiyyət qoyulurdu.Lakin bütün bunlar kəndlilərin torpaqsızlaşmasının və torpaqların mülkədarların əlinə keçməsinin qarşısını ala bilmədi.



Bu isə əhalinin narazılığına və üsyanlara səbəb oldu. 1859-cu ildə sultanı devirmək məqsədilə mədrəsə şagirdləri, xırda məmurlar və zabitlərin iştirakı ilə hazırlanan sui-qəsdin üstü açıldı. Ancaq sui-qəsdçilərin kütlə arasında dayağı yox idi. Onlar həbs olundular və İstanbulun Güləli kazarmasında saxlandılar. Buna görə bu proses «Güləli hadisəsi» adlanır.

Avropanın ali məktəblərində təhsil alan türk gəncləri ölkənin xilas yolunu konstitusiyalı monarxiyanın qurulmasıda görürdülər. «Osmanlı maarifçilik cəmiyyəti» də məhz bu məqsədlə yaradıldı.

1865-ci ildə İstanbulda görkəmli alim İbrahim Şinasi və yazıçı Namiq Kamal tərəfindən «Gənc osmanlılar» gizli siyasi təşkilatı yaradıldı. Orada Namiq Kamal və dostları ilə yanaşı tacirlərin nümayəndələri, bəzi iri hərbi və mülki məmurlar da iştirak edirdilər. Təşkilatın başlıca məqsədi Osmanlı imperatorluğunda konstitusiyalı quruluşun tətbiqi idi. «Gənc osmanlılar» xalqdan uzaq, sui-qəsdçi təşkilat idi. Onlar sui-qəsd yolu ilə sultan Əbdüləzizi (1861-1876) konstitusiya verməyə məcbur etmək istəyirdilər. Lakin 1866-cı ildə təşkilatın üstü açıldı. Onun iştirakçılarının çoxu həbs olundu. Namiq Kamal, İbrahim Şinasi, Ziya paşa və digərləri xaricə qaçdılar.

60-cı illərdə sex qaydaları ləğv edildi, inzibati islahatlar həyata keçirildi. 40-cı illərdən başlayan dünyəvi ibtidai, orta və ali məktəblərin açılması davam etdirildi. Dünyəvi məktəblərə rəhbərlik etmək üçün Maarif nazirliyi yaradıldı. 60-cı illərin ortalarında dünyəvi ibtidai məktəblərdə 660 min şagird təhsil alırdı. Orta məktəblərin sayı isə bir neçə ona çatırdı. Bununla yanaşı məscidlərdəki bütün məktəblər saxlanılır, dünyəvi ibtidai məktəblərdə təhsil saatının yarısı dinə həsr olunurdu. Məktəblər üzərində faktiki nəzarət əvvəlki kimi ruhanilərin əlində qalırdı. 1869-cu ildə türk məktəblərində üç-dördillik ümumi təhsilin tətbiqini nəzərdə tutan qanun qəbul olundu.

Tənzimatın ikinci mərhələsinin (1856-1870) islahatları Osmanlı imperatorluğunda vəziyyəti əhəmiyyətli surətdə dəyişdirə bilmədi. Bütövlükdə, tənzimat siyasəti uğursuzluqla nəticə-

ləndi. Tənzimat ölkənin sənayecə inkişafına zəmin yarada bilmədi, komprador burjuaziyanın mövqeyinin bir qədər güclənməsi isə Osmanlı imperatorluğunun Qərbin kapitalist dövlətlərindən artmaqda olan siyasi və iqtisadi asılılığını əks etdirirdi.

Şərq müharibəsi dövründə ölkənin maliyyə əsarəti altına düşməsi başlandı. 1854-cü ildə Osmanlı imperatorluğuna 75 mln. frank məbləğində ilk əsarətli istiqraz verildi, 1876-cı ildə isə onun Avropa bankirlərinə borcu artıq 2,4 mlrd. frank təşkil edirdi. Şərq müharibəsindən dərhal sonra yaradılan Osmanlı imperatorluğu bankı bütövlüklə ingilis və fransız kapitalistlərinə məxsus idi. 70-ci illərdə Osmanlı imperatorluğunun xarici dövlətlərdən asılılığı çoxaldı. İngiltərə və Fransanın təcavüzkarlığı artdı, mübarizəyə tədricən Almaniya da qoşulurdu. Çar Rusiyası yenidən fəallaşdı. Bütün bunlar Osmanlı imperatorluğunun müstəmləkə əsarətinə düşmək təhlükəsini xeyli artırdı. Türk iqtisadiyyatının əsas sahəsi olan kənd təsərrüfatı dərin tənəzzül keçirirdi. Məhsuldarlıq çox aşağı səviyyədə idi. Bir çox əyalətin hakimi etiraf edirdi ki, dalbadal üçillik gəlirindən çox borcu olmayan kəndli yox idi.

Kənd təsərrüfatının tənəzzülü bir-birini əvəz edən aclıq illərinə səbəb oldu. 1873-1875-ci illərdə güclü aclıq Kiçik Asiyanın şimal və mərkəzi rayonlarını bürüdü.

Sultan hökuməti daima pul çatışmazlığı hiss edirdi. Hökumət təkcə beş il ərzində (1870-1874) 3 mlrd. frank məbləğində əsarətli şərtlərlə istiqraz alınması barədə saziş imzalamışdı. Ümumi borc təxminən 5,3 mlrd. franka çatırdı.

Tənzimat siyasətindən imtina edən sultan Əbdüləziz irticaçı kurs götürdü. 1871-ci ildə gənc baş vəzir Mahmud Nədim paşa əfv - ümumi elan etdi və «Gənc osmanlıları» Vətənə qayıtmağa səslədi. Mühacirətdən qayıdan «gənc osmanlılar» mətbuatda sultanın siyasətini kəskin tənqid atəşinə tuturdular. 1873-cü ildə Namiq Kamalın «Vətən və ya Silistre» pyesi tamaşaya qoyuldu. Tamaşa zamanı səslənən hökumət əleyhinə şüarlar pyesin müəllifinin həbsi ilə nəticələndi.



1875-ci ildə baş vəzir bəyan etdi ki, ölkə artıq borc faizlərini ödəmək iqtidarında deyil. Avropa dövlətlərinin səs-küylü etiraz və təzyiqləri Osmanlı hökumətini əyalətlərdə vergiləri artırmağa məcbur etdi.

Hersoqovinada 1875-ci ilin yayında xalq üsyanı qalxdı və sonra Bosniyanı da bürüdü. 1876-cı ilin yanvar ayında, 1856-cı ildə Paris traktatını imzalamış ölkələr Osmanlı imperatorluğundan dərhal Bosniya və Hersoqovinada islahatlar keçirməyi tələb etdilər. Sultan hökuməti bu tələbi qəbul etməyə razılıq verdi. Ancaq böyük dövlətlərin iddiaları bununla məhdudlaşmadı, yeni beynəlxalq böhran başlandı.

1876-cı il may ayının əvvəllərində «Gənc osmanlılar» yenidən fəallaşdılar və nümayəndələr palatası yaratmağa və Əbdüləzizi başqa sultanla əvəz etməyə çağıran intibahnamə nəşr etdirdilər. 22 may 1876-cı ildə İstanbulda nümayiş təşkil edildi. 40 mindən çox mitinq iştirakçısının tələbi ilə baş vəzir Nədim paşa vəzifəsindən kənarlaşdırıldı. Bu vəzifəyə Mehmet Rüşti paşa təyin olundu, kabinetin tərkibinə isə «Gənc osmanlılar»ın liderlərindən biri olan Midhət paşa daxil edildi.

30 may 1876-cı ilə keçən gecə Əbdüləziz taxtdan salındı. V Murad hakimiyyətə gəldi. Tezliklə məlum oldu ki, o, ağır ruhi xəstə imiş. Mühafizəkar feodal-klerikal dairələrin nümayəndələri yaranmış şəraitdən istifadə etdilər. 31 avqust 1876-cı ildə sultan yenidən dəyişdirildi. II Əbdülhəmid (1876-1909) taxta oturdu. Tezliklə Midhət paşa baş vəzir təyin olundu və Konstitusiyanın layihəsini hazırlamağa başladı. 23 dekabr 1876-cı ildə İstanbulda Avstriya-Macarıstan, Böyük Britaniya və Rusiya səfirlərinin Balkan məsələsi üzrə konfransı çağırıldı. Konfransda II Əbdülhəmid Osmanlı imperatorluğunun ilk Konstitusiyasının tətbiqini elan etdi. Bu Konstitusiya Osmanlı imperatorluğunu konstitusiyalı monarxiya elan edir və iki palatalı parlamentin yaradılmasını nəzərdə tuturdu. Konstitusiya sultan hakimiyyətini demək olar ki, tamamilə saxlayırdı. Sultanın şəxsiyyəti toxunulmaz hesab edilirdi. 1877-ci ildə türk parlamentinə ilk seçkilər keçirildi, lakin «Gənc osmanlıların» na-

mizədləri seçkiyə buraxılmadılar. Parlament 1877-ci ilin aprel ayında başlanan rus-türk müharibəsi zamanı çağırıldı, 1878-ci ilin fevral ayında isə buraxıldı. Konstitusiya arxivə təhvil verildi. Midhət paşa sürgün olundu. 1878-ci ilin mart ayında Rusiya ilə sülh imzalandıqdan sonra «Gənc osmanlıların» rəhbəri Konstitusiyanın müdafiəsi üçün İstanbulda üsyan qaldırmağa cəhd etdi, lakin dərhal yatırıldı.

1877-ci ildə növbəti rus-türk müharibəsi başlandı. Mayın 9-da öz müstəqilliyini elan edən Rumıniya Rusiyanın müttəfiqi kimi çıxış etdi. Ruslar Yeşilköyə qədər irəlilədilər, türk hissələri məğlubiyyətə uğradıldı. 1878-ci ilin başlanğıcında Osmanlı imperatorluğunun hərbi vəziyyəti kəskin həddə çatdı. Məğlubiyyətdən narahat olan İngiltərə İstanbulu və boğazları «müdafiə» etmək üçün öz donanmasını Mərmərə dənizinə çıxartdı. 1878-ci il mart ayının əvvəllərində San-Stefanoda rus komandanlığının iqamətgahında Ayastefanos sülh müqaviləsi imzalandı. Onun əsas şərti müstəqil Bolqarıstanın yaradılması idi. İngiltərə Sülh müqaviləsinin şərtlərinə yenidən baxılması məqsədilə Berlin koqresinin çağırılmasına müvəffəq oldu. Berlin traktatına görə (iyul, 1878-ci il) Şimali Bolqarıstan vassal knyazlığı, Cənubi isə muxtariyyət aldı. Sultan Serbiya, Çernoqoriya və Rumıniyanın tam müstəqilliyini tanıdı. Batum, Qars və Ərdəhan Rusiyaya birləşdirildi.

Osmanlı hökuməti 1879-cu ildə yenidən müflis olduğunu elan etdi. 1881-ci ildə xarici nəzarət altında Osmanlı dövlət borcu üzrə idarə yaradıldı. İdarə Avropa istiqrazları üzrə ödənişlərə görə məsuliyyət daşıyırdı. 1888-ci ildə bir neçə Qərb bankı birgə Salonik bankının əsasını qoydu,1899-cu ildə Alman-Fələstin bankı yaradıldı.

XIX əsrin sonunda Osmanlı imperatorluğunun iqtisadiyyatında ingilis-fransız kapitalı üstün mövqe tuturdu. Alman kapitalının nüfuzu da əhəmiyyətli dərəcədə gücləndi.

«Gənc osmanlılar»ın başladığı siyasi müxalifət hərəkatı Konstitusiyanın qəbulu ilə nəticələndi. Ancaq sultan tərəfindən Konstitusiyanın ləğv edilməsi müxalifətçi hərəkatın dirçəlişinə



səbəb oldu. 1878-1889-cu illərdə Əli Süavinin təşəbbüsü ilə Çırağan kimi mühüm hadisələr baş verdi. Onun məqsədi V Muradın hakimiyyətə qaytarılmasından ibarət idi. Buna bənzər digər hərəkat uğursuzluqla nəticələnən Kleanti-Skalyeri-Əziz bəyin komitəsi idi. Tezliklə bu hərəkatın iştirakçıları müəyyən edildi və onun fəaliyyəti dayandırıldı. Hərəkatın liderləri xarici ölkələrə mühacirət etdilər və orada siyasi fəaliyyəti davam etdirərək qəzet nəşr etdirdilər.

1889-cu ilin may ayında Ali Hərbi-Tibb Akademiyasının tələbələri «Osmanlı İttihad və Tərəqqi Cəmiyyəti»ni yaratdılar. Təşkilatçıların içərisində alban İbrahim Temo, çərkəz Mehmet Rəşad, Abdulla Cövdət, İshaq Sükuti və Əli bəy Hüseynzadə də var idi. Cəmiyyətin əsas məqsədi II Əbdülhəmidi devirib Konstitusiyanı bərpa etmək idi. Qısa müddət ərzində təşkilat İstanbulun bütün məktəblərində özəklərini yaratdı. Ancaq 1895-ci ildəki uğursuz dövlət çevrilişindən sonra təqiblər başlandı. Buna baxmayaraq İstanbul, Paris və Londonla yanaşı, Qahirədə də yeni özəklər yaradıldı.

### § 2. Mərkəzi Asiyanın sosial-iqtisadi və siyasi vəziyyəti

XIX əsrin başlanğıcında Mərkəzi Asiyada feodalizm siyasi quruluş kimi hələ də mövcud olmaqda idi. Bununla belə, təsərrüfat həyatında bəzi dəyişikliklər artıq müşahidə olunur, suvarma sistemi genişlənir, köçərilər qismən oturaq həyata keçirdilər.

Torpaq sahibliyinin xarakterində də dəyişikliklər nəzərə çarpırdı. Lakin əkinçilik və maldarlıq hələ də kənd təsərrüfatı istehsalının mühüm sahələri olaraq qalırdı. Bununla yanaşı, əmtəə-pul münasibətlərinin inkişafı qonşu ölkələrlə iqtisadi əlaqələrin güclənməsinə səbəb oldu.

Ancaq feodal dağınıqlığı, daxili siyasi çəkişmələr, feodal ara müharibələri Mərkəzi Asiyanın iqtisadi və mədəni inkişafını ləngidirdi. Xoçənd, Mərv və Çizaq kimi zəngin şəhərlər döyüş əməliyyatları meydanına çevrilmişdi.

Buxara, Xivə və Kokandda, Buxara istisna olmaqla, başında xan duran feodal monarxiyası mövcud idi. Buxaranı əmir idarə edirdi. Ölkə ayrı-ayrı əyalətlərə bölünmüşdü. Ali inzibati hakimiyyət birinci əyana-quşbəyiyə məxsus idi. İkinci yerdə maliyyə məsələləri ilə məşğul olan aşağı quşbəyi dururdu. Əmirin sarayında məmur aparatı mövcud idi. Buxara əmirliyində müsəlman ruhaniliyi böyük nüfuza malik idi. Ruhanilərin başçısı şeyxülislam idi. Məhkəmə hakimiyyəti də onun əlində cəmləşmişdi.

XIX əsrin birinci yarısında Xivə xanlığında da əsas əyanlar quşbəyi idi. Ancaq Kokand xanlığında bu vəzifə minbaşı adlanırdı. Daşkəndin inzibati-siyasi idarəsi ilə bəylərbəyi məşğul olurdu. Bu dövrdə Kokand xanı Daşkəndi, Türküstanı, Yeddi Suyun bir hissəsini ələ keçirdi və köçəri qazaxları özünə tabe etdi. İşğal olunmuş ərazilərdə qalalar, şəhərlər tikilir, Fərqanədən tacir, sənətkar və kəndlilər köçürülürdülər. Beləliklə, Kokand xanlığı Mərkəzi Asiyanın ən iri xanlığına çevrildi. Xanlığın əhalisi, əsasən maldarlıqla məşğul olurdu. Bununla belə, iri mal-qara sahibləri, həmçinin böyük torpaq sahələrinə malik idilər. Kokand xanlığının soyğunçu vergi siyasəti nəticəsində əhali yoxsullaşdı. Qırğızlar xərac, zəkat və s. vergi növlərini ödəyirdilər.

Hər üç xanlıqda torpaqların böyük hissəsi dövlətə məxsus idi. Bununla yanaşı, mülk və vəqf torpaq sahibliyi növləri də mövcud idi.

Mərkəzi Asiyada kəndlilər hüquqi cəhətdən torpağa təhkim olunmasalar da, faktiki olaraq öz feodallarının quluna çevrilirdilər. Bu xanlıqlarda pambıqçılıq, ipəkçilik, xalça istehsalı, atçılıq və qaragül qoyunçuluğu kimi sahələr inkişaf edirdi.

Mərkəzi Asiya sənətkarlarının istehsal etdikləri parçalar nəinki xanlığın daxilində, həm də Rusiyada və bir çox Avropa ölkələrində məşhur idi. XIX əsrin birinci yarısında Mərkəzi Asiya İngiltərə ilə Rusiya arasında rəqabət meydanına çevrildi. 20-ci illərdə Ost-Hind kampaniyasının agentləri, alim-səyahətçilər və b. elmi və ticarət münasibətlərini yaratmaq adı altında



xanlığa gəlirdilər. Xanların ara müharibələrindən istifadə edən Rusiya, öz növbəsində, bu ərazini ələ keçirib özünün satış bazarına çevirməyi qərara aldı. Moskva kapitalisti Qolubkov Mərkəzi Asiyanın iqtisadi və siyasi ekspansiyası proqramını irəli sürdü.

1839-1840-cı illərdə Orenburqun hərbi qubernatoru general V.A.Perovski çarın icazəsini alaraq Xivəyə qarşı yürüşə başladı. İki aya qədər davam edən vuruşma nəticəsində o, qoşununun 1/5-ni itirdi və geri qayıtdı.

Xanların ara müharibələri regionun təsərrüfat həyatına ağır zərbə vurdu, eləcə də xarici müdaxiləçilərin birgə hərəkətinə səbəb oldu. Çar hökuməti Kiçik və Orta juzlara son qoymaq qərarına gələrək juzların xanlıqlarını ləğv etdi və 1824-cü ildə onları üç hissəyə böldü: qərb,şərq və mərkəz. Bu əyalətləri çar hökumətinin təyin etdiyi sultanlar idarə edirdi. 1846-cı ildə Böyük juz da işğal olundu.

Xarici müdaxilələr nəticəsində yerli əhali öz torpaq sahələrini itirdi. Bununla əlaqədar olaraq, 1836-cı ildə Bukey Ordasında (Kiçik juz) İsatay Taymanov və xalq şairi Mohabbet Utemisovun rəhbərliyi ilə xalq üsyana qalxdı. Üsyançıların silahlı dəstələri xan və sultanların mülklərini yandırdılar. Bu üsyan xanların və çar Rusiyasının birgə səyləri ilə yatırıldı. İ.Taymanov döyüş zamanı öldürüldü, bir qədər sonra isə – 1846-cı ildə muzdlu qatil M.Utemisovu da aradan götürdü.

1837-1847-ci illərdə Rusiyanın müstəmləkəçilik siyasətinə qarşı K.Qasımovun başçılığı ilə xalq hərəkatını milli-azadlıq hərəkatı kimi qiymətləndirmək olar. Rus ordusu tərəfindən Mərkəzi Qazaxıstandan sıxışdırılan Kenesar Qasımov Qırğızıstanın şimal hissəsini özünə tabe etdi. O, Rusiya və Kokand xanlığı ilə mübarizəni davam etdirmək niyyətində idi. Kenesar və atası Qasım rus hərbi istehkamlarının tikilməsinin əleyhinə idilər. Ancaq son döyüş zamanı o, əsir götürüldü, sonra isə qəddarcasına öldürüldü. Üsyan yatırılsa da, Kenesar Qasımov qazaxların xalq qəhrəmanı kimi şöhrət tapdı.

XIX əsrin ikinci yarısında Mərkəzi Asiyada feodal-patriarxal münasibətlərin hökmranlığı davam etməkdə idi. Türküstan əhalisinin 86,7%-i oturaq və köçəri kəndlilərdən ibarət idi. Oturaq əhali istehsal olunan məhsulların 1/10-ni xərac şəklində verir, köçərilər isə hər aula görə 3 man.50 qəpik ödəyirdilər.

Fəhlə sinfinin formalaşması prosesi çox ləng gedirdi, kustar və sex istehsalı qalmaqda idi. Milli burjuaziya çox zəif idi, digər ölkələrdən sənaye məhsullarının idxalı yerli istehsal üçün öldürücü mahiyyət daşıyırdı. Ancaq digər ölkələrlə ticarət münasibətləri inkişaf edirdi, ticarət agentlikləri Rusiya və Avropanın xarici bazarlarında xalça satışını təşkil edirdilər. O dövrün ən inkişaf etmiş şəhərləri Daşkənd, Səmərqənd, Kokand, Namanqan, Əndican, Margilan olmuşlar.

Mərkəzi Asiya Rus imperiyasını daha çox satış bazarı kimi maraqlandırırdı. Buna görə də 1853-1856-cı illərdə Krım müharibəsindən sonra, Rusiya bu regionda işğalçılıq səylərini gücləndirdi. 1851-ci ildə Orenburqun və Samaranın general-qubernatoru təyin olunan V.A.Perovski Mərkəzi Asiya xalqlarına qarşı qətiyyətli döyüş əməliyyatlarının keçirilməsi tərəfdarı idi. 1853-cü ildə Sırdəryanın sağ sahilində, əvvəllər Ağ məscidin olduğu yerdə mühüm strateji əhəmiyyətə malik olan «Perovsk qalası» tikildi. 1850-1854-cü illərdə çar qoşunu bütün Zalpiyski diyarını ələ keçirtdi. 1854-cü ildə Alma-Atıda Vernıy istehkamı tikildi. Almatinsk stansiyasına 132 Sibir kazakı və 200 rus kəndli ailəsi köçürüldü.

Krım müharibəsinin başlanmasından istifadə edən Mərkəzi Asiya xalqları rus qoşununu sıxışdırdılar. Ancaq Kokand, Buraxa və Xivə xanlıqları arasındakı daxili çəkişmələr öz ərazilərini rus işğalçılarından azad etməyə imkan vermədi.

1853-cü ildə Kokand xanlığının qoşunu Yaqub bəyin başçılığı altında Ağ məscidi azad etmək məqsədi ilə hücuma keçdi, lakin onu geri ala bilmədi.

Rusiya Krım müharibəsində məğlub olandan sonra Mərkəzi Asiyada siyasi fəaliyyətini genişləndirmək qərarına gəldi. 1858-ci idə o, Buxara və Xivəyə polkovnik İqnatyevin başçılığı



ilə diplomatik korpus göndərdi. Diplomatların qarşısında duran vəzifə Xivə xanlığı ilə, onu Rusiya ilə düşmənçilikdən əl çəkib, axırıncının xeyrinə güzəştlərə getməyə məcbur edən müqavilə imzalamaqdan ibarət idi. Bura, Amudərya çayında rus gəmilərinin azad hərəkəti, Xivədə rus ticarət agentliyinin yaradılması və rus malları üzərinə gömrük tarifinin 2,5 faizdən çox olmayaraq qoyulmasına razılıq əldə edilməsi daxil idi. Ancaq onların arasında müqavilə imzalanmadı, hərçənd ki, Buxara əmiri belə razılığa gəlməyə qərar vermişdi.

Mərkəzi Asiyada Rusiyanın irəliləyişi İngiltərə ilə kəskinləşən rəqabət şəraitində gedirdi. Sonuncunun Mərkəzi Asiya xalqlarının ittifaqını yaratmaq cəhdləri boşa çıxdı.

1862-ci ilin payızında rus qoşunu Bişkeki və Tokmakı tutdu. Polkovnik Çernyayevin dəstələri Suzak qalasını tutub Rusiyaya tabe etdilər.

Hərbi nazirliyin 1863-cü ilin dekabr ayında aldığı çarın göstərişinə görə, 1864-cü ildən başlayaraq Orenburq və Sibirin ön xəttini birləşdirib müvafiq sahələrə doğru irəliləmək lazım idi. Beləliklə, çar qoşunu Mərkəzi Asiyaya geniş miqyaslı hücuma başladı. Bu proses üç mərhələdən keçdi: 1864-1869-cu illəri əhatə edən birinci mərhələ Kokand xanlığının böyük hissəsinin işğalı ilə xarakterizə olunur. 1866-cı ildən 1873-cü ilə qədər davam edən ikinci mərhələdə Buxara əmirliyi və Xivə xanlığı Rusiyaya tabe edildi. 1869-1884-cü illəri əhatə edən son üçüncü mərhələ Türküstanın işğalını başa çatdırdı.

1865-ci ildə Daşkənd şəhərinin alınması şərəfinə rus imperatoru II Aleksandr general Çernyayevə briliantlarla bəzədilmiş qılınc bağışladı. 1866-cı ildə Xoçənt tutuldu, 1867-ci ildə isə mərkəzi Daşkənd şəhəri olan Türküstan general-qubernatorluğu yaradıldı. İlk general-qubernator K.P.Kaufman təyin olundu.

1868-ci ilin yazında Buxara əmiri bu regionda yerləşdirilən rus qoşununa qarşı müqəddəs müharibə-cihad (qazavat) elan etdi. Yerli əhalinin var qüvvə ilə müqavimət göstərməsinə baxmayaraq rus qoşunu Səmərqəndə girdi. 23 iyun 1868-ci ildə

Buxara əmiri ilə rus komandanlığı arasında sülh imzalandı. Onun şərtlərinə görə Türküstan general-qubernatorluğunun tərkibində Zərəfşan vilayəti yaradıldı. Bundan əlavə, əmir 500 min manat təzminat ödəməli, eləcə də rus təbəələrinin azad ticarət hüququnu və təhlükəsizliyini təmin etməli idi. 28 sentyabr 1873-cü ildə Şaar müqaviləsi imzalandı. Müqaviləyə görə Buxara əmiri Seyid Müzəffər rus hakimiyyətini tanıyırdı.

Həmin il Rusiya Xivə xanlığına qarşı hərbi yürüş təşkil etdi. Nəticədə mayın 26-da yerli əhalinin heç bir müqavimətinə rast gəlmədən Xarəzm tutuldu. Səid Məhəmmd Rəhim Bahadır xanla fon Kaufman arasında avqustun 12-də imzalanan Qandaman sülh müqaviləsinin şərtlərinə görə Xivə xanlığı tamamilə Rusiyaya tabe edildi və təzminat ödədi. 1875-1876-cı illərdə Kokandda baş verən üsyan bu xanlığın ləğvinə səbəb oldu.

Xəzəryanı sahillər işğal olunduqdan sonra, 1869-cu ildə Krasnovodsk (indi Türkmənbaşı) şəhəri salındı. General M.K.Sobolevin hərbi hissələri 1881-ci ilin yanvar ayında Göytəpəni, bir qədər sonra polkovnik Kuropatkinin dəstələri Aşqabadı, 1884-cü ildə isə Mərvi tutdular. 1895-ci ildə Pamirin işğalı ilə Rusiya imperiyası Mərkəzi Asiyanın işğalını başa çatdırdı. Rusiyanın müstəmləkəçilik zülmünə qarşı üsyanlar başlandı: 1885-ci ildə Fərqanədə, 1898-ci ildə isə Əndicanda olan üsyanlar xüsusi amansızlıqla yatırıldı. Üsyanın rəhbərləri Məhəmməd Əli və onun tərəfdarları dar ağacından asıldılar. Bu regionda müstəmləkəçilik siyasəti xüsusi amansızlıqla həyata keçirildi.

### § 3. Krım, Volqaboyu və Sibir türkləri

XIX əsrdə türk xalqlarının sosial-iqtisadi inkişaf səviyyəsi eyni deyildi. Rusiyaya ilhaq ediləndən sonra, 1802-ci ildən Tavriya quberniyası adlanan Krımda xanların torpaq sahələri Rusiya imperiyasının Dövlət Torpaq Fonduna daxil edildi. 4 may 1816-cı ildə torpağın ucuz qiymətə satışının dayandırılması barədə qərar qəbul edildi. Bu torpaqlar Rusiyanın quberni-



yalarından köçürülənlərə hədiyyə kimi verildi. Nəticədə iri mülkədar torpaq sahibliyi genişləndi. Krımın kənd təsərrüfatında əkinçilik, maldarlıq, üzümçülük, bostançılıq və bağçılıq mühüm yer tuturdu.

Yerli əhalinin torpaq sahəsi olmadığından onlar torpağı icarəyə götürməyə məcbur idilər. Artıq bu zaman kənd təsərrüfatında qismən muzdlu əməyin tətbiqinə keçilməsi əmtəə-pul münasibətlərinin əsasını qoydu və nəticədə kapitalist istehsalının inkişafına səbəb oldu. Şəhərlər və əhalisi artdı, ticarət genişləndi. Krımda duz, balıq, şərab məhsulları istehsal olunurdu. Hələ 30-cu illərdə Simferopol-Aluşta-Yalta-Sevastopol şosse yolu salınmışdı. Simferopol, Kerç, Yalta kimi şəhərlər abadlaşdırıldı.

İslahatdan sonrakı dövrdə Krımda sənayenin inkişafında əhəmiyyətli irəliləyiş müşahidə olunurdu. Hərçənd Krım müharibəsi regionun təsərrüfatına böyük zərbə vurmuşdu. Yevpatoriya, Perekop və Simferopol qəzalarında sosial-iqtisadi vəziyyət xüsusilə ağır idi.

Rusiyada təhkimçilik hüququnun ləğvi barədə 19 fevral 1861-ci il tarixli kəndli islahatı ucqarlarda xüsusi əsasnamələrlə həyata keçirilirdi. Ancaq çar hökuməti türk əhalisinin yaşadığı regionlarda islahatlar keçirməyə tələsmirdi. Bununla belə, gecikmiş islahatlar yarımadanın təsərrüfat həyatında böyük dəyişikliklərə səbəb oldu.

Təhkimçilik hüququnun ləğvi və Krıma dəmir yolunun çəkilməsi bura ucuz işçi qüvvəsinin axınına səbəb oldu. Əkinçilikdə kapitalizmin inkişafı artdı. Krımda üzümçülük, tütünçülük, ipəkçilik və digər texniki bitkilər inkişaf edirdi. Torpaq sahələrinin iri torpaq sahiblərinin əlində cəmləşməsi prosesi gücləndi. Kəndlərdə sosial təbəqələşmə Rusiyanın mərkəzi quberniyalarına nisbətən daha sürətlə gedirdi. XIX əsrin axırlarında Krımda kəndli həyətlərinin təxminən yarısı torpaqsız idi. Bütün kəndli təsərrüfatının 12 faizini təşkil edən qolçomaqlar xüsusi torpaqların təxminən 90 faizini öz əllərində toplamışdılar. Torpağın qalan hissəsi ortabab və yoxsul kəndlilərə məxsus

idi. Krımın kəndlərində əmtəə-pul münasibətləri də inkişaf edirdi. 1875-ci ildə Lozova-Sevastopol dəmir yolunun çəkilişinin başa çatması iqtisadiyyatın inkişafında mühüm rol oynadı.

XIX əsrin ikinci yarısında Krımın sənaye sahələrində əhəmiyyətli irəliləyişlər oldu. Yeni fabrik və zavodlar açıldı. Konserv zavodu, tütün fabriki və s. mühüm yer tuturdular. Simferopol, Kerç, Yevpatoriya və Sevastopol Krımın ən iri ticarət mərkəzləri idi. Krımın ticarət şəhərləri ölkənin xarici siyasətində mühüm yer tuturdular.

Volqaboyu xalqlarının sosial-iqtisadi həyatında XIX əsrin birinci yarısında əhəmiyyətli dəyişikliklər baş verdi. Kazan və Orenburq quberniyalarında yeni qəzalar yaradılırdı. Çuvaşiyanın ərazisi Simbirsk və Kazan quberniyalarının tərkibinə daxil idi.

1798-ci ildən 1865-ci ilə qədər Başqırdıstanda hərbi-siyasi əhəmiyyəti olan kanton [9] idarə sistemi fəaliyyətdə idi. Bu yolla çar hökuməti şərq sərhəddinin hərbi mühafizə xidmətinin bütün ağırlığını yerli əhalinin üzərinə qoyurdu. Ancaq kanton idarə sistemi bütün əhaliyə deyil, yalnız başqırd, mişar və rus kazaklarına aid idi. Yuxarıdan təyin olunan 21 kanton yaradıldı. Aul kəndxudasını kanton rəisi, sonuncunu isə Orenburq general-qubernatoru təyin edirdi. Hərbi rütbə alan başqırd və mişar feodalları uniforma geyir və vergidən azad edilirdilər.

XIX əsrin 30-cu illərində bu idarə sistemində bəzi dəyişikliklər baş verdi. Üzərində hərbi-polis nəzarəti qurulan hərbi-feodal rejimi gücləndirildi. 1834-cü ildə polkovnik T.S.Siolkovskinin komandanlığı altında başqırd-mişar qoşunu yaradıldı. Qazax torpaqlarının istilası ilə Rusiya imperiyasının cənub sərhədləri Aral dənizi, Amudərya və Sırdərya çaylarına qədər çatmış oldu. Beləliklə, XIX əsrin 40-50-ci illərində kanton idarə sistemi əvvəlki əhəmiyyətini itirdi.

İslahatdan sonrakı dövrdə Rusiyanın sosial-iqtisadi vəziyyətinə xas olan cəhət Volqaboyuna da aid idi. Kapitalist münasibətləri inkişaf edir, Kazan quberniyasında kənd təsərrüfatının məhsuldarlığı əkinçilik alətlərinin təkmilləşdirilməsi hesabına artır, maldarlıqda irəliləyiş nəzərə çarpırdı. Tatarıstan və Çuvaşiyada kənddə sosial təbəqələşmə gedirdi. Bir tərəfdən zəngin kəndlilər – qolçomaqlar, digər tərəfdən isə yoxsullar və muzdurlar meydana gəldilər. Qolçomaqlar çox zaman kəndlilərin borcu əvəzində bütün əmlakını əlindən alır və onları özlərinə işləməyə məcbur edirdilər. Kəndlilərlə qolçomaqlar arasında münaqişə olarkən çar məmurları sonuncuları müdafiə edirdilər. Kəndlərdə sələmçilik artırdı. Sələmçilər ehtiyacı olan kəndlilərə borc pulu böyük faizlə verir, əvəzində isə onlardan məhsulu ucuz qiymətə alırdılar.

Volqaboyu əraziyə rus kəndlilərinin köçürülməsi nəticəsində yerli kəndlilərin böyük hissəsi torpaqsız və aztorpaqlıya çevrildi. 1863-1893-cü illərdə kütləvi aclığa səbəb olan davamlı quraqlıqlar Kazan quberniyasının kəndlilərinin vəziyyətini daha da ağırlaşdırdı.

Bu dövrdə əsasən maldar olan başqırdlar oturaq əkinçiliyə keçdilər. Torpaqların çox hissəsi mülkədarların, dövlətin və qismən qolçomaqların əlində idi. Tədricən mülkədar torpaq sahibliyi azalır və torpaqlar kənd burjuaziyasının, müxtəlif şirkətlərin banklarının əlinə keçirdi. Bununla belə, Basqırdıstan kəndliləri Rusiyanın mərkəzi quberniyaları ilə müqayisədə torpaqla daha çox təmin olunmuşdular.

Rus kəndlilərinin Volqaboyuna köçürülməsi nəticəsində torpaq fondu kəskin olaraq azaldı. Dövlət torpaqlarında kəndlilərin kartof əkininə məcbur edilməsi onların narazılığına səbəb oldu. Hələ 1839-cu ildə Priuralyedə kartof üsyanı baş vermişdi.

XIX əsrin ortalarında feodal sisteminin böhranı və iqtisadiyyatın bütün sahələrində kapitalist münasibətlərinin inkişafı müşahidə olunurdu. 40-cı illərdə Uşakovun Kokşansk kimya zavodu, Sveşnikovun mexaniki istehsal zavodu və s. kimi iri sənaye müəssisələri istismara verildi. 80-ci illərdə istehsalın təmərküzləşməsi nəticəsində kapitalist istehsalının daha iri sənaye sahələri yaradıldı. Onların içərisində ən böyüyü Kazanda Krestovnikov və Alafuzov qardaşlarının müəssisələri idi. Daha

sonra Sveşnikovun poladəritmə zavodu və M.Ramın kənd təsərrüfatı maşınları zavodu tikildi. Sənayenin inkişafı ilə əlaqədar olaraq burjuaziya və proletariat təşəkkül edirdi. 1895-ci ildə Kazan quberniyasında 140 müəssisədə 10 minə qədər fəhlə çalışırdı.

Sənayeyə milli kapitalın qoyuluşu artdı. Milli burjuaziya öz kapitalı hesabına xəz, dəri və yüngül sənaye kimi yeni sənaye müəssisələri açırdı.

Tatar tacirlərinin Mərkəzi Asiya ilə sıx ticarət əlaqələri var idi. Daxili və xarici ticarətin inkişafında dəmir yolunun salınması və gəmiçiliyin genişləndirilməsi mühüm rol oynadı. Volqa və Kama çaylarında gəmilər üzməyə başladı. Kazan Rusiyanın Avropa hissəsini Qərbi Sibir və Mərkəzi Asiya ilə birləşdirən iri tranzit mərkəzinə çevrildi.

30-40-cı illərdə Başqırdıstanın sənaye sahələrində bir qədər tərəqqiyə doğru irəliləyiş nəzərə çarpır, Ufa, Buquruslan, Orenburq, Çelyabinsk, Buzuluq kimi şəhərlər inkişaf edirdi. 1876-cı ildə Samara-Orenburq dəmiryolu xətti istifadəyə verildi. 1885-ci ildə Samara-Zlatoustovsk dəmir yolunun tikintisinə başlandı. 1888-ci ildə o, Ufaya qədər, 1890-cı ildə Zlatoustovska və 1892-ci ildə Çelyabinskə qədər uzadıldı. Kommunikasiya şəbəkəsinin genişlənməsi şübhəsiz ki, Başqırdıstan iqtisadiyyatını Ümumrusiya bazarı və imperiyanın ayrı-ayrı regionları ilə sıx bağlayırdı.

Başqırdıstan sənayesinin başlıca sahələri dağ-mədən, meşə və kənd təsərrüfatı maşınlarının istehsalı olub, eləcə də fabrik və zavodları var idi. Orenburq quberniyasında onların sayı 182, Ufa quberniyasında isə 128 idi.

Çuvaşiyada bu dövrdə kənd təsərrüfatı istehsalı üzrə onlarla manufaktura işləyirdi. 40-cı illərdə manufakturalarla yanaşı kərpic, şüşə, misəritmə zavodları və mahud-xalça istehsalı üzrə fabriklər fəaliyyət göstərirdi. Volqa gəmiçiliyi Çuvaşiyanın iqtisadiyyatını Ümumrusiya bazarı ilə bağlayırdı.

XIX əsrin ikinci yarısında çuvaş əhalisinin 86 faizi kənd yerlərində yaşayırdı. Kənd burjuaziyası və muzdlu fəhlələr təşəkkül tapırdı. İslahatdan sonrakı dövrdə torpağın alınıb-satılması ilə əsasən mülkədarlar və varlı kəndlilər-qolçomaqlar məşğul olurdular. Aztorpaqlı kəndlilər torpağı icarəyə götürmək məcburiyyətində qalırdılar. Nəticədə onlar və torpaqsız kəndlilər yoxsulluq içində yaşayırdılar. Qolçomaqlar öz növbəsində onların hesabına varlanaraq kapitalistə çevrilirdilər.

Çuvaş kəndliləri əkinçiliklə yanaşı bağçaçılıq, bostançılıq, tütünçülüklə də məşğul olurdular. Bəzi kəndlilər isə «kustar sənaye» ilə məşğul olurdular. 1894-1895-ci illərdə Tsivilsk qəzasında 3170 nəfərin ticarət-sənaye müəssisəsi var idi.

1897-1898-ci illərdə Çuvaşiyada 12 min fəhləsi olan 3878 müəssisə fəaliyyət göstərirdi. Alatır, Çeboksarı, Tsivilsk və Yadrin kimi şəhərlər inkişaf edirdi. Bununla əlaqədar şəhər əhalisi də artırdı.

Hələ XIX əsrin başlanğıcında I Aleksandr Sibirin idarəsini mərkəzləşdirmək məqsədilə bir sıra addımlar atmışdı. 1801-ci ildə general Selifontov inzibati bölgü keçirmək üçün Sibirə ezam olundu. 1803-cü ildə mərkəzi İrkutsk olan Sibir general-qubernatorluğu yaradıldı. General Selifontov general-qubernator təyin olundu. Xüsusi fərman ilə ona Sibiri iri qəzalara bölmək tapşırıldı. Bu qəzalarda komissarlıqlar yaradıldı.

Yakutiyada da inzibati yenidənqurma həyata keçirildi. Əvvəllər İrkutsk quberniyasının tərkibinə daxil olan Yakut mahalı 1805-ci ildə Yakutiya vilayətinə çevrildi. Bu vilayətin yeganə şəhəri Yakutsk idi. Polis, məhkəmə və dövlət müəssisələri də elə orada yerləşirdi. Vilayəti rəis idarə edirdi.

1822-ci ildə Rusiya imperiyasında Sibirin inzibati idarəsi üzrə M.M.Speranskinin islahatları həyata keçirilməyə başlandı. Burada müvafiq olaraq mərkəzi Tobolsk və İrkutskda yerləşən Qərbi və Şərqi Sibir general-qubernatorluqları yaradıldı. Qərbi Sibir general-qubernatorluğunun tərkibinə Tobolsk quberniyası və Omsk vilayəti, Şərqi Sibir general-qubernatorluğuna isə İrkutsk və Yenisey quberniyaları, Yakutiya vilayəti və xüsusi idarə sistemi olan Oxotsk, Kamçatsk-Primorsk və Troitsk-Savsk daxil edildi. Quberniyalar mahallara bölünürdü.

Daha xırda inzibati vahidi-kəndləri olan qəzalar mahalların tərkibinə daxil idi.

Yakutiyada təhkimçilik olmasa da əhali ağır zülmə qatlaşmalı olurdu. Sibir kəndliləri öz fəlakətli vəziyyətləri barədə hakimiyyət orqanlarına kollektiv müraciət göndərirdilər. Onların özbaşına köç etməsi hökumətin narazılığını doğurdu. 1882-ci ildə Yakutiyada Vasili Mançarın rəhbərliyi altında üsyan başlandı. Ancaq üsyan mütəşəkkil xarakter daşımadığından heç bir nəticə vermədi.

Sibirdə daha geniş yayılan sənaye istehsalı sahəsi dağ-mədən sənayesi idi. 1840-1841-ci illərdə Lena çayından qızıl çıxarılmasına başlandı.

XIX əsrin ortalarında Dağlıq Altayda çuğun, polad, dəmir, qızıl, gümüş əridilməsi əhəmiyyətli dərəcədə artdı. Metallurgiya fəhlələrinin sayına görə Dağlıq Altay Uraldan sonra ikinci yeri tuturdu. Rusiya Altay vasitəsilə Mərkəzi Asiya, Monqolustan və Çinlə ticarət edirdi.

1861-ci ildə Rusiya imperiyasında həyata keçirilən kəndli islahatı ucqarlara çox gec çatdı. Krımda təhkimlilər az idi, Başqırdıstanda kəndlilərin mülkədarlardan asılılığı zəif idi, Çuvaşiyada isə mülkədar kəndlilərinin torpaq sahələri azalırdı. Aqrar islahat Sibirin türk kəndlilərinə aid edilmədi, burada zemstvolar tətbiq olunmadı: onların yaradılması Sibirdə 1912-1913-cü illərə qədər uzadıldı. Məhkəmə islahatına görə hakimlər mərkəzi quberniyalardan fərqli olaraq təyin olunurdular. Halbuki mərkəzdə məhkəmənin üzvləri seçilirdilər. Şəhər əsasnaməsində də bəzi məhdudiyyətlər var idi. Tatarlar, başqırdlar və b. idarə orqanlarında zəif təmsil olunurdular. Təhkimçilik hüququnun ləğvindən sonra kənddə kapitalizmin inkişafı sürətləndi. Bu isə öz növbəsində əmtəə-pul münasibətlərinin inkişafına və sosial təbəqələşməyə səbəb oldu.



# VII FƏSİL
# TÜRK DÜNYASI BİRİNCİ DÜNYA MÜHARİBƏSİ ƏRƏFƏSİ VƏ DÖVRÜNDƏ

## § 1. Gənc türklər inqilabı və Balkan müharibələri

XX əsrin əvvəllərində Osmanlı imperatorluğunun iqtisadi vəziyyəti xeyli pisləşdi. Türk bazarlarında Avropa tacirləri sahiblik edirdilər, yerli mallar rəqabətə davam gətirə bilmirdilər. Xaricə Osmanlı imperatorluğundan pul vəsaitinin böyük axını başladı. Ölkə iri Avropa dövlətlərinin nüfuz dairəsinə daxil idi. Onlar öz kapitallarını daha çox gəlir gətirən sahələrə qoyurdular. Dəmir yol tikintisi ən çox gəlirli sahələrdən biri olub xarici investorlar arasında populyar idi. 1903-cü ildə Almaniya ilə Berlin-Bağdad dəmir yolu xəttinin çəkilməsi barədə müqavilə imzalandı. Almaniyanın planlarına Osmanlı imperatorluğunun ərazisini, Yaxın Şərqdə ən başlıca rəqibi olan İngiltərəyə zərbə endirmək üçün hərbi əməliyyat meydanına çevirmək daxil idi. Alman kapitalistləri Osmanlı imperatorluğunda şirkətlər, banklar açır, türk ordusunda və donanmasında hərbi təlimlər keçirirdilər.

Bütün bunlar Şərq məsələsində İngiltərə ilə Rusiyanı bir-birinə yaxınlaşdırırdı. 1903-cü il alman-türk sazişindən sonra bu birləşmə xüsusilə sürətləndi. Onların görüşü 9-10 iyun 1908-ci ildə Reveldə baş tutdu. Görüş zamanı Osmanlı imperatorluğunun bölüşdürülməsi məsələsi müzakirə olundu. Bu sazişə görə Makedoniya Osmanlı imperatorluğunun tabeliyindən çıxmalı və İngiltərə ilə Rusiyanın himayəsi altında müstəqil dövlət olmalı idi, şərq regionları Rusiya imperiyasının, bütün ərəb ölkələri isə Böyük Britaniyanın sərəncamına keçirdi.

XX əsrin başlangıcı Osmanlı imperatorluğu üçün bir də ona görə ağır dövr idi ki, sultan II Əbdülhəmid ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi naminə heç bir iş görmürdü. Ölkənin vətənpərvər və mütərəqqi xadimləri sultan ha-

kimiyyətini kəskin tənqid atəşinə tutur, kəndli, sənətkar, əsgər və matrosların həyəcanı ölkəni bürüyürdü.

1904 və 1907-ci illərdə «İttihad və tərəqqi» cəmiyyəti Parisdə konqres çağıraraq Osmanlı imperatorluğunun daxili vəziyyətini müzakirə etdi. Burada silahlı üsyan yolu ilə sultan II Əbdülhəmidin devrilməsi və 1876-cı il Konstitusiyasının bərpasının zəruriliyi barədə qərar qəbul edildi.

Gənc türklərin üsyanı Makedoniya komitəsinin təşəbbüsü ilə başlandı. Resna şəhərinin komendantı leytenant Niyazi bəy 1908-ci il iyulun 3-də öz dəstəsi ilə dağlara çəkildi, iyulun 6-da isə Ənvər bəyin komandanlığı altında olan dəstə də onlara qoşuldu. Qiyamı yatırmaq üçün bura Ədirnədən hərbi hissələr göndərildi. Hökumətin bu üsyanı boğmaq cəhdləri nəticəsiz qaldı. Belə ki, əhali və ordu hissələri üsyançıları dəstəkləyirdilər. 23 iyul 1908-ci ildə «İttihad və tərəqqi» təşkilatının Mərkəzi Komitəsi Monastr şəhərində 1876-cı il Konstitusiyasının bərpa olunduğunu elan etdi və sultan II Əbdülhəmidə ultimatum təqdim etdi. Yaranmış vəziyyətlə əlaqədar olaraq sultan Konstitusiyanın bərpası və Məclisə seçkilərin keçirilməsi haqqında fərman imzalamağa məcbur oldu. Osmanlı imperatorluğu konstitusiyalı monarxiya elan olundu. II Əbdülhəmidin otuz iki illik diktator rejiminə son qoyuldu. Gənc türklər təşkilatın rəhbər nümayəndələrindən ibarət kabinet yaratdılar: 1908-1909-cu illərdə – Səid paşa, Kamil paşa, Süleyman paşa bura daxil idi.

2 noyabr 1908-ci ildə 230 deputatdan 150-si gənc türk olan Məclisin ilk iclası çağırıldı. Türk burjuaziyasının mənafeyini ifadə edən gənc türklər islahatların keçirilməsi üçün sayca üstünlüklərindən istifadə edə bilmədilər.

Böyük dövlətlər Osmanlı imperatorluğunda despotik rejimin bərpası və daxili ziddiyyətlərin kəskinləşməsində maraqlı idilər. Buna görə də ölkədə mövcud olan partiyalar xarici dövlət tərəfindən maliyyələşdirilirdilər: «Əhrar» partiyasını İngiltərə, «İttihadi müslimin»i isə sultan rejimini qaytarmaq istəyən mürtəce feodallar dəstəkləyirdilər.



Sultan II Əbdülhəmid bu qüvvələrə və İstanbul qarnizonuna arxalanaraq əksinqilabi çevriliş etdi və yenidən hakimiyyətini özünə qaytardı. İnqilabçılara qarşı amansız caza tədbirlərinə başlandı, ölkə vətəndaş müharibəsi ərəfəsində idi.

23 aprel 1909-cu ildə gənc türklər Mahmud Şövkət paşanın komandanlığı ilə ordunu İstanbula yeritdilər. Sultan II Əbdülhəmid hakimiyyətdən kənarlaşdırıldı və aprelin 27-də V Mehmet Rəşad taxta oturduldu. Beləliklə gənc türklər hakimiyyətə gəldilər və onların rejimi 1918-ci ilə qədər davam etdi.

Gənc türklərin xarici siyasəti uğursuz olub, tezliklə İtaliya ilə müharibəyə gətirib çıxartdı. 1909-cu ildə Rusiya ilə İtaliya Rakkonikıdə Osmanlı imperatorluğuna qarşı yönəldilmiş saziş imzaladılar. Bu müqaviləyə görə İtaliya Rusiyanın Balkanlarda, Rusiya isə öz növbəsində İtaliyanın Trablisdə (Liviya) maraqlarını tanıyırdı.

24 sentyabr 1911-ci ildə İtaliya Osmanlı imperatorluğundan Trablisi tələb etdi və cavab gözləmədən sentyabrın 25-də ona müharibə elan etdi. Gənc zabitlər Ənvər paşa və Mustafa Kamal paşanın şücaətinə baxmayaraq türk qoşunu məğlub oldu. 18 oktyabr 1912-ci ildə Lozannada imzalanan barışığa görə (Uşi andlaşması) Kirenaika və Trablis Liviya adı altında İtaliyanın müstəmləkəsinə çevrildi. Bu müharibə Osmanlı imperatorluğuna ağır zərbə endirdi, beynəlxalq münasibətlər sistemində onun nüfuzu zəiflədi.

Tezliklə Makedoniyada və Frakiyada Bolqarıstan, Serbiya, Yunanıstan və Çernoqoriyanın fəal iştirak etdikləri antitürk çıxışlar başlandı. Onlar «Balkan ittifaqını» yaratdılar və 1912-ci ilin oktyabr ayında Osmanlı imperatorluğuna müharibə elan etdilər. 1912-1913-cü illəri əhatə edən birinci Balkan müharibəsi belə başlandı. Müharibəyə hazır olmayan türk qoşunu Frakiyanı tərk edib Çatalcaya çəkilməyə məcbur oldu. Müttəfiqlər hücuma keçdilər: serblər – Kimovada, yunanlar isə Salonikdə qələbə əldə etdilər.

Avropa dövlətləri 3 may 1913-cü ildə Londonda Sülh müqaviləsinin imzalanmasına nail oldular. Müqavilənin şərtlərinə

görə Osmanlı imperatorluğu Balkanlardan və Egey dənizi sahilindəki torpaqlardan imtina etməyə məcbur oldu. Albaniya müstəqil knyazlıq elan olundu.

Avstriya-Macarıstan və Almaniya tərəfindən təşviq edilən Bolqarıstan Serbiya və Yunanıstana qarşı hərbi əməliyyatlara başladı. Çernoqoriya və Rumıniya sonuncuların köməyinə gəldi. Osmanlı imperatorluğu da Bolqarıstana qarşı çıxış etdi. İkinci Balkan müharibəsi 1913-cü il iyunun 30-dan avqustun 10-na qədər davam etdi və Bolqarıstanın məğlubiyyəti ilə başa çatdı. Bu müharibə zamanı gənc türklər əlverişli şəraitdən istifadə edərək Ədirnəni və Qərbi Frakiyanı geri qaytarmağa müvəffəq oldular. Buna baxmayaraq, Ottoman dövləti [10] Avropadakı torpaqlarının bir hissəsini itirdi.

Balkan müharibələri ilə əlaqədar olaraq ölkə daxilində ziddiyyətlər kəskinləşdi. 23 yanvar 1913-cü ildə «İttihad və tərəqqi» partiyasının tərəfdarları saraya hücum edərək hərbi nazir Nazim paşanı öldürdülər. İyunun 11-də vəzir Mahmud Şövkət paşa da öldürüldü.

1914-cü ilin başlanğıcında Osmanlı imperatorluğunda Triumviratın diktaturası quruldu: Ənvər paşa (hərbi nazir və hərbi qərargahın başçısı), Tələt paşa («İttihad və tərəqqi» partiyasının MK-nın sədri, daxili işlər naziri) və Camal paşa (İstanbulun başçısı, hərbi işlər üzrə nazir). Gənc türklər ölkənin dövlət quruculuğunda mühüm rol oynayan bir sıra islahatlar həyata keçirtdilər. 1914-cü ildə güzəştli müqavilələr rejiminə son qoyuldu. Bu isə iqtisadiyyat sahəsində əhəmiyyətli addım oldu. Qadın və ailə hüquqları üzrə keçirilən islahatlar da mütərəqqi əhəmiyyətə malik idi. 1914-cü ildə İstanbulda ilk qadın universiteti «İnas» açıldı. Yeni ordunu formalaşdırmaq məqsədilə ölkə rəhbərliyi Almaniyadan hərbi müşavirlər dəvət edirdi. Tələt paşa və Ənvər paşanın təşəbbüsü ilə 1913-cü ildə hərbi islahatlar keçirmək məqsədilə Osmanlı imperatorluğuna 42 alman zabiti dəvət olunmuşdu.



## §2. Osmanlı imperatorluğu Birinci dünya müharibəsi dövründə

Beynəlxalq aləmdə təcrid olunacağından ehtiyat edən Osmanlı imperatorluğu Almaniya ilə birləşmək qərarına gəldi. 1914-cü il iyulun sonlarında Osmanlı imperatorluğuna alman gəmilərinin gəlməsi hakim dairələrdə almanpərəst qrupun mövqeyini möhkəmlətdi. 20 oktyabr 1914-cü ildə Osmanlı imperatorluğu Rusiyaya müharibə elan etdi. Oktyabrın 21-də ingilislər Dardanel boğazını bombardmana tutdular. Türklər müharibəyə hazır deyildilər.

Hələ müharibə ərəfəsində Rusiya «erməni məsələsini» ortalığa atmışdı. Erməni Daşnaksütyun partiyası «Millətlərin öz müqəddəratını təyin etmək hüququ» şüarını rəhbər tutaraq Antanta ölkələrinin köməkçisinə çevrildi. 1912-ci ilin yazında bütün ermənilərin katolikosu imperator II Nikolaya Osmanlı imperatorluğunda yaşayan erməniləri müdafiə etməsi xahişi ilə müraciət etdi. Rusiya hökuməti ermənilərə kömək edəcəyini vəd etdi.

Rus qoşunu Qafqaz cəbhəsində öz hərbi əməliyyatlarını genişləndirdikdə, Osmanlı imperatorluğunun təbəəsi olan ermənilər xəyanətə əl atdılar. Bu zaman Şərqi Anadoludakı ermənilər qiyam qaldırdılar. Osmanlı hökuməti ölkədəki separatçı fəaliyyətin qarşısını almaq üçün tədbirlər görmək məcburiyyətində qaldı. Erməni başkəsənləri kimsəyə aman vermir, dinc əhali qanlı qırğına məruz qalırdı. Buna görə də, osmanlı hökuməti quldurları ram edib, qayda-qanunu bərpa etmək məqsədilə 100 min qiyamçı ermənini Suriya və Livana köçürülməsi barədə qərar qəbul etdi. Ermənilərin müqaviməti kürdlərlə qanlı qırğına çevrildi. Bu, qanuni köçürmə prosesini ermənilər dünya ictimaiyyətinə guya, 24 aprel 1915-ci ildə türklərin ermənilərə qarşı törətdiyi «erməni soyqırımı» kimi təqdim edirlər.

1915-ci ilin əvvəllərində türk qoşunu Sarıqamış yaxınlığında ağır itkilər verdi. Bu əməliyyatda məğlubiyyətə uğradıqdan

sonra türk ordusu Dardanel boğazında müttəfiqlərin desantına qarşı toplandı. Gənc zabit Mustafa Kamal paşanın komandanlıq etdiyi türk ordu hissələri ölüncəyə qədər vuruşaraq ingilis desantçılarını geri oturtdular. Türkiyənin tarixinə Çanaqqalanın qəhrəman müdafiəsi kimi daxil olan bu hadisə zamanı yüz minlərlə insan şəhid olmuşdur. 1916-cı ildə isə türk ordusu İranda Britaniya korpusunu əsir almağa, eləcə də rusların şərqdə irəliləməsini dayandırmağa nail oldu.

1915-1916-cı illərin qışında rus qoşunu türk ordusunu məhv etmək məqsədilə Ərzurumda fəal hərbi əməliyyata başladı. Ruslar üçün bu əməliyyatın uğurla nəticələnməsində ermənilərin xəyanəti mühüm rol oynadı. İranın şimal hissəsi (Cənubi Azərbaycan) də ruslar tərəfindən işğal olundu. 1916-cı ilin yanvar ayında Körçü-Köy adlanan yerdə onlar türklərin müdafiəsini yardılar və fevralın 3-də hücumla Ərzurumu ələ keçirdilər.

Rusların müvəffəqiyyətlərindən sonra, müttəfiqlər Osmanlı imperatorluğunun bölüşdürülməsi məsələsini müzakirə etməyə başladılar. 13 aprel 1916-cı ildə Rusiya ilə Fransa arasında imzalanan sazişə İngiltərə də qoşuldu. Sazişin şərtlərinə görə İstanbul, boğazlar və Osmanlı imperatorluğunun 6 şərq bölgəsi Rusiyanın himayəsi altına keçir, sonuncu isə, öz növbəsində, İngiltərə ilə Fransanın qalan türk torpaqlarında ağalıq etmək hüququnu tanıyırdı.

1916-cı ilin yazında rus qoşunu və donanması Trabzonu tutdu, Qafqaz cəbhəsi Antantanın sağ cinahının təchizat bazasına çevrildi.

Elə həmin il Ərəbistanda Osmanlı hökmranlığına son qoyuldu: Antantanın dəstəklədiyi Məkkənin şərifi Hüseyn ibn Əli üsyan qaldırdı. Müharibə zamanı kapitulyasiya rejimi ləğv edildi və daxili ticarəti müdafiə etmək məqsədilə gömrük tarifləri artırıldı. 1918-ci ildə almanlar Gindenburq xəttinin müdafiəsi üçün geri çağırıldıqda Osmanlı imperatorluğu məğlub olmağa başladı.



30 oktyabr 1918-ci ildə Mudros (Mondros) sülh müqaviləsi imzalandı. Danışıqlarda Osmanlı hökumətini Rauf Hikmət paşa və Sədulla bəy, müttəfiqləri isə ingilis admiralı Konfi təmsil edirdi. Müqavilənin birinci maddəsi boğazların müttəfiqlərin üzünə açılmasını, 6-9-cu maddələr hərbi donanma, gəmiqayırma zavodu və bütün hərbi sürsatın müttəfiqlərin sərəncamına keçməsini nəzərdə tuturdu. Osmanlı hökuməti, 11-ci maddəyə əsasən qoşununu Cənubi Qafqazdan çıxarmağa borclu idi. 14-cü maddəyə görə Bakı və Batumi müttəfiq qoşunları tərəfindən işğal olunurdu. Beləliklə, Mudros sülhü Osmanlı imperatorluğunun dağılmasının başlanğıcı oldu.

### §3. Rusiya imperiyasının türk xalqları XX əsrin əvvəllərində

XX əsrin əvvəllərində Rusiya imperiyasının türk xalqlarının sosial-iqtisadi həyatında əhəmiyyətli dəyişikliklər baş verdi. 1906-cı ildə Orenburq-Daşkənd dəmir yolunun çəkilməsi Rusiyanın əmtəə dövriyyəsinin artmasında əhəmiyyətli rol oynadı. Çar hökumətinin rus kəndlilərinin türk xalqlarının ərazilərinə köçürülməsi haqqında 1904-cü il tarixli fərmanına görə, köçürülənlər 15 il ərzində bütün vergi və mükəlləfiyyətlərdən azad edilirdi. Onlara dövlət xəzinəsindən kredit verilirdi, türk kəndliləri isə dövlətin bu «səxavətini» böyük vergilər ödəməklə kompensasiya edirdilər. 1914-cü ildə Yeddi Suyun yerli əhalisinin 4,2 mln.desyatin torpaq sahəsi rus kəndlilərinə verildi.

Krımda ortababların sayı artdı, yoxsul təsərrüfatının xüsusi çəkisi isə kəskin surətdə azaldı. Taxılçılıq əvvəlki kimi təsərrüfatın aparıcı hissəsi olaraq qalırdı. Birinci dünya müharibəsi ərəfəsində Krımın kənd təsərrüfatı məhsullarının ixracından gələn gəliri 19 mln.manat təşkil edirdi. Sosial təbəqələşmə artırdı.

Tatarıstanda torpaq sahələri, əsasən mülkədarların və xəzinənin əlində toplanmışdı. Əhalinin 90%-ni təşkil edən kəndlilərin istifadəsində torpaqların 58,3%-i var idi. Başqırdıstanda

kapitalist münasibətlərinin inkişafı nəticəsində kənd təsərrüfatı burjuaziyası və kənd yoxsullarının sayı artdı, regionun cənubunda isə başqırdlar köçəri maldarlıqdan əkinçiliyə keçdilər.

1909-cu ildə Sintar bölgəsində (Yakutiya) torpaqların təxminən yarısı, əhalinin 7%-ni təşkil edən toyonlara məxsus idi. Torpağın böyük hissəsi yakut cəmiyyətinin varlılarının əlində toplanmışdı.

Bu dövrdə Mərkəzi Asiyanın iqtisadi və siyasi həyatında böyük dəyişikliklər baş verdi. Türküstan Rusiyanın xammal bazasına çevrildi. Pambığın daha münbit növlərinin əkilməsi bu sahədə məhsuldarlığın artmasına səbəb oldu. Başlıca pambıqçılıq rayonları Sırdərya, Zərəfşan, Fərqanə və Zakaspi vilayətləri idi. Daşkənd və Bayraməli rayonlarında iri pambıq plantasiyaları yaradıldı. Ancaq pambıq sahələrinin genişlənməsi nəticəsində taxıl əkini azaldı. Rusiyadan gətirilən taxıl isə əhalinin tələbatını ödəmirdi.

Maldarlıq da böyük əhəmiyyətə malik idi. Bütün gəlirin 90 faizini qoyunçuluq verirdi.

Türküstan sənayesində də müsbət dəyişikliklər nəzərə çarpırdı. XX əsrin başlanğıcında burada artıq 208 pambıqtəmizləmə və 37 şərab zavodu fəaliyyət göstərirdi. Daşkənd, Buxara, Səmərqənd və Xivənin iri ticarət şirkətləri bütün kənd təsərrüfatı məhsullarının və Rusiyadan və digər xarici ölkələrdən gətirilən sənaye mallarının alınması ilə məşğul olurdular. Bütün iri şəhərlərdə «Prodamed» (metal məmulatları ilə ticarət), «Nobel qardaşlarının şirkəti» (ağ neft və yanacaq – sürtkü materiallarının müxtəlif növlərinin istehsalı), «Treuqolnik» (rezin məmulatlarının hazırlanması) kimi kommersiya şirkətləri açıldı.

1914-cü ildə Krımda 148 sənaye müəssisəsi və kustar tipli müəssisələr var idi. 1903-cü ildə Kazan quberniyasında 152 sənaye müəssisəsi fəaliyyət göstərirdi. Əsasən yüngül və yeyinti sənayesi sahələri inkişaf edirdi. Bütün bunlara baxmayaraq, milli burjuaziyanın kapitalı sənaye istehsalında ikinci dərəcəli əhəmiyyət daşıyırdı.



Ufa quberniyasında 1901-ci ildə 626 xırda sənaye müəssisəsi kənd təsərrüfatı məhsulunu istehsal edirdi. Hərçənd kustar istehsal hələ də qalmaqda idi. Çuvaşiyanın iqtisadiyyatı Ümumrusiya bazarına birləşdirildi. «Frans-Miklis», «Pati və Ferdinand», «Şevalye», «Buve» aksioner cəmiyyətləri və digər müəssisələr xarici kapitala məxsus olub ağac emalı ilə məşğul olurdular. Birinci dünya müharibəsi ərəfəsində daxili və xarici bazarlarda 4 mln. manatlıq yakut xəzi satılmışdı.

XX əsrin əvvəllərində Rusiyanın türk xalqlarının sosial-iqtisadi vəziyyəti son dərəcə gərgin idi. 29 mln.türk Rusiyanın iqtisadi və milli zülmü altında inləyirdi.

Fəhlə və kəndlilərin fəlakətli vəziyyəti, çar hökumətinin türk-müsəlman əhaliyə qarşı ayrı-seçkilik siyasəti xalq kütlələrinin narazılığına və çıxışına səbəb oldu. 1900-cü ilin noyabr ayında Krasnovodskda yük daşıyanların tətili başlandı, dekabrın əvvəllərində isə dayandırıldı. Bununla belə, onlar sahibkarları bəzi güzəştlərə getməyə məcbur edə bildilər. 16 dekabr 1903-cü ildə depo fəhlələri, 1904-cü ilin dekabr ayında Spassk misəritmə zavodunun fəhlələri öz iş yerlərinə çıxmaqdan imtina etdilər.

Türküstan siyasi məhbusların sürgün yerinə çevrildi. 1902-1903-cü illərdə burada gizli sosial-demokrat dərnəkləri yaradıldı. 1903-cü ildə Çitadan Daşkəndə fəhlə sosial-demokrat R.S.Baranov gəldi. Qafqaz sosial-demokratlarının Bakı komitəsinin mətbəəsində çap olunan vərəqələr yayılırdı.

Siyasi təbliğat həmçinin kəndli və əsgərlər arasında da aparıldı. Daşkənd sosial-demokratları və RSDFP-nin Sibir İttifaqı öz təbliğatlarında əsas yeri demokratik azadlıqlara ayırırdılar. Türküstan fəhlələrinin ilk siyasi çıxışı 1 may 1904-cü ildə baş verdi. Sosial-demokratların mətbuat orqanı «Səmərqənd» və «Rus Türküstanı» qəzetləri idi.

Qanlı bazar günü hadisələri (9 yanvar 1905-ci il) ucqarlarda mitinq və nümayişlərə səbəb oldu. 1905-ci ilin fevral ayında Çuvaşiyanı tətil dalğası bürüdü. 1905-ci ilin oktyabr ayında Yakutiyada ilk böyük çıxış oldu. 4 yanvar 1906-cı ildə yaradı-

lan «Yakut fəhlələrinin ittifaqı» onların vətəndaşlıq hüquqlarını müdafiə edirdi.

12 yanvar 1905-ci ildə Türküstan fəhlələri ilk dəfə kütləvi çıxışa başladılar. Yanvarın 19-da isə Səmərqənddə Demurovun mətbəəsinin fəhlələrinin çıxışı ilk dəfə qələbə ilə nəticələndi. 1905-ci ilin oktyabr ayında Orenburq-Daşkənd dəmir yol şəbəkəsinin fəhlələrinin tətili başlandı. Semipalatinsk, Turqay, Ural və Sırdərya vilayətlərini kəndli çıxışları bürüdü.

Bu dövrdə Başqırdıstanda, Sibir və Krımda da sosial-demokrat dərnəkləri və təşkilatları yaradıldı. 7 oktyabr 1905-ci ildə Moskva-Kazan dəmir yolu fəhlələrinin Ümumrusiya tətilinə Tatarıstan fəhlələri də qoşuldular. Tətil dalğası Başqırdıstanı da bürüdü.

14 iyun 1905-ci ildə Krımda «Potyomkin» hərbi kreyserində üsyandan sonra Simferopol, Kerç və Feodosiyada tətillər gücləndi.

İnqilabi hadisələrin inkişafından qorxan II Nikolay, bəzi azadlıqlar barədə Manifest nəşr etdirməklə güzəştə getməyə məcbur oldu. Manifestdə xalqa söz, mətbuat, yığıncaq, vicdan azadlığı verilməsi, eləcə də çarın yanında məşvərətçi orqan olan Dövlət dumasının çağırılması vəd edilirdi.

17 oktyabr 1905-ci il tarixli Manifest türk xalqlarının siyasi həyatında mühüm rol oynadı. İnqilabi ideyalar milli özünüdərkin oyanmasına təkan verdi. «Ümumrusiya müsəlmanlarının ittifaqı»nın yaradılması, Rusiya imperiyasının müsəlman - türk əhalisinin ictimai-siyasi hərəkatının təşkilatlanmasında mühüm rol oynadı. 8 aprel 1905-ci ildə « İttifaqi müslümin»in görkəmli nümayəndələri Peterburqda «Ülfət» qəzetinin redaktoru Əbdürrəşid İbrahimovun mənzilində toplandılar. Onların içərisində Azərbaycan nümayəndələri F.Vəzirov, Ə.Topçubaşov, Ə.Hüseynzadə, Ə.Ağayev, eləcə də tatar A.Məqsudi, İ.Qasprinski və A.Axtyamov da var idi. Yığıncaqda «İttifaqi müslümin» adlı siyasi partiyanın yaradılması haqqında qərar qəbul edildi.



Partiyanın təsis qurultayı 15 avqust 1905-ci ildə Nijni Novqorodda yarmarka zamanı çağırıldı. Qafqaz, Krım, Kazan, Ural, Türküstan və Sibirin türk xalqlarının 120-150 nümayəndəsi burada iştirak edirdi. Qurultayın sədri İsmayıl bəy Qasprinski, onun müavinləri isə Ə.İbrahimov, Ə.Topçubaşov, A.Axtyamov idi. Qurultayda proqram və nizamnaməsi Ə.Ə.Topçubaşov tərəfindən yazılan «İttifaqi müslümin» təşkilatının yaradılması qərara alındı. Birinci qurultay «Qustav Struve» gəmisində gəzinti zamanı qeyri-leqal şəkildə keçirildi. İkinci qurultay Peterburqda 1906-cı il yanvarın 13-dən 23-ə qədər, üçüncüsü isə Nijni Novqorodda 1906-cı il avqustun 16-dan 21-ə qədər davam etdi. 800 deputatın iştirak etdiyi üçüncü qurultay Rus imperiyasının müsəlman əhalisi üçün xüsusi əhəmiyyətə malik idi. Onun sədri Ə.Topçubaşov, katibi isə Y.Akçurin olmuşlar. Elə o zaman hər biri 15 nəfərdən ibarət olan iki komissiya: biri - təhsil məsələlərinin həlli üzrə, digəri – dini məsələlər üzrə – yaradıldı, «İttifaqi müslümin» siyasi partiya elan olundu, Nizamnamə və 15 maddə, 10 bölmədən ibarət Proqram qəbul edildi.

11 dekabr 1905-ci ildə çar Rusiyanın birinci Dövlət dumasına seçkilər haqqında fərman verdi. 350 il ərzində ilk dəfə müsəlmanlar Rusiyanın qanunvericiilk orqanında iştirak etmək imkanı əldə etdilər.

Türküstan diyarında Dövlət dumasına seçkilərlə əlaqədar xüsusi vəziyyət tətbiq olundu. Əvvəlcə Fövqəladə Şura, aşağı inkişaf səviyyəsini nəzərə alaraq Mərkəzi Asiyanı ümumiyyətlə seçkilərdə iştirak etmək hüququndan məhrum etməyi qərara aldı. Buna baxmayaraq Türküstanda Dövlət dumasına seçkilər keçirildi. Yeddi Su, Səmərqənd, Zakaspi, Sırdərya və Fərqanə vilayətlərinə ayrılan 13 deputat yerindən 6-sı ruslara, 6-sı yerlilərə, 1-i Yeddi Su kazaklarına nəzərdə tutulmuşdu. Akmolinsk, Semipalatinsk, Ural və Turqay vilayətlərinin nümayəndələrinin 10 deputat yerindən 4-ü qazaxlara və qırğızlara, 2-si kazaklara, 4-ü ruslara aid idi.

Beləliklə, Rusiyanın Dövlət dumasına Qırğızıstanın Turqay vilayətindən A.Beremcanov, Ural vilayətindən A.Kalmenov, Qazaxıstanın Akmolinsk vilayətindən K.Bukeyxanov, Semipalatinskdən qazax B.Kulmanov deputat seçildilər. Onlar Ə.Topçubaşovun başçılıq etdiyi Müsəlman fraksiyasına daxil idilər. 21 avqust 1906-cı ildə Müsəlman fraksiyasının 27 nümayəndəsindən ibarət (onların cəmi 36 nəfər idi) «Büro» yaradıldı. Bura Zaqafqaziyadan 5 azərbaycanlı deputat, Kazan quberniyasından 10 nəfər daxil oldu. Qalan deputatlar Ufa, Orenburq və Krımın nümayəndələri idi. Sibirdə və Yakutiyada Dövlət dumasına seçkilər keçirilmədi. İyunun 24-də fraksiya vəqf torpaqlarının toxunulmazlığının tanınmasının zəruriliyi, eləcə də dövlət və monastır torpaqları hesabına torpaq paylarının genişləndirilməsi və Zaqafqaziyaya rus kəndlilərinin köçürülməsinin dayandırılmasını və s. özündə birləşdirən aqrar proqramı müzakirə etdi.

Aprelin 24-də açılan birinci Dövlət duması 9 iyul 1906-cı ildə çarın fərmanı ilə buraxıldı. Rusiyanın türk xalqları da imperiyanın qalan əhalisi kimi öz kəskin narazılığını bildirdilər. Çarın özbaşınalığına qarşı etirazı ifadə edən sənədi – «Vıborq müraciətnaməsi»nı imzalayan 200 nəfərin arasında türk deputatlarından Ə.Topçubaşov, İ.Ziyadxanov və b. var idi. Beləliklə, türk-müsəlman ucqarların böyük ümid bəslədiyi birinci Dövlət dumasının fəaliyyəti heç bir nəticə vermədən başa çatdı.

Mümkün olacaq xalq çıxışlarından ehtiyat edən çar, Rusiyanın ikinci Dövlət dumasına seçkilər haqqında fərman verdi. Tezliklə yeni seçkilər başlandı. Mərkəzi Asiyadan ikinci Dövlət dumasına milli burjuaziya və mülkədarların nümayəndələrindən Əbdül Vahid Kari, Rauf Kariyev, Daş Polad Əbdülhəmidov, Tleuli Alabergenov, Tavriya quberniyasından Rəşid Mədiyev, Ufa quberniyasından Kəlimulla Həsənov, Azərbaycandan Fətəli xan Xoyski, Xəlil Xasməmmədov, İsmayıl Tağıyev, Məhəmməd Ağa Şahtaxtinski, Mustafa Mahmudov və Zeynal Zeynalov seçildilər. Ural vilayətinin qazax əhalisinin nümayəndəsi Vahidcan Katoyev öz çıxışlarında çarizmin köçürmə siyasətini kəskin tənqid edirdi. Y.N.Maqsudovun Dumanın Rəyasət Heyətinin katibinin köməkçisi seçilməsi bütün türk-müsəlman deputatlarının xidməti idi. Onlar kadet fraksiyasının iclasında Rusiyanın müsəlman ucqarlarından olan deputatların nümayəndəsinin katibin köməkçilərindən biri seçilməsinə nail oldular.



Parlamentin Müsəlman fraksiyası 11 bölmədən ibarət olan proqramını tərtib edib ayrıca broşyura şəklində nəşr etdirdi. Proqramda vətəndaş hüququ müəyyənləşdirilir, dövlət və dini quruluş, yerli özünüidarə, məhkəmə, xalq maarifi, maliyyə və dövlət iqtisadiyyatı, kəndli və fəhlə məsələsi üzrə əsasnamələr, fraksiyanın başlıca siyasi məqsəd və vəzifələri öz əksini tapmışdı.

Ancaq 1907-ci ilin martında parlamentin Müsəlman fraksiyasında parçalanma baş verdi. Onun altı üzvü: K.Həsənov, Z.Zeynalov, Y.Maqsudov və digər aqrar məsələnin müzakirəsinin uzadılmasından narazı qalanlar parlamentin Müsəlman fraksiyasının tərkibindən çıxıb «Müsəlman əməkçi fraksiyası»nı yaratdılar. Martın 11-də isə Z.Zeynalovun başçılıq etdiyi Müsəlman əməkçi fraksiyasının Dumanın əməkçi qrupuna birləşdiyi bildirildi. 1907-ci ilin aprel-may aylarında Z.Zeynalov və K.Həsənov Peterburqda «Duma» qəzetini nəşr etdirdilər.

İkinci Duma da birinci kimi qarşıya qoyduğu heç bir məsələni həll etmədən qovuldu. 3 iyun 1907-ci ildə Dumanın buraxılması barədə çar Manifesti dərc olundu. İkinci Duma qovulan kimi qəzetlərdə üçüncü Dövlət dumasına seçkilər haqqında qanun peyda oldu.

Müsəlman fraksiyası, əgər I və II Dumalarda kadetlərlə bir blokda çıxış edirdisə, III-IV Dumalarda tərəqqipərvərlərlə bir idi.

Üçüncü Dövlət dumasına seçkilər haqqında qanun Mərkəzi Asiya xalqlarını seçki hüququndan məhrum etdi. Azərbaycanın üçüncü Dumadakı yeganə təmsilçisi X.Xasməmmədov idi. Dördüncü Dövlət dumasında cəmi 7 türk deputat var idi. Azərbaycandan yalnız M.Y.Cəfərov, Ufa quberniyasından isə A.Axtyamov nümayəndə seçilmişdi.

Stolıpinin aqrar islahatının əsasını rus kəndlilərinin mərkəzi quberniyalardan ucqarlara köçürülməsi təşkil edirdi. Bu islahata görə 8 mindən çox rus kəndlisi Mərkəzi Asiyaya köçürüldü, lakin o, uğursuzluqla nəticələndi. Bununla yanaşı, bu islahat regionda kapitalist münasibətlərinin inkişafına səbəb oldu.

Birinci dünya müharibəsinin başlanması Mərkəzi Asiya kəndlilərinin vəziyyətini ağırlaşdırdı. Rus hökumətinin gördüyü tədbirlər heç bir nəticə vermədi. 1916-cı ilin aprel ayında Fərqanə dəmir yolu, sement və pambıqtəmizləmə zavodları istismara verildi.

Hərbi şəraitə uyğun olaraq kəndlilərin pambıq əkməyə məcbur edilməsi xalq kütlələrinin kəskin narazılığına səbəb oldu. 1916-cı ilin payızından başlayaraq kənd təsərrüfatının bütün sahələrində tənəzzül nəzərə çarpırdı.

1917-ci ildə sənaye və kənd təsərrüfatı dərin böhran keçirirdi. Çələkən adasında (müasir Türkmənistan) neft emalı 10 dəfə azaldı, duz və daş kömür çıxarılması dayandırıldı, xalça istehsalı aşağı düşdü.

Tatarıstanın sənaye istehsalı cəbhə üçün işləyirdi. 1915-ci ildə yaradılmış Kazan Hərbi komitəsi Tatarıstanın sənayesinin hərbiləşdirilməsində mühüm rol oynadı. Ancaq ixtisaslı fəhlə kadrlarının çatışmaması, qadın və uşaq əməyindən istifadə olunması məhsulun keyfiyyətini korlayırdı.

Başqırdıstan sənayesi də hərbi sürsat istehsal edirdi. Kişilərin səfərbər olunması və atların müsadirəsi yüzlərlə ailəni işçi qüvvəsi və heyvandan məhrum etmişdi.

Krım müharibə illərində cəbhə zonası hesab olunurdu. Düşmənin hərbi gəmiləri yarımadanın yaşayış məntəqələrini artilleriya atəşinə tuturdular. Qida məhsullarının qiyməti artırdı. İşsizlik dəhşətli miqyas almışdı. 1916-cı ildə şəhərlərdə və fəhlə qəsəbələrində ilkin zəruri məhsullara kartoçka sistemi tətbiq olunmuşdu. Tibbi yardım və sosial təminat çox aşağı səviyyədə idi. Müharibənin bütün ağırlığı xalq kütlələrinin üzərinə yüklənmişdi.



Rusiya imperiyasının müsəlman əhalisi xüsusi vergi ödəməklə orduya çağırılmırdı. Ancaq 1916-cı ilin yayında müsəlman kəndlilərinin səngər tikmək üçün səfərbərlik keçirilməsi haqqında çar fərmanı verildi. Kişilərin sayının azalması nəticəsində kənddə məhsuldarlıq kəskin surətdə aşağı düşdü. Bununla əlaqədar olaraq əhali fərmana qarşı narazılığını bildirdi, lakin bu, heç bir nəticə vermədi. 1914-cü il iyulun 26-dan Türküstanda Fövqəladə vəziyyət elan olundu. Tezliklə o, Hərbi vəziyyətlə əvəz olundu və 1916-cı ilin iyul ayına qədər davam etdi.

Regionun sosial-iqtisadi problemləri artdı, istehlak mallarının çatışmazlığı kəskinləşdi, şəhərlərdə yoxsulluq çoxaldı. Kənd əhalisinin vergiləri dəfələrlə artdı. Hökumət vəziyyəti bir qədər düzəltmək üçün hərbi istiqrazlardan istifadə etmək təklifini irəli sürdü. Bu tədbirlər xalq kütlələrinin hiddətinə səbəb oldu və heç bir nəticə vermədi.

Birinci dünya müharibəsi xalqların narazılığını artırdı. İmperatorun 26 iyun 1916-cı il tarixli fərmanına görə, 250 min qazax, türkmən, uyğur və Mərkəzi Asiyanın türk əhalisinin digər nümayəndələri tikinti işlərini yerinə yetirmək üçün cəbhəyə çağırıldılar. 4 iyul 1916-cı ildə Türkmənistanda, Xoçənd şəhərində səfərbərliyə qarşı üsyan qalxdı. Daşkənd və Səmərqənd əhalisi də üsyançılara qoşuldu. Mərkəzi Asiyanı bürüyən üsyanlar antifeodal xarakter daşıyırdı. Belə ki, yerli əhalinin bəzi varlı nümayəndələri çar hökumətinin tərəfində çıxış edərək xalq hərəkatını boğmağa çalışırdılar. Milli burjuaziyanın çarizmin imperialist siyasətinə qarşı çıxan vətənpərvər qüvvələri Türküstanı rus işğalçılarından təmizləməyə çalışırdılar.

Özbəkistanda baş verən hadisələrin təsiri altında Səmərqənd vilayətinin Çizaq qəzasının xalq kütlələri 1916-cı ilin iyul ayının 13-dən 15-ə qədər üsyana qalxdılar. Çizaq qəzasının əhalisi çar idarə orqanlarının dəftərxana, ev və bağlarını dağıtdı. Yerli hakimiyyətin 9 nümayəndəsi öldürüldü. Boqdan, Sanzar, Çizak, Zaamin və Qaradaş qəzalarının iri yaşayış massivlərində yerli feodallar hakimiyyəti ələ keçirib Rusiyaya

«müqəddəs müharibə» elan etdilər. Tezliklə Boqdan kəndi üsyanını mərkəzinə çevrildi.

14 iyul 1916-cı ildə «nüfuzlu adamların» yığıncağında Əbdürrəhman Xoca Əbducabbarov Çevaçinin başçılığı ilə «müstəqil xanlıq» yaradıldı. Ancaq Çevaçi bütün xalqı müstəqillik uğrunda mübarizəyə qaldıra bilmədi. Bütün bu çıxışlar kortəbii xarakter daşıdığından məğlubiyyətə uğradılar.

1916-cı ilin avqust ayında Özbəkistanda yeni həyəcanlar başlandı. Sentyabr-oktyabr aylarında üsyanlar müasir Qazaxıstan, Qırğızıstan və Türkmənistanın ərazisini bürüdü.

Qazaxıstanın Turqay vilayətində Amangəldi İmanovun başçılığı ilə 50 min nəfərdən çox adamın iştirak etdiyi üsyan daha ciddi xarakter daşıyırdı. Üsyan 28 iyun 1916-cı ildə, qazaxların tikinti işləri üçün cəbhəyə çağırılması haqqında çar fərmanı alındıqdan sonra başlandı. Kustanay, Aktübinsk və Atbasar qəzalarının çağırış yaşına çatmış gəncləri də A.İmanova qoşuldular. 24 fevral 1917-ci ildə baş verən qanlı döyüşlərdən sonra üsyançılar səhraya geri çəkilməyə məcbur oldular. Bu, qazax xalqının ilk ciddi mütəşəkkil milli-azadlıq hərəkatı idi.

Beləliklə, birinci dünya müharibəsi bütün Rusiyada olduğu kimi Mərkəzi Asiya, Volqaboyu, Sibir və Krımın da iqtisadi vəziyyətini mürəkkəbləşdirdi. Rusiyanın türk-müsəlman əhalisinin narazılığını doğuran sosial-iqtisadi və siyasi problemlər kəskinləşdi. Bütün bunlar türk xalqlarının milli-azadlıq mübarizəsinə səbəb oldu.

### §4. XIX-XX əsrlərin qovuşuğunda türkçülük ideologiyasının təşəkkülü

Bu dövrdə türk xalqlarının arasında pantürkizm hərəkatı geniş yayılmışdı. Hərəkatın sosial-siyasi kökləri müəyyən xalqların milli oyanış prosesinin dərinləşməsi və millətlərin təşəkkülü ilə bağlı idi. Bir qrup alim pantürkizm hərəkatının Osmanlı imperatorluğunda, digər hissəsi – Rusiyada, bəziləri isə Avropada meydana gəldiyini hesab edir. Bu hərəkatın ən qabaqcıl xadimlərindən biri olan, «Türkçülüyün əsasları» kitabının müəllifi Ziya Göyalp bu barədə yazır: «Türkçülüyün ölkəmizdə ortaya çıxmasından öncə Avropada türklüklə bağlı iki axın-hərəkat özünü göstərdi. Bunlardan birincisi fransızca «Türkeri» deyilən «türksevərlik», digəri isə «Türkiyyət»dir («Türkologiya»). O, birinci axına türklər haqqında dostcasına sözlər yazan Lamartı, Ogüst Kont, Pyer Lafayet, Pyer Loti və başqalarını aid edirdi. İkinci axına isə Rusiya, Almaniya, Macarıstan, Danimarka, Fransa və İngiltərədə bir çox elm adamlarının əski türklərə, hunlara, monqollara dair apardıqları tarixi araşdırmalar daxil idi.

O zaman Avropanın ali məktəblərində təhsil alan türk gəncləri Con Stüart Mill, Herbert Spenser, Anri Berqson, Hobine, Emil Dürkheym, Nitsşe, Alfred Fülye, Şopenhauer və bir çoxlarının fəlsəfi və sosioloji nəzəriyyələri ilə tanış idilər. Beləliklə, pangermanizm doktrinası pantürkizm ideologiyasının formalaşmasına böyük təsir göstərmişdi. Bu hərəkatın ideoloqlarından biri Kazan tatarı Yusif Akçura yazırdı ki, milli şüur, millətçilik hissi Şərqdə deyil, məhz Qərbdə meydana gəlib. Avropalılar XV əsrdən başlayaraq XIX əsrin ortalarına qədər milliyyət mövzusunu araşdırıb millət anlayışını müəyyənləşdirmişlər.

M.Ə.Rəsulzadə «Panturanizm haqqında» məqaləsində Şərq millətçiliyini Avropa millətçiliyindən fərqləndirərək yazırdı: «Panturanizm Şərqdə milli hərəkatın növlərindən biri kimi Qərbdə mürtəce hesab olunub, çox vaxt şovinizm adlandırılan millətçilikdən bir qədər fərqlənir... Avropa millətçiliyi siyasi cəhətdən təcavüzkar ideologiya, Şərqdə millətçilik isə siyasi cəhətdən müdafiə xarakteri daşıyıb sosial-mütərəqqi hadisə idi».

XX əsrin əvvəllərində türkçülük ideologiyası siyasi sistem kimi ön plana keçdi. Ancaq türkçülük artıq çoxdan türk gəncləri arasında özünü büruzə verirdi. XIX əsrin ortalarında Vəfik paşa Ottoman dilinin lüğətini tərtib edərək bu dilin Türküstan dilləri ilə ümumi kökə malik olduğunu sübut etmişdir. Sonra milli əhval-ruhiyyə tarixi-fəlsəfi tədqiqatlar sahəsinə

keçdi. Milli üsyanların iştirakçısı kimi Osmanlı imperatorluğunda özünə sığınacaq tapan bəzi mühacirlər də milli ideyaları gətirirdilər. Polşalı mühacir Konstantin Bojetski sonradan müsəlman Cəlaləddin Mustafa paşa adını qəbul edərək bu cəhətdən qiymətli iz qoyub. O, «turan-ari» nəzəriyyəsini inkişaf etdirib. Bu nəzəriyyəyə görə Avropa və türk xalqları mahiyyət etibarı ilə eyni irqin nümayəndələridirlər və Qərb mədəniyyəti «turan-arilərin» əqli fəaliyyətinin məhsuludur.

Ümumiyyətlə türk ziyalılarının, qismən isə türk milli özünüdərkin müəyyənləşdirilməsinə Avropa, əsasən isə rus alim-şərqşünas-türkoloqlarının elmi-linqvistik kəşflərinin də təsiri az olmamışdır. Onlar qurulmuş ümumi baxışların əksinə olaraq, gənc türk nəslinin abidələri ilə qürur duyduğu qədim türk mədəniyyətinin mövcud olmasını sübut etmişlər.

Vamberinin Mərkəzi Asiyaya səyahəti, Leon Kaxonun türk irqinin tarixi barədə məşhur kitabı, Radlovun türk ləhcəsinin lüğəti və Bartoldun Türküstan tarixi üzrə elmi əsərləri türk ziyalılarına gəlib çatmışdı. Türkçülük özünüdərk ideyası, xüsusilə Rusiya imperiyasının müsəlmanları arasında yayılmışdı. Buna türk emissarları deyil, məhz rus cəmiyyətinin liberal hissəsinin «slavyanofil nümayişi» səbəb olmuşdu. Onlar mətbuat səhifələrində Balkanlara gedən şəfqət bacılarına: «Yaralı slavyan əsgəri varsa, türk əsgərinin yarasını sarımamağı» - məsləhət verməyi özlərinə rəva bilirdilər. Belə münasibət Rusiya imperiyasının türk əhalisinin xalq kütlələrində güclü milli ruhun yüksəlişinə səbəb oldu. Milli ruh qızıl ayparanın nəfinə ianə toplanmasında, türk tələbələrinin əks manifestasiyalarında və gənc adamların fəaliyyətdə olan türk ordusuna qoşulmasında ifadə olunurdu.

1911-ci ildə təsis olunan «Türk-yurdu» jurnalı milli türk ideyalarının populyar orqanı, türkçülüyün yayılması yolunda mühüm vəsilə oldu. Bu jurnalın nəşrində bütün türk tayfalarının görkəmli nümayəndələri fəal iştirak edirdilər. Onlar 1912-ci ildə «Türk-ocağı» cəmiyyətini yaratdılar. Cəmiyyət gənc nəslin qəlbində türkçülüyün «müqəddəs odunu» alovlandıran



yeni ideyanın gerçək yanar ocağına çevrildi. Milli türk şairi Mehmet Emin bəyin şeirlər toplusu o zaman böyük müvəffəqiyyətlə yayılırdı. Bundan əlavə, türkçülük məsələsi üzrə müxtəlif mövzuları araşdıran bir sıra belletrist əsərlər meydana gəldi. Yaqub Qədri, Orxan Seyfinin hekayələri, tanınmış türk yazıçısı Xalidə Edipin romanları «azad olunmuş Turan»ın ideal növünü və həyat tərzini göstərirdilər. Xalidə xanımın «Yeni Turan» adlı əsəri bu cəhətdən xarakterikdir.

Türkçülük ideologiyasının təbliği eyni zamanda Kazan, başqa sözlə Volqaboyu tatarları arasında da yayılırdı. Milli ideyanı tərənnüm edən şairlər, eləcə də Zəki Validi Toğan kimi tarixçilər meydana gəldilər. O, 1913-cü ildə «Ümumi türk tarixinə giriş» kitabını yazmışdır.

«Rusiyada panislamizmin və pantürkizmin oçerklərində» A.Arşaruni və X.Həbidulin yazırdılar ki, Rusiyada pantürkizm XIX əsrin 80-ci illərində «Tərcümanla» birlikdə meydana gəldi və Krım tatarları, Volqaboyu tatarları, Azərbaycan tatarları arasında inkişaf etdi, sonra isə Mərkəzi Asiyanın türk tayfalarına yayıldı. Pantürkizm ideyasının mahiyyəti ümumi ədəbi dil və mədəniyyətə nail olunması, milli dirçəliş uğrunda mübarizə üçün siyasi partiyaların yaradılmasından ibarətdir. Ancaq bu yolda iki mühüm manеə var idi: Bir tərəfdən çarizm, digər tərəfdən isə mürtəce ruhanilər. Buna görə də pantürkistlər yeni təlim metodu ilə məktəblər açmaqla müsəlman ruhaniliyinə ilk zərbəni endirdilər. Bəziləri İsmayıl bəy Qasprahnı cədidçilik hərəkatının təşəbbüsçüsü sayırlar. O, həqiqətən də Rus imperiyasının müsəlman-türk əhalisinin oyanışında mühüm rol oynayıb. Buna görə də İ.Qasprah «XIX əsrin böyük islahatçısı» və «türk dünyasını oyandıran» adam kimi tanınır.

İsmayıl bəy 1883-cü ilin aprel ayından «Tərcüman» qəzetini nəşr etdirməyə başladı. O, qəzetin köməyi ilə bütün türkləri vahid dil ətrafında birləşdirməyə çalışırdı. Həsən bəy Zərdabi kimi İsmayıl bəy də istəyirdi ki, bütün millətlər Avropa elmini ana dilində öyrənmək imkanı əldə etsinlər. «Tərcüman» qəzet Krımın hüdudlarından kənarda da, Ural, Türküstan, Azər

baycn, Şimali Qafqaz, hətta İran, Çin və Hindistanda da yayılırdı. İsmayıl bəy gənc yaşlarından rus millətçiliyinin panslavizm hərəkatı ilə tanış idi. O, çar polis rejiminin yaratdığı cəza tədbirləri şəraitini nəzərə alaraq türkçülüyü mədəniyyət sahəsi ilə məhdudlaşdırırdı. «Dildə, əməldə və fikirdə birlik!» onun başlıca tezisi idi. Bu tezis türk-tatar müsəlmanlarının birliyini nəzərdə tuturdu. Cədidçilik Volqaboyu tatarları arasında da yayıldı. Burada hərəkata Şəhabəddin Mərcani, Əbdülkayyum Nasiri, Hüseyn Feyizxani və b. rəhbərlik edirdilər. «Tərcüman» qəzetində türk dünyasının tanınmış ziyalılarından Yusif Akçura, Fuad Köprülü, Ziya Göyalp, Əhməd Muxtar paşa, Zakir və Şakir Rəmiyevlər, Əhməd Həmdi Məqsudi, F.Köçərli, Ə.Rəfibəyli, N.Nərimanov, Həsən Səbri Ayvazov, İbrahim Fəhmi və başqalarının məqalələri dərc olunurdu. Bu məqalələr türk xalqlarının zəngin tarixi və mədəniyyətinə, dilinə həsr edilmişdi. Məhz bu ideyaların təsiri altında Əbdürrəşid Mehdiyevin başçılığı ilə «Gənc tatarlar» hərəkatı başlandı. Onlar əvvəlcə «Uçqun» adlı broşyura, 1906-cı ildən isə «Vətən xadimi» qəzetini nəşr etməyə başladılar. Həmin il, Rusiyaya qarşı açıq düşmən mövqedə duran «Millət» qəzetinin nəşri başlandı. 1908-ci ildən bu qəzetin rəhbərliyinə Həsən Səbri Ayvazov keçdi.

Türkçülük ideologiyası türk xalqlarının milli-azadlıq hərəkatının yüksəlişində və müstəqil türk dövlətlərinin yaradılmasında mühüm rol oynadı.



# VIII FƏSİL
# TÜRKİYƏ CÜMHURİYYƏTİNİN YARANMASI VƏ SONRAKI İNKİŞAFI

## § 1. Mustafa Kamal paşanın başçılığı ilə milli-azadlıq hərəkatı və Türkiyə Cümhuriyyətinin elan olunması

Birinci dünya müharibəsi Osmanlı imperatorluğunun sosial-iqtisadi və siyasi həyatını tamamilə dağıtdı. Osmanlı dövlətinin əyalətlərinin əksəriyyətinin taleyi, hələ müharibə zamanı Antantanın gizli müqavilələrində müəyyən edilmişdi. Səltənət qeyri-türk əhalisinin çox olduğu vilayətlərin ayrılmasına razılıq vermişdi. İstanbul məsul zonaları olan qüvvələr tərəfindən işğal olundu. Rusiyaya İstanbul da daxil olmaqla Qara dəniz boğazları vəd edilmişdi, lakin Oktyabr inqilabı bu sazişin ləğvinə səbəb oldu. 1918-ci ildə V Mehmet vəfat etdi və taxta onun qardaşı VI Mehmet oturdu. O, İstanbulda hökuməti saxlasa da, əslində müttəfiqlərin işğalçı qüvvələrindən asılı vəziyyətə düşdü. Antanta qoşunlarının dislokasiya olunduğu yerdən və sultana tabe olan hakimiyyət orqanlarından uzaqda, ölkənin daxili rayonlarında problemlər artırdı. İmperiyanın geniş ucqarlarında dolaşan osmanlı ordusunun dəstələri silahı yerə qoymaqdan imtina edirdilər. Britaniya, fransız və italyan hərbi kontingentləri Osmanlı imperatorluğunun müxtəlif hissələrini tutdular. 1919-cu ilin may ayında Antanta donanmasının dəstəyi ilə yunan silahlı birləşmələri İzmirə girdilər və Qərbi Anadoluda yunanları müdafiə etmək adı altında Kiçik Asiyanın dərinliklərinə doğru irəliləməyə başladılar. Nəhayət, 10 avqust 1920-ci ildə Sevr sülh müqaviləsi imzalandı. Osmanlı imperatorluğunun elə bir əyaləti qalmadı ki, ora xarici nəzarətdən azad olsun. Qara dəniz boğazları və İstanbul üzərində nəzarət üçün beynəlxalq komissiya yaradıldı. 1920-ci ilin başlanğıcında milli əhval-ruhiyyənin yüksəlməsi nəticəsində baş verən həyəcanlardan və yanvar ayında Osmanlı deputatları məclisi müstəqillik və Mudros müqaviləsi ilə müəyyənləşdirilmiş sər-

hədlərin hüdudlarında ölkənin ərazi bütövlüyünü elan edən «Milli and» qəbul etdikdən sonra Britaniya qoşunu İstanbula girdi və Məclisi qovdu.

23 aprel 1920-ci ildə müharibə dövrünün ən uğurlu osmanlı hərbi rəisi Mustafa Kamal paşa Ankarada Böyük Millət Məclisini çağırdı. O, 19 may 1919-cu ildə (bu tarix türk inqilabının başlanğıcı kimi götürülür) İstanbuldan Anadoluya gələrək Türkiyənin yunan müdaxiləsindən və Antanta tərəfindən tam bölüşdürülməsindən xilası üçün qüvvələri öz ətrafında birləşdirdi.

1919-cu ilin iyul-avqust-sentyabr aylarında Balıkəsir, Ərzurum və Sivasda Anadolu və Rumeli vətəndaşlarının hüquqlarının müdafiəsi cəmiyyətlərinin konfransları keçirildi. Son iki konfransda rəhbər mərkəz – nümayəndələr komitəsi yaradıldı, sədri isə Mustafa Kamal paşa seçildi. O, dekabrın 27-də Komitə üzvləri ilə birlikdə Ankaraya gəldi.

Müttəfiqlər 22 iyun 1920-ci ildə milli-azadlıq hərəkatına qarşı yunan nizami ordusunu göndərdilər. Daşnak Ermənistanı Türkiyəyə müharibə elan edərək Qarsı və Sarıqamışı tutdu. Lakin 28 sentyabr 1920-ci ildə Sarıqamış altında döyüşdə Ankara hökumətinin qoşunu düşmənə sarsıdıcı zərbə endirdi və tutulmuş əraziləri azad etdi. Daşnak ordusu təslim olaraq, 2 dekabr 1920-ci ildə Gümrüdə Sülh müqaviləsini imzalamağa məcbur oldu. Ərdahan da Türkiyəyə qaytarıldı.

1920-ci ildən 1922-ci ilə qədər Mustafa Kamal paşa və onun tərəfdarları şərq, cənub və qərbdə düşmən ordularını darmadağın etdilər və Rusiya, Fransa və İtaliya ilə Sülh müqaviləsi imzaladılar. 1921-ci ilin yanvar və mart aylarında İsmət paşanın komandanlığı ilə İnönü kəndi yaxınlığında uğurlu döyüşlərin nəticəsində yunanların qərb cəbhəsində inadlı hücumu dayandırıldı. Birinci və ikinci İnönü döyüşləri Türkiyənin milli-azadlıq hərəkatında dönüş nöqtəsi oldu.

Ancaq ingilislərin təhriki ilə yunan qoşunu Sakarya istiqamətində yenidən hücuma keçdi. Avqustun 22-də türk qoşunu əkshücuma keçərək, sentyabrın 13-də Mustafa Kamal paşanın komandanlığı altında Sakarya döyüşündə parlaq qələbə çaldı. Bu qələbəyə görə TBMM-nin qərarı ilə ona «Qazi» titulu verildi.



13 oktyabr 1921-ci ildə Qarsda Qafqaz respublikaları ilə Türkiyə arasında, oktyabrın 20-də isə Ankarada fransızlarla müqavilələr imzalandı.

1922-ci il avqustun sonlarında yunan ordusu nizamsız halda İzmirə və sahil rayonlarına geri çəkildi. Bundan sonra Mustafa Kamal paşanın dəstələri Britaniya qoşununun yerləşdiyi Qara dəniz boğazlarına yönəldilər.

Artilleriya atəşi ilə 26 avqust 1922-ci ildə Böyük türk hücumu başlandı. Nəticədə sentybrın 9-da İzmir şəhəri azad edildi.

Böyük Britaniya parlamenti hərbi əməliyyatların başlanması təklifini rədd edəndən sonra ingilis baş naziri istefa verdi. Müharibə isə Mudanya türk limanında 11 oktyabr 1922-ci ildə Sülh imzalanması ilə dayandırıldı. Britaniya hökuməti sultana və Mustafa Kamal paşaya öz nümayəndələrini 21 noyabr 1922-ci ildə Lozannada (İsveçrə) açılacaq sülh konfransına göndərmələrini təklif etdi. Ancaq noyabrın 1-də Ankarada Böyük Millət Məclisi səltənəti ləğv etdi və son osmanlı monarxı noyabrın 17-də Britaniya hərbi gəmisində İstanbulu tərk etdi.

24 iyul 1923-cü ildə Türkiyənin tam müstəqilliyini tanıyan Lozanna müqaviləsi imzalandı. Kapitulyasiya rejimi, Mudros və Sevr müqavilələri ləğv edildi, Türkiyənin müstəqilliyi və yeni sərhədləri tanındı, ölkə üzərindən xarici nəzarət götürüldü. Türkiyə, eyni zamanda Qara dəniz boğazlarının hərbsizləşdirilməsi ilə razılaşdı. Mosul əyaləti özünün neft yataqları ilə İraqa keçdi. İstanbulda yaşayan yunanlar və Qərbi Frakiya türkləri istisna olmaqla, Yunanıstanla əhali mübadiləsinin həyata keçirilməsi nəzərdə tutulurdu. 6 oktyabr 1923-cü ildə Britaniya qoşunu İstanbulu tərk etdi. 29 oktyabr 1923-cü ildə Türkiyə Respublika elan edildi, onun ilk prezidenti isə Mustafa Kamal paşa (1923-1938) seçildi.

3 mart 1924-cü ildə xəlifəlik ləğv edildi. 1924-cü ilin aprel ayında Böyük Millət Məclisi Mustafa Kamal paşanın rəhbərliyi ilə Ankarada parlamentin yaradılmasını nəzərdə

tutan Konstitusiyanı qəbul etdi. Konstitusiyaya görə parlamentarilər ölkənin prezidentini seçir, o isə Böyük Millət Məclisinin razılığı ilə hökuməti formalaşdıracaq baş naziri təyin edirdi. Qadın hüququnda islahat aparılaraq, türk qadınına seçmək və seçilmək hüququ verildi. Söz, yığıncaq, mətbuat və yerdəyişmələr milli birlik naminə məhdudlaşdırıldı.

Ölkədə 5 istiqamətdə: siyasi, iqtisadi, sosial, mədəni və hüquqi – islahatlar keçirilməsinə başlanıldı. Bu islahatlar ölkəni demokratik inkişafa doğru apararaq, elan olunan respublikaçılıq, millətçilik, xalqçılıq, etatizm, dünyəvilik, inqilabilik, sülhsevərlik, türkçülük prinsiplərinə əsaslanırdı və tarixə «Atatürk inqilabları» adı ilə daxil olmuşdur.

20-ci illərdə şəriət məhkəmələri, vəqf nazirliyi və məktəbləri ləğv edildi. Din dövlətdən ayrıldı və Türkiyə dünyəvi ölkə oldu. Avropa nümunəsi üzrə yeni mülki və cinayət məcəllələri qəbul edildi. Kişi və qadının hüquqları bərabərləşdirildi. Geyimin avropalaşdırılmasına başlandı, çadra və fəs atıldı. Mustafa Kamal paşanın özü ilk olaraq panama (şlyapa) qoydu.

Latın qrafikasının tətbiqinə başlanıldı. «Türk Tarix Qurumu» və «Türk Dil Qurumu» yaradıldı. Dövlət etatizm siyasətini, yəni ölkənin iqtisadi, sosial və mədəni həyatında dövlətin rolunun gücləndirilməsini həyata keçirməyə başladı. Etatizm iki dövrə bölünür: birinci – 1923-1931-ci illər; ikinci – 1932-1939-cu illər. Birinci dövr ərzində dövlət sənaye və ticarətdə milli kapitalı himayə edərək onun fəaliyyəti üçün hər cür şərait yaradırdı.

Hər bir kəndli ailəsinə torpaq sahəsinin verilməsi və aşar vergisinin ləğvi öz bəhrəsini verdi. Əkin sahələri genişləndirildi, taxıl və texniki bitkilərin istehsalı artdı, heyvandarlıq inkişaf etdi.

İqtisadiyyatın planlı inkişafına əhəmiyyət verilirdi. 1933-cü ildə birinci, 1937-ci ildə ikinci beşillik plan həyata keçirildi.

20-ci illərdə Türkiyə hökuməti dünyanın bir çox ölkələri ilə diplomatik münasibətləri nizama saldı. 1932-ci ildə Türkiyə Millətlər Cəmiyyətinə qəbul olundu. 9 fevral 1934-cü ildə Türkiyə, Yunanıstan, Yuqoslaviya və Rumıniya arasında «Balkan sazişi» imzalandı. 1935-ci ildə İtaliyanın Həbəşistana hücumundan narahat olan İngiltərə Türkiyə ilə Centlmen sazişini bağladı.



20 iyul 1936-cı ildə Türkiyə hökuməti boğazlarla bağlı Lozanna konvensiyasına yenidən baxılmaq üçün Montredə beynəlxalq konfransın çağırılmasına nail oldu. Boğazlar faktiki olaraq Türkiyənin daxili suları kimi tanındı. Qara dənizə çıxışı olmayan ölkələrin hərbi gəmilərinə, istər müharibə, istərsə də dinc dövrdə boğazlardan keçmək qadağan olundu.

Türkiyə, İran, İraq və Əfqanıstan arasında 9 iyun 1937-ci ildə hücum etməmək haqqında Səədabad paktı imzalandı.

1934-cü ildə soyad islahatı keçirilərkən TBMM-in qərarı ilə Mustafa Kamal paşaya Atatürk (bütün türklərin atası) soyadı verildi. Mustafa Kamal Atatürk 10 noyabr 1938-ci ildə vəfat etdi. Ölkənin yeni prezidenti İsmət İnönü seçildi.

### § 2. Türkiyə İkinci dünya müharibəsi illərində və sonra

1 sentyabr 1939-cu ildə ikinci dünya müharibəsi başlayanda, Qərb dövlətləri Türkiyənin köməyilə SSRİ-ni faşist Almaniyası ilə toqquşdurmağa çalışırdılar. Buna görə də Türkiyə sovet hökumətinə qarşılıqlı yardım haqqında müqavilə imzalamağı təklif etdi. Ancaq SSRİ öz neytrallığını elan edərək ona rədd cavabı verdi. Bunun əvəzinə SSRİ, öz növbəsində, Türkiyəyə Qara dənizdə və Boğazlar rayonunda qarşılıqlı yardım barədə ikitərəfli saziş imzalamağı təklif etdi. Bu dəfə Türkiyə buna razı olmadı.

Türkiyə 19 oktyabr 1939-cu ildə İngiltərə və Fransa ilə qarşılıqlı yardım haqqında müqavilə imzaladı. Müqavilənin şərtlərinə görə Aralıq dənizi zonasında işğalçılıq aktı olardısa, Türkiyə bu dövlətlərlə səmərəli əməkdaşlıq təəhhüdünü öz üzərinə götürürdü. Beləliklə o, Almaniya ilə müharibə şəraitində olan ingilis-fransız blokuna daxil oldu.

Almaniya SSRİ-nin üzərinə hücum edənə qədər Avropanın böyük bir hissəsini işğal etmişdi. Türkiyəni də bu təhlükə gözləyirdi. 1940-cı ilin fevral ayında TBMM «Millətin müdafiəsi haqqında» qanun qəbul etdi. Bu qanuna əsasən hökumət hərb zamanı ordunun yaradılması və iqtisadiyyatın hərbi relsə keçirilməsi üçün fövqəladə səlahiyyətlər alırdı.

18 iyun 1941-ci ildə Türkiyə hökuməti Almaniya ilə dostluq və hücum etməmək haqqında müqavilə imzaladı. Almaniyanın SSRİ-yə hücumundan sonra, iyunun 25-də Türkiyə öz neytrallığını elan etdi. İkinci dünya müharibəsində Türkiyə öz neytrallığını 1945-ci ilin fevral ayına qədər, yəni Almaniya ilə Yaponiyaya müharibə elan edənə qədər qoruyub saxladı.

Müharibə illərində Türkiyə çoxlu problemlə toqquşmalı oldu. Bir neçə il ərzində Böyük Britaniya ilə ABŞ türk mallarını – xrom, moxer, fındıq, qırılmış palıd qozalarını alırdılar. Bu yolla ixrac süni olaraq yüksək səviyyədə saxlanılırdı, idxal isə kəskin surətdə məhdudlaşmışdı. Nəticədə inflyasiya, əmtəə defisiti meydana çıxdı, idarə və istehsal sahəsində korrupsiya geniş surətdə yayıldı. 1942-ci ildən mülkiyyət üzərinə qoyulan vergi ayrı-seçkilik xarakteri daşıyırdı.

Bir milyonluq ordunun saxlanması hərbi xərcləri artıraraq ölkənin iqtisadi vəziyyətini mürəkkəbləşdirirdi. Çörəyin bazar qiyməti artmışdı. İri şəhərlərdə hökumət kartoçka sisteminin tətbiqinə məcbur oldu. Ərzaq məhsullarının çatışmaması möhtəkirlik doğurdu. Nəticədə zəhmətkeş kütlələrinin aclığına səbəb olan yoxsullaşma prosesi getdi.

Müharibə illərində Türkiyədə bəzi qanunlara əlavələr edildi. Polis işçiləri istənilən adamı saxlamaq hüququnu aldılar. Almaniyada xüsusi təcrübə keçən polis məmurları Türkiyədə də gestapo rejimini tətbiq edirdilər.

Sovet İtitfaqı ilə həmsərhəd vilayətlərdə hərbi vəziyyət, İstanbul, Çanaqqala, Qocaeli, Ədirnə, Qırxlareli və Təkirdağda isə fövqəladə vəziyyət elan olunmuşdu. Türkiyənin hakim dairələrinin faşistpərəst siyasəti mütərəqqi qüvvələrin müqavimə-



tinə səbəb oldu. Türk hökuməti 2 avqust 1944-cü ildə Almaniya ilə diplomatik münasibətləri kəsməyə məcbur oldu.

İngiltərə və ABŞ öz təcavüzkar planlarında Türkiyəyə böyük əhəmiyyət verirdilər. 1943-cü ilin sonlarında ABŞ prezidenti F.Ruzvelt və Böyük Britaniyanın baş naziri Çörçil Qahirədə Türkiyənin prezidenti İsmət İnönü ilə görüşdülər. Görüş zamanı Türkiyənin Balkanlarda müharibədə iştirakı məsələsi müzakirə olundu. Ancaq 1944-cü ilin payızında sovet ordusunun Balkan dövlətlərini azad etməsi ingilis-amerikan planını pozdu. Onlar yalnız Yunanıstanda köhnə rejimi saxlaya bildilər.

ABŞ və İngiltərənin təklifi ilə Türkiyə 1945-ci ilin fevral ayında Almaniya və Yaponiyaya müharibə elan etdi. Bu addımın simvolik xarakter daşımasına baxmayaraq, Türkiyə beynəlxalq səhnədə təcrid olunmaqdan canını qurtardı.

Türk diplomatiyasının müharibə illərində ən böyük uğuru onun neytrallıq siyasəti oldu. Nəticədə Türkiyənin ərazisi hərbi əməliyyatlardan kənarda qaldı ki, bu da ölkənin bütövlüyünü təmin etdi.

Müharibədən sonrakı ilk illərdə Türkiyədə ən mühüm məsələ dağılmış iqtisadiyyatın sağlamlaşdırılması idi. Bununla belə, hökumətin yeritdiyi emissiya siyasəti inflyasiyaya səbəb oldu. Əhalinin həyat səviyyəsi aşağı düşdü. Xarici ticarətin həcmi azaldı. Türkiyənin ixrac etdiyi kənd təsərrüfatı məhsulları Avropa bazarlarında rəqabətə davam gətirmirdilər. Yeni satış bazarlarının axtarışı isə uğursuzluqla nəticələndi. Buna görə də Türkiyə hökuməti bir sıra islahatlar keçirməyə məcbur oldu. 1945-ci ilin iyun ayında Məclisdə boş qalmış yerlərə deputatların azad seçkisi elan olundu. Fəhlələrin istismarına yol verilməməsi üçün Əmək nazirliyi yaradıldı. Siyasi partiya və həmkarlar ittifaqlarının yaradılmasına icazə verildi. Fəhlələrin bədbəxt hadisələr və qocalığa görə sığorta olunması haqqında qanun qəbul olundu. Mətbuat haqqında qanunda dəyişikliklər edildi.

Kəndlilərin narazılığını aradan qaldırmaq məqsədilə natura ilə vergi ləğv olundu. 1945-ci ildə TBMM ehtiyacı olan

kəndlilərə torpaq paylanmasını nəzərdə tutan torpaq islahatı haqqında qanun qəbul etdi. Torpaq sahəsi alan kəndlilər onun dəyərini 20 il ərzində ödəməli idi.

Torpaq islahatının həyata keçirilməsinə 1947-ci ildən başlanıldı. Xüsusi mülkiyyət olan torpaq sahələri toxunulmaz qaldı. Ancaq bu islahat aztorpaqlılıq və torpaqsızlıq problemini həll elə bilmədi. Beləliklə, ölkədə ictimai-siyasi hərəkat genişləndi.

4 dekabr 1945-ci ildə tələbə-gənclərin nümayişi zamanı sosialist təmayüllü qəzet və jurnalların redaksiyaları dağıdıldı. Ancaq 1946-cı ildə bu növ «Səs», «Norlu» və s. kimi qəzet və jurnalların nəşrinə başlanıldı. Türkiyə sosialist partiyası (TSP) və Türkiyə sosialist fəhlə və kəndli partiyası (TSFKP) yaradıldı. Sənaye rayonlarında həmkarlar ittifaqları təşkil olundu. Onlar «Sendik» qəzetini nəşr edirdilər.

1945-ci ildə BMT yaradılandan və onun demokratik prinsipləri Türkiyə tərəfindən tanınandan sonra, prezident İnönü mətbuat üzərində nəzarəti zəiflətməyə, ictimai yığıncaqlara və müxalifətçi siyasi təşkilatların yaradılmasına icazə verməyə məcbur oldu. Cümhuriyyət-xalq partiyasının rəhbərliyin siyasəti ilə razılaşmayan üzvləri güclü Demokrat partiyasını yaratdılar.

Demokrat partiyası hakimiyyətə başçılıq edən opponentlərini korrupsiyada, demokratların xüsusi investorlara satmaq istədikləri dövlət müəssisələrinin pis idarə olunmasında və bütövlükdə bacarıqsız siyasətin yürüdülməsində günahlandırırdılar. Partiya gənclər arasında o qədər populyarlıq qazandı ki, İnönü seçkilərdə məğlub olacağından ehtiyatlandı. Onun vaxtını 1946-cı il yayın ortalarına çəkən respublikaçılar qələbə əldə etdilər. İnönü yenə də prezident vəzifəsini tutdu, lakin parlamentdə 62 mandat alan demokratlar gələcəkdə düzgün səsvermənin keçirilməsinin təmin olunması üçün seçki qanununda dəyişikliklər edilməsini tələb etdilər. 1950-ci ildə Demokrat partiyası parlamentdə tam əksəriyyət qazandı. Ölkənin



yeni prezidenti Cəlal Bayar, baş nazir Adnan Menderes, xarici işlər naziri isə Köprülü oldu.

Hakim dairələr iqtisadiyyatı dirçəltmək məqsədilə «qapalı» iqtisadi siyasətdən əl çəkib ölkənin qapılarını xarici kapitala açdılar. 1946-cı ildə beşillik plan hazırlanarkən iqtisadiyyatın xarici kapital vəsaiti hesabına maliyyələşdirilməsi nəzərdə tutulurdu.

ABŞ-ın lend-liz haqqında qanunundan istifadə olunması barədə 23 fevral 1945-ci il tarixli müqavilə ölkəyə ilk xarici kapital axınının başlanğıcını qoydu. Türkiyəyə 10 mln. dollar məbləğində Amerika kreditinin verilməsi barədə ikinci saziş 27 fevral 1946-cı ildə imzalandı.

ABŞ Türkiyəyə yardımı 1947-ci il Trümen doktrinası və Marşall planı əsasında göstərirdi. Demokratlar yeni dövlət layihələrinin həyata keçirilməsinə başlasalar da, artıq onların maliyyələşdirilməsinə vəsait çatmırdı. Türkiyəni SSRİ-nin cənub cinahında özünün güclü istehkamına və silahlı qüvvələrinin bazasına çevirmək istəyən ABŞ, ona əhəmiyyətli dərəcədə yardım edirdi. Buna baxmayaraq, 1956-cı ildə türk şəhərləri ciddi ərzaq çatışmazlığı ilə qarşılaşdılar.

Beləliklə, DP-nin hakimiyyətdə olduğu dövrdə Türkiyənin xarici siyasəti ABŞ və Qərb dövlətlərindən daha çox asılı oldu. 18 fevral 1952-ci ildə TBMM Türkiyənin NATO-ya üzv olması haqqında qanun qəbul etdi. 2 aprel 1954-cü ildə Türkiyə Pakistanla, 24 fevral 1955-ci ildə isə İraqla dostluq və əməkdaşlıq haqqında müqavilə imzaladı. Bununla da hərbi təşkilat olan «Bağdad paktı»nın (SENTO) əsası qoyuldu.

«Ölkənin hərbiləşdirilməsi böyük xərc tələb edirdi və buna görə də vergilər artırıldı. 1960-cı ildə Türkiyənin xarici borcları 12 mlrd. lirə, daxili isə - 7 mlrd.lirə təşkil edirdi.

Bayar və Menderesin ünvanına tənqid dalğası yüksəlirdi. Bununla belə, Menderes mətbuat və siyasi partiyaların fəaliyyətini şiddətli nəzarətə aldı. Menderesin İstanbul və Ankara universitetlərinin işlərinə qarışmağa başlamasından sonra, 1960-cı ilin yazında tələbələr nümayiş təşkil etdilər. Menderes

orduya bu həyəcanları boğmaq və ölkədə qayda-qanun yaratmağı əmr etdi, lakin generallar Demokrat partiyasının hakimiyyətinə son qoymaq qərarına gəldilər. 27 may 1960-cı ilin səhərində bir qrup ordu zabiti hərbi çevriliş etdi.

1960-cı il hərbi çevrilişinin rəhbərləri Atatürkün sosial islahatlarını bərpa etmək məqsədini qarşılarına qoymuşdular. Onların hamısı dünyəvi dövlət tərəfdarı idi. Hərbi xuntanın başında Milli birlik komitəsinin sədri vəzifəsini tutan general Camal Gursel dururdu. Menderes və onun xarici işlər və maliyyə nazirləri mühakimə olunaraq, günahkar bilinib edam edildilər.

Xunta 1961-ci ilin yanvar ayında mətbuat azadlığını bərpa etdi və siyasi fəaliyyətə icazə verdi. Həmin ilin sonunda yeni Konstitusiyaya uyğun olaraq seçkilər keçirildi. General Gursel, 1951-ci ildən 1980-ci ilə qədər mövcud olan İkinci Türk Cümhuriyyətinin prezidenti oldu. Yeni koalision nazirlər kabinetində aparıcı rolu Ədalət partiyası oynadı. Baş nazir İsmət İnönü oldu.

Ədalət partiyası Demokrat partiyasının varisi hesab olunsa da, 1960-cı il inqilabının məqsədlərini dəstəkləyəcəyini təntənəli surətdə vəd etdi. 1965-ci ilin oktyabr ayında Ədalət partiyası o qədər möhkəmləndi ki, başda baş nazir Süleyman Dəmirəl olmaqla öz hökumətini formalaşdıra bildi. 28 mart 1966-cı ildə general Cövdət Sunay Türkiyənin prezidenti oldu.

10 mart 1971-ci ildə ölkənin daxilində siyasi böhranın kəskinləşməsi ilə əlaqədar olaraq, Ali hərbi şura fövqəladə iclas çağırdı. Ali hərbi komandanlığın prezident Cövdət Sunaya ünvanladığı 12 mart tarixli memorandumda deyilirdi ki, parlament və hökumətin fəaliyyəti ölkəni anarxiya, qardaş qırğını və sosial-iqtisadi həyəcanlara sürükləyir. Buna görə də hərbçilər dərhal islahatların keçirilməsini tələb edirdilər.

S.Dəmirəlin hökuməti istefa verdi. Ancaq respublikaçı Nihat Erimin yeni hökuməti uzun sürmədi. 1973-cü ilin aprel ayında keçmiş general Fəxri Qorutürk prezident seçildi. Parlament seçkilərində qələbə qazanan CHP lideri Bülənd Ecevid 1974-cü ilin yanvar ayında Millətçi qurtuluş partiyası ilə koalision hökümət yaratdı. MQP-nin lideri Nəcməddin Ərbakan isə baş nazirin müavini oldu.



1974-cü ildə çoxəsrlik yunan-türk münaqişəsi yeni qüvvə ilə alovlandı. Buna səbəb isə uzun müddət ərzində iki aparıcı icma arasında mövcud çəkişmələrin olduğu Kiprdə dövlət çevrilişi oldu. Kiprin prezidenti arxiyepiskop Makarios, Kiprin Yunanıstana birləşdirilməsi – enozis məqsədini güdən yunan hərbçiləri tərəfindən hakimiyyətdən devrildi. İyulun 20-də Türkiyə türk icmasını müdafiə etmək üçün öz qoşununu adaya çıxartdı. Bununla əlaqədar olaraq, Türkiyənin beynəlxalq vəziyyəti və daxili şəraiti kəskinləşdi. Sentyabrın 18-də koalision hökumət dağıldı. 1975-ci ilin aprel ayında S.Dəmirəlin başçılığı ilə «Milli cəbhə» koalision hökuməti formalaşdırıldı. İstehsal azaldı, müəssisələr bağlandı, işsizlik artdı, iqtisadi böhran dərinləşdi.

12 sentyabr 1980-ci ildə silahlı qüvvələrin komandanlığı daha bir qansız çevriliş həyata keçirtdi. Baş qərargahın rəisi general Kənan Evrenin başçılığı ilə Milli Təhlükəsizlik Şurası yaradıldı. Şura Konstitusiyanın fəaliyyətini dayandırdı, parlamenti buraxdı, fövqəladə vəziyyət tətbiq etdi.

1982-ci ilin noyabr ayında, güclü prezident hakimiyyətini nəzərdə tutan yeni Konstitusiya qəbul edildi və Kənan Evren prezident elan olundu.

6 noyabr 1983-cü ildə parlament seçkilərində Ana Vətən Partiyası (AVP) qələbə qazandı. 1983-cü ilin dekabr ayında Turqut Özal baş nazir oldu. Kənan Evrenin səlahiyyətlərinin bitməsi ilə 1989-cu ilin noyabr ayında Turqut Özal ölkənin prezidenti vəzifəsinə seçildi. O, ixtisasca iqtisadçı idi və buna görə də ölkəni iqtisadi böhrandan çıxara bildi. T.Özalın iqtisadi proqramı sosial ədalət, rəqabət və azad bazar prinsiplərinə əsaslanırdı. O, orta təbəqənin sosial müdafiəsinə xüsusi diqqət ayırırdı. T.Özal Türkiyənin tarixinə «iqtisadi möcüzənin atası» kimi daxil olmuşdur.

Kürd fəhlə partiyasının separatçıları 1984-cü ildə, tərkibinə Türkiyənin cənub-şərq hissəsinin də daxil olacağı müstəqil

Kürdüstan dövlətinin yaradılması uğrunda silahlı mübarizəyə başladılar. 1980-ci illərin sonu – 1990-cı illərin başlanğıcında kürd qiyamçıları daima türk hərbi obyektlərinə hücumlar edir, hökümət qoşunu isə Türkiyənin cənub-şərqində və İraqın şimalındakı kürd bazaları və kəndlərinə həmlə edirdi. 1987-ci ildə S.Dəmirəl, N.Ərbakan, A.Türkeş və B.Ecevitin siyasi fəaliyyətinə qadağan götürüldü.

Bolqarıstan hökumətinin yürütdüyü antitürk siyasət nəticəsində 300-dən çox türk Türkiyəyə qaçmaq məcburiyyətində qaldı. Türkiyə hökuməti öz növbəsində, soydaşlarının hüquqlarının bərpa olunması tələbi ilə beynəlxalq təşkilatlara müraciət etdi. 1990-cı ildə Bolqarıstandakı demokratik proseslər iki ölkə arasındakı münasibətlərin normallaşmasına səbəb oldu.



# IX FƏSİL
# RUSİYA İMPERİYASI DAĞILDIQDAN SONRA YARANAN VƏ SSRİ TƏRKİBİNDƏ OLAN TÜRK DÖVLƏTLƏRİ

## § 1. Rusiyanın türk xalqları Fevral və Oktyabr inqilablarından sonra

Türküstan general-qubernatoru A.N.Kuropatkinin Petroqradda mütləqiyyətin devrilməsi xəbərini gizlətmək cəhdlərinə baxmayaraq, iki gün sonra bu hadisə haqqında məlumat Daşkəndə gəlib çatdı. Şəhər və kəndlərdə mitinq və nümayişlər təşkil olundu. İctimai təşkilat və ittifaqlar yarandı. 2 mart 1917-ci ildə Daşkənddə dəmiryolçuların yığıncağında ilk dəfə Fəhlə deputatları soveti yaradıldı. Sovetin sədri menşevik İ.İ.Belkov, müavini – bolşevik A.Y.Perşin seçildi. Daşkənd əsgər deputatları soveti də yaradıldı. Tezliklə Türküstan diyarının digər şəhərlərində də sovetlər yaranmağa başlandı. Bu zaman Daşkənddə yenidən sosial-demokrat qrupu yaradıldı. Səmərqənddə isə Müvəqqəti hökumətin siyasətinə qarşı çıxış edən birləşmiş sosial-demokrat təşkilatı yaradıldı.

İnqilabın ilk günlərindən Müvəqqəti hökumət yerlərdə «İctimai komitələr» və «İcraiyyə komitələri» yaradaraq bildirdi ki, Türküstan general-qubernatorluğunu ləğv etmək fikrində deyil. Diyarın iqtisadi vəziyyəti isə ağır olaraq qalırdı. Beləliklə, fevral inqilabı Türküstan diyarında köklü dəyişikliklərə səbəb olmadı.

31 mart 1917-ci ildə Daşkənd fəhlə və əsgər deputatları sovetinin birləşmiş yığıncağı, Müsəlman deputatları soveti, kəndli deputatları soveti və Daşkənd icraiyyə komitəsinin bir çox deputatı general A.N.Kuropatkindən başlayaraq bütün rəhbərliyin təzələnməsi fikrini irəli sürdülər.

Müvəqqəti hökumət Türküstan general-qubernatoru A.N.Kuropatkini tutduğu vəzifədən kənarlaşdıraraq bu orqanı ləğv etdi və aprelin 7-də başında Şepkin olmaqla Türküstan

komitəsini yaratdı. Komitənin tərkibinə 9 nəfər, o cümlədən Yelpatevski, Şkapski, Bukeyxanov, Tınışpayev və b. daxil oldular.

Sovetlər və həmkarlar ittifaqları (rus fəhlələrini birləşdirən, müsəlman fəhlələrin və qarışıq) meydana gəldi. Ziyalı və ruhanilərin millətçi dairələri özlərinin «Şura-i-üləma» (Ruhani şurası) və «Şura-i-islam» (İslam şurası) təşkilatlarını yaratdılar.

İlk belə təşkilat, hələ martın 9-da yaradılan burjua cəmiyyəti «Turan» oldu. O, digər «ümummüsəlman» təşkilatları olan «Gülüstan» və «Qələbə»dən öz millətçiliyi ilə fərqlənirdi. Daşkənddə «Şura-i-islam» təşkilatı şəhərin köhnə hissəsinin komissarı vəzifəsinə Xudayar xanın qohumunu təyin etdi.

1917-ci ilin sentyabr ayında Daşkənddə Türküstan müsəlmanlarının ictimai təşkilatlarının növbəti qurultayı çağırıldı. Qurultay gələcək Rusiya Federativ respublikasının tərkibində Türküstan Federativ Respublikasının yaradılması haqqında qərar qəbul etdi. Ancaq Peterburqdakı oktyabr çevrilişi bu ideyaların həyata keçirilməsinə mane oldu.

Fevral inqilabından sonra Buxara əmirliyi və Xivə xanlığında bəzi dəyişikliklər baş verdi. Buxara dəmir yolu, pambıq zavodları və s. fəhlələrinin sovetləri yaradıldı. 12 mart 1917-ci ildə Yeni Buxaranın 30 deputatdan ibarət İcraiyyə Komitəsi təsis olundu.

Bu zaman Buxara əmirliyində idarəçilik aparatının yenidən qurulması uğrunda mübarizə gedirdi. Müvəqqəti hökumətin nümayəndəsi A.Müller Petroqradda xarici işlər nazirliyində müzakirə olunan islahat layihəsini hazırlamışdı. İslahatların keçirilməsi haqqında Manifest aprelin 7-də əmirin sarayında A.Müllerin özünün, Yeni Buxara və Səmərqəndin icraiyyə komitələri nümayəndələrinin iştirakı ilə elan olundu. Bu yığıncaqda həmçinin feodal aristokratlar, iri tacirlər və müsəlman ruhaniləri də iştirak edirdilər.

Ancaq aprelin 14-də fəhlə və əsgərlərin ümumşəhər yığıncağında A.Müllerə etimadsızlıq göstərilməsi haqqında qərar qəbul edildi. Vəziyyətlə tanış olmaq üçün Müvəqqəti hökumə-



tin komissarı və Türküstan komitəsinin üzvü P.N.Preobrajenski Buxaraya gəldi. Nəticədə əmir öz mövqeyindən geri çəkildi. May ayında Buxarada «Şura-i-islam»ın yerli özəyi yaradıldı. Buxaranın hərbi naziri yenisi ilə əvəz olundu. A.Mülleri əmirliyin idarəsindən kənarlaşdırdılar. Koalision hökumət yaradıldı.

1917-ci ilin aprel ayında Xivədə «Gənc xivəlilər» adlanan cədidçilər qrupu təşkil edildi. Onlar aprelin 5-də Xivə xanından islahatlar keçirməsini tələb etdilər. Xan Manifest vermək məcburiyyətində qaldı. Müvəqqəti komitə yaradıldı. Onun göstərişi ilə Səid İsfəndiyar xan «Məclisi Şura» yaratdı. Tərkibində 32 nəfərin olduğu bu Şura dövləti idarə etməli idi.

Xivədə baş verən hadisələr Müvəqqəti hökuməti narahat etməyə bilməzdi. Xivənin hərbi naziri general Hidayətulla Mirbədəlov, rus qarnizonunun rəisi polkovnik Zaytsev və b.1917-ci ilin may ayında çevriliş etdilər və Müvəqqəti komitənin 17 üzvünü həbsə aldılar. Müsəlman ictimaiyyəti baş verənlərə öz narazılığını bildirdi. Rusiyanın Mərkəzi Müsəlman bürosu şəraitlə tanış olmaq üçün Xivəyə xüsusi komissiya göndərdi. Ancaq Xivə xanı yardım üçün Daşkəndi ələ keçirən bolşeviklərə müraciət etdi.

Fevral inqilabından sonra qazax-qırğız milli hərəkatı Orenburqda Qırğız Milli Şurasını yaratdı. 1917-ci il iyulun 21-dən 26-na qədər Orenburqda keçirilən I Ümumrusiya qırğızlarının qurultayında qırğız-qazax milli muxtariyyətinin yaradılmasını tələb etmək qərara alındı. Qırğız dilində məktəblərin açılması, Rusiyanın müsadirə etdiyi qazax torpaqlarının geri qaytarılması və s. haqqında da qərarlar qəbul edildi. Qurultayda A.Bukeyxanov, D.Dostməhəmmədov, M.Tınışpayev, N.Abbasov və b. başda olmaqla qazax milli partiyası «Alaş»ın yaradıldığı elan olundu. 1917-ci ilin dekabr ayında A.Bukeyxanov tərəfindən muxtar qazax hökuməti Alaş-Orda yaradıldı.

Bu dövrdə Aşqabadda da sovetlər yaradılırdı. Martın 12-də şəhərin bütün müəssisələrinin fəhlələrinin yığıncağında Aş-

qabad ümumşəhər sovetində birləşmək haqqında qərar qəbul edildi. Zakaspi vilayətində də sovetlər yaradıldı.

Martın 29-da Müvəqqəti hökumət O.O.Kolmakovu Zakaspi vilayətinin rəisi vəzifəsindən kənarlaşdırdı. Zakaspi komissarı Q.Dorrer təyin olundu. Hələ martın 5-də yerli burjuaziyanın nümayəndələri Aşqabadda Müvəqqəti İcraiyyə Komitəsini yaratmışdılar. Ancaq Buxara əmirliyi və Xivə xanlığından fərqli olaraq, burada milli hərəkat çox zəif idi.

Fevral inqilabı zamanı və fevral çevrilişindən sonra bütün Tatarıstanı inqilab dalğası bürümüşdü. 1-2 mart 1917-ci ildə Kazanda siyasi nümayişlər başlandı, Fəhlə deputatları soveti yaradıldı. Bir qədər sonra, martın 10-da həmçinin Əsgər deputatları soveti yaradıldı və martın 14-də Fəhlə deputatları soveti ilə birləşdi. Hələ 5 mart 1917-ci ildə quberniyanın İctimai Təhlükəsizlik Komitəsi yaradılmışdı.

Müvəqqəti hökumət də çarizm kimi ucqarlarda rus dilini dövlət dili olaraq tətbiq edirdi. Yerli ictimai-siyasi xadimlər bununla əlaqədar öz narazılıqlarını bildirirdilər. Dördüncü Dövlət dumasının liderləri Rusiya müsəlmanlarının Mərkəzi Bürosunu yaratdılar. Mərkəzi Büro Rusiyanın müsəlman-türk əhalisinə milli, yuridik və sosial-siyasi hüquqların verilməsi tələbini irəli sürdü. 23-24 aprel 1917-ci ildə Kazan quberniyası müsəlmanlarının birinci qurultayı keçirildi. Qurultayda burjuaziya, ruhani və Volqaboyunun türk əhalisinin nümayəndələri iştirak edirdilər. Bu qurultayda Milli Şura yaradıldı. Kazan türklərinin milli burjuaziyası bütün Rusiya imperiyasının müsəlman-türk xalqlarının birliyi ideyasını təbliğ edir və bu xalqlara Rusiyanın tərkibində mədəni-milli muxtariyyət verilməsi tələbini irəli sürürdü. 1917-ci il mayın 1-dən 11-ə qədər Moskvada çağırılan Ümumrusiya müsəlmanlarının qurultayında ərazi milli muxtariyyəti, təhsil, mədəniyyət və s. haqqında məsələlər müzakirə olundu. Qurultayın sədri Əhməd Salihov mədəni-milli muxtariyyət, Məhəmməd Əmin Rəsulzadə isə ərazi-milli muxtariyyətin verilməsi barədə layihələrini irəli sürdülər.



M.Ə.Rəsulzadənin layihəsi qurultayda deputatların səs çoxluğu ilə qəbul olundu.

1917-ci il iyulun 26-dan avqustun 2-ə qədər Kazanda keçirilən İkinci Ümumrusiya müsəlmanları qurultayı mərkəzi Rusiya və Sibir müsəlmanlarının mədəni-milli muxtariyyətini elan etdi. Seçkilər nəticəsində Milli Məclis seçildi.

Noyabrın 29-da Volqa-Ural Respublikası yaradıldı. Sədri Maqsudinin sədrliyi ilə milli hökumət yaradıldı, 1918-ci ilin mart ayında isə bolşeviklər tərəfindən qovuldu.

2 və 5 mart 1917-ci ildə Başqırdıstanda Quberniya ictimai təhlükəsizlik komitəsi və Fəhlə və əsgər deputatları soveti yaradıldı. Martın 17-də isə Çeboksarıda da müvafiq idarə orqanları yaradıldı. Çuvaşiyada eserlər əhali arasında böyük nüfuza malik idilər.

Çarizm devrildikdən sonra Sibir və Uzaq Şərqdə Sovetlər yaradılmağa başlandı. Martın 4-də Yakutiyada İctimai Təhlükəsizlik Komitəsi yaradıldı. Biysk və Barnaulda da belə komitə və sovetlər meydana gəldi. Fevral inqilabı Dağlıq Altayda milli-azadlıq hərəkatına təkan verdi. Yerli bəylər və tacirlər müstəqillik ideyasına tərəfdar idilər. Onların təşəbbüsü ilə 1917-ci il iyulun 1-dən 6-a qədər Biysk şəhərində Kuznetsk qəzasının yerli nümayəndələrinin qurultayı çağırıldı. Qurultayda torpaq və muxtariyyət haqqında məsələlər müzakirə olundu. Həmçinin Q.İ.Qurkinin sədrliyi ilə Dağlıq Altayın Dumasının yaradılması haqqında da qərar qəbul edildi. Dumanın tərkibinə D.M.Tobokov, S.Tolkıçakov, V.K.Mancyev, A.N.Kozlov və b. daxil oldular.

Tuvaya çarizmin devrilməsi xəbəri 6 mart 1917-ci ildə gəlib çatdı. Rus əhalisinin yaşadığı yerlərdə İctimai Təhlükəsizlik Komitəsi yaradıldı. Martın 24-də Tuvanın rus əhalisi Müvəqqəti hökumətin siyasətini dəstəkləyən qurultay çağırdı.

Uryanxaysk diyarının [11] feodal və ruhaniləri monqol və Çin feodalları ilə sıx münasibətlərin yaradılması üçün praktiki addımlar atdılar. Tonmit, Taktan və b. Tuvanın Rusiyadan ayrılıb Monqolustana birləşdirilməsinə çalışırdılar. Müvəqqəti hökumət Tuvanı Rusiyanın tərkibində saxlamağa cəhd edərək

yenidən Uryanxaysk diyarı üzərində Rusiyanın protektoratını təsdiq etdi.

Krımda da hakimiyyət Müvəqqəti hökumətin nümayəndələrinin əlinə keçdi. General-qubernator Ebelov və donanma vitse-admiralı Kolçak onu tanıdılar.

25 mart 1917-ci ildə Krım türklərinin Müsəlman komitəsi özünün birinci qurultayını çağırdı və orada Müsəlman İcraiyyə Komitəsi təsis edildi. Qurultay mühüm siyasi məqsəd kimi Krımın milli ərazi muxtariyyəti haqqında məsələni irəli sürdü. Ancaq rus köçkünləri, təbii ki, bu proqramın həyata keçirilməsinin əleyhinə idilər.

Beləliklə, Rusiyada Fevral inqilabı türk xalqlarının milli özünüdərk və milli-azadlıq hərəkatının dirçəlişinə səbəb oldu. Bununla belə, türk regionlarının bolşevik təşkilatları Mərkəzi Asiyada milli hərəkatdan daha güclü və daha mütəşəkkil idi. Məhz buna görə də, oktyabr çevrilişindən dərhal sonra bolşeviklər, demək olar ki, bütün türk regionlarında hakimiyyəti ələ keçirdilər.

Oktyabrın 28-31-də baş verən döyüşlərin nəticəsində Müvəqqəti hökumətin Türküstan komitəsinin üzvləri həbs olundular.

1917-ci ilin oktyabr ayında Daşkənddə silahlı üsyan nəticəsində Sovet hakimiyyəti, noyabr ayında isə Türküstan Sovet respublikası elan olundu və başda bolşevik F.Kolosov olmaqla Xalq Komissarları Soveti yaradıldı. Millətçilər, öz növbəsində, 1917-ci ilin noyabr ayında Kokandda müsəlman diyar qurultayını çağırdılar. Qurultay Türküstan müsəlmanlarının muxtariyyətini elan edərək öz hökumətini (Kokand muxtariyyətini) yaratdı. 1918-ci ilin fevral ayında onu yıxdılar. 1918-ci ilin aprel ayında Türküstan RSFSR-in tərkibində muxtar respublika oldu (1918-1919-cu illərdə vətəndaş müharibəsi üzündən o, Rusiyanın əsas ərazisindən ayrılmışdı). İslamçılar və millətçilərin hərbi dəstələri dağlıq və səhra rayonlarına çəkildilər, oradan, xüsusilə Fərqanə vadisində şiddətli partizan müharibəsinə başladılar. Onları milli problemlər (milli bərabərlik haqqında



bəyannaməyə baxmayaraq, Sovet Türküstanının rəhbərliyinə, əvvəlcə müsəlman əhalinin nümayəndələri buraxılmamışdı), torpaq ətrafında mübahisələr və hakimiyyət dairələrinin müsəlmanların adət və yerli ənənələrinə təcavüzündən narazılıq buna sövq edirdi.

Türküstan Muxtar Federativ Respublikası 1918-ci ilin yayında şimaldan – ağ kazakların yaratdıqları Orenburq hökumətinin, cənub-qərbdən – eser Funtikovun əksinqilabi hakimiyyəti altında olan Zakaspi, şimal-şərqdən – basmaçların yaratdıqları Fərqanə cəbhəsinin üzük kimi mühasirəsinə düşmüş oldu.

Alaş-Orda milli hökuməti ağqvardiyaçı Dutov, Annenkov, Tolstov və Kolçakla birlikdə Sovet hakimiyyətinə qarşı mübarizə aparırdı. Onlar Yeddi Su və Orenburqu ələ keçirə bilmədilər. Keçmiş çar zabitləri və millətçilər Türküstan MFR ərazisində zabit K.Osipov başda olmaqla təşkilat yaratdılar. 19 yanvar 1919-cu ildə onlar Daşkənddə üsyan qaldırdılar. Üç gün davam edən döyüşlər nəticəsində üsyan yatırıldı. Yanvarın 22-də qırmızı qvardiyaçılar Orenburqu tutub Sovet Rusiyasının Türküstanla əlaqələrini bərpa etdilər. Ancaq aprel ayında Aktübinskin ağqvardiyaçılar tərəfindən tutulması ilə onlar yenidən kəsildi.

1919-cu ilin avqust ayında M.V.Frunzenin komandanlığı altında Müstəqil Türküstan Cəbhəsi Şərq cəbhəsindən ayrıldı. Bu cəbhə Belovun ağqvardiyaçı ordusunu mühasirəyə alıb əsir götürdü. Beləliklə Türküstana yol açıldı və sentyabrın 13-də Frunzenin qoşunu Türküstan MFR-in qoşunu ilə birləşdi. Ancaq basmaçların öhdəsindən gəlmək, yalnız 1920-ci illərdə mümkün oldu. 9 mart 1920-ci ildə Alaş-Orda dövləti süqut etdi. Alaş - ordalılara qanlı divan tutuldu.

Xivə xanlığında hakimiyyəti 1918-ci ilin yanvar ayında türkmən hərbi dəstələrinin başçısı Cünaid xan ələ keçirtdi. Xivə xanı formal olaraq taxtda qaldı, lakin Cünaid xan ölkəni hərbi diktator kimi idarə etməyə başladı. O, Böyük Britaniyanın nümayəndələri ilə ittifaq bağlayaraq, 1918-ci ilin sonların-

da Türküstan muxtar respublikasının Amudərya şöbəsinə bir neçə hücum təşkil etdi, lakin 1919-cu ilin aprel ayında Sovet respublikası ilə Sülh müqaviləsi bağlamağa məcbur oldu. Bu zaman Cünaid xanın diktaturasına qarşı demokratik hərəkat başlandı.

Bu hərəkatın mərkəzi Türküstanın Amudərya şöbəsi, eləcə də Turkul və Nukus şəhərləri oldular. Gənc xivəlilər təşkilatı və 500 xivəli qaçqından ibarət hərbi drujina yaradıldı. Cünaid xan isə admiral A.Kolçakın «ağ» hökumətinin nümayəndələri ilə danışıqlara başladı. O, eyni zamanda bolşeviklərlə bir bloka girən cədidçilərin – gənc xivəlilərin milli müxalifətini amansız təqib edirdi. 1919-cu ilin noyabr ayında blok, türkmən rayonlarında başlayıb özbək rayonlarına yayılan üsyan qaldırdı. Xivə inqilab komitəsi yaradıldı. Xanlığın ərazisinə, 1920-ci ilin yanvar ayında Cünaid xanı darmadağın edən sovet qoşunu daxil oldu. Cünaid xan Qaraquma qaçdı. Fevralın 1-də üsyançılar Xivəni tutub Səid Abdulla xanı devirdilər. 2 fevral 1920-ci ildə Xivə xanı rəsmi surətdə taxtdan əl çəkdi. Hakimiyyət Müvəqqəti inqilab hökumətinin əlinə keçdi.

1920-ci il aprel ayının sonunda Birinci Ümumxarəzm qurultayı çağırıldı və orada Xarəzm Xalq Sovet Respublikası elan olundu. Qurultay gənc xivəlilər və türkmən tayfalarından Xalq Komissarlar Sovetini (XKS) seçdi. Ancaq 1921-ci ildə gənc xivəlilər hökumətin tərkibindən çıxarıldılar. Beləliklə Xivədə kommunistlərin hakimiyyəti quruldu.

Rusiyanın Sovet hökuməti 1918-ci ilin əvvəllərində Buxara əmirliyinin müstəqilliyini tanıdı və onunla Sülh müqaviləsi bağladı. Ancaq 1918-ci ilin mart ayında Türküstan Sovet hökumətinin başçısı Kolesovun dəstəsinin cədidçi-gənc buxaralıların qaldırdıqları üsyana köməyə gəlməsi ilə münasibətlər kəskin surətdə pisləşdi. Üsyan yatırıldı, onun iştirakçıları edam olundular, lakin Buxara hakimi Seyid Alim xan Böyük Britaniya, basmaç dəstələri və Kolçak hökuməti ilə ittifaq axtarmağa başladı. Gənc buxaralılar və bolşeviklər 1918-ci ilin noyabr ayında Kommunist partiyasının təsis qurultayını çağırdılar.



Qurultay Buxara kommunist partiyasını yaratdı və əhalini üsyana çağırmağa davam etdi. 1920-ci ilin yanvar ayında burjuaziya, mütərəqqi ziyalılar və ruhanilərin nümayəndələri əmirin hökumətinə qarşı müxalifət təşkil edərək, başda Feyzulla Xocayev olmaqla gənc buxaralılar partiyasını yaratdılar.

1920-ci ilin iyul ayında əmir təbəələrini bolşeviklərə qarşı «müqəddəs müharibəyə» çağıran fərman verdi. Avqustun 28-də üsyana qalxan bolşeviklər və gənc buxaralılar Cərconu tutdular, başda Başim Sərdarov olmaqla İnqilab komitəsini yaratdılar. Sentyabrın 2-də şiddətli döyüşlər nəticəsində üsyançılar köhnə Buxaranı ələ keçirdilər. Əmir isə qaçdı. Əmirliyin ərazisinə sovet qoşunu daxil oldu. Sentyabr ayında onlar Buxaranı tutdular. 6-8 sentyabr 1920-ci ildə Birinci Ümumbuxara qurultayı çağırıldı, orada Buxara Xalq Sovet Respublikası elan olundu. Feyzulla Xocayevin başçılığı ilə Xalq Komissarlar Soveti yaradıldı.

Türküstanın sovetləşdirilməsi üçün başda Ş.Z.Eliava olmaqla «Türküstan işləri üzrə ÜRMİK və RSFSR XKS-nin komissiyası» yaradıldı. Bu komissiya 1919-cu ilin oktyabr ayında Daşkəndə gəldi. 1920-ci ildə V.İ.Lenin komissiyanın layihəsi üzərində Türküstanın Özbəkistan, Qırğızıstan və Türkmənistana bölünməsi haqqında qeyd etdi. Komissiyanın sovet idarəçilik aparatı yaratmaq cəhdləri basmaçların müqavimətinə rast gəldi. Ancaq 1920-ci ilin fevral ayında M.V.Frunze və V.V.Kuybışevin başçılıq etdikləri Türküstan cəbhəsi Zakaspinin bütün ərazisini, payızda Yeddi Suyu ələ keçirtdi və onları ağqvardiyaçılardan azad etdi. Yalnız Fərqanədə basmaçlarla mübarizə davam edirdi.

Qazaxıstanda Amangəldi İmanov və fövqəladə komissar Əlibəy Cangəldin Qırmızı ordunun tərəfində ağqvardiyaçılara qarşı mübarizə aparırdılar. 1920-ci ilin iyun ayında Vernı şəhərində üsyan qalxdı. Üsyançılar qalanı tutdular. Ancaq D.A.Furmanovun qırmızı ordu dəstələri üsyanı qan içində boğdular.

26 avqust 1920-ci ildə ÜRMİK və RSFSR XKS Qırğızıstan MSSR-in yaradılması haqqında Dekret dərc etdirdi.

Oktyabrın 4-12-də Orenburqda keçirilən Sovet Qırğızıstanının təsis qurultayı RSFSR tərkibində Qırğızıstan MSSR-in yaradılmasını elan etdi. Keçmişdə qazaxları qırğız, qırğız-qaysak, qırğızların özlərini isə qara-qırğızlar adlandırırdılar. Yalnız 1925-ci ildə Qazaxıstanın V Sovetlər qurultayında bu dövlət, tərkibində Qaraqalpaq muxtar vilayətinin yaradıldığı Qazaxıstan MSSR adlandırıldı. 1924-cü ildə Yeddi Su və Sırdərya da Qazaxıstana birləşdirildi. Həmin ildə qırğız əraziləri – Yeddi Su, Səmərqənd, Sırdərya, Fərqanə və Səmərqənd birləşdirildi və RSFSR-in tərkibində Qara-Qırğız muxtar vilayəti yaradıldı. 1 fevral 1926-cı ildən muxtar vilayət RSFSR tərkibində Qırğızıstan MSSR-ə çevrildi.

14 fevral 1925-ci ildə I Ümumtürkmən Sovetlər qurultayı Türkmənistan SSR-in yaradıldığını elan etdi. Özbəkistan SSR-in tərkibində Tacikistan MSSR yaradıldı, 1929-cu ildə isə o, Özbəkistan SSR-dən ayrılıb suveren respublika oldu.

Rusiya imperiyasının dağılması Krım türklərinin milli-azadlıq mübarizəsinin başlanması üçün şərait yaratdı. Ancaq 1918-ci ilin yayında Krım alman qoşunu tərəfindən işğal olundu. Bolşeviklərlə Krım vətənpərvərləri arasında inadlı mübarizə isə hələ davam edirdi. Sonuncular axır ki, öz hakimiyyətini bütün Krım yarımadasında qura bildilər. Krım Xalq Respublikası elan edildi. Hökumətin başçısı general M.A.Sulkeviç oldu.

Həştərxanı ələ keçirə bilməyən P.Vrangelin ordusu Krım əməliyyatında uğur qazandı. General Y.Slaşşovun qoşunu sovet ordusunun Krım qrupunu darmadağın etdi. Cənub cəbhəsinin qüvvəcə üstünlüyünə baxmayaraq o, Krımın Vrangel tərəfindən tutulmasına mane ola bilmədi.

Noyabrın 8-nə keçən gecə qırmızı qvardiyaçılar düşmənin mövqelərinə arxadan zərbə endirdilər. V.Blüxerin 51-ci diviziyasının türk səddinə, İ.Qryaznovun 30-cu atıcı diviziyasının isə Çonqar istehkamına hücumu başlandı. İki gün davam edən şiddətli döyüşlərdən sonra bu mövqelər qırmızılar tərəfindən tutuldu və Vrangel tamamilə darmadağın edildi.



Bolşeviklər Krımın «yad ünsürlərdən» təmizlənməsinə başladılar. Cəza tədbirləri zamanı milli hərəkatın iştirakçıları güllələndilər. Bela Kunun sədrliyi ilə Krım vilayət inqilab komitəsi yaradıldı. Cənub cəbhəsi xüsusi şöbəsinin rəisi Y.Yevdokimov idi.

Krım əməliyyatında Maxnonun dəstələri də iştirak etmişdilər. Bolşeviklər ona Qulyaypoledə muxtariyyət vəd etdilər. Ancaq o, bolşeviklərin Qırmızı orduya birləşmək tələbini rədd etdi. Belə olan şəraitdə Sovet Respublikası maxnoçuları xalq düşməni elan etdi. Avqust ayının axırlarında Maxnonun dəstələri A.Parxomenko və Kotovskinin Qırmızı diviziyasının qüvvələri tərəfindən darmadağın olundular.

Volqaboyu və Sibir ərazisinin qırmızılarla ağqvardiyaçılar arasında mübarizə meydanına çevrilməsi bu ərazilərdə milli dövlət qurumlarının qalmasına imkan vermirdi.

Vətəndaş müharibəsinin başlanğıcında bolşeviklər Qırmızı orduda milli hissələrdən istifadə edirdilər. 2 may 1918-ci ildə Volqaboyu müsəlmanlarından ibarət Müsəlman Fəhlə-Kəndli Qırmızı ordusu yaradıldı. Bolşeviklər vaisovçuların müsəlman sektasını dəstəkləyirdilər. Təriqətin rəhbəri Həsən Vaisov islamı sosializmlə birləşdirməyə çalışaraq «Yaşıl ordu» yaradılmasını təklif edirdi. Kazanda tatarlar milli hökumət yaratmağa cəhd etdikdə, vaisovçular bolşeviklərlə birlikdə onlara qarşı mübarizə apardılar. Xəyanətə görə Həsən Vaisov tatar millətçiləri tərəfindən öldürüldü.

1918-ci il sentyabr ayının başlanğıcında Şərq cəbhəsinin qoşunu S.S.Kamenevin komandanlığı altında Kazan üzərinə hücuma keçdi və sentyabrın 10-da şəhər tutuldu. 1918-1919-cu illərdə Tatarıstan ərazisi iki dəfə ağqvardiyaçılar tərəfindən ələ keçirildi. Yalnız 1919-cu ilin iyun ayında o, ağqvardiyaçılardan təmizləndi. ÜRMİK və RSFSR XKS-nin 27 may 1920-ci il tarixli Dekreti ilə RSFSR tərkibində Tatarıstan MSSR yaradıldı. Sentyabrın 26-dan 27-nə qədər isə respublikanın Birinci Sovetlər qurultayı keçirildi.

Hələ 1917-ci ilin dekabr ayında Orenburqda Başqırdıstan milli hökuməti yaradılmışdı. Ancaq 5 iyul 1918-ci ildə ağqvardiyaçılar Ufanı, az sonra isə bütün Başqırdıstanı tutdular. Oktyabr-noyabr aylarında əkshücuma keçən Qırmızı ordu Buqulma, Buquruslan, Belebey, İjevsk, Votkinsk və Ufanı ələ keçirtdi.

20 mart 1919-cu ildə başqırdlar Sovet Rusiyası ilə müqavilə imzalayaraq RSFSR tərkibində Muxtar Sovet Respublikasını elan etdilər. Muxtariyyətin paytaxtı Sterlitamak şəhəri oldu. ÜRMİK-in 14 iyun 1922-ci il tarixli Dekreti ilə isə, paytaxtı Ufa şəhəri olan Böyük Başqırdıstan MSSR yaradıldı.

24 iyun 1920-ci ildə Çuvaş muxtar vilayəti, noyabrın 4-də Mari və Kalmık muxtar vilayətləri yaradıldı. Ancaq 1921-ci ildə Volqaboyu və Ural kəndliləri antisovet üsyanlar qaldırdılar. Onlar amansızlıqla yatırıldı.

Sibir ərazisi də vətəndaş müharibəsinin döyüş səhnəsinə çevrilmişdi. Noyabrın 18-nə keçən gecə admiral Kolçak Omskda çevriliş edərək, Avksentyevin eser-menşevik Sibir hökumətini qovdu və hakimiyyəti öz əlinə aldı.

1918-ci ilin dekabr – 1919-cu ilin yanvar aylarında Şərq cəbhəsinin qoşunu Kolçaka qarşı müvəffəqiyyətli hücum əməliyyatlarını genişləndirdi. Onlar Ufa, Orenburq və Uralskı tutdular. Qərbi Sibirdə Kolçaka qarşı mübarizəni Y.Mamontovun başçılıq etdiyi Altay partizan dəstəsi aparırdı. 1919-cu il noyabr ayının sonlarında sibirlilər Qırmızı ordu ilə birlikdə ağqvardiyaçıları Sibirdən qovdular. Tuvalılar da mancur işğalçıları və ağqvardiyaçılara qarşı mübarizə aparırdılar. 1921-ci ildə onlar müstəqil Tuva Xalq Respublikasını elan etdilər.

## §2. Türk xalqları SSRİ-nin tərkibində

Sovetləşmə dövründə Mərkəzi Asiyada sosial-iqtisadi islahatlar keçirilməyə başlandı. 1921-ci ildə YİS-ə keçilməsi ilə, vətəndaş müharibəsi dövründə dağılmış Qazaxıstan iqtisadiyyatının (taxıl istehsalı 3 dəfə, sənaye istehsalı isə 1914-cü illə müqayisədə 5 dəfə aşağı düşmüşdü) bərpasına başlanıldı. Ərzaq sapalağı ərzaq vergisi ilə əvəz olundu, köçəri və yarımköçərilərin böyük hissəsi ət vergisindən azad edildilər. Köklü əhaliyə çar hökumətinin və varlı köçərilərin müsadirə etdikləri 500 ha torpaq qaytarıldı. 1924-1925-ci illərdə Mərkəzi Asiyada «milli dövlətlərə ayrılma» nəticəsində qazaxların məskunlaşdığı Sırdərya və Jetısu (Yeddi Su) vilayətlərinin əraziləri muxtariyyətə birləşdirildi, Qırğızıstan MSSR **Qazaxıstan** MSSR adlandırıldı (1925-ci ilin aprel ayında 5-ci Ümumqazax Sovetlər qurultayının qərarı ilə), Orenburq quberniyası ilə birlikdə bilavasitə RSFSR-in tərkibinə daxil oldu. Muxtar respublikanın paytaxtı isə Qızıl-Ordaya köçürüldü. 1925-1930-cu illərdə Qazaxıstan MSSR-ə həmçinin Qaraqalpaq muxtar vilayəti də daxil idi.

1928-ci ildə kənd təsərrüfatı istehsalı və mal-qaranın ümumi sayının inqilabdan əvvəlki səviyyəsi bərpa olundu, sənaye istehsalı artdı. 1926-1928-ci illərdə baylardan əhəmiyyətli miqdarda mal-qara, torpaq və inventar müsadirə edilib kəndlilərə və sıravi maldarlara verildi. Sonrakı onilliklərdə Qazaxıstanda kənd təsərrüfatının kollektivləşdirilməsi və sənayeləşdirmənin sürətlə inkişaf etdirilməsinə başlandı. Artıq 1926-cı ildən «qazax aulunun sovetləşdirilməsi» siyasəti aparılırdı. Nəticədə ənənəvi ağsaqqalların və yerli nüfuzlu şəxslərin təsiri sarsıldı.

1925-1927-ci illərdə torpaq və su islahatlarının həyata keçirilməsi nəticəsində torpaqsız və aztorpaqlı kəndlilər torpaq və su ilə təchiz edildilər. Kənd təsərrüfatında da müəyyən tədbirlər keçirilirdi. Yeddi Suda qazax, özbək və uyğur kəndlilərinə yarım milyon hektara qədər torpaq qaytarıldı. Çarizmin Sibir və Ural kazak dəstələrinə payladığı qazax torpaqları öz sahiblərinə qaytarıldı.

Kənddə sosialist dəyişiklikləri həyata keçirilməyə başlandı. Fərdi kəndli təsərrüfatları kolxozlarda birləşdirildi. Milyonlarla köçəri və yarım köçəri oturaq həyata keçdi. Şimali Qazaxıstanın xam torpaqlarından istifadə olunmağa başlandı.

1929-cu ildən başlanan kollektivləşmə nəticəsində 1937-ci ildə 97,5% təsərrüfat kolxozlara daxil oldu, əkin sahələri isə 1,5 dəfə genişləndi. Eyni zamanda, geniş miqyasda mal kəsilməsi mal-qaranın kəskin surətdə azalmasına səbəb oldu. Kənd təsərrüfatı istehsalının aşağı düşməsi nəticəsində 1929-1933-cü illərdə aclıq baş verdi.

İri fabrik və zavodları, mühəndis-texniki kadrları olmayan Mərkəzi Asiyada sənayeləşmənin əsas istiqaməti yüngül və yeyinti sənayesinin yaradılmasından ibarət idi. 1928-1937-ci illərdə Qazaxıstan sənayesinə ittifaq büdcəsindən 2 mlrd. man. vəsait qoyulmuşdu. Tikinti və müəssisələrə SSRİ-nin digər rayonlarından fəhlə və mühəndislər göndərilirdi. Müharibə ərəfəsindəki illərdə cəmi 200-ə qədər iri sənaye müəssisəsi, o cümlədən Çimkənd qurğuşun, Balxaş misəritmə zavodları, Qaraqandada daş kömür mərkəzi, Türküstan-Sibir dəmir yolu və s. tikildi.

1929-cu ildə Qazaxıstanın paytaxtı Alma-Ataya köçürüldü. 1936-cı ildə Qazaxıstan MSSR ittifaq respublikası statusu alaraq Qazaxıstan SSR oldu. 1937-ci ilin mart ayında Qazaxıstanın 10-cu fövqəladə Sovetlər qurultayı onun Konstitusiyasını qəbul etdi. Respublikanın Ali Sovetinin Rəyasət Heyətinə və hökumətinə qazaxlar başçılıq edirdilər.

Qazaxıstanın sənayecə inkişafında mühüm addım ikinci dünya müharibəsi illərində atıldı. Bu zaman onun ərazisinə SSRİ-nin qərb rayonlarından 140-dan çox sənaye müəssisəsi və 1 mln.-dan çox adam təxliyə edildi. Həmçinin bu dövrdə yeni zavod, mədən və şaxtalar tikildi.

Qazaxıstan SSR müharibənin dörd ili ərzində dövlətə müharibəyə qədərki dörd ildəkindən 22 mln. pud çox taxıl vermişdi. Ət məhsullarının miqdarı iki dəfə artmışdı.

Donetskin almanlar tərəfindən tutulması ilə, Qaraqanda Kuznetskdən sonra Sovet İttifaqının ikinci daş kömür bazasına çevrildi. Aktübinsk və Temirtau metallurgiya zavodları öz işlərini sürətləndirdi, neft çıxarılması artdı. Alma-Ata, Çimkənd, Semipalatinsk və Petropavlovskda iri sənaye müəssisələri açıldı.



Döyüş əməliyyatlarında da qazaxlar fəal iştirak edirdilər. Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada 96 qazax layiq görülmüşdü.

1945-1950-ci illərdə Qazaxıstan IV beşillik planın qərarlarını yerinə yetirərək SSRİ xalq təsərrüfatının bərpasında fəal iştirak etmişdi.

1953-1965-ci illərdə Sovet İttifaqında xam və dincə qoyulmuş torpaqların istifadəyə verilməsinin geniş proqramı həyata keçirildi. Bu çərçivədə Qazaxıstanda 4 mln. ha torpağın əkin sahəsi kimi istifadəyə verilməsi planlaşdırıldı. Xam torpaqların istifadəyə verilməsi ilə əlaqədar Qazaxıstana yüz minlərlə adam köçürüldü.

Qazaxıstan respublika partiya təşkilatına 1960-1962-ci və 1964-1986-cı illərdə Dinməhəmməd Kunayev başçılıq etmişdir. Onun dövründə sənayeləşmə davam etdirildi. Alma-Ata, Qaraqanda, Ekibastuz və Pavlodarda iri müəssisələr, enerji obyektləri, dəmir və avtomobil yolları tikildi. Qazaxıstana SSRİ-nin digər respublika və rayonlarından köçkünlərin cəlb olunması davam etdirilirdi. Kunayev, eyni zamanda qazax rəhbər kadrlarının irəli çəkilməsinə imkan yaradırdı.

SSRİ-də yenidənqurma başlayandan sonra sovet lideri Mixail Qorbaçov, korrupsiya və iqtisadiyyata pis rəhbərlikdə günahlandırılan D.A.Kunayevin vəzifəsindən kənarlaşdırılmasına nail oldu. O, 1986-cı ilin dekabr ayında tutduğu vəzifədən çıxarılaraq Ulyanovsk vilayət partiya komitəsinin sabiq rəhbəri Gennadi Kolbinlə (milliyyətcə rus) əvəz olundu. Bu təyinat Alma-Atada millətçi gənclərin nümayişinə səbəb oldu.

17-19 dekabr 1986-cı ildə qazax gəncləri paytaxtın mərkəzi meydanında etiraz nümayişinə çıxdılar. Sovet ordusunun müdaxiləsi nəticəsində mindən çox qazaxın qanı axıdıldı. Həyəcanların gedişatında ən azı 200 nəfər həlak oldu. Bu, ruşlaşdırma və sovetləşdirmə siyasətinə qarşı yönəldilmiş ilk açıq milli çıxış idi.

G.Kolbin geniş sosial islahatlar keçirməyi, qazax dilinin istifadəsini genişləndirməyi və hətta onu respublikada rəsmi dil elan etməyi vəd edərək ehtirasları sakitləşdirməyə çalışdı.

Sovet rəhbərliyi narazılıq dalğasının genişlənməsindən ehtiyatlanaraq 10 yanvar 1987-ci ildə milliyyətcə qazax olan Səidulla Kubaşovu Qazaxıstan KP MK-nın ikinci katibi təyin etdi.

Tələbələrin hərəkatı respublikanın sosial-siyasi həyatı üçün səciyyəvi olmayan dinamikanı yaratdı. Artıq 1987-ci ildə Qazaxıstanda müstəqil ictimai təşkilatlar yaradılmışdı. Onların arasında aparıcı olanları «Təşəbbüs» Sosial-ekoloji ittifaqı və Aralın problemləri üzrə ictimai komitə idi. «Nevada-Semipalatinsk» - nüvə silahının sınağına qarşı hərəkat siyasət meydanına çıxdı. Bu hərəkatın liderlərindən biri tanınmış yazıçı, Qazaxıstanın ictimai-siyasi xadimi, «Az i ya» əsərinin müəllifi Oljas Süleymenov idi. BMT bu poliqonu xüsusi təhlükəli zona elan etdi.

«Azad», «Jeltoksan», «Alaş», «Birlik» və sosial-demokrat partiyaları da siyasi səhnəyə atıldılar.

1989-cu ilin iyun ayında Kolbinin vəzifədən çıxarılması Yeni Üzəndə (Qərbi Qazaxıstan) sosial həyəcanları sürətləndirdi. Həmin ay respublika Kommunist partiyasının birinci katibi vəzifəsinə 1984-cü ildən Qazaxıstan SSR Nazirlər Sovetinin sədri olmuş Nursultan Nazarbayev təyin olundu. 1989-cu ilin sentyabr ayında o, qazax dilinin respublikanın rəsmi dili elan edilməsinə nail oldu. Bundan sonra N.Nazarbayevin qazax türkləri arasında nüfuzu daha da artdı.

Qazaxıstan Ali Sovetinin 12-ci çağırışına ilk demokratik seçkilər 1990-cı ilin mart ayında keçirildi. Bu seçkilərdə ictimai təşkilatların 90-dan çox nümayəndəsi qələbə qazandı.

Sovet hakimiyyəti qırğızların da həyatında əhəmiyyətli dəyişikliklər etdi. 1917-ci ildə kişi ilə qadının hüquq bərabərliyi elan olundu, 1921-ci ildə isə çoxarvadlılıq və kalım (gəlin üçün alınan başlıq) qanunla qadağan edildi. 1924-cü ildə **Qırğızıstan** Qara-Qırğız muxtar vilayəti kimi ayrıldı. 1925-ci ilin may ayında vilayət Qırğız adını, 1926-cı ilin fevral ayında Qırğızıstan MSSR, 1936-cı ildə Qırğızıstan SSR statusunu aldı.



1920-1930-cu illərdə Qırğızıstanda sənayenin coşğun inkişafı başladı. 1940-cı ildə Qırğızıstanın kömür şaxtaları Mərkəzi Asiyada istifadə olunan bütün daş kömürün 88%-ni verirdilər. Əlvan metallurgiya, sürmə və civə istehsalı, yeyinti (şəkər istehsalı) və yüngül sənayenin bəzi sahələri də inkişaf edirdi. 1929-cu ildən başlayaraq əvvəllər yarımköçəri tayfa və qəbilələrin əllərində olan kənd təsərrüfatının kollektivləşdirilməsi həyata keçirilirdi. Kollektivləşmənin əleyhdarları – varlı maldarlar və torpaq sahibləri (baylar) təqib olunur, öldürülür, həbsxanaya salınır, bəziləri mülkiyyətindən məhrum edilir və aclıqdan ölümə məhkum olunurdular. 1941-ci ildə Qırğızıstanda 300-ə qədər heyvandarlıq kolxozu mövcud idi.

1936-1938-ci illərdə ən yüksək nöqtəsinə çatan Stalin repressiyaları nəticəsində elm adamları və yaradıcı ziyalılar, müsəlman din xadimləri, demək olar ki, tamamilə məhv edildilər. Cəza tədbirləri nəticəsində ərəb dilində kitablar və əlyazmalar məhv edildi.

İkinci dünya müharibəsi zamanı qırğızlar da ön cəbhədə qəhrəmanlıq göstərərək vuruşurdular. Gəray Əsədovun qəhrəmanlığını təkrar edən Çolponbay Tuleberdiyev sinəsi ilə düşmən gülləsinin qarşısını kəsdi. Duyşenkul Şopokov general İ.V.Panfilovun 316-cı atıcı diviziyasında vuruşmuş və ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. Müharibə dövründə 12 qırğız bu yüksək ada layiq görüldü.

Qırğızıstanda sənayeləşmə ikinci dünya müharibəsindən sonra da kənd təsərrüfatının inkişafı ilə paralel davam edirdi. Respublikada pambıqçılıqla yanaşı, həmçinin şəkər çuğunduru və heyvandarlıq məhsulları istehsal olunurdu. Heyvandarlığın inkişafına görə respublika Mərkəzi Asiyada Özbəkistandan sonra ikinci yeri tuturdu. Sənaye sahəsində də böyük irəliləyişlərə nail olundu. Qırğızıstan əlvan və nadir metallar rayonuna çevrildi. Sürmə və civə istehsalına görə respublika SSRİ-də qabaqcıl yer tuturdu. Qırğız sürməsi Brüsseldə keçirilən Beynəl-

xalq sərgidə yüksək keyfiyyət etalonunu aldı və bu səbəbdən dünyanın 44 ölkəsinə satıldı.

60-cı illərdə Qırğızıstanda 130-dan çox sənaye müəssisəsi və sexi istismara verildi. Sənaye məhsullarının həcmi iki dəfə artdı. Respublikada sənayenin aparıcı sahəsi yanacaq idi. Mərkəzi Asiyada çıxarılan bütün daş kömürün 39 faizini Qırğızıstan verirdi. İssık-Kul, Cerqalan və Hacı Soyda daş kömür ehtiyatlarından istifadə olunmağa başlandı.

Fərqanə dağ silsiləsi neft və qaz yataqları ilə zəngindir. Kok-Daş və İzbaskənd neft yataqlarından istifadə olunması nəticəsində 1968-ci ildə neft çıxarılması 306,4 min tona qədər artdı. Qaz istehsalı isə 291,2 mln.kub.m təşkil edirdi. Alamedi, Üçkurqan və Frunzedə su elektrik stansiyaları tikildi.

1980-ci illərin əvvəllərində SSRİ-nin digər rayonlarında Çin və Əfqanıstanda yaşayan qırğızlarla əlaqə yaratmaq uğrunda hərəkat meydana çıxdı.

Qırğızıstanda bu dövrdə partiya elitası nümayəndələri mütəmadi olaraq bir-birini əvəz edən şimal və cənub tayfalarına bölünmüşdü. Ancaq 1985-ci ildə QKP MK-nın birinci katibi, 1961-ci ildən bu vəzifədə çalışan T.Usubəliyevin tutduğu vəzifədən kənarlaşdırılması ilə respublikada siyasi müvazinət pozuldu. 1985-ci ilin oktyabr ayında hakimiyyətə cənubluların nümayəndəsi A.Masəliyev gəldi. Ancaq respublikanın ictimai-siyasi həyatında heç bir şey dəyişmədi.

Qorbaçovun yenidənqurma siyasəti dövründə Qırğızıstanın yeni rəhbərliyi partiya və hökumətin strukturlarında əsaslı surətdə kadrların yerlərinin dəyişdirilməsinə başladı. A.Masəliyevin kadr siyasəti respublikada kütləvi narazılıq doğurdu. Özlərini partiyadaxili mübarizəyə həsr edən rəhbər qruplar ölkənin siyasi, iqtisadi və sosial vəziyyətinə diqqət yetirmirdilər. 1990-cı ilin yayında respublikanın cənubunda millətlərarası münaqişə meydana gələndə rəhbərlik şəraitə nəzarət edə bilmədi. Qırğızıstanın Oş vilayətində qırğızlarla özbəklər arasındakı qarşıdurma qan tökülməsi ilə nəticələndi.



Demokratik hərəkatın genişlənməsi və narazılıqların artması nəticəsində, 1990-cı ilin yayında, görkəmli siyasi xadim və parlament üzvlərinin daxil olduqları Qırğızıstan Demokratik hərəkatı yaradıldı.

QKP-nin mühafizəkar liderləri öz mövqelərini möhkəmlətmək üçün 1990-cı ilin payızında respublikada prezident institutunu qurdular. Ancaq prezident seçkilərində nə A.Masəliyev və nə də baş nazir A.Jumanquliyev seçicilərin 50% səsini toplaya bilmədi. Prezident seçkilərində Qırğızıstan Elmlər Akademiyasının Prezidenti Əskər Akayev qələbə qazandı. Onun namizədliyini demokratlar, islahatçılar və milli ziyalıların mütərəqqi hissəsi dəstəklədi.

Prezident öz işçi proqramında liberal-demokrat çoxpartiyalı sistemin formalaşmasına, cəmiyyətin demokratikləşdirilməsi və plüralizmə dəstək verilməsinə diqqət ayırırdı. O, ölkə iqtisadiyyatının liberallaşdırılması üzrə dərin islahatların keçirilməsi kursunu elan etdi.

QKP liderləri Moskvada 1991-ci il avqust qiyamını dəstəkləməklə Ə.Akayevi prezident vəzifəsindən kənarlaşdırmağa çalışırdılar. Ancaq FVDK-nın iflası QKP-nin qanundan kənar elan olunmasına səbəb oldu.

27 oktyabr 1924-cü ildə artıq SSRİ-nin tərkibində **Türkmənistan** Sovet Sosialist Respublikası yaradıldı. Türkmənistan SSR hökumətinin atdığı ilk addım Qırmızı ordunun 1920-ci ildəki qələbəsindən sonra başlayan torpaq-su islahatlarının davam etdirilməsi oldu. Eyni zamanda əvvəllər iri torpaq sahiblərinə - baylara məxsus olan torpaqların yenidən bölüşdürülməsi həyata keçirildi, kəndli kooperativlərinin təşkili və neftçıxarma sənayesinin bərpasına başlandı.

1926-cı ildə respublikada kənd təsərrüfatının kollektivləşdirilməsinə və iri pambıqçılıq plantasiyalarının yaradılmasına keçildi. 1929-cu ildə dehkanların təxminən 15%-i kollektiv təsərrüfatların (kolxozların) üzvü oldu. 1940-cı ildə praktiki olaraq bütün torpaqlar kolxozların istifadəsində idi. Onu becərən kəndlilər isə kolxozçu oldular. İkinci dünya müharibəsi başla-

mazdan bir az əvvəl Türkmənistan pambıq istehsalına görə SSRİ-də ikinci yerə (Özbəkistandan sonra) çıxdı. Kənd təsərrüfatının digər sahələri də intensiv inkişaf edirdi. Buna suvarma sisteminin genişləndirilməsi və təkmilləşdirilməsi, ilk növbədə su anbarları və suvarma kanallarının qurulması səbəb oldu.

1928-ci ildə Türkmənistanda, əsasən yüngül və yeyinti sənayesində həyata keçirilən sənayeləşmə başladı. Nebit-Dağda neft, Qara-Boğazgöldə sulfat, Qaraqumda kükürd çıxarılmağa başlandı.

1930-cu illər neftçıxarma sənayesinin intensiv inkişafı ilə əlamətdar idi. Vətəndaş müharibəsi zamanı zərər çəkən Çələkən yarımadasının yataqlarından neft çıxarılması bərpa olundu, Nebit-Dağda yeni yataqlar tədqiq olunub istismara verildi. Türkmənistanda çıxarılan və ya yetişdirilən demək olar ki, bütün xammal digər sovet respublikalarına emala göndərilirdi.

Sənaye istehsalının inkişafının ən mühüm nəticələrindən biri yeni sosial qrupun – mühəndis-texniki işçilərin və ixtisaslı fəhlələrin formalaşması oldu. SSRİ federal hökumətinin dəstəyi ilə respublikada əhalinin savadlılıq səviyyəsi əhəmiyyətli dərəcədə yüksəldi, təhsil və səhiyyənin inkişafı sahəsində mühüm tərəqqiyə nail olundu.

Kənd təsərrüfatı sahəsində pambıq və qaragül qoyunlarının yetişdirilməsi mühüm yer tuturdu. Burada kollektivləşmə 1929-cu ildə başlandı. Bununla belə, kollektivləşmə zamanı kənd təsərrüfatında demək olar ki, türkmən orta təbəqəsi («qolçomaqlar») tamamilə məhv edildi. 1930-cu illərin ortalarından 1953-cü ilə qədər davam edən repressiyalar zamanı isə bütün müsəlman ruhaniliyi və yeni yaranmaqda olan milli ziyalıların əhəmiyyətli hissəsi cəza tədbirlərinin qurbanı oldu.

İkinci dünya müharibəsi Türkmənistanın iqtisadi inkişafına güclü təkan verdi. Belə ki, müharibənin başlanğıcında SSRİ-nin qərb rayonlarından bir çox sənaye müəssisəsi Türkmənistana köçürüldü; nəqliyyatın sürətli inkişafı üçün zərurət yarandı. O zaman Aşqabad dəmir yolu Xəzər limanı olan Krasnovodska qədər uzadıldı.



Böyük Vətən müharibəsinin əvvəllərində yaradılan 87-ci əlahiddə türkmən briqadası bir qədər sonra 76-cı atıcı diviziyanın əsasını təşkil etdi. Müharibə zamanı Türkmənistanın 19 min əsgər və zabiti orden və medallarla təltif olundu, 51 türkmən döyüşçüsü Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.

Bununla belə, müharibə dövründə Türkmənistanda, Ənvər paşanın silahdaşı Harun ər-Rəşidin rəhbərliyi altında milli-azadlıq hərəkatı meydana gəldi. O, «Şərqi-türk silahlı qüvvələrini» yaratdı. Bu hərbi birləşmə SSRİ-nin türk xalqlarının qüvvələrini birləşdirmək məqsədini güdürdü.

Müharibədən sonrakı illərin iqtisadi və sosial çətinliklərinə, 1948-ci ildə türkmən xalqının başına gələn fəlakət – Aşqabadda dağıdıcı zəlzələ də əlavə olundu. Bununla belə, müharibədən sonrakı dövrdə respublikanın milli təsərrüfatını bərpa və modernizə etmək mümkün oldu: neft-qaz kompleksi yaradıldı, neft emalı sənayesi inkişaf etdirildi, Qaraqum kanalı tikildi, kənd təsərrüfatı istehsalının texnikası təkmilləşdirildi, o cümlədən pambıq məhsulunun yığımı artırıldı.

Türkmənistan müharibədən sonra digər müttəfiq respublikalarla birlikdə SSRİ xalq təsərrüfatının bərpasında fəal iştirak etdi. Bu dövrdə respublikada 60 müasir müəssisə və sex tikildi. Sənayenin neftçıxarma, kimya və maşınqayırma sahələri daha müvəffəqiyyətlə inkişaf edirdi. Respublika neftçıxarmanın səviyyəsinə görə SSRİ-də 3-cü yerə çıxdı. Zəngin təbii qaz yataqları aşkar edildi. Mərkəzi Qaraqumda Darvaza-Zeaqli qaz yatağı SSRİ-də ən böyük yataq idi. Cənub - şərqi Taşauzda Açaq, Bayram Əli və Kuqurtludan şimalda zəngin qaz yataqları var idi. Xəzər dənizində, Amudərya, Murqab və Qaraqum kanalında balıqçılıq inkişaf edirdi.

Aşqabad, Murqab, Sandıqaç və digər şəhərlərdə üzümçülüklə məşğul olurdular. 1956-cı ildə Belqradda keçirilən Beynəlxalq sərgidə «Yasman-Salıq» şərabı qızıl medal, «Terbaş» şərabı isə gümüş medal aldılar.

**Özbəkistanda** da sovetləşmə dövründə torpaq-su islahatları keçirildi. SSRİ-də sosializm quruculuğunun Lenin planı əsa-

sında Özbəkistanda 1925-1929-cu illərdə sənayeləşmə və kollektivləşmə prosesi başlandı. Bir sıra sənaye müəssisələri, əsasən yüngül və yeyinti sənayesi müəssisələri tikildi. Kənd təsərrüfatının aparıcı sahələri pambıqçılıq və qaragül qoyunlarının yetişdirilməsi idi. Xırda kəndli təsərrüfatları iri kolxoz və sovxozlarda birləşirdilər. 1932-ci ilin yazında torpaq sahələrinin 3/4 -ü kolxozlara daxil edilmişdi.

Müharibəyə qədər olan beşilliklərdə Özbəkistan SSR-də 500-dən çox müxtəlif sənaye müəssisəsi, o cümlədən «Taşselmaş», Daşkənd toxuculuq kombinatı, Çirçik elektrik-kimya kombinatı tikildi. Neft çıxarılması artdı, iri sənaye müəssisələrinin bazasında yeni şəhərlər meydana gəldi, köhnələri: Çirçik, Bəyabad, Kattakurqan və s. yenidən quruldu.

Özbəkistanın kolxoz və sovxozları müharibə illərində taxıl istehsalını iki dəfə artıraraq respublikanın çörəyə olan tələbatını ödədilər. Özbəklər digər sovet xalqları ilə yanaşı, həm ön cəbhədə, həm də arxa cəbhədə düşmənə qarşı fəal mübarizə aparırdılar. Qəhrəmanlıq nümayiş etdirən 67 özbək Sovet İttifaqı Qəhrəmanı yüksək adına layiq görüldü.

Dövlət Müdafiə Komitəsinin 31 avqust 1944-cü il tarixli qərarı ilə Gürcüstanın 220 kəndindən 100 min Məshəti türkü Qazaxıstan, Qırğızıstan və Özbəkistana deportasiya edildi. Yerinin dəyişdirilməsi bir çox Məshəti türkü üçün acınacaqlı oldu. Onlar köçürüldükləri ilk günlərdən tarixi vətənlərinə qayıtmaq uğrunda mübarizəyə başladılar.

Müharibədən sonrakı dövrdə Mərkəzi Asiya respublikaları iqtisadi cəhətdən inkişaf etdilər. 60-cı illərdə Özbəkistanda 450 sənaye müəssisəsi tikildi. Sənaye məhsullarının həcmi 80 faiz artdı. Ağır sənaye də sürətlə inkişaf edirdi. Elektrik vakuum cihazlarının, yarımkeçiricilərin, elektron və radiotexnika cihazlarının istehsalına başlandı. İri təbii qaz yataqlarının aşkar edilməsi nəticəsində Özbəkistanda qaz sənayesi inkişaf etdi. Dünyada ən böyük qaz kəməri olan Buxara-Ural Uralın müəssisələrini də qazla təchiz edirdi. Murquntauda zəngin qızıl filizi yataqları aşkar olundu.



70-80-ci illərdə Özbəkistan Sovet İttifaqının mühüm pambıq bazası olaraq qalmaqda idi. Özbəkistanda siyasi cəhətdən hakimiyyət Moskvadan təyin olunan birinci katib başda olmaqla Kommunist partiyasının inhisarına məxsus idi. 1953-1983-cü illərdə birinci katib vəzifəsini Şərəf Rəşidov tuturdu. 1983-cü ildə onu fərqanəli İmamjon Usmanxocayev əvəz edərək partiya və dövlət aparatında geniş təmizləmə işlərinə başladı. Yenidənqurmanın gedişatında Moskvada hakimiyyətə gələn mərkəzi partiya rəhbərliyi Özbəkistanda baş verən hadisələrə müdaxilə etdi. 1988-ci ildə ÖKP-nin I katibi İ.Usmanxocayev korrupsiyada günahlandırılaraq vəzifədən götürülüb həbs olundu. Yeni birinci katib Rafik Nişanov Moskvanın köməyi ilə özbək partiya nomenklaturasındakı icmalara qarşı mübarizəni davam etdirdi. Məmurların həbsi, vilayətlərin və nazirliklərin yenidən qurulması respublikanın rəhbər elitasında ona düşmənlər yaratdı.

4 dekabr 1988-ci ildə Daşkənddə Tasıqbayev meydanında gənclərin mitinqi oldu. Dekabrın 14-də Əndicanda rusların əleyhinə vərəqələr yayıldı.

1989-cu ilin yayında Fərqanə vadisində Məshəti türklərinin kütləvi talanı baş verdi. Nəticədə onların 60 mindən çoxu Özbəkistanı tərk etdi. Bu hadisədən sonra R.Nişanov vəzifədən çıxarıldı və birinci katib İslam Kərimov təyin olundu. O, 1990-cı ildə respublikanın prezidenti seçildi. Əhalinin sabitliyə və icma qüvvələrinin bərabərliyinə can atmasına istinad edən İ.Kərimov tez bir zamanda hakimiyyətini möhkəmlətdi.

Regionun digər respublikalarından fərqli olaraq, Özbəkistanda çoxpartiyalı sistemə keçid dinamik idi. İlk müxalifətçi təşkilat «Birlik» xalq hərəkatı oldu. Onun təşəbbüs qrupu 11 noyabr 1988-ci ildə yaradıldı. Bu qrupa Əbdürrəhmon və Əbdümənnon Pulatovlar, akademik Bek Qoşməhəmmədov, şair Usman Əzim daxil idilər. 28 may 1989-cu ildə təşkilatın təsis konfransı çağırıldı və tezliklə o, böyük sosial qüvvəyə çevrildi. Məhz bu təşkilatın tələbi ilə 1989-cu ilin oktyabr ayında keçirilən mitinqlər zamanı özbək dilinin dövlət dili elan olunması

haqqında qanun qəbul edildi. «Birlik» xalq hərəkatı kommunist rəhbərliyinə qarşı daima mübarizə aparırdı. Ancaq «Birliyin» loyal əhval-ruhiyyəli üzvləri Məhəmməd Saleh başda olmaqla onun tərkibindən çıxıb 27 aprel 1990-cı ildə «Ərk» demokratik partiyasını yaratdılar. 5 sentyabr 1991-ci ildə partiya rəsmi olaraq qeydiyyata alındı və ilk prezident seskilərində iştirak etdi. «Birlik» isə tədricən Özbəkistan demokrat partiyasına çevrildi. Yeni partiyanın təsis konfransı 17 iyun 1990-cı ildə keçirildi.

**Krım, Volqaboyu və Sibirin** sovetləşdirilməsi vətəndaş müharibəsinin dağıtdığı xalq təsərrüfatının bərpası ilə başlandı. Sovet hökuməti bu vilayətlərdə öz hakimiyyətini möhkəmləndirmək üçün tədbirlər həyata keçirtdi. Sosialist dəyişiklikləri və tədbirləri sürətlə və zorakılıqla həyata keçirilirdi. 1925-ci ildə sənayeləşmə başladı. Volqaboyu, Ural və Sibirdə çoxlu sənaye müəssisəsi tikildi. Artıq 30-cu illərin sonu üçün bu rayonlar Sovet İttifaqının iri sənaye mərkəzlərinə çevrildilər.

1928-ci ildə kollektivləşmə həyata keçirilməyə başlandı. Ural və Sibirin xam və dincə qoyulmuş torpaqlarında qabaqcıl texnika ilə təchiz olunmuş iri taxıl sovxozları yaradıldı. Bu sovxozlar yalnız bütün ölkəyə satmaq üçün taxıl tədarükü ilə məşğul olmur, həmçinin kəndli təsərrüfatlarının kollektivləşdirilməsinə səbəb olur, kəndlilər üçün kollektiv istehsal məktəbinə çevrilirdilər. 1929-cu ilin yay və payızında Orta Volqanın Orenburq vilayətində qolçomaq təsərrüfatının 50 faizində qolçomaqlıqdan salınma prosesi həyata keçirildi.

ÜİK(b)P MK-nın «Kollektivləşmənin sürəti və kolxoz quruculuğuna dövlət yardımı tədbirləri haqqında» 5 yanvar 1930-cu il tarixli qərarına görə, Şimali Qafqaz və Orta və Aşağı Volqa rayonlarında kollektivləşmə prosesi 1930-cu ilin payızı və ya 1931-ci ilin yazına qədər başa çatdırılmalı idi. Sibir, Ural və Qazaxıstan rayonlarında isə bu proses 1931-ci ilin payızına və ya 1932-ci ilin yazına qədər davam edə bilərdi. Buna baxmayaraq, bir tərəfdən kənd təsərrüfatı maşınlarının çatışmazlığı, digər tərəfdən isə kəndlilərin kolxozlara girmək arzusunun olmaması ÜİK(b) P MK-nın bu qərarının həyata keçirilməsinə imkan vermirdi. 1932-ci ilin sonlarında kollektivləşmənin ən qızğın vaxtında Aşağı və Orta Volqa, Cənubi Ural və Sibirin cənubunu aclıq bürüdü.



Bununla belə, sovetləşmə dövründə Volqaboyu, Ural və Sibirdə iri sənaye müəssisələri tikildi. 1931-1932-ci illərdə Ural maşınqayırma zavodunun birinci növbəsi istismara verildi. Ural mis kombinatı tikildi. Yüngül və yeyinti sənayesi məhsullarının istehsalı xeyli sürətləndi. Həştərxan balıq-konserv kombinatı işə salındı.

Başqırdıstanda motor zavodu tikildi, Sterlitamakda neft çıxarılırdı. Beloretsk metallurgiya zavodu, Baymak mis kombinatı və s. yenidən quruldu.

Tatarıstanda birinci beşillik ərzində sənaye məhsulları 3,5 dəfə artdı. Udmurtiyada İjevsk maşınqayırma zavodu yenidən quruldu. Motosikl zavodu tikildi.

1933-1934-cü illərdə Ural və Kramatorsk ağır maşınqayırma zavodları, Çelyabinsk traktor zavodu, Solikamsk kalium kombinatı və s. kimi yeni texnika ilə təchiz olunmuş onlarla iri müəssisə işə salındı. Dubrovsk, Kemerovo və s. elektrik stansiyaları istismara verildi.

1932-ci ildən pasport rejiminə keçildi. Ancaq kəndlilərə pasport verilmədiyindən onlar bir yerdən digər yerə getmək hüququndan məhrum oldular. Xalq arasında bu qərar «bolşeviklərin ikinci təhkimçilik hüququ» adlanırdı. Sənayeləşdirmə kəndin soyulması hesabına həyata keçirilirdi. Aclıqdan ölənlərin sayı 10-15 milyon nəfəri keçirdi.

1937-1938-ci illərin Stalin repressiyaları Sovet İttifaqının türk regionlarını da bürümüşdü. Bütün bunlara baxmayaraq, türk xalqları ikinci dünya müharibəsi zamanı SSRİ-ni alman faşistlərindən müdafiə edərək qəhrəmanlıq nümayiş etdirdilər. Müharibə dövründə 161 tatar, 38 başqırd, 9 kalmık, 6 adıgey, 6 kabardalı, 1 tuvalı Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.

Müharibə illərində türk xalqları həm də cəbhəni neftlə təchiz edirdilər. 1941-1945-ci illərdə ölkədə çıxarılan neftin 75%-ni Bakı verirdi, Şimali Qafqaz, Qazaxıstan və Volqa-Ural nefti isə 25% təşkil edirdi.

Almanlar türk xalqlarının yaşadığı ərazidə Almaniyadan asılı olacaq «Böyük Türküstan» dövlətini yaratmaq istəyirdilər. Bu dövlətin tərkibinə Şimali və Cənubi Azərbaycan, Mərkəzi Asiya, Başqırdıstan, Tatarıstan, Krım, Şimali Qafqaz, Qərbi Çin və Əfqanıstan daxil olmalı idi.

Türk xalqlarının ayrı-ayrı nümayəndələrinin almanlarla əməkdaşlığı onların deportasiya edilməsi üçün bəhanə oldu. 18 may 1944-cü il tarixli fərmana müvafiq olaraq 2 mln.-a qədər Krım türkü doğma yerlərindən sürgün olundu. Noyabr ayında Gürcüstanın sərhəd rayonlarından 1 mln.-a qədər Məshəti türkü deportasiyaya məruz qaldı.

1945-ci ildə Krım MSSR ləğv edildi. Tuvalılar da Sovet dövlətinin qanlı təzyiqlərindən canlarını qurtara bilmədilər. 1944-cü ilin oktyabr ayında Tuva Respublikası müstəqilliyini itirərək RSFSR-in muxtar vilayətlərindən birinə çevrildi.

5 mart 1953-cü ildə İ.V.Stalinin vəfatından sonra, sentyabr ayında Sov.İKP MK-nın birinci katibi N.S.Xruşşov seçildi. Onun təşəbbüsü ilə bir çox qanunsuz repressiya olunan partiya və dövlət xadimləri bəraət aldılar.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 9 yanvar 1957-ci il tarixli fərmanı ilə balkar, kalmık və qaraçaylıların milli muxtariyyətləri bərpa olundu. 1958-ci ildə Kalmık və Kabarda-Balkar MSSR və Qaraçay-Çərkəz muxtar vilayəti yaradıldı.

19 fevral 1954-cü ildə Ukraynanın Rusiyaya birləşdirilməsinin 300 illiyi ilə əlaqədar olaraq Krım vilayəti Ukraynaya verildi. Bura qərbi ukraynalıların məskunlaşdırılmasına başlandı. Ancaq Krım türkləri Vətənə qayıtmaq uğrunda mübarizəni dayandırmadılar. 1956-cı ildə Krım tatarları xüsusi qeydiyyatdan çıxarıldılar. 1967-ci ildə SSRİ Ali Soveti Rəyasət Heyəti «Krımda yaşayan tatar milliyyətindən olan vətəndaşlar haqqında» fərman verdi. Fərmana görə Krım tatarları digər



xalqlarla bərabər hüquq alırdılar. Ancaq pasport rejiminə görə, onların Vətənə qayıtması qeyri-mümkün oldu. Yalnız yenidənqurma dövründə Krım tatarları doğma yerlərinə qayıtmağa başladılar.

28 aprel 1956-cı il tarixli fərmanla deportasiya olunan xalqların, xüsusilə Məshəti türklərinin xüsusi yaşayış yerlərinə məhdudiyyətlər aradan qaldırıldı. Bundan sonra «məshətilərin hərəkatı» başlandı. Ancaq bu fərman da Məshəti türklərinin hüquqlarını bərpa edə bilmədi. 1964-cü ilin fevral ayında onlar Daşkənd vilayətində Məshəti türklərinin azadlığı uğrunda mübarizənin Müvəqqəti Təşkilat Komitəsini yaratdılar.

30 may 1968-ci ildə SSRİ Ali Soveti Rəyasət Heyəti Məshəti türklərinə Gürcüstanın digər xalqları ilə bərabər hüquqlar verən yeni fərman nəşr etdirdi. Onlar İttifaqın istənilən yerində, o cümlədən Gürcüstanda yaşamaq hüququnu aldılar. Ancaq Gürcüstan rəhbərliyi onların Vətənə qayıtmaq haqqında xahişinə rədd cavabı verdi.

Krımda 60-80-ci illərdə sənaye inkişaf edirdi. Simferopol, Sevastopol və Qamış-Burun DRES-ləri yarımadanı elektrik enerjisi ilə təchiz edirdilər. Kerç dəmir filizi əsasında Qamış-Burun kombinatı və Kerçdə metallurgiya zavodu tikildi. Krımda, həmçinin kimya sənayesi və gəmiqayırma da inkişaf edirdi.

80-ci illərdə Şimali Krım kanalının ikinci növbəsi tikildi, müəssisələrin istehsal gücü genişləndirildi. Sevastopol çörək və Feodosiya süd zavodları yenidən quruldu. Fəaliyyətdə olan müəssisələrin sırasına Simferopol pnevmotəchizat zavodu, Simferopol evtikmə kombinatı, «Santexprom» zavodu, digər sənaye obyektləri qoşuldu. 325 yeni çox məhsuldar xətt çəkildi, 146 sex və sahə mexanikləşdirildi. Nəticədə 20 min nəfər az məhsuldar əl əməyindən azad edildi. Sənayenin əsas fondu 2,3 mlrd.manata çatdı.

Volqaboyu və Sibirin iqtisadiyyatı 50-80-ci illərdə sürətlə inkişaf edirdi. Volqa, İrtış, Ob və Yeniseydə su-elektrik stansiyaları, metallurgiya və kimya zavodları tikildi. Volqa-Don ka-

nalının tikilməsi xalq təsərrüfatı üçün mühüm əhəmiyyət kəsb edirdi.

Başqırdıstan inkişaf etmiş sənaye və kənd təsərrüfatı respublikasına çevrildi. Neft çıxarılması və istehsalı genişləndirildi, nəticədə respublika SSRİ-nin mühüm neft bazalarından biri oldu. Bakı neftçilərinin köməyi ilə Tuymazı, İşimbay, Şkanov, Ərlan və Çəkməquşda neft çıxarılırdı. Ufa, Salavat və İşimbay neft emalı zavodlarının, kimya, neft-kimya, elektrik enerjisi, Sterlitamak maşınqayırma zavodlarının məhsuldarlığı artdı. Respublikada, həmçinin soda, sement və turşu istehsal olunurdu.

Tatarıstan neft istehsalı, sintetik kauçuk, müxtəlif üzvü kimyəvi məhsullar, kinofotomateriallar, tibbi preparatlar, maşınqayırma, yüngül və yeyinti sənayesi üzrə ixtisaslaşmışdı. Şuqurovo, Bavlı, Zainsk neft yataqlarının istismarı mühüm əhəmiyyətə malik idi. 1976-cı ildə Kama avtomobil zavodu istismara verildi.

Volqaboyu və Sibirin xam torpaqlarının mənimsənilməsi taxıl istehsalının yüksəlişinə səbəb oldu. Ancaq Şərqi Sibirin xam torpaqları istifadəyə verilmədi. 1964-cü ildə bu işdə kobud səhvlər aşkar edildi. Belə ki, Sibirin yeni əkin sahələri erroziyaya uğrayıb otlaqlara çevrildi.

60-cı illərin əvvəllərində N.Xruşşovun təşəbbüsü ilə taxıl sahələrinin ¼ hissəsində qarğıdalı əkininə başlanıldı. Qərbi Sibirdə də qarğıdalı istehsalı genişləndirildi. 1964-cü ilin yayında Qərbi Sibirdə neft və qaz yataqları aşkar edildi. Artıq 80-ci illərdə SSRİ-də çıxarılan neftin 2/3 hissəsini, qazın 60%-ni Qərbi Sibir verirdi. Dağlıq Altayın cənub-şərqində Ağdaş (Belokamensk) civə mədənləri fəaliyyət göstərir. Qərbi Sibirdə iri maşınqayırma və metal istehsalı yüksək inkişaf etmiş, tikinti materialları sənayesi və ağac emalı geniş yayılmışdı. Qərbi Sibirin dənli bitkilərinin 40%-ni Altay diyarı verirdi. Təsərrüfatda maralçılıq mühüm rol oynayır. Biy vadisində qızıl çıxarılır. Şərqi Sibir qara və əlvan metallarla zəngindir. Burada çıxarılan almaz xalq təsərrüfatında mühüm rol oynayır. Şərqi Sibirdə, həmçinin maşınqayırma, kimya və meşə sənayesi inkişaf edir.



Xakasiya və Tuvada heyvandarlıq daha çox inkişaf etmişdir. Tuvanın mərkəzi iqtisadi paytaxtı Qızıl şəhəridir. Burada meşəqıran, kərpic, süd, pivə zavodları, mebel fabriki, toxuculuq kombinatı, Kaxem daş kömür karxanası və təbaşir istehsalı üzrə kombinat fəaliyyət göstərir.

70-ci illərdə «Tuvakobalt» kombinatı tikildi. Piy-Xemsk rayonunun mərkəzi Turan şəhəridir. Çadan istilik elektrik stansiyası, Qızıl buxar-boru elektrik stansiyası, Nazarov DRES, Sayano-Şuşensk SES-i fəaliyyətdədir.

80-ci illərdə Baykal-Amur magistralının (3200 km) tikintisi başa çatdırıldı.

Ölkəni bürüyən iqtisadi və siyasi böhran Volqaboyu və Sibirə də yayıldı. 1986-cı ilin mart-aprel aylarında Yakutiyada yakut tələbələri ilə rus gəncləri arasında toqquşma baş verdi.

# X FƏSİL
# TÜRK DÜNYASI XX ƏSRİN SONU – XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ

## § 1. Türkiyə qloballaşma dövründə

1991-ci ildə Qafqazda və Mərkəzi Asiyada müstəqil türk dövlətlərinin yaranması ilə Türkiyənin xarici siyasətində bir «region dövləti» kimi yeni dövr açılmış oldu. Türkiyənin prezidenti T.Özal Azərbaycana və Mərkəzi Asiya dövlətlərinə səfər edərək «XXI əsrin ümumtürk əsri olacağı» barədə şüar irəli sürdü. Buna görə də Türkiyə türk dövlətlərinin hərtərəfli inkişafına yardım etməyə hazır olduğunu bəyan etdi.

Onların arasında əməkdaşlığı inkişaf etdirmək məqsədilə bu dövlətlərin başçılarının zirvə toplantıları çağırıldı. Birinci belə görüş 30-31 oktyabr 1992-ci ildə Ankarada Türkiyə, Azərbaycan, Türkmənistan, Qazaxıstan, Qırğızıstan və Özbəkistan prezidentlərinin iştirakı ilə oldu. Görüşdə Ankara bəyannaməsi imzalandı. İkinci görüş 1994-cü ilin oktyabr ayında İstanbulda keçirildi.

1993-cü ilin əvvəllərində prezident ölkənin xarici siyasət məsələləri ilə fəal surətdə məşğul oldu. T.Özal fevral ayında Balkan ölkələrinə səfər edərək Türkiyənin Balkan müsəlmanları qarşısında tarixən məsuliyyət daşıdığını bildirdi və bosniyalı dindaşlarına serblərlə mübarizədə mənəvi dəstək verdi. Aprel ayında T.Özal Azərbaycana gələrək, Ermənistanla silahlı münaqişədə Azərbaycanın mövqeyindən çıxış etdi. 17 aprel 1993-cü ildə T.Özal ürək tutmasından vəfat etdi. 16 may 1993-cü ildə parlament Türkiyənin yeni prezidenti vəzifəsinə Süleyman Dəmirəli seçdi.

Doğru Yol Partiyasının (DYP) iyulun 13-də keçirilən qurultayında Tansu Çillər onun baş katibi seçilərək, eyni zamanda DYP-SXP (Ərdal İnönünün Sosialist xalq partiyası) koalision hökumətinin baş naziri oldu. Türkiyənin tarixində ilk dəfə qadın baş nazir vəzifəsini tutdu. Tezliklə o, siyasi ağıl, idarəçi-



lik qabiliyyəti və demokratik dəyişikliklərinə görə «Türkiyənin dəmir ledisi» adını aldı. Bununla belə, onun hökuməti hər zaman bəzi iqtisadi problemlərin həllinə müvəffəq olmurdu. Nəticədə 1995-ci ilin parlament seçkilərində DYP 132 mandat aldı. Birinci yeri 158 mandat toplayan Rifah partiyası (RP), ikinci yeri isə 135 mandatla Ana Vətən partiyası (AVP) tutdu.

Bu partiyaların kifayət qədər səs toplaması ilə əlaqədar olaraq yenidən AVP ilə DYP-nin koalision hökuməti yaradıldı. AVP-nin lideri Məsud Yılmaz baş nazir oldu. Ancaq onun hakimiyyəti uzun sürmədi. 1996-cı ilin payızında RP ilə DYP-nin yeni koalision hökuməti yaradıldı. Baş nazir RP-nin lideri Nəcməddin Ərbakan, xarici işlər naziri isə Tansu Çillər oldu.

Hökumətin tez-tez dəyişməsinə baxmayaraq, Türkiyənin xarici siyasəti, xüsusilə müstəqil türk dövlətlərinə münasibətdə dəyişməz qalırdı. Zirvə görüşləri davam edirdi. Belə ki, 28 avqust 1995-ci ildə Bişkekdə türk dilli ölkələrin dövlət başçılarının üçüncü görüşü oldu. O, qırğız eposu «Manas»ın 1000 illik yubileyinə həsr edilmişdi.

Dördüncü belə görüş 21-22 oktyabr 1996-cı ildə Daşkənddə, böyük türk sərkərdəsi-fateh əmir Teymurun 650 illik yubileyinin şərəfinə keçirildi.

28 iyun 1996-cı ildə N.Ərbakan Türkiyədə birinci dünya müharibəsi dövründən etibarən ilk açıq islam təmayüllü baş nazir oldu. N.Ərbakan ölkə daxilində müsəlmanların fəaliyyətini dəstəkləyir, beynəlxalq aləmdə isə İran və digər müsəlman ölkələri ilə yaxınlaşmaq siyasətini yeridirdi. O, ölkənin xarici siyasət xəttini yeni istiqamətə döndərməyə cəhd edərək qərbyönümlü istiqamətdən uzaqlaşdı. Ancaq bu, ictimai rəydə birmənalı qarşılanmadı.

Hadisələrin bu məcrada inkişafından təşvişə düşən hərbçilərin üstünlük təşkil etdiyi Milli təhlükəsizlik şurası 1997-ci ilin mart ayında N.Ərbakana 20 tələbdən ibarət siyahı təqdim etdi. Növbəti hərbi çevriliş ola biləcəyindən ehtiyat edən N.Ərbakan Milli təhlükəsizlik şurasının tələblərini qəbul etdi.

1997-ci ilin iyun ayında N.Ərbakanın başçılıq etdiyi koalisiya dağıldı və o, istefa vermək məcburiyyətində qaldı. İyul ayında müxalifətçi Ana Vətən Partiyası və iki xırda partiya: Demokratik sol və Türkiyənin Demokrat partiyalarının nümayəndələrindən ibarət yeni hökumət formalaşdı. Baş nazir, dünyəvi mənəvi dəyərlərə qayıtmağı vəd edən AVP-nin lideri Məsud Yılmaz oldu.

2 sentyabr 1998-ci ildə prezident S.Dəmirəl yeni hökumətin yaradılmasını B.Ecevidə tapşırdı. Sonuncu isə ölkənin daxili və xarici siyasətində uğurlu düzəlişlər etdi. Məhz o, PKK lideri A.Öcalanın həbsinə nail oldu. B.Ecevid və onun partiyası ictimaiyyət arasında populyarlıq qazandı və buna görə də Demokratik sol partiya 18 aprel 1999-cu ilin parlament seçkiləri zamanı birinci oldu.

B.Ecevidin koalision hökuməti DSP, MHP və AVP nümayəndələrindən ibarət idi. Onun müavinləri Millətçi hərəkat partiyasının lideri Dövlət Bağçalı və Ana Vətən Partiyasının lideri Məsud Yılmaz oldular. Bu hökumət korrupsiyaya, rüşvətxorluğa, qanun pozuntusuna və s. qarşı mübarizəyə xüsusi əhəmiyyət verirdi. Türkiyə NATO-nun üzvü olaraq 1999-cu ildə Kosovo böhranının aradan qaldırılmasında fəal rol oynadı. O, bu regiondan olan qaçqınları qəbul etdi.

9 iyun 1998-ci ildə Astanada şəhərin Qazaxıstanın yeni paytaxtı elan olunması şərəfinə türkdilli ölkələrin dövlət başçılarının beşinci zirvə toplantısı çağırıldı.

8 aprel 2000-ci ildə Bakıda böyük türk eposu «Kitabi Dədə Qorqud»un 1300 illik yubileyi münasibətilə türkdilli ölkələrin başçılarının altıncı görüşü keçirildi. Bakı bəyannaməsi qəbul edildi.

2000-ci ildə keçirilən prezident seçkilərində Əhməd Necat Sezər, parlament seçkilərində isə Ədalət və inkişaf partiyası qələbə qazandı. Partiyanın lideri Rəcəb Tayyib Ərdoğan Türkiyənin baş naziri oldu.

Böhran 1995-ci ildə dayandırılandan sonra ölkə iqtisadiyyatının inkişafının normallaşması 2001-ci ilin başlanğıcına qədər davam etdi. Ancaq bu, heç də neqativ proseslərin aradan qaldırılması demək deyildi. 2001-ci ilin fevral ayında Türkiyə yeni güclü böhranla qarşılaşdı. İnflyasiya və qiymətlər artdı, əmək haqqı aşağı düşdü, işsizliyin artması sosial narazılıq doğurdu.

Ancaq Türkiyə hökuməti öz kursundan imtina etmədi. Ölkəni mövcud vəziyyətdən çıxartmaq üçün özəlləşdirməni sürətləndirmək və onun miqyasını genişləndirməyi, Qanundakı boşluqları aradan qaldırmaq məqsədilə Konstitusiyada düzəlişlər edilməsini nəzərdə tutan tədbirlər paketi hazırlandı.

Bu tədbirlərin həyata keçirilməsi üçün böyük məbləğdə pul tələb olunurdu. Buna görə də Dünya Bankı və Beynəlxalq Valyuta Fondu kimi iri maliyyə mərkəzləri, ABŞ və Avropa ölkələri Türkiyəyə maddi yardım etməyi öhdələrinə götürdülər. Bununla yanaşı, qeyri-istehsal sahələri üzrə dövlət xərclərinə qənaət olunması planlaşdırıldı. Hökumət bu tədbirləri həyata keçirməyə başladı. Nəticədə böhranın artmasının qarşısı alındı. 25 sentyabr 2001-ci ildə TBMM Konstitusiyaya düzəlişlər edilməsi barədə qərar qəbul etdi.

Qloballaşma dövründə Türkiyənin xarici siyasətində elə bir mühüm dəyişikliklər olmadı. O, ABŞ ilə əməkdaşlığı davam etdirir və dünyanın super dövləti ilə münasibətlərini daha da möhkəmləndirir. Hələ T.Özal ABŞ-a səfəri zamanı Amerika prezidentinə strateji əməkdaşlıq təklif etmişdi. Müdafiə və iqtisadi əməkdaşlıq barədə müqavilənin vaxtı uzadıldı.

Türkiyənin strateji maraqları Almaniya Federativ Respublikası ilə əməkdaşlığa əhəmiyyət verməyi tələb edir. İki ölkə arasında xarici ticarət əlaqələri yüksək səviyyədədir. AFR Türkiyəyə iqtisadi yardım göstərən mühüm ölkələrdən biridir. Almaniyada yaşayan və işləyən türk vətəndaşlarının problemləri müzakirə olunaraq həll edilmişdir.

Digər Avropa ölkələri ilə Türkiyənin qarşılıqlı münasibətləri normal axarı ilə gedir. Ancaq Türkiyənin Avropa İttifaqına üzv qəbul olunması məsələsi hələ də öz həllini tapmayıb.

1989-cu ildə Yeni Demokratik partiya hakimiyyətə gələndən sonra Yunanıstanla da münasibətlər yaxşılaşmağa doğru yönəlmişdir. Ancaq 1992-ci ildə Balkan böhranı zamanı mövqelərin uzlaşmaması üzündən iki ölkə arasında «sualtı Balkan mübarizəsi» başlandı. Digər tərəfdən, Kipr məsələsi üzrə beynəlxalq danışıqlar və görüşlər zamanı irəliləyişin olmaması da Türkiyə ilə Yunanıstanın münasibətlərinə mənfi təsir göstərir.

Türkiyənin 17 yanvar 1991-ci ildə Körfəz böhranı zamanı NATO qüvvələrinin keçirdiyi «Səhrada tufan» əməliyyatında iştirakından sonra İraqla da münasibətlər gərginləşdi. Bununla belə, Türkiyə kürd separatizminə qarşı çıxaraq İraqın ərazi bütövlüyünü müdafiə edir. O, mənzil - qərargahı Suriyada yerləşən PKK terrorçularına qarşı fəal mübarizə aparır.

İslam inqilabından sonra Türkiyə ilə qonşu İran arasında bir qədər gərginləşən münasibətlər normal hala düşür.

SSRİ-nin süqutundan sonra Türkiyə ilə Rusiya arasında münasibətlərin əsasını 25 may 1992-ci il tarixi müqavilə qoymuşdur. 1994-cü ildə iki ölkə parlamentinin ratifikasiya etdiyi bu müqavilə onların arasında iqtisadi-ticarət əlaqələrinin genişlənməsi üçün imkan açdı. 90-cı illərin sonunda Türkiyə ilə Rusiya arasında əmtəə dövriyyəsi 10 mlrd.dollar təşkil edirdi. Hər iki dövlət Qara dəniz iqtisadi əməkdaşlıq təşkilatının yaradılmasının təşəbbüsçüsüdür və təşkilat çərçivəsində birgə fəaliyyət göstərirlər.

Türkiyə digər MDB ölkələri ilə də yaxşı qurulmuş əlaqələrə malikdir. O, böyük və güclü regional dövlət olaraq Qafqaz respublikaları və Mərkəzi Asiya ölkələri ilə münasibətlərə xüsusi diqqət ayırır.

SSRİ-nin süqutu və müstəqil türk dövlətlərinin yaradılması, onlarla qardaşlıq münasibətlərinin qurulması və möhkəmləndirilməsi üçün Türkiyənin xarici siyasətində yeni imkanlar açdı. Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Özbəkistanın müstəqilliklərini ilk tanıyan ölkə məhz Türkiyə oldu. O, türk dövlətlərinə hərtərəfli yardım göstərməyə hazır olduğunu bəyan etdi. Türkiyə yeganə ölkədir ki, Azərbaycan



ərazisi erməni işğalından azad olana qədər Ermənistanla öz sərhədlərini bağlayıb ona iqtisadi blokada elan etmişdir. O, Azərbaycanın ərazi bütövlüyünü tanıyaraq, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanı dəstəkləyir.

2003-cü ilin mart ayında Türkiyədə keçirilən parlament seçkilərində Ədalət və inkişaf partiyası qələbə çaldı. 16 may 2007-ci ildə prezident seçkiləri zamanı Türkiyənin prezidenti Abdulla Gül seçildi. Rəcəb Tayyib Ərdoğan isə hökumətə başçılıq etməkdədir.

Məhz Türkiyənin təşəbbüsü ilə türkdilli ölkələrin dövlət başçılarının görüşləri keçirilir. 26-27 aprel 2001-ci ildə İstanbulda yeddinci belə görüş, 2006-cı ilin noyabr ayında Antalyada səkkizinci, 2-3 oktyabr 2009-cu ildə Naxçıvanda doqquzuncu, 15-16 sentyabr 2010-cu ildə isə İstanbulda onuncu görüş oldu. Türkiyə Avropa ilə Asiya, xristian dünyası ilə müsəlman dünyası arasında bağlayıcı rol oynayır. Buna görə də dünyanın yeni düzəninin qurulması və formalaşması prosesi Türkiyənin iştirakı olmadan mümkün deyil. O, bütün çətinliklərə baxmayaraq, XXI əsrin əvvəllərindən başlayaraq hərbi-siyasi və iqtisadi inkişaf strategiyasını həyata keçirməkdə davam edir.

## § 2. SSRİ-nin dağılması və müstəqil türk dövlətlərinin yaranması

SSRİ-nin dağılması prosesində, 90-cı illərdən başlayaraq **Qazaxıstan** respublikasında siyasi şərait kökündən dəyişdi. 1990-cı ilin aprel ayında Ali Sovet N.Nazarbayevi Qazaxıstanın prezidenti seçdi. 1991-ci ilin avqust ayında FVDK-nın M.Qorbaçovun hakimiyyətdən kənarlaşdırıldığını elan etməsinin ikinci günü qazax rəhbəri çevrilişi pisləyən bəyanat verdi. FVDK-nın iflasından sonra N.Nazarbayev respublikaların yeni İttifaqı ideyasını dəstəkləməkdə davam etdi. Keçid dövründə o, Kommunist partiyasını buraxdı və iqtisadiyyatın üzərində dövlət nəzarətini qurdu. 1991-ci ilin dekabr ayında ölkədə prezident seçkiləri keçirildi və N.Nazarbayev prezident seçildi.

SSRİ-nin süqutu şəraitində o, 16 dekabr 1991-ci ildə Qazaxıstanın müstəqilliyini elan etdi. Qazax prezidenti keçmiş müttəfiq respublikalarla sıx əlaqələr saxlamağa çalışaraq, Müstəqil Dövlətlər Birliyinin (MDB) yaradılmasının təşəbbüsçülərindən biri oldu.

28 yanvar 1993-cü ildə Müstəqil Qazaxıstanın Konstitusiyası qəbul edildi. Ancaq siyasi münasibətlərin kəskinləşməsi, sonralar Konstitusiyada dəyişikliklər edilməsi zərurətini doğurdu. Bütün təklifləri nəzərdən keçirərək Konstitusiya komissiyası yaradıldı. XII çağırış Qazaxıstan Respublikasının Ümummilli Məclisinin 9-cu sessiyası Konstitusiyaya dəyişiklikləri qəbul etdi.

Respublika parlamenti iki palatadan ibarətdir: Senat (47 yerdən 7-ni prezident təyin edir, qalanları isə 6 il müddətinə seçilirlər) və Məclis (67 yerə malik olub, əlavə 10 yer partiya siyahısı ilə seçilmək üçün nəzərdə tutulur, deputatlar isə 5 il müddətinə ümumxalq səsverməsi yolu ilə seçilirlər).

7 mart 1994-cü ildə keçirilən parlament seçkiləri ölkədə çoxpartiyalı sistemin qurulmasında yeni mərhələ oldu. Müxalifət 1994-cü ilin payızında hökumətə alternativ islahatlar proqramını təklif etdi. Liberallaşma çərçivəsindən kənara çıxmayan bu proqram, hökumətin layihəsindən konseptual olaraq fərqlənirdi. Müxalifət Beynəlxalq Valyuta Fondunun təkliflərindən imtina edərək islahatlar keçirməyi tələb edirdi. Nazirlər Kabineti isə, öz növbəsində, parlamentdə müzakirə olunmaq üçün səmərəli qanunlar hazırlaya bilmədi.

6 mart 1995-ci ildə Konstitusiya Məhkəməsi Ali Sovetə seçkilər zamanı Mərkəzi Seçki Komissiyasının qanun pozuntusuna yol verməsi haqqında qərar çıxartdı. Martın 10-da isə Konstitusiya Məhkəməsi prezident N.Nazarbayevlə Ali Sovetin sədri A.Kekilbayevin etiraz məktublarına rədd cavabı verdi və nəticədə Ali Sovet buraxıldı.

Tezliklə parlament böhranı Konstitusiya böhranına çevrildi. Onu aradan qaldırmaq üçün 1995-ci ilin yazında referendum keçirildi. 1995-ci ilin yeni Konstitusiyası hakimiyyətin bir



qolunun səlahiyyətlərini və onun bölgü mexanizmini müəyyən etdi. Həmçinin QR prezidenti, parlamenti, hökuməti, Konstitusiya Şurası, torpaq haqqında və s. qanunlar qəbul edildi.

1992-ci ilin mart ayında BMT-nin tamhüquqlu üzvü olan Qazaxıstan, prioriteti müstəqilliyi möhkəmləndirmək və dünya birliyi tərəfindən tanınma olan xarici siyasət yeridirdi. Qazaxıstanın müstəqilliyini dünyanın 100-dən çox dövləti tanıdı.

QR prezidenti N.Nazarbayev 1994-cü ildə ABŞ prezidenti B.Klintonla Vaşinqtonda «Demokratik məkan haqqında» Xartiyanı imzaladı. 1994-cü ilin dekabr ayında üç nüvə dövləti – Böyük Britaniya, ABŞ və Rusiya Qazaxıstanın təhlükəsizliyinə zəmanət verən bəyanat yaydılar. Bir qədər sonra bu bəyanata, Qazaxıstanla böyük sərhəddi olan Çin Xalq Respublikası da qoşuldu. Sərhəd anlaşılmazlıqları Çinin Mərkəzi Asiya respublikalarına təzyiqi üçün bəhanə oldu.

Qazaxıstan Özbəkistan, Qırğızıstan, Türkmənistan və Tacikistan kimi qonşu ölkələrlə dostluq və əməkdaşlıq haqqında müqavilələr imzaladı. Qazaxıstan, Qırğızıstan və Özbəkistan arasında inteqrasiya prosesi daha intensiv xarakter daşıyır. Türkmənistan və Rusiya da Aralın problemləri üzrə əməkdaşlıq məqsədilə bir qədər sonra bu prosesə qoşuldular.

İslam Konfransı Təşkilatı və Avrasiyada Qarşılıqlı Əməkdaşlığın üzvü olan Qazaxıstan, mütəmadi olaraq özünün strateji xarakterli təklifləri ilə çıxış edir. Hökumət balanslaşdırılmış və çoxşaxəli xarici siyasət kursu aparır. Qazaxıstan MDB və ABŞ ilə siyasi, iqtisadi və hərbi əməkdaşlığa böyük əhəmiyyət verir. Respublika həmçinin Qərbi Avropa ölkələrinin bazar iqtisadiyyatı təcrübəsini mənimsəməyə çalışır. Təbii ki, türk dövləti olan Qazaxıstan Türkiyə, Azərbaycan və digər türk ölkələri ilə sıx əlaqələrə malikdir. Artıq yuxarıda qeyd olunduğu kimi, türkdilli ölkələrin dövlət başçılarının beşinci görüşü 9 iyun 1998-ci ildə Astanada keçirilmişdir.

1997-ci ilin dekabr ayında Qazaxıstan prezidenti N.Nazarbayev, hökumət və parlament ölkənin rəsmi paytaxtına çevrilən Akmolaya (Ağmolla) köçdü. Almatı siyasi, iqtisadi və

mədəni mərkəz olaraq qaldı. 1998-ci ilin may ayında Akmola Astana («Paytaxt») adlandırıldı. 1998-ci ilin oktyabr ayında parlament Konstitusiyaya prezidentin səlahiyyət müddətinin 5 ildən 7 ilə qədər uzadılmasını nəzərdə tutan dəyişikliklərin edilməsinə səs verdi. 1999-cu ilin yanvar ayında vaxtından əvvəl keçirilən prezident seçkilərində N.Nazarbayev səslərin 80%-ni toplayaraq qələbə qazandı. 1999-cu ilin oktyabr ayında prezident baş nazir Balgimbayevi iqtisadi böhranla mübarizədə yol verdiyi səhvlərə görə tənqid edərək vəzifədən çıxartdı. Hökumətin başçısı Qasımcomərd Tokayev oldu. 2002-ci ilin yanvar ayında onu İmanqali Tasmaqambetov, 2003-cü ilin iyun ayında isə Daniyal Əhmədov əvəz etdilər. 2004-cü ilin sonu – 2005-ci ilin əvvəllərində keçirilən parlament seçkilərində iqtidar yönümlü partiyalar qalib gəldilər. Müxalifət 2005-ci ilin dekabr ayında keçiriləcək prezident seçkilərində vahid namizədin irəli sürülməsi haqqında danışıqlara başladı. Fəaliyyətdə olan prezident N.Nazarbayevin namizədliyi isə, öz növbəsində, Vətəndaş partiyasından irəli sürüldü.

Qazaxıstan parlamenti beynəlxalq qeyri-hökumət təşkilatlarının qeydiyyata alınması və fəaliyyəti qaydalarını son dərəcə ağırlaşdıran qanun qəbul etdi. Bundan sonra onlar mütləq dövlət orqanlarında qeydiyyatdan keçməyə məcbur idilər. Onlara cəmiyyətin təbəqələşməsi, millətlərarası və dinlərarası mitinq, yürüş və nümayişlərlə ifadə olunan sosial-iqtisadi şəraitin kəskinləşməsinə yönəldilmiş tədbirlərdə iştirak etmək qadağan olunurdu.

Qanun xarici təşkilatların maliyyə fəaliyyətinin şəffaflığını ciddi surətdə tənzimləyir. Anonim ianələr qadağandır, maliyyələşmə isə yerli hakimiyyət orqanlarının razılığı ilə həyata keçirilir.

Arzu olunmayan istənilən birliyin fəaliyyətinin müvəqqəti olaraq dayandırılmasına imkan verən mexanizm də işlənib hazırlanıb. Məhkəmə və ya prokurorluğun qərarı ilə birliyin fəaliyyəti 3 aydan 6 aya qədər müddətə dayandırıla bilər.



**Qırğızıstan** 31 avqust 1991-ci ildə özünü suveren və müstəqil respublika elan etdi. 1991-ci ilin oktyabr ayında Ə.Akayev alternativsiz əsasda səslərin 96%-ni toplayaraq legitim prezident oldu.

Ölkə parlamenti Ali Sovet – Jokorku Keneş ikipalatalı sistemdən ibarətdir: Xalq nümayəndələri palatası (5 il müddətinə seçilən 70 yerdən ibarətdir) və Qanunverici Məclis (35 yer).

5 may 1993-cü ildə Konstitusiya qəbul olundu. Onun əsasında prezident geniş səlahiyyətlər alırdı. Bununla yanaşı, güclü parlament də formalaşırdı. 10 fevral 1996-cı ildə Ə.Akayevin təklifi ilə Konstitusiyada dəyişikliklər edildi. Bu dəyişikliklər prezident funksiyalarının genişləndirilməsi hesabına qanunverici orqanın səlahiyyətlərinin məhdudlaşdırılmasını nəzərdə tuturdu.

Respublika müstəqilliyinin ilk günlərindən, keçmiş SSRİ-dən varis qalan ağır milli məsələ ilə qarşılaşmış oldu: şimalda qırğızlarla slavyanlar, cənubda isə qırğızlarla özbəklər arasında. Torpaq haqqında 1992-ci il qanunu «yerlilərlə» «gəlmələr» arasında münasibətləri daha da kəskinləşdirdi. Ancaq ölkə rəhbərliyinin gördüyü qəti tədbirlər ağır siyasi nəticələrə səbəb ola biləcək iğtişaşlardan yayınmaq imkanını yaratdı. Hökumət kompromisli milli siyasət yürütməyə çalışırdı. Rusiya ilə münasibətlərin qurulması prosesində, Qırğızıstanda rus və digər slavyan xalqlarının yaşaması faktı diqqət mərkəzində dururdu. Ancaq respublikada yaşayış səviyyəsinin aşağı düşməsi 1992-1993-cü illərdə 100 mindən çox rusun Rusiya Federasiyasına köçməsinə səbəb oldu. 1999-cu ilin sonunda rusdilli əhalinin miqrasiyası prosesi gücləndi.

Müstəqilliyin ilk illərində aparılan qərbyönümlü siyasət, sosial-iqtisadi islahatların eyforiyası köhnə iqtisadi əlaqələrin bərpası və inteqrasiya prosesinə mənfi təsir göstərirdi. Bütün bunlar və respublikanın cənubunda mücahidlərin hərbi-terrorist hərəkatının genişlənməsi Qırğızıstan üçün Rusiyanın rolunu artırırdı. Qırğızıstanla Rusiyanın əməkdaşlığı nəticəsində regionda təhlükəsizliyin qorunub saxlanılması və sərhədlərə

nəzarət, o cümlədən narkobiznesla mübarizə üzrə birgə tədbirlərin həyata keçirilməsi gücləndi və buna təkan verilmiş oldu.

1990-cı ilin əvvəllərində kütləvi dini özünüdərk prosesi göstərdi ki, dini-mənəvi dəyərlərin inkişafının qarşısını almaq olmaz. Buna görə də hökumət 16 dekabr 1991-ci ildə «Vicdan azadlığı və dini təşkilatlar haqqında» qanun qəbul etdi. Respublika vətəndaşlarının 80%-ni müsəlmanlar təşkil edir. Ancaq son illərdə missioner təbliğatının genişlənməsi gənclərin bir qisminin digər dinlərə meyl etməsinə səbəb oldu.

Oş şəhərində müsəlmanların müqəddəs yeri olan Taxtı-Süleyman yerləşir. Dini bayramlar zamanı bura zəvvar axını başlayır. Terrorçular da məhz bu ərazidə öz hərəkətlərini fəallaşdırırdılar. 30 iyul 1999-cu ildə Oş vilayətinin Batıkən rayonunda silahlı terrorçular Tacikistan tərəfdən dövlət sərhəddini pozaraq ölkənin içərilərinə soxuldular. Bu ciddi regional problemi aradan qaldırmaq üçün qonşu dövlətlər – Özbəkistan, Qazaxıstan, Tacikistan Qırğızıstanla birlikdə silahlı qüvvələrin birgə səylərindən istifadə etməyə məcbur oldular.

Qırğızıstan müstəqilliyini elan etdikdən sonra fəal xarici siyasət yeritməyə başladı. MDB-nin üzvü olaraq o, postsovet respublikaları, xüsusilə Rusiya Federasiyası ilə sıx əlaqələrin yaradılmasına əhəmiyyət verirdi. 1992-ci ilin mart ayında digər türk ölkələri ilə yanaşı Qırğızıstan da BMT-nin üzvlüyünə qəbul olundu.

İlk zamanlar Qırğızıstan Dağlıq Qarabağ probleminin həllində bir qədər fəallıq göstərirdi. 12 may 1994-cü ildə, məhz Bişkekdə MDB-nin vasitəçiliyi ilə Azərbaycanla Ermənistan arasında atəşkəs haqqında müqavilə imzalandı. Qırğızıstan Ali Sovetinin sədri M.Şerimkulov bu müqavilənin hazırlanması və imzalanması prosesində fəal iştirak etdi. Ancaq sonralar Qırğızıstanın bu məsələdə fəallığı heçə endirildi.

Bununla belə, Qırğızıstan türkdilli ölkələrin dövlət başçılarının bütün görüşlərində iştirak edir. Bu görüşlərdən biri 27-28 avqust 1995-ci ildə Bişkekdə keçirildi. Görüşün iştirakçıları həmçinin qırğız xalqının eposu «Manas»ın 1000 illiyinə həsr



olunmuş şənliklərə qatıldılar. Görüşdə iqtisadi əməkdaşlıq və mədəni humanitar əlaqələrin inkişafı, qaz və neft yataqlarının birgə istifadəsi məsələləri müzakirə olundu. Bişkek bəyannaməsi qəbul edildi. 21 dekabr 2000-ci ildə Kurmanbek Bakiyev Amangəldi Murəliyevin yerinə Qırğızıstanın baş naziri təyin olundu. Ancaq kabinetin tərkibi təzələnmədi.

Qırğızıstanda növbəti prezident seçkiləri alternativ əsasda 23 dekabr 2000-ci ildə keçirildi. Ə.Akayev 74% səs toplayaraq qələbə qazandı. 27 fevral və 13 mart 2005-ci ildə Qırğızıstanda yeni parlament seçkiləri keçirildi. 75 parlament yerinə 400 namizəd iddia edirdi. Ölkənin ali qanunverici orqanında mütləq əksəriyyəti (90%-ə qədər) hökumətyönlü və neytral deputatlar qazandılar. Bu isə xalqın narazılığının partlayışına, ölkədə vəziyyətin kəskin surətdə gərginləşməsinə və mövcud rejimin devrilməsinə səbəb oldu. Ölkənin paytaxtında başlanan «Zambaq inqilabı» prezident və hökumətin istefası şüarı altında gedirdi. Prezident Ə.Akayev ölkəni tərk etdi, sonra isə müxalifətlə əldə olunan razılaşmaya görə könüllü surətdə istefa verdi. Dərhal yeni parlament formalaşdırıldı, yeni hökumət yaradıldı. Vaxtından əvvəl keçirilən seçkilər nəticəsində iyulun 10-da müxalifət rəhbərlərindən biri olan Kurmanbek Bakiyev prezident seçildi. 24-25 martda mağazaların qarəti, əmlakın məhv edilməsi, binaların yandırılması ilə müşayiət olunan kortəbii iğtişaşları nəzərə almasaq, hakimiyyət dəyişikliyi dinc yolla, qan tökülmədən baş verdi.

14 avqust 2005-ci ildə vəzifəyə qədəm qoyan prezident K.Bakiyev F.Kulovu baş nazir təyin etdi. Qırğızıstanın yeni hakimiyyəti tədricən ölkədə siyasi şəraiti sabitləşdirdi. Ancaq 2009-cu ilin sonu - 2010-cu ilin əvvəllərində respublikada yenidən gərginləşən siyasi vəziyyət növbəti hakimiyyət çevrilişi ilə nəticələndi. Müvəqqəti hökumətin sədri Roza Otunbayeva, bir müddətdən sonra keçid dövrü prezidenti oldu.

**Türkmənistan** 22 avqust 1990-cı ildə SSRİ-nin tərkibində öz suverenliyini elan etdi. 1985-ci ildən Türkmənistan Kommunist partiyasının birinci katibi və 1990-ci ilin yanvar ayın-

dan Ali Sovetin sədri işləyən Səfərmurad Niyazov 1990-cı ilin oktyabr ayında alternativsiz seçkilərin gedişində respublika prezidenti seçildi. 26 oktyabr 1991-ci ildə hökumət Türkmənistanın müstəqilliyi haqqında məsələ üzrə referendum keçirtdi; əhalinin 94%-i müstəqilliyə səs verdi. Ertəsi gün, 27 oktyabr 1991-ci ildə Ali Sovet Türkmənistanı müstəqil dövlət elan etdi, 1991-ci ilin dekabr ayının sonunda isə ölkə MDB-yə qoşuldu.

18 may 1992-ci ildə Türkmənistanın Konstitusiyası qəbul edildi, üç il sonra isə 1995-ci ilin dekabr ayında BMT-nin Baş Assambleyası «Türkmənistanın Daimi Neytrallığı» haqqında qətnamə qəbul etdi. O, ölkənin daxili və xarici siyasətini müəyyənləşdirirdi.

Digər Mərkəzi Asiya respublikalarında olduğu kimi, Türkmənistanda da Konstitusiya əsasında ikipalatalı parlament fəaliyyət göstərir: Xalq Şurası (100 üzvdən ibarət) və Məclis (50 yer ümumxalq səsverməsi ilə 6 il müddətinə seçilir).

Konstitusiya Türkmənistan prezidentinə geniş səlahiyyətlər verir. 21 iyun 1992-ci ilin prezident seçkilərində S.Niyazov alternativsiz qaydada bütün səslərin 99,5%-ni topladı. Respublikanın siyasi həyatının reallığı bilavasitə S.Niyazovun şəxsiyyəti ilə bağlı idi. Buna görə də 28 dekabr 1999-cu ildə onu ömürlük olaraq dövlət başçısı seçdilər. Konstitusiyada ölkədə çoxpartiyalı sistemin qurulması haqqında müddəanın olmasına baxmayaraq, cəmiyyətdə partiya və ictimai təşkilatların fəaliyyəti heçə endirildi. S.Niyazovun özünün sədrlik etdiyi hakim partiyanın inhisarı hökm sürürdü, formal müxalifət isə ölkədən kənarda fəaliyyət göstərirdi.

Dünyada və regionda Türkmənistanın mövqeyi zəngin neft və qaz ehtiyatları ilə müəyyənləşdirilir. Respublika təbii qaz ehtiyatlarına görə dünyada üçüncü yeri tutur. Təbii sərvətləri olan Türkmənistanın strateji fəaliyyətinin əsas prioritet istiqaməti dünya bazarına çıxış əldə etməkdir. Buna görə də ölkə rəhbərliyi müxtəlif boru kəmərləri şəbəkəsinin yaradılmasında və geniş miqyaslı regional layihələrə qoşulmaqda maraqlıdır. Tikintisi



1997-ci ildə başlayan, Rusiyanın ərazisindən İrana qədər uzanan «Şimal» boru kəməri çəkildi.

S.Niyazovun dünyada analoqu olmayan sosial siyasəti sayəsində ölkə vətəndaşları 1993-cü ildən etibarən qaz, elektrik enerjisi və içməli sudan pulsuz istifadə hüququnu qazandılar.

Türkmənistanın neytrallığı haqqında BMT-nin qətnaməsini əsas tutan rəsmi Aşqabad, dünyanın NATO və MDB-nin Kollektiv Təhlükəsizlik Müqaviləsi kimi güc strukturlarına qoşulmadı. BMT Türkmənistandan neytral bir dövlət kimi istifadə edərək, Tacikistandakı 1996-cı il hadisələri ilə əlaqədar Aşqabadda sülhməramlı missiyasını həyata keçirtdi və 1999-cu ildə əfqan «Taliban» hərəkatı və «Şimali Alyansla» bir neçə raund danışıqlar apardı.

Neytral respublika olan Türkmənistan o zamankı Azərbaycan prezidenti H.Əliyevlə Gürcüstan prezidenti E.Şevardnadzenin Qafqazı sülh və əməkdaşlıq regionuna çevirmək barədə bəyanatlarını alqışladı. 13-14 may 1996-cı ildə İqtisadi Əməkdaşlıq Təşkilatının (EKO) üzvü olan dövlət başçılarının Aşqabadda keçirilən görüşü zamanı H.Əliyevlə söhbət əsnasında S.Niyazov Azərbaycan, Gürcüstan və Özbəkistanla tranzit yük daşımaları və dəmiryol nəqliyyatının tənzimlənməsi barədə müqavilənin imzalanmasını yüksək qiymətləndirdi.

8 dekabr 1998-ci ildə S.Niyazov İslam Konfransı Təşkilatının Tehranda keçirtdiyi Zirvə sammitində iştirak etdi və orada H.Əliyevlə görüşdü. Xəzərin təbii sərvətlərindən birgə istifadə olunması barədə qərar qəbul edildi.

SSRİ-nin süqutundan sonra Rusiya və İranla yanaşı, Türkmənistan da Xəzərin statusu probleminin həllində Azərbaycana qarşı qeyri-konstruktiv mövqedə dururdu. Ancaq hər iki dövlət başçısının keçirtdiyi görüşlər vəziyyəti yumşaltdı. 6 yanvar 1998-ci ildə Azərbaycan Respublikasının prezidenti, yanvarın 13-də isə Türkmənistan prezidenti Xəzər dənizi akvatoriyasında orta xətt koordinatları və hər iki respublikanın yurisdiksiya hüdudlarının müəyyənləşdirilməsinə dair bu ölkələr

arasında ikitərəfli danışıqların aparılması üçün səlahiyyətli ekspert qrupunun yaradılması haqqında sərəncam verdilər.

İşçi qrupunun 5 fevral 1998-ci ildə Aşqabadda, martın 30-da Bakıda keçirilən görüşləri zamanı Xəzər dənizinin hüquqi statusu barədə razılıq əldə olundu. Ancaq Azərbaycanın Türkmənistanla münasibətləri yaxşılaşdırmaq cəhdlərinə baxmayaraq, S.Niyazov 2001-ci ildə maliyyə çatışmazlığı bəhanəsilə hətta ölkəsinin Bakıdakı səfirliyinin fəaliyyətini dayandırdı. Bir qədər sonra Türkmənistandakı Azərbaycan səfirliyinin də fəaliyyəti dayandırıldı, lakin tezliklə bərpa olundu.

Türk dövləti olaraq bu respublika da türkdilli ölkələrin dövlət başçılarının görüşlərində fəal iştirak edir.

2001-ci ilin gəlişi ölkədə «türkmən xalqının qızıl əsrinin, iqtisadi və sosial sahələrdə çiçəklənmə dövrünün» başlanğıcı elan olundu. 1999-cu ilin dekabr ayında parlament, Ağsaqqallar Şurası və «Qalkınış» ümummilli hərəkatının birgə iclasında prezident S.Niyazov müddətsiz prezidentlik səlahiyyətini aldı. Ancaq 21 dekabr 2006-cı ildə S.Niyazov vəfat etdi.

Aşqabadda Türkmənistanın Təhlükəsizlik Şurasının təcili yığıncağı çağırıldı. Burada dövlət başçısının vəfatı ilə əlaqədar olaraq sabitlik və qanun-qaydanın təmin edilməsi üzrə məsələlərə baxıldı. Ölkənin yeni prezidenti Türkmənistanın baş nazirinin müavini Qurbanqulu Berdıməhəmmədov oldu.

SSRİ-nin dağılması şəraitində **Özbəkistan** 31 avqust 1991-ci ildə öz müstəqilliyini elan etdi. Həmin ilin dekabr ayında ilk birbaşa prezident seçkiləri keçirildi: seçkilərdə hakim Kommunist partiyasını Xalq-demokratik partiyasına (XDP) çevirən İ.Kərimov qələbə qazandı. Onun rəqibi «Ərk»in lideri M.Saleh cəmi 12% səs ala bildi. 1992-ci ilin başlanğıcında İ.Kərimov vitse-pezident və baş nazir Şükürulla Mirsəidovu vəzifədən götürməklə Daşkənd icmasını neytrallaşdırdı. Yeni baş nazir prezidentə yaxın olan Əbdülhaşim Mutalov oldu.

1991-ci idən başlayaraq respublika rəhbərliyi ilə müxalifət liderləri arasında ziddiyyətlər dərinləşdi. Sonuncular prezident avtoritarlıqda və islahatların həyata keçirilmə sürətinin zəif olmasında günahlandırırdılar. «Ərk» partiyası torpağın xüsusi mülkiyyətə verilməsini və iqtisadiyyatın liberallaşdırılmasının sürətləndirilməsini tələb edirdi. Ancaq hökumət iqtisadi islahatların həyata keçirilməsinin təkamül yolunu və tədricən qiymətlərin liberallaşdırılması xəttini seçdi.



Ölkənin Ədliyyə nazirliyi 1993-cü ilin mart ayında «Siyasi partiya və hərəkatların qeydiyyata alınması qaydası haqqında» qərar qəbul etdi. «Birlik» və «Ərk» partiyaları qeydiyyatdan keçmədilər və Özbəkistanda fəaliyyəti dayandırdılar.

Özbəkistanın yeni Konstitusiyası 8 dekabr 1992-ci ildə qəbul olundu. Konstitusiyaya görə, respublika prezidenti ümumxalq səsverməsi yolu ilə 5 il müddətinə seçilir. 26 mart 1995-ci ildə keçirilən referendumda prezident səlahiyyətləri daha 5 il müddətinə uzadıldı.

Ölkənin qanunverici orqanı – bir palatalı Ali Məclis (Oli Məclis) 250 yerdən ibarətdir. 25 dekabr 1994-cü il və 5 dekabr 1999-cu ildə keçirilən seçkilər çoxpartiyalılıq əsasında oldu. 1995-ci il Özbəkistanda çoxpartiyalılıq sisteminin formalaşmasında yeni mərhələ hesab olunur. Məhz o zaman Sosial-demokrat ədalət partiyası və Milli demokratik dirçəliş partiyası meydana gəldilər. Xalq birliyi hərəkatı ilə yanaşı prezidentin Xalq demokrat partiyası və müxalifətçi Vətənin tərəqqisi partiyası da fəaliyyət göstərirdi. 1998-ci ilin sonunda Milli demokratik fədailər partiyası meydana gəldi.

1995-ci ilə qədər prezidentin sədrlik etdiyi Xalq demokrat partiyası 1 noyabr 1991-ci ildə yaranıb. O özünü Özbəkistan Kommunist partiyasının hüquqi ideya varisi elan edib. Respublikanın qanununa görə, prezident bitərəf olmalıdır. Buna görə də XDP MK-nin birinci katibi Əbdülxəlil Calalov oldu.

1992-ci ildə yaradılan müxalifətçi Vətənin tərəqqisi partiyası 2000-ci ilin may ayında Sosial-demokrat fədailər partiyası ilə birləşdi. Partiyanın sədri Adxan Kursunov oldu.

SSRİ-nin süqutundan sonra Özbəkistanda cəmiyyətin demokratikləşdirilməsinə baxmayaraq, ölkənin ictimai-siyasi həyatında din amili mühüm rol oynayırdı. Konstitusiyanın 31-ci

maddəsi respublikanın hər bir vətəndaşının vicdan azadlığına zəmanət verildiyini təsbit edir. «Dini təşkilatlar və vicdan azadlığı haqqında» qanun beynəlxalq standartlara cavab verir.

1990-cı ilin axırlarında Özbəkistanın ümumi iqtisadi vəziyyəti bir qədər sabitləşdi. 1997-ci ildə xüsusi sektor 40%-i keçdi. Ancaq sosial təbəqələşmə və yoxsulluq artmaqda davam edirdi. İşsizlik 20-30%-ə çatırdı. Fərqanədə isə bu göstərici dəhşətli miqyasda idi.

1998-ci ildə hakimiyyət dairələri Əndicanda yeni məscidlərin tikilməsini qadağan edib mövcud məscidlərin yenidən qeydə alınması haqqında göstəriş verəndən sonra, islamçı qruplar əhalinin narazılığından istifadə etdilər. 1999-cu ilin dekabr ayında prezident İ.Kərimova qarşı sui-qəsdə cəhd edildi. Daşkənddə törədilən partlayışlar nəticəsində 16 nəfər həlak oldu və 150 nəfər yaralandı. 1999-cu ilin dekabr ayında və 2004-cü ilin sonu – 2005-ci ilin başlanğıcında keçirilən parlament seçkilərində yenə də yalnız hökumətyönlü siyasi partiyalar və namizədlər iştirak etdilər. 9 yanvar 2000-ci ildə 92% səs toplayan İ.Kərimov yenidən ölkə prezidenti seçildi (onun rəqibi Əbdülxəlil Calalov isə 4% səs topladı). 1999-2004-cü illərdə işlamçı dairələr özbək şəhərlərində sui-qəsdlər və partlayışlar törətməkdə davam edirdilər. 2005-ci ilin may ayında müxalifətçi müsəlman qrupu "Əkrəmiyyə"dən olan 23 biznesmenin həbsindən sonra, Əndicanda hökumət əleyhinə qiyam qalxdı və tezliklə qoşunlar tərəfindən yatırıldı. Onun yatırılması zamanı dinc əhali həlak oldu, minlərlə adam qonşu Qırğızıstana qaçdı. Hakimiyyət dairələri iğtişaşların təşkilatçılarını məhkəməyə verərək onların qiyamını dövlət çevrilişinə cəhd adlandırdı. 2005-ci ilin yanvar ayında İ.Kərimov yenidən ölkə prezidenti seçildi.

1992-ci ilin fevral-mart aylarında BMT və ATƏT kimi beynəlxalq təşkilatlara üzv olan Özbəkistan fəal xarici siyasət yeridir. Bundan başqa respublika insan hüquqlarının müxtəlif aspektlərini əhatə edən 38 beynəlxalq müqavilə və konvensiyaya qoşulub.



MDB-nin üzvü olan Özbəkistan postsovet respublikaları ilə münasibətlərin möhkəmləndirilməsinə diqqət ayırır. Ancaq özbək müxalifətinin Azərbaycanda və Türkiyədə siyasi sığınacaq tapmasından sonra, Özbəkistanın bu ölkələrlə münasibətləri kəskinləşdi. Bunun digər səbəbi Məshəti türkləri məsələsi oldu. Hava əlaqəsi belə bağlı idi. Yalnız 1995-ci ilin sonunda Özbəkistanla Azərbaycan arasında diplomatik münasibətlər normallaşdı. 27-28 mayda Özbəkistan prezidentinin Azərbaycana ilk rəsmi səfəri oldu. Mərkəzi Asiyanı Azərbaycanla, Gürcüstan vasitəsilə Qara dəniz sahillərinə qədər birləşdirən kommunikasiyaların açılmasının zəruriliyi barədə məsələlər müzakirə olundu.

Özbəkistan bir türk respublikası olaraq, türkdilli ölkələrin dövlət başçılarının görüşlərində iştirak edir. Əmir Teymurun 650 illiyinə həsr edilmiş dördüncü belə görüş 21-22 oktyabr 1996-cı ildə Daşkənddə keçirildi. Prezidentlər Daşkənd bəyannaməsini imzaladılar. Türkdilli ölkələrin dövlət başçılarının görüşlərinin katibliyini (TÖDBGK) yaratmaq qərara alındı. Katibliyin əsasnaməsinin hazırlanması xarici işlər nazirlərinə tapşırıldı.

Dövlət başçıları Transqafqaz dəhlizinin istifadəyə verilməsi ilə əlaqədar tranzit və dəmir yol kommunikasiyaları üzrə 1996-cı il dördtərəfli Sərax sazişinin tezliklə həyata keçirilməsinə tərəfdar olduqlarını bildirdilər və Aİ-nin TRASEKA layihəsi üzrə səylərini bəyəndilər. TÜRKSOY beynəlxalq təşkilatına türk mədəniyyəti ilə bağlı tarixi hadisələrin təqvimini tərtib etmək tapşırıldı.

RSFSR-in tərkibində olan türk muxtar respublikalarının da həyatında dəyişikliklər baş verdi. SSRİ-nin süqutundan sonra Rusiya federalizminin inkişafında yeni dövr başlandı. Rusiya rəhbərliyi Federal Müqavilənin tərtibindən geri çəkilməyə cəhd edir və federal hakimiyyət orqanları ilə RF tərkibində olan respublikaların dövlət hakimiyyət orqanları arasında səlahiyyətlərin bölüşdürülməsinə çalışırdı. Ancaq İttifaqın

subyekti olmaq imkanını itirən respublikalar Federal Müqavilənin müdafiəsinə qalxdılar.

**Tatarıstan və Başqırdıstan** RF ilə birbaşa müqavilə imzalanması tərəfdarı idilər, 13 respublika Federasiya Müqaviləsinin imzalanmasına və yalnız 4 respublika Federasiya Müqaviləsi əvəzinə "Səlahiyyətlərin bölüşdürülməsi haqqında" saziş imzalanmasına razı idi. 1991-ci ilin sonu – 1992-ci ilin əvvəllərində bir sıra respublikada milli müstəqillik uğrunda mübarizə şüarı altında milli hərəkatların qurultayları keçirildi. Tatarıstanda tatar xalqının qurultayı Respublikanın Ali Sovetinə alternativ orqan – Məclisi yaratdı.

Rusiyada başlanan islahatlar mahiyyət etibarilə dövlət mülkiyyətinin bölüşdürülməsindən ibarət olub, suverenlik uğrunda mübarizədə yerli etnoelitlərin fəallığını artırdı. Tatarıstan, Başqırdıstan və Yakutiyanın rəhbərlikləri mülkiyyətin yerli elitanın xeyrinə bölüşdürülməsi təşəbbüsünü öz üzərilərinə götürdülər. Bu təşəbbüs Kareliya, Komi, Çuvaşiya, Tuva və digər respublikalarda da dəstəkləndi. Yerli hakimiyyətlər tələb edirdilər ki, Rusiya millətlərin ərazi, təbii ehtiyatlar, istehsal gücü, rəsmi dil statusu kimi imtiyazlı hüquqları ilə milli dövlətlərin Federasiyası olsun.

31 mart 1992-ci ildə Federasiya Müqaviləsi imzalandı. Tatarıstan və Çeçenistan müqaviləni imzalamadılar. Başqırdıstan beynəlxalq və xarici iqtisadi əlaqələrin qurulması, vergi qoyulması, qanunverici və məhkəmə sisteminin təşkili, prokurorluq və vəkillik yaradılması üçün xüsusi hüquqların verilməsi şərtilə müqaviləni imzaladı. Respubilka özü isə RF-nin müstəqil subyekti kimi müəyyənləşdirildi.

Ali Sovetlərinin sessiyalarında 7 respublikanın rəhbərliyi federasiyadan çıxmaq hüququnu saxlamaqla respublika Konstitusiyasının Rusiyanınkindən aliliyi haqqında qərar qəbul etdi. Tatarıstan, Yakutiya (Saxa), Başqırdıstan isə respublikanın daxili siyasətini müstəqil surətdə müəyyən etmək hüququ, Çeçenistan və Tuva hərbi vəziyyət elan etmək hüququ haqqında qərar qəbul etdilər. 1992-1993-cü illərdə Tatarıstan, Başqırdıstan, Çeçenistan, Tuva, Saxa federal büdcəyə vergi ödənişini dayandırdılar.



1991-1993-cü illərdə Tatarıstanda millətçi-separatçıların müstəqillik şüarı altında kütləvi çıxışları baş verdi. Kazan və Naberejnıye Çelnıda xalq yığma qoşun dəstələrinin yaradılması cəhdlər edildi. Ancaq Tatarıstanın yeni seçilmiş prezidenti Mentemir Şaymiyev millətçi-seperatçılarla Moskva meyilli parlament müxalifəti arasında bacarıqla manevr edərək respublikada sülhü qoruyub saxlaya bildi. Tatarıstan ilk olaraq Suverenlik haqqında bəyannamə qəbul edib referendum keçirdi. Referendum zamanı, onun suveren dövlət kimi xüsusi statusu Rusiya Federasiyası ilə assosiasiya edilən beynəlxalq hüququn subyekti olaraq təsdiq olundu. RF-nin Konstitusiya Məhkəməsi bu qərarı tanımadı.

Respublika müstəqil iqtisadi siyasət yeritməyə başlayaraq, əvvəllər mərkəzə göndərdiyi bütün vergiləri özündə saxlayıb bir çox onilliklər ərzində yaradılmış istehsal gücündən, neft ehtiyatlarından istifadə etdi və mühüm nəticələrə nail oldu.

XX əsrin sonu Tatarıstan dövlətçiliyinin inkişafı üçün yeni imkanlar açdı. 30 avqust 1991-ci ildə respublikanın Dövlət suverenliyi haqqında bəyannamə qəbul edildi. 1992-ci ilin mart ayında keçirilən referendum və 6 noyabr 1992-ci ildə qəbul edilən Tatarıstan Respublikasının yeni Konstitusiyası xalqın arzusu ilə respublikanın yeni dövlət statusunu müəyyənləşdirdi. 15 fevral 1994-cü ildə Rusiya Federasiyası ilə Tatarıstan Respublikası arasında "Rusiya Federasiyası dövlət hakimiyyət orqanları ilə Tatarıstan Respublikası dövlət hakimiyyət orqanların arasında səlahiyyətlərin sahələr üzrə bölüşdürülməsi və qarşılıqlı ötürülməsi haqqında" Müqavilə imzalandı. Bu müqavilə Rusiya Federasiyasının Konstitusiyası və Tatarıstan Respublikasının Konstitusiyası ilə yanaşı, geniş tanınmış Rusiya-Tatarıstan qarşılıqlı münasibətlər modelinin formalaşmasının hüquqi əsası oldu.

19 aprel 2002-ci ildə Tatarıstanın Dövlət Şurası tərəfindən respublika Konstitusiyasının yeni redaktəsi qəbul edildi. Kons-

titusiyada deyilir ki, insan, onun hüquqları və azadlığı ən ali dəyərdir və Tatarıstan Respublikasının borcu insan və vətəndaşların hüquq və azadlığını tanımaq, onlara riayət etmək və müdafiə etməkdir. Tatarıstan Konstitusiyasında ümumi seçki hüququ, söz və vicdan azadlığı, siyasi partiya və təşkilatlarda iştirak etmək imkanı və s. kimi prinsiplər öz əksini tapıb.

2000-ci ilin iyun ayından respublikada Tatarıstan respublikasının Konstitusiyasına uyğun olaraq, Tatarıstan respublikasında İnsan hüquqları üzrə səlahiyyətli institut fəaliyyət göstərir. Konstitusiyada qanunverici, icraedici və məhkəmə hakimiyyətinin bölgüsü təsbit olunub.

Dövlət başçısı və respublikanın ən ali vəzifəli şəxsi prezidentdir. O, respublikada dövlət hakimiyyətinin icra orqanları sisteminə başçılıq edir və dövlət hakimiyyəti icraedici və binagüzarlıq orqanı olan Nazirlər Kabinetinə rəhbərlik edir. Nazirlər Kabineti prezidentin qarşısında məsuldur.

Respublikanın dövlət hakimiyyətinin ali mötəbər və qanunverici orqanı Dövlət Şurasıdır (parlament). Yerli özünüidarə orqanları dövlət hakimiyyəti orqanları sisteminə daxil deyildir. Məhkəmə hakimiyyəti Tatarıstan Respublikasının Konstitusiya məhkəməsi, ümumi yurisdiksiya federal məhkəmələri, respublika arbitraj məhkəməsi və barışdırıcı hakimlər tərəfindən həyata keçirilir. Mühakimə üsulu və kargüzarlıq məhkəmələrdə federal qanuna uyğun olaraq aparılır.

26 iyun 2007-ci ildə Rusiya Federasiyası dövlət hakimiyyəti orqanları ilə Tatarıstan Respublikasının dövlət hakimiyyəti orqanları arasında səlahiyyətlərin bölüşdürülməsi haqqında müqavilə imzalandı. O, 1994-cü il Müqaviləsinin bir növ "varisi" oldu. 2007-ci il Müqaviləsi Tatarıstanın Konstitusiyasını respublika dövlətçiliyinin əsası kimi tanıyaraq respublikanın mövcud statusunu təsbit etdi. Müqavilədə Tatarıstan Prezidenti vəzifəsini tutmağa iddiası olan namizədlərdən iki dövlət dilini bilməsi tələb olunur, respublikanın beynəlxalq əlaqələrinin səviyyəsi və yurddaşlarla işin zəruriliyi təsdiqini tapırdı. Tatarıstan Respublikası Dövlət Şurasının sədri F.-X.Muxa-



metşindir. Tatarıstan Rusiyadan əvvəl Avropa Şurasının üzvü oldu. Bu gün istehsal gücü 804 yükləmə təşkil edir. Tatarıstanın sosial-iqtisadi vəziyyətini xarakterizə edən bütöv bir sıra baza göstəriciləri qənaətbəxşdir.

30 avqust 1991-ci ildə Ukrayna müstəqilliyi haqqında aktı elan edəndən sonra **Krım vilayəti** müstəqil Ukraynanın tərkibinə daxil oldu. 20 yanvar 1991-ci ildə Krım vilayətində SSR İttifaqının subyekti kimi Krım Muxtar Sovet Sosialist Respublikasının yenidən yaradılması və İttifaq müqaviləsinin iştirakçısı olmaq məsələsi üzrə referendum keçirildi. Onun arzusuna istinad edən Ukrayna Ali Soveti 12 fevral 1991-ci ildə "Krım Muxtar Sovet Sosialist Respublikasının bərpa olunması haqqında" qanun qəbul etdi. Sonuncunun Ali Soveti onu 1992-ci ildə Krım Muxtar Respublikası elan etdi. 12 yanvar 1999-cu ildə Krım Muxtar Respublikasının Konstitusiyası qüvvəyə mindi.

XXI əsrin başlanğıcında türk dünyası yeni ideologiyanın yaradılması problemi ilə qarşılaşdı. Onun yaradılması heç də məqsəd deyildir. O, türklərə ona görə lazımdır ki, dünyanın qloballaşması şəraitində özünəməxsus mədəniyyətini və eyniyyətini qoruyub saxlaya bilsinlər.

**Türk Xalqlarının Ümumdünya Assambleyası** (TXÜA) bu gün dünyanın türk xalqlarını birləşdirən, sayı çox olmayan ictimai təşkilatlardan biridir.

Onun fəaliyyətinin başlıca istiqaməti – türk birliyini təmin edən, indi və gələcəkdə hər bir türkün layiqli həyata malik olmasına imkan verəcək ictimai inkişafın türk yolunun fundamental əsaslarının işlənib hazırlanması və təbliğidir.

TXÜA öz başlanğıcığını 1990-cı ildə Moskvada çağırılan I Şərq Xalqları Qurultayından götürür. Sonrakı mərhələdə o, Türk Xalqları Assambleyasının Qurultayı adlandırıldı.

Birinci qurultayın təşkilatçıları qazax şairi Oljas Süleymenov və digər ictimai xadimlər idi.

1990-cı ildən 2007-ci ilə qədər Türk Xalqları Assambleyasının (TXA) 5 qurultayı keçirildi. Sonralar o, Türk Xalqlarının Ümumdünya Assambleyası (TXÜA) adını aldı.

TXA-nın II qurultayı 1991-ci ildə Kazanda keçirildi. Təşkilatın sədri tatar alimi və ictimai xadimi Rafael Mühametdinov seçildi.

TXA-nın III qurultayı 1993-cü ildə Çeboksarıda oldu (sədr Çuvaş milli hərəkatının nümayəndəsi Vyaçeslav Timofeyev seçildi).

TXÜA-nın IV qurultayı 1997-ci ildə İzmirdə - Türkiyədə keçirildi (sədr Krım-tatar xalqının nümayəndəsi İlmi Ümərov seçildi).

TXÜA-nın V qurultayı 2007-ci ildə Şımkənddə – Qazaxıstanda oldu (akademik, sahibkar, ictimai xadim olan Yermentay Sultanmurad prezident seçildi).

Qurultaylarda (2,3 və 5-ci) TXÜA-nın 3 proqramı qəbul olundu. 1-ci Proqram müstəmləkəçilik və imperializm əleyhinə və millətlərin hüquqları ilə qırılmaz tellərlə bağlı olan insan hüquqları uğrunda mübarizə istiqamətində türk birliyi ideyasını inkişaf etdirdi. Demokratiya və milli azadlıq – bu proqramın əsas iki postulatıdır. Dinə mədəniyyət və mənəviyyatın müdafiəçisi və stimulyatoru rolu ayrıldı. TXA öz proqramında türk xalqları arasında siyasi, ictimai və mədəni əlaqələrin möhkəmləndirilməsi üzrə müəyyən mexanizmləri təklif etdi.

2-ci Proqrama, türk xalqlarının özlərində kor-koranə və mexaniki olaraq Qərbnümunəli demokratiyanı qurmaq deyil, türklərin tarixi ənənələrə və türk mentalitetinə əsaslanan demokratiyanın öz türk modelini yaratmalı olduqları barədə bölmə əlavə edildi.

Türk dünyasına, həmçinin Qərb kimi islam dünyasının da həddindən ziyadə təsiri və onların əlində bir silaha çevrilmək təhlükəsindən qorunmaq tövsiyə edilirdi. Türklərə bu hər iki mədəniyyətin arasında bir növ orta dünya olmaq və geosiyasətdə öz müstəqil rolunu oynamaq təklif olunurdu.

TXA-nın 1-ci və əsasən də 2-ci Proqramını işləyib hazırlayanlar və onların müəllifləri tatar milli hərəkatının nümayəndələri: Rafael Mühametdinov, Rəşad Əmirxanov, Rafael Həkimov və Rüfət Sadıqov idilər.



Türk dünyasında dəyişikliyə uğrayan siyasi və sosial-iqtisadi şəraitlə əlaqədar olaraq 3-cü Proqramda siyasi və geosiyasi məqamlara deyil, pantürkizmin əsasını təşkil edən mənəvi-mədəni və sosial-iqtisadi məqamlara vurğu edildi.

Bu gün TXÜA-da Ortatürk-anatürk Beynəlxalq dil institutu, türk xalqlarının ümumi mənəvi əsasının inkişafı və türk ictimai inkişaf yolunun işlənib hazırlanması üzrə mərkəzlər fəaliyyət göstərir.

Bununla yanaşı, TXÜA türk xalqlarının ictimai həyatında fəal iştirak edir. Türk xalqları arasında qarşılıqlı anlaşmanın təmin olunmasına xüsusi diqqət ayırır.

# XI FƏSİL
# TÜRK DÜNYASININ MƏDƏNİYYƏTİ

## § 1. Qədim və orta əsr türk mədənyiyəti

Türk xalqlarının qədim mədəniyyəti, əsasən arxeoloji materiallar əsasında öyrənilir. M.ö. I minilliyin ortalarına qədər türk xalqlarının tarixinə aid yazılı mənbələrin kifayət qədər olmaması ilə əlaqədar olaraq türklərin qədim mədəniyyəti, dərs vəsaitinin giriş hissəsində ətraflı göstərildiyi kimi, yalnız arxeoloji mədəniyyətlər əsasında tədqiq olunub. Avrasiyanın bütün ərazisində aşkara çıxan maddi mədəniyyət abidələri, xüsusilə qəbirlər və bir sıra yaşayış məskənləri türk etnosunun mədəniyyəti haqqında bir qədər təsəvvür yaratmağa imkan verir. Krımın Qara dəniz sahillərində, Azərbaycanda, Mərkəzi Asiyada, Sibirdə tapılan arxeoloji abidələrin oxşarlığı belə bir faktı təsdiq edir ki, bu nəhəng məkanda türk etnoslarının, xüsusilə kimmerlər, skiflər, saklar, massagetlər, usunlar, kanqlar və başqalarının qədim mədəniyyəti yayılmışdır. Bu, Xocalı-Gədəbəy arxeoloji mədəniyyəti və Pazırık kurqanının materiallarında daha aydın müşahidə olunur.

Skiflərin incəsənəti özündə skif döyüşkənlik adətini və səyyar güzəranını əks etdirərək, özünəməxsus etnik forma alıb "heyvan stili" adlanır. Bu stil digər etnosların mədəniyyətinə də təsir göstərib. Skiflərin qızıl əşyaları, qabları, səhəngləri, silah kolleksiyaları dünyanın bir çox muzeylərinin fəxridir.

Pazırıq mədəniyyətinə həmçinin, "skif-heyvan stili" və ya "skif-Sibir stili" də xarakterikdir. Məhz bu kurqanda dünyada ən qədim xalça (1,83-2 m) tapılıb. Xalçanın 1.250.000 düyünü var. Bu isə xalçanın türk mədəniyyətinə aid olmasını göstərir. Xalçanın 2400 il yaşı var.

Yazılı mənbələrdə m.ö. I minilliyin ortalarında Mərkəzi Asiyada yaşamış türk etnoslarının mədəniyyəti haqqında çox az məlumat saxlanılıb. Bu, əsasən antik müəlliflərin əsərləri və qədim Çin mənbələridir. Herodotun "Tarix" əsərində daha geniş məlumata rast gəlmək olar. O, skif, sak, sarmat və massagetlərin həyat və adətlərindən yazır. Herodotun bəzi fikirləri bu xalqların İrandilli olması haqqında hind - Avropa baxışlarını rədd edir.



"Herodota Turraget adı ilə məlum olan Skif tayfasını I əsrdə Böyük Plini Tirk, Pamponi Mela isə türk adlandırır". Bu müəlliflər yazırdılar ki, onlar yalın başlı idilər. Erkən orta əsr mənbələrində də bulqar və Xəzər türkləri başıqırxıq xalq kimi məlumdur.

Herodot skiflərin at südündən hazırladıqları yeməyi ippak adlandırır. Müasir türk dilində əppək-çörək sözü var. Skiflərin etnoqrafiyası barədə məlumatlar da onların türk məişətini əks etdirir. Homer kimmerləri "atsağanlar" adlandırır. Hesiod, Esxil, Hippokrat, Herodot, Strabon və digər antik müəlliflər skifləri "at əti yeyənlər" və "qımız içənlər" adlandırırdılar. Bu cür həyat tərzi yalnız türk xalqlarında olub. Skif məişətində keçə mühüm rol oynayırdı. Ondan paltar tikir, baş geyimi hazırlayırdılar. Keçəçilik Altay türkləri və hunlardan başlayaraq qırğız, qazax, balkar, qaraçaylılar və digər xalqların daimi məşğuliyyəti olub. Bu xalqlarda hələ də atin skiflər kimi hazırlanması adəti qalmaqdadır. Herodotun təsvir etdiyi bir çox skif adət və ənənələri Dağlıq Altayın m.ö.VIII-VII əsrlərə aid abidələrində müşahidə olunan dəfnetmə adətlərinə uyğun gəlir.

Skifləri çalada və ya katakombalarda dəfn edərək üzərilərində kurqanlar qururdular. Herodot yazır ki, skif çarı öldükdə onun cənazəsini 40 gün ərzində bütün Skifiyadan keçirərək Herr çayının mənbəyinə aparırdılar. Çarı o dünyada, nəinki sadiq atları, hətta kənizləri və xidmətçiləri də öldürülərək müşayiət edirdilər. Ölünü zəruri olan hər şeylə təmin edirdilər. Bu ayində skiflərin o dünya haqqında təsəvvürləri öz əksini tapıb. Onlar bunu gerçək həyatın davamı hesab edirdilər. Skif çarlarının kurqanlarından qızıl qablar, qızıldan bəzək əşyaları və silah tapılır.

Skiflərdə antik dövr üçün mükəmməl olan dünyagörüşü sistemi var idi. «Çar skifləri» Tabiti, Papay, Api, Taşmasad,

Qoytosir, Ares, Herakl və Argimpasaya sitayiş edirdilər. Onlar yalnız müharibə allahı Aresin şərəfinə mehrablar qururdular. Belə mehrab çırpıdan yaradılan dağın başına sancılmış qılıncdan ibarət olurdu.

Skiflərdə qurbanvermə adəti də inkişaf etmişdi. Gələcəkdən xəbər verənlər və kahinlər də çox idi. Kimmerlər, skiflər, saklar əsasən şaman idilər və onların xüsusi ayinləri var idi. Pazırık kurqanında bütün ləvazimatı ilə birlikdə şaman qalıqları tapılıb.

Skif mövzusu Apollon, Herakl, Prometey, Kentavr haqqında, Demetrin Skifiyadakı hərəkətləri haqqında, Arqonavtların yürüşü haqqında, amazonkalar haqqında və s. kimi yunan mifologiyalarında çox populyar idi.

Qədim Skifiyanın ən böyük oğlu və filosoflarından biri olan Anaxarsisi Strabon qədim dünyanın yeddi dahi müdrikindən biri adlandırır. Onun indiyə qədər saxlanılan on məktubunda skif psixologiyası xarakterizə olunur. Antik mənbələrdə Anaxarsis haqqında qiymətli bioqrafik məlumatlar var. O, skif çarı Qnurun oğlu olub, təxminən m.ö. 614-cü ildə doğulmuşdur. İki dil bilən Anaxarsis skif və ellin adətləri, həyatı ucuzlaşdırmaq vasitələri haqqında yazmış, eləcə də hərbi iş haqqında 800 şeir qoşmuşdu.

Anaxarsisin 20 yaşı olanda Afinaya gələrək məşhur filosof Solonu ziyarət etmişdi. Anaxarsis 30 ildən çox Yunanıstanda yaşayıb.

**Qədim türklərin dünyagörüşləri.** Qədim türklərin vahid allaha – Tanrıya (Tenqri), göy allahına inamı haqqında məlumat vardır. Məhz "tanrı" və "türk" sözlərinin köməyi ilə İsveç alimi V.Tompson türk runi yazısını oxuya bilmişdir.

Azərbaycan ərazisində yaşayan qədim tayfaların inanclarında da göy cisimlərinə sitayiş mühüm yer tuturdu. Strabon yazır ki, albanlar Heliosa, Zevsə və Selenaya – Ay allahına sitayiş edirlər.

Türküstanın qədim tayfalarında, həmçinin totemizm, şamanizm, animizm, buddizm, maniçilik və zərdüştlük kimi inanclar da yayılmışdı. Qədim türklər əcdadlarının qurd olmasına inanırdılar. Bu barədə "Kitabi Dədə Qorqud" və qədim türk mifologiyasında da yazılır. Boz qurdla yanaşı ayı, qaranquş, ilan və tısbağa da onların totemi sayılırdı.

**Şamançılıq**, əsasən Sibir türkləri arasında yayılmışdı. Şamanlar hazırladıqları xüsusi içkinin təsiri ilə müxtəlif ruhlarla əlaqəyə girə bilirdilər. Onlar səma, real və o biri dünyaların mövcudluğuna inanırdılar. Dünyanın mərkəzini isə onlar müqəddəs ağacın bitdiyi və süd gölünün olduğu yeri hesab edirdilər.

Onlar ruhlara təsir göstərmək məqsədilə qurbanvermə ayinlərini icra edirdilər. Altay, Tuva və Yakutiya (Saxa) xalqlarında indiyə qədər, qismən də olsa şamanlıq ayinləri müşahidə olunur.

**Buddizm** Mərkəzi Asiyada Çin vasitəsilə yayılmışdı. 572-ci ildə Toboxan xaqan ilk dəfə buddizmi qəbul edib, Budda məbədi tikdirdi. Bu dinə görə maddi vücudun əsasını ruh təşkil edir. Buddizm inancında üç dünya var: insan dünyası, heyvanların dünyası və Buddanın mütləq boşluq dünyası. Arxeoloji qazıntılar zamanı Bişkek şəhəri yaxınlığında Ağ-Beşim adlı yerdə Budda məbədinin qalıqları tapılıb.

M.ö. VII əsrin ortalarından başlayaraq Türküstan və Azərbaycan ərazisində zərdüştlük yayıldı. Bu din Zərdüşt (Zaratuştra) Peyğəmbər tərəfindən yaradılıb. Zərdüştlüyü öyrənmək üçün əsas mənbə müqəddəs «Avesta» kitabıdır. Ancaq bu kitabın ilk nüsxəsi m.ö. 330-cu ildə Makedoniyalı İsgəndər tərəfindən Persopolda Əhəmənilərin sarayı yandırılarkən məhv olub. «Avesta»nın «Zənd-Avesta» adı altında bu günümüzə qədər qalan ayrı-ayrı hissələri İranda Sasanilərin hakimiyyəti dövründə yenidən toplanıb. Üç kitab salamat qalıb: «Vendidad», «Yasna» və «Visprat». «Avesta»nın daha çox tam saxlanan hissəsi «Vendidad» (və ya Videvdad) – yaman qüvvələrin məhvini nəzərdə tutan qanun məcəlləsi hesab olunur.

«Avesta»ya görə, dünyada iki qüvvə: xeyir (Hörmüzd və ya Ahura Mazda) və şər (Əhriman) daima mübarizə aparır. Bu mübarizədə son nəticədə xeyir qələbə çalır. Zərdüştlər atəşpə-

rəstlik məbədlərinin mehrabında od yandırırdılar. Bu dinin ehkamına görə torpaq və su da müqəddəsdir.

«Avesta»da tur adlandırılan sak tayfaları da xatırlanır. Bir çox tədqiqatçılar turu türk etnoniminin kökü hesab edir.

Miladın əvvəllərində Mərkəzi Asiyada, hələ öz başlanğıcını III əsrdə İrandan götürən **maniçilik** də yayılmışdı. Bu dini cərəyan Talas çayı boyunca yaşayan ciğil və arqu, Altay və İrtış çaylarının sahillərində məskunlaşan kereit, nayman, merkit kimi türk tayfaları arasında da yayıldı.

Rəsmi zərdüştlüyə qarşı yönəldilmiş maniçilik, hərəkatın rəhbəri Maninin – «Memar Mani» adı ilə bağlıdır. Bu təlim zərdüştlük, buddizm və xristianlığın ünsürlərini özündə birləşdirirdi. Maniçilərin əqidəsinə görə, onların təlimi bütün dinləri əvəz edəcəkdi. Təlimdə asketizm və nigahsızlıq da özünə yer tapmışdı. Zərdüştlükdə olduğu kimi bu dində də bütün dünya işıqlı və qaranlıq başlanğıclar arasında mübarizənin mərkəzi hesab edilirdi. Təlimin tərəfdarları bildirirdilər ki, bütün insanlar bərabər hüquqlu doğulublar, buna görə də bərabər səviyyədə yaşamalıdırlar. Bu təlim varlıların cah-cəlalına qarşı yönəldilmişdi.

Maninin fəlsəfi-dini fikirləri altı kitabda şərh olunub. Onun təlimi dövlət əleyhinə çevriləndən sonra, maniçiliyin tərəfdarları təqiblərə məruz qaldılar. Mani İrandan qaçmağa məcbur oldu, lakin bir neçə ildən sonra geri qayıtdı və həbs olundu, 277-ci ildə isə I Bəhram şahın əmri ilə öldürüldü. Ancaq onun ölümündən sonra da maniçilik ideyaları türk tayfa birliklərinin mənəvi həyatında mühüm yer tuturdu. Uyğurlar 763-cü ildə maniçiliyi rəsmi din kimi qəbul etdilər. Maniçiliyi qəbul edənə qədər uyğurlar Buddaya etiqad edirdilər.

Erkən orta əsrlər dövründə Türküstanda və Azərbaycanda İranın təsiri altında **məzdəkilik** təlimi yayıldı. Bu dini təlimin banisi Məzdək V əsrin 50-ci illərində anadan olub. O, öz təbliğatını Həmədanda yaymağa başladı. Maniçiliyin qatı tərəfdarı olan Məzdək hesab edirdi ki, tanrı öz nemətlərini bütün insanların rifahı üçün yaradıb, lakin adamlar ədalətsizlik göstərərək, biri digərinin haqqını mənimsəyir və adamların bərabərliyini pozurlar. Onun təliminə görə, işıqla qaranlıq arasında mübarizə gedir. Yoxsulları istismar edən feodallar şər qüvvələr (qaranlıq) idi. Məzdək hesab edirdi ki, şər – ağıldan kənar təzahürdür. Buna görə də xeyir (ədalət) qalib gələcək. O, adamları varlıların əmlakını əlindən alıb yoxsullar arasında bölüşdürməyə çağırırdı.

Məzdəkilərin sosial bərabərlik və ədalətə çağırışları geniş xalq kütlələri arasında əks-sədaya səbəb oldu. Bu hərəkatın güclənməkdə olan təsirini və onun hakim quruluş üçün təhlükəsini görən Xosrov şah 529-cu ildə məzdəkilər hərəkatını amansızcasına boğdu. Məzdək öldürüldü. Buna baxmayaraq, islam qəbul edilənə qədər Mərkəzi Asiya xalqları məzdəkilik ideyasının təsiri altında idilər.

Miladın V əsrində Mərkəzi Asiya və Azərbaycanda **xristian dininin nestorian** təriqəti yayılmağa başladı. Bu cərəyanın əsası V-VI əsrlərdə Suriyada xristian Nestor tərəfindən qoyulub. VI-VIII əsrlərdə nestorianlar Cənubi Azərbaycana və Mərkəzi Asiyaya köçdülər. Nestorianların Abşeronda da yaşamaları haqqında bəzi məlumatlar vardır. Xristianlıq Albaniyada Mərkəzi Asiyadan xeyli əvvəl meydana gəldi. İlk xristian kilsəsi Gisdə (Kiş-Şəkinin kəndi) müqəddəs Yelisey tərəfindən ucaldılıb. Ancaq o zaman bu din Azərbaycan ərazisində, o cümlədən bütün Qafqazda yayıla bilmədi. Albanlar rəsmi olaraq xristianlığı 313-cü ildə çar Urnayrın göstərişi ilə qəbul etdilər. Bununla belə, bütpərəstliyin qalıqları ölkədə islam qəbul edilənə qədər qaldı. Erkən xristianlıq abidələrinin qalıqları Mingəçevirdə, Qaxda (Ləkit və Qum məbədləri), Qəbələdə (Kilsədağ), Ağdamda (Boyəhmədli kilsəsi) və s. vardır. Kilsə başçısı katalikos adlanırdı, iqamətgahı IV əsrdə Qəbələdə, V əsrdə isə Bərdədə yerləşirdi. XIII əsrdən Alban kilsəsinin katalikoslarının iqamətgahı, bu günümüzə qədər yaxşı saxlanan Gənzəsər monastırı oldu.

Erkən orta əsrlər dövründə xristianlıq Altay xalqları, o cümlədən uyğurlar arasında da yayılmışdı. Mərv şəhərində

Xaraba – Koşuk adlanan yerdə V-VI əsrlərə aid kilsə qalıqları tapılıb. Ancaq xristianlıq Mərkəzi Asiya türklərinin tam rəsmi dininə çevrilə bilmədi.

**İslamın yayılması.** Ərəblər türk torpaqlarını ələ keçirərkən, eyni zamanda öz dini olan islamın kafirlər arasında yayılmasına çalışırdılar. Onlar, xüsusilə bütpərəstliyə qarşı daha amansız mübarizə aparırdılar. Sasani zülmünün rəmzinə çevrilən zərdüştlük, bu dövrdə artıq onun hakimiyyəti altında olan xalqlar arasında öz nüfuzunu itirmişdi. Məhz bu fakt islamın Cənubi Azərbaycanda və Mərkəzi Asiyada sürətlə yayılmasına səbəb oldu. «Əhli kitab» olan yəhudi və xristianlara gəldikdə isə, ərəblər burada can vergisi – cizyə almaqla kifayətlənirdilər.

İri şəhərlərdə, əsasən Xorasan, Buxara, Xivə, Bəlx və digərlərində islam nisbətən tez yayıldı. Bununla belə, köçəri həyat tərzi sürən xalqlar arasında islama qarşı güclü müqavimət var idi.

VIII əsrin ortalarında Mərkəzi Asiyanın Xəzəryanı bölgələrində və Volqaboyu rayonunda islam artıq hakim din olmuşdu. Qərbi Sibir və Xəzər regionunun bəzi yerlərində isə hələ də köhnə inanclar saxlanılırdı.

Abbasilərin «taxta çıxması ilə» Cənubi Azərbaycanda islamın möhkəmləndirilməsi başa çatdı. Xalq kütlələrini islamda bütün müsəlmanların bərabərliyi şüarları, vergilərin azaldılması və s. cəlb edirdi. Şimalda – Albaniyada isə islamın yayılması uzun sürən və mürəkkəb bir proses oldu.

«Həqiqət yoluna» qədəm qoyan türk əhalisinin mənəvi durumu **«Kitabi Dədə Qorqud»** eposunun boylarında öz izini qoymuşdur. Burada oğuzlar müsəlmanlar adlandırılsa da onların məişətində qədim türk allahı Tanrı mühüm aparıcı yer tutur. Bu kitab oğuz türklərinin ən böyük epik abidəsidir. İlk dəfə eposun 12 boydan ibarət olan (304 səh.) əlyazmasını Yakob Reyske (XVIII əsr) Drezdenin Kral kitabxanasında aşkar edib. 1802-ci ildə H.O.Fleyşer Şərq əlyazmalarının kataloqu üçün tərtib etdiyi arayışda göstərirdi ki, kitabın adı mömin, ağıllı və



bütün oğuzların arasında böyük nüfuza malik olan Qorqudun adından götürülüb.

Alman alimi H.F.fon Dits Təpəgözü Homerin "Odisseya" əsərindəki Polifemlə müqayisə edərək belə bir fikrə gəlmişdi ki, bu mövzunu yunanlar Şərqdən götürüblər.

1950-ci ildə italiyalı şərqşünas Ettore Rossi Vatikan kitabxanasında 6 boydan (98 səh.) ibarət olan ikinci əlyazmanı aşkar edib. Hər bir bölmə "Oğuznamə" adlanır. F.Rəşidəddinin "Oğuznamə"si və uyğur "Oğuznaməsi"də mövcuddur. Onların mətnlərindən aydın olur ki, uzaq keçmişdə oğuzlar iki fratriyaya bölünürdü - Boz ok və Üç ok. "Kitabi Dədə Qorqud"da isə Boz ok – Üç okun qədim etnonimlərdən olan İç Oğuz – Dış Oğuzla qan qohumluğu aydın olur. "Kitabi Dədə Qorqud" minillik yazı ənənəsi olan mənbədir. Halbuki, digər türk eposları "Manas", "Alpamış", "Koroğlu" XIX və ya XX əsrlərdə yazıya alınmışdır.

Elmi ədəbiyyatda türk xalqlarının mənşəyi haqqında ən qiymətli mif Göytürklərə aid olan "Qurddan törəyiş haqqında əfsanə" hesab olunur. Bu əfsanənin mətni erkən orta əsr Çin mənbələrindən götürülüb.

Bəhaəddin Ögəl "Türk mifologiyası" kitabında yazır ki, göytürklər qədim hun tayfalarından əmələ gəliblər və onların "Aşina" adlı qolunu təşkil edirlər. Sonralar Lin dövləti onları məğlub edərək öldürmüşdür. Yalnız 10 yaşlı bir oğlan sağ qalır. Lin döyüşçüləri uşağın ayaqlarını kəsib gedirlər. Ancaq onların hökmdarı uşağın sağ qaldığını biləndə onu öldürmək əmri verir. Döyüşçülər uşağın yanında dişi qurdu görüb, onu öldürmək istəyirlər. Dişi qurd qaçaraq dağda dərin bir mağarada gizlənir. Orada onun həmin oğlandan 10 balası olur və onlar evlənəndən sonra bir nəsil meydana gəlir. Bir-neçə nəsildən sonra onlar mağaradan çıxıb Altayın ətəklərində məskunlaşırlar. Bu mif orta əsrlərdə Böyük Çin səddindən tutmuş Mərkəzi Avropaya, Qıpçaq çölündən Aralıq dənizinə qədər bütün türk xalqları arasında yayılmışdı. XI əsr qədim rus İpatyev salnaməsində də bu mifin izləri qalıb. "Kitabi Dədə Qorqud"da da

xalqın etnik tarixi kökləri ilə bağlı olan qurd obrazı dəfələrlə xatırlanır. Bu kitabda qurddan törəyişə inam qədim ana-dişi qurd və qədim ata-qurd obrazları ilə ifadə olunur. Uyğur "Oğuznaməsi"ndə "Səmavi Qurd" – "Eyük Büri" oğuzların hərbi başçısı kimi çıxış edir. Ancaq F.Rəşidəddinin "Oğuznamə"si və Əbülqazi Bahadır xanın "Şəcərəye-Tərakimə"də totem-qurd obrazı yoxdur.

"Kitabi Dədə Qorqud"la yanaşı ana-dişi qurd haqqında əfsanənin izlərinə "Koroğlu" dastanının Azərbaycan variantında da rast gəlinir. Koroğlunun oğlu da Qazan xan kimi Qurddan törəməsi ilə fəxr edir.

**Orxon-Yenisey abidələri.** "Kitabi Dədə Qorqud" eposunun dili göytürk oğuzlarının dilinə yaxındır. Böyük türk xaqanlığı İran şahı və Bizans imperatoruna skif dilində yazılmış məktublar göndərirdi. Ancaq bu dilin əlifbası haqqında məlumat yoxdur. Bəzi alimlər hesab edirlər ki, ilk türk yazısı soqd əlifbası ilə yazılmışdır. Ancaq bu əlifba türk dilinin fonetik sisteminə xas deyil. Buna görə də türklər VI əsrin birinci yarısında öz əlifbalarını yaratdılar. Alimlər hesab edirlər ki, runi yazısı qədim türk damğa işarələri əsasında meydana gəlib. Belə ki, Altayın Minusin çökəkliyində aşkar olunan çoxsaylı qayaüstü damğa işarələri runi yazısının hərfləri ilə oxşardır.

Qədim türk runi əlifbası 38 hərfdən ibarətdir və ərəb əlifbası kimi sağdan sola yazılır. Runi yazısı olan abidələr I Pyotrun yanında xidmət edən Messerşmidt və F.Tabbers tərəfindən aşkar olunub. O, yazını «runo» (fin dilində) adlandırdı. Beləliklə, qədim türk yazısı elmə «runi yazıları» kimi daxil oldu.

Mərkəzi Asiyada ilk dəfə belə yazılar 1896-1898-ci illərdə Talas çayı vadisində tapılıb. Bu abidələri V-VII əsrlərə aid edirlər. Şimali Monqolustanda Orxon çayı yaxınlığında da runi yazısı aşkar olunub. Bu yazılar ədəbiyyata «Orxon abidələri» adı ilə daxil olub. Belə abidələr Bilgə xaqanın (734), onun qardaşı Gül-Teginin (732), eləcə də vəzir Tonyukukun şərəfinə ucaldılmışdı. Bu yazılar 1889-cu ildə N.M.Yadrinsev tərəfindən tapılıb. Beləliklə, runi yazılarını üç



qrupa bölmək olar: Talas, Orxon və Yenisey abidələri. Bu yazının şifrinin açılması isə 1893-cü ilə aiddir. İlk dəfə onu danimarkalı dilçi V.Tompson və rus türkoloqu V.V.Radlov oxuyublar.

**Elm, ədəbiyyat və incəsənət.** Xilafətin süqutu nəticəsində yaranan siyasi dirçəliş türk xalqlarında elm, mədəniyyət və incəsənətin inkişafına güclü təkan verdi. Yaranmış müstəqil feodal dövlətləri elmin – maarifin inkişafına diqqət ayırır, saraylarda qabaqcıl adamları toplayır, məscid, körpü və şahanə saraylar tikdirirdilər.

Şəhərlərdə çoxlu sayda, bütün Şərqdə şöhrət tapmış mədrəsələr fəaliyyət göstərirdi. Məscidlərin nəzdində olan ibtidai məktəblərdə Quranı öyrənirdilər.

Tanınmış riyaziyyatçı Əbu Abdulla Məhəmməd ibn Musa əl-Xarəzmi Bağdadda xəlifə Məmunun sarayında (IX əsr) yaşayıb. O, astronomiya, coğrafiya və riyaziyyat üzrə bir sıra əsərlər yazıb. Onun «Kitab-ül-Cəbr və Müqabələ» (Cəbr) kitabı latın dilinə tərcümə olunmuşdur. Xarəzmi yalnız cəbr deyil, həm də triqonometriyanın banisi olub. Onun «Kitabi Surət-ül Ərz» əsəri isə astronomiyaya həsr olunub. Həbəş adlı mərvli astronom 832-ci ilə qədər üç növ astronomiya cədvəlini tərtib edib.

Bu dövrdə Mərkəzi Asiyada fəlsəfə də inkişaf edirdi. Şərqin böyük mütəfəkkiri əl-Fərabi öz təhsilini ərəb dilində Buxara, Dəməşq və Bağdadda alıb. Onun əsl adı Əbu Nasir Məhəmməd ibn Məhəmməd ət-Türkidir (870-950). O, fəlsəfə və məntiq üzrə çoxsaylı əsərlər yazıb. «İhsa-ül-Ülim» («Elmlərin sayı») əsərində Fərabi elmlərin təsnifatını verir. O, Aristoteldən sonra məntiq elminin banisi hesab olunur. Fərabi, həmçinin «Füsus-ül hikam», «Siyasət-ül Mədəniyyə», «Mədin-əl Fəzilə», «İsbat-ül Məfarəkət», «Təlakət» və s. əsərlərin müəllifidir.

Mərkəzi Asiya və bütün Şərqin ən böyük elm xadimlərindən biri Əbu Reyhan əl-Biruni əl-Xarəzmidir (973-1048). Ensiklopedik biliyə malik alim Qəznədə yaşayıb və fəlsəfə, tarix, coğrafiya, riyaziyyat, astronomiya, mineralogiya, fizika və s.

üzrə yüzdən artıq əsər yazıb. O, ilk olaraq, Kopernikdən 500 il əvvəl Yerin Günəş ətrafında fırlandığını sübut edib.

Şərqin böyük alimi İbn Sina (980-1037) Buxara yaxınlığında yerləşən Afşanak kəndində doğulub. Onun əsl adı Əbu Əli Hüseyn ibn Abdulla olsa da Avropada o, «Avisenna» adı ilə məşhur idi. İbn Sina tibbə aid 5 cildlik «Əl qanun fit tibb» (Tibb elminin qanunu), «Şəfa» «Fisul» və s. kimi fəlsəfi əsərlərin ensiklopediyasını yazıb. O, bütün Şərqdə yeganə cərrah idi və 250 böyük həcmdə əsərin müəllifidir. Onun şagirdi böyük Azərbaycan filosofu Bəhmənyar ibn Mərzban dünya fəlsəfəsinin inkişafında mühüm rol oynayıb. Onun əsərləri bir çox Şərq və Qərb dillərinə tərcümə olunub.

Türk xalqlarının XI əsrdə ən böyük elmi əsərləri Mahmud Qaşqarlının «Divan-i-lüğət-ət-türk» və Yusif Balasaqunlunun «Kutadqu-bilik»dir. Balasaqunlunun poeması 1069-cu ildə yazılıb, «Xoşbəxtlik naminə elm» mənasını daşıyır. Yusifin doğulduğu Balasaqun şəhəri Qaraxanilərin paytaxtı idi. Poema uyğur dilində yazılıb. Qaraxani hakimi Satuk Buğra xana hədiyyə verilmişdi. O, Mərkəzi Asiya və Şərqi Türküstanda cərəyan edən hadisələrə həsr olunub. Y.Balasaqunlunun əsərində insan həyatının mənası, əxlaqi normaları haqqında çoxlu fəlsəfi fikirlər, eləcə də qədim türk əfsanələri və folklor var.

Bu dövrün digər məşhur əsəri Mahmud Qaşqarlının «Divan-i-lüğət-ət-türk»dür. O, Qaşqar şəhərində yaşayıb, əsl adı Mahmud ibn Hüseyndir. Əsər 1072-1074-cü illərdə ərəb dilində yazılıb, üç cilddən ibarətdir və Mərkəzi Asiyanın türk xalqlarının dil, tarixi etnoqrafiya və folkloruna həsr olunub. Qeyd etmək lazımdır ki, məhz M.Qaşqarlı ilk dəfə səlcuq oğuzlarının 22 tayfasının adını çəkib. O, öz əsərinə xəritə əlavə edərək Azərbaycanı da türk ölkələrinin sırasında qeyd edir.

Azərbaycan filosofu Eynəlqüzzat Miyanəçi (1099-1131) görkəmli əsərlər yaratsa da, panteist görüşlərinə görə edam olundu. Şərq ölkələrinə səyahət edən Xətib Təbrizi (1030-1109) də böyük şöhrət qazanmışdı. O, Bağdadda məskunlaşaraq



məntiqin fəlsəfəsi, ədəbiyyat və dil sahəsində qiymətli tədqiqatlar aparmış, islam dünyasının görkəmli alimi olmuşdur.

Tanınmış alim Ömər Gəncəvi də Şərq ölkələrinə səyahət edərək Nişapur, Həmədan və Mərvin elm məktəbləri ilə tanış olub. O, Bağdadın «Nizamiyyə» mədrəsəsində təhsil alaraq ədəbiyyatşünaslıq və dilçilik üzrə bir sıra əsərlər yazıb. Bütün həyatını səma cisimlərinin öyrənilməsinə həsr edən Fazil Fəriddin Şirvani qiymətli astronomiya cədvəllərini tərtib etmişdir.

Ədəbiyyat sahəsində də əhəmiyyətli yüksəliş müşahidə olunurdu. Ədəbiyyatda iki istiqamət üstünlük təşkil edirdi: qiymətli xalq yaradıcılığı və klassik kübar ədəbiyyatı. Dastanlar qədim inancları və adətləri, yadellilərə qarşı qəhrəmanlıq mübarizəsini əks etdirir və doğma türk dilində ifa olunurdu. Hakimlərin sarayında və ədəbi dairələrdə isə yazılı ədəbiyyat ərəb və fars dillərində yaradılırdı. Buna görə də o, sadə xalqın həyatını tam olaraq əks etdirə bilmirdi.

Şərqin böyük şairi Rudəki Samanilərin sarayında «məlik üş-şüəra» (şairlərin hakimi) idi. Onun əsl adı Əbu Abdulla Cəfər ibn Məhəmməddir (860-941). Anadan kor doğulan Rudəki 130 min beytdən ibarət şeir yazıb. Onun sevimli şagirdi Şahid Bəlxi idi. O, istedadlı şair olsa da müəllimindən tez vəfat etmişdi.

«Divan-i Hikmət» əsərinin müəllifi Xoca Əhməd Yasəvi şair-dərviş idi və Mərkəzi Asiyanın mədəni həyatında və islam dininin təbliğində mühüm rol oynamışdı. O, 1166-cı ildə Özbəkistanın Yasə şəhərində dəfn olunub. XIV əsrin sonlarında əmir Teymur onun şərəfinə məscid tikdirib.

Süleyman Bəkirqani Yasəvinin müasiri olub. Onun təxəllüsü «Həkim-Ata» idi. O, «Bəkirqani» şeirlər toplusunun müəllifidir. Topluda Sırdəryanın sahillərində yaşayan tayfaların tarix və etnoqrafiyası haqqında maraqlı məlumatlar var. Bəkirqani insanları ədalətə və insan həyatının əbədi olmaması haqqında fikri dərk etməyə çağırırdı.

XI-XII əsrlərdə Nizaməddin Əbülüla Gəncəvi, Fələki Şirvani, İzəddin Şirvani, Qətran Təbrizi, Məhsəti Gəncəvi, Xaqa-

ni Şirvani kimi Azərbaycan şairlərinin bütöv bir nəsli yetişdi. Onların çoxu saray şairi idi. Bununla yanaşı onlar Azərbaycan ədəbiyyatının inkişafında son dərəcə mühüm rol oynadılar. Qətran Təbrizi lirik şeirlərinin divanından başqa, fars dilinin «Ət-təvasir» adlı şərhli lüğətinin müəllifidir.

Məhsəti Gəncəvinin real, səmimi insan münasibətlərindən doğan poeziyası dini fanatizm və asketizmdən uzaq idi. Xaqani Şirvaninin yaradıcılığına da humanizm xarakterik idi. O, 17 min beytdən ibarət lirik şeirlərin Divanını, «Töhfət ül-İraqeyn» poemasını, «Mədain xarabalıqları» və s. yazmışdır.

Şərqin ən böyük şairlərindən biri, adı dünya poeziyası klassiklərinin siyahısına düşmüş Nizami (İlyas) Gəncəvidir. Nizaminin ölməz «Xəmsə»si onun adını bütün dünyada şöhrətləndirib. O, Tomas Mor və Tomazo Kampanellanı qabaqlayaraq ideal dövlətin fəlsəfəsini yaradıb.

IX-XII əsrlərdə memarlıq, oyma sənəti, divarüstü naxışlar, zərbetmə, yıvaçma çiçəklənmə dövrü keçirirdi. Təmtəraqlı saraylar, məscidlər, minarələr, qüllələr və qalalar tikilirdi.

İslam dini türk xalqlarının memarlığında yeni üsul yaratdı. Nadir arxitektura nümunələrinin yaradılmasında Azərbaycan memarları da fəal iştirak edirdilər. Ən məşhuru Əbubəkrin oğlu Əcəmi Naxçıvani idi. O, Naxçıvanda Yusif ibn Küseyr türbəsi (1162), Möminə xatun türbəsi (1186-cı il), Qoşa-minarə (1187), Cümə məscidi, Darülmülk və s. ucaldıb.

O dövrün nadir abidələrindən biri Xudafərin körpüsüdür (1027). Bakıda Qız qalası, Şamaxıda-Gülüstan, Ağsu çayının sahilində – Buğurd qalaları, Əlincəqala, Oğlanqala və s. kimi müdafiə qurğuları xüsusi yer tutur.

XIII-XV əsrlərdə monqol yürüşləri və işğalları türk xalqlarının sosial-iqtisadi və mədəni həyatına böyük zərbə endirdi. Bununla belə, elm və ədəbiyyatda bəzi nailiyyətlər nəzərə çarpırdı. 1259-cu ildə ensiklopedik biliyə malik böyük Azərbaycan alimi Nəsirəddin Tusinin rəhbərliyi ilə Marağada rəsədxana tikildi. Onun vəfatından sonra bu yeri oğlu Sədrəddin tutdu. Bu rəsədxanada dünyanın bir çox ölkəsindən yüzdən çox



alim, o cümlədən Mərkəzi Asiyadan Cəmaləddin Buxaralı çalışırdı. Marağa rəsədxanasının elmi əsərləri Səmərqənddə Uluqbəy rəsədxanasının tədqiqatlarında böyük yer tuturdu. Ancaq Səmərqənd rəsədxanası astronomiya elminin sonrakı inkişafına Marağa rəsədxanası qədər təsir göstərə bilmədi. Sonuncu, Şərqin ilk akademiyası idi. Burada aparılan tədqiqatlar və yazılan əsərlər Avropa elminin əsasını təşkil edirlər. Marağa rəsədxanasında tərtib olunan cədvəllər müasir beşişarəli həndəsi cədvəllərdən daha dəqiq idi.

1300-1304-cü illərdə Təbrizdə başqa bir rəsədxana tikildi. O, Qazan xanın yaratdığı «Əbvab əl-birr» («Allah evi») kompleksinə daxil idi.

Böyük alim Nəsirəddin Tusi (1201-1274) Bəhmənyar və İbn Sina məktəbinin alimlərindən təhsil almışdı. 1230-cu ildə o, bütün Şərqdə ona şöhrət gətirən «Əxlaqi-Nasiri» əsərini yazdı. Onun «Zic-e Elxani» («Elxani cədvəlləri») bütün Avropada çox tez bir zamanda məşhur oldu. N.Tusi say anlayışı məsələsində Avropa elmini 400 il qabaqlamışdı. «Təhriri-Əqlidis» («Evklidin şərhi») kitabı görkəmli Avropa alimlərinin əsərlərinə təsir göstərib. Fəlsəfi-sosioloji problemlərin öyrənilməsi ilə məşğul olan N.Tusi Əbu Əli ibn Sinanın fəlsəfi görüşlərini yüksək qiymətləndirirdi. O, 150-dən çox elmi əsərin müəllifidir.

Əmir Teymurun nəvəsi Uluq bəy (1394-1449) astronomiya və riyaziyyat sahəsindəki kəşfləri ilə şöhrət tapmışdır. Onun əsl adı Məhəmməd Taraqay (Turqay) ibn Şahruh, ləqəbi isə «Laüddövlə Uluq bəy Kürkan» idi. O, «Zigi-Cadidi-Sultani» və «Şəcərət-ül-Ətrak» (Türklərin şəcərəsi) əsərlərinin müəllifidir.

Teymurilər imperiyasının hakimi olan Uluq bəy böyük alim və memar idi. «Uluq bəy Xangahihin gümbəzi» bütün dünyada ən hündür gümbəz, «Uluq bəy rəsədxanası» isə dövrünün ən böyük rəsədxanası hesab olunur.

XIII-XV əsrlərdə «Şəfa evlərinin» açılması geniş yayılmışdı. Bu qəbildən olan klinik müəssisə ilk dəfə İbn Sina tərəfin-

dən açılmışdı. Monqol hakimiyyəti dövründə Qazan xanın vəziri F.Rəşidəddinin göstərişi ilə artıq bir çox vilayətlərdə xəstəxanalar açılmışdı. Təbrizdəki Darüş-şəfa, demək olar ki, universitet şəhərciyi olub «Rəbi-Rəşidi» adlanırdı. O, mühüm elmi-mədəni mərkəzə çevrildi və orada böyük kitabxanası olan universitet kompleksi yaradıldı.

Bu zaman fəlsəfi fikirdə sufi baxışları yayılırdı. Ən böyük mütəfəkkirlərdən biri alim-filosof, məntiq və təbiətşünaslıq üzrə mütəxəssis Siracəddin Urməvi (1198-1283) idi. O, Mosulda təhsil alaraq Konya şəhərinin baş qazisi oldu. «Mətəli əl-ənvar» («İşığın doğulması»), «Lətaif əl-Hikmət» («Müdrikliyin incəlikləri», «Bəyan əl-həqq» («Həqiqətin şərhi») və s. əsərləri onun adını elm dünyasında məşhurlaşdırdı. S.Urməvinin dialektikaya həsr olunan əsəri XIV əsr alimi Qütbəddin Razinin şərhi ilə İstanbul, Təbriz və Tehranda nəşr olunmuşdu.

Görkəmli mütəfəkkir Sadəddin şeyx Mahmud Şəbüstəri (1284-1320) antik filosofların irsinin bilicisi idi. O, öz əsərlərində Aristotel və Platonla yanaşı İbn Sina, Nəsirəddin Tusi, Qəzali, Mənsur Həllac, Bəyazid Bistam, Vasil ibn Ata, Fəridəddin Əttar kimi alimlərin adlarını da yad edir.

M.Şəbüstəri panteist idi və vəhdət-ül-vücud fəlsəfəsinə söykənirdi. O, «Gülşəni-raz» («Sirrlər gülüstanı»), «Şahidnamə», «Səadətnamə» və s. əsərlərin müəllifidir. Bu əsərlər bütün Şərqin fəlsəfəsinə öz təsirini göstərmişlər.

Sufi alimi, hələ sağlığında bütün müsəlman Şərqində məşhur olan Şihabəddin Əbu Həfs Ömər Sührəverdi (1145-1234) Sührəverdiyyə sufi təşkilatının banisi idi. Onun «Əvarif əl-maarif» («Biliklərin ənamı») kitabı türk və fars dillərinə tərcümə edilmişdi. O, tez-tez Konya sultanlığına gəlir, sultan İzəddin Keykavusun qonağı olurdu. XIV əsr türk tarixçisi Şəmsəddin Əflaki öz əsərində Ş.Sührəvərdinin Mövlanə Cəlaləddin Ruminin atası Bəhaəddin Vələdlə – «Sultan-ül-üləma» ilə görüşünü təsvir edir.

Mövlanə Cəlaləddin Rumi (1207-1273) qüdrətli türk sufi şairi, şeyx və islam fəlsəfəsinin dahi nümayəndəsi idi. Onun əsl



adı Mehmet Cəlaləddindir. O, Konyada yaşayaraq mədrəsədə dərs deyir, məsciddə xütbə oxuyurdu. Ancaq Şəms Təbrizilə görüşü, nəinki onun baxışlarında, hətta həyat tərzində də əsaslı dəyişiklik yaratdı. Mövlanə müəllimliyi və vaizliyi buraxıb musiqiyə, «Səmavi» dərviş rəqslərinə meyl etdi. Bu görüş sayəsində Cəlaləddin Rumi böyük söz ustası – Mövlanə oldu.

Görkəmli Azərbaycan mütəfəkkiri və şair Şəmsəddin Məhəmməd ibn Əli Təbrizi 1246-cı ilin fevral ayında Konyanı tərk etdi. Buna səbəb, çoxlarının onun Mövlanə ilə ruhi yaxınlığından narazı qalması oldu. Cəmiyyətdən üz çevirən Mövlanə hər yerdə Şəmsi axtardı və yerini öyrənib onun geri qayıtmasına nail oldu. Ancaq tezliklə Şəms, onların dostluğuna qısqanclıqla yanaşanlar tərəfindən öldürüldü. Dərddən üzülən Mövlanə özünə «Şəms» təxəllüsünü götürərək bu ad altında «Divan-i-Kəbir»i yazdı. Mövlanənin məsnəviləri bütün türk dünyasında məşhurdur.

Monqol işğallarının ağır sosial-iqtisadi nəticələri yeni təlimlərin, xüsusilə hürufiliyin yaranmasına səbəb oldu. Bu təlimin banisi görkəmli mütəfəkkir və şair Fəzlullah Nəimi Təbrizi əl-Hürufi (1339/40-1393/4) idi. Hürufilik təliminin nəzəri əsası onun «Cavidani-Kəbir» («Əbədiyyat kitabı»), «Məhəbbətnamə», «Ərşnamə» və şeirlər «Divan»ında qoyulub.

Hürufilərin əsas fəlsəfi baxışları Allahı canlı təbiət və insanla vəhdətdə görmələrindən ibarətdir.

F.Nəiminin fikrinə görə, Allah hərf və rəqəmlərin vasitəsilə sözlərdə təzahür edir. Onun təlimini Nəsimi, Seyid İshaq və b. dəstəkləyir və inkişaf etdirirdilər.

Bununla belə, bu dövr təbiət və fəlsəfi elmlərin inkişafında durğunluq dövrü hesab edilir. Elmi əsərlər isə, əsasən şərhlərdən ibarət idi. Seyid Yəhya Bakuvinin «Şərhi Gülşəni-raz», «Əsrar ət-talibin» («Həqiqət axtaranların sirləri») əsərlərini misal göstərmək olar. Onun «Rəudət əl-ülum» («Elmlərin bağçası») kitabı Ayasofya müzeyində saxlanılır.

XV əsrdə tibb elmində İstanbulda çalışan Şükrullah Şirvani məşhur idi.

Tarix elminin inkişafında baş verən ən böyük hadisələrdən biri Fəzlullah Rəşidəddinin rəhbərliyi altında çoxcildlik «Cami ət-Tavarix» («Tarixlərin toplusu») əsərinin yaradılması oldu. Əsərin ikinci kitabına daxil edilmiş «Tarixi-Oğuz və Türkan və hekayəti – Cahangiri» («Oğuznamə») oğuz türklərinin erkən tarixinin öyrənilməsi üçün qiymətli mənbələrdən biri hesab olunur.

XV əsrin tanınmış salnaməçisi Dövlətşah Səmərqəndi türk xalqlarının mədəni həyatına aid geniş material toplayaraq, onların XIII-XV əsrlər mədəniyyət tarixinin tədqiqində əvəzsiz rol oynayıb. Onun verdiyi məlumata görə, XIII əsrdə Həsənoğlunun türk dilində Divanı mövcud olub. O, Azərbaycan və Anadolunun ədəbi dairələrində yaxşı tanınırdı. Nəsimi, Anadolu şairləri Tacəddin Əhmədi, Əhməd Dac, özbək şairi Seyf Sarayi və b. Həsənoğlunun şeirlərini təqlid edən şeirlər yazırdılar.

Həsənoğludan sonra Anadoluda da Qazi Bürhanəddin Əhmədin türk dilində ədəbi Divanı meydana gəldi. O, 1344-cü ildə Kayseri qazisi Şəmsəddin Məhəmmədin ailəsində doğulub. Misir və Suriyada təhsil alaraq o, fiqh, məntiq, astronomiya, riyaziyyat və tibb elmlərini öyrənib. 1365-ci ildə Bürhanəddin Əhməd Sivas şəhərinin qazisi təyin olundu və dərhal siyasi mübarizəyə qoşuldu. 70-ci illərin ortalarında o, Kayserinin Qaraman bəyliyinin əlindən alınmasında həlledici rol oynadı və 1381-ci ildə vəzir, sonra isə naib təyin olundu. Qazi Bürhanəddin Sivasda səltənət yaratdı, 1394-cü ildə isə Teymurun təhlükəsinə qarşı ittifaq təşkil etdi. Osmanlı sultanı Bəyazid, Məmlük sultanı Bərkük, Ağqoyunlu başçısı Osman Qara Yuluq və Qızıl Orda xanı Toxtamış bu ittifaqa qoşuldular.

Qazi Bürhanəddinin türk dilində 608 səhifədən ibarət Divanı 17 min misralıq 1319 qəzəl, 108 tuyuq və 20 rübaidən tərtib olunub.

Ən böyük xalq ozanı, təkkə şeirinin ilk müəllifi Yunis İmrə (təx.1240-1320) təmiz türk dilinin bayraqdarı və «vəhdəti ülvücud» fəlsəfəsinin tərəfdarı idi. O, Mövlanənin məclislərində



fəal iştirak edərək Anadolu, Suriya, Azərbaycan və İrana səyahət etmişdi.

Əhməd Yasəvinin şərq türkləri arasında oynadığı rolu Yunis İmrə qərb türkləri arasında sufiliyin yayılmasında oynamışdır. O, nəinki sufi ədəbiyyatının, həm də divan ədəbiyyatının böyük şairidir. Onun «Divan»ında və «Risalətun-Nüsxiyyə» məsnəvisində yüzlərlə lirik şeir toplanmışdır. Əhməd Faqih, Səyyad Həmzə, Xoca Dehqani, Gülşəhri və Aşıq Paşa Anadoluda türk divan ədəbiyyatının yaradıcısı olmuşlar.

XIII-XV əsrlərdə türk xalqlarının musiqi sənətində dönüş baş verdi. 1252-ci ildə Səfiəddin Əbdülmömin Urməvi (1230-1294) «Kitab əl-ədvar» («Musiqi məqamları barədə kitab») əsərini yazmaqla bütün dünyada məşhurlaşdı. O, Şərq musiqisinin səs sisteminin nəzəriyyəsini və notların köməyi ilə 12 əsas və 6 törəmə ahəngin səs sırasını yaratdı. S.Urməvi ilk Azərbaycan bəstəkarı və gözəl ifaçı idi. Onun yaradıcılığı Şərq və Qərbin musiqi dünyasında mühüm yer tuturdu. XV əsrdə türk musiqiçisi Şükrullah Əhmədoğlu S.Urməvinin kitabını türk dilinə tərcümə edib.

Onun davamçısı görkəmli musiqi nəzəriyyəçisi, bəstəkar və müğənni Əbdülqadir Marağai (1353-1435) olub. O, orta əsr musiqişünaslığında ilk dəfə 12 ahəngdən yaranan 24 törəmə bölmənin nəzəri əsasını yaradıb. Ə.Marağainin əsas əsərləri «Cami-il Alxan» («Melodiyalar toplusu»), «Məkasid-ül Alxan» və sairədir.

Türk xalqlarının bədii-tətbiqi incəsənətində saxsı və saxsı məmulatı istehsalı aparıcı yer tuturdu. Bu məmulatlar məişətdə geniş yayılaraq memarlıqda da istifadə olunurdu. Bu sənətin zirvəsi minalanmış və rənglənmiş saxsının hazırlanmasıdır.

Bu dövrdə evlərin çoxu bişmiş kərpiçdən tikilir və minalı kaşılarla bəzədilirdi. 1465-ci ildə Təbrizdə Nemətulla Bəvvab oğlu tərəfindən tikilən Göy məscid kaşı sənətinin ən gözəl abidəsi hesab olunur. Xalq arasında onu «İslamın firuzəsi» adlandırırdılar.

Tətbiqi incəsənətdə daş üzərində kəsmə və metal emalı geniş yer tuturdu. Çəkisi 2 ton, diametri isə 2,45 metrə çatan tunc qazan Sankt-Peterburqda Ermitajda saxlanılır. Onun yaradıcısı təbrizli usta Əbdüləziz Şərafəddin oğlu qazanı 1399-cu ildə əmir Teymurun göstərişi ilə Xoca Əhməd Yasəvi məscidi üçün tökmüşdü. Xaricdən nəbati naxışlarla bəzədilən qazanın çiçək şəklində 10 qulpu var. Naxışların arasındakı «Dünyanın hakimi Allahdır» yazısı 22 dəfə təkrar olunur.

XV əsrə aid bürünc üstürlab yüksək bədii dəyərə malikdir. Arxa tərəfindəki yazı göstərir ki, o, sultan Bəyazidə hədiyyə olaraq usta Şükrullah Müxlis Şirvani tərəfindən hazırlanıb.

Orta əsrlərdə türk xalqlarında toxuculuq və xalçaçılıq yüksək bədii səviyyədə idi. Parça üzərində qızılı və gümüşü saplarla, uzaq keçmişdə günəş və od allahının rəmzi hesab olunan tovuz quşunun təsvirini tikirdilər. O, türk xalqlarında toxuculuqda və naxıştikmədə əsas ornament idi.

İstər Azərbaycan, istər Türkiyə, istərsə də Mərkəzi Asiya xalçalarının naxışları və düyünləri eyniyyət təşkil edir. Xocalı-Gədəbəy mədəniyyəti ilə Pazırık kurqanından tapılan arxeoloji abidələrdəki həndəsi naxışlar oxşardır.

XIV əsrin əvvəllərində türk xalqlarının memarlığında yüksəliş baş verdi. Bakıdakı Şirvanşahlar sarayı kompleksi XV əsrin milli memarlıq əsəridir. Azərbaycan memarlarından Hacı Əli Hafiz Təbrizi Heratda mədrəsə tikib, Əhməd Şəmsəddin Təbrizi Məşhəddə Məcnunşah məscidini ucaldıb. Şərafəddin Yəzdinin məlumatına görə, Səmərqənddəki Bibi-xanım məscidinin bəzək işləri Azərbaycandan gətirilən oymaçılar tərəfindən yerinə yetirilib.

Bəy Süngür Mirzə (1397-1433) görkəmli xəttat və «Herat İntibahının» birincilərindən idi. O, Şahruh Mirzənin ikinci oğlu olub «Bəy Süngür akademiyası» cəmiyyətini yaratdı. Onun ən məşhur əsəri – anası Gövhərşad Xatunun Məşhəddə tikdirdiyi məscidin naxışlarıdır.

Osmanlı imperatorluğunun böyük memarı Sinan Qoca (1490-1588) öz adını tikdiyi karvansaray körpü və s. qurğularda əbədiləşdirib. O, Rodos, Belqrad, Təbriz, Qahirə və Bağdadı gəzərək Şərq və Qərb memarlığı ilə yaxından tanış olmaq imkanı əldə etdi.



Sinan Qoca 81 cami, 50 məscid, 7 kitabxana, 19 mavzoley, 14 saray, 3 xəstəxana, 16 karvansara və s. tikib.

XVI-XVII əsrlərdə türk xalqlarının mədəni həyatında çox böyük müsbət dəyişikliklər baş verdi. Buxara, Səmərqənd, Bəlx, Hisar və s. şəhərlər Mərkəzi Asiyanın elm mərkəzlərinə çevrildilər. Übaydulla xan və onun oğlanlarının hakimiyyəti dövründə 250 nəfər ədəbi fəaliyyətlə məşğul olurdu. Onların arasında Zeynəddin Vosefinin satirik əsərləri populyar idi. O, 1485-ci ildə Heratda doğulub, 1512-ci ildə Şeybanilərin yanına gəlib, 30-cu illərdə Buxara, Səmərqənd və Daşkənddə yaşayaraq ədəbi fəaliyyətlə məşğul olub. Z.Vosefi şeirlərlə yanaşı «Qəribə səyahət» adlı xatirə kitabını yazıb.

Onun müasiri olan Kəmaləddin Binnoi də ədəbi cəmiyyətin diqqətini cəlb edirdi. K.Binnoi Heratdan Səmərqəndə gələrək Şeybanilərə xidmət edib. O, «Şeybanilər» poemasında xanın yürüşlərini təsvir edir. 1512-ci ildə onu Kərşi şəhərində öldürüblər.

Türk ədəbiyyatı və incəsənətinin ən böyük nümayəndəsi Əlişir Nəvai (1441-1501) Füzuli poeziyasının zirvəsini fəth edib. O, «Xəmsə», «Fərhad və Şirin», «Leyli və Məcnun», türk dilində Divan, «Xəzain-əl-Məani» və s. əsərlərin müəllifidir.

Nəvai Heratda yaşayırdı və dövlət işləri ilə yanaşı musiqi, təsviri və tətbiqi incəsənət əsərlərinin yaradılması ilə məşğul olurdu.

Bu dövrdə şair Hilalinin lirik şeirləri və qəzəlləri böyük şöhrət qazanmışdı. Ancaq 1540-ci ildə realist məzmunlu şeirlərinə görə onu Übaydulla xanın əmri ilə «allahsız» kimi edam etdilər.

XVI əsrin sonlarında ədəbi mühitdə dirçəliş müşahidə olundu. Bunda Molla Müşviq, Turobi, Nəhli, Yakta Kotli Buxarai, Xoca Məhəmməd Sabir, Həsən bəy Rafik Hiroti, Molla Camal, Munim, Nadim Möhrəm və b. az rol oynamamışlar.

Bir çox şairlər öz şeirlərində Şeybanilər və Həştərxanilər sülalələrinin qəddarlığını tənqid edirdilər və buna görə də vətəni tərk etməyə məcbur olaraq fəaliyyətlərini Hindistanda davam etdirirdilər.

Ədəbi əsərlərə sufiliyin təsirinin azalması müşahidə olunurdu. Görkəmli şair Mirabid Seyid Nəfisi, Fitrət Zərduyə, Molla Abid Mümtaz, Molla Mülhamə poeziyası geniş zəhmətkeş kütləsinin həyat şəraiti və arzularını əks etdirirdi.

XVI əsrdə Səfəvilər sarayının həyatında dövlət – diplomatik yazışmasına türk dilinin sirayət etməsilə Azərbaycan ədəbi dili daha da zənginləşdi. Böyük şairlər doğma türk dilində yazırdılar. Qəzəl, qəsidə və məsnəvi ustası «Divan», «Nəsihətnamə» və «Dəhnamə» kimi ədəbi əsərlərin müəllifi şah İsmayıl Xətai də ana dilində yazırdı.

Məhəmməd Füzuli (1498-1556) XVI əsr türk ədəbiyyatının ən görkəmli nümayəndəsidir. Onun yaradıcılığı ədəbi dilin nümunəsi kimi türk dilinin inkişafında yeni mərhələ açdı. «Leyli və Məcnun» poeması dünya ədəbiyyatının incisinə çevrilərək ona böyük şöhrət gətirdi. Füzuli digər böyük əsəri olan «Bəngü-badə»ni şah İsmayıla həsr etmişdi. Onun fəlsəfi görüşləri «Mətlə ül-etiqad» («Etiqadın mənbəyi») əsərində öz əksini tapıb.

Özbək ədəbiyyatının görkəmli nümayəndəsi Turdı Fəraqi 17 şeir yazıb. O və şair Babarəhim Məşrəb öz əsərlərində feodal ara çəkişmələrinə qarşı mübarizəyə çağırırdılar.

Saib Təbrizinin Divanı Osmanlı imperatorluğunun müxtəlif mədrəsələrində tədris vəsaiti kimi öyrənilirdi. Onun tam adı Mirzə Məhəmmədəli Mirzə Əbdürrəhim oğludur. O, XVII əsrin tanınmış söz ustası olub, Hindistana gedərək Böyük moğolların əmiri Zəfər xan tərəfindən şərəflə qarşılanmışdı. Onun 120 min beytdən ibarət külliyyatı vardır. Saib Təbrizi "Qəndaharnamə", "Mahmud və Ayaz" məsnəviləri və bir-neçə divanla yanaşı 25 min beytlik "Bəyaz" əsərini yazıb. Əsərdə 800 şairin adı çəkilir.



"Sihəm qəza" ("Qəza oxları") əsərinin müəllifi Nəfi əslən Ərzurumdan olsa da, sultan IV Muradın hakimiyyəti dövründə İstanbulda yaşayıb yaratmışdır.

Divan ədəbiyyatının ən böyük şairlərindən biri Ruhi Bağdadi Osman (1548-1605) idi. "Tərkibi bədii" əsəri onun adını məşhurlaşdırdı. Baki (1526-1600) də divan ədəbiyyatının böyük şairi idi. O, İstanbulda doğulub və yaşayıb. Onu "Sultanüs-şüara" ("Şairlərin sultanı") adlandırırdılar.

XVI-XVII əsrlərdə türk xalqlarında aşıq sənəti və epik ədəbiyyatın simasında xalq poeziyası inkişaf edirdi. Azərbaycanda ən məşhur aşıqlar Aşıq Qurbani, Abbas Tufarqanlı, Sarı Aşıq, Osmanlı imperatorluğunda isə Qaracaoğlan idi.

Osmanlı imperatorluğu, Azərbaycan və Türküstanın ən görkəmli epik abidələrindən biri "Koroğlu" dastanıdır. Eposun baş qəhrəmanı öz xalqının qətiyyətli və məğlubedilməz oğlu, Cəlalilər hərəkatının başçılarından biri olmuş tarixi şəxsiyyət hesab olunur. Belə ki, məhz XVII əsrin başlanğıcında Anadoluda və Azərbaycanda kəndli hərəkatı güclənmişdi. Bununla əlaqədar olaraq müxtəlif dövrlərdə baş vermiş tarixi hadisələr "Koroğlu" eposunda bir-birinə qovuşur. Qədim türk eposları Osmanlı imperatorluğu, Qafqaz, Türküstan və digər ölkələrdə geniş yayılan yeni eposun həyata gəlməsinə nəfəs verdilər.

Maarif sistemində də XVI-XVII əsrlərdə əhəmiyyətli dərəcədə tərəqqi baş verdi. Məscidlərin nəzdində, vəqflərin hesabına ibtidai təhsil ocaqları yaradıldı. Həmçinin pullu xüsusi məktəblər də mövcud idi. İbtidai məktəblərdə əvvəlcə əlifba öyrədilir, sonra isə Quran əzbərlədilirdi. Buxara və Səmərqənddə ali ruhani məktəbləri fəaliyyət göstərirdi.

Bu dövrdə türk dünyasında elm də inkişaf edir, çoxlu alim meydana gəlirdi. O zamanın ən böyük tarixçilərindən biri Qiyasəddin ibn Hüməməddin əl-Hüseyni (1475-1536) Xondəmir ləqəbi ilə tanınırdı. Onun əsərləri bütün türk dünyasının tarixinin öyrənilməsində əvəzsiz rol oynayır. Xondəmirin çoxcildliyinin bir hissəsi şeybanilərlə səfəvilər arasındakı qanlı vuruşmalara həsr olunub.

Fəzlullah Ruzibəyin "Həbib-üs-Səyyar", Hafiz Tanışın "Mehmannamə-i Buxara", "Abdullanamə" xatirələri o zamanın hadisələri barədə qiymətli məlumat verirlər. Məhəmməd ibn Vəli XVII əsrin ən böyük salnaməçisi olub dördcildlik "Bəhr-ül-əsrar fi mənaqib-ül-əxbar" ("Dənizin salnamələrdə açılan sirləri") kitabını yazıb. Bu əsərdə Çingizxanın hakimiyyəti dövründən başlayaraq Həştərxanilər sülaləsinin hakimiyyətinin sonuna qədər baş verən hadisələr öz əksini tapıb.

Ən qiymətli tarixi əsərlərdən olan "Türklərin və monqolların şəcərəsi" və "Türkmənlərin şəcərəsi"nin müəllifi Xivə hakimi Əbülqazi Bahadır xan (1603-1664) idi. Bu əsərlər özbək dilində yazılıb və elmi dəyər kəsb edirlər.

Dövrünün tanınmış tarixçisi Həsən bəy Rumlu "Əhsən-üt-təvarix" ("Tarixlərin yaxşısı") əsərinin müəllifidir. Əsərdə şah I Təhmasibin hakimiyyət dövrünə aid maraqlı məlumatlar verilir. Professional tarixçi İsgəndər bəy Münşi (1560-1634) isə "Tarix-i aləmaray-i Abbasi" əsərini yazıb.

Hind sultanı Əhmədnaqarın I Təhmasibin sarayındakı səfiri Hürşah ibn Qubad da tarixçi olub "Tarix-i elçiyə Nizamşah" əsərinin müəllifidir.

XVI-XVII əsrlərdə təsviri incəsənət intensiv surətdə inkişaf edirdi. Təbriz miniatür məktəbi isə onun zirvəsi oldu. Saray kitabxanasının emalatxanasında yerləşən bu məktəbdə Yaxın və Orta Şərqdən və Mərkəzi Asiyadan xəttatlar işləyirdilər. Xəttat Əbdürrəhman Xarəzminin üzünü köçürtdüyü Nizaminin "Xəmsə"si İstanbulun Topqapı muzeyində saxlanır. Burada Sultan Məhəmmədin rəhbərliyi altında usta Mirzə Əli və Şərqin görkəmli rəssamı Kəmaləddin Behzad, Bədəxşandan Mir Müsəvvir və b. çalışırdılar.

Dost Məhəmməd özünün "Xəttatlar və rəssamlar" kitabında türk xalqlarının təsviri incəsənəti barədə qiymətli məlumat verir. O, Sultan Məhəmmədi dövrünün yeganə böyük fırça ustası adlandırır. Dost Məhəmməd Mir Müsəvvir haqqında yazır ki, o, portret janrında Çin rəssamlarını üstələyirdi. Böyük moğolların hakimi Humayun ibn Bəbir 1544-cü ildə Təbrizdə olarkən bu rəssamı şah Təhmasibdən iki min tümənə almaq istəmişdi. Mir Müsəvvir oğlu Seyidəli ilə Hindistana gedərək orada Təbriz miniatür məktəbinin üsul və ənənələrini yaymağa başladı. Kəmaləddin Behzadın şagirdlərindən biri olan Dost Divanə də Hindistana, Humayun şahın yanına köçmüşdü.



Onlar moğol miniatür məktəbinin inkişafında böyük rol oynadılar. Usta Mir Müsəvvirin oğlu Mir Seyidəli Humayun Mirzə və Əkbər şahın saray kitabxanasında 20 ildən artıq xidmət edərək, 40-dan çox yerli və gəlmə rəssamın yaradıcılıq fəaliyyətinə rəhbərlik edib.

Təbriz məktəbi XVI əsrdə, həmçinin Osmanlı imperatorluğunun da miniatür sənətinə güclü təsir göstərib. Təbrizli rəssam Şahqulu sultan sarayında xüsusi emalatxanaya rəhbərlik edirdi. 1525-ci ildə İstanbulda sultan sarayında işləyən 29 rəssam iki qrupa bölünürdü: "Rumi" və "Əcəmi".

XVI əsrin sonlarında Təbriz 17 il osmanlı ordusunun əlində olduğu müddətdə yerli rəssamların çoxu İstanbula aparıldı. Saray emalatxanasında Vəlicanın rəhbərliyi altında 30 Təbrizli rəssam işləyirdi. Beləliklə, Təbriz rəssamları Şahqulu və Vəlican osmanlı rəssamlıq məktəbinin inkişafında mühüm rol oynadılar.

Təbriz miniatür məktəbinin ustaları arasında Mərvdən olan Bibicə adlı ilk qadın rəssam var idi. Ancaq XVI əsrin ortalarında dövlətin daxili problemləri ilə əlaqədar şah I Təhmasibin əmrilə saray kitabxanası bağlandı və beləliklə, təsviri incəsənətə böyük zərbə endirildi.

XVII əsrin əvvəllərində bədii akademiyanın əsasında İsfahan təsviri incəsənət məktəbi yaradıldı. Romaya tələbələr göndərildi. Onların arasında Məhəmmədzaman da var idi. O, italyan təsviri incəsənətinin incəliklərini öyrəndi, geriyə dönəndən sonra isə Hindistana gəldi. Məhəmmədzaman Cahan şahın sarayında xidmət edirdi.

Türk xalqlarının memarlığı XVI-XVII əsrlərdə də öz qədim ənənələrini davam etdirirdi. Mərkəzi Asiya, Osmanlı döv-

ləti və digər ölkələrdə yerlilərlə yanaşı azərbaycanlı memarlar da çalışırdılar. 1514-cü ildə sultan I Səlim Təbrizdən İstanbula 1700 sənətkar ailəsini köçürtdü. "Əcəmi Əli" kimi Osmanlı imperatorluğunda məşhur olan usta Əli Təbrizi İstanbulda baş memar vəzifəsində çalışaraq Təbriz arxitektura üsulunu yayırdı.

Cahan şahın sevimli həyat yoldaşının şərəfinə Aqra şəhərində tikdirdiyi "Tac-Mahal" məqbərəsi XVII əsr müsəlman-türk memarlığının incisi hesab olunur.

Osmanlı imperatorluğunda çətinliklər olmasına baxmayaraq elmi biliklərin inkişafında bəzi irəliləyişlər müşahidə olunurdu. Riyaziyyat, coğrafiya, kartoqrafiya, Osmanlı dövlətinin fauna və florası haqqında elmi əsərlər yazılırdı. Böyük türk alimi Katib Çələbi (1608-1657) coğrafiyaya aid "Cahannamə" kitabını yazıb.

Tanınmış səyahətçi və coğrafiyaşünas Evliyə Çələbi (1611-1685) təhsilini mədrəsədə alaraq ərəb, fars, latın, yunan, tatar və s. dilləri öyrənib. O, 50 il müddətində Yaxın Şərq, Afrika və Avropa ölkələrinə səyahət etmiş, eyni zamanda Moldova, Krım, Ukrayna, Volqaboyu və Azərbaycanda olmuşdur. O, 10 cildlik "Səyahətnamə" kitabının müəllifidir. Bu kitab, Evliyə Çələbinin olduğu ölkələrin xalqlarının coğrafiya və tarixinin öyrənilməsi üçün qiymətli mənbədir.

1737-ci ildə İstanbulda artilleriya mühəndisləri məktəbi açıldı. O, dəqiq elmlərin tədris olunduğu ilk məktəb idi. 1773-cü ildən isə donanma üçün zabit və matroslar hazırlayan dənizçilik məktəbi fəaliyyətə başladı. Bu məktəblərdə dərs keçmək üçün Fransa, İngiltərə və İsveçdən müəllimlər dəvət olundu.

Çap maşınlarının istifadə olunduğu Avropa ölkələrindən fərqli olaraq, Şərqdə kitabların üzünü xəttatlar köçürürdülər. Nəhayət ki, 1727-ci ildə Osmanlı imperatorluğunda İbrahim Mütəfəkkir tərəfindən ilk mətbəə açıldı. Çap dəzgahları xaricdən gətirilirdi. Bu mətbəədə çap olunan ilk kitab ərəb-türk lüğəti "Vankulu lüğəti" idi.

İstanbulda beş yeni kitabxana açıldı. Ərəb və fars dillərində olan qiymətli əsərləri türk dilinə tərcümə edirdilər.



XVII-XVIII əsrlərdə klassik türk poeziyasının görkəmli nümayəndələri Nəfi, Yəhya, Nail və b. idi. Xalq poeziyası yaradıcılığı ilə Aşıq Ömər, Cövhəri və Qaracaoğlan məşğul olurdular. O dövrdə Osmanlı imperatorluğunda ən böyük yazıçılar Nəbi, Nadim, Qoca Rahib paşa və b. idi.

XVIII əsr memarlığında ya Versal, ya da İsfahan üsulundan istifadə olunurdu. II Əhməd Çeşməsi özünün dekorativ naxışları ilə türk memarlığının gözəl nümunəsidir.

Möhtəşəm Sultan Əhməd camisi, Süleymaniyyə və Səlimiyyə məscidləri memar Mehmet Ağanın rəhbərliyi ilə tikilib. Topxana sarayında tikilən I Mahmud Çeşməsi də gözəl sənət əsəridir.

Bu dövrdə təsviri incəsənətdə dəyişikliklər baş verirdi. Topqapı sarayının Şəkil Qalereyasında saxlanan Sultan III Əhmədin portreti Levninin miniatürasıdır.

Saray musiqisinin ən parlaq dövrü XVIII əsr hesab olunur. Sultan III Səlim məşhur musiqişünas və bəstəkar idi. Milli lirik musiqinin inkişafında Zəkəriyyə Əfəndi, Mahmud Cəlaləddin, Paşa Rəhimi və D.Qandəmir böyük rol oynamışlar.

Qazaxıstanın Rusiya tərəfindən işğalına başlanması təhsil və mədəniyyətə rus təsirini gücləndirdi. Rus dilli təhsil verən məktəblər açıldı. Qazax baylarının uşaqları da bu məktəblərdə təhsil almaq hüququna malik idilər.

Bu dövrdə Buxara xanlığında tibb elminə maraq artdı. Sübhanqulu xan Buxarada xüsusi müalicəxana (Dar-ül-Şəfa) tikdirdi. Burada xəstələri müalicə edir və tibb elmini öyrənirdilər. Oradaca tibbi kitabxana yerləşdirilmişdi.

Qırğızlar astronomiya sahəsində nailiyyətlər əldə etmişdilər. Onlar müxtəlif müalicəvi bitkiləri toplayıb qurudur və dərman kimi istifadə edirdilər. Qırğızlar arasında meteoroloqlar və dəqiq vaxtı müəyyən edən mütəxəssislər (esepçi) var idi.

Köçəri əhali arasında şifahi xalq yaradıcılığı geniş yayılmışdı. Qazax şifahi ədəbiyyatında mühüm yeri akın yaradıcılığı tuturdu. Akınlar cunqar və rus işğallarına qarşı ümumxalq

mübarizəsi, Batır Srımın başçılığı ilə milli-azadlıq mübarizəsi, vətənpərvərlik hissləri haqqında dastanlar yazırdılar. XVIII əsrdə onların yaradıcılığında jir istiqaməti böyük yer tuturdu. Jirdə danışıq dili və mahnı akın musiqisi ilə müşayiət olunurdu. Musiqi aləti isə ikisimli dombra və ya kobız idi.

Qırğızıstanın cunqar feodalları tərəfindən işğalı dövrü xalqın yaddaşında göz yazları ("zar zəmanə") və dağıntı ("tar zəmanə") dövrü kimi qalıb. Bu isə "Zəmanə" ədəbi cərəyanının yaranmasına səbəb oldu. Sonralar qırğız akınları bu cərəyandan Rusiyanın müstəmləkəçilik zülmünə qarşı mübarizəni təbliğ etmək məqsədilə istifadə edirdilər. Qırğız xalqının şifahi ədəbiyyatında "Ər Tabıldı", "Kurmanbəy" və s. epik əsərlər meydana gəldi. Türkmənlərin də xalq eposları var idi. "Koroğlu"nun Mərkəzi Asiya qolu türkmən, özbək, qazax və qaraqalpaq variantlarından ibarətdir. Türkmənlərin "Əsli və Kərəm" və "Aşıq Qərib" kimi məhəbbət dastanları da var.

XVIII əsr türkmən ədəbiyyatının yüksək inkişaf dövrü hesab olunur. Şairlər Dövlətməhəmməd Azadi (1700-1760), Məhtimqulu Fəraqi (1730-1780) və b. bu dövrdə ədəbi yaradıcılıqla məşğul olurdular. "Behiştnamə" və "Vazi Azadi" poemalarının müəllifi D.Azadi hakimiyyətin ədalətli hakimə verilməsini təklif edirdi. Məhtimqulunun yaradıcılığı isə xalq ədəbiyyatı və musiqisi ilə sıx bağlı idi. O, öz əsərlərində fəxrlə vətəni Türkmənistanı vəsf edirdi.

Xalq rəvayətlərində Asan Kayqı, Tolubay Sınçı və Sapçı Sınçı kimi əfsanəvi qırğız mütəfəkkirlərinin adı yaşayır. Asan Kayqı xalqın yaddaşında "köçəri filosof" kimi qalmışdır. Onun fikrinə görə, insan xeyirxah, obyektiv və yüksək əxlaqi keyfiyyətlərə malik olmalıdır. O, "isti diyarlarda" azad cəmiyyətin yaradılmasını arzu edirdi.

Buxara Jıraunun (1693-1787) yaradıcılığı qazax xalqının məhəbbəti və düşmənlərinə, işğalçılara qarşı nifrəti ilə sıx bağlı idi. Onun mahnıları, məsləhətləri və müdrik sözləri böyük ictimai-siyasi əhəmiyyətə malik idi.



Özbək musiqisi Xarəzm, Buxara-Səmərqənd, Fərqanə-Daşkənd və Surxandərya – Qaşqadərya musiqisinə ayrılırdı. Bu dövrdə Özbəkistanda musiqi tarixi və nəzəriyyəsi üzrə əsərlər işlənib hazırlanırdı. Musiqiçilər içərisində Mövlanə Kəlkabi fərqlənirdi.

Qırğızların musiqi yaradıcılığında pyeslər (küi) geniş yayılmışdı. Bəstəkar və musiqiçilərdən Tilen, Kalçek və b.-nın yaradıcılığı xalqın yaddaşında qalmışdır. Əsasən lirik mahnılar inkişaf etmişdi.

XVIII əsrdə Mərkəzi Asiyada incəsənətin digər növləri də inkişaf edirdi. Əbdüləziz xan mədrəsəsinin əzəmətli monumental arxitektura binası tikildi.

Namanqanda tikilən "Xocamın Qəbri" məqbərəsi də XVIII əsrin sonuna aiddir. 1796-1797-ci illərdə Damulla Tursuncan mədrəsəsi tikildi.

Qiymətli əsərlərdən biri "Tarixi Seyid Rokim"dir. Bu əsərdə Teymurilərin hakimiyyəti dövründən XVIII əsrə qədər olan hadisələr öz əksini tapıb. Bu dövrə həsr olunan digər əsərin müəllifi Məhəmməd Əmin Yarokçindir. Onun "Mühit-üt-təvarix" ("Tarixin izləri") əsərində qədim zamanlardan Həştərxanilər sülaləsinin hakimiyyəti dövrünə qədər olan məlumatlar verilir. Məhəmməd Yusif Münşinin "Tarixi Mukimxani" kitabı Həştərxanilər sülaləsinin hakimiyyəti dövrünə həsr olunub. Burada 1704-cü ilə qədər baş verən hadisələr öz əksini tapıb. Məhəmməd Əminin "Übaydullanamə" kitabı isə 1701-1711-ci illərin hadisələrnə həsr olunub.

XVIII əsrdə Volqaboyu, Sibir və Krımın mədəni həyatında müsbət irəliləyişlər baş verdi. Bu regionların əhalisinin maarifləndirilməsində məktəb və mədrəsələr mühüm rol oynadılar. Məktəblərdə oğlanlarla yanaşı tatar qızları da təhsil alırdılar. 1723-cü ildə Kazanda slavyan – latın məktəbi, 1758-ci ildə isə gimnaziya açıldı. Gimnaziyada dərslər, əsasən rus dilində aparılırdı. Bununla belə, bu, tatar, ərəb, türk və digər Şərq dillərinin tədris olunduğu ilk təhsil müəssisəsi idi. Gimnaziyada xüsusi tatar sinfi fəaliyyət göstərirdi. Sagit Xalfinin fəaliy-

yəti, məhz bu siniflə sıx bağlı idi. O, ilk tatar əlifbası və rus-tatar lüğətinin müəllifidir.

Başqırdıstanda ruhani məktəbləri və mədrəsə ilə yanaşı xalq ibtidai məktəbləri də fəaliyyət göstərirdi.

1769-cu ildə "Çuvaş dilinin qrammatikası haqqında" kitab nəşr olundu. Çuvaş oğlanları, əsasən rus pravoslav məktəblərində təhsil alırdılar. Yalnız 1786-cı ildən başlayaraq ilk dünyəvi məktəblər, sonra isə Alatır, Çeboksarı, Yadrin və Kosmodemyanskda xalq təhsili məktəbləri açıldı.

Bu dövrdə Sibir əhalisinin əsas hissəsi savadsız idi. XVIII əsrdən başlayaraq burada məktəblər açılmağa başladı. Moskvadan, Kiyevdən dərsliklər, dərs vəsaitləri gətirilirdi. Sibirin şəhərlərində məktəb və təhsil kurslarının sayı artdı. Kilsə və monastırların nəzdində məktəblər açılır, kitabxanalar yaradılırdı.

XVIII əsrin 80-ci illərinin ortalarından Sibirdə texniki-peşə məktəbləri fəaliyyətə başladılar. Altayda ilk tibb məktəbi açıldı. Yakutsk və Oxotskda artıq qarnizon və naviqasiya məktəbləri fəaliyyət göstərirdi.

Krımda ixtisaslaşdırılmış məktəblər XVIII əsrin 90-cı illərindən sonra açıldı, lakin təhsil sistemi burada öz vəzifələrini həll edə bilmədi. Rusiyaya birləşdiriləndən sonra Krıma yaradıcı ziyalıların görkəmli nümayəndələri gəldilər. Onlardan ilki isə akademik Pallas oldu. O, öz əsərini Krımın təsvirinə həsr etdi.

Bütün türk xalqları kimi, Volqaboyu və Sibir türklərinin də mədəniyyətində şifahi xalq yaradıcılığı mühüm yer tuturdu. Tatar folklorunda Y.Puqaçov və Salavat Yulayevin üsyanları, məmurların ədalətsizliyinə qarşı mübarizə öz əksini tapıb. S.Xalfin və X.Feyzxanov Tatarıstanda maarifçilik işinə böyük töhfə veriblər. Kazan Universiteti açılandan sonra X.Feyzxanov orada Şərq dillərini tədris edirdi. O, Şərq və antik fəlsəfə ilə maraqlanırdı.

"Bolqar və Qazan haqqında faydalı məlumatlar" kitabının müəllifi Şihabəddin Mərcani dinin elmə qarşı çıxmadığını bildirməklə yanaşı dünyəvi elmlərin tədrisinin lehinə idi.



Çuvaş yazısının olmaması ilə əlaqədar onların mif və əfsanələri yalnız XVIII əsrin ikinci yarısında K.Milkoviç tərəfindən yazıya alınıb. Bu dövrdə ruhani seminariyasının müəllimi və tələbələri çuvaş dilində olan şeirləri toplayıb ilk şeir kitabını nəşr etdirdilər.

Sibir xalqlarının da öz yazıları yox idi və buna görə də ədəbiyyatda xalq nəsri əsas yeri tuturdu. Bahar bayramı "ısıax" zamanı xalq nəğməkarları və rəvayətçiləri yarışırdılar. Yakut bahadırlarına həsr olunmuş "olonxo" epik əsərlərində qadınları qaçıran, mal-qaranı məhv edən şər qüvvələrə qarşı mübarizə öz əksini tapmışdı.

XVIII əsrdə Volqaboyu, Sibir və Krımın türk xalqlarının incəsənəti də inkişaf edirdi. 1772-ci ildə Ufada ilk teatr açıldı. Omsk, İrkutsk və Barnaulda da teatrlar fəaliyyət göstərirdi. 1784-cü ildə Barnaulda "Teatr evi" tikildi. 90-cı illərdən Kazanda daimi teatr fəaliyyət göstərirdi.

## § 2. XIX-XX əsrlərdə türk xalqlarının mədəniyyəti

XIX əsrin əvvəllərində Osmanlı imperatorluğunda artıq dini məktəblər və mədrəsələr mövcud idi. Sultan II Mahmudun hərbi və inzibati islahatları zəruri ixtisaslı kadrların hazırlanmasını tələb edirdi. İlk cəhd hərbi məktəblərin açılması oldu. Sultan dünyəvi ibtidai məktəblər açmaq qərarına gəldi.

Zabit kadrlarının hazırlanması məqsədilə 1834-cü ildə hazırlıq kursları olan hərbi məktəb açıldı. Xaricdən müəllimlər dəvət edilir, Avropa dilində olan dərsliklər türk dilinə tərcümə olunurdu. Hərbi musiqiçilər hazırlamaq üçün 1831-ci ildə İstanbulda Sultan musiqi məktəbi yaradıldı.

XIX əsrin 40-cı illərində osmanlı hökuməti ibtidai, orta və ali məktəblərin açılmasını nəzərdə tutan məktəb islahatı keçirtdi. İlk türk Elmlər Akademiyası – Elmlər Komitəsi 1851-ci ildə İstanbulda açıldı. O, türk dilində elmi kitabların sayını artırmalı və türk dilinin inkişafına yardım etməli idi. Türk dilində

ilk qəzet 1832-ci ildə nəşr olundu. «Təqvimi-vəqai» qəzeti «Hadisələr jurnalı» adı altında çıxırdı.

Avropa ölkələrinin mətbuatı, elmi və bədii ədəbiyyatı ilə tanış olan türk ziyalısı özünün bədii ədəbiyyatını yaradırdı. Roman və pyeslər, əsasən vətənpərvərlik ruhunda olurdu. Görkəmli türk yazıçılaı İbrahim Şinasi, Ziya Paşa və b. ədəbiyyata yenilik gətirdilər. İ.Şinasi (1826-1871) türk dilinin islah edilməsində də mühüm rol oynadı. O, təhsilini Fransada alıb Vətənə qayıdandan sonra maarifçiliklə məşğul olurdu. Fəal ictimai xadim olan İ.Şinasi «Təsviri-Əfkyar» qəzetini nəşr etdirərək, türk – fransız lüğətini tərtib edir və türk folklorunu toplayırdı. «Şairin evlənməsi» pyesində o, köhnə nigah adətlərini tənqid edirdi.

Ziya Paşa (1825-1880) da yeni türk poeziyasının inkişafında az rol oynamamışdır. O, həqiqəti əks etdirən, Vətən, millət qarşısında vətəndaşlıq borcuna, azadlığa həsr olunmuş satirik əsərlər yazırdı.

O zaman türk musiqisi də inkişaf etmişdi. 1828-ci ildə yaradılan İmperator orkestri türk musiqiçiləri və bəstəkarlarının sayının artmasına güclü təsir göstərdi. Osman İbrahim, Əli Rza bəy və b. türk bəstəkarlıq məktəbinin əsasını qoydular.

XIX əsrin ikinci yarısında Osmanlı imperatorluğunda maarif sahəsində əhəmiyyətli irəliləyişlər oldu. Belə ki, 1868-ci ildə Qalatasarayda «Sultan litseyi» açıldı. 1869-cu ildə isə maarif sahəsində bir sıra islahatları nəzərdə tutan xalq təhsili haqqında qanun qəbul olundu. Bu qanuna əsasən dövlət hesabına ibtidai və orta məktəblər və İstanbul universiteti açılmalı idi. Elm Komitəsinin qarşısında aşağıdakı vəzifələr dururdu: Ölkənin yeniləşdirilməsində iştirak, elm və ədəbiyyatın inkişafına yardım etmək, türk dilində əsərləri, o cümlədən Osmanlı imperatorluğunun tarixini nəşr etdirmək. Cövdət Paşanın yazdığı 12 cildlik «Tarix» kitabının nəşri 1884-cü ildə başa çatdı. Osmanlı imperatorluğunun 1774-1826-ci illər tarixini əhatə edən bu kitab mühüm əhəmiyyətə malikdir. Tarixçi Mustafa Nuru Paşa (1824-1890) isə özünün «Hadisələrin nəticələri» kitabında



ilk dəfə ölkənin tarixini, iqtisadiyyatını, ordunun vəziyyətini, ərazi-inzibati quruluşunu tədqiq etdi.

1871-1876-cı illərdə İstanbulda artıq 68 adda dövri mətbuat çıxırdı. 1860-cı ildə nəşr olunan «Hadisələrin şərhi» qəzeti maarifçilik ideyalarını yayır, siyasi və mədəni tərəqqi uğrunda mübarizə aparırdı. O, qabaqcıl ictimai fikrin formalaşmasına kömək edirdi.

«Gənc osmanlılar» ictimai-siyasi təşkilatının görkəmli nümayəndəsi, şair, dramaturq, publisist və siyasi xadim Namiq Kamal (1840-1888) ilk tarixi roman müəllifi idi. «Əli bəyin sərgüzəştləri» əsərində o, öz qəhrəmanının yüngül həyat tərzinin faciəli sonunu göstərirdi.

Türk nasirləri Xalid Ziya (1866-1945) «Namidə» və «Bir ölümün dəftəri» (1899), Hüseyn Rəhmi Gürpinar (1864-1944) «İsmət» və «Mürabiyyə», Tofik Fikrət (1867-1915) «Sınıq ud» əsərlərində gündəlik hadisələri, təbiətin gözəlliyini, ayrılığın kədərini və s. göstərirdilər.

Osmanlı imperatorluğunda ilk milli dram teatrı 1859-cu ildə, bədii isə – 1882-ci ildə yaradıldı.

XIX əsrin əvvəllərində Mərkəzi Asiyada da məktəb və mədrəsələr fəaliyyət göstərirdi. Tədris, əsasən ərəb dilində aparılırdı. Məktəblərdə mədrəsə məzunları dərs deyirdilər. Ancaq o zaman vahid tədris proqramı yox idi. Yalnız 1871-ci ildə tədris işinin qurulmasının layihəsi hazırlandı. Layihə kişi gimnaziyası, qəza xalq məktəbləri və ibtidai məktəblərin açılmasını nəzərdə tuturdu. Layihə bəzi dəyişikliklərlə 1875-ci ildə təsdiq olundu. 1876-cı ildə isə Türküstan təhsil müəssisələri idarəsi yaradıldı. Pravoslav ruhaniliyi monastırların nəzdində rus məktəbləri açırdı. Bu məktəblər yerli əhalinin ruslaşdırılması və xristianlaşdırılması məqsədini güdürdülər. Buna görə də qazaxlar öz uşaqlarını rus-qırğız məktəblərinə verməyə ehtiyat edirdilər.

1863-cü ildə Perovskdə, 1865-ci ildə Qəzalıda qız məktəbləri, 1866-cı ildə Daşkənddə – rus, 1870-ci ildə Səmərqənddə rus-yerli məktəbləri açıldı. Ümumiyyətlə, 1896-cı ildə Türküstan

diyarında 28 rus – yerli məktəb fəaliyyət göstərirdi. Daşkənd xalq məktəbində rus dili ilə yanaşı tarix və coğrafiya tədris olunurdu.

13 may 1872-ci ildə peşə məktəbləri haqqında fərman verildi. 1894-cü ildə Daşkənddə rus tacirlərinin uşaqları üçün peşə məktəbi açıldı. Sırdərya, Səmərqənd və Fərqanədə bu cür məktəblər açıldı.

Daşkənddə hələ 1876-cı ildən qız və oğlan məktəbləri fəaliyyət göstərirdi. 1879-cu ildə Türküstan müəllim seminariyası yaradıldı. Bu seminariyada qazax dili, 1884-cü ildən isə özbək dili də tədris olunurdu.

Müsəlman məktəblərinin islahatçısı, Rusiyanın müsəlman – türk əhalisinin liderlərindən biri İsmayıl bəy Qasprah 1893-cü ildə Səmərqəndə gələrək məktəblərlə, yeni təhsil üsulu (üsuli-cədid) ilə tanış oldu. Bu üsul islam dininin tədrisinin təkmilləşdirilməsi və təbiət elmlərinin öyrənilməsini nəzərdə tuturdu. Köhnə üsulun (üsuli-qədim) tərəfdarları mütərəqqi üsula qarşı çıxırdılar. Buna baxmayaraq, yeniliklər tezliklə bütün Mərkəzi Asiaya yayıldı.

Mərkəzi Asiyada elmi-tədqiqat işləri mürəkkəb sosial-iqtisadi və siyasi şəraitdə aparılırdı. Tarixçi və şair Şir Məhəmməd Munis, onun vəfatından sonra isə Məhəmməd Rza özbək dilində Xivə xanlığının tarixini yazdılar. Hakim xanın xatirələri XIX əsrin birinci yarısı Fərqanə tarixini öyrənmək üçün mənbədir. XIX əsrin 80-ci illərində Məhəmməd Salih Daşkəndin XVIII-XIX əsrlər tarixi salnaməsini tərtib etdi.

Rus hökuməti Türküstanın təbiəti, coğrafiyası, etnoqrafiyası və tarixinin tədqiqinə böyük diqqət ayırırdı. 1870-ci ildə Təbiətşünaslıq antropologiya və etnoqrafiya sevənlər cəmiyyətinin Türküstan bölməsi açıldı. 1871-ci ildə Mərkəzi Asiya Elmi Cəmiyyəti yaradıldı. Cəmiyyətin məqsədi tarixi, coğrafi, etnoqrafik, iqtisadi və statistik məlumatları toplayıb yaymaqdan ibarət idi. Hələ 1867-ci ildə Daşkənddə meteoroloji stansiya, 1869-cu ildə isə Hərbi Topoqrafiya bölməsi yaradılmışdı. Pulkova rəsədxanasının köməyi ilə 1874-cü ildə Daşkənddə



rəsədxana tikildi. Orada elmi tədqiqatlar aparılırdı. 1868-ci ildə yaradılan Türküstan statistika komitəsi 1871-1874-cü illərdə «Türküstan statistikasının öyrənilməsi üzrə materiallar»ı nəşr etdirdi.

1897-ci ildə Rus Coğrafiya Cəmiyyətinin Türküstan bölməsi açıldı. Ancaq Mərkəzi Asiyada coğrafi tədqiqatlar XIX əsrin 50-ci illərində başladı. Çokan Vəlixanov Rusiyanın Çinlə sərhədyanı bölgəsində aparılan elmi ekspedisiyanın rəhbəri təyin edildi. Onun ekspedisiyaları Cənubi Altay və İssık-Kul gölü rayonlarını əhatə edirdi. 1857-ci ildə Çokan Vəlixanov P.P.Semyonov-Tyanşanskinin köməyi ilə Rus Coğrafiya Cəmiyyətinin həqiqi üzvü seçildi. 1858-ci ildə Qaşqara göndərilən Ç.Vəlixanov yerli əhalinin siyasi həyatı, iqtisadiyyatı, məişəti haqqında, fauna və florası, bu regionun iqlimi barədə qiymətli məlumatlar topladı. Rus hökuməti onun işinin nəticələrini yüksək qiymətləndirərək, Ç.Vəlixanovu Peterburqa dəvət etdi. Onun Sinçuanda topladığı materiallar böyük elmi əhəmiyyətə malikdir. O, uyğurlar haqqında geniş material hazırladı. Onun vəfatından sonra, N.İ.Veselovski 1904-cü ildə Ç.Ç.Vəlixanovun «Məqalələr toplusu»nu nəşr etdirdi.

XIX əsrin ikinci yarısında Türküstanda mətbuat sahəsində bəzi irəliləyişlər baş verdi. 1868-ci ildə Daşkənddə ilk dəfə mətbəə açıldı. 1870-ci ildə isə özbək və qazax dillərində əlavəsi olan «Türküstan xəbərləri» adlı ilk qəzet işıq üzü gördü. Bu əlavə 1883-cü ildən özbək dilində həftədə bir dəfə çıxan «Türküstan diyarının qəzeti»nə çevrildi. 1874-cü ildə Xivədə, 70-ci illərin sonunda isə Xarəzm, Buxara, Səmərqənd, Əndican və Türküstanın digər şəhərlərində litoqrafiyalar yaradıldı.

Türkmənistanda 1895-ci ildən «Zakaspinin xülasəsi», 1899-cu ildən «Aşqabad» qəzeti, 1895-ci ildən isə «Orta Asiya» jurnalı və 1896-cı ildən «Orta Asiyanın Xəbərləri» nəşr olundu. İki il sonra Daşkənddə «Rus Türküstanı» qəzeti nəşrə başladı. Zakaspi vilayətində və Daşkənddə ümumi kitabxanalar fəaliyyət göstərirdi.

Bu dövrdə Mərkəzi Asiyada ədəbiyyat da inkişaf edirdi. II Məhəmməd Rəhim xanın fərmanı ilə Xivə poeziyasının antologiyası hazırlandı. Buxaralı şair Mirzə Sadiq 15 min şeirdən tərtib olunmuş «Divan» yazdı. Kokand ədəbi mərkəzə çevrildi. Şairlər Fəzli və Məşrəf «Şairlərin əsərlərinin toplusu» adlı Kokand poeziyasının antologiyasını yaratdılar.

Əhməd Doniş (1827-1897), Məhəmməd Əminxoca Mirzəxoca – Mukimi (1850-1903), Zakircan Xalməhəmmədov – Furkət (1858-1909) və Ubaydulla Salih-Zəvkinin (1853-1921) ədəbi yaradıcılığında əsas yeri tənqidi realizm və demokratiya tuturdu. Mukimi Kokandda yeni ədəbi dərnək yaratdı. Bura Furkət və Zəvki daxil oldular. Sonuncu özünün «Borc» şeirində xalqın ağır həyatını təsvir edirdi.

O dövrün türkmən ədəbiyyatının görkəmli nümayəndələri S.Seyidi (1768-1830), M.V.Kəminə (1770-1840), Q.Zəlili (1780-1845), Mollanepes (1810-1862) və b. idi. M.V.Kəminə türkmən poeziyasında satirik janrın banisidir. Onun satirası ictimai-siyasi fikirdə demokratik istiqamətin möhkəmlənməsinə təsir etmişdir. Zəlilinin şeirləri tarixi məzmun daşıdığı halda, Mollanepesin şeirləri lirik idi. Onun «Zöhrə və Tahir» əsəri xalq arasında böyük şöhrət qazanmışdı.

Görkəmli qazax akınları Bukər, Dosxoca, Kudəri, Nisanbay, Mohambet, Şərniyaz və b. tarixi mövzularda, xüsusilə İsatay, Kenesar, Janxoja və Beketin başçılıq etdikləri üsyanlara həsr olunmuş mahnılar bəstələyirdilər. Şair Mohambet Utemisov (1804-1946) özü İsatay Taymanovun başçılıq etdiyi üsyanın iştirakçısı olub. O, «İsatayın fəryadı» əsərində İsatayın şəxsiyyətini yüksək qiymətləndirir. Nisanbayın «Kenesar və Naurızbay» poeması da üsyana həsr edilib.

Qazax şagirdləri üçün «Qırğız müntəxəbatı»nın (1879) müəllifi İbray Altınsar (1841-1889) ilk qazax pedaqoqu olub. Şair-maarifçi Abay Kunanbayev (1845-1904) qazax realist ədəbiyyatının görkəmli nümayəndəsi idi. O, həmçinin rus şairlərinin tərcüməsi ilə və «Koroğlu» eposunu, «Leyli və Məcnun», «Şahnamə» və s. böyük əsərləri qazaxlar arasında yaymaqla məşğul olurdu.



XIX əsrin ikinci yarısında Mərkəzi Asiyada peşəkar xalq teatrı daha da inkişaf etdi. Komediya aktyoru Sədi Məhsum və kukla teatrının görkəmli nümayəndələri Şo-Mühiddin, Şo-Əzimov, Tursunbay Əbdücabbarov xalq arasında geniş şöhrət qazanmışdılar.

Musiqi sənəti də Türküstanın mədəni həyatında mühüm yer tuturdu. Qazax bəstəkarları Kurmanqazi Saqırbayev (1818-1893) və Birjansal Kojaqulov (1832-1895) öz əsərlərində xalqın qəhrəmanlığını və gələcəyə inamı vəsf edirdilər.

Qırğız xalqının musiqi yaradıcılığında vokal və instrumental musiqi mühüm yer tuturdu. Tilen, Kalçek və Sırtbay xalq musiqiçiləri idilər.

Xivəli musiqiçi P.N.Mirzəboşi Kamil səsyazma sistemini kəşf edib. Fərqanə vadisində musiqi alətlərindən istifadə olunmayan deklamasiya musiqi janrı geniş yayılmışdı. Peşəkar musiqiçilər Buxaradan Ata Cəlaləddin Nasırov və Səmərqənddən Xoca Əbdüləziz Əbdürəsulov özlərinin mahnı ifası metodu ilə fərqlənirdilər. 1871-ci ildə Daşkənddə həvəskar musiqiçilərin konserti təşkil olundu.

XIX əsrdə Mərkəzi Asiyada memarlıq da inkişaf edirdi. 1832-ci ildə Allahqulu xan tərəfindən tikilən Rəhmanqul sarayı və Daş-Xauli sarayı gözəllikləri ilə fərqlənirlər. I Məhəmməd Rəhim xanın 1806-cı ildə tikdirdiyi Palvandarvaza və Allahqulu xanın karvansarayı da diqqəti cəlb edir. XIX əsrin 80-ci illərinin ən böyük memarlıq abidəsi Daşkənd məscididir.

Buxara, Kokand və Xivədə də təsviri incəsənətin digər növləri, xalçaçılıq, zərgərlik və s. inkişaf edirdi. XIX əsrdə Volqaboyu, Sibir və Krımın türk xalqlarının mədəniyyətinin inkişafında da müsbət dəyişikliklər baş verdi. Tatarıstanda kapitalist münasibətlərinin inkişafı ilə əlaqədar hamıdan əvvəl maarifçilik müəssisələri yaradıldı. 1804-cü ildən başlayaraq kəndlərdə prixod məktəbləri, bir qədər sonra isə qəza məktəbləri açıldı. Gimnaziya və universitet təhsili sisteminə keçid nəzərdə

tutulmuşdu. İbtidai tatar məktəblərinin sayı artdı. Eyni zamanda 33 orta məktəb fəaliyyət göstərirdi. XIX əsrin 80-90-cı illərində bu məktəblərdə dini fənlərlə yanaşı tarix, coğrafiya, riyaziyyat və rus dili tədris olunurdu. Tatarıstanda, həmçinin üsuli-cədid məktəbləri açılırdı. Bu işdə milli liberal burjuaziya və ruhanilərin nümayəndələri, xüsusilə Ş.B.Mərcani mühüm rol oynadı.

İxtisaslı müəllim kadrlarının hazırlanmasında 1804-cü ildə yaradılmış Kazan Universitetinin böyük rolu oldu. Tezliklə bu universitet Rusiyanın bütün türk xalqlarının təhsil və elm mərkəzinə çevrildi. Kazan Universitetində dörd fakültə var idi: mənəvi-siyasi, tibb, fizika-riyaziyyat və Şərq filologiyası. Universitetin rektoru 19 il bu vəzifədə çalışmış görkəmli riyaziyyatçı N.İ.Lobaçevski idi. Böyük türk alimləri Mirzə Kazım bəy, İ.Xalfin, M.Mahmudov, X.Feyzxanov, A.Vaqapov və b. elmin inkişafında və bu universitetin fəaliyyətində böyük rol oynadılar.

Tatar «Müntəxəbatı»nın müəllifi İ.Xalfin (1778-1829) tatar dilinin qrammatikası və ədəbiyyatını tədris edirdi. X.Feyzxanov «Tatar dilinin qısa qrammatikası» kitabını nəşr etdirdi.

Rus şərqşünaslıq elminin banisi, böyük Azərbaycan mütəfəkkiri Mirzə Kazım bəy (1802-1870) Kazan Universitetində Şərq dilləri üzrə mühazirəçi idi. 1828-ci ildə onu türk-tatar dilləri kafedrasının müdiri, 1845-ci ildə fəlsəfə fakültəsinin birinci bölməsinin dekanı, 1846-cı ildə isə ərəb-fars dilləri kafedrasının müdiri təyin etdilər. Sonra o, Peterburq Universitetinə göndərildi. Mirzə Kazım bəyin yazdığı «Türk-tatar dilinin ümumi qrammatikası» Rusiya və Avropanın universitetlərində dərs vəsaiti kimi istifadə olunurdu.

Kazan Universitetinin nəzdində Həkimlər cəmiyyəti (1868-ci il), Təbiətşünaslar cəmiyyəti (1869-cu il), Arxeologiya, Tarix və Etnoqrafiya Cəmiyyəti (1878-ci il) və s. yaradıldı. Arxeologiya, Tarix və Etnoqrafiya Cəmiyyətinin fəaliyyətində tatar alimləri K.Nəsirov və Ş.Mərcani də fəal iştirak edirdilər.



Yalnız 1836-cı ilə qədər tatar, başqırd, çuvaş və bu diyarın digər xalqlarının Kazan Universitetinə daxil olmaq hüququ yox idi. 1855-ci ildən Universitetin Şərq bölməsi Peterburq Universitetinə köçürüldü. Ancaq çarizmin göstərdiyi bütün maneələrə baxmayaraq, Kazan Universiteti nəinki tatarların, həm də Rusiyanın digər türk xalqlarının maariflənditilməsində mühüm rol oynadı.

Şihabəddin Mərcani (1818-1889) də tatar elminin inkişafına öz töhfəsini vermişdir. O, fəlsəfə, tarix, ədəbiyyat, dil və din üzrə 30-a qədər əsərin müəllifidir. Ş.Mərcani Qədim Bulqar dövləti və Kazan xanlığının tarixini yazıb. Kayum Nasirinin (1825-1902) 1871-ci ildə nəşr etdirdiyi təqvim elmi-ədəbi məcmuə kimi mühüm əhəmiyyətə malik idi. Tatarıstanda maarifçiliyin və humanist ideyaların inkişafında Miftahəddin Ağmolla (1831-1895), Zakir Bigeyev (1870-1902), Əbdürəhman İlyasi (1856-1895) və b. mühüm rol oynamışlar.

Kazanda nəşriyyat işi də geniş yayılmışdı. 1800-cü ildə «Asiya» mətbəəsi, 1804-cü ildə Universitet mətbəəsi açıldı. Dövri mətbuat orqanları «Kazan xəbərləri» (1811), «Kazan məcmuəsi» (1821), «Universitetin elmi əsərləri» (1834) idi.

1881-ci ildə Kazanda musiqisevərlər dərnəyi, 1887-ci ildə isə Rusiya Musiqi Cəmiyyətinin Kazan bölməsi yaradıldı. Musiqi məktəbləri musiqi mədəniyyətinin inkişafında mühüm rol oynadılar. Tatar musiqisi notlarının yazılmasında Q.Sayfullinin böyük xidməti olub.

XIX əsrdə Kazanda gözəl inzibati və yaşayış binaları tikildi. Onların arasında «Qonaq evi», «Şəhər idarəsi» və «Zadəgan məclisi»nin binaları fərqlənirlər.

Bu dövrdə Başqırdıstanda da xalq və qəza məktəbləri, gimnaziyalar, qızlar məktəbi, ruhani seminariyası, ibtidai qarnizon və hərbi məktəblər yaradıldı. Bəzi hərbi məktəblər kadet korpuslarına çevrildilər. 1839-cu ildə Ufa, Orenburq, Biysk və digər şəhərlərdə ikiillik prixod məktəbləri açıldı. 1800-cü ildən isə Ufada ruhani seminariyası fəaliyyət göstərirdi. 1832-ci ildə

zadəgan, tacir və hərbçi qızları üçün açılan qızlar məktəbi 1840-cı ildən Nəcib Qızlar İnstitutuna çevrildi.

1874-cü ildə müstəqil Orenburq təhsil dairəsi yaradıldı. Bura Ufa, Orenburq, Perm, Vyatka quberniyaları, Ural və Turqay vilayətləri daxil idi. Zemstvo məktəbləri daha çox hazırlıqlı müəllim kadrları və tədris avadanlığına malik idilər. Ancaq təhsil sistemində çarizmin müstəmləkəçilik siyasəti - əhalinin ruslaşdırılması, rus sinifləri olmayan məktəb və mədrəsələrin açılmasına icazə verilməməsində özünü qabarıq surətdə göstərirdi. Rus dilini bilmək ruhanilər üçün də məcburi idi.

Alimlər Başqırdıstanın coğrafiyası, fauna və florasının elmi tədqiqi üçün araşdırmalar aparırdılar. 1832-ci ildə İ.Jukovski «Orenburq quberniyasının qısa coğrafi və statistik təsviri» kitabını nəşr etdirdi. V.S.Yumatov özünün «Orenburq» quberniyasının tarixi barədə düşüncələr» və «Orenburq diyarının ibtidai insanlarının qısa tarixinə baxış» adlı əsərlərində XVII-XVIII əsrlərdəki xalq üsyanları barədə qiymətli məlumat verib. V.M.Çeremşanskinin «Orenburq quberniyasının istehsal-statistika, etnoqrafiya və sənaye sahələrinin təsviri» kitabı 1859-cu ildə qızıl medala layiq görüldü.

1868-ci ildə Rus Coğrafiya Cəmiyyətinin Orenburq bölməsi açıldı. Cəmiyyətin üzvləri 1881-ci ildə Venesiyada açılan Coğrafiya sərgisində iki qızıl medal aldılar. Başqırd diyarşünasları hazırlandı. Rus Coğrafiya Cəmiyyətinin Orenburq bölməsinin üzvü S.A.Batırşin 1870-ci ildə başqırd mahnısını rus dilinə tərcümə etdi və cəmiyyətin «Xəbərlər»ində dərc etdirdi. Məhəmmədqalim Kuvatov xalq yaradıcılığının materiallarını toplayıb, 1895-ci ildə atalar sözünü çap etdirdi. B.Yuluyev 1890-cı ildə «Etnoqrafik xülasə» jurnalında başqırdların etnoqrafiyasına dair materialları dərc etdirdi.

XIX əsrin birinci yarısında vərəm epidemiyasının yayılması ilə əlaqədar başqırd həkimləri hazırlandı. 1882-ci ildə zemstvo həkimlərini birləşdirən Tibb cəmiyyəti yaradıldı. Quberniya sanitar bürosu isə yoluxucu xəstəliklərin aşkar olunması ilə məşğul olurdu.



1838-ci ildə Ufada «Orenburq quberniyası xəbərləri» qəzeti nəşr olunurdu. Bir qədər sonra bu qəzet «Ufa quberniyası xəbərləri» adı altında çıxmağa başladı. 1876-cı ildən «Orenburq səhifələri» qəzeti dərc olundu.

Ufa quberniya muzeyi hələ 1864-cü ildə, Orenburqda isə 1897-ci ildə açılmışdı.

XIX əsrin ikinci yarısında türk-müsəlman əhalisinin maarifçilik hərəkatı başqırdlar arasında da yayıldı. Başqırdıstanın görkəmli maarifçilərindən biri Məhəmməd Salim Umetbayev (1841-1907) idi. O, başqırd torpaqlarının tutulmasına qarşı mübarizə aparır və insanları məktəblər açmağa çağırırdı. M.S.Umetbayev Başqırdıstan tarixinin öyrənilməsinə böyük diqqət ayırırdı.

Bədii yaradıcılıqla əsasən ruhaniliyin nümayəndələri olan yazıçılar məşğul olurdular. Onların arasında Tacəddin Yalsıqulov (1767-1837), Qali Sokçı (1826-1889), Şəmsəddin Zəki (1825-1865), Miftahəddin Ağmolla (1831-1895) və başqaları var idi. Ancaq onlar xalq arasında populyar deyildilər. Yalnız M.Ağmolla Ufa, Orenburq quberniyalarında və hətta Qazaxıstanda da uşaqların maariflənməsi uğrunda daha fəal mübarizə aparırdı.

Bu dövrdə başqırd musiqi sənəti də inkişaf edirdi. «Buranbay» və «Biiş» mahnılarında xalqın sosial ədalətsizliyə qarşı mübarizəsi əks olunub. XIX əsrin 60-cı illərindən başlayaraq Ufada skripka, fortepiano və s. müəllimi hazırlayan musiqi məktəbləri açıldı. Musiqinin inkişafında mühüm rol Musiqisevərlər cəmiyyətinə məxsus idi.

1802-ci ildə Xalq Təhsili Nazirliyinin yaradılması və 1804-cü ildə Təhsil müəssisələri Nizamnaməsinin qəbulu Çuvaşiyada da maarifçilik işində canlanmaya səbəb oldu. 1807-ci ildə Sivilsk qəzasının Burtası kəndində üçillik prixod məktəbləri açıldı. Çuvaşiyanın ərazisində, həmçinin ikisinifli ibtidai məktəblər, zemstvo məktəbləri, kilsə-prixod və missioner məktəbləri fəaliyyət göstərirdi. Tədricən oğlan və qızlar üçün ümumi məktəblər açıldı. Ancaq bu məktəblərdə tədris rus dilində olub,

təhsil haqqı yüksək idi. Buna görə də bir çox valideyn öz uşaqlarını bu məktəblərə göndərə bilmirdi.

Çuvaşiyada təhsilin inkişafı elm və mədəniyyətin inkişafına təkan verdi. İ.Y.Biçurin, S.M.Mixaylov, V.K.Maqnitski, İ.V.Nikolski və b. Çuvaşiyada elmin inkişafına böyük əmək sərf etmişlər. İ.Y.Biçurin (1777-1853) Çin-monqol-Tibet dillərini mükəmməl bilirdi. O, ilk dəfə Çin-rus lüğətini yaratdı və «Çin tarixi və bu imperiyanın hakimiyyəti altında olan torpaqların tam coğrafiyası» kitabını yazdı. İ.Y.Biçurin 16 kitabın müəllifidir. Onlardan altısı Demidov mükafatına layiq görülüb. «Qədim zamanlarda Orta Asiyada yaşamış xalqlar haqqında məlumatlar toplusu» kitabı da onların arasında idi. O, 1829-cu ildə Rusiya İmperator Elmlər Akademiyasının müxbir üzvü və Paris Asiya Cəmiyyətinin üzvü seçildi.

Tarixçi, etnoqraf və yazıçı S.M. Mixaylov (1821-1861) çuvaş və rusların tarix, etnoqrafiya və folklorunun tədqiqi ilə məşğul olurdu. O, «Çuvaş etnoqrafiyasının qısa təsviri», «Çuvaş toyları», «Çuvaş mahnıları və atalar sözü» və s. əsərlərin müəllifidir. Rus Coğrafiya Cəmiyyətinin üzvü kimi elmi nailiyyətlərinə görə S.M.Mixaylov 9 gümüş medala layiq görülmüşdü.

Çuvaş dilinin başlıca tədqiqatçısı Kazan təhsil dairəsinin Çuvaş məktəblərinin müfəttişi N.İ.Zolotnitski idi (1829-1880). «Çuvaş-rus lüğətinin əsasları» və «Çuvaş dialekti ilə tanışlıq üzrə qeydlər» əsərlərində o, çuvaş dilinin elmi tədqiqi sahəsində irəliyə doğru böyük bir addım atdı.

Görkəmli tarixçi, etnoqraf və xalq təhsili xadimi V.K.Maqnitski (1839-1901) Kazan Universitetinin nəzdindəki Arxeoloji Komissiyanın üzvü olaraq arxeoloji tədqiqatlar aparırdı. O, «Qədim Çuvaş inanclarının materialları» (1881) və «Çeboksarı qəzasında adət və ənənələr» əsərlərinin müəllifidir.

Çuvaşiyada ən parlaq tarixi hadisə İ.Y.Yakovlevin rus filoloqu V.A.Belilinlə birgə çuvaş əlifbasını yaratması oldu. Çuvaş dilinin tədqiqində professor N.İ.Aşmarin (1870-1933) böyük rol oynayıb. O, görkəmli şərqşünas-türkoloq və çuvaş dilinin gözəl bilicisi idi. «Çuvaş dilinin tədqiqi üçün materiallar», «Çuvaş sintaksisinin tədqiqi təcrübəsi», «Çuvaş dilinin lüğəti» ona dünya şöhrəti gətirdi.



Bütün türk xalqlarında olduğu kimi çuvaş xalq ədəbiyyatında da əsas yeri mif, əfsanə və nağıllar tutur. Yeni çuvaş yazısı bədii ədəbiyyatın inkişafında mühüm rol oynadı. Çuvaş yazıçıları öz əsərlərində başlıca olaraq sosial ədalətsizliyi, qadın hüquqsuzluğunu göstərməyə çalışır, çar məmurlarının rüşvətxorluğunu və s. tənqid edirdilər. İ.İvanov (1848-1885) «Ayaqqabıları geyinin, lakin çarıqları tullamayın», «İnsanlar pul üçün deyil, pul insanlar üçündür» kimi tərbiyəvi xarakterli kiçik hekayələr yazırdı. M.F.Fyodorovun (1848-1904) yaradıcılığında isə çuvaş xalqının arzu və istəkləri öz əksini tapmışdı. O, özünün «Arsuri» («Quleybani») balladasında burjua islahatlarının həyata keçirildiyi şəraitdə çuvaş kəndlilərinin sosial həyatını təsvir edir. Digər çuvaş yazıçısı İ.N.Yurkin (1863-1943) «Göy qurşağı» (1886), «Var-dövlət» (1890) və s. povestlərin müəllifidir.

XIX əsrdə Sibirdə də dini, hərbi, texniki-peşə məktəbləri fəaliyyət göstərirdi. Tobolsk, İrkutsk və Tomskda kilsə təhsil müddəti 10-15 il olan seminariyalara malik idi. Xüsusi məktəblər dağ-mədən sənayesi üçün kadr hazırlığı ilə məşğul olurdular. XIX əsrin 60-cı illərində Altay və Nerçinsk dağlıq vilayətinin zavodlarında 19 belə məktəb fəaliyyət göstərirdi.

1803-1804-cü illərin məktəb islahatı əsasında Sibir Kazan təhsil dairəsinin tərkibinə daxil edildi. XIX əsrin 30-cu illərinə qədər Sibirdə iki gimnaziya fəaliyyət göstərirdi. 1817-1826-cı illərdə isə 13 qəza məktəbi yaradıldı. Ancaq dövlət xalq təhsilinə az vəsait sərf edirdi. Bununla belə, Sibirdə İ.P.Mendeleyev kimi görkəmli alim, şair P.P.Yerşov, coğrafiyaçı R.K.Maak və b. öz təşəbbüsləri ilə çalışırdılar. Sibir əhalisinin çox hissəsi savadsız idi. Yazı yalnız buryat və Sibir türklərində var idi. Sibir xalqları, əsasən piktoqrafik yazıdan istifadə edirdilər. Missioner Makari Qluxaryov rus əlifbasının əsasında Altay türkləri üçün milli yazı yaratdı. 1897-ci ildə Altayda 87 məktəb fəaliy-

yət göstərirdi. Pravoslav missionerləri yakut uşaqları üçün məktəblərin açılmasında böyük fəallıq göstərirdilər. Bu iş Yakutiyanın xristianlaşdırılmasına səbəb oldu.

XIX əsrin əvvəllərində Sibirin yerli ziyalıları təşəkkül tapdı. Buryat Qalsan Qomboyev görkəmli şərqşünas idi, etnoqraf Dorji Banzarov isə Sibirdə şamançılığı tədqiq edirdi. XIX əsrin 30-40-cı illərində Kuznetskdə, Yenisey və Biryujinsk tayqalarında və Baykal gölü yaxınlığında aparılan geoloji ekspedisiyalar nəticəsində qızıl mədənləri aşkar edildi. 1838-ci və 1844-cü illərdə P.A.Slovtsovun hazırladığı ikicildlik «Sibir tarixinin xülasəsi» nəşr olundu.

1855-ci ildə akademik, dilçi O.N.Vyotinkin «Yakut dili haqqında» böyük həcmli kitabı işıq üzü gördü.

Peterburqda 1818-ci ildən nəşr olunan «Sibir xəbərləri» jurnalı Sibirin elmi həyatında mühüm rol oynadı. Jurnalda salnamələr, Kiber, Zlobin, Çerniqovtsev və b. ekspedisiyalarının hesabatları əsasında yazılan maraqlı elmi məqalələr dərc olunurdu. 1825-ci ildən jurnal «Asiya xəbərləri» adı ilə çıxırdı. Ancaq Sibirin özündə dövri mətbuat yox idi. Yalnız 1857-ci ildən Sibir quberniyasının şəhərlərində qəzet nəşrinə başlanıldı.

XIX əsrin 70-ci illərində Barnaulda bir neçə ziyalı qrupu öz klubunu yaratdı. Burada «Xəbərlər» qəzeti nəşr olunurdu.80-ci illərdən başlayaraq Barnaulda tez-tez sərgi salonları təşkil edilirdi. 1889-cu ildə burada etnoqrafiya muzeyi açıldı. 90-cı illərdən Yakutskda mətbəə yaradıldı, həftədə bir dəfə «Yakutiya quberniyasının xəbərləri» qəzeti nəşr olunurdu. 1891-ci ildə burada muzey açıldı. 1898-ci ildə isə pulsuz xalq kitabxanası – qiraət zalı yaradıldı.

Sibir salnaməçiləri Şərqi-Sibir general - qubernatorları Pestel və Treksinin özbaşınalıqlarını tənqid edirdilər. Ədəbiyyatda müxtəlif cərəyanlar arasında mübarizə güclənirdi. Şair-romantiklər tarix, folklor, etnoqrafiya və milli koloritə daha çox diqqət yetirirdilər. Ancaq ədəbi fəaliyyətlə burada, əsasən sürgündə olan dekabristlər məşğul olurdular.



İrkutsk və Tomskda teatr üçün xüsusi binalar tikildi. Teatrlar da sürgün edilənlər tərəfindən yaradılırdı.

Sibirdə qədim zamanlardan tətbiqi incəsənət inkişaf etmişdi. İncəsənətin bu növü ilə bir qayda olaraq peşəkar rəssamlar deyil, ovçular, balıqçılar və maldarlar məşğul olurdular. Sibirdə milli naxışlarla tikilmiş geyimlər, müxtəlif ayinlər üçün taxta və sümükdən hazırlanmış bəzək əşyaları və s. geniş yayılmışdı. Sibirin Rusiya tərəfindən işğalından sonra isə istedadlı yakut, xakas və Tuva rəssamları rus tətbiqi incəsənətinin müvafiq formalarından istifadə etməyə başladılar. 1851-ci və 1862-ci illərdə qiymətli daşlardan hazırlanmış Altay məmulatları London sərgilərində nümayiş etdirildi.

Krım Rusiya tərəfindən işğal olunandan sonra, burada ixtisas məktəbləri yaradıldı. Onların əksəriyyətini məktəb və mədrəsələr təşkil edirdi. XIX əsrin 60-cı illərindən başlayaraq məktəblər zemstvo idarələrinin tabeliyinə keçdilər. Bundan sonra kəndlərdə məktəb şəbəkəsi genişləndi.

Qaradənizyanı sahillərdə taun epidemiyasının yayılması ilə əlaqədar 1828-ci ildə karantin haqqında qanun qəbul edildi. 1829-cu ildən isə Saki və Yevpatoriya məşhur müalicə zonasına çevrildilər. Ancaq tibbi xidmət hələ zəif idi. Varlı adamlar Krımın kurortlarında istirahət edirdilər. Alupka, Qurzuf, Aluşta, Saki, Feodosiya və digər şəhərlər istirahət yerləri kimi şöhrət qazandılar.

1830-cu ildə Krımda ilk dəfə olaraq Simferopolda «Tavriya quberniyasının xəbərləri»nin çap olunduğu mətbəə yaradıldı. Kerç, Sevastopol və Feodosiyada tarix-arxeologiya muzeyləri açıldı.

Digər türk xalqlarında olduğu kimi, Krım türklərinin musiqi yaradıcılığı da folklor, lirika, sosial-siyasi, iqtisadi və mənəvi həyatla sıx bağlı idi.

XX əsr türk xalqlarının mədəniyyətinin inkişafında yeni mərhələ oldu. Türkiyədə təhsil sistemini müəyyən edən ilk qanun əsasnaməsi 1924-cü il Konstitusiyasının 87-ci maddəsi idi. Həmin maddədə ümumi icbari pulsuz ibtidai təhsil hüququ

təsbit olundu. Bütün dini təhsil müəssisələri bağlandı, dini fənlərin tədrisi qadağan edildi, təhsil müəssisələrinin hamısı milli maarif nazirliyinin nəzarəti altına keçdi.

1928-ci ildə ərəb əlifbasından latın əlifbasına keçilməsi ilə uşaqların təhsil alması və böyüklərin savadsızlığının ləğvi xeyli asanlaşdı.

Mustafa Kamal inqilabının maarif sahəsindəki nailiyyətlərindən biri qadınların təhsilin bütün növlərinə, o cümlədən ali təhsilə yiyələnmək hüququnun tanınması, eləcə də məktəblərin bütün pillələrində oğlanlarla qızların birgə təhsilinin tətbiqi oldu.

Türkiyədə maarif sisteminə ibtidai və orta məktəblər, litseylər, texniki-peşə təhsili müəssisələri, institut və universitetlər daxildir.

14 iyun 1973-cü il qanununa əsasən Türkiyədə səkkizillik orta təhsil icbari təhsil elan olundu. O, iki pillədən ibarətdir: birinci – beşillik, ikinci – üçillik təhsil. Litsey isə orta məktəbin II pilləsi olub, pulludur.

Milli azlıqların (yunan, erməni, yəhudi) məktəblərində türk dili və ədəbiyyatı, Türkiyənin tarixi və coğrafiyasının tədrisi məcburidir.

Ali təhsil pulludur, dövlət universitetləri və digər ali təhsil müəssisələrində həyata keçirilir. Türkiyənin universitetləri inzibati idarəçilik sahəsində muxtariyyətə malikdir. Onlar müəllim ştatının genişləndirilməsi, işdən çıxarılması, tələbə özünüidarəsi formalarının müəyyənləşdirilməsi və s. üzrə təkliflərlə çıxış edə bilərlər. Ancaq universitetlərin muxtariyyəti 20 iyun 1973-cü il qanununa əsasən Ali təhsil şurası və universitetlərə nəzarət komissiyasının fəaliyyəti ilə məhdudlaşdırıldı.

Ölkənin ən iri universitet mərkəzləri Ankara və İstanbuldur. Ankara Universitetinin əsası 1946-cı ildə qoyulub. Nəinki Türkiyədə, hətta bütün Yaxın Şərqdə ən böyük olan Ankara Ortadoğu Texniki Universiteti isə 1956-cı ildə açıldı. Universitetin tikintisinin maliyyələşdirilməsində ABŞ, İngiltərə və Hollandiya iştirak ediblər. Təhsil, əsasən ingilis dilindədir.



Türkiyənin qocaman ali təhsil müəssisəsi olan İstanbul universitetinin əsası hələ XV əsrdə qoyulsa da, 1927-ci və 1933-cü illərdə yenidən təşkil olunmuşdur. 1944-1945-ci illərdə yaradılan İstanbul Texniki Universiteti politexnik təhsilin ən böyük mərkəzidir.

Böyük sənaye şəhəri olan İzmir şəhərinin yüksək ixtisaslı mütəxəssislərə olan tələbatını ödəmək məqsədilə 1955-1956-cı illərdə İzmirdə Egey Universiteti açıldı. Nəzdində elmi-tədqiqat mərkəzi yerləşən kənd təsərrüfatı məktəbinin bazasında 1955-ci ildə Ərzurumda Atatürk Universiteti yaradıldı. 1963/64-cü tədris ilində Trabzonda Qara dəniz Universiteti açıldı.

Türkiyədə elmi fəaliyyət universitetlərdə və könüllü elmi cəmiyyətlərdə mərkəzləşib. 1931-ci ildə yaradılan Türk Tarix Qurumu ən sanballı elmi cəmiyyətlərdən biridir. O, Atatürkün təşəbbüsü və maddi dəstəyi ilə təşkil edilmişdi. Qurumun əsərləri 19 seriyada dərc olunur. Onların hər biri müəyyən elmi problemə həsr edilir. Cəmiyyətin «Bülleten» jurnalı müntəzəm olaraq ildə dörd dəfə çıxır. Bundan əlavə, qurum «Bəlgələr» adlı sənədlər toplusunu da dərc edir.

Türk Dil Qurumunun əsası da Atatürkün təşəbbüsü və yardımı ilə 1932-ci ildə qoyulub. Cəmiyyət əsərlər və nəşrlər seriyası, aylıq «Türk dili» jurnalı və illik «Türk dili üzrə tədqiqatların külliyyatı»nı dərc edir. Bu elmi cəmiyyətlərdən başqa Türkiyədə iqtisadiyyat, hüquq, geologiya və digər cəmiyyətlər də vardır.

Birinci dünya müharibəsindən sonra türk ədəbiyyatı durğunluq keçirirdi. Ancaq milli-azadlıq mübarizəsinin tam qələbə ilə başa çatması və respublika elan olunması milli mədəniyyətin canlanmasına səbəb oldu. Türk əsgərlərinin işğalçılara qarşı döyüş meydanlarında qəhrəman igidlikləri barədə rəvayət, roman və şeirlər meydana gəldi.

Ədəbiyyatın başlıca mövzusu milli-azadlıq müharibəsi oldu. Xalidə Ədip Adıvarın (1884-1964) «Odlu köynək», Rəşad Nuri Güntəkinin (1882-1956) «Yaşıl gecə», Ağa Gündüzün

(1886-1958) «Diklin ulduzu», Mehmet Raufun (1875-1931) «Xilasolma» və s. romanları bu mövzuda idi. Yazıçılar arasında iki istiqamət meydana gəldi: özlərini «kamalçı» adlandıran yazıçılar qrupu Türkiyənin «xüsusi inkişaf yolu» ideyasını, yəni insanların milli birliyinin bütün sinfi fərqləri sildiyini təbliğ edirdilər. Bu yazıçılar qrupuna Yaqub Qədri, Xalidə Ədip, Mehmet Rauf və b. daxil idi. Onlar xalqın mədəni səviyyəsini yüksəltmək, kənddə mədəni inqilab edib, onu xalqın şüuruna çatdırmağın zəruri olduğunu hesab edirdilər. Xalidə Ədipin «Tatar qızı» romanı məhz bu ideyadan doğulub.

Digər yazıçılar qrupu, xüsusilə Sədri Ertəm, Rəşad Nuri Güntəkin, Səbahəddin Əli və b. tənqidi realizm metodunun tərəfdarı olaraq, nəinki kamalçıların sinifsiz türk cəmiyyəti barədə mülahizələrini inkar edir, əksinə sinfi differensiasiyanın labüdlüyü fikrini irəli sürürdülər. Rəşad Enis «Qonq səsləndi» romanı və «Qılıncımı çıxarıram» hekayələr toplusunda azadlıq mücadiləsinin qəhrəman iştirakçılarını evə qayıdarkən gözləyən ehtiyac, alçaldılma, işsizlikdən ibarət ağır taledən söz açır. Rəşad Nuri Güntəkinin «Yazığınız gəlsin», «Yarpaq tökümü» romanlarında sıravi ziyalıların da taleyinin kədərli olmasından danışılır. Yazıçı ədalətsizliyə qarşı mübarizədə məhv olan balaca adamın hüquqsuzluğunu göstərərək, böyük bədii ifadə ilə onun insanlıq ləyaqətini təsvir edir.

XX əsr nəsrində, az qala bütün müasir türk yazıçılarına böyük təsir göstərmiş roman və novella yazarı, şair Səbahəddin Əli xüsusi yer tutur. Onun «Dəyirman» məcmuəsində mərd, güclü, fədakar qəhrəmanlar boz, öz xeyrini bilən meşşan mühitə qarşı qoyulur. «Şüşə saray» məcmuəsində isə Səbahəddin Əli birbaşa inqilabi mübarizəyə çağırış ifadə edir. XIX əsrin sonunda türk ədəbiyyatına daxil olan kəndli mövzusu Səbahəddin Əlinin simasında özünün ən yaxşı ifadəsini tapdı.

Yeni türk poeziyasının banisi Nazim Hikmətin yaradıcılığı türk ədəbiyyatında böyük hadisə oldu. Onun 1924-cü ildə «Aydınlıq» jurnalında dərc olunan ilk şeirləri və ilk şeirlər kitabı «835 misra» (1929-cu il) türk cəmiyyətində qeyri-adi təəs-



sürat yaratdı. Yeni vəzn, eşidilməmiş obraz və metaforalar, başlıcası isə mövzu və süjetlər Nazim Hikməti yeni poetik istiqamətin hamı tərəfindən tanınan başçısı kimi irəli sürdülər. İstanbulun teatrlarında onun «Kəllə», «Cənazə evi», «Hamı tərəfindən unudulan» pyesləri tamaşaya qoyulurdu. «Taranta Babuya məktublar» poemasında şair faşizmi və onun türk pərəstişkarlarını damğalayır. 1938-ci ildən 1950-ci ilə qədər Nazim Hikmət həbsdə saxlanmışdır.

İkinci dünya müharibəsi ərəfəsində və dövründə Türkiyənin qabaqcıl yazıçıları və publisistləri faşizmə qarşı mübarizəyə səsləyirdilər. Suat Dərviş «Mən nə üçün Sovet İttifaqının dostuyam?» oçerklər kitabında dünyanı və türk millətini təhdid edən təhlükə barədə xalqa xəbərdarlıq edirdi. Səbahəddin Əli «Şeytan içimizdədir» (1944-cü il) romanında gənclərin şüurunu zəhərləyən şeytanı – tənbəllik, iradəsizlik, qorxaqlıq və siyasi passivliyi türk cəmiyyətindən qovmağa çağırırdı.

Müharibə illərində bütün türk poeziyasını yeniləşdirmək, onu yalan poetiklikdən azad etmək üçün yeni cəsur cəhd edildi. «Üçayaq» adlanan şair qrupu – Orxan Vəli Kanık, Məlik Cövdət Anday və Oktay Rüfət Xoruzçu – ədəbi «Üçlərin manifesti» ilə çıxış etdilər. Onlar şeirin məzmun və formasında bir sıra yeniliklər etməyi – qafiyə və ölçüdən imtina olunmasını təklif edirdilər. Qrupun fikrincə, onlar şairin düşüncəsini məhdudlaşdırır və buxovlayır, insanın gündəlik qayğıları, onun kiçik sevinci və kədəri haqqında şəhər və kənd üçün sadə dildə yazmasına mane olurlar.

Tezliklə bu şairlərin çoxsaylı ardıcılı və tərəfdarı meydana gəldi. Ədəbiyyata gənc qüvvələr, əsasən Anadoludan olanlar gəldilər. Onların əsərləri həyati materialların həqiqiliyi ilə fərqlənirdi.

«Varlıq» jurnalında Mahmud Mahalın «Kənd müəlliminin qeydləri»nin peyda olması və «Bizim kəndimiz» kitabının çıxması kəndli ədəbiyyatının başlanğıcını qoydu. Yaşar Kamalın «Tənəkə qutu», Orxan Xəncərlioğlunun «Qaranlıq dünya»,

Fəqir Bayqurdun «İlanların qisası» romanları bu ədəbiyyata aiddir.

Türkiyənin ən görkəmli yazıçılarından biri Orxan Kamaldır (1914-1971). Onun «Ata evi», «Sərsərilik illəri», «Cəmilə», «Paltaryuyanın qızı», «Murtaza», «Hadisə», «Xanımın ciftliyi», «72-ci kamera», «Fosforlu Cevriyyə», «Yad qız» və s. romanlarının qəhrəmanları, əsasən fəhlə, toxucu, zəhmətkeş qadınlar, bədbəxt qadınlar-gəlinlər idi.

XX əsrin 60-cı illərində yazıçıların yeni nəsli meydana gəldi. Həsən İzəddin Dinamo səkkizcildlik «Müqəddəs üsyan»ın ardınca milli-azadlıq müharibəsi haqqında yeni roman «Odlu illər»i nəşr etdirdi. Romanda o, azadlıq mübarizəsinin başa çatmamasının səbəbini təhlil edir. Erol Toyun «İlxan Tarusun vətən məhəbbəti», «Torpaq acanda», Səmim Qocagözün «Örtüklü adamlar» romanları da bu mövzuya həsr olunub. Kamal Tahir (1910-1973) «Yorğun döyüşçü» romanı ilə döyüşən İstanbulu göstərməklə azadlıq müharibəsi haqqındakı trilogiyanı başa çatdırdı. Onun «Canavar qanunu» romanı 1926-cı ildə Mustafa Kamal Atatürkün həyatına İzmirdəki sui-qəsdin tarixinə həsr olunub.

Bu zaman türk ədəbiyyatında hekayələr mühüm yer tuturdu. Bəkir Yıldızın «Fit verən qazan», Səmim Qocagözün «Yağmur altında qız», Mehmet Seydanın «Qarnizonda hadisə», Müzəffər Buyruqçunun «Mübarizə» və s. hekayələr toplusu cəmiyyətin sosial-iqtisadi və mənəvi həyatının gerçəkliyini əks etdirir.

Bütün dünyada şöhrət tapmış böyük türk yazıçısı Əziz Nesin 50-dən çox kitab, hekayə, roman və pyesin müəllifidir. O, «Yaşasın vətən» məcmuəsində oxucunun diqqətini sosial problemlərə yönəldir. Əziz Nesinin qəhrəmanları həyatda olduqları kimi deyil, başqa cür görünməyə çalışan adamlardır. Onun əsərləri ölkə hüdudlarından kənarda geniş miqyasda tanınır. O, bir sıra beynəlxalq mükafata layiq görülüb.



Haldun Tanər, Sərmət Çağan, Rıfat Yılqaz, Orxan Asen və başqalarının əsərlərinin işıq üzü görməsi ilə türk dramaturgiyası canlanma dövrünü keçirtdi.

70-ci illərin şairləri arasında Fazil Hüsnü Dağlarca seçilərək, o dövrdə Türkiyənin ən yaxşı şairi kimi tanınır. Onun şeirlərində lirika siyasi satira ilə bir-birini əvəz edir, insanların sevgi və əzabları dunyanın taleyi üçün həyacanla yanaşıdır. Onun «Vyetnam baharı» poeması Vyetnam xalqına məhəbbətlə doludur.

Şairlər Mətin Eloğlu, Suat Taşər, Nevzat Üstün, Bədri Rəhmi Eyyuboğlu, Şükran Qurdaqul, Mehmet Qarabulud, Ceyhun Atuf Qansu və b. şeirin klassik forması ilə mübariz xalq məzmununu birləşdirirdilər.

Türkiyədə teatr sənəti də bu dövrdə inkişaf edirdi. Ən böyük teatrlar, əsasən Ankara və İstanbulda cəmləşmişdi. Türkiyənin bütün teatrları üç qrupa: dövlət, bələdiyyə, xüsusi teatrlara bölünürdü. Vaxtilə bu teatrlar, Türkiyədə «Türk teatrının atası» adlandırılan qocaman və tanınmış aktyor və rejissor Mühsin Ərtoğrul tərəifndən yaradılmışdı.

Dövlət teatrları Ankaradan başqa İzmir və Bursada da var idi. 70-ci illərdə meydana gələn «teatr-kabare», «küçə teatrları» və ya çoxsaylı həvəskar qrupların türk xalqının özünüdərk şüurunun oyanmasında az rolu olmayıb. Bütün bu kollektivlər səhnə sənətini maksimum dərəcə xalq kütlələrinə yaxınlaşdırmağı qarşılarına məqsəd qoymuşdular.

Türk kinematoqrafiyasının formalaşması prosesi ikinci dünya müharibəsinə qədər başlanmışdı. 60-70-ci illərdə ölkədə 30-a qədər xüsusi kinokompaniya fəaliyyət göstərirdi. Türk filmləri beynəlxalq kinofestivallarda nümayiş etdirilirdi. 1970-ci ildə ölkədə 3000-ə qədər kinoteatr fəaliyyət göstərirdi.

60-cı illərin ikinci yarısında türk kinematoqrafiyasının xarakterik xüsusiyyəti, Osmanlı imperatorluğu və erkən orta əsrlər tarixini ideallaşdıran saxta tarixi filmlər axınından ibarət idi. Türk ekranlarında bir-birinin ardınca, Qartal Tibet və Cüneyd Arkının ifasında «keloğlanlar» və «malqoşoğlu»nun sər-

güzəştləri haqqında filmlər meydana gəldi. Bu istiqamətin başçıları Suat Yalaz və Süruri Duru idi. Bu filmlərdə Mərkəzi Asiya və Anadoluda uydurulmuş qəhrəmanların sərgüzəştlərindən bəhs olunur.

Müasir türk filmlərinin hər il Antalyada (»Qızıl portağal»), Adanada («Qızıl barama») kinofestivalları təşkil edilir. Türk kino ulduzlarının ən böyüyü Türkan Şoray, Fatma Girik, Hülya Qoçigid və Bilgin Dorukdur. Daha çox populyar aktyorlar isə Ayxan İşıq, Cüneyd Arkın, İzzət Güney və başqalarıdır.

XX əsrdə musiqi sənətində də yüksəliş müşahidə olunur. Ölkənin musiqi sənəti, əsasən Ankara, İstanbul və İzmirdə mərkəzləşir. Konservatoriyalar burada yerləşir, simfonik və xalq musiqisi konsertləri təşkil olunur.

Türk musiqisi vokal janrı ilə daha dolğun və geniş təmsil olunur. Forma və məzmununa görə türk xalq mahnılarını dörd əsas növə bölürlər – mani, türkü, aqıt və şərqi. Qısa, qafiyəli dörd misralıq – mani, xalq mahnılarının daha çox yayılmış forması – türkü, inilti və ya ağı – aqıt, məişət xalq mahnıları – şərqi adlanır.

Tanınmış bəstəkarlar Nəcmi Rza Ahıstan və İsmayıl Şənçağlar çoxcəhətli yaradıcılıqları ilə fərqlənirdilər. Xalq mahnılarının Nuri Səsigözəl, Yıldırım Gursəs, Adnan Şənsəs kimi istedadlı ifaçılar pleyadası meydana gəldi.

Türk simfonik musiqisinin əsasını qoyan yaşlı nəslin bəstəkarları sırasına Camal Rəşid Rey, Adnan Sayqın, Ülvi Camal Erkin, Fərid Alnar, Nəcil Kazım Ağsəs və Əkrəm Zəki Un daxildir. Ən çox tanınmış türk dirijorları Hikmət Şimşək və Əkrəm Zəki Un hesab olunur.

1971-ci ildə Türkiyədə Mədəniyyət nazirliyi yaradıldı. Nazirlik Topqapıda müntəzəm konsertlərin keçirilməsi barədə qərar qəbul etdi. Həmin il İstanbulda ikinci konservatoriya təsis edildi.

XX əsrin sonu – XXI əsrin əvvəllərində Türkiyədə yüngül estrada musiqisi də geniş surətdə yayıldı. Ankara, İstanbul, İzmir, Əskişəhər, Ərzurum və Trabzonda gənclər ansamblı və caz qrupları fəaliyyət göstərirlər.



Təsviri incəsənət və arxitektura daha da inkişaf etməkdədirlər. Qərbi Avropa ustalarının stilində yeni rəssamlığın ilk nümayəndələri rəssamlar Şəkər Əhməd paşa (1841-1907), Osman Həmdi bəy (1842-1910), Süleyman Seyid (1842-1913), Xəlil paşa (1857-1939) və b. idilər.

Türk rəssamları ilk dəfə 1883-cü ildə birləşdilər. O zaman İstanbulda «Sənaye-i nəfise okulu» - Nəfis sənət məktəbi açılmışdı. 1927-ci ildə bu məktəb Nəfis sənət akademiyasına, 1969-cu ildə Dövlət Nəfis Sənət Akademiyasına çevrildi.

Bir çox rəssamların yaradıcılığına impressionizm və postimpressionizm öz təsirini göstərdi. Türk təsviri incəsənəti tarixində ilk dəfə milli-azadlıq müharibəsində xalqın qələbəsini və Türkiyə Respublikasının həyatında baş verən mühüm hadisələri əks etdirən plakat və rəsmlər meydana gəldi.

1924-cü ildə bir qrup gənc rəssam Avropaya yola düşdü. Onlar dörd ildən sonra İstanbula qayıdaraq, Müstəqil rəssamlar və heykəltəraşlar ittifaqını yaratdılar. Mühitdin Səbati, Şərəf Ağdik, Cavad Dərəli və b. 1928-ci ildə İstanbulda sərgi təşkil etdilər. Sərgi Qərb incəsənətinin yeni cərəyanları ilə tanışlıq xarakteri daşıyırdı. Bəzi «müstəqil» rəssamlar Turqut Zaim, Malik Ağsel və onların həyat yoldaşları - Bədri Rəhmi və Ərən Əyyuboğlu «folklorçu» olaraq «akademizmə» qarşı çıxış edir və orijinal türk incəsənəti uğrunda mübarizə aparırdılar.

Camal Nadir Gülər (1902-1947) xüsusi satira janrı olan karikaturanı yaratdı. Onu «türk karikaturasının atası» adlandırırlar. Onun xəttini davam etdirən müasir türk karikaturaçıları incəsənətin real həyatla sıx əlaqəsi lehinə çıxış edirlər.

XX əsrin əvvəllərində Türkiyədə görkəmli heykəltəraşlar: Mahir Tomruk (1884-1949), Nicat Sirel (1897-1959), Ratip Aşir (1897-1958) və b. çalışırdılar. Onlar öz işləri ilə müasir türk heykəltəraşlığının əsasını qoydular. İkinci dünya müharibəsindən sonra istedadlı heykəltəraşlar Yavuz Cəray, Hüseyn Gəzər və başqalarının yeni pleyadası meydana gəldi.

Türkiyədə keramika qədim tarixə malikdir. 60-cı illərdə türk keramikasının aparıcı ustası Fürəyya Koral idi. Onun əl işi 1962-ci ildə Praqa sərgisində qızıl medala layiq görülüb. R.Əyyuboğlunun mozaika pannosu isə BMT-nin Nyu-Yorkdakı binasını bəzəyir.

XX əsrin başlanğıcı arxitekturada «türk renessansı» dövrü, «köhnə sənətə» qayıdış kimi qiymətləndirilir. Bu hərəkata memarlar Vədad bəy və Kəmalləddin bəy başçılıq edirdilər. Türk memarlarının layihələri üzrə Türkiyə Böyük Millət Məclisinin binası, Qazi pedaqoji institutu, İstanbulda Yay teatrı və Mədəniyyət sarayı, Ankarada Prezident iqamətgahı və Atatürk Mavzoleyi və s. binalar tikildi.

Kütləvi informasiya vasitələri də Türkiyədə geniş suratdə inkişaf edir. 1970-ci ildə Milli maarif nazirliyinin mətbuat idarəsinin məlumatına görə, 1200 qəzet və 1270 jurnal qeydə alınıb. Dövri mətbuat əsasən yaxşı poliqrafik bazası olan İstanbul, Ankara və İzmirdə cəmləşib. Mühüm informasiya mənbələri Anadolu agentliyi və Türkiyənin informasiya agentliyidir.

«Rəsmi qəzet» istisna olmaqla, bütün mətbuat orqanları şəxsi mülkiyyətdir. 1918-ci ildə əsası İstanbulda qoyulan gündəlik axşam qəzeti «Axşam» CHP-nin mənafeyini ifadə edirdi. Ancaq 1970-ci ildə fəhlələrin iyun nümayişindən sonra qəzetin bir çox əməkdaşı repressiyaya məruz qaldı. «Axşam» əvvəlki nüfuzunu itirdi, sonra isə yeni sahibinə – Türkiyə fəhlələrinin həmkarlar ittifaqları konfederasiyasına (TÜRK-İŞ) satıldı.

Qocaman çoxtirajlı qəzet olan «Cümhuriyyət»in əsası 1924-cü ildə qoyulub. Digər qocaman qəzet «Vətən» 1923-cü ildən çıxır. Ancaq respublika əleyhinə çıxışlarına görə onu 1926-cı ildə bağladılar və 1940-cı ildən yenidən çıxmağa başladı. «Milliyyət, «Ədalət», «Hürriyyət», «Tərcüman» və s. qəzetlər də populyarlıq qazandılar.

Ən böyük həftəlik yumoristik jurnal olan «Ağbaba» İstanbulda nəşr olunur. Türkiyədə elmi, ədəbi-bədii jurnallar da dərc edilir.



Türkiyədə radio 1927-ci ilin sonunda meydana gəldi. O zaman Ankara və İstanbulda iki uzun dalğalı ötürücü işə düşmüşdü. 1970-ci ildə artıq Türkiyədə 16 radioötürücü fəaliyyət göstərirdi.

1938-ci ildə radio verilişləri Türkiyənin simsiz teleqraf səhmdar cəmiyyətinin şəxsi mülkiyyətindən alınıb dövlətin tabeliyinə verildi. Türkiyə Avropa radioverilişləri ittifaqı və Asiya ölkələri radioverilişləri ittifaqının üzvüdür.

Türkiyə televiziyası ilk dəfə 1968-ci ilin yanvar ayında Ankarada öz verilişlərinə başladı. TRT təşkilatı eksperimental televiziya verilişlərinin yayımı ilə məşğul olurdu. Əvvəlcə onlar həftədə iki, sonra – dörd və beş gün yayımlanırdı. 1971-ci il martın 12-dən televiziyanın inkişafına daha çox diqqət yetirilməyə başlandı. Ölkədə televiziya şəbəkəsinin sürətli inkişafı üçün radiorele rabitəsi tətbiq olundu. Bu, Türkiyənin bir çox şəhərini televiziya verilişləri ilə təmin edirdi. 1980-cı ildən isə artıq ölkənin bütün əhalisi televiziya verilişlərinə baxmaq imkanı əldə etdi.

XX əsrdə Türkiyədə kitabxanaların şəbəkəsi genişləndi. Bütün kitabxanalar aşağıdakı kateqoriyalara bölünə bilər: 1) milli kitabxanalar» 2) universitet və digər təhsil müəssisələrinin; 3) idarə və xüsusi; 4) kütləvi və ya şəhər; 5) uşaq kitabxanaları.

Daha böyük kitabxanalar Türkiyənin mühüm elm və mədəniyyət mərkəzləri – Ankara və İstanbulda cəmləşib. İstanbulda Süleymaniyyə məscidinin kitabxanası Türkiyədə köhnə nəşrlərin və əlyazmaların ən maraqlı toplumlarından biridir. Onun ilk kolleksiyaları XVIII əsrdə tərtib olunub. 1956-cı ildə ona İstanbuldakı Fateh məscidinin kitabxanası da (XV əsrdə əsası qoyulub) birləşdirildi. Orada şəxsən sultan II Mehmet və yüksək mənsəbli adamlara məxsus olan xeyli miqdarda əlyazmaları saxlanılırdı. 1957-ci ildə Xosrov paşa kitabxanası da ona verildi.

Ayasofya məscidinin kitabxanası XVIII əsrdə yaradılıb. Sonradan ona bir neçə vəqf və şəxsi kitabxana da birləşdirildi.

Digər muzey tipli kitabxanalardan Topqapı sarayı muzeyinin və Nurosmaniyyə məscidinin kitabxanaları, XVII əsrdə böyük vəzir Mehmet Köprülü tərəfindən əsası qoyulan Köprülü kitabxanası, Rahib paşa kitabxanası və s. məlumdur.

1936-cı ildə İstanbulda Türkiyənin ən böyük arxiv saxlanılan yeri – Nazirlər Sovetinin Arxivi yaradıldı. İstanbulda Osmanlı dövlət administrasiyasının çoxəsrlik fəaliyyətini əks etdirən materiallar burada cəmləşib. Əhəmiyyətinə görə ikinci yerdə duran vergi siyahılarının kitabı və torpaq sənədlərinin Dövlət arxivi 1930-cu ildə Ankarada yaradılıb.

İstanbuldakı Topqapı sarayı muzeyinin nəzdindəki Arxiv də sənədli materialların əhəmiyyətli fonduna malikdir. Türkiyənin bütün iri şəhərlərində arxiv sənədlərinin külliyyatı vardır.

Türkiyədə həmçinin geniş muzey şəbəkəsi də mövcuddur. Onların bəziləri, Türkiyədə Topqapı sarayı muzeyi kimi qocamanları, hələ XIX əsrdə saray kolleksiyaları əsasında yaradılmışdı. Bu muzey Osmanlı imperatorluğunun müxtəlif dövrlərinin memarlıq abidələri ilə təmsil olunan sarayın içində yerləşir. Onların arasında məşhur «Kaşılı köşk» xüsusi yer tutur. Köşkün bizim günlərə qədər qorunub saxlanan ecazkar rəngli şirəli kaşıları, divar yazıları və Sultan II Mehmetin dövrünə aid interyeri vardır.

İstanbul arxeoloji muzeylər idarəsi öz sistemində üç muzeyi birləşdirir: Antik dünya abidələri muzeyi, Qədim Şərq abidələri muzeyi və Osmanlı imperatorluğunun orta əsr tarixi abidəsi olan Yeddibürclü qala.

Ayasofya məscidi muzeyinin əsası, Bizans və osmanlı – türk keçmişinin abidəsi kimi, 1933-cü ildə qoyulub. Qəhriyyə məscidindəki mozaikalı muzey Bizans dövrünün valehedici freska rəsmlərinin və mozaikanın son dövr qatlarından təmizlənmiş fraqmentlərini nümayiş etdirir.

İzmir, Efes, Perqam və digər şəhərlərdəki qazıntılar geniş açıq müzeylərə çevrildi. Türkiyənin bir çox şəhərlərində etnoqrafik muzeylər də həmçinin geniş surətdə yayıldı.



Türkiyədə tibb müəssisələri şəbəkəsinin yaradılması və möhkəmləndirilməsi, tibbi personalın hazırlanması, sanitar-epidemioloji nəzarətin qurulması üzrə xeyli iş görüldü. 1930-cu ildə ictimai səhiyyə sahəsində xüsusi qanunvericilik qəbul edildi. Qanunda dövlət və xüsusi tibbi sanitar-müalicə müəssisələri və xidmətinin fəaliyyəti prinsipləri müəyyənləşdirildi. 1961-ci ildə isə bu xidmətlərin 15 il ərzində mərhələlərlə yenidən qurulmasını nəzərdə tutan «Səhiyyə xidmətinin ictimailəşdirilməsi haqqında qanun» qəbul olundu.

Səhiyyənin «ictimailəşdirilməsi» planında həmçinin ana və uşaq sağlamlığı müdafiəsi xidməti şəbəkəsinin genişləndirilməsi də nəzərdə tutulurdu. 1925-ci ildən Türkiyədə hər iki ildən bir Milli tibb konqresi keçirilir.

Türkiyə səhiyyə sahəsində Ümumdünya səhiyyə təşkilatı (ÜST), BMT-nin Uşaq fondu (YUNİSEF) və s. kimi beynəlxalq təşkilatların üzvüdür.

Müxtəlif və zəngin təbiəti və iqlim şəraiti, çoxsaylı tarixi abidələri, əfsanəvi Troya, ümumdünya şöhrətli Perqam, Efes və Miletin dağıntıları, Aralıq, Mərmərə, Egey və Qara dənizlərin ecazkar sahilləri ölkədə turizmin inkişafı üçün əlverişli zəmin yaradır. Turizmin təşkili ilə bağlı bütün məsələlər Turizm və informasiya nazirliyinin ixtiyarında idi.

Mədəniyyətin inkişafında bədən tərbiyəsi də az rol oynamır. Gənclərin bədən tərbiyəsinin təşkilinə rəhbərlik Milli maarif nazirliyinin nəzdindəki Baş idman idarəsinin üzərinə düşür.

Türkiyədə müxtəlif idman növləri və oyunları ilə məşğul olan idmançıları birləşdirən onlarla federasiya fəaliyyət göstərir. 1970-ci ildə ölkədə 2 minə qədər gənc idmançıların klubu var idi. Onlardan başlıcası olan «Qalatasaray» 1905-ci ildə, «Fənərbağça» - 1907-ci ildə, «Beşikdaş» isə 1909-cu ildə yaranıb.

XX əsrin əvvəllərində **Mərkəzi Asiyada** kapitalist münasibətlərinin inkişafı bu regionun xalqlarının mədəniyyətinə də təsir etdi. Dövri mətbuat və kitab nəşri genişləndi, məktəblərin sayı artdı.

Ümumrus mədəniyyətində olduğu kimi, Türküstan diyarının xalqlarının mədəniyyətində də iki cərəyan arasında mübarizə davam edirdi. Onlardan biri - xalqın savadsız qalmasını nəzərdə tutan çarizmin mürtəcе siyasəti, digəri – mədəniyyətin inkişaf etdirilməsinə can atan demokratik cərəyan. Sonuncunun nümayəndələri yeni tədris üsulu olan məktəb, gimnaziya, müəllim seminariyası və realnı məktəblərin açılmasına yardım edirdilər.

XX əsrin əvvəllərində, əsasən rus dili və hesab tədris olunan yerli rus məktəbləri şəbəkəsi genişləndi. Bununla yanaşı, şagirdlər bu məktəblərdə Rusiyanın tarixi, coğrafiyası və təbiətşünaslıq haqqında məlumat alırdılar. Daşkənddə Türküstan pedaqoji dərnəyi yaradıldı. Bu dərnək 1903-cü ildə ictimai əsaslarla rus dilində ilk qız məktəbini açdı. Ancaq o, dövlət himayəsində olmadığından iki ildən artıq fəaliyyət göstərə bilmədi.

Milli burjuaziya maarif sahəsində islahat keçirilməsi tərəfdarı idi. Nijni-Novqorodda 1905-1906-cı illərdə keçirilən Ümumrusiya müsəlmanları qurultaylarında hazırlanmış yeni tədris proqramı yeni təlim üsulu ilə işləyən məktəblərin inkişafına yardım etdi. İlk belə məktəblər hələ XX əsrin ərəfəsində Daşkənd, Buxara və Xivədə meydana gəlmişdi. 1910-cu ilin yayında 5 yeni məktəb açıldı. Ancaq çar hökuməti bu prosesə müqavimət göstərərək bunu cədidçilərin türklərlə əlaqələri ilə əsaslandırırdı. 1910-1911-ci illərdə Türküstanda yeni tədris metodu ilə işləyən 50 məktəb bağlandı.

Türküstan diyarında məktəb və mədrəsələrlə yanaşı, Rusiyanın Avropa hissəsinin təhsil sistemi üzrə tədris keçən rus məktəbləri də mövcud idi.

Oş və Qızıl vilayətlərindən və Cənubi Qırğızıstandan olan bir qrup şagird öz təhsilini Şamaxıda alırdı. Yerli rus məktəblərində bir qayda olaraq, Türküstan müəllimlər seminariyasının yerli dilləri bilən məzunları dərs deyirdilər.

1902-ci ildə Daşkənddə kənd təsərrüfatı hidrotexniki məktəb, 1904-cü ildə Səmərqənddə bağçılıq və üzümçülük məktəbi açıldı.



1908-ci ildə qızlar üçün xüsusi texniki-peşə məktəbi təsis edildi. 1913-cü ildən Daşkənddə ticarət məktəbi fəaliyyət göstərirdi. Ancaq təhsil sahəsində görülən bütün bu işlər savadsızlığın ləğvi üçün kifayət etmirdi.

Yalnız sovetləşmədən sonra Mərkəzi Asiyanın türk xalqlarının maariflənməsində hiss olunacaq dərəcədə müvəffəqiyyət əldə olundu. 20-ci illərdə hamılıqla icbari yeddillik təhsilə keçid başladı. Yeddi yaşına çatmış uşaqlar məcburi surətdə ibtidai təhsil almalı idilər. Böyüklər və ya yaşlılar üçün isə axşam məktəbləri açılırdı. Savadsızlığın ləğvi komitələri (likbezlər) yaradıldı. Mərkəzi Asiya respublikalarında savadsızlığın ləğvi prosesi uzun sürdü. Ana dilində orta təhsil məktəbləri açılırdı. Daşkənd, Səmərqənd, Buxara, Aşqabad, Alma-Ata, Frunze (Bişkek) və digər şəhərlərdə ali təhsil müəssisələri təsis olunurdu.

XX əsrin əvvəllərində Türküstan diyarında elmin inkişafında da irəliləyiş nəzərə çarpırdı. Mərkəzi Asiyanın təbiəti və tarixi, fauna və florası və iqliminin öyrənilməsi sahəsində Rus Coğrafiya Cəmiyyətinin Türküstan bölməsi böyük işlər gördü. 1908-ci ildə rus alimi V.L.Vyatkin arxeoloji qazıntılar nəticəsində Səmərqənddə Uluqbəy rəsədxanasının qalıqlarını aşkara çıxartdı, qədim Əfrasiyab şəhərini tədqiq etdi.

1903-cü ildə Aşqabadda Arxeologiya Sevərlər Cəmiyyəti yaradıldı. Arxeoloji qazıntılar zamanı aşkar olunan tapıntıların bir hissəsi Aşqabad diyarşünaslıq muzeyinə verildi. Arxitektura və tarixi abidələrin inventarlaşdırılması və qeydə alınması keçirildi. İctimaiyyətin təşəbbüsü ilə Murqabın rəhbərliyi Sultan Səncərin mavzoleyində bərpa işlərinə başladı. Mərkəzi Asiyanın tarixi, coğrafiyası, təbiəti və s. elmi tədqiqi ilə əsasən rus və xarici alimlər məşğul olurdular. Yerli ziyalıların aparılan tədqiqat və ekspedisiyalarda iştirakı yox dərəcəsində idi. Yalnız SSRİ-nin tərkibinə daxil olandan sonra milli kadrlar hazırlandı.

Sosializm quruculuğu illərində Qazaxıstanda əsl mədəni inqilab baş verdi. Orta təhsil məktəbləri və şagirdlərin sayı artdı. Qazax aulları və digər kiçik qəsəbələri bir-birindən uzaq

olan seyrək məskunlaşma rayonlarında internat məktəbləri yaradıldı. Respublikanın məktəblərində təhsil qazax, rus, özbək və uyğur dillərindədir.

1928-ci ildə Alma-Atada ilk ali təhsil müəssisəsi – Abay adına Pedaqoji institut, altı il sonra isə S.M.Kirov adına Qazax Dövlət Universiteti açıldı. 70-ci illərdə respublikada 43 ali təhsil müəssisəsi var idi. Onlar təsərrüfat və mədəniyyətin müxtəlif sahələri üçün mütəxəssis kadrlar hazırlayırlar.

Orta ixtisas təhsili müəssisələri hər il on minlərlə gənc mütəxəssis yetişdirir.

Respublikada yüzlərlə müxtəlif elmi müəssisə var. Elmi fikrin mərkəzi – 1946-cı ildə SSRİ EA-nın Qazaxıstan filialının bazasında yaradılmış Respublika Elmlər Akademiyasıdır. Qazaxıstanda elmin inkişafında Respublika EA-nın ilk prezidenti, görkəmli geoloq, akademik K.İ.Satpayev böyük rol oynayıb.

Geoloqlar zəngin neft ehtiyatları və s. faydalı qazıntıları olan Manqışlaqın təbii şəraiti və varidat mənbəyini dərindən öyrənirlər. Əlvan və qara metal filizinin çıxarılması və emalının təkmilləşdirilməsi üzrə aparılan elmi-tədqiqat işləri mühüm əhəmiyyət kəsb edir. Alimlər Mərkəzi Qazaxıstanın su təchizatı üzrə kompleks tədqiqatlar aparırlar. Onların təklifi ilə İrtış-Qaraqanda kanalı tikildi.

Xalq təsərrüfatının kimyalaşdırılması vəzifəsi ilə əlaqədar olaraq, Karatau fosforitlərinin istifadəsi problemləri öyrənilir. Bioloqların tədqiqatları əsasında kənd təsərrüfatı bitkilərinin yeni növləri yetişdirildi.

Qazax alimlərinin qazax dili və ədəbiyyatı, qazax xalqının tarixi və etnogenezi sahəsində yaratdıqları əsərlər geniş miqyasda tanınır. Görkəmli qazax yazıçısı, türkoloqu və ictimai-siyasi xadimi Oljas Süleymenovun «Az-i-ya» kitabı yalnız qazax xalqının etnogenezinə deyil, bütünlükdə türk etnosunun soy kökünə həsr olunub.

Qazax ədəbiyyatının kökləri şifahi xalq yaradıcılığından qaynaqlanır. Xalq eposunun ən qiymətli irsi rəvayət – poemalardır. Onlarda xalqın mənafeyi uğrunda mübarizə aparan batırlar, sədaqətli sevgi və dostluq, iradəli qəlb, vətənpərvərlik və xalqın alicənablığı vəsf olunur. Ən populyar poema «Kozı-Koreş və Bayan Slu»dur. Qazax Romeo və Cülyettası haqqında adamı həyəcanlandıran «Qız-Jibek» poeması Qazaxıstanda çox geniş surətdə şöhrət qazanıb. Sovet dövründə eposun bir çox hissələri pyes, opera librettosu, kinofilmlərin ssenarisini təşkil edib.



Yazılı qazax ədəbiyyatı və ədəbi dilinin banisi Abay Kunanbayev bənzəri olmayan şair, böyük mütəfəkkir, humanist, maarifçi bir insan idi. Qəddar bay oğlu olan Abay öz yaradıcılığını adət və şəriətin mürtəce qanunlarına, xalqa zülm edən çar məmurlarına, bay və mollalara qarşı mübarizəyə həsr etmişdir. O, özünün bir çox şeirlərinə musiqi də qoşurdu.

Digər maarifçi-şair İbrahim Altınsar idi. Məhəmmədcan Səral, İsfəndiyar Kobeyev, Sultan Mahmud Torayqırov, Sabit Donentayev və b. yazıçılar öz yaradıcılıqlarında realizm və demokratik ənənələri davam etdirirdilər. Onlar cəmiyyətdəki sosial ədalətsizliyi tənqid edərək xalqı maariflənməyə səsləyirdilər.

Cambul Cabayev ilk olaraq qazax xalq poeziyasına tənqidi realizmi gətirdi. Onun «Yoxsulun nəsibi» şeiri sadə insanların çıxılmaz vəziyyətini əks etdirir.

Ömər Şipinin «Batır Amangəldi» poeması dörd hissədən ibarətdir. Bu poema xalq qəhrəmanı Amangəldi İmanova həsr olunub.

Sovetləşmədən sonra qazax ədəbiyyatının başında şair və yazıçılardan Saken Seyfullin, İlyas Cansuqurov, Bayımbet Maylin,Muxtar Auezov dururdular.

Yazıçı-akademik Muxtar Auezov (1897-1961) ilk qazax dramaturqu və istedadlı romançısı olub sovet ədəbiyyatının klassikidir. Onun kitabları dünya şöhrəti qazanıb. O, həm də böyük alim idi. Dördcildlik roman – epopeya «Abay» və «Abayın yolu» əsl mənada qazax xalqının həyatının ensiklopediyasıdır. M.O.Auezov Dövlət və Lenin mükafatları laureatı olub.

Sovet dövründə akın və böyük qazax xalq şairi Cambul Cabayevin (1846-1945) yaradıcılığı ikinci gəncliyini tapdı. Onun öz dombrasının sədaları altında yazdığı ehtiraslı nəğmələr ona akının sovet hakimiyyəti qurulana qədər qazandığı şöhrətini gətirdi.

Sabit Mukanovun «Həyat məktəbi» adlı avtobioqrafik trilogiyası, Qabit Musrenovun «Oyanmış diyar», «Qazaxıstan əsgəri» və Qabiden Mustafinin «Qaraqanda», «Milyonçu» romanları ölkə daxilində və xaricdə böyük populyarlıq qazanmışlar. Şair Oljas Süleymenov da geniş şöhrət tapıb.

Respublikada yaşayan digər millətlərin – rus, uyğur, koreyalı, alman və b. ədəbiyyatı da uğurla inkişaf edir.

Qazaxıstanda mətbuat, mahiyyət etibarılə sovet dövründə yaradılıb. XX əsrin əvvəllərində Qazaxıstanda və onun hüdudlarından kənarda bəzi qəzet və jurnallar çıxırdı. «Boz at» (Peterburq), «Qazax» (Orenburq), «Qazaxıstan» (Ural), «Zaman dili», «Alaş» (Daşkənd) qəzetləri və «Aykar» (Troitsk), «Abay» (Semipalatinsk) jurnalları qazax xalqının dövri mətbuatının beşiyi başında durmuşlar. Qazax yazıçılarının dərc olunduqları «Ağmolla» jurnalı Troitskdə qazax dilində çıxırdı.

1911-1915-ci illərdə nəşr olunan «Aykar» jurnalı qazax ədəbi dili və publisistikasının formalaşmasında mühüm rol oynadı. Jurnalda bəzi sosial-siyasi problemlər ön plana çəkilirdi.

Hər il 15 kitab nəşr olunurdu. 1909-1911-ci illərdə Abayın şeirlər külliyatı, S.Donentayevin və S.Toqayqırovun əsərləri işıq üzü gördü. Qazax dilində ibtidai məktəblər üçün dərsliklərin nəşrinə başlandı.

Sovet dövründə Qazaxıstanda ildə 316 qəzet, 23 mln. nüsxə kitab və iki mindən çox adda broşyura çap olunurdu.

Qazaxlarda təsviri incəsənət yalnız tətbiqi, dekorativ xarakter daşıyır. İslam dininə görə dəzgah rəssamlığı qadağan idi. Yalnız Çokan Vəlixanovun etnoqrafik rəsmləri və Qazaxıstanda sürgündə olan T.Q.Şevçenkonun karandaşla çəkdiyi



şəkillər məlumdur. Onlarda qazax aulunun məişəti və diyarın özünəməxsus təbiəti məhəbbətlə təsvir olunur.

Realist təsviri incəsənətin təşəkkülü rus rəssamı-pedaqoq N.Q.Xludovun (1860-1935) adı ilə bağlıdır. O, ilk dəfə özünün parlaq tablolarında qazaxların özünəxas məişətini göstərdi, ilk olaraq qazax gənclərini rəssamlığa cəlb etdi.

1933-cü ildə Qazaxıstan Rəssamlar ittifaqının yaradılması, 1935-ci ildə T.Q.Şevçenko adına Milli rəssamlıq qalereyası və 1938-ci ildə Alma-Ata rəssamlıq məktəbinin açılması milli rəssam kadrlarının artmasına və təsviri incəsənətin inkişafına səbəb oldu. Qazax fırça və kaşı ustaları beynəlxalq sərgilərdə uğurla iştirak edirlər. Qazax rəssamlarından ən məşhuru Abılxan Kasteyevdir. Onun zərif kaloriti və xüsusi poetikliyi ilə fərqlənən tabloları doğma təbiətin şəkillərini və qazax aulunun həyatından məişət səhnələrini təsvir edirlər. O özünün «Satılmış gəlin» şəklində qazax qadınının ağır keçmişini ifadəli surətdə göstərir. İstedadlı rəssamlardan Kənafi Teljanovun, Sabur Mambeyevin və b. bir çox əsərləri meydana gəldi.

İlk qazax heykəltəraşı Həkimcan Naurzbayev çox gözəl monumental əsərlər – Abay, Cambul və Amangəldinin surətlərini yaratdı.

Yalnız sovetləşəndən sonra qazaxların xor və orkestr musiqisi, operası, xoreoqrafiyası, teatrı yarandı. Populyar qazax küiləri müasir qazax opera və simfonik musiqisinin inkişafı üçün əsas oldular. Kurmanqazı Saqırbayev (1806-1879) görkəmli xalq bəstəkarı idi. Kurmanqazının melodiyaları ən yaxşı qazax operalarını bəzəyir.

1934-cü ildə Y.Q.Brusilovski ilk qazax operası olan «Qız-Jibek»i yazdı. Bu, qazaxların ən populyar operasıdır.

Görkəmli qazax bəstəkarı Ə.K.Jubanov «Abay» və L.Həmidi ilə birgə «Tulegen Toxtarov» operalarını, eləcə də simfonik, xor və kamera əsərlərini yazıb. Əhməd Jubanov gözəl pedaqoq və alim idi. Onun xalq bəstəkarları və müğənniləri haqqında yazdığı «Yüzilliklərin simləri» və «Yüzilliklərin bülbülləri» monoqrafiyaları geniş surətdə yayılmışdı.

İstedadlı qazax bəstəkarı M.Tulebayevin simfoniyası və «Birjan və Sara» operası qazax musiqisinin qızıl fonduna daxil oldular. İlk uyğur operası «Nazuqum» və «Çintomur» baletinin müəllifi uyğur bəstəkarı Kuddus Kujamyarov böyük şöhrət qazandı. Onun «Rizvanqul» simfonik poeması Dövlət mükafatına layiq görülüb.

Qazaxıstanda milli teatrlar 30-cu illərdə meydana gəlib. Ölkənin ən iri teatrları Abay adına Qazax dövlət akademik opera və balet teatrı, M.O.Auezov adına Qazax dövlət akademik dram teatrı, M.Y.Lermontov adına Respublika rus dram treatrı, Respublika uşaq və gənclər teatrıdır. Respublika Uyğur və Koreya musiqili dram teatrları da yaradıldı.

Görkəmli artistlər K.Baysentova, K.Jandarbekov, Q.Kurmanqaliyev, Xalq rəqslərinin məşhur ifaçıları Şara Jienkulova qazax opera və balet teatrının ilk ifaçıları və baniləri olmuşlar.

Kulyaş Baysentovanı (1912-1957) ilk qazax bülbülü adlandırırlar. SSRİ xalq artistləri Yermek Serkibayev və Roza Jamanova böyük şöhrət qazanmışlar.

İlk milli dram teatrının baniləri Kalibek Kuanışpayev, Serke Kojamkulov, Elyubay Umurzakov, Kapan Badırov olmuşlar. SSRİ xalq artistləri Xadişa Bukeyeva və Şaken Aymanov kimi istedadlı ifaçılar bir çox parlaq obrazlar yaratmışlar.

Musiqi və teatrın inkişafının ardınca qazax kino sənəti yaradıldı. İlk qazax kinofilmi «Amangəldi» 1938-ci ildə «Lenfilm» studiyasında çəkilib. 1944-cü ildə isə Respublika «Qazaxfilm» studiyası yaradıldı. Burada çox sayda bədii film və sənədli xronika lentləri və kinooçerkləri çəkildi.

Qazaxıstanda idman ildən-ilə daha çox populyarlıq qazandı. Respublikada 100-ə qədər stadion və təxminən 2 min gimnastika zalı var. Alma-Atada süni buzu olan gözəl idman sarayı tikilib. Medeo hündürdağ katoku ümumdünya şöhrəti qazanıb. Ölkənin ən güclü konkisürənləri onun mavi yollarında çıxış edirlər. Qazax idmançıları beynəlxalq spartakiada və olimpiya oyunlarında fəal iştirak edirlər.



Qırğız xalqının mədəniyyətin inkişafında nail olduğu müvəffəqiyyətlərin parlaq göstəricisi xalq təhsilinin vəziyyətidir. Yeni təhsil üsullu ilk məktəblər 1901-1902-ci illərdə Bişkek, Tokmak və Prjevalskidə yaradıldı. Bu məktəblərdə dərslər tatar dilində aparılır, müəllimlər isə tatar ziyalılarının nümayəndələri idi. Ən böyük belə məktəb «Tərəqqi» adlanır və Tokmak şəhərində yerləşirdi. Burada müxtəlif xalqların, o cümlədən qırğız, tatar, özbək, dunqan və qaşqarların uşaqları təhsil alırdılar. Qırğızıstanda bu dövrdə nə bir orta, nə ali təhsil müəssisəsi var idi, savadlı adamlar isə çox nadir idi.

Sovetləşəndən sonra Qırğızıstanda ümumtəhsil və texniki-peşə məktəbləri, ali təhsil müəssisələri açıldı. 60-cı illərin sonunda respublikada artıq 36 orta ixtisas və 9 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi.

1954-cü ildə Qırğızıstan SSR Elmlər Akademiyasının açılması ölkənin mədəni həyatında görkəmli hadisə idi. Respublika alimləri bərk süxurların sənaye burğusunun səmərəli metodlarının hazırlanması, xalis metalların alınması üsulları, kənd təsərrüfatı bitkiləri və heyvandarlığın məhsuldarlığının yüksəldilməsi üçün bioloji və biokimyəvi əsasların işlənilməsi ilə məşğul olurdular. Qırğız alimləri beynəlxalq elmi konqres və konfranslarda iştirak edirlər. Tarixçi – akademiklər K.Karakeyev və B.Camgerçinovun, cərrah İ.Axunbayevin, filoloq B.Yunisəliyevin və b. adları geniş məlumdur.

Qırğız xalqının mədəniyyətində əsas yeri şifahi poetik yaradıcılıq tutur. İnanılmaz dərəcədə zəngin məzmununa və formasına görə o, qırğız xalqının çoxəsrlik tarixini əks etdirir. Şifahi poetik yaradıcılığın qoruyucuları və davamçıları akınlar (nəğməkarlar), manasçı («Manas» eposunun rəvayətçiləri), jomokçu (nağıl danışanlar), ırçı (xalq mahnılarının ifaçıları) və b. idilər. Məhz onlar öz nəğmələri, atalar sözləri, eposları, nağılları ilə qırğız xalqının poeziya və müdriklıyini bizim günlərə çatdırmışlar.

Qırğız folklor əsərlərindən ən çox seviləni «Manas» olaraq qalmaqdadır. Bu epos bir çox yüzilliklər xalq üçün həm bədii

ədəbiyyatı, həm teatrı və tarix kitabını əvəz edib. Ancaq dünya poeziyasının bu incisi belə, yazıya alınmamışdı. Yalnız XIX əsrdə «Manas»ı yazıya köçürmək mümkün oldu.

Sovet hakimiyyəti qurulandan sonra Qırğızıstanda formaca milli, məzmunca sosialist bədii ədəbiyyatı yarandı. Qırğız şair, nasir və dramaturqların sayı artdı. Onların arasında A.Tokombayev, K.Malikov, T.Ümətəliyev, C.Bokonbayev, M.Elebayev, K.Cantoşev, C.Turusbəyov, A.Osmanov və başqalarının adları daha çox məşhurdur.

Dövlət mükafatı laureatı, istedadlı yazıçı Çingiz Aytmatovun «Dağların və çöllərin povestləri», «Əlvida, Gülsarı» və «Ölüm cəzası» əsərləri bir çox xalqların dillərinə tərcümə edilib. Onun «İlk müəllim», «Əlvida, Gülsarı», «Cəmilə» və «Ölüm cəzası» əsərləri uğurla ekranlaşdırılıb.

Xalq nəğməkar – akınları Toktoqul Satılqanov, Bərpa Alımqulov, Alımqul Usenbayev və digərlərinin yaradıcılığı milli qırğız ədəbiyyatının inkişafına böyük təsir göstərdi. «Manas» eposunun görkəmli rəvayətçisi, eposun milyona qədər misrasını əzbər bilən Sayakbay Karalayevi dövrümüzün Homeri adlandırırlar. Eposun çoxsaylı variantlarından biri onun dilindən alınıb ilk dəfə tam surətdə yazıya köçürüldü.

İlk qiraətxana – kitabxana 1902-ci ildə Prjevalsk əhalisinin topladığı vəsait hesabına açıldı. Kitabxanaya incəsənətsevərlərin dram dərnəyi də maddi yardım etdi. 1908-ci ildə Prjevalsk şəhərinin müsəlmanlarının qiraətxana – kitabxanası açıldı. 1912-ci ildə Tokmakda, 1916-cı ildə Bişkekdə kitabxanalar açıldı. «Şurayi-islam» müsəlman cəmiyyəti də özünün ümumi kitabxanasına malik idi. Sovetləşəndən sonra respublikada kitabxana və muzeylərin şəbəkəsi genişləndi. Sovet hakimiyyəti illərində təsviri incəsənət də meydana gəldi. Əvvəllər incəsənətin bu sahəsi xalçalar üzərində naxışlar, naxışlı həsir və keçələrin hazırlanması, dərisıxma, ağacoyma və bədii metal emalı ilə təmsil olunurdu.

20-ci illərdə Qırğızıstanda realist rəssamlıq, qrafika və heykəltəraşlıq meydana gəldi və sürətlə inkişaf etməyə başladı.



1933-cü ildə Frunzedə (Bişkek) Qırğızıstan sovet rəssamları ittifaqı yaradıldı. Bundan az sonra gənc rəssamların işlərinin birinci respublika sərgisi təşkil olundu. 1935-ci ildə Dövlət şəkil qalereyası açıldı, sonralar isə Respublika təsviri incəsənət muzeyinə çevrildi. Elə bu zaman rəssamlıq studiyası işə başladı. Onun əsasında 1939-cu ildə ölkədə ilk rəssamlıq məktəbi yaradıldı. Burada milli kadrlar hazırlanmağa başlandı.

Q.Aytiyev 60-cı illərdə Qırğızıstanın təbiətini poetik təsvir edən parlaq peyzaj tablolarını yaratdı. Rəssam «Çobanlar» və «Qırğız dənizi-İssık-Kul» rəsmlərinə görə Qırğızıstan SSR-in Toktoqul adına Dövlət mükafatına layiq görüldü.

Bu dövrdə ölkədə memarlıq da sürətlə inkişaf etməyə başladı. Respublikada çoxsaylı yaşayış massivləri, müxtəlif idman tikililəri, təhsil müəssisələrinin monumental binaları və s. ucaldıldı. 1938-ci ildə Qırğızıstanda Sovet arxitektorları cəmiyyəti yaradıldı. Onun vəzifəsi milli irsin və eləcə də dünyəvi şəhər tikintisinin zəngin təcrübəsi əsasında milli memarlığı inkişaf etdirməkdən ibarət idi.

Zəngin xalq yaradıcılığı, iqtisadi və mədəni inkişaf qırğız milli teatrının meydana gəlməsi və yüksəlişinə səbəb oldu. 1926-cı ilin noyabr ayında Frunzedə Qırğız teatr studiyası yaradıldı, 1930-cu ildə isə Qırğız dövlət teatrına çevrildi. Teatrın səhnəsində qoyulan ilk milli tamaşalar M.Tokombayevin «Kakey», K.Cantoşevin «Karaçaç» və «Alım və Mariya» qadın azadlığı uğrunda mübarizəyə həsr olunublar.

1929-cu ildə Frunzedə Gənc tamaşaçılar teatrı və Oşda Musiqili dram teatrı, 30-cu illərin ortalarında isə Dövlət rus dram teatrı və Qırğızıstan dövlət filarmoniyası açıldı.

Akademik opera və balet teatrının səhnəsində klassik repertuarla yanaşı qırğız incəsənət xadimlərinin yaratdıqları milli opera və baletlər – «Manas», «Ayçurek», «Toktoqul», «Çolpon», «Anar», «Kuyruçuk» və s. oynanılır. Adları ölkə hüdudlarından kənarda geniş şöhrət tapan görkəmli səhnə ustaları yetişdi.

Qırğızıstan dövlət filarmoniyasının yaradılması qırğız musiqi yaradıcılığının yüksəlişinə səbəb oldu. Qırğız xalq musiqisinin kökləri ən qədim dövrə gedib çıxır. O, ritmik vasitələrin zəngin ehtiyatı, təmkinliyi, lirik sadəliyi və bədii obrazların konkretliyi ilə fərqlənir. Vokal və qırğız instrumental musiqisi üçün improvizasiya da səciyyəvidir.

Xalq çalğı alətləri arasında ən geniş yayılanı və məşhuru ud növündən olan simli alət komuz idi. Ondan sonra temir-komuz, yayla çalınan kıyak, qaboy tipli alətlərə yaxın olan surnay və fleytanı xatırladan çoor gəlir.

1936-cı ildə geniş miqyasda tanınan Karamoldo Orozov adına xalq çalğı alətləri orkestri yaradıldı. Qırğızıstan filarmoniyasının tərkibində komuzçular, temir-komuzçular ansamblları, xalq rəqs ansamblı, kişi vokal kvarteti uğurla çıxış edirdilər. Filarmoniya ilk qırğız dirijorlarını yetişdirdi. 70-ci illərdə respublikanın tanınmış bəstəkarları arasında SSRİ xalq artisti A.Maldıbayev, əməkdar incəsənət xadimləri M.Abdrayev, N.Davlesov, K.Moldobasanov və b. var idi.

Milli kinematoqrafiya da Qırğızıstanda müvəffəqiyyətlə inkişaf edir. 1942-ci ildə yaradılan «Qırğızfilm» kinostudiyası, əsasən sənədli xronika filmləri buraxırdı. 1958-ci ildən o, tam metrajlı bədii filmlər çəkməyə başladı. «Səltənət», «Çolpon», «Joro» və digər kinofilmlər dünyanın bir çox ölkələrinin ekranlarında nümayiş etdirilmişdi.

XX əsrin əvvəllərində türkmən xalqı hələ də orta əsr savadsızlığı vəziyyətində qalırdı. 1914-1915-ci illərdə bütün əyalətdə cəmi 58 məktəb var idi. Onlarda, başlıca olaraq rus məmurlarının, yerli ruhani və feodal dairələrinin oğulları təhsil alırdı.

Sovetləşmədən sonra Türkmənistanda savadsızlığın ləğvi prosesi başladı. Ümumtəhsil məktəblərinin, texnikum və digər orta ixtisas təhsili müəssisələrinin şəbəkəsi genişləndi. Ali təhsil müəssisələri – Dövlət universiteti, Kənd təsərrüfatı, Tibb, Pedaqoji və Politexnik institutları açıldı.



1951-ci ildə Türkmənistan Milli Elmlər Akademiyası yaradıldı. O, 20 elmi-tədqiqat institutu, laboratoriya, təcrübə stansiyası, dayaq məntəqəsi və muzeyləri birləşdirirdi. Türkmənistan alimləri, hər şeydən əvvəl, Qaraqumun mənimsənilməsi və təbiətinin dəyişdirilməsi problemləri; kimyəvi xammal kimi istifadənin mümkünlüyünü müəyyən etmək üçün respublika neft və qaz yataqlarının xüsusiyyətinin tədqiqi, neft və qaz rayonlarının perspektivinin proqnozu; yeni pambıq növlərinin yetişdirilməsi; günəş enerjisindən istifadə və s. problemlərlə məşğul olurlar.

Türkmən ədəbiyyatı özünün ən çox çiçəklənmə dövrünü XVIII-XIX əsrlərdə yaşadı. O zaman türkmən tayfalarının feodallara qarşı mübarizədə birlik ideyası dini mövzunu sıxışdıraraq mərkəzi yeri tutmuşdu. Bu ideya xalq yaradıcılığı və o dövrün türkmən şairlərinin əsərlərində bədii obrazlarda təcəssüm etdirilirdi. O parlaq pleyadanın başında türkmən bədii ədəbiyyatının yaradıcısı şair-mütəfəkkir Maxtumqulu (1733-1782) dururdu. Onun görkəmli ardıcılları Səidi və Zəlili idilər.

Elə o zaman satirik şeirləri ilə «qəzəblə gülərək» varlıları qamçılayan Kəminə və onun gənc dostu, populyar lirik poemanın – «Zöhrə və Tahir» dastanının müəllifi Mollanepes öz lirik şeirlərini oxuyurdu. Ancaq bu şairlərin əsərləri savadsız xalqa yalnız baxşi-rəvayətçilərin, nəğməkarların və musiqiçilərin şifahi söyləmələri ilə çatırdı. Yalnız sovetləşmədən sonra türkmən ədəbiyyatının klassik irsinin öyrənilməsinə və toplanmasına başlanıldı.

İlk realist türkmən romanı «Həlledici addım»ın müəllifi B.Kerbabayevin əsərləri, folklor və klassikanın incə bilicisi A.Kauşutovun roman və pyesləri, N.Sarıxanovun, A.Durdıyevin, B.Seytakovun, X.İsmayılovun povest və hekayələri, A. və Ş.Kekilov qardaşları, K.Seytliyev, D.Xaldurdı, Ç.Aşirov, M.Seyidov və bir çox digər yazıçı və şairlərin poema və şeirləri Türkmənistandan kənarda da tanınır.

Respublikanın öz rəssamlığı, qrafikası, heykəltəraşlığı var, burada rəssamlıq məktəbi və bədii incəsənət muzeyi fəaliyyət gös-

tərir. Xalq rəssamları B.Nurəlinin, A.Hacıyevin, Y.Annanurovun, A.Amangəldiyevin, X.Allaberdıyevin ən yaxşı işləri rəssamlıq muzeylərindən minlərlə tamaşaçıya məlumdur.

Türkmən xoreoqrafiyası və dram sənəti geniş miqyasda tanınır. 70-ci illərdə Türkmənistanın görkəmli artistləri Aman Gülməmmədov, Altı Karliyev, Sona və Suray Muradovaların adları populyar idi. SSRİ xalq artisti, bəstəkar V.Muxadovun «Türkmən süitası» və «Mənim Vətənim» xor və simfonik musiqisi Dövlət mükafatına layiq görülüblər. Respublika studiyası «Türkmənfilm»in çəkdiyi «Sovet Türkmənistanı» sənədli filmi də bu mükafatı almışdı.

Respublikada idman da inkişaf edir. Türkmən idmançıları beynəlxalq spartakiada və olimpiya oyunlarında fəal iştirak edirlər.

XX əsrdə Özbəkistanın mədəni inkişafında da köklü dəyişikliklər baş verdi. 1903-cü ildə Daşkənddə Türküstan pedaqoji dərnəyi ictimai əsaslarla ilk qız rus-yerli məktəbini açdı. Burada 19 özbək qızı təhsil alırdı. Ancaq iki il sonra hökumətin dəstəyi olmadığından bu məktəb bağlandı. Cədidçilər Özbəkistanda da yeni təhsil üsulu ilə məktəblər açırdılar. Onlar Nijni Novqorodda keçirilən Ümumrusiya müsəlmanları qurultaylarında hazırlanmış yeni təhsil proqramı əsasında fəaliyyət göstərirdilər. Bu məktəblər milli burjuaziya tərəfindən maliyyələşdirilirdi.

1902-ci ildə Daşkənddə kənd təsərrüfatı məktəbi, 1904-cü ildə isə Səmərqənddə bağçılıq və üzümçülük məktəbi açıldı. 1913-cü ildən ticarət məktəbi fəaliyyətə başladı. 1908-ci ildə qızlar üçün xüsusi peşə məktəbi təsis edildi.

Məhz bu dövrdə Özbəkistanda dövri mətbuatın əsası qoyuldu. Qəzetlər özbək və rus dillərində dərc olunurdu. 1898-ci ildən Daşkənddə «Rus Türküstanı», 1904-cü ildə isə «Səmərqənd» qəzeti işıq üzü gördü. Ancaq 1905-ci il birinci Rusiya inqilabının başlanması ilə bu qəzetlər çar senzurasının nəzarəti altına düşdülər. Bundan sonra «Rus Türküstanı» – «Türküstan», «Səmərqənd» isə – «Zərəfşan», «Yeni Səmərqənd» və «Rus Səmərqəndi» adları altında çıxmağa başladılar.



«Rus Türküstanı» və «Səmərqənd» qəzetlərinin nəşrində iştirak edən bolşeviklər 1906-cı ilin iyul ayında həbs olunandan sonra onlar bağlandı.

1905-1907-ci illərdə cədidçilər özbək dilində 12 qəzet, 2 jurnal, onlarla kitab və broşyura nəşr etdirdilər. Onlar öz xalqının azadlığı və tərəqqisi uğrunda mübarizə aparırdılar. 1906-cı ildə Daşkənddə özbək dilində "Tərəqqi", "Günəş", 1907-ci ildə – "Şöhrət", 1908-ci ildə – "Asiya" və "Tacir", 1912-ci ildə Buxarada «Turan», 1913-cü ildə Səmərqənddə – «Səmərqənd» qəzetləri və «Ayna» jurnalı, 1914-cü ildə Daşkənddə – «Türküstanın səsi» və Kokandda – «Fərqanənin səsi», 1915-ci ildə Daşkənddə – «İslahat» jurnalı çıxırdı. Sonuncu jurnal ruhanilərin carçısına çevrilib, iki həftədə bir dəfə dərc olunurdu. Bu qəzet və jurnalların redaktorları, əsasən milli ideologiyanı yayan milli burjuaziyanın nümayəndələri idi. Ancaq bir çox qəzet bir ildən artıq fəaliyyət göstərə bilmədi və yalnız «Türküstan diyarının qəzeti» və «İslahat» jurnalı öz fəaliyyətini davam etdirə bildilər.

Artıq XIX-XX əsrlərin qovuşuğunda Daşkənddə ümumi kitabxana fəaliyyət göstərirdi. Bundan başqa hər məktəbin öz kitabxanası var idi. Ancaq onlar yalnız şəhər əhalisinin tələbatını ödəyirdilər.

Bu dövrdə cəmiyyətin təbəqələri arasında kəskin mübarizə fonunda, yeni özbək ədəbiyyatı yaradıldı. Yeni şərait, sinfi mübarizənin közərməsi ədəbi istiqamətlərin xarakterini müəyyənləşdirdi. Ədəbiyyat sahəsində cədidçilər daha geniş fəaliyyətləri ilə fərqlənirdilər. 1906-cı ildə bu hərəkatın liderlərindən biri olan Behbudi yazırdı ki, RSDFP-nin proqramı müsəlmanların milli maraqlarına uyğun gəlmir. O, bütün Türküstan əhalisini müsəlman mədəniyyətinin geriləməsinə yol verməməyə çağırırdı. Cədidçilər ərəb və türk mədəniyyəti əsasında dünyəvi biliklərin öyrənilməsinin zəruriliyini təbliğ edirdilər. Əgər Mukimi öz satirası ilə varlıları və ruhaniləri tənqid edirdisə, cədid-

çilər əksinə, türkləri birliyə çağırırdılar. Beləliklə, ədəbiyyatda hökumətin mənafelərinə cavab verən və «əksinqilabi» istiqamətlər mövcud idi. Buna görə də bu dövrdə artıq ədəbi cərəyanların xarakteri müəyyənləşdi və «mürtəce» və «mütərəqqi» cərəyanlar arasında mübarizə gücləndi. Özbək burjuaziyası öz gənclərinin nümayəndələrini hər il təhsil almaq üçün Osmanlı imperatorluğuna, Misirə və digər ölkələrə göndərirdi. Cədidçilər Yasəvi, Bəkirqani, Sufi Allayar kimi yazıçıları ideallaşdıraraq, Nəvai, Mukimi və Furkatın yaradıcılığından imtina edirdilər. Cədidçi Münəvvər Kari 1906-cı ildə yazırdı ki, şagirdlər Füzuli, Nəvai, Bədili və Hafizin əsərlərinin yerinə hesabı və digər kitabları öyrənməlidirlər.

Özbək klassik ədəbiyyatının ənənələrini davam etdirən demokratik yazıçılar öz yaradıcılıqlarında realizm metodundan da istifadə edirdilər. Əsərləri mütəmadi olaraq nəşr olunan Zəvki, Əvəz, Ayni, Həmzə və b. ən populyar demokratik ədəbiyyatçılar idi. Onlar xalqın mənafelərinin müdafiəsi prinsiplərini əsas götürürdülər. Əvəz Otar oğlu özünün «Xalq» şeirində xalqı istismar edənləri tənqid atəşinə tutaraq, azad olmaq yollarını xalqın maariflənrdirilməsində axtarmağa çağırırdı. «Məktəb» və «Dil» şeirlərində o, cəmiyyətin inkişafında elm və təhsilin əvəzsiz rolunu göstərirdi.

Maarifçi-demokrat Həmzə Həkimzadə yoxsul və yetimlər üçün olan məktəbini «darülayt» adlandırırdı. 1914-1916-cı illərdə o, 20-dən çox məqalə və broşyura yazmış və «Yeni xoşbəxtlik» romanında (1915) cədidçiləri tənqid etmişdi.

Şifahi xalq ədəbiyyatı o dövrün xarakterik cəhətlərini əks etdirirdi. XX əsrin əvvəllərində xalq yaradıcılığının nümunələri xalq mahnısı «Min lənət», xalq rəvayətçisi və şairi Pulkun «Mərdikor» dastanı, xalq baxşisi Fazil Yoldaş oğlunun «Çəyirtkə», «Aclıq» və s. mahnılarıdır.

Sovetləşmədən sonra, Özbəkistanda da digər sovet respublikalarında olduğu kimi «sosializm realizmi» bayrağı altında yeni ədəbiyyat formalaşdı. Sovet ədəbiyyatının başlıca məqsədi kommunist ideologiyasının təbliği idi. Özbək sovet ədəbiyyatının inkişafında Sədrəddin Ayninin yaradıcılığı mühüm rol oynadı. Onun əsərləri ölkə hüdudlarından kənarda da geniş populyarlıq qazanmışdı.

Elmin inkişafında və alimlərin hazırlanmasında Özbəkistanın ali təhsil müəssisələrinin mühüm rolu oldu. 20-30-cu illərdə Daşkənd, Səmərqənd, Buxara, Fərqanə və digər şəhərlərdə ali məktəblər açıldı. Ən böyük hadisə müharibədən sonra Özbəkistan Elmlər Akademiyasının açılması oldu. Respublikada yüzlərlə elmi-tədqiqat institutu, konstruktor bürosu və s. fəaliyyət göstərir.

XX əsrin əvvəllərində özbək xalqının incəsənətinin inkişafında da dəyişikliklər baş verdi. Özbək xalq və həvəskar teatrları fəaliyyət göstərirdi. Yumoristik hekayələr və komediya ifaçısı Yusifcan Şəkərcanov öz komizmi, rəqsləri və qavalda ifası ilə özbək komediya (kızıkçı) teatrının digər aktyorlarından fərqlənirdi. Rafik Qayıbov, İrka Kari Kərimov, Arifcan Taşmetov da görkəmli aktyorlar idi. Özbək xalq komediya teatrı dövlət milli teatrının inkişafında mühüm rol oynadı.

Birgə rus-özbək sirk qrupları da fəaliyyət göstərirdilər. 1902-ci ildə özbək sirk ustaları Şərabat bayın rəhbərliyi altında öz qruplarını yaradıb sirk açdılar. Yusifcan Şəkərcanov, Rafik Qayıbov və Kərim Zərifov da bu kollektivə daxil oldular. 1915-ci ildə Həmzə Həkimzadə Niyazi Kokandda həvəskar teatr yaratdı. Böyük şəhərlərdə attraksionlar, sirk nömrələrinin nümayişi və cıdır keçirilirdi.

Özbəkistanda sovet hakimiyyəti qurulandan sonra teatr şəbəkəsi genişləndi, dövlət akademik teatrları açıldı, respublikadan kənarda belə tanınan xalq artistləri nəsli yetişdi.

Qədim tarixə malik olan özbək musiqisi xalq yaradıcılığı ənənələri ilə bağlı peşəkar musiqi ilə təmsil olunurdu.Özbək musiqisi əhalinin etnik tərkibinə görə dörd üslüba bölünür: Xarəzm, Buxara – Səmərqənd, Fərqanə – Daşkənd və Surxandərya – Qaşqadərya. «Alpamış», «Şahsənəm və Qərib», «Koroğlu» epik dastanları xalq musiqi yaradıcılığında xüsusi

yer tuturdular. Xalq mahnıları qısa melodiyalardan tərtib olunurdu. Satirik kupletlər dəbdən düşdü: sosial protest motivləri olan xalq mahnıları meydana gəldi. Özbək xalq musiqisinin istedadlı ifaçısı, Daşkənd müğənnisi Molla Tuyçi Daşməhəmmədov gözəl, güclü səsə malik idi. 1905-ci ildə bir çox özbək mahnıları qrammafon valına yazılmışdı. Buxara müğənnisi Xalim İbadov, Xarəzmli M.Xudayarberqanov, Daşkəndli Şorəhim Şoömərov, musiqi alətlərinin ifaçıları Əbdüsoat Vahabov, Alim Kamilov, Əbdüqədir İsmayılov və Əhmədcan Umurzakov da populyar idilər.

Özbək milli opera sənətinin yaradılmasında dahi bəstəkar Üzeyir bəy Hacıbəyov tərəfindən əsası qoyulan Azərbaycan operası mühüm rol oynadı. Onun rəhbərliyi altında Özbəkistanda «Arşın mal alan»ın qastrol tamaşaları təşkil edilmişdi.

Sovetləşmədən sonra Daşkənddə özbək musiqisinin inkişafında böyük rol oynayan Dövlət filarmoniyası və konservatoriyası açıldı. Vokal və klassik musiqinin istedadlı ifaçıları, musiqiçilər yetişdi.

Orta əsrlərdən başlayaraq Özbəkistan özünün gözəl memarlıq abidələri ilə məşhur idi. Səmərqənd tarixi abidələrin xüsusi ecazkarlığı ilə bütöv bir muzey-şəhərdir. Məktəb və mədrəsələrin beşiyi sayılan Buxara, orta və ali təhsilli ruhanilərin hazırlanmsı üzrə şöhrət qazanmışdı.

XX əsrin əvvəllərində Riştan, Səmərqənd və Vardənizdə keramik qablar istehsal olunurdu. Ancaq fabrik-zavod məmulatları istehsalının inkişafı ilə kustar istehsal məhdudlaşdırıldı. Parça və geyimlərin milli naxışları isə indiyə qədər populyar olaraq qalmaqdadır.

Xalq ustaları misdən yüksək bədii üslubda səhəng, məcməyi düzəldirdilər. Kokandlı usta mis məcməyi üzərində Xudayar xanın sarayının arxitektur mənzərəsini təsvir edib. Özbək dekorativ naxış ustaları general-qubernatorun «Ağ evini», knyaz Romanovun sarayı və məmur Polovtsovun evini bəzəmişlər. 1910-cu ildə usta Qurban Niyaz Xivədə hündür minarələri olan İslam Xoca mədrəsəsini tikdi. Buxara yaxınlığında bir neçə memarlıq abidəsindən ibarət olan Sitarəyi Moxi-Xossə sarayına ənənəvi üsluba yeni elementlərin əlavə edilməsi səciyyəvidir. Öz işini yaxşı bilən məşhur usta Şirin Muradovun rəhbərlik etdiyi özbək ustaları qrupunun fəal işlədiyi bu ecazkar sarayın tikintisi 1917-ci ildə başa çatdı. O dövrün məşhur memarları və ustaları Buxarada Ş.Muradov, Əbdülsalam, Xoca Qurban, Məcid, Səmərqənddə – Əbdülqədir Bakiyev, Fərqanədə – Musayev və b. idi.

Sovetləşmə dövründə Özbəkistanın iri şəhərlərində rəssamlıq, memarlıq və inşaat, təsviri və tətbiqi incəsənət və s. məktəbləri açıldı. Bu orta və ali təhsil müəssisələrində bir çox istedadlı rəssam və memar yetişdi. Onların əsərləri yerli və beynəlxalq sərgilərdə nümayiş etdirilirdi.

XX əsrin başlanğıcında Volqaboyu xalqlarında xalq təhsilinin vəziyyəti qənaətbəxş deyildi. Mütərəqqi ziyalılar xalq təhsilinin kökündən dəyişdirilməsini, xüsusilə ana dilində ibtidai təhsil, qız məktəblərinin açılması, bütün milli məktəblərin vahid tədris proqramı ilə təmin edilməsi, dərsliklərin yazılması və müəllim hazırlayan pedaqoji texnikumların açılmasını tələb edirdilər. Tatar əhalisi əvvəlcə məktəb və mədrəsələri öz hesabına açırdı. Ancaq demokratik qüvvələr milli məktəblərin Xalq Təhsil Nazirliyinə tabe etdirilməsinə və onların dövlət hesabına saxlanmasına nail oldular.

Kazan Dövlət Universiteti və Baytarlıq İnstitutu Tatarıstanda elmin inkişafının bazasını təşkil etdilər.

Nəşriyyat işinin inkişafı Kazan quberniyasının mühüm xüsusiyyətlərindən idi. Məhz onun sayəsində XIX əsrin ikinci yarısı - XX əsrin əvvəllərində Kazan naşirləri bütün Rusiya imperiyasında tatar dilində islama aid kitablar və dünyəvi ədəbiyyatın satışı üzərində inhisarı praktiki olaraq öz əllərinə almışdılar. 1905-1907-ci illərdə tatar dilində 19 qəzet və 12 jurnal, «Fikir», «Azad xalq», «Azad» qəzetləri və «Ox» jurnalı və s. çıxırdı.

XX əsrin əvvəllərində türk xalqlarının ədəbiyyatında maarifçilik ideyaları üstünlük təşkil edirdi. Tatar poeziyasının klas-

siki Abdulla Tukay (1886-1913) realist tatar ədəbiyyatının, o cümlədən satiranın inkişafında mühüm rol oynayırdı. O, özünün «Xalqı üçün», «Azadlıq haqqında», «Dövlət duması» və s. şeirlərində tatar xalqının həyatını əks etdirərək onu azadlıq uğrunda mübarizəyə çağırırdı. A.Tukayın yaradıcılığında ədəbi dilin təmizliyi və qadın azadlığı məsələləri əsas yeri tuturdu. O, Azərbaycan ədəbiyyatına böyük maraq göstərir və «Molla Nəsrəddin» jurnalını tatar əhalisi arasında təbliğ edirdi.

Tatar şairi Məcid (1880-1934) öz şeirlərində Vətənə məhəbbəti, xalqın arzu və istəklərini tərənnüm edirdi. Şair, publisist və dramaturq Əliəsgər Kamal (1879-1933) öz yaradıcılığında həmçinin tatar zəhmətkeşlərinin ağır həyatını əks etdirərək, onları cəmiyyətin köhnə sistemini dağıtmağa çağırırdı. Onun ən yaxşı əsərləri «İlk tamaşa», «Bədbəxt gənc», «İflas», «Bizim şəhərin sirri»dir.

Görkəmli tatar yazıçısı Alimcan İbrahimov (1887-1938) əvvəlcə özünü romantik yazıçı kimi göstərsə də, sonralar onun yaradıcılığı realizmə meyl etdi. O, öz əsərlərində qadın hüquqsuzluğu, mühafizəkarlıq və məişət geriliyini tənqid edir, gənc qəhrəmanlarını ideallaşdırırdı. A.İbrahimov «Tatar qadınının taleyi», «Gənc ürəklər», «Dənizdə», «Təbiətin övladları» və s. əsərlərin müəllifidir.

Tatar xalqının ilk milli teatr qrupları XX əsrin əvvəllərində meydana gəldi. 22 dekabr 1906-cı ildə Kazanda ilk dəfə tatar dilində tamaşa göstərildi. «Zavallı uşaq» və «Məhəbbətdən bəla» pyesləri səhnələşdirildi. 1908-ci ilin payızında Kazanda ilk tatar «Səyyar» teatr qrupu yaradıldı. Onun tərkibinə İ.Kudaşov, Q.Kareyev, S.İzətullina, N.Sakayev və b. kimi istedadlı artistlər daxil idi. Görkəmli dramaturq Ə.Kamal teatrın yaradılmasında fəal iştirak etmişdi.

Q.Seyfullin tatar xalq mahnılarının vala yazılması üçün cihaz kəşf etdi. Həvəskar bəstəkar Z.Yarullin Kazanın «Şərq klubunda» ilk dəfə tatar simli orkestrini yaratdı. 1914-cü ildə o, tatarlar arasında populyar olan «Tukay marşı»nı yazdı. F.Tupşev qarmonda tatar xalq mahnılarının istedadlı ifaçısı



idi. Bu dövrdə F.Lətifov, F.Ömərova, K.Mutgi və b. kimi peşəkar müğənnilər yetişdi.

Sovetləşmədən sonra Tatarıstanın mədəni inkişafı sürətləndi, ümumtəhsil, orta texniki və texniki peşə məktəbləri açıldı. Respublikanın ali təhsil müəssisələrinin şəbəkəsi genişləndi. Şair-qəhrəman Musa Cəlil, bəstəkarlar Fərid Yarullin, Sofiya Ubaydullina və bir çox başqaları tatar mədəniyyətinə şöhrət gətirdilər.

Tatarıstanda 7 yaradıcılıq ittifaqı fəaliyyət göstərirdi: Arxitektorlar, jurnalistlər, bəstəkarlar, konsert xadimləri, yazıçılar, teatr xadimləri və rəssamlar ittifaqları. Bu gün respublikada 14 dövlət teatrı, o cümlədən 7 tatar, A.Tukay adına Tatarıstan dövlət filarmoniyası, Dövlət mahnı və rəqs ansamblı, Dövlət simfonik orkestri, Dövlət xalq çalğı alətləri orkestri, S.Saydaşov adına Dövlət böyük konsert zalı, Kazan dövlət sirki fəaliyyət göstərirlər. 2008-ci ildə teatr-tamaşa müəssisələrinə daha bir yaradıcı kollektiv – Dövlət folklor ansamblı «Bermyançek» əlavə olundu. 2009-cu ildə 75 illik yubileyini qeyd edən, respublikanın qocaman yaradıcı kollektivlərindən biri olan «Ekiyat» kukla teatrının yeni binası tikildi

Başqırdıstan Respublikası da zəngin tarixi-mədəni irsə malikdir. XX əsrin əvvəllərində burada müxtəlif tipli ibtidai, orta ixtisas və dini məktəblər fəaliyyət göstərirdilər. Rus-başqırd məktəblərinin sayı artdı. Xalq təhsili uğrunda iki istiqamətdə kəskin mübarizə gedirdi: 1) milli məktəblərin yaradılması və çarizmin ruslaşdırma siyasətinə qarşı mübarizə; 2) köhnə tədris üsuluna qarşı və dünyəvi məktəblər şəbəkəsinin genişləndirilməsi uğrunda mübarizə. Bu mübarizədə cədidçilər xüsusilə fərqlənirdilər. Çarizmin nəşr etdiyi 31 mart 1906-cı il və 5 noyabr 1907-ci il tarixli «Əsasnamə»ləri qeyri-rus məktəblərində yürüdülən ruslaşdırma siyasətini bir qədər yumşaltdı. Ancaq 1912-ci ilin iyun ayında xalq məktəbləri direktorlarının və Orenburq təhsil dairəsinin inspektorlarının qurultayında onların qarşısına İlminskinin ruslaşdırma proqramının reallaşdırılması vəzifəsi qoyuldu.

IV Dövlət dumasının iclasında Orenburq quberniyasından olan deputat Q.X.Yenikeyev çarizmin ruslaşdırma siyasətini, yerli əhalinin hüquqlarının məhdudlaşdırılmasını, onların torpaqsızlaşdırılması və ana dili və ədəbiyyatının məhv edilməsini tənqid etmişdi.

1913-cü ildə Ufa və Orenburq quberniyalarında 4 kişi və 16 qadın gimnaziyası, eləcə də progimnaziyalar fəaliyyət göstərirdi. Başqırdıstanda yeni tipli təhsil müəssisələri – 9 realnı, texniki-peşə və kənd təsərrüfatı məktəbləri açıldı. Dünyəvi məktəblərlə yanaşı dini məktəblər, seminariyalar fəaliyyət göstərirdilər. Ufada «Əliyyə» və «Osmaniyyə», Orenburqda – «Hüseyniyyə», Troitskdə isə – «Rəsuliyyə» ən məşhur mədrəsələr idi.

1911-ci ildə Orenburq və Ufa quberniyalarında müəllim kadrlarının hazırlanmasına tələbatı ödəməyən 3 müəllim seminariyası və 6 pedaqoji kurs fəaliyyət göstərirdi. Hərçənd ki, hələ 1909-cu ildə Ufada Müəllimlər institutu açılmışdı.

Başqırd xalqının mədəniyyətinin inkişafında ən zəif halqa klub, muzey və kitabxanaların açılmasında özünü büruzə verdi. 1914-cü ildə yalnız 16 başqırd və tatar kəndində kitabxana var idi. Ancaq onlar kifayət qədər kitab fonduna malik deyildilər. Ən zəngin kitab fonduna Ufa şəhər kitabxanası, Ufa quberniyasının Statistika komitəsi, kişi və qadın gimnaziyaları, «Əliyyə» və «Osmaniyyə» mədrəsələri malik idi.

Elmin inkişafında Başqırdıstanın tarixi, coğrafiyası və geologiyasını tədqiq edən rus alimləri böyük rol oynadılar. 1908-ci ildə Ufada V.İ.Filonenkonun rəhbərliyi altında Yerli diyarı öyrənən cəmiyyət yaradıldı. Cəmiyyətin üzvləri ziyalıların qabaqcıl nümayəndələri – müəllimlər, həkimlər, Zemstvo idarələrinin işçiləri idi. V.İ.Filonenko özü isə ən qədim dövrlərdən XIX əsrə qədər olan başqırd tarixinə həsr olunmuş «Başqırdlar» monoqrafiyasının müəllifidir.

Başqırdıstanda nəşriyyat işi öz başlanğıcını birinci Rusiya inqilabından götürüb. 1905-ci ildə RSDFP-nin Ufa komitəsi özünün intibahnamə və vərəqələr çap edən gizli mətbəəsini yaratdı. Bir il sonra, qeyri-leqal qəzet olan «Ufa fəhləsi» qəzeti nəşrə başladı. 1907-ci ildə mətbəədə RSDFP-nin Ural komitəsinin «Əsgər qəzeti» və «Kəndli qəzeti» nəşr edildi. Həmin il Orenburqda, tatar inqilabçısı Hüseyn Yamaşevin ideya rəhbəri olduğu sosial-demokrat təmayüllü «Ural» qəzeti çıxmağa başladı. «Ural» qəzeti tatar dilində nəşr olunur və xalq kütlələrini çar mütləqiyyətinə qarşı mübarizəyə çağırırdı. Yerli burjuaziyanın «Ufa quberniyasının xəbərləri», «Orenburq quberniyasının xəbərləri», «Ufa diyarı», «Orenburq diyarı», «Ufa xəbərləri», «Ufa həyatı», «Orenburq qəzeti», «Vaxt», «Həyat» və s. kimi mətbuat orqanları da fəaliyyət göstərirdilər. 1906-cı ildə Orenburqda, həmçinin «Qırğı», «Çəkic», 1914-1917-ci illərdə isə «Tilov» satirik jurnalları da nəşr olunurdu. Burada milli burjuaziyanın ictimai-siyasi və ədəbi orqanı olan «Şura» jurnalı geniş populyarlıq qazanmışdı. Müsəlman ruhaniliyinin də öz mətbuat orqanları var idi. 1907-1917-ci illərdə ruhanilərin Orenburqda «Din və həyat», Ufada isə «Ruhani məclislərinin xəbərləri» jurnalları nəşr olunurdu.

Başqırd yazıçı və şairləri Fateh Əmirxan (1886-1926), Şərif Kamal (1884-1942), Qafur Gülüəhmədov (1881-1918) və b. tənqidi realizm ədəbi cərəyanının nümayəndələridirlər. Onlar öz əsərlərini tatar dilində yazırdılar.

Başqırd xalqının böyük maarifçisi Zakir Hadi özünün «Bədbəxt qız», «Ofisiant» hekayələrində dünyəvi təhsil sisteminin üstünlüyünü göstərirdi. Yazıçı müsəlman qadınının bərabərhüquqluluğu ideyasını irəli sürürdü. Bu ideyaları şair Səfuan Yaxşıqulov (1871-1931) da öz yaradıcılığında davam etdirirdi.

Hələ XX əsrin əvvəllərində Başqırdıstanın həvəskar rəssamları «Ufa rəssamlar dərnəyi»ndə birləşmişdilər. 1917-ci ildə Ufada yerli rəssamların əsərlərinin sərgisi açıldı. Ufadakı Şəkil qalereyasının açılışı görkəmli rəssam M.V.Nesterovun adı ilə bağlıdır.

Başqırd xalqının görkəmli ictimai-siyasi xadimi, publisist, tarixçi-türkoloq Zəki Validi Toğan 1913-cü ildə yazılmış

«Ümumi türk tarixinə giriş» kitabının müəllifidir. O, 1946-cı ildə İstanbulda nəşr olunub. Z.V.Toğanın özü fəal cədidçi və türkçü idi və xalqının maariflənməsi uğrunda mübarizə aparırdı. O, 1911-1912-ci illərdə Rusiya imperiyasının digər türkçüləri, xüsusilə Ə.Hüseynzadə, Ə.Ağayev, M.Ə.Rəsulzadə, Y.Akçura və b. ilə birlikdə «Türk ocağı» dərnəyi və «Türk yurdu» jurnalının redaksiya heyətinə daxil oldu. Hal-hazırda Türkiyədə Z.V.Toğanın adına İnstitut fəaliyyət göstərir. Onun adı öz vətəni – Başqırdıstanda da əbədiləşdirilib.

XX əsrin əvvəllərində Çuvaşiyada savadlılıq aşağı səviyyədə idi. Burada 10 gimnaziya, realnı və peşə məktəbi fəaliyyət göstərirdi. Çuvaşiyada müəllim hazırlayan məktəblər hələ 1876-cı ildə yaradılmış və 1903-cü ildən isə pedaqoji kurslar fəaliyyətə başlamışdılar.

Görkəmli çuvaş alimi, SSRİ EA-nın müxbir üzvü N.İ.Aşmarinin «Çuvaş sintaksisinin tənqidi təcrübəsi» (1903), 17 cilddən ibarət «Çuvaş dilinin lüğəti» (1896-1933) və s. əsərləri onu bütün dünyada məşhur etdi. Tarix elmləri doktoru, professor N.V.Nikolski isə «Çuvaşların xalq təhsili» (1906), «Çuvaşların etnoqrafiyasının qısa xülasəsi», «Rus-çuvaş lüğəti» (1909), «XVI-XVIII əsrlərdə Orta Volqaboyu çuvaşları arasında xristianlıq. Tarixi oçerk» (1912) kitablarının müəllifidir.

Çuvaş ədəbiyyatının inkişafında T.S.Semyonov (Tauç), N.İ.Polorussov (Şelebi), M.F.Akimov, D.A.Demidov, Y.V.Turxan, K.V.İvanov, N.V.Vasilyev və b. mühüm rol oynamışlar. N.İ.Polorussov-Şelebi (1881-1945) özünün «İlan» şeirində azadlığın qalib gələcəyinə inamını göstərmişdir.

Tanınmış çuvaş yazıçısı Mixail Fyodoroviç Akimov (1884-1914) «Zarafat», «Təəccüblü» (1906), «Kənd həyatı» (1907) felyeton, oçerk və satirik novellaların müəllifidir. Bu əsərlərində o, kəndliləri birgə mübarizəyə çağırır. Konstantin Vasilyeviç İvanov (1890-1915) öz yaradıcılığında, əsasən xalqın sosial ədalətsizliyə qarşı mübarizəsini əks etdirirdi. Onun



«Narspi» poemasında iki gənc insan hüquqları uğrunda mübarizə aparır.

Çuvaşiyanın istedadlı musiqiçiləri və bəstəkarları V.İ.Kolpakov, R.N.İdobayev, S.M.Maksimov, P.V.Pazuxi və b. şifahi xalq poeziyasına musiqi bəstələyirdilər. 1908-1914-ci illərdə çuvaş xalq mahnılarının iki kiçik külliyatı dərc olundu.

Başqırdıstan və Çuvaşiya sovetləşəndən sonra, bu xalqların mədəniyyətinin inkişafında köklü dəyişikliklər baş verdi. Bütün şəhər və kəndlərdə ümumtəhsil, orta texniki və texniki-peşə məktəbləri açıldı. Ali təhsil müəssisələri, teatr və rəssamlıq məktəbləri fəaliyyətə başladılar. Dövlət teatrları, filarmoniyaları və s. yaradıldı.

Çar Rusiyası Sibirin türk xalqlarının ana dilində təhsil almasına mane olurdu. Mədəni-maarif müəssisələrinin yaradılması və yakut dilində məktəblərin sayının artması rus hökumətinə sərf etmirdi.

1917-ci ilə qədər realnı məktəblərin, qızlar gimnaziyalarının və ruhani seminariyalarının yalnız 10 faiz şagirdi yakutlar idi. 1906-cı ildə pedaqoji kurslar açıldı. Altay əhalisi arasında savadlılar 6 faiz təşkil edirdilər.

Hələ 1891-ci ildə Yakutiyada yaradılan muzey eksponatlarla zəngin idi. Bu muzeyə hər il minlərlə adam gəlirdi.

Sibirdə dövri mətbuatı siyasi əqidəsinə görə sürgünə göndərilənlər yaratdılar. Onlar mütəmadi olaraq Tomskda nəşr olunan «Sibir həyatı» və İrkutskda – «Şərq xülasəsi»nin səhifələrində Yakut xalqının həyatı haqqında publisist və elmi məqalələr dərc edirdilər. 1907-1909-cu illərdə çar məmurlarının fəaliyyətini tənqid edən «Yakut diyarı» ictimai-siyasi qəzeti nəşr olunurdu. 1916-cı ildə burjuaziyanın nümayəndəsi V.V.Nikiforov «Yakutiya məsələləri» qəzetini təsis etdi. Qəzetdə rus dilində xüsusi səhifə var idi. 1912-ci ildən isə yakut dilində «Yakutiyanın səsi» aylıq jurnalı çıxmağa başladı.

Sibirin türk xalqlarının həyatında ən mühüm hadisələrdən biri ana dilində bədii əsərlərin meydana gəlməsi idi. Şair P.N.Çernıx – Yakutski (1882-1933) 1909-cu ildə «Sakit simlə»

şeirlər kitabını nəşr etdirdi. Onun şeirlərində xalqı azadlıq uğrunda mübarizəyə çağıran döyüşkən ruh hiss olunurdu.

Görkəmli xadim V.V.Nikiforov 1908-ci ildə xalq əfsanələri əsasında yazdığı «Mançarlar» dramatik əsərini nəşr etdi. A.N.Sofronov (1886-1935) 1912-ci ildə dərc etdirdiyi «Doğma diyar» şeirində yakutların yoxsul vəziyyətini təsvir edirdi. O. «Zavallı Yakov», «Məhəbbət» və s. dram əsərlərində Yakutiyada sosial-iqtisadi və mədəni həyatın gerçəkliyini əks etdirir və yaxşı gələcəyə inamını bildirirdi.

Yakut xalqının dünyagörüşü mahnılarda, atalar sözlərində və tapmacalarda ifadə olunurdu.

XIX əsrin ikinci yarısında yakut xalqının xristianlaşdırılmasına baxmayaraq, onlar öz adət və ənənələrini qoruyub saxlaya bildilər. XX əsrin əvvəllərində yakut rəssamı Belleskiya kənd kilsələri üçün düzəltdiyi ikonalarla şöhrət qazanmışdı. İ.V.Popovun «Şaman» əsəri yüksək qiymətə malikdir.

Sibirdə sovet hakimiyyəti qurulandan sonra mədəni dəyişikliklər savadsızlığın ləğvi ilə başlandı. Belə ki, burada yaşayan xalqların əksəriyyəti öz yazısına malik deyildi. Buna görə də bu prosesdə ən mühüm mərhələ, əvvəllər «yazısı olmayan» xalqlar üçün yazının yaradılması oldu. 20-ci illər və 30-cu illərin başlanğıcı yakut, buryat, xakas, tuvalı və Şərqi Sibirin digər xalqlarının öz yazısının – qismən latın, lakin əsasən rus qrafikası əsasında yaradılması və inkişafı dövrü idi. Burada mədəni inqilabın sürətlə həyata keçirilməsi üçün mədəniyyət bazaları yaradılır, qırmızı cümələr təşkil olunur, savadsızlığın ləğvi komitəsi işçilərinin mədəni yürüşləri keçirilirdi. Tezliklə bu «fövqəladə» formalar mədəni-maarif işinin adi üsulları, məktəb, klub, kitabxana şəbəkəsinin müntəzəm fəaliyyəti ilə əvəz olundu.

Yakutskda Moskva Pedaqoji Elmlər Akademiyasının tərkibində işləyən Milli məktəblər institutunun filialı vardır. Hələ XIX əsrin ortalarında İrkutskda Rus Coğrafiya Cəmiyyətinin Rusiyada ən qocaman bölməsi meydana gəldi. XX əsrin əvvəllərində isə burada qəzet və kitablar nəşr edilirdi. 70-ci illərdə İrkutskda 7 ali təhsil müəssisəsi, o cümlədən İrkutsk Dövlət



Universiteti, Krasnoyarskda – 5 institut, 1968-ci ildən isə universitet fəaliyyət göstərirdi. Yakutskda da Universitet açıldı. Ulan-Ude, Abakan, Çita, Qızıl, Yeniseysk, Tomsk, Omsk, Barnaul, Tümen və Kemerovada ali təhsil müəssisələri vardır. Sibirdə yüzlərlə texnikum və orta ixtisas təhsili müəssisələri fəaliyyət göstərir.

Novosibirskdə dünya əhəmiyyətli ən iri elmi mərkəzin – SSRİ EA-nın Sibir bölməsinin yaradılması elmin inkişafı üçün böyük əhəmiyyətə malik idi. Çox qısa bir zamanda yerli kadrlarla əhəmiyyətli dərəcədə komplektləşdirilmiş elmi-tədqiqat müəssisələrinin geniş şəbəkəsi yaradıldı. Coğrafiya təmayüllü elmi müəssisələr arasında ən böyüyü İrkutskdakı Sibir və Uzaq Şərqin Coğrafiya institutu idi. Bundan başqa Listvyanka qəsəbəsində Limnoloji institut, Yakutskda Donuqluğu tədqiq edən institut, eləcə də Krasnoyarskda Meşə və ağac institutu vardır.

Sibirin türk xalqlarının mədəniyyəti, tarixi, dili və incəsənətini öyrənən humanitar profilli kompleks elmi müəssisələr meydana gəldi. Onlar Yakut, Xakas, Tuvalı, Altay və şorlarda etnik özünüdərkin inkişafına və milli mədəniyyətin yüksəlişinə fəal təsir göstərirlər.

Müxtəlif elmi cəmiyyətlər, yaradıcı ittifaqlar, idman birlikləri də Sibirin mədəni həyatında böyük rol oynayırlar. Burada kitab nəşri, bir qismi Sibirin köklü xalqlarının dilində nəşr olunan çoxsaylı qəzet və jurnalların çıxarılması işi yaxşı qoyulmuşdu. Milli məktəblər üçün dərsliklər çap olunur. Keçmiş Sovet İttifaqında ən böyük kitab anbarından biri olan Novosibirsk Dövlət Kütləvi elmi-texniki kitabxanasının yaradılması, nəinki böyük maarifçilik, həm də elmi rol oynadı. İri şəhərlərdə daimi teatrlar var. Bədii özfəaliyyət geniş vüsət alıb. Bütün şəhərlər və kənd əhalisinin yaşayış məntəqələri yaxşı klub, kinoteatr, stasionar və səyyar kitabxanalara malikdirlər. Böyük şəhərlərdə – televiziya mərkəzləri işləyir. Muzeylərin sayı artır.

Milli yazının yaradılması əsasında özünə xas milli ədəbiyyat meydana gəldi və inkişaf etdi. Ən yaxşı əsərlər müxtəlif dil-

lərə tərcümə olunur və xarici ölkələrdə nəşr edilir. Altay P.Kuçiyak, İ.Tantıyev və Q.Kokuyev, şor F.S.Çespiyakov və bir çox başqalarının yaradıcılığı yaxşı məlumdur. Müxtəlif dillərdə çoxlu ədəbi nəşrlər çıxır. Onların arasında, ölkədə çıxan ən qədim jurnallardan biri – «Sibir işıqları» ədəbiyyatın inkişafında mühüm rol oynayır.

Sibir xalqlarının musiqi sənətinin inkişafında da az müvəffəqiyyət qazanılmamışdır. İri və orta şəhərlərin əksəriyyətində dram, opera, musiqi teatrları, filarmoniyalar, xor, ansamblllar yaradıldı. Sibirin türk xalqlarının ana dilində də bədii özfəaliyyət inkişaf etdi. Çox sayda musiqi məktəbləri, Novosibirskdə isə ilk Sibir konservatoriyası yaradıldı.

Bütün iri vilayət və diyar şəhərlərində Şəkil qalereyası vardır. Qalereyalarda sovet və xarici rəssamların, qrafiklərin, heykəltəraşların əsərləri, o cümlədən yerli təsviri incəsənət ustalarının çox sayda maraqlı işləri saxlanır. XIX əsrdən mövcud olan Tobolsk sümükkəsmə emalatxanası özünün gözəl məmulatları ilə geniş şöhrət tapmışdır.

İndiyə qədər əhali arasında biserlə tikmə, xəz inkrustasiyası, ağac üzərində oyma, tikmə naxış, toz agacı qabığı üzərində naxış qaşıma, ağac üzərində naxış, xalçaçılıq kimi nadir sənət növləri qalmaqdadır. Yakutlar qabları, evdə işlədilən ağac əşyaları oyma ilə bəzəyirdilər. Metal üzərində zərbetmə xüsusi kişi peşəsi idi: ovçu kişilər yüyəni, yəhəri, bıçağın saplağını milli ornamentlə bəzəyirdilər. Yakutların qədim sənətlərindən biri də mamontun sümüyü üzərində oymadır. Təxminən bütün türk xalqlarının qadınları paltarı bəzəməklə məşğul olurdular.

XIX əsrin sonu – XX əsrin əvvəllərində Krımın yerli ziyalılarının maarifçilik fəaliyyəti genişləndi. Burada üçillik ibtidai məktəblər çoxluq təşkil edirdi. Krımda gimnaziya, realnı məktəblər, Ruhani seminariyası və Nəcib qızlar institutu açıldı.

Rusiya imperiyasının türk xalqları arasında çədidçilik hərəkatı ilk dəfə məhz Krımda meydana gəldi. Bəzi tədqiqatçılar «üsuli-saftiyə» hərəkatının ilk nümayəndələrindən biri kimi Əbdülkayyum Nasirinin (1824-1907) adını çəkirlər. Hərçənd Ümumrusiya miqyasında türk dünyasının islahatçısı və çədidçilik hərəkatının təşkilatçısı Krımın görkəmli ictimai-siyasi xadimi İsmayıl bəy Qasprah (Qasprinski, 1851-1914) idi.



O, Moskva hərbi akademiyasını bitirib Vyana, Münxen, Ştutqart və Parisdə olmuş, rus yazıçısı İ.Turgenevin yanında işləmişdi. İsmayıl bəy Fransada fransız dilini öyrənərək Avropa mədəniyyəti və cəmiyyəti ilə yaxından tanış oldu. Evə qayıdarkən o, İstanbulda dayandı və türk dilini öyrəndi. Məhz bu dövrdə İ.Qasprah türk xalqlarının milli həyatının tarixini tədqiq etməklə məşğul oldu. Onun «Səlname-i-türkü» əsəri Rusiyanın türk xalqlarının və ümumiyyətlə türk dünyasının sosial-mənəvi həyatı, dili, mədəniyyəti haqqında maraqlı məlumatlarla zəngindir.

İ.Qasprah türk dünyasının özünüdərkinin yaranmasında mühüm rol oynayıb. Onun Bağçasarayda nəşr olunan "Tərcüman" qəzeti "Dildə, əməldə və fikirdə birlik" devizi ilə çıxaraq, Rusiya imperiyasının bütün türk-müsəlman əhalisinin carçısına çevrildi. Qəzet ümumtürk və rus dillərində nəşr olunaraq Krımın hüdudlarından kənarda: Volqaboyu, Ural, Türküstan, Azərbaycan, Şimali Qafqaz və hətta İran, Çin və Hindistanda da populyar idi.

O, hələ gənc yaşlarında rus hökumətinin şovinist panslavizm siyasətinin türk xalqları üçün təhlükəli olduğunu başa düşərək, mürtəce polis rejimi şəraitində ümumtürk mədəniyyətinin inkişafı uğrunda mübarizə ilə kifayətlənirdi. Azərbaycan qəzetləri "İrşad", "İqbal" və "Dirilik" jurnalı onu "Böyük İsmayıl bəy" adlandırırdılar.

1905-ci ildə "Tərcüman" qəzeti maddi çətinliklərlə qarşılaşdıqda, böyük Azərbaycan mesenatı H.Z.Tağıyev ona yardım əlini uzatdı və o zamandan etibarən qəzet onun maliyyə dəstəyi ilə "Tərcümani-əhvali-zaman" adı altında çıxmağa başladı. Qəzetin hər sayında xüsusi başlıqlar altında müxtəlif türk xalqlarının mədəni və siyasi həyatı haqqında məlumat verən məqalələr dərc olunurdu. Qəzetin başlıca məqsədi ümumtürk dilinin yaradılması idi. Türk dünyasının ziyalılarının görkəmli nümayəndələrindən Yusif Akçura, Fuad Köprülü, Ziya Göyalp, Əhməd Həmdi Maksudi, Əhməd Muxtar Paşa, Zakir

və Şakir Rəmiyevlər, Rizaəddin Fəxrəddin Nərimanov, Firudin bəy Köçərli, Ələkbər Rəfibəyli, Nəriman Nərimanov, Həsən Səbri Eyvazov, İbrahim Fəhmi və b. "Tərcüman"ın səhifələrində öz məqalələrini dərc etdirirdilər. Onların hamısı öz məqalələrində türk xalqlarının dili, zəngin tarixi və mədəniyyəti məsələlərinə xüsusi diqqət yetirirdilər. Buna görə də bu qəzet Rusiyada türkçülük ideyasının formalaşmasında əvəzsiz rol oynadı.

2 may 1908-ci ildə "Tərcüman" qəzetinin 25 illik yubileyi ilə əlaqədar, nəinki Rusiya türkləri, eləcə də bütün Şərq xalqları arasında populyar olan "Molla Nəsrəddin" yumoristik jurnalı təbrik teleqramını göndərdi.

"Tərcüman" qəzeti ilə yanaşı, 1910-cu ilə qədər Bağçasarayda İ.Qaspralının qızı Şəfiqə xanımın rəhbərliyi ilə "Aləmi nisan" ("Qadın dünyası") jurnalı nəşr olunurdu. 1915-ci ilə qədər isə "Aləmi sübyan" ("Uşaq dünyası") və "Ha! Ha! Ha!" yumoristik jurnalı çıxırdı.

Krımda bu dövrdə tibbi-farmakoloji cəmiyyət və Rusiya bağçılıq cəmiyyətinin yerli bölməsi fəaliyyət göstərirdi. 1908-ci ildə Krımda astrofizika rəsədxanası açıldı, dəniz bioloji stansiyası yaradıldı.

1913-cü ildə Krımda cəmi 47 həkim çalışırdı. Bununla belə, Krımın Yalta, Alupka, Aluşta, Yevpatoriya, Sudak, Feodosiya və Kerçdəki sanatoriya və kurortları Rusiya imperiyasından kənarda və Sovet hakimiyyəti dövründə də məşhur idilər.

Krımda Sovet hakimiyyətinin qurulması Krım tatarlarının tarixində faciəli nəticələrə səbəb oldu. Krım öz milli dövlətçiliyinə - RSFSR-in tərkibində Krım Muxtar Sovet Sosialist Respublikasının (KMSSR) yaradılmasına nail olsa da, kollektivləşmə, qolçomaqlıqdan salınma və repressiyalar əhalinin əksəriyyətindən yan keçmədi. Krım tatarları hətta öz mədəniyyətini belə tam inkişaf etdirə bilmədilər. Onlar yalnız 20-30-cu illərdə ümumtəhsil məktəblərinin, texnikumların və ali məktəblərin şəbəkəsini genişləndirməyə başladılar, teatr, musiqi, idman məktəbləri, muzey və teatrlar açdılar. Ancaq Dövlət Müdafiə Komitəsinin 18 may 1944-cü il qərarı ilə Krım tatarlarının



Krımdan Mərkəzi Asiya və Urala deportasiya edilməsi bu prosesi dayandırdı. Krım tatarları özlərinin köklü-tarixi Vətənindən məhrum olaraq dövlətçiliyi, ağıl və istedadla qazandıqları sərvəti, tarixi abidələri, muzeyləri, məscidləri itirdilər. Xalq musiqisini, folkloru, ədəbiyyatı inkişaf etdirmək, ana dilində təhsil almaq imkanını uzun müddətə əldən verdilər. Ancaq onlar Vətənə qayıtmaq və dövlətçiliyi bərpa etmək uğrunda mübarizəni bir an belə dayandırmadılar.

Yalnız Xruşşovun "mülayimləşmə" və Qorbaçovun "yenidənqurma" dövrlərindən başlayaraq Krım tatarları, 1954-cü ildən Ukraynanın tərkibində olan Vətənə qayıtmaq imkanı əldə etdilər. Muxtar respublika bərpa olunsa da, lakin artıq milli deyil, Krım tatarlarının milli azlıq təşkil etdikləri Ukraynanın tərkibində ərazi qurumuna çevrildi. Bolqarıstan, Rumıniya, Almaniya, Kanada, ABŞ və Türkiyədəki xarici diaspora onlara böyük humanitar yardım göstərir. Sonuncu, dövlət səviyyəsində kömək edir. Türkiyənin ali təhsil ocaqlarında Krımtatar gəncləri təhsil alır, mütəxəssislər stajartırma keçir, kitab çap etdirirlər. Azərbaycan da onlara mütəxəssis hazırlamaqda yardım edir. Tibb universitetinin klinikalarında həkimlər staj keçirlər. Krımın özündə tatar məktəbləri və sinifləri açılır, Simferopol universitetində tatar dili və ədəbiyyatı fakültəsi var. Milli teatr və musiqi - folklor qrupu fəaliyyət göstərir, kitabxanalar yaradılır, qəzet və jurnallar nəşr olunur, milli təsviri incəsənət və məişət muzeyləri və sərgiləri açılır, məscidlər bərpa olunur və yeniləri tikilir.

Mədəniyyətin inkişafında televiziya da az rol oynamır. Kabel televiziyasının yaradılması və televiziya verilişlərinin süni peyk vasitəsilə ötürülməsi yalnız türk xalqlarının deyil, dünyanın digər xalqlarının inteqrasiyasına kömək edir. Beynəlxalq TÜPKSOY təşkilatının yaradılması, məhz bu məqsədi güdür. Bu təşkilatın əsası 6 iyun 1992-ci ildə İstanbulda keçirilən Türkdilli ölkələrin mədəniyyət nazirlərinin iclasında qoyuldu. TÜRKSOY adını isə o, 1992-ci ilin dekabr ayında Bakıda keçirilən yığıncaqda alıb. 12 iyul 1993-cü ildə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Türkiyə

TÜRKSOY-un yaradılması haqqında saziş imzaladılar. Sonradan Tatarıstan, Başqırdıstan, Tuva, Xakasiya və Şimali Kipr Türk Cümhuriyyəti də bu təşkilata daxil oldular. Təşkilatın baş müdirliyi Ankarada yerləşir. O, beynəlxalq təşkilat kimi tanınır və YUNESKO ilə bilavasitə əlaqələrə malikdir. TÜRKSOY təşkilatının mühüm vəzifəsi türk ölkələrinin mədəni əlaqələrinin möhkəmləndirilməsi; ümumtürk mənəvi dəyərlərinin, tarixi irsin, idmanın ənənəvi növlərinin təbliği, birgə televiziya və radioproqramların hazırlanması; sərgilərin təşkili; türk dünyasının tarixi şəxsiyyətlərinin yubileylərinin keçirilməsindən ibarətdir.

TÜRKSOY-un təşəbbüsü ilə 21-23 mart 1994-cü ildə Türkiyədə Novruz bayramı geniş qeyd olundu, mayın 27-28-də Kiprdə bütün türkdilli ölkələrin opera günləri keçirildi. Böyük Azərbaycan şairi Fizulinin YUNESKO-nun xətti ilə keçirilən 500 illik yubileyi bütün türk dünyasında təntənəli surətdə qeyd olundu.

29-30 iyun 1995-ci ildə TÜRKSOY təşkilatının Nazirlər Şurası "Manas" eposunun 1000 illiyinə həsr olunmuş beynəlxalq simpozium keçirtdi və avqustun 24-31-də Bişkekdə keçirilən yubiley təntənələrində fəal iştirak edərək nəfis şəkildə tərtib olunmuş "Manas" kitabını nəşr etdi. Avqustun 6-11-də böyük qazax şairi Abayın şərəfinə yubiley tədbirləri keçiriləndən sonra təşkilat "Abayın əsərlərinin külliyatı"nı çap etdirdi.

1996-ci il mayın 17-dən iyulun 3-nə qədər Ufada "TUQANLIQ" teatr sənətinin beynəlxalq festivalı keçirildi. 1999-cu ildə Bakıda dünya və türk ədəbiyyatının incisi olan "Kitabi Dədə Qorqud" eposunun 1300 illik yubileyi təntənə ilə qeyd olundu.



# NƏTİCƏ

Dünya inkişafının müasir mərhələsində beynəlxalq münasibətlər və geostrateji maraqların zərif torunun ön planında, türk dünyası ölkələrinin fəal rol oynadığı hiss olunan hadisələr baş verir.

80-ci illərin sonu - 90-cı illərin başlanğıcında dünya sosializm sisteminin dağılması, dünyanın siyasi səhnəsində müstəqil türk dövlətlərinin yaranması türk dünyasının canlanmasına səbəb oldu.

Türk xalqları zəngin mədəniyyətə və dövlətçilik təcrübəsinin qədim tarixinə malikdirlər. Bu gün onların sayı 250 mln. nəfər, yaşadıqları ərazi isə – 11 mln. kv-km-dir.

Böyük türk imperatorluqları Qərbi Roma imperiyası və Bizansın dağılmasına səbəb olmaqla Avropa dövlətlərinin yaradılmasında mühüm rol oynadılar. Məhz səlcuq türkləri səlibçilərin işğalçı yürüşlərini dayandırdılar və bununla da bütün islam və türk dünyasını xilas etdilər. Əmir Teymur və Səfəvi imperatorluqları, Xarəzmşahlar dövləti və Böyük Moğol imperatorluğu orta əsrlər dövrünün çox qüdrətli dövlətləri idi. Osmanlı imperatorluğu da həmçinin müsəlman dünyasının müxtəlif işğalçılardan müdafiəçisi kimi mühüm rol oynayıb.

Bizim zamanımızda türk dünyası ölkələri inkişaf səviyyəsinə görə bir-birindən fərqlənirlər. Hətta inkişaf etmiş sənaye və postsənaye cəmiyyətlərinin səviyyəsinə çatmış regionun daha çox inkişaf edən qabaqcıl ölkələrində belə ənənəvi cəmiyyətin, xüsusilə sosial və mənəvi sahədə bir çox cizgiləri saxlanmaqdadır. Eyni mədəniyyət modeli olan ölkələr belə, dinin cəmiyyətin həyatına təsiri dərəcəsindən asılı olaraq müxtəlif yollarla gedirlər.

Son 20 il ərzində islam dini praktiki olaraq bütün müsəlman türkdilli dövlətlərdə müstəqil siyasi qüvvəyə çevrilib və beynəlxalq meydanda daha çox gözə çarpan rol oynayır.

Kifayət qədər təcrid olunmuş və təkəbbürlü inkişafın yerini ağlasığmaz miqyasa malik sivilizasiyalararası və mədəniyyətlərarası əlaqələrin fəal mədəni dialoqu tutdu. Sürətini artırmaq-

da olan qloballaşma şəraitində sosiumun mühüm həyatını təşkil edən bu əlaqələr zəmanəmizin reallığı olaraq qalmaqdadır.

Bütün bunlar Şərq və Qərb cəmiyyətləri və mədəniyyətlərinin qarşılıqlı təsirini anlamağa, xarakteri, xüsusiyyətləri və nəticələrinin öyrənilməsinə öz möhürünü vurub. Qısa da olsa qeyd etmək lazımdır ki, ötən əsr ərzində Şərqlə Qərb arasında qarşılıqlı təsirin öyrənilməsi Avropanın "sivilizatorçu missiyası" barədə klassik mülahizədən türk xalqlarının "çoxölçülü", "mürəkkəb" və çoxvektorlu kimi tarix və mədəniyyətinin qavranılmasına qədər əlamətdar bir yol keçmişdir.

Sivilizasiyalararası qarşılıqlı təsir prosesləri kifayət qədər mürəkkəb, çoxplanlıdır və yüksək dərəcədə variativliyi ilə səciyyələnir, bütöv bir təsiredici amillər kompleksindən asılıdırlar. Onların arasında tarixi dövrün xarakteri, qarşılıqlı təsirin iştirakçılarının nail olduqları ictimai-tarixi inkişaf səviyyəsi və hərbi-siyasi qüdrəti, onların məqsəd və maraqları, təbii amilləri, sivillik xüsusiyyətlərini vurğulamaq lazımdır.

Ancaq bu regionun əhəmiyyəti barədə bütün aydınlığı ilə özünə hesabat vermək üçün, onun ətrafında yaranan şəraiti təhlil etmək və maraqlı tərəflərin məqsədlərini başa düşmək və bu ölkələrin tarixini bilmək zəruridir.

Tarixi bilmək, şəraiti anlamaq bir çox əsas məsələni həll etməyə və bu ölkələrdə yarana biləcək münaqişəli şəraiti aradan qaldırmağa imkan verir.

Bəşəriyyətin müasir inkişaf mərhələsində türk dünyası ölkələri dünyanın müxtəlif ölkələrinin siyasi mübarizə meydanına çevriliblər. Məhz burada bir çoxlarının maraqları kəsişir və ziddiyyət təşkil edir. Bu maraqlar yalnız dövlətinki deyil, həm də geoiqtisadi və konfessionaldırlar. Bu gün türk dünyası ölkələri regionları beynəlxalq münasibətlər sistemində strateji vəzifələrin səmərəli həlli üçün "qızıl açar" rolunu oynayırlar.



## QEYDLƏR

1. Ponton – üzən körpü.
2. Diadoxlar – Makedoniyalı İsgəndərin sərkərdələrini belə adlandırırdılar.
3. 1 libr = 150 qr qızıl.
4. Yarlık – Qızıl Orda xanlarının fərmanla əta etdikləri imtiyazlar.
5. Gəray – Krım tatarlarının hakim sülaləsi. Bir çox mənbələrdə "Girey" kimi işlədilir.
6. "Sərbedar" – məğlubedilməz mənasındadır (Sər-be-dar – "Qoy mənim başım dar ağacından asılsın" (farsca).
7. Dünya tarixində tez-tez hökmdar ailəsinin uşaqlarının dövlətlər arasında sülhün qarantı kimi girov verilməsi müşahidə olunur.
8. Eflak-Rumıniyanın ilk adı.
9. Kanton sistemi başqırdlardan ibarət nizamı olmayan hərbi hissənin təşkilini nəzərdə tuturdu.
10. Ottoman dövləti və Porta-Avropa mənbələrində Osmanlı imperatorluğunun tez-tez rast gəlinən adı.
11. 1914-cü ildə Tuvanın Rusiyaya birləşdirilməsindən sonra onu Uryanxay diyarı adlandırırdılar.




Kırım
Balkar
Karachai
Tatar
Bashki
Syrayz
Karakalpak
Kazak
Slor
Hakay
Tuun
Karagons
KYPCHACK
KYRGZ
Nagai
Kumik
Uygur
Altay
Özbek
Sakar
Gagauz
Türkmen
Azeri
Osman-Türk
OĞUZ
KYRK-UZ
Kalmak
Buryat
Jakut
Torgut
Derbet
Oirot
Karaim
TURAN
Chuvash
Evenki
Eren
Orok
Orokit
Nanai
Tunguz
Kef
Eskimos
JUNGAN
GUZ
Chukhu
Mamsy
Hanty
FIN
Karel
Mangu
Manjur
Korgaç
Saam
Valmurt
Mordova
Kore
Japon
Eston
Fin
Maggar
Marry
Moksha
Erzia
HUN

# BİBLİOQRAFİYA

## Azərbaycan dilində

Qüdrətov D. Türk xalqları tarixi. Bakı, 2000.

Mehdiyeva N. Türk xalqları tarixi. Yeni dövr (XIX-XX əsrin əvvəlləri). Dərslik, Bakı, 2003, 2010.

Məmmədli N. Mərkəzi Asiyanın türk dövlətləri və Türkiyə. Bakı, 2005.

Muxtarova Ə. Türk xalqları tarixi. Dərslik, Bakı, 1999-2010.

Muxtarova Ə. Türk xalqlarının dövlətçilik tarixi. Bakı, 2002.

Ruintən S. Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində. Bakı, 2005.

Süleymanova S.Y. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu – XX yüzilliyin əvvəlləri). Bakı, 1999.

## Rus dilində

Абдуллин Т. Татарская просветительская мысль. Казань, 1976.

Аграрная политика царизма в Сибири в эпоху капитализма. Омск, 1987.

Агаджанов С.Г. Очерки истории огузов и туркмен Средней Азии IX-XIII вв. Ашгабад, 1969.

Агаджанов С.Г. Восстание огузов 1153 года. Ашгабад, 1956.

Агзамходжаев А.А. Образование и развитие Узбекской ССР. Ташкент, 1971.

Айтбаев М.Т. Социально-экономические отношения в киргизском ауле в XIX – начале XX века. Фрунзе, 1962.

Айтмамбетов Д.О. Культура киргизского народа во второй половине XIX и начале XX века. Фрунзе, 1967.



Александров Ф.А. Борьба за власть Советов в Башкирии. Уфа, 1951.

Алтай в эпоху капитализма. Барнаул, 1986.

Аминов А.М. Экономическое развитие Средней Азии. Ташкент, 1959.

Аминов А.М., Бабаходжаев А.Х. Экономические и политические последствия присоединения Средней Азии к России. Ташкент, 1966.

Аннанепесов М. Участие солдатских масс в революции 1905-1907 годов в Туркестане. Ашхабад, 1966.

Антипин В.П. История Якутской АССР, т.3, М., 1963.

Асадов Ф.М. Арабские источники о тюрках в раннее средневековье. Баку, 1995.

Ахундов И.А. Неоколониализм и Турция. Баку, 1990.

Ахундова Н. Тюрки в системе государственного управления арабского халифата (VIII-сер.X вв.) Баку, 2004.

Багирова И.С. Политические партии и организации Азербайджана в начале XX века. Баку, 1997.

Байбулатов Б.Б. Социально-экономический строй Киргизии до Великой Октябрьской Социалистической Революции. Фрунзе, 1958.

Бартольд В.В. Туркестан в эпоху монгольского нашествия. Соч. т.I, М., 1963.

Бартольд В.В. История Туркестана. Ташкент, 1922.

Бартольд В.В. Очерки истории туркменского народа. Соч., т. II. ч.1., М., 1963.

Башкирия в революции 1905-1907 гг. Уфа, 1987.

Бейсембиев К. Из истории общественной мысли Казахстана второй половины XIX века. Алма-Ата, 1957.

Бекмаханов Е.Б. Очерки истории Казахстана. Алма-Ата, 1956.

Бекмаханова Н.Е. Многонациональное население Казахстана и Киргизии в эпоху капитализма (60-е годы XIX в. – 1917 г.). М., 1986.

Бичурин Н.Я. «Собрание сведений о народах обитавших в Средней Азии в древние времена». М.-Л., 1950, т.1.
Бобровников Н.А. Русско-туземные училища, мектебы и медресе Средней Азии. М., 1913.
Брайнин С., Шафиро Ш. Очерки по истории Алаш-Орды. Москва, 1935.
«100 великих дипломатов» Приск Панийский «Византийская история и деяния Атилы». Москва, 2002.
Ветошкин М.К. Революция 1905-1907 гг. в Сибири и на Дальнем Востоке, Чита, 1955.
Возникновение и деятельность социал-демократических организаций в Туркестане. Летопись событий (1903 – февраль 1917 гг.). Ч.I. Ташкент, 1971.
Вопросы истории дореволюционной Сибири. Томск, 1983.
Вопросы истории Казахстана и Восточного Туркестана. Алма-Ата, 1962.
Вопросы истории Татарии. Казань, 1962.
Вопросы истории Чувашии. Чебоксары, 1977.
Вопросы социально-экономической истории дореволюционного Казахстана. Алма-Ата, 1978.
Вопросы экономики и истории Чувашской АССР. Чебоксары, 1963.
Восстание 1916 года в Киргизстане. Документы и материалы. М., 1937.
Вопросы истории Башкирии. Уфа, 1972.
Вопросы истории Казахстана XIX - начала XX вв. Алма-Ата, 1961.
Вопросы истории Чувашии XIX – начала XX вв. Чебоксары, 1988.
Гасанов З.Г. «Царские скифы». Этноязыковая идентификация «царских скифов» и древних огузов. Нью-Йорк, 2002.
Геродот «История». Москва, 2000.



Гордиенко А.А. Создание Советской национальной государственности в Средней Азии. Москва, 1959.
Гордиенко А.А. Создание народно-советского государства и права и их революционно-преобразующая роль в Хорезме и Бухаре. Ташкент, 1959.
Греков Б.Д. Золотая Орда и ее падение. М., 1950.
Григорьевич Г.П. Из истории аграрных отношений дореволюционного Семиречья (XIX – XX вв.). М., 1962.
Григорьевич Г.П. Аграрные отношения на юге Казахстана в 1867-1914 гг. Алма-Ата, 1965.
Гумилев Л.Н. «Хунны. Средняя Азия в древние времена». Москва, 1968.
Гумилев Л.Н. «Тысячелетия вокруг Каспия». Баку, 1991.
Губенко Г.Н. Революционное движение в Таврической губернии в 1905-1907 гг. Симферополь, 1955.
Давлетов Дж. Туркменский аул в конце XIX – начале XX века. Ашхабад, 1977.
Дамешек М.И. Студенты в революционном движении. Томск, 1966.
Дамешек Л.М. Внутренняя политика царизма и народы Сибири (XIX – начале XX вв.). Иркутск, 1986.
Джамгерчинов Б.Д. Очерк политической истории Киргизии XIX века (первая половина). Фрунзе, 1966.
Джафаров Ю. «Гунны и Азербайджан». Баку, 1985.
Дулов В.И. Социально-экономическая история Тувы XIX – начала XX вв. М., 1956.
Дулов В.И., Кудрявцев Ф.А. Революционное движение в Восточной Сибири в 1905-1907 гг. Иркутск, 1955.
Житов К.Е. Победа Великой Октябрьской Социалистической революции в Узбекистане. Ташкент, 1957.
Житов К.Е. Февральская революция в Узбекистане. Ташкент, 1957.
Зальников Д.М. Крестьянство Сибири в эпоху капитализма. Новосибирск, 1982.

Зиманов С.З. Общественный строй казахов первой половины XIX в. Алма-Ата, 1958.
Зиманов С.З. Политический строй Казахстана в конце XVIII и первой половины XIX веков. Алма-Ата, 1960.
Из истории Башкирии. Уфа, 1982.
Из истории Средней Азии. Ташкент, 1965.
Из истории Татарии. Казань, 1970.
Из истории Советского Узбекистана. Сб.ст. Ташкент, 1956.
Измаилов И.Л. Волжская Булгария и монгольское нашествие. Казань,1988
Иноятов Х.Ш. Октябрьская революция в Узбекистане. Москва. 1958.
Искандаров Б.И. Восточная Бухара и Памир в период присоединения. Средней Азии к России. Душанбе, 1960.
Искандаров Б.И. Из истории Бухарского эмирата. М., 1958.
Исследования по истории Башкирии XVII-XIX вв. Уфа, 1973.
История Азербайджана. С древнейших времен до 70-х гг. XIX в. Баку, 2008.
«Исчезнувшие народы» Москва, 1989.
История Алтая. Учебное пособие. Ч.I. Барнаул, 1983.
История Казахской ССР. Алма-Ата, 1968.
История Киргизии. Фрунзе, 1963.
Кабытов П.С. Поволжская деревня накануне февральской буржуазной демократической революции. Куйбышев, 1977.
Каррыев А., Росляков А. Краткий очерк истории Туркменистана (1868-1917). Ашхабад, 1956.
Краткий очерк истории Туркменистана. Ашхабад, 1956.
Кричепский Арслан. Очерки русской политики на окраинах. Ч.I. Баку. 1919.
Крым революционный. Симферополь, 1968.



Крым: прошлое и настоящее. М., 1988.
Кузнецов И.Д. Крестьянство Чувашии в период капитализма. Чебоксары, 1963.
Культура, искусство татарского народа. Казань, 1993.
Кучера С. Монголы.Тибет при Чингизхане и его приемниках. Татаро-монголы в Азии и Европе. М., 1970.
Лившитса С. Казань в годы первой революции 1905-1907 гг. Казань, 1955.
Любимов В.И. Чувашия в годы Столыпинской аграрной политики. Чебоксары, 1948.
Максименко М.М. Крестьянское движение в Таврической губернии накануне и после отмены крепостного права. Симферополь, 1957.
Маликов Ф. Февральская буржуазно-демократическая революция в Казахстане. Алма-Ата, 1972.
Масанов Н.Э. Проблемы социально-экономической истории Казахстана на рубеже XVIII-XIX веков. Алма-Ата, 1984.
Международные отношения. М., 1988.
Миллер Г.Ф. История Сибири. М., 1991.
Мухамбердыков К.Б. Октябрь и воссоединение Каракалпакстана. Нукус, 1977.
Народы Средней Азии и Казахстана. Том 1-2. Москва, 1962-1963
Новичев А.Б. История Турции. М., 1963.
Николаев П.Н. Революционное движение в Чувашии в 1905-1907 гг. Чебоксары, 1956.
Погорельский И.В. Очерки экономической и политической истории Хивинского ханства конца XIX – начала XX вв. (1873-1917). Л., 1968.
Потапов Л.П. История Тувы. Т.I. М., 1964.
Пясковский А.В. Революция 1905-1907 годах в Туркестане, М., 1958.
Пясковский А.В. Восстание 1916 года в Средней Азии и Казахстане. М., 1960.

Рабинович Г.Х. Крупная буржуазия и монополистический капитал в экономике Сибири конца XIX начала XX вв. Томск, 1975.

Развитие культуры Татарии в дооктябрьский период. Казань, 1988.

Раимов Р.М. 1905 год в Башкирии. М.-Л., 1941.

Революционное движение в Казахстане в 1905-1907 годах. Алма-Ата, 1955.

Революция 1905-1907 гг. в Средней Азии и Казахстане. Ташкент, 1985.

Реформа 1861 г. на Алтае. Тюмень, 1972.

Рогозин Н.Е. Влияние сибирской железной дороги на экономическое развитие Сибири в начале XX в. Минск, 1953.

Савицкий А.П. Поземельный вопрос в Туркестане. (В проектах и законах 1867-1886 гг.). Ташкент, 1963.

Савокин А.М., Ханзаров К.Х. Рабочее движение и деятельность социал-демократических организаций в Туркестане. Ташкент, 1957.

Садыков А.С. Россия и Хива в конце XIX – начале XX века. Ташкент, 1972.

Садыков Х.Д. Политико-административное устройство Туркестанского генерал-губернаторства (1867-1917 гг.). Ташкент, 1973.

Саидкулов Т.С. Самарканд во второй половине XIX – начале XX веков. Самарканд, 1970.

Сапелькин А.А. К истории феодализма в Киргизии в конце XIX – начале XX вв. Фрунзе, 1968.

Сапаргалиев Г.С. Карательная политика царизма в Казахстане (1905-1917 гг.). Алма-Ата, 1966.

Сафаралиев М.Г. Распад Золотой Орды. 1960.

Сидоренко С.А. Февральская буржуазно-демократическая революция и начало перехода к революции социалистической в Сибири. Челябинск, 1970.



Сидоров П.А. Численность, состав и динамика населения Чувашии в капиталистический период. Чебоксары, 1963.

Скляров Л.Ф. Переселения и землеустройство в Сибири в годы столыпинской аграрной реформы. Л., 1962.

Скотова С.Г. Из истории Юго-Восточной Сибири. М., 1989.

Смыков Ю.И. Крестьяне Среднего Поволжья в борьбе за землю и волю 60-90-е годы XIX века. Казань, 1973.

Советский Союз. Казахстан. Москва, 1970.

Советский Союз. Киргизия. Москва, 1970.

Советский Союз. Российская Федерация. Западная Сибирь. Москва, 1971.

Советский Союз. Туркменистан. Москва, 1969.

Соловьев Е.И. Крестьянская промышленность Сибири во второй половине XIX в. Новосибирск, 1975.

Социально-экономические отношения в городе и деревне Казахстана. Алма-Ата, 1988.

Страницы истории Башкирии. Уфа, 1974.

Сулейманов Б.С. Аграрный вопрос в Казахстане последней трети XIX – начала XX в. (1867-1907 гг.). Алма-Ата, 1963.

Сулейманов Б.С. Восстание 1916 года в Казахстане. Алма-Ата, 1977.

Сулейманов Б.С. Аграрный вопрос в Казахстане последней трети XIX – начала XX в. (1867-1907 гг.). Алма-Ата, 1963.

Сулейманов Б.С. Казахстан в составе России в XVII – начале XX века. Алма-Ата, 1981.

Сухарева О.А. Бухара XIX – начала XX в. М., 1966.

Токарев С.А. Очерк истории якутского народа. М., 1940.

Троицкая А.Л. Материалы по истории кокандского ханства XIX в. М., 1969.

Турецкая Республика (справочник). Москва, 1975.

Турсунбаев А.Б. Из истории крестьянского переселения в Казахстан. Алма-Ата, 1950.

Турсунов Х.Т. Восстание 1916 года в Средней Азии и Казахстане. Ташкент, 1962.

Убайдуллаев С. Революционное движение народов Средней Азии в период реакции 1907-1910 гг. Ташкент, 1967.

Усунбаев К.У. Присоединение Южной Киргизии к России. Фрунзе, 1960.

Усунбаев К.У. Общественно-экономические отношения киргизов (вторая половина XIX – начало XX в.). Фрунзе, 1980.

Усманов А.Н. Присоединение Башкирии к русскому народу. Уфа, 1960.

Усманов Х.Ф. Развитие капитализма в сельском хозяйстве Башкирии в пореформенный период 60-90-е годы XIX в. М.,1981.

Усманов Х.Ф. Столыпинская аграрная реформа в Башкирии. Уфа, 1958.

Устюжанин Е.И. Из истории Татарии. Казань,1968

Участие солдатских масс в революции 1905-1907 годов в Туркменистане. Ашхабад, 1966.

Фаруддинов Р.Г. «Очерки по истории Волжской Булгарии». Москва, 1984

Фасеев К.В. Из истории татарской передовой общественной мысли. Казань, 1955.

Фирсова П.Н. Казань в 1905 году. Казань, 1963.

Халиков А.Х. История Казани. Казань, 1988.

Халфин Н.А. Политика России в Средней Азии (1857-1868). М., 1960.

Халфин Н.А. Присоединение Средней Азии к России. М., 1965.

Хасанов Х.Х. Революция 1905-1907 гг. в Татарии. М., 1965.



Экономическая политика царизма в Сибири в XIX – начале XX века. Иркутск, 1984.

Якубовский А.Я., Большаков О.Г. «Народы Средней Азии под властью халифата». Очерки истории СССР (III-IX вв). Москва, 1958.

Якубовский А.Я., Большаков О.Г. «Борьба народов Средней Азии против арабского завоевания». Очерки истории СССР (III-IX вв). Москва, 1958

http/www.svobodanews.ru/content/article/368348.

http/www.igpi.ru/otherarticl/1114194129.html#ixzzoad5oskiz

htpp://gumilevica.kulichki.net/maps/ot2.gif

www.centrasia.ru/news.phps.

www.turtsia.ru/…/politicheskie deyately

www.rb.ru/inform/47957.html

**Türk dilində**

Strabon. Geographika. Kitab: XII, XIII. XIV İstanbul, 2009.

Zeki Velidi Toqan. Ümumi türk tarixinə giriş. C.I, En eski devirlerden 16, asra kadar, İstanbul, 1981.

**SEVDA SÜLEYMANOVA**
**TÜRK XALQLARI TARİXİ**
**(ən qədim zamanlardan bu günümüzədək)**